بسم الله الرحمن الرحيم

# FİQH RİSALƏSİ

**Mərcəi təqlid Ayətullah Üzma Seyid Əli Hüseyni Xameneinin fətvalarına əsasən**


***Bütün Gürcüstan Müsəlmanları İdarəsi***

***İran İslam Respublikasının Gürcüstandakı Səfirliyinin Mədəniyyət Mərkəzi***

***"İman" mədəni, maarif müəssisəsi***

**Tbilisi 2022**

FİQH RİSALƏSİ kitabı

*Şəriət hökmləri Mərcəi təqlid Ayətullah Üzma Seyid Əli Hüseyni Xameneinin fətvaları əsasında hazırlanmışdır*


Hazırlayan:
*İslamşünas  Seyid Talib Zəki*

Tərcümə edən:
*İslamşünas Eldar Əlihüseynzadə*

Elmi nəzarətçi:
*İlahiyyatçı Əkbər Fəllahnəjad*

Elmi müşahidəçi:
*Höccətül-islam Məhəmmədbaqir Saivər*

Redaktor:
*Dr.Tofiq Əsədov*

Texniki redaktor:
*Elvin Bayramov, Namiq Hüseynov*

Tərtibatçı:
*Nəqi Cəlil Xoca*



*© "İman" Mədəni, Maarif Müəssisəsi 2022*

# MÜQƏDDİMƏ

Sonsuz qüdrəti ilə varlıq aləmini yaradan, öz əzəli elmi ilə aləmə varlıq bəxş etməklə hikməti sayəsində hər kəsi məxsus yola yönəldən və eşq odunu onun vücudunda alovlandıran Allaha həmd və şükürlər olsun.

Varlıq gövhəri Həzrət Məhəmməd Mustəfaya (s) və ilahi vəhy xəzinəsinin əmanətdarları olan onun pak Əhli-beytinə (ə) sonsuz salamlar olsun. İnsanların səadətə nail olması naminə din yolunda çalışmaqla ilahi hökmləri onun pak və zülal çeşmələrindən çıxaran, insanları (İslam şəriəti əsasında qurulan yaşayış tərzi) qanun-qaydaları hesab olunan şəri vəzifələri ilə tanış edən alimlərə və fəqihlərə çoxlu salamlar olsun.

Bu risalə dünya şiələrinin görkəmli və dahi mərcəyi təqlidi Cənab Ayətullah Üzma Hacı Seyid Əli Xameneinin (Allah onun ömrünü artırsın) fətvaları əsasına tənzim edilmiş şəri hökmlər toplusudur.

Onun fiqhi fətvaları əvvəlcə "Əcvibətul-istiftaat", yəni "Suallara cavablar" risaləsində çap və nəşr olunub. Bu risalə o cənabın fətvalarına, eləcə də müxtəlif fiqhi bölümlərdə müqəllidlərinin suallarına verdiyi cavablara aiddir. Bu risalə əvvəlcə ərəb, sonra isə fars dilinə çevrilərək nəşr edilib.

Hicri-şəmsi tarixiylə 1382-ci ildə mərhum Höccətül-İslam Müşfiqipurun zəhmət və səyi nəticəsində "Əcvibətul-istiftaat" risaləsindən, həmçinin digər suallara verdiyi cavablar toplusundan istifadə edilərək o cənabın fətvaları ilə müvafiq "Risaleyi amuzeşi", yəni "Dərslik risaləsi"nin birinci cildi (ibadət bölməsi) xüsusi nəzmdə dərslik məqsədiylə tənzim və nəşr edildi. O risalə "Əmin" incəsənət və mədəniyyət müəssisəsi vasitəsi ilə çap edildi. Sonra həmin müəssisə vasitəsilə bir qrup alim yoldaşların səyi nəticəsində o risalənin ikinci cildi (Müamilat bölməsi) hazırlanıb nəşr edildi.

Baxmayaraq ki, "Dərslik risaləsi" fiqhi hökmləri öyrənmək və yaymaq üçün səmərəli bir addım idi, lakin bununla belə qarşınızda olan risalənin hədəflərini təmin etmirdi. Çünki xüsusi hədəf və məqsədlə hazırlanıb tənzimlənmişdi. Elə buna görə də bu risalə "Müntəxəbul-məsailə", yəni "Seçilmiş məsələlərə" risaləsi kimi nömrələrlə sadalanmış məsələlər çərçivəsində yığılıb.

“Seçilmiş məsələlər” risaləsinin tərtibatında istifadə olunmuş mənbələr aşağıdakılardır:

**1- Əhkame amuzeşi,** birinci cild (ibadət bölümü), dünya şiələrinin görkəmli dahi mərcəyi təqlidi Həzrət Ayətullah Üzma Xamenei. Tərtib və tənzim: Mərhum Höccətül-İslam Müşfiqipur, beşinci çap, ”Bərg” mədəniyyət müəssisəsinin sifarişi ilə, qış 1388 h.ş.

**2- Risaleye amuzeşi,** ikinci cild (müamilat bölməsi), Həzrət Ayətullah Üzma Xameneinin fətvaları əsasında. Tərtib və tənzim: Yazıçılar Şurası vasitəsilə, birinci çap, ”Əmin” incəsənət və mədəniyyət müəssisəsinin sifarişi ilə, yaz 1392 h.ş.

**3- Yeni suallara cavablar,** o cənabın fətvaları əsasında. Bu fətvalar o cənabın idarəsindən alınıb.

Bu risalənin tənzimi və hazırlanması bütün səy, diqqət və çalışmaqla belə, mümkündür qüsursuz olmasın. Ona görə də alim və möminlərin bu risalənin qüsurlarını aradan qaldırmaq üçün bildirdikləri səmimi və islahyönlü təklif, fikir və iradlarını səmimiyyətlə dəstəkləyirik.

Həzrət Ayətullah Üzma Xameneinin idarəsinə, bu risaləni o cənabın fiqhi fətva və nəzərləri ilə ölçmə və tətbiqetmələri, eləcə də onun yeni fətvalarını bizim ixtiyarımızda qoyduqları üçün təşəkkür edirik.

Höccətül-İslam Zəki cənablarına da bu risalənin hazırlanmasında çəkdikləri zəhmətə görə minnətdarıq.

Ümidvarıq Allah-təala hamımıza İslam hökmlərinə əməl etməkdə və məsum öndərlərə tabe olmaqda yardımçı olsun. Din alimlərinə, xüsusilə mərcəyi təqlidlərə, ələlxüsus Həzrət Ayətullah Üzma Xameneiyə izzətli uzun ömür nəsib etsin.

“Mərifət” nəşriyyatı, Kabul

Şəbanul-müəzzəmin iyirmi ikisi 1435-ili, h.q

1393-cü il, h.ş

# TƏQLİDİN HÖKMLƏRİ

**Məsələ-1.** Mükəlləf gərək yerinə yetirilməsi ona bağlı olan məsələləri, gündəlik şəri vəzifələrini öyrənsin. Məsələn, namaz, oruc, təharət və müamilatın[1] bəzi məsələləri və s. bu qəbildəndir. Əgər bu hökmləri öyrənməmək səbəbiylə hər hansı bir vacibi tərk edərsə, yaxud hər hansı bir harama düşərsə, günahkar olacaq.

**Məsələ-2.** Təklif şərtlərinə malik olan şəxsə mükəlləf deyilir.

**Məsələ-3.** Təklifin şərtləri:

1-Həddi-büluğa yetişmək (yetkinlik həddinə çatmaq);
2-Əql (ağıl);
3-Qüdrət.

**Məsələ-4.** Aşağıda göstərilən əlamətlərdən hər biri həddi-büluğun əlamətidir:
1-Övrətin yuxarı hissəsində qalın tüklərin bitməsi;
2-Möhtəlim olmaq (spermanın xaric olması);
3-Hicri-qəməri tarixi ilə oğlanlarda on beş, qızlarda isə doqquz yaşın tamam olması.

**Məsələ-5.** Həddi-büluğ əlamətlərindən biri bir şəxsdə müşahidə olunmayınca şəri baxımdan onun həddi-büluğ olmağına hökm olunmur və şəri hökmləri yerinə yetirmək ona vacib deyil,[2]

**Məsələ-6.** Həddi-büluğ yaşından qabaq qarın altında (övrətin üst nahiyəsində) qalın tüklərin bitməsi, yaxud möhtəlim olmasına (spermanın xaric olmasına) ehtimal vermək, həddi-büluğ olmasına hökm etmək üçün kifayət deyil.

---

[1] Müamilat, yəni müqavilələr, əqdlər. Ticarət, icarə, müşarikət (şəriklik), nikah bu qisimdəndir. Bəzən də ümumi mənada ibadət bölməsinin müqabilində işlədilir və qəsdi-qürbətə ehtiyacı olmayan bütün əməllərə aid edilir. (Mütərcim).

[2] Beləliklə, o, əlamətlərin hər biri onun həddi-büluğ olmağına dəlalət edir və qeyd olunan üç əlamətin hər hansı biri o şəxsin həddi-büluğ olmağını göstərir. (Mütərcim).

**Məsələ-7.** Qızın doqquz yaşından qabaq qan görməsi şəri həddi-büluğ əlaməti deyil.

**Məsələ-8.** Həddi-büluğ yaşı hicri-qəməri tarixi ilə hesablanmalıdır. Bunu hicri-şəmsi (yaxud miladi) tarixi ilə hesablamaq üçün qəməri (ay) və şəmsi (günəş) tarixi arasında olan fərqi əldə etmək lazımdır ki, hər bir ay ili (qəməri) 10 gün 21 saat 17 saniyə günəş (şəmsi) ilindən azdır.

## Əhkamı əldə etməyin yolları

**Məsələ-9**. Mükəlləf dini hökmləri üç yolla əldə edib ona əməl edə bilər:

### 1. İctihad

İctihad: Şəri hökmlər və ilahi qanunların İslam fəqihləri yanında sabit olmuş etibarlı mənbələrdən çıxarışı.

### 2. Ehtiyat

Ehtiyat: Şəri hökmləri yerinə yetirməkdə elə əməl edə ki, öz şəri vəzifəsini yerinə yetirməyinə xatircəm olsun. Məsələn, bir sıra müctəhidlərin haram bildiyi, digər müctəhidlərin haram bilmədiyi işləri yerinə yetirməsin. Həmçinin bəzi müctəhidlərin vacib bildiyi, digərlərinin vacib bilmədiyi əməli yerinə yetirsin.

### 3. Təqlid

Təqlid - dini hökmlərdə cameüş-şərait müctəhidə (yəni təqlid etmək üçün lazımi şərtlərə malik olan müctəhidə, başqa sözlə mərceyi təqlidlik səlahiyyətlərinə malik olan fəqihə) müraciət etməkdən ibarətdir. Başqa sözlə desək, dini hökmləri onun fətvası və rəyi əsasında yerinə yetirməkdir.

**Məsələ-10.** Ləfzi dəlillərdən (Quran və hədislərdən) əlavə, əql də hökm edir ki, dini hökmlərə agah olmayan şəxs təqlid məsələsində cameüş-şərait müctəhidə müraciət etsin.

**Məsələ-11.** Dini hökmlərdə müctəhid olmayan mükəlləf ya (cameüş-şərait) müctəhidə təqlid, ya da ehtiyata əməl etməlidir.

**Məsələ-12.** Ehtiyata əməl etmək onun yerləri, keyfiyyəti və çox vaxt sərf olunmasına səbəb olduğu üçün daha yaxşıdır ki, mükəlləf dini hökmlərdə cameüş-şərait müctəhidə təqlid etsin.

**Məsələ-13.** Üç şərtlə təqlid insana vacib olur:
1- Mükəlləf olsun,
2- Müctəhid olmasın,
3- Möhtat olmasın (ehtiyata əməl etməsin).

## TƏQLİDİN QİSİMLƏRİ

**Məsələ-14.** Meyitə təqlid etmək iki qisimdir:

**1. İbtidai təqlid:** Müctəhid sağ ikən ona təqlid etmədən öləndən sonra birbaşa təqlid etmək nəzərdə tutulur ki, belə bir təqlid (vacib) ehtiyata əsasən, caiz deyil.

**2. Bəqai təqlid:** Həyatda ikən ona təqlid etdiyi müctəhidin təqlidində öləndən sonra qalmaq və ona təqlid etməyə davam etmək. Bu müqəllid (təqlid edən şəxs) o müctəhidin bütün məsələlərdə verdiyi nəzərlərə, hətta o vaxta qədər əməl etmədiyi məsələlərdə də ona təqlid edə bilər.

**Məsələ-15.** Bəqai təqliddə dünyasını dəyişmiş müctəhidin ələm olub-olmaması fərq etmir. Hər halda ona təqlid etmək caizdir. Amma yaxşı olar ki, ələm müctəhidin təqlidində qalmaqda ehtiyat tərk edilməsin."[1]

**Məsələ-16.** Meyitə ibtidai təqlid etmək, yaxud onun təqlidində qalmaq, həmçinin onun hədləri"[2] gərək diri və vacib ehtiyata əsasən,

---

[1] Yəni ehtiyat müstəhəb budur ki, dünyasını dəyişmiş müctəhid ələm olduğu təqdirdə onun təqlidində qalsın. (Mütərcim.)

[2] Hədlərdə məqsəd hansı məsələlərdə meyitə təqlid etməsidir. Çünki bu barədə də nəzərlər müxtəlifdir, bəziləri təkcə həyatda ikən əməl etdikləri məsələlərdə təqlid etməyi caiz bilir, bəziləri isə (Ayətullah Üzma Xamenei kimi) mütləq şəkildə bütün məsələlərdə təqlid etməyi caiz bilir. Həmçinin digər nəzərlər də mövcuddur.(Mütərcim)

ələm müctəhidə təqlid etmək yolu ilə olsun."[1] Xatırladaq ki, meyitin təqlidində qalmağın caiz olması həmin zamanın müctəhidlərinin hamısının həmrəy nəzəridirsə, ələmdən icazə almağa ehtiyac yoxdur.

**Məsələ-17.** Həddi-büluğ olmadıqları zaman səhih şəkildə cameüş-şərait müctəhidə təqlid edən şəxslər o müctehid dünyadan getdikdən sonra da onun təqlidində qala bilərlər.

**Məsələ-18.** Əgər bir şəxs bir müctəhidə təqlid etsə, o vəfat etdikdən sonra bəzi məsələlərdə başqa müctəhidə təqlid edə bilər. O müctəhid də dünyasını dəyişsə, müqəllid (birinci müctəhiddən) üdul etmədiyi məsələlərdə (yəni ikinci müctəhidə təqlid etdiyi məsələləri istisna etməklə qalan məsələlərdə) birinci müctəhidin təqlidində qala bilər. Həmçinin üdul etdiyi məsələlərdə (yəni ikinci müctəhidə təqlid etdiyi məsələlərdə), ya ikinci müctəhidin təqlidində qalmaqda, yaxud da diri müctəhidə üdul etməkda ixtiyar sahibidir.

## Təqlidsiz əməllərin hökmləri

**Məsələ-19.** Təqlid etməyən və təqlidi səhih olmayan şəxslərin əməlləri üç halda səhihdir:
1- Ehtiyata uyğun olarsa;
2- Həqiqətlə uyğun olarsa;
3- O müctəhidin nəzəri ilə uyğun ola ki, ona təqlid etmək[2] həmin şəxslərin vəzifəsidir.

---

[1] Məqsəd budur ki, əgər mükəlləf dünyasını dəyişmiş müctəhidə ibtidai təqlid etmək istəyir və ya təqlid etdiyi müctəhid öldükdən sonra onun təqlidində qalmaq istəyirsə, gərək əvvəlcə ələm bir diri müctəhidə təqlid etsin və onun nəzərini bu barədə öyrənsin. O müctəhid icazə verərsə, təqlid edə bilər. Məsələn, bu şəxs əgər müctəhidi vəfat etdikdən sonra və ya birbaşa Ayətullah Üzma Xameneiyə təqlid edərsə, o cənabın nəzəri bu risalədə on beşinci məsələyə əsasən bəqai təqlidin caiz olması və ibtidai təqlidin caiz olmamasıdır. (Mütərcim).

[2] Hal-hazırda ona təqlid etmək onların vəzifəsidir. "Əcvibətül-istiftaat", Ayətullah Üzma Xamenei. (Mütərcim)

## Mərcəi-təqlidin şərtləri

**Məsələ-20.** Yalnız aşağıdakı şərtlərə malik olan şəxsə təqlid etmək olar:
**Birinci şərt:** Kişi olsun.
**İkinci şərt:** Baliğ olsun (həddi-büluğa çatsın).
**Üçüncü şərt:** Aqil olsun.
**Dördüncü şərt:** On iki İmamı qəbul edən şiə olsun.
**Beşinci şərt:** Halalzadə olsun.
**Altıncı şərt:** (Vacib) ehtiyata əsasən, diri olsun.
**Yeddinci şərt:** Adil (ədalətli) olsun.

**Məsələ-21.** Ədalət, vacibləri tərk etməyin və haramlara mürtəkib olmağın qarşısını ala biləcək təqvaya səbəb olan nəfsani halətdir.

**Məsələ-22.** Ədalətli şəxsə adil deyilir. Başqa sözlə, adil o şəxsdir ki, onun pəhrizkarlığı və təqvası bilərəkdən günaha mürtəkib olmayacaq həddədir (yəni bilərəkdən vacibi tərk etmir və haram iş görmür).

**Məsələ-23.** Ədaləti sübuta yetirmək və əldə etmək üçün hüsn zahir (zahiri yaxşılıq) kifayətdir.

**Səkkizinci şərt:** Fətva verməkdə mərcəiyyət mənsəbi (məqamı) böyük əhəmiyyətə malik olduğu üçün vacib ehtiyata əsasən, öz nəfsinə qalib gəlməli və dünyaya həris olmamalıdır.

**Doqquzuncu şərt:** Müctəhid olsun.

**Məsələ-24.** İctihad iki qisimdir:

1. **Mütləq ictihad** - o ictihada deyilir ki, sahibi fiqhin bütün bölümlərində fətva və nəzər verməyə qadir olsun, Bu ictihadın sahibinə "müctəhidi-mütləq" deyilir.

2. **Mütəcəzzi ictihad** - o ictihada deyilir ki, sahibi fiqhi bölümlərin bəzilərində (namaz və oruc kimi) fətva və nəzər vermək qüdrətinə malik olsun. Bu ictihadın sahibi "müctəhidi mütəcəzzi" adlanır.

**Məsələ-25.** Müctəhidi-mütləqin öz fətvaları özünə höccətdir (yəni gərək öz fətvalarına əməl etsin və digər müctəhidə təqlid edə bilməz), başqaları da ona təqlid edə bilər. Həmçinin müctəhidi-mütəcəzzinin fətvaları onun özünə höccətdir, başqaları da ona təqlid edə bilər. Lakin müstəhəb ehtiyata əsasən, müctəhidi mütəcəzziyə təqlid edilməsin.

**Onuncu şərt:** Vacib ehtiyata əsasən, ələm olsun.

**Məsələ-26.** Ələm o şəxsdir ki, dini hökmləri istinbat (istixrac) etməkdə başqa müctəhidlərdən qüdrətli olsun. Başqa sözlə desək, ilahi hökmləri tanımaqda və ələ gətirməkdə digər mərcəi-təqlidlərdən daha da qüdrətli olsun, şəri hökmləri onun dəlillərindən daha dəqiq çıxara bilsin. Həmçinin dini mövzuları təyin etməkdə və fətva verməkdə təsirli olan öz zamanının vəziyyətindən başqa müctəhidlərdən daha agah olsun.

**Məsələ-27.** Ələmə təqlid etməyin vacib olmasının dəlili binayi üqəla (dünya aqillərinin rəftarı) və əqlin hökmüdür.

**Məsələ-28.** Ələmə təqlid etməyin vacib ehtiyata əsasən vacib olması o məsələlərdədir ki, ələm müctəhidin fətvası qeyri-ələm müctəhidin fətvası ilə ixtilaflı olsun.

**Məsələ-29.** Vacib ehtiyata əsasən, ixtilaflı məsələlərdə ələm müctəhiddə lazım olan şərtlərin olmamasına ehtimal verilsə, qeyri-ələmə təqlid etmək olmaz.

**Məsələ-30.** Cameüş-şərait müctəhidə təqlid etməyin səhih olmasında onun mərcəi təqlidlik mənsəbini öhdəsinə alması, yaxud əməli risaləsinin olması şərt deyil. Buna görə də, əgər mükəlləfə mərcəi təqlidlik mənsəbini öhdəsinə almayan və əməli risaləsi olmayan bir

kəsin cameüş-şərait müctəhid olması məlum olsa, ona təqlid edə bilər."[1]

**Məsələ-31.** Cameüş-şərait müctəhidə təqlid etmək üçün müctəhidin mükəlləfin ölkəsindən olmağı, yaxud onun yaşadığı yerdə yaşaması şərt deyil.

**Məsələ-32.** Ata-analara təzə təklif yaşına (həddi-büluğa) çatmış övladlarına onlara təqlid məsələsini dərk etmək çətin olduğu üçün və öz şəri vəzifələrini təklikdə əldə edə bilmədikləri üçün mərcəi təqlid seçməkdə kömək edib bu yolda onlara yardım göstərmək bir vəzifədir.

**Təqliddə təbiz (təqlidi bölmək)** [2]

**Məsələ-33.** Müqəllid şəri hökmlərin hər bir qismində həmin sahədə daha çox məharəti (yəni ələm) olan müctəhidə təqlid edə bilər. Məsələn, ibadət bölməsində bir, müamilat bölməsində isə başqa, yaxud fərdi hökmlərdə bir, ictimai, iqtisadi və siyasi hökmlərdə digərinə təqlid edə bilər. Hətta əgər bir müctəhid müəyyən bir bölümdə, digəri isə başqa bir bölümdə ələm olarsa, ixtilaflı məsələlərdə təbiz (yəni hər bölümdə ələm olan müctəhidə təqlid etmək) (vacib) ehtiyata əsasən, vacib olacaqdır.

## Cameüş-şərait [3] müctəhidi tanımağın yolları

**Məsələ-34.** Cameüş-şərait müctəhidi iki yolla tanımaq olar:

1. Xatircəmlik: Bu xatircəmlik istər camaat arasında onun cameüş-şəraitliyinin məşhur olması nəticəsində, istərsə də şəxsi təcrübə yolu ilə və yaxud başqa yollarla olsa kifayətdir.

---

[1] Məlumdur ki, əgər digərlərindən ələm olması da məlum olarsa (müsavi olmazsa), ona təqlid etməsi ehtiyata əsasən vacib olacaq. Bu məsələ qeyd olunan iki şərtin mərcəi-təqliddə olmamasını bildirmək istəyir. (Mütərcim)

[2] Təqliddə təbiz deyəndə təqlidi bölmək və əhkamın hər bir qismində o qisimdə ələm olan müctəhidə təqlid etmək nəzərdə tutulur.

[3] Cameüş-şərait müctəhid, yəni təqlid etmək üçün lazımı şərtlərə malik olan müctəhidə, başqa sözlə mərceyi-təqlidlik səlahiyyətlərinə malik olan fəqihə deyilir.(Mütərcim)

2. Cameüş-şərait müctəhidi tanımaqda elmi bacarığı olan iki adil şəxsin (hərçənd onların şəhadətindən xatircəmlik hasil olmasa belə) şəhadəti.

**Məsələ-35.** Əgər bir müctəhidin cameüş-şərait olmasına şəri "bəyyinə"[1] (iki elmi bacarığı olan adilin şəhadəti kimi) gətirilsə, əleyhinə başqa bir şəri "bəyyinə" gətirilməyincə həmin "bəyyinə" hətta ondan yəqin, yaxud xatircəmlik hasil olmasa belə höccətdir və ona etimad olunmalıdır. Bu halda onun əleyhinə olan bəyyinənin olub-olmaması barədə axtarış lazım deyil.

## Müctəhidin fətvasını əldə etməyin yolları

**Məsələ-36.** Müctəhidin fətvası bir neçə yolla əldə edilə bilər:

1. Müctəhidin özündən eşitməklə.
2. İki, yaxud bir adil şəxsdən eşitməklə.
3. İnanılmış bir nəfərdən eşitməklə.
4. Müctəhidin etibarlı sayılan risaləsində görməklə.

**Məsələ-37.** Müctəhidin fətvalarını çatdırmaq və şəri hökmləri bəyan etmək üçün müctəhidin icazəsi lazım deyil. Amma əgər hər hansı bir şəxs fətva deməkdə və şəri hökmləri bəyan etməkdə səhv və xətaya düçar olursa, bu işi öhdəsinə almamalıdır. Bir məsələni və fətvanı səhv dedikdə, öz səhvini bildikdə eşidənləri bu səhvdən agah etməsi vacibdir. Ümumiyyətlə, fətvanı eşidənlər səhihliyinə əmin olmayınca ona əməl edə bilməzlər.

---

[1] Fiqhi terminologiyada (ən azı) iki adil şəxsin şəhadət verməsinə "bəyyinə" deyilir. (Mütərcim)

## Üdulun [1] hökmləri

**Məsələ-38.** Aşağıdakı yerlərdə qeyri-ələmə üdul etmək caizdir:
1. Ələm müctəhidin fətvası olmayan məsələlərdə,[2] belə ki, o məsələlərdə qeyri-ələm müctəhid ehtiyat deyil, aşkar fətva vermiş olsun. (Əlbəttə, belə hallarda ələm müctəhidlərin mərtəbə və dərəcələri vacib ehtiyata əsasən, riayət olunmalıdır. Yəni onun müctəhidi bir məsələdə fətva verməsə, elmi baxımdan ondan aşağı dərəcədə olan qeyri-ələmə müraciət edə bilər, onu qoyub elmi baxımdan üçüncü dərəcədə olana müraciət edə bilməz. Əgər onun da bu məsələdə fətvası olmasa, o zaman üçüncü dərəcəyə müraciət edə bilər və s.)

2. Qeyri-ələm müctəhidin fətvası ələm müctəhidin fətvası ilə zidd olmayan məsələlərdə;

3. Ələm müctəhidin fətvası ehtiyatla müxalif, amma qeyri-ələmin fətvası müvafiq olan məsələlərdə.[3]

## Üdul caiz olmayan yerlər

**Məsələ-39.** Aşağıda qeyd olunan yerlərdə üdul caiz deyil (olmaz):

1. Vacib ehtiyata əsasən, diri müctəhiddən başqa bir müctəhidə üdul etmək caiz deyil. Amma əgər mərcəi-təqlidlik şərtlərindən bəziləri onda olmasa, məsələn, başqa müctəhid ondan ələm olsa, bu halda fətvaları ixtilaflı olan məsələlərdə (vacib ehtiyata əsasən) ələm müctəhidə üdul etmək vacibdir.

2. Müctəhidi vəfat etdikdən sonra diri müctəhidə üdul edərsə, artıq üdul etdiyi məsələlərdə yenidən vəfat etmiş müctəhidinə üdul edə bilməz.

**Məsələ-40.** Mərcəi-təqlidin fətvalarının zaman və məkana hakim olan şəraitlə uyğun olmamasına ehtimal vermək, yaxud onun fətvalarına əməl etməyin çətin olması, ələm müctəhiddən başqa bir müctəhidə üdul etməyin caiz olmasına səbəb olmur.

---

[1] Üdul burada hər hansı bir məsələdə öz müctəhidinin fətvasından başqa bir müctəhidin fətvasına əməl etmək, həmçinin öz müctəhidini dəyişmək mənasındadır. (Mütərcim)

[2] Məqsəd budur ki, onun müctəhidi həmin məsələdə fətva deyil ehtiyat edir, nəinki o məsələ onun risaləsində olmasın. (Mütərcim)

[3] Məsələn, əgər ələm müctəhid bir quşun halal olmağına, qeyri-ələm isə haram olmağına fətva verərsə, onda bu məsələdə qeyri-ələmin fətvasına əməl etmək olar. (Mütərcim)

## Təqlidin müxtəlif məsələləri

**Məsələ-41.** Mükəlləf namaz qilarkən qarşısına çıxdığı məsələnin hökmünü bilməzsə, ehtimalı əsasında əməl edib namazını qurtara bilər, lakin namazdan sonra gərək məsələni öyrənsin. Əgər etdiyi əməl namazı batil edibsə, namazını yeniləsin.

**Məsələ-42**. Cahil iki qismə bölünür:

1. **Cahili-qasir**[1] - Elə bir şəxsə deyilir ki, özünün cahil olmağını bilməsin, yaxud onu aradan qaldırmaq imkanı olmasın.

2. **Cahili-müqəssir**[2]- Elə bir şəxsə deyilir ki, cahil olmağını, eləcə də onu aradan qaldırmaq yollarını bilsin, lakin hökmləri öyrənməyə səhlənkarlıq etsin.

**Məsələ-43.** "Vacib-ehtiyat" bir əməli ehtiyat üzündən yerinə yetirmək, ya onu tərk etməyin vacib olmasına deyilir. Müctəhid hər hansı bir məsələdə vacib ehtiyat nəzərini bildirərsə, onun müqəllidi (yəni ona təqlid edən şəxs) bu məsələdə (38-ci məsələdə deyildiyi kimi) ələm müctəhidlərin elmi dərəcə və mərtəbələrinə riayət etməklə ehtiyat yox, fətva verən müctəhidə müraciət edə bilər.

**Məsələ-44.** Fiqhi kitablarda[3] işlədilən "fihi işkal", "muşkil", "la yəxlu min işkal" ibarələri (vacib) ehtiyata dəlalət edir, amma "la işkal" ibarəsi fətvadır.

**Məsələ-45.** Əməl məqamında "caiz deyil" və "haramdır" (fətvaları) arasında heç bir fərq yoxdur.

---

[1] Üzürlü cahil. (Mütərcim)

[2] Təqsirli cahil. (Mütərcim)

[3] Bu ibarələr fiqhi terminlərdir və fiqhi kitablarda işlədilir. Əvvəlki üç terminin mənası "işkallı" və "müşküldür" deməkdir, yəni vacib ehtiyata əsasən orada ehtiyat etmək lazımdır. Amma sonuncu terminin mənası "işkalsızdır" deməkdir və o əməlin caiz olmasına fətvadır. (Mütərcim)

# VİLAYƏTİ-FƏQİH VƏ RƏHBƏRLİK

## Vilayəti-fəqihin mənası

**Məsələ-46.** Vilayəti-fəqih - adil və dinşünas fəqihin hökuməti (hakimiyyəti) deməkdir.

**Məsələ-47.** Hər əsr və zamanda İslam cəmiyyətinin rəhbərliyi, İslam millətinin ictimai işlərinin idarəsində fəqihin vilayəti on iki imam məzhəbinin əsaslarındandır. Bunun kökü imamət prinsipinə qayıdır.

**Məsələ-48.** Həzrət Höccətin (ə.f.) qeybəti zamanında[1] vilayəti-fəqihə etiqad bəsləməmək ictihad, yaxud təqlid əsasında olsa da, irtidada (mürtəd olmağa) və İslam dinindən xaric olmağa səbəb olmur. Hər kəs[2] öz dəlilləri əsasında ona etiqad bağlamağın lazım olmamasına yetişibsə, üzürlüdür, amma müsəlmanlar arasında ixtilaf yaymaq və ayrılıq salmaq caiz deyil.

## Vilayəti-fəqihin zəruriliyi

**Məsələ-49.** Hənif İslam dini sonuncu din olub Qiyamət gününə qədər davam edəcəyi, həmçinin hakimiyyət dini olduğu üçün İslam cəmiyyətinin bütün təbəqələrinin İslam ümmətini İslam və müsəlmanların düşmənlərindən qorumaq, İslam cəmiyyətinin birliyini hifz etmək, İslam cəmiyyətində güclünün zəifə zülm etməsinin qarşısını almaqla ictimai ədaləti bərpa etmək, onların mədəni, siyasi və ictimai inkişafını təmin etmək üçün vilayəti fəqihə və fəqihin hakimiyyətinə qaçılmaz ehtiyacları var.

**Məsələ-50.** Vilayəti-fəqih (fəqihin hökuməti) şəri təəbbüdi[3] hökmdür. Baxmayaraq ki, əqli dəlillərlə də təsdiq edilir və onun xarici

---

[1] Bu o demək deyil ki, vilayəti-fəqihə inanmamağın mürtəd olmağa səbəb olmaması İmamın (ə.f.) qeybət əsrinə məxsusdur. Məqsəd budur ki, fəqihin vilayəti və hakimiyyəti məsələsi İmamın (ə.f.) qeybət dövrünə aiddir. (Mütərcim)

[2] Məqsəd müctəhiddir, nəinki hər bir kəs öz rəy, fikir və zövqünə əsasən vilayəti-fəqihi inkar etsin.(Mütərcim)

[3] Hökm iki qismə bölünür: 1. Əqli - Təkcə əqli arqumentlərlə sübut olunan hökmlər, ya əqlin müəyyən bir əmələ birbaşa hökm etdiyi üçün şəriətdə ona hökm olunmasına ehtiyac duyulmur (vacib bir əməlin müqəddiməsinin vacib olması kimi), ya da əqli baxımdan şəriətin

nümunəsini təyin etmək üçün əqli (camaat arasında qəbul edilən) yollar da mövcuddur.

## Vilayəti-fəqihin (fəqihin hakimiyyət) əhatə dairəsi

### 1. Vəliyyi-fəqihin "vilayi" əmrləri [1]

**Məsələ-51.** Bütün müsəlmanlara vacibdir ki, vəliyyi-fəqihin vilayi əmr və göstərişlərinə tabe olub itaət etsin, onun əmr və nəhylərinə təslim olsun. Bu hökm nəinki müqəllidlərə,[2] hətta dahi mərcəi-təqlidlərə də aiddir.

**Məsələ-52.** Heç bir kəsə caiz deyil ki, özünü vilayəti-fəqih məqamına digərlərindən daha layiq bilmək bəhanəsiylə, vilayəti-fəqihlik vəzifəsini öhdəsinə götürən fəqihlə müxalifət etsin. Əlbəttə, bu hökm o zamandır ki, vilayəti-fəqihlik məqamını öhdəsinə alan fəqih qanuni yollarla müəyyən edilərək bu məqama yetişsin.

### 2. Vəliyyi-fəqihin vilayi hökmləri

**Məsələ-53.** Vəliyyi-fəqih tərəfindən verilmiş hökmlər, həmçinin onun təyinatları müvəqqəti olaraq verilməyibsə (yəni vəliyyi-fəqih[3] məsləhət bilib onu götürməyincə), öz qüvvəsində qalır.

---

ona hökm etməsi mahal və qeyri-mümkündür. Əgər şəriət də bu barədə əqlin hökmünə uyğun bir söz deyərsə, həqiqətdə əqlin dediyini təsdiq edir. Məsələn, Allaha itaətin vacib olması kimi. 2. Şəri -Burada artıq əsl hökm şəriətindir və bu hökm özü də, iki qismə bölünür: A) Şəri təəbbüdi - Bu hökmə düzgün əməl etmək təkcə ilahi məqsədlə hasil olur. Məsələn, oruc tutmağın vacib olması şəri təəbbüdi hökmdür. Əgər bir şəxs Allaha xatir deyil, sağlamlıq niyyətilə oruc tutarsa, bu hökmə əməl etməyib. Qeyd olunan məsələyə əsasən, fəqihin vilayəti şəri təəbbüdi hökmdür, bu hökmü qəbul etmək xalis niyyətlə və Allaha xatir olmalıdır. Belə yerdə əqlin onu dərk etməsi və ya əqli yollarla da o məsələnin sübut edilməsi mümkün olarsa, bu artıq bir növ əqlin şəri hökmü təsdiqləməsidir. B) Şəri təvəssüli - Bu hökmü yerinə yetirməkdə niyyətə (qəsdi-qürbətə) ehtiyac yoxdur, borcu qaytarmağın vacib olması kimi. (Mütərcim)

[1] Hakimiyyəti dairəsində olan ixtiyarlarından istifadə edib verdiyi fərmanlar. (Mütərcim)

[2] Müqəllidlər istər vəliyyi-fəqihə, istərsə də başqa mərcəi-təqlidlərə təqlid etsinlər fərqi yoxdur və hökm hamısına aiddir. (Mütərcim)

[3] Ya da hökmü verən və təyinat verən vəliyyi fəqih. (Mütərcim)

### 3. Cəzaların icrası [1]

**Məsələ-54.** Cəzaların icrası (İmam Zaman ələyhissalamın) qeybət zamanında da vacibdir və vəliyyi-fəqihə məxsusdur.

### 4. Vəliyyi-fəqihin qərarları ümmətin qərarından öndədir

**Məsələ-55.** İslam və müsəlmanların ümumi xeyrinə (faydasına) aid olan yerlərdə vəliyyi-fəqihin qərar və ixtiyarları camaatın istəklərinə müxalif və zidd olarsa, onların ixtiyar və qərarlarına müqəddəmdir.

### 5. İctimai televiziya və radio yayımlarının idarə edilməsi

**Məsələ-56.** İctimai tele-radio yayımları İslam və müsəlmanlara xidmət göstərmək dəyərli ilahi maarifləri nəşr etmək yolunda idarə olunmalıdır. Həmçinin İslam cəmiyyətinin təfəkkürünün inkişafı, onların problemlərinin həlli və s. yolunda istifadə edilməlidir.

**Məsələ-57. Vəliyyi-fəqihin nümayəndəsinin göstərişlərinə itaət etmək:**
Vəliyyi-fəqihin göstərişləri vəliyyi-fəqih tərəfindən ona verilmiş səlahiyyət və ixtiyarlar çərçivəsində olduğu halda onunla müxalifət etmək caiz deyil.

**Məsələ-58**. İdari vilayət: İslamda "idari vilayət" (yəni hər hansı bir idarədə özündən üstün məqamda olan şəxsin göstərişlərinə etiraz haqqı olmadan tabe olmaq) məzmununda bir məfhum yoxdur. Amma idarə nizamnaməsi və qanunları əsasında olan əmrlərlə müxalifət etmək caiz deyil.

---

[1] Hakim tərəfindən Quran ayəsi və ya mötəbər hədislərdə kəmiyyəti və keyfiyyəti müəyyən edilmiş cəzaların tətbiq edilməsi, əl kəsmək və şallaq vurmaq kimi. İslam şəriətində bir sıra günahlar üçün miqdarı və keyfiyyəti müəyyən edilmiş cəzalar təyin olunub ki, bunlara "hədd" deyilir. Amma bəzi cəzalar da İslam hüququnda mövcuddur ki, onların miqdar və keyfiyyəti müəyyən edilməyib, hakimin nəzər və rəyinə həvalə edilib. Onun miqdar və keyfiyyəti, zaman, məkan, günahın növü və günaha mürtəkib olan şəxslərin müxtəlif baxımlardan fərqli olmasıyla müxtəlif olur. Buna fiqhi terminalogiyada "təzir" deyilir. "Təzir"in miqdarı həddin miqdarından az olmalıdır. (Mütərcim)

**Məsələ-59.** Təkvini vilayət: Vəliyyi-fəqihin "təkvini vilayət"i[1] yoxdur. Bu məsumlara (ə) məxsusdur.

## Vəliyyi-fəqihin mərcəi-təqlidlə nəzər ixtilafı

**Məsələ-60.** Vəliyyi-fəqihin nəzəri mərcəi-təqlidin nəzəri ilə fərqli olarsa, bu ixtilaf ölkənin idarəçiliyinə və ya ümumi müsəlmanlara aid olan məsələlərlə əlaqəli olduğu təqdirdə gərək vəliyyi-fəqihin nəzərinə itaət edilsin. Amma əgər ixtilaf təkcə fərdi məsələlərdə olarsa, onda gərək hər mükəlləf öz mərcəi-təqlidinin fətvasına tabe olsun.

---

[1] Vilayət iki qismdir:
1.Təşrii vilayət, yəni ilahi qanunların təyin etdiyi rəhbərlik və başçılıq, ata və ata babanın (atanın atası) həddi-büluğa çatmamış uşağa olan vilayəti, həmçinin İslam hakiminin İslam ölkəsinin hökumət və idarəçiliyinə aid bütün məsələlərə olan vilayəti kimi.
2.Təkvini vilayət, yəni Allahın izn və hökmü ilə yaradılış aləmində dəyişiklik etməyə qadir olmaq, hadisələri təbii adətinin və təbiət qanununun əksinə olaraq yaratmaq, əlacı olmayan xəstələrə şəfa vermək, yaxud ölüləri diriltmək kimi.

# TƏHARƏTİN HÖKMLƏRİ

İslam dini təharətə, eləcə də təmizliyə böyük əhəmiyyət verib. Bəzi şəri əməllər təharətlə olduğu halda düz və səhih olur. Bəzi şeylər müqəddəs İslam baxımından napakdır. Gərək insan ondan həmişə, yaxud bəzi vaxtlar qorunsun. İslam fiqhində təmizlikdən əlavə təharət məfhumu da var ki, bu iki qismə bölünür:

1. Hədəsin[1] aradan getməsiylə hasil olan təharət. Bu təharət qüsl, dəstəmaz və təyəmmüm vasitəsi ilə hasil olur.

2. Xəbəsin[2] aradan getməsiylə hasil olan təharət. Bu da nəcisin və nəcis olmuş əşyaların xüsusi yollarla (məsələn, xüsusi keyfiyyətlə suya çəkilməsilə) hasil olur.

Təharət bəzən vacib, bəzən də müstəhəb ola bilir. Bunun hər iki qismi və bunlara aid məsələlər "Təharət" adlanan fəsildə bəyan edilir.

## Suların qisimləri və hökmləri

**1. Müzaf su (qarışıq və qatqılı su)**

**Məsələ-61.** Müzaf su o suya deyilir ki, öz-özlüyündə və heç bir qeydi olmadan ona su deyilməsin, istər bir şeydən çəkilmiş olsun (qarpız suyu və gülab kimi və s.), istərsə də başqa bir şeylə qarışsın (yaxud hazırlanmış olsun). Belə ki, artıq ona su deyilməsin. Məsələn, hazırlanmış meyvə şirələri, şərbətlər, duzlu su və s.

**Məsələ-62.** Müzaf su nəcis şeyi pak etmir (Pakedicilərdən deyil).

**Məsələ-63.** Müzaf su nəcis bir şeylə təmasda olmaqla (hərçənd nəcasət az olsa, su kürr miqdarında, ya ondan çox olarsa, suyun iyi, rəngi və dadı dəyişməsə belə) nəcis olur.

**Məsələ-64.** Dəstəmaz və qüsl müzaf su ilə səhih deyil.

---

[1] Dəstəmaza və qüslə səbəb olan işlərə "hədəs" deyilir.(Mütərcim)

[2] Xəbəsdə məqsəd nəcasətdir.(Mütərcim)

**Məsələ-65.** Bəzən sulara xüsusi maddələr əlavə edirlər və onun rəngi süd rənginə oxşayır. Bu su müzaf su hökmündə deyil, onunla nəcis əşyaları pak etmək, dəstəmaz almaq və qüsl etmək olar.

**2. Mütləq su (saf və xalis su)**

**Məsələ-66.** Mütləq su o suya deyilir ki, ona öz-özlüyündə, su sözünün heç bir birləşməsi olmadan su deyilsin. Məsələn, yağış və çeşmə suyu və s.

## Mütləq suyun qisimləri

**Məsələ-67.** Mütləq su bir neçə qisimdir:
1-Göydən yağan[1] yağış suyu.
2-Yerdən coşan su (axar su).[2]
3-Yağmayan və axmayan[3] su (rakid su). Rakid su təqribən 384 litr, yaxud ondan çox olarsa "kürr", o miqdardan az olarsa "qəlil" adlanır.[4]

## Mütləq suyun hökmləri

**Məsələ-68.** Mütləq suyun hökmləri aşağıda göstərilənlərdir:

1. Mütləq su nəcis əşyanı pak edir (pakedicilərdəndir).

2."Qəlil" suyu çıxmaqla digər mütləq sular nəcasətlə təmasda olduqda nəcasətin rəngi, iyi, ya da dadını özünə almazsa, pakdır.

3. Mütləq su ilə dəstəmaz və qüsl səhihdir.

**Məsələ-69.** Mütləq suya şəri qanunların hökm olunmağı üçün ürfün

---

[1] Bu qeyd ona görədir ki, yağış kəsdikdən sonra yerdə toplaşan su yağış suyu hökmündə deyil. (Mütərcim)

[2] Əgər su yerdən coşmadan, yəni mənbəyi olmadan, yaxud mənbəyindən fasilə salaraq axarsa, axar su hökmündə deyil, (Mütərcim)

[3] Əgər su yerdən coşsa, lakin axmasa, nə qədər ki, çeşməsinə bağlıdır axar su hökmündədir və buna quyu suyu deyilir. (Mütərcim)

[4] Su ya göydən yağır, ya yerdən (yeraltı mənbədən) coşur, ya da nə yağır, nə də coşur. Göydən yağan suya "yağış suyu", yerdən coşan suya "axar su", yağmayan və coşmayan suya "rakid su" deyilir. Rakid suyun həcmi 43 qarış (təqribən 384 litr) olarsa, "kürr su", ondan az olarsa "qəlil su" adlanır.

(camaatın) nəzərində ona mütləq su deyilməsi kifayətdir. Buna görə də suyun duzluluq nəticəsində təkcə qatılaşması onu mütləq su olmaqdan xaric etmir. Bu səbəbdən çoxlu duzluluğu nəticəsində qatı olmasına baxmayaraq, dəniz suyuyla nəcis şeyləri yuyub pak etmək, həmçinin dəstəmaz almaq və qüsl vermək olar.

**1. Yağış suyu**

**Məsələ-70.** Yağış suyu nəcis olmuş şeyin üzərinə yağdıqda onu pak edir.[1]

**2. Kürr və axar su**

**Məsələ-71**. Nəcis olmuş bir şeyi kürr, ya axar suya batırsalar, pak olur, su da nəcis olmur.[2]

**Məsələ-72.** Nəcis şeylərin tökülməsi ilə kürr, yaxud axar suyun rəngi, qoxusu və ya dadı dəyişərsə, nəcis olur və nəcis olmuş şeyləri də pak etmir.

**Məsələ-73.** Kürr və axar su paklamaq baxımından fərqlənmir.

**3. Qəlil (kürr miqdarından az) su**

**Məsələ-74.** Nəcis bir əşyanı qəlil suya batırmaqla həm su nəcis olur, həm də nəcis şey pak olmur.

**Məsələ-75.** Qəlil suyu nəcis bir əşyanın üzərinə tökdükdə onu paklayır. Amma onun üzərinə tökdükdən sonra ondan ayrılan su nəcisdir.

**Məsələ-76.** Qəlil su təzyiqsiz (olsa belə) yuxarıdan aşağıya tökülərsə və aşağı hissəsi nəcasətə dəyərsə, onun üzüaşağılığı yuxarıdan aşağıya axması həddində sayılarsa, yuxarı hissəsi pakdır.

---

[1] Bu şərtlə ki, nəcisin eyni (özü) onun üzərində olmasın, yaxud yağışın yağmağı ilə aradan getsin.(Mütərcim)

[2] Bu nəcis şeyin pak olması və suyun nəcis olmaması o zamandır ki, suyun rəngi, qoxusu, ya dadı nəcisin vasitəsilə dəyişməsin. (Mütərcim)

**Məsələ-77.** Qəlil su kürr, yaxud axar suya birləşərsə, kürr və axar su hökmündə olur.

## Suda şəkkin hökmləri

**Məsələ-78.** Paklığı və nəcisliyi bilinməyən su şəri baxımdan pakdır. Amma əvvəlcədən nəcis olması məlum olan və onun paklanması bilinməyən su nəcis hökmündədir.

**Məsələ-79.** Kürr miqdarında olan suyun həmin miqdardan azalmasına şəkk edilərsə, o su kürr su hökmündədir.

**Məsələ-80.** Suyun kürr su olmasına şəri hökm edilməkdə onun kürr su miqdarında olmasına yəqin etmək vacib deyil. Onun qabaqcadan kürr olmağı məlum olarsa, onu kürr su hesab etmək caizdir. (Məsələn, əgər qatardakı ayaqyolunda olan suyun qabaqcadan kürr su olmağını bilsə və o miqdardan azalıb-azalmamağında şəkk etsə, onu kürr su hesab edə bilər).

**Məsələ-81.** Kürr miqdarından az olan suyun kürr miqdarına yetişməsinə yəqin etməyincə, qəlil su hökmündədir.

## Təxəllinin[1] hökmləri

**Məsələ-82.** Ayaqyolunda oturan zaman gərək insan üzü və ya arxası qibləyə olmasın.

**Məsələ-83.** Vacibdir insan istər ayaq yolunda, istərsə də başqa vaxt həyat yoldaşından başqalarının qarşısında, istər məhrəm, istərsə də naməhrəmlərin, istər kişi, istərsə də qadınların hətta həddi-büluğa çatmayan, amma yaxşını və pisi seçə bilən (müməyyiz) uşaqların gözü önündə öz övrətini (ayıb yerlərini) örtsün. Amma ər və arvada öz övrətlərini biri-birindən örtməsi lazım deyil.

[1] Ayaqyoluna getmək (Mütərcim)

## Təxəllinin bəzi məkruhları

**Məsələ-84.** Aşağıda göstərilən işlər təxəllinin məkruh əməllərindəndir:

1. Ayaq üstü sidiyə getmək;

2. Bərk yerin üzərinə sidiyə getmək;
3. Suya, xüsusilə sabit və axarı olmayan suya sidiyə getmək;
4. Sidiyin və bayıra çıxmağın qarşısını almaq;
5. Küçələrdə, insanların gediş-gəliş yollarında və meyvə ağaclarının altında təxəlli etmək.

## İstibra
### (sidik kanallarının şəri qaydada təmizlənməsi)

**Məsələ-85.** Kişilər sidiyə getdikdən sonra istibra deyilən iş yerinə yetirilərsə, bu işdən sonra sidik kanalından xaric olan rütubətin sidik olub-olmamağını bilməsələr (bilməsə ki, sidikdir, yoxsa başqa rütubət), onun pak olmasına hökm olunur və bu barədə (yəni onun sidik, ya başqa rütubət olması barədə) axtarış etmək lazım deyil.

**Məsələ-86.** İstibra vacib deyil. Hətta əgər birinə zərər edərsə, caiz deyil. Məsələn, ola bilsin sidik kanalında yara var və bu iş onun sağalmağını təxirə salır. Hər halda sidiyə getdikdən sonra istibra etməsə, sonra sidik kanalından şübhəli rütubət xaric olsa, sidik hökmündədir.

**Məsələ-87.** İstibranın ən yaxşı üslubu budur ki, sidik kəsildikdən sonra ğaitin məxrəci də nəcis olubsa (yəni bayıra da çıxıbsa), əvvəlcə onu pak etməli, sonra üç dəfə sol əlin orta barmağı ilə ğaitin məxrəcindən alətin kökünə qədər çəkməli, daha sonra baş barmağı alətin üzərinə onun yanındakı barmağı da altına qoyaraq, üç dəfə alətin başına qədər çəkməlidir. Sonra yenə də üç dəfə alətin başını sıxmalıdır.

**Məsələ-88.** Ğaitin məxrəcini pakladıqdan sonra edilən istibra ilə ondan qabaq edilən istibra arasında keyfiyyət və necəlik baxımından heç bir fərq yoxdur.

**Məsələ-89.** Əgər bir şəxs sidiyə getdikdən və istibra etdikdən sonra dəstəmaz alsa, sonra sidik (bövl) və sperma (məni) arasında şəkk etdiyi bir rütubət xaric olarsa, hədəsdən təharətin hasil olmasına yəqin etmək üçün vacibdir ki, həm qüsl etsin, həm də dəstəmaz alsın.

**Məsələ-90.** İnsandan bəzi vaxtlar xaric olan rütubətlər

- Məni (sperma) xaric olduqdan sonra gələn rütubət - bu rütubətə "vəzy" deyilir.

- Bəzi hallarda sidikdən sonra gələn rütubət - bu rütubətə "vədy" deyilir.
- Kişi və qadının mazaqlaşması zamanı gələn rütubət - bu rütubətə "məzy"deyilir.

**Məsələ-91.** Yuxarıda qeyd olunan rütubətlərin hamısı pakdır və təharətin (qüsl və dəstəmazın) pozulmasına səbəb olmur.

## İstinca (bövl və ğaitin məxrəcinin pak edilməsi)

**Məsələ-92.** Bövlün məxrəci (sidik çıxan yer) sudan başqa bir şeylə pak olmur. Vacib ehtiyata əsasən, qəlil suyla iki dəfə yuyulmalıdır.
**Məsələ-93.** Ğaitin məxrəcini iki yolla pak etmək olar:

1. Nəcasət aradan gedənədək suyla yumaq, bundan sonra suya çəkməyə ehtiyac yoxdur.

2. Üç ədəd pak daş, ya parça və bu kimi şeylə silməklə nəcasəti təmizləməli. Əgər üç parça ilə nəcasət aradan getməsə, əlavə hissələrlə nəcasəti tam şəkildə aradan aparmalıdır.

**Məsələ-94.** Ğaitin məxrəci üç halda təkcə suyla paklanır, daş və bu kimi şeylərlə paklanmır:

1. Əgər ğaitlə birlikdə qan kimi başqa nəcasət bayıra gələrsə,

2. Əgər xaricdən başqa bir nəcasət ğaitin məxrəcinə dəyərsə,

3. Ğaitin məxrəcinin ətrafı normadan artıq bulanarsa (başqa sözlə ğait məxrəcdən əlavə başqa yerlərə dəyərsə).

## NƏCASƏT [1]

**Məsələ-95**. Doqquz şey nəcisdir:
1. Bövl (sidik)
2. Ğait
3. Məni (sperma)
4. Murdar
5. Qan
6. İt
7. Donuz
8. Məstedici içkilər (vacib) ehtiyata əsasən
9. Səmavi bir dini qəbul etməyən kafirlər.

**Məsələ-96.** Nəcasət olmağına Şəriət sahibinin hökm etmədiyi bütün şeylər pakdır.

### 1.2 Bövl (sidik) və ğait

**Məsələ-97.** İnsanın və əti haram, atıcı qanı[2] (istiqanlı) olan hər bir heyvanın sidik və ğaiti nəcisdir. Amma əti haram olan quşların ifrazatı pakdır.

**Məsələ-98.** Əti halal olan heyvanların (quşların və digər bütün heyvanların) bövl və ğaiti pakdır.

### 3. Məni (sperma)

**Məsələ-99.** İnsanın mənisi nəcisdir.

---

[1] Adətən Azərbaycan orfoqrafiyasında, habelə xalq arasında "nəcasət" və "nəcis"ə "murdar","nəcis" isə ğaitə deyilir. Lakin həqiqət budur ki, insan və heyvanların meyiti (ölü cəsədi) "murdar" adlanır və bu baxımdan "murdar" doqquz nəcis şeydən biri sayılır, eləcə də ğait onlardan biridir. Buna görə də tərcümədə əsl məna riayət olunub. (Mütərcim)

[2] Başını (boğazının damarlarını) kəsdikdə qanı sıçrayan heyvanlar. (Mütərcim)

**Məsələ-100.** Bir şəxs bövl etdikdən sonra istibra etsə və istibra zamanı ondan məni olub-olmamasını bilmədiyi başqa bir maye xaric olsa, əgər xaric olan zaman məninin şəri xaricolma nişanələri olmazsa, məni hökmündə deyil və pakdır.

**Məsələ-101.** Kişilərdə mayenin şəhvətlə, atıcı və təzyiqlə xaric olması və bədənin süst olması məninin xaric olmasının şəri nişanələridir. Qadınlarda isə mayenin təkcə şəhvətlə xaric olması məninin şəri nişanəsidir.

**4. Murdar (meyit, ölü cəsəd)**

**Məsələ-102.** İnsanın murdarı (meyit, ölmüş insanın cəsədi) istər müsəlman olsun, istərsə də kafir, dırnaq, tük və diş kimi ruhsuz hissələrindən başqa yerləri nəcisdir.

**Məsələ-103.** Müsəlmanın murdarı (meyiti) iki halda pakdır:

1. Mərəkə şəhidi olsa (döyüş meydanında şəhid olsun).
2. Qüslü verilmiş olsa[1]

**Məsələ-104.** Kitab əhli olmayan kafirlərin murdarının (meyitinin) bütün üzvləri nəcisdir.

**Məsələ-105.** İt və donuzun murdarının bütün hissələri nəcisdir.

**Məsələ-106.** İt və donuzdan qeyri atıcı qanı olan heyvanların şəri qaydaya uyğun kəsilmədikləri halda ət və dəri kimi ruhu olan hissələri nəcisdir. Amma tük və buynuz kimi ruhu olmayan hissələri pakdır. Atıcı qanı olmayan heyvanların (murdarının) bütün hissələri pakdır.

**Məsələ-107.** Əllərdən, ayaqlardan, dodaqlardan və bədənin digər yerlərindən öz-özünə ayrılan hissələr pakdır.

**Məsələ-108.** İslami mühitlərdə satılan heyvanın əti, dərisi və s. hissələri pakdır. Həmçinin bu qeyd olanlar müsəlmanın ixtiyarında (məsələn, əlində, evində yaxud dükanındal) olarsa, onların pak

[1] Qüsİdə məqsəd meyitə verilən qüsldür. Buna əsasən, nə qədər ki, meyitin üçüncü qüslü qurtarmayıb, nəcisdir.

olmağına hökm olunur. Habelə əgər qeyri-müsəlman ölkələrindən (heyvanın ət, dəri və piyi kimi ruhu olan hissələri) gətirilərsə və o heyvanın şəri qayda ilə kəsilməməsinə yəqin edilməzsə, onların pak olmağına hökm edilir. Başqa sözlə o vaxt nəcisdir ki, qeyri-şəri qayda ilə kəsilməsi bəlli olsun, amma şəri qayda ilə kəsilməsi ehtimalı verilərsə, pakdır.[1]

### 5. Qan

**Məsələ-109.** İnsanın və atıcı qanı olan hər bir heyvanın qanı, istər əti haram olsun, istərsə də halal, nəcisdir.

**Məsələ-110.** Heyvan zibh olunduqdan (şəri qayda ilə kəsildikdən) sonra onun bədənində qalan qan pakdır.[2]

**Məsələ-111.** Yumurtanın içində olan qan ləkəsi pak, lakin yeyilməsi haramdır.

### 6-7. İt və donuz

**Məsələ-112.** İt və donuz nəcisdir. Bu hökmdə onların ruhu olan və olmayan hissələri fərq etmir.

**Məsələ-113.** Qab yumaq, dəstəmaz almaq və qüsl vermək kimi təharət (pak olması) şərt olan işlərdə it və donuzun tükündən (yaxud başqa hissəsindən) istifadə etmək caiz deyil. Rəsm çəkmək (yaxud rəng vurmaq) üçün işlədilən firça kimi təharət şərt olmayan (əşyalarda) işlədilməsinin eybi yoxdur.

### 8. Məstedici içkilər

**Məsələ-114.** Məstedici içkilər (vacib) ehtiyata əsasən, nəcisdir.

**Məsələ-115.** Həşiş (və tiryək) kimi maye olmayan məstedicilər su qatmaqla maye halına düşsə də, nəcis deyil.

---

[1] Lakin nə qədər ki, şəri qayda ilə kəsilməsinə yəqin edilməyib, onu yemək haramdır. (Mütərcim)

[2] Amma yeyilməsi haramdır. (Mütərcim)

**Məsələ-116.** Odda qaynayan üzüm suyunun üçdə iki hissəsi azalmasa, əgər məstedici olmazsa, nəcis deyil, amma onu yemək haramdır.

**Məsələ-117.** Əgər bir miqdar qoranın içində bir neçə üzüm dənəsi olmaqla su onun hamısını əhatə etsə, belə ki, üzüm dənəsi çox az olduğu üçün abqoranın içində artıq ona üzüm suyu deyilməyəcək şəkildə aradan getsə, bu halda qaynamaqla haram olmaz. Amma odda qaynamaqla bir üzüm dənəsi haram olur və onu yemək olmaz.

## 9. Kafir

**Məsələ-118.** Tövhid, nübuvvət, namaz və oruc kimi dinin zərurilərindən birini inkar edən, yaxud Rəsuli-əkrəmin (s) risalətində (hər hansı bir) nöqsana etiqadı olan şəxs kafir və nəcisdir. Amma kitab əhli nəcis deyil.

**Məsələ-119.** Dinin zərurilərindən birini inkar etmək o zaman küfrə səbəb olur ki, risaləti (peyğəmbərin din gətirməsini), ya Rəsuli-əkrəmi (s) təkzib etməyə[1] və ya şəriətə nöqsan gətirməyə səbəb olsun.

**Məsələ-120.** Kitab əhlindən olan kafirin pak olmasına hökm olunur (pakdır)[2].

---

[1] Dinin zəruriləri dedikdə dində heç kimə, yaxud böyük əksəriyyətə qaranlıq olmayan hökm (yaxud əməl) nəzərdə tutulur. Namaz, oruc və həccin İslam dinində vacib əməl olması heç kəsə qaranlıq olmadığı üçün dinin zərurətlərindən hesab olunur. Dinin hər hansı zəruri bir hökmünü inkar etmək bir qrup müctəhidlərin nəzərinə əsasən, mütləq şəkildə küfrə səbəb olur. Hətta dini və Peyğəmbəri (s) təkzib etməyə səbəb olmasa belə, bir sıra müctəhidlərin, o cümlədən Ayətullah Xamenei həzrətlərinin fətvasına əsasən, bu o zamarı küfrə səbəb olur ki, dini, ya Peyğəmbəri əkrəmi (s) təkzib və inkar etməyə səbəb olsun. Bu o demək deyil ki, dinin zərurətlərinin bəzilərini inkar etmək təkzibə səbəb olur, bəzilərini inkar etmək isə ona səbəb olmur. Məqsəd budur ki, əgər bir şəxs hər hansı əməlin İslam dinində zəruri olmasını bilsə və bilərəkdən onu inkar etsə, bu inkar etmək həqiqətdə dini inkar etmək, yaxud Peyğəmbəri(s) inkar etməklə bərabərdir. Nəticədə qeyd olunan əməlin dində olmasını bilmədən, yaxud onun dində olmasına şəkk etmək üzündən inkar edərsə, bu inkar dini yaxud Peyğəmbəri (s) inkar etmək deyil.(Mütərcim)

[2] Kitab əhlində məqsəd ilahi dinlərdən birinə etiqadı olan, özünü ilahi peyğəmbərlərdən birinə imanı olanlardan bilən və ilahi peyğəmbərlərə göndərilmiş səmavi kitablardan birinə inanan şəxsdir. Yəhudilər, nəsranilər, zərdüştlər, həmçinin (özlərini Yəhya peyğəmbərin(ə) ümməti sayan və ona ilahi kitabın nazil olmasını iddia edən) sabiilər kitab əhli sayılır.

**Məsələ-121.** Sonuncu Peyğəmbərin (s) təkcə nübuvvətinə etiqad bəsləmək İslam hökmünün ona aid olmasına kifayət etmir. Buna görə də etiqadi baxımdan sonuncu Peyğəmbərə (s) iman gətirən, lakin öz ata-babaları kimi əməl edən kitab əhli müsəlman sayılmır. Amma kitab əhli olduğu üçün pakdır.

**Məsələ-122**. Müsəlman mürtəd olarsa (İslam dinindən çıxarsa), həm kafir, həm də nəcisdir. Amma təkcə namazı, orucu və s. şəri vacibləri tərk etmək mürtəd olmağa, nəticədə kafir və nəcis olmağa səbəb olmur. Nə qədər ki, belə bir şəxsin mürtəd olmağı aşkar edilməyib, müsəlman hökmündədir.

**Məsələ-123.** "Əliallahi" firqəsi Əmirəl-möminin Əli ibn Əbutalibin Allah olmasına (təaləllahu ən zalikə uluvvən kəbira), yaxud Onun şəriki olmasına etiqadları olarsa, kafir və nəcisdir.

**Məsələ-124.** Məsum İmamlardan (ə) hər hansı birini söyən, yaxud təhqir edən şəxs kafir və nəcisdir.

**Məsələ-125.** Azğın "Bəhaiyyət" firqəsinin bütün ardıcılları kafir və nəcisdir.

## Nəcasətlə bağlı müxtəlif məsələlər

**Məsələ-126.** Haram yolla cünub olan şəxsin təri pakdır, amma vacib ehtiyata əsasən, bu tərlə namaz qılmaq olmaz.

**Məsələ-127.** Haram ət və (donuz əti kimi) nəcis yeyən şəxsin təri və ağzının suyu pakdır.

**Məsələ-128.** Paltarı yuduqdan sonra az miqdarda qalan rəng izi pakdır. Bu şərtlə ki, nəcasətin özü deyil, təkcə rəng olsun.

**Məsələ-129.** Qusmaqla mədədən qaytarılanlar pakdır, istər süd-əmər körpənin olsun, istər həm süd və həm başqa yemək yeyən uşağın, istərsə də həddi-büluğa çatmış insanın.

## Nəcasətin sübutayetmə yolları

**Məsələ-130.** Bir şeyin nəcis olması üç yolla sübuta yetir:

1. Bir şeyin nəcis olduğuna insanın yəqin etməsiylə.

2. (Ev sahibi, satıcı və xidmətçi kimi) bir şəxsin ixtiyarında olduğu şeyin nəcis olmasını xəbər verməsiylə.

3. İki adil (ədalətli) şəxsin şəhadətiylə.

**Məsələ-131.** Həddi-büluğ astanasında olan uşağın ixtiyarında olan bir şeyin nəcis olmasını xəbər verməsini qəbul etmək lazımdır, yəni onun dediyi etibarlı sayılır.

## Pak şeyin nəcis olması

**Məsələ-132.** Pak şeyin nəcis olması üçün dörd şərt lazımdır:

1. Pak şey (nəcisə və ya) nəcis şeyə toxunsa.

2. Hər ikisi, yaxud ikisindən biri (yaş ya) rütubətli olsa.

3. Nəcisin rütubəti pak şeyə sirayət etsə[1] (keçsə):

4. Təmas bədən daxilində olmasa.[2]

**Məsələ-133.** Parça və bu kimi şeylər yaş olarsa, onun bir hissəsi nəcisə toxunduqda təkcə toxunan hissə nəcis olur.

**Məsələ-134.** Ağıza daxil olan su damaqda quruyub (bərkiyib) qalmış qana toxunarsa, ağızdan çölə çıxdıqda pak sayılır. Baxmayaraq ki, (müstəhəb) ehtiyata görə ondan qorunmaq yaxşıdır. Həmçinin o qana toxunan yemək də pakdır və onu udmağın eybi yoxdur. Necə ki, ağzın içi də pakdır.

---

[1] Rütubətin sirayət etməsinin meyarı budur ki, gərək toxunmaqla birinin rütubəti digərinə keçmək həddində olsun.

[2] İynənin bədən daxilində qana toxunması kimi. Belə ki, əgər o iynəni bədəndən çıxartdıqda qana bulanmış olmasa pakdır, amma əgər qana bulanmış olarsa nəcisdir. (Mütərcim)

**Məsələ-135.** Birinci mütənəccis (yəni nəcisin özünə toxunmaqla nəcis olan şey) pak bir şeyə toxunarsa, (ən azı) onların biri yaş olduqda (132-ci məsələnin ikinci və üçüncü bəndində deyildiyi kimi) pak şey nəcis olur. Əgər ikinci mütənəccis (yəni birinci mütənəccisə toxunmaqla nəcis olan şey) pak bir şeyə toxunarsa, (rütubət keçdiyi halda) ehtiyat vacibə əsasən, onu da nəcis edir. Amma üçüncü mütənəccis toxunmaqla heç bir pak şeyi nəcis etmir.

### Nəcasətin hökmləri

**Məsələ-136.** Nəcis şeyi yeyib-içmək haramdır. Həmçinin həmin şeyin onun nəcisliyindən xəbəri olmayan bir şəxsə yedirtmək də caiz deyil. Amma əgər insan birinin nəcis yemək yediyini, yaxud nəcis paltarla namaz qıldığını görərsə, onun nəcis olduğunu həmin şəxsə xəbər vermək lazım deyil.

**Məsələ-137.** Paltar yuyan şəxsi paltarın nəcis olmasından agah etmək lazım deyil. Amma paltar sahibi nə qədər ki, paltarın pak olmasına yəqin etməyib pak sayılmayacaq.

**Məsələ-138.** Qonaq ev sahibinin əşyalarından birini nəcis edərsə, ev sahibinə xəbər verməsi lazım deyil. Amma əgər nəcis etdiyi şey yeməli, içməli və ya yemək-içmək qabı olarsa, xəbər verməsi lazımdır.

## VASVASILIQ VƏ ONUN MÜALİCƏSİ

Vasvası olan şəxslərin nəcasət barəsində şiddətli ruhi həssaslıqları olduğu üçün aşağıdakı məsələlərdə göstərilən tövsiyələrə əməl etmələri lazımdır.

**Məsələ-139.** Müqəddəs İslam şəriətinə görə bütün şeylərdə təharət və nəcasət baxımından birinci hökm təharət və paklıqdır. Yəni hər bir şeyin nəcis olmasında azca şəkk etsə belə, onun nəcis olmamasına (pak olmasına) hökm etmək vacibdir.

**Məsələ-140.** (Vasvasılar hətta) əgər bəzən bir şeyin nəcis olmasına əmin olsalar belə, nə qədər ki, onun nəcis olmasını gözləri ilə görməyiblər, belə ki, əgər normal (və vasvası olmayan) bir şəxs də onu görsəydi nəcis olmasına yəqin edərdi (nə qədər ki, belə bir yəqinlik hasil olmayıb), gərək pak olmasına hökm etsinlər. Buna əsasən, təkcə gözləri ilə gördükləri zaman (belə ki, əgər başqası da onu görsəydi, nəcis olmasına yəqin edərdi), nəcis olmasına hökm etsinlər. Qeyd olunan bu hökm vasvasılar barəsində vasvasılığın tamamilə aradan getməsinə qədər qüvvədədir.

**Məsələ-141.** Nəcis olan hər hansı bir şeyi, yaxud üzvü pak etmək üçün nəcasətin eynini (özünü) aradan apardıqdan sonra (mənbəyi kürr olan) krantın altında bir dəfə yuyulması kifayətdir. Onu təkrar yumağa, ya suyun altına batırmağa ehtiyac yoxdur. Nəcis şey parça və bu qəbildən olarsa, ehtiyata görə gərək normal miqdarda sıxılmaqla, yaxud silkələməklə içindəki su xaric edilsin.

**Məsələ-142.** İslam dini asan və insan fitrəti ilə uyğun dindir. Onu özünüzə çətinləşdirməklə cisminizə və canınıza zərər vurmayın. Belə yerlərdə iztirab insana həyatı acı edir. Mütəal Allah sizin və sizinlə əlaqədə olan heç bir şəxsin bu əzab-əziyyətinə razı deyil. Bu asan din nemətinə şükr edin. Bu nemətə şükr etmək mütəal Allahın göstəriş və təlimləri əsasında əməl etməklədir.

**Məsələ-143.** Bu, müvəqqəti və əlacı olan bir haldır. Ondan qurtulmaq üçün möcüzəyə ehtiyac yoxdur. Bu hala qalib gəlmək üçün öz şəxsi fikir və düşüncənizi kənara qoymalı, müqəddəs şəriətin göstərişlərinə iman gətirməlisiniz. Çoxları bu yolla xilas ola bilib. Allaha təvəkkül edin və iradənizlə ruhunuza aramlıq bəxş etməyə çalışın.

# PAKEDİCİLƏR (MÜTƏHHİRAT)

**Məsələ-144.** Nəcisi pak edənlər "mütəhhirat" (pakedicilər) adlanır. Aşağıda göstərilənlər pakedicilərdir:

1. Su
2. Yer
3. Günəş
4. İstihalə (əslinin dəyişməsi)
5. İntiqal (köçürmə)
6. İslam (İslamı qəbul etmək)
7. Təbəiyyət (təsirlənmə)
8. Nəcasətin eyninin aradan getməsi
9. Nəcis yeyən heyvanın istibrası (şəri qayda ilə təmizlənməsi)
10. Müsəlmanın gözdən itməsi (Bu pakedicilər növbəti məsələlərdə açıqlanacaq)

## 1. Su

### Qabları suya çəkməyin (paklamağın) yolları

**Məsələ-145.** Nəcis olmuş qabları qəlil su ilə üç dəfə yumaq lazımdır. Amma kürr və axar su ilə bir dəfə yumaq kifayətdir.

**Məsələ-146.** İtin su, ya başqa bir maye içib, yaxud yediyi, həmçinin yaladığı qabı əvvəlcə torpaqla sürtmək, sonra suya çəkmək lazımdır. Əgər az suyla yuyularsa, torpaqla sürtdükdən sonra iki dəfə suya çəkmək (yumaq) lazımdır.

**Məsələ-147.** Donuzun su, ya başqa bir maye içib, yaxud yediyi qab gərək yeddi dəfə yuyulsun, torpaqla sürtmək lazım deyil.

### Qabdan başqa nəcis olmuş şeyləri suya çəkməyin (paklamağın) yolları

**Məsələ-148.** Nəcis olmuş şeyi nəcisin eynini (özünü) aradan apardıqdan sonra kürr və axar suya bir dəfə kamil şəkildə batırmaqla, həmçinin kürə birləşmiş krant altına su nəcis olan yeri tam əhatə

etdiyi miqdarında tutmaqla pak olur. Bu, paltar, palaz, (xalça) və s. kimi şeylər olduqda vacib ehtiyata əsasən, yuduqdan sonra sıxılmalı, yaxud silkələnməlidir. Amma onun sıxılması və ya silkələnməsini sudan çıxartdıqdan sonra olması lazım deyil, suyun içində də olsa kifayətdir.

**Məsələ-149.** Sidiyə toxunmaqla nəcis olan şey nəcisin eyni aradan getdikdən sonra qəlil suyla iki dəfə yuyulsa pak olar. Amma sidikdən başqa bir nəcislə nəcis olarsa, nəcasətin eyni aparıldıqdan sonra qəlil suyla bir dəfə yuyulması kifayətdir və pak olur.

**Məsələ-150.** Qəlil suyla suya çəkilən şeyin üzərinə tökülən suların ayrılması lazımdır. Əgər bu şey paltar və palaz kimi sıxılmalı bir əşyadırsa, suyun ondan ayrılması üçün sıxılması lazımdır.

**Məsələ-151.** Nəcis palaz və xalça kimi şeyləri (kürlə birləşmiş) krant suyu ilə pak etdikdə içində qalmış suların ayrılması şərt deyil. Təkcə nəcasətin eyni aradan getdikdən sonra suyun nəcis olmuş yerə yetişməsi və hələ suyun altında olarkən əl çəkməklə onda olan suyun yerinin dəyişməsiylə paklıq hasil olur.[1]

**Məsələ-152.** Nəcis palçıqdan düzəldilmiş təndirin zahirini (üzünü) yumaqla pak olur. Çörək bişirmək üçün təndirin zahirinin pak olması kifayətdir.

**Məsələ-153.** Geyimləri suya tökərkən suyun rəngi müzaf olmamaq həddində (azca) dəyişsə, nəcis libasları onunla pak etmək olar.

**Məsələ-154.** Yaxalamaq üçün qabın içinə qoyulan paltarların üzərinə (kürlə birləşmiş) krant suyu onları tam əhatə edəcək miqdarında buraxıldıqdan sonra, paltar, qab və onlardan ayrılıb su üzərində müşahidə edilən və suyla birlikdə çölə tökülən qırıntılar hamısı pakdır (Əlbəttə deyildiyi kimi paltar kimi şeylərdə ehtiyata əsasən yuduqdan sonra sıxmaq, yaxud silkələmək də lazımdır).

---

[1] Bu məsələnin 141-ci məsələ ilə ziddiyyəti yoxdur, diqqətli olun. (Mütərcim)

**2. Yer**

**Məsələ-155.** Ayağın, yaxud ayaqqabının altı yeriməklə nəcis olduqda, təqribən on addım quru və pak yer üzərində yeriyərsə, yeriməklə nəcisin eyni aradan gedərsə, ayaq və ya ayaqqabının altı pak olur.

**Məsələ-156.** Asfalt və qırla qarışmış yer ayaq və ayaqqabının altını pak etmir.

**3. Günəş**

**Məsələ-157.** Günəş yer, bina, qapı, pəncərə, divar, ağac və bitki kimi bütün daşınmayan əşyaları pak edir.

**Məsələ-158.** Günəş aşağıdakı şərtlərlə pak edir:

1. Nəcis şey yaş olsun.
2. Nəcasətin eyni onda olmasın (əgər olarsa günəş saçandan öncə təmizlənsin)
3. Günəş şüası ona birbaşa düşsün (bulud və pərdə kimi hər hansı bir şey günəş şüasının qarşısını almasın.
4. Günəş düşməklə qurusun (Yaş qalarsa, pak olmaz).

**4. İstihalə (əslinin dəyişməsi)**

**Məsələ-159.** Nəcis şey öz cinsini dəyişərsə, pak olur. Məsələn, əgər (nəcis olmuş) ağac yanmaqla külə dönərsə və ya şərab sirkəyə çevrilərsə, yaxud it, duz mədəninə düşməklə duza çevrilərsə pak olar. Amma əgər cinsini (əslini) dəyişməyib təkcə şəklini dəyişərsə, pak olmaz. Məsələn, buğda una çevrilməklə, yaxud qənd və şəkər suda həll olmaqla pak olmaz.

**Məsələ-160.** Nəcis yağ kimi nəcis maddələri paklamaq üçün kimyəvi üsullarla onun xüsusiyyətini dəyişmək kifayət etmir (və bu yolla istihalə baş vermir).

**Məsələ-161.** Kanalizasiya sularının mikroblarını təmizləməklə və onun viruslu maddələrini ayırmaqla (və ya filtrdən keçirməklə təmizləməklə) istihalə baş vermir (və pak olmaq üçün kifayət deyil). Amma əgər təmizləmə onu buxara çevirib sonra su halına salmaqla olarsa, bu istihalədir və su pakdır.

### 5. İntiqal

**Məsələ-162.** Ağcaqanad və s, həşəratların insan bədənindən sorduqları qan nə qədər ki, insan qanı hesab olunur, nəcisdir. Amma vaxt keçməklə o həşəratın qanı sayılsa, pakdır.

### 6. Nəcasətin eyninin aradan getməsi

**Məsələ-163.** Əgər heyvanın bədəni nəcis bir şeylə bulanarsa, o şey heyvanın bədənindən getməklə heyvanın bədəni pak olur. Onu suya çəkməyə ehtiyac yoxdur. Habelə insanın bədəninin daxilindəki nəcislik aradan getməklə paklanır və yumaq lazım deyil. Məsələn, ağız və burnun içi kimi. Buna əsasən, dişin dibindən gələn qan ağız suyu ilə (qarışıb) aradan getdiyi halda ağzın içi pak olur.

### 7. Müsəlmanın gözdən itməsi

**Məsələ-164.** Əgər bir müsəlmanın bədən, paltar, yaxud ona aid əşyanın nəcis olmasını bilsə, həmin şəxsi bir müddət görməsə, sonra onun o nəcis olan şeylə pak kimi davrandığını görsə, o şeyin pak olmasına hökm olunur. Bu şərtlə ki, sahibi əşyanın nəcis olmasından xəbərdar olduğu halda təharət və nəcasətin hökmlərini də bilsin.

### 8. Təharətin sübutayetmə yolları

**Məsələ-165.** Bir şeyin pak olması üç yolla sübuta yetir:

1. Nəcis olmuş şeyin paklanmasına insanın yəqin etməsi ilə;
2. (Ev sahibi, satıcı və xidmətçi kimi) bir şəxsin ixtiyarında olan şeyin paklanmağını xəbər verməsi ilə;
3. İki adil (ədalətli) şəxsin şəhadətiylə.

**Məsələ-166**. Həddi-büluğ astanasında olan uşağın ixtiyarında olan bir şeyin pak olmağını xəbər verməsini qəbul etmək lazımdır. Yəni onun dediyi etibarlı sayılır.

## Təharət qaydası

**Məsələ-167**. Ümumiyyətlə, hər hansı bir şeyin təharət və nəcasətində şəkk etdikdə, yəni pak, yaxud nəcis olmasını bilmədikdə onun pak olmasına hökm edilir. Başqa sözlə desək, nəcasətinə yəqin edilməyən şey şəri baxımdan pak hökmündədir. Soruşmaq, yaxud axtarış lazım deyil.

## Təharət qaydasının tətbiq olunduğu bəzi nümunələr

**Məsələ-168.** Özünü həmişə nəcisləyən uşağın nə qədər ki, yaş əli (əlinin yaşı), ağzının suyu və yeməyinin qalığının nəcis olmasına yəqin edilməyib, (hamısı) pakdır.

**Məsələ-169.** Çamaşırxanalara verilən geyimlər qabaqcadan nəcis olmazsa, pakdır.

**Məsələ-170.** Paklıq, yaxud nəcisliyini bilmədiyimiz yerə tökülən su pakdır (və oradan üzərimizə tökülsə də eybi yoxdur).

**Məsələ-171.** Zibil maşınlarından küçələrə tökülən suyun nəcis olduğunu bilmədiyimiz təqdirdə pak hökmündədir. Həmçinin küçələrdə əmələ gəlmiş çalaların içinə yığılan suların nəcis olmağı məlum deyilsə, pakdır.

**Məsələ-172.** Pomada kimi dodağa vurulan kosmetik maddələrin murdardan (ölü, yaxud şəri qaydadan kənar kəsilən heyvanın hissələrindən) hazırlanması məlum olmadıqda, onların nəcasəti şəri yollarla sübuta yetməyincə pakdır. Onları istifadə etməyin heç bir işkalı yoxdur.

**Məsələ-173**. Ayaqqabıdan istifadə edərkən o zaman ayağın nəcis olmasına və namaz qılmaq üçün yuyulmasına hökm olunur ki,

ayaqqabının təzkiyə olunmamış heyvanın (ölü ya şəri qaydadan kənar kəsilən heyvan) dərisindən olması və ayağın həmin ayaqqabının içində tərləməyi məlum olsun. Amma əgər ayağın tərləməsi, yaxud ayaqqabının dərisindən hazırlanmış heyvanın təzkiyə olub-olmaması məlum olmazsa, ayağın pak olmasına hökm olunur.

**Məsələ-174.** Rəngsazlıq, rəssamlıqda və s. işlədilən firçanın donuz tükündən olmasında şəkk edilirsə, pakdır və onu istifadə etməyin işkalı yoxdur.

**Məsələ-175.** Müsəlman, yaxud kafir olması bilinməyən şəxs pakdır və dinini soruşmaq lazım deyil.

**Məsələ-176.** (Buddistlər kimi) kitab əhli olmayan kafirlərin evlərinin qapı, pəncərə, hotel və orada işlədilən əşyaların pak, yaxud nəcis olması bilinmirsə, (hamısı) pak hökmündədir (Hətta nəcis olduqları bilindiyi təqdirdə də onların hamısını suya çəkmək vacib deyil, təkcə yemək-içməkdə və namaz qılmaqda istifadə olanları paklamaq vacibdir).

**Məsələ-177.** Maşın və qatarların oturacaqları kimi kafir və müsəlmanların müştərək istifadə etdikləri əşyaların pak, yaxud nəcis olması məlum olmadıqda pakdır.

**Məsələ-178.** Məstedici içkilər qismindən olub-olmaması bilinməyən spirtlər pakdır.

## Qabların hökmləri

**Məsələ-179.** Qızıl və gümüşdən düzəlmiş qablarda yeyib-içmək haramdır. Amma onları (suvenir kimi) saxlamaq və digər məqsədlərlə istifadəsi haram deyil.

**Məsələ-180**. Qızıl, yaxud gümüş suyu ilə boyanan, habelə tərkibinə azca qızıl, yaxud gümüş qatılan qablar (belə ki, bu qədər qatqı ona qızıl, ya da gümüş qab deyilməsinə səbəb olmasın) qızıl və gümüş qab hökmündə deyil.

## Dəstəmaz məsələləri

**Məsələ-181.** Dəstəmaz xüsusi formada üz və əlləri yumaq, başın qabaq hissəsinə, həmçinin ayaqların üzərinə məsh etməkdir. Müqəddəs şəriətdə mənəvi paklıq sayılan bu əməl bəzi əməllərin müqəddiməsidir.[1] Məsələn, namaz, təvaf, Quran tilavət etmək, məscidə getmək və s. kimi.

**Məsələ-182.** Dəstəmaz bu tərtiblə alınmalıdır: Üzü alının yuxarı hissəsindən, yəni başın tük bitən yerindən çənənin qurtaracağına kimi yumaq. Sonra sağ əli dirsəkdən barmaqların ucunadək, daha sonra sol əli dirsəkdən barmaqların ucunadək yumaq. Bundan sonra yaş əli (əlin içindəki dəstəmaz suyu ilə) başın qabaq hissəsinə məsh etmək (əli çəkmək). Sonda yaş əlini (əllərin içində qalmış dəstəmaz suyunun rütubətiylə) ayaqlarının üstünə barmaqların[2] ucundan ayağın üstündəki oynaqlaradək çəkmək (məsh etmək) lazımdır.

**Məsələ-183.** Üzün vacibi yuyulmaq miqdarı (əli tam açarkən) orta və baş barmaq arasında qalan məsafədir.

**Məsələ-184.** Tüklə örtülmüş üzlərdə tüklərin üzərini yumaq kifayətdir. Suyu üzün dərisinə çatdırmaq lazım deyil. Amma üzün tükləri çox seyrək olduqda, belə ki, üzün dərisi kamil şəkildə görünərsə, suyu dəriyə çatdırmaq lazımdır.

**Məsələ-185.** (Üzü və əlləri) yumaq, suyu üzvə tam çatdırmaqla hasil olur. Hətta əl ilə çatdırmaqla olsa belə, təkcə nəmli əli ona çəkmək kifayət deyil.

**Məsələ-186.** Üzü və əlləri dəstəmazda yuxarıdan aşağıya doğru istiqamətdə yumaq lazımdır. Əgər aşağıdan yuxarı istiqamətdə yuyularsa, dəstəmaz batildir.

---

[1] Yəni bəzi əməllərin səhih olmasında dəstəmaz almaq şərtdir. Bəzi əməllərdə isə dəstəmaz müstəhəbdir (Mütərcim)

[2] Ayaq barmaqlarının hər birinin başından çəkilməsi kifayətdir. Bax: Məsələ: 192 (Mütərcim)

**Məsələ-187.** Üzü və əlləri bir dəfə yumaq vacib, iki dəfə yumaq caiz, üç və üç dəfədən artıq yumaq haramdır.

**Məsələ-188.** Hər dəfə yumağın meyarı qəsddir (niyyətdir). Buna əsasən, birinci dəfə yumaq niyyətiylə bir neçə dəfə su tökməsinin işkalı yoxdur.

**Məsələ-189.** Üzü və əlləri yuduqdan sonra başın qabaq hissəsi və ayaqların üstü gərək əllərin içində qalmış dəstəmaz suyu ilə məsh edilsin.

**Məsələ-190.** Başın dərisinə məsh etmək vacib deyil. Təkcə başın qabaq hissəsindəki tüklərin üzərinə məsh etmək kifayət edir. Amma başın başqa hissəsinin tükləri qabaq hissəyə yığılıbsa, ya başın qabaq hissəsinin tükləri üzə, yaxud çiyinlərə töküləcək qədər uzun olsa, ona məsh etmək kifayət etmir. Gərək saçları ayırmaqla başın dərisinə, yaxud tükün dibinə məsh edilsin.

**Məsələ-191.** Bir şəxsin başında süni saç olarsa əgər bu saç parik və bu kimi süni saçdırsa məsh etmək üçün onu götürməlidir. Amma tük əkdiribsə, onu götürmək mümkün deyil, yaxud zərərli və ya çətindirsə, bu halda əlin rütubətini başın dərisinə çatdırmaq da mümkün deyilsə, o tüklərin üzərinə məsh etmək kifayətdir.

**Məsələ-192.** Ayaqların məsh etmək miqdarı[1] barmaqların birinin ucundan ayağın üstündəki oynağa qədərdir. Barmaqların aşağı hissəsini (yeriyərkən yerlə təmasda olan hissəsini) məsh etməyin müstəhəb olması sübuta yetməyib.

**Məsələ-193.** Ayağın məshi barmaqların ucundan olmazsa, məsh edərkən təkcə ayağın üstü və barmaqların bir miqdarı məsh edilərsə, dəstəmaz batildir. Amma (sonradan) məsh edərkən barmaqlarının ucunda məsh edib-etmədiyində şəkk etsə, məsələni bildiyi və barmaqların ucundan məsh etdiyini ehtimal etsə, dəstəmazı səhih-dir.

---

[1] Vacibi miqdarı (Mütərcim)

**Məsələ-194.** Baş və ayaqların məshi gərək dəstəmaz suyundan əllərin içində qalan rütubətlə olsun. Rütubət qalmazsa, başqa su ilə əlini isladıb məsh edə bilməz. Bu halda gərək əlini saqqal, yaxud qaşda qalan rütubətlə isladıb məsh etsin. (Vacib) ehtiyata əsasən, başın məshi sağ əl ilə olmalıdır, amma yuxarıdan aşağı istiqamətdə çəkilməsi lazım deyil.

**Məsələ-195.** Dəstəmaz alarkən dəstəmaz niyyətiylə krantı açıb-bağlamağın işkalı yoxdur və dəstəmaza qüsur gətirmir. Amma sol əli yuduqdan sonra və onunla məsh etdikdən öncə əlini krantın üstünə qoymaqla əlindəki dəstəmaz suyu krant üstündəki su ilə qarışsa, həmin su ilə qarışmış rütubətlə məsh etmək işkallıdır.

**Məsələ-196.** Ayaqların məshi (başın məshi kimi) dəstəmaz suyundan əllərin içində qalmış rütubətlə olması şərt olduğu üçün, gərək başa məsh edərkən əl alına dəyməsin və üzün yaşı ilə qarışmasın ki, ayağı məsh edərkən əlin içinin rütubəti ilə olsun.

**Məsələ-197.** Məsh edərkən əli başa, yaxud ayağa çəkmək lazımdır. Əgər əli sabit saxlayıb, başı, ya da ayağı ona çəkərsə, məsh batildir.

**Məsələ-198.** Məshin yeri gərək quru olsun, ya o qədər yaş olmasın ki, əlin içinin rütubəti ona təsir etməsin.

**Məsələ-199.** Əgər ayağın üstündə bir neçə damcı su olsa, məsh etmək üçün onu qurutmaq lazımdır. Belə ki, məsh edərkən əlin rütubəti onda təsir qoysun, əksinə olmasın.

**Məsələ-200.** Ayağın üstü nəcis olduqda onu suya çəkmək mümkün olmadıqda gərək təyəmmüm edilsin.

**Məsələ-201.** Əgər bir şəxsdən ardıcıllıqla yel xaric olsa, belə ki, dəstəmazını namazın sonunadək saxlaya bilməsə və namaz əsnasında da dəstəmaz almaq ona çox çətin olsa, hər dəstəmazla bir namaz qılsın. Yəni hər namaz üçün bir dəstəmaz alsın və onunla namaz qılsın. Hərçənd namaz əsnasında dəstəmazı batil olsa da, namazı səhihdir.

**Məsələ-202.** Dəstəmazın alınma keyfiyyətində kişi və qadın arasında fərq yoxdur. Təkcə müstəhəbdir dəstəmaz alarkən kişilər suyu dirsəyin çöl hissəsindən, qadınlar içəri hissəsindən töksün.

## Dəstəmazın şərtləri

**1. Niyyət**

**Məsələ-203.** Dəstəmaz qəsdi-qürbətlə alınmalıdır, yəni dəstəmaz alarkən bu niyyətdə olmalıdır ki, həmin xüsusi əməli Allahın fərmanına görə yerinə yetirir. Buna əsasən, əgər özünü nümayiş etdirmək üçün və ya sərinləşmək üçün dəstəmaz alarsa, dəstəmaz batildir.

**2. Suyu istifadə etmək ona zərər etməsin**

**Məsələ-204.** Əgər bir şəxs dəstəmaz aldığı təqdirdə xəstələnəcəyindən, yaxud susuz (teşnə) qalacağından qorxsa, dəstəmaz almamalıdır.

**3. Dəstəmaz suyu mütləq (saf) su olmalıdır**

**Məsələ-205.** Dəstəmazın suyu gərək mütləq su olsun. Buna əsasən, müzaf (qarışıq) su ilə dəstəmaz almaq səhih deyil (dəstəmaz batildir).

**4. Dəstəmaz suyu pak olmalıdır**

**Məsələ-206.** Dəstəmaz suyu gərək pak olsun. Buna əsasən, nəcislənmiş su ilə dəstəmaz batildir (səhih deyil).

**5. Dəstəmaz suyu mübah olmalıdır**

**Məsələ-207.** Dəstəmazın suyu gərək mübah olsun. Buna əsasən, qəsb edilmiş suyla dəstəmaz caiz deyil.

**Məsələ-208.** Ümumi dəstəmaz alanlar üçün nəzərdə tutulan məkanın suyu ilə dəstəmaz almağın işkalı yoxdur.

**Məsələ-209.** Əgər su idarəsi (binalarda) suyun təzyiqini artırmaq üçün istifadə edilən nasosların istifadəsini qadağan etsə, onun istifadəsi caiz deyil. Hətta binanın yuxarı mərtəbəsində qaldıqları və suyun o mərtəbələrə zəif qalxması üçün buna məcbur olsalar belə, onun vasitəsi ilə əldə edilən suyla dəstəmaz almaq işkallıdır.

**Məsələ-210.** Yaşayış binalarında müştərək yaşayan sakinlər, həmçinin qeyri yaşayış binalarının abunəçiləri şəri baxımdan (soyuq su, isti su, qaravulçu xidməti və s. kimi) müştərək istifadə etdikləri xidmətlərin müqabilində istifadə etdikləri miqdarın pulunu borcludurlar. Buna əsasən, onların hər hansı biri suyun pulunu verməkdən boyun qaçırarsa, onun (o suyla aldığı) dəstəmazı işkallıdır, hətta batildir.

**6. Dəstəmaz üzvləri pak olmalıdır**

**Məsələ-211.** Dəstəmaz üzvləri yuyulan və məsh edilən zaman pak olmalıdır, amma dəstəmaz qurtarmadan yuduğu, yaxud məsh etdiyi yer (yuyub, ya məsh etdikdən sonra) nəcis olarsa, dəstəmaz batil deyil.

**Məsələ-212.** Əgər dəstəmaz aldıqdan sonra, əvvəlcə nəcis olmuş yeri pakladıqdan sonra dəstəmaz alıb-almamağında şəkk etsə, dəstəmaz alarkən həmin üzvün pak, ya nəcis olması onun yadında olmayıbsa, dəstəmaz batildir. Amma nəcis, yaxud pak olması yadında olmağını bilirsə, yaxud buna ehtimal verirsə, dəstəmaz səhihdir. Lakin hər iki halda o üzvü suya çəkməlidir.

**7. Dəstəmaz üzvlərində suyun üzvə yetişməsinə maneə olmamalıdır**

**Məsələ-213.** Dəstəmaz üzvlərində üzvlərə suyun çatmasına heç bir maneə olmamalıdır, əks halda dəstəmaz batildir.

**Məsələ-214.** Təbii şəkildə üzdə və tükdə yaranan yağlılıq maneə sayılmır. Amma bu yağlılıq həqiqətən suyun dəriyə yetişməsinin qarşısını almaq həddinə çatsa, bu halda dəstəmaz batildir.

**Məsələ-215.** Dırnaqlara vurulan rənglər təkcə rəng olmazsa (məsələn, həna rəngi) və (lak kimi) suyun keçməsinə mane olarsa, dəstəmazı batil edir.

**Məsələ-216.** Qadınların saçlarını və qaşlarını rənglədikləri süni rənglər, əgər təkcə rəng olarsa və suyun dəriyə keçməsinə mane olmazsa, dəstəmaz səhihdir.

**Məsələ-217**. Mürəkkəb suyun dəriyə keçməsinə maneçilik törədərsə, dəstəmazı batil edər. Bunu müəyyən etmək mükəlləfin öz öhdəsindədir.[1]

**Məsələ-218.** Bədənə vurulan tatu təkcə rəng olarsa, yaxud dəri altına vurulub dərinin üzərində suyun keçməsinə maneçilik törədən bir şey olmazsa, dəstəmazı batil etmir.

**Məsələ-219.** Quruduqdan sonra gipsin, yaxud sabunun əldə aşkar olan rəngi dəstəmaza zərər yetirmir. Amma bu, təkcə rəng olmasa və əlində suyun dəriyə yetişməsinə maneçilik törədən bir şey qalsa, dəstəmazı batil edər.

**Məsələ-220.** Əgər dəstəmaz üzvünə bir şeyin yapışdığını bilsə, amma onun suyun dəriyə keçməsinə mane olub-olmamasında şəkk edərsə, gərək onu aradan aparsın.

**Məsələ-221.** Əgər dəstəmazdan qabaq dəstəmazın bəzi üzvlərində suyun dəstəmaz üzvünə yetişməsinə mane[2] olan bir şeyin olduğunu bilsə, dəstəmaz aldıqdan sonra suyu onun altına çatdırıb-çatdırmamaqda şəkk etsə, dəstəmaz alarkən həmin maneə onun yadında olubsa, dəstəmazı səhihdir.

**Məsələ-222.** Dəstəmaz üzvünə hər hansı bir maneənin (suyun dəriyə keçməsinə maneçilik törədən hər hansı bir şeyin) yapışmasında şəkk etsə, əgər onun bu ehtimalının yeri varsa, belə ki, camaat arasında bu ehtimal qəbul edilsə (rəngsazın rənglədikdən

---

[1] Adətən avtoqələmlərin mürəkkəbi duru olduğu üçün bu, suyun dəriyə keçməsinə maneçilik törətmir. Amma qələmlərin mürəkkəbləri qatı olduğu üçün bəzi hallarda suyun dəriyə keçməsinə mane ola bilir.(Mütərcim)

[2] Məsələn, üzük kimi.(Mütərcim)

sonra verdiyi ehtimalı kimi), gərək axtarış etsin, yaxud o qədər əli ilə sürtsün ki, maneə olduğu təqdirdə getməyinə, ya da suyun dəriyə yetişməyinə yəqin etsin.

### 8. Tərtib

**Məsələ-223.** Dəstəmaz gərək onun tərtibi məsələsində (182-ci məsələdə) deyilən tərtiblə alınsın. Başqa tərtiblə alındıqda batildir.

### 9. Müvalat (ardıcıllıq)

**Məsələ-224.** Dəstəmazın əməllərini normal ardıcıllıqla yerinə yetirmək lazımdır. Belə ki, onların arasında düşən fasilə nəticəsində bir üzvü yuyarkən, yaxud məsh edərkən ondan öncə yuyulan üzvlər quruyarsa, dəstəmaz batil olur.

### 10. Mübaşirət (dəstəmazı özü almalıdır)

**Məsələ-225.** Dəstəmaz alan şəxs dəstəmazın bütün əməllərini şəxsən özü yerinə yetirməlidir. Əgər başqası ona dəstəmaz aldırsa, yaxud suyu üzə və əllərə yetişməsində, başa və ya ayaqlara məsh etməkdə ona kömək etsə, dəstəmaz batildir.

**Məsələ-226.** Bir şəxs xəstəlik və bu kimi müşkülə görə özü dəstəmaz ala bilmirsə, gərək dəstəmaz almaq üçün bir şəxsdən kömək alsın. Amma dəstəmaz alan şəxs özü dəstəmaz niyyəti etməlidir və mümkün olan təqdirdə məshləri özü etməlidir. Amma buna da qadir olmazsa, naib (köməkçi) gərək onun əllərini tutub məsh etdirsin (yəni onun əllərini başına və ayaqlarına çəksin). Əgər bu da mümkün olmazsa, gərək naib onun əlinin içindəki rütubətdən götürüb məsh etsin. Dəstəmaz alan şəxsin əli olmazsa, onun qolunun rütubətindən götürməli, qolu da olmadıqda üzünün rütubətindən götürüb baş və ayaqlarına məsh etməlidir.

### 11. Dəstəmaz alıb namaz qılmaq üçün kifayət qədər vaxt olmalıdır

**Məsələ-227.** Əgər namazın vaxtı dəstəmaz alacağı təqdirdə hamısını vaxt daxilində qıla bilməyəcək və (hamısı ya) bir hissəsi vaxtdan sonraya düşəcək qədər dar olsa, bu halda dəstəmaz

almamalı, onun əvəzinə təyəmmüm etməlidir. Bu şərtlə ki, təyəmmümə sərf olunan vaxt dəstəmaza sərf olunan vaxtdan az olsun. Amma təyəmmümün tutduğu vaxt dəstəmazın tutduğu vaxtla bərabər (ya ondan çox) olarsa, dəstəmaz alması vacibdir.

## İrtimasi dəstəmaz

**Məsələ-228.** Dəstəmazda suyu üzə və əllərə tökmək əvəzinə üzü və əlləri suya batırıb çıxarmaqla da dəstəmaz almaq olar. Buna "irtimasi dəstəmaz" deyilir.

**Məsələ-229.** İrtimasi dəstəmazda da (tərtibi dəstəmaz kimi) üzvlərin yuxarıdan aşağıya doğru istiqamətdə yuyulması vacibdir.

**Məsələ-230.** İrtimasi dəstəmazda da (tərtibi dəstəmazda deyildiyi kimi üzvləri) iki dəfədən artıq yumaq olmaz. Birincisi vacib, ikincisi caiz və üçüncüsü qeyri-qanunidir. Əlləri sudan çıxorarkən dəstəmaz niyyəti ilə çıxarmaq lazımdır ki, məshin rütubəti dəstəmaz suyu ilə olsun.

## Cəbirə[1] dəstəmazı

**Məsələ-231.** Yaranın üstü bağlıdırsa, yuya bildiyi yerləri yumalı və sarğının (cəbirənin) üstünə (yumaq əvəzinə) yaş əlini çəkməlidir. Bu dəstəmaza "cəbirə dəstəmazı" deyilir.

**Məsələ-232.** Əgər dəstəmaz(ın yuyulan) üzvlərində (üz və əllərdə) yara, yaxud sınıq olsa, üstüaçıq olduqda və suyun ona zərəri olmadığı təqdirdə yuyulması vacibdir. Amma su ona zərər edərsə, gərək onun ətrafı yuyulsun və üzərinə əl çəkmək zərər etmirsə, (vacib) ehtiyata əsasən, (ətrafını yuduqdan əlavə) yaş əlini də onun üzərinə çəksin.

**Məsələ-233.** Əgər məshin yeri yara olsa və yaş əlini ona çəkə bilmirsə, dəstəmaz əvəzinə təyəmmüm etməlidir. Amma onun

---

[1] Yaranın yaxud sınığın üzərinə qoyulan dərman (və maz), həmçinin yaraya, yaxud sınığa bağlanan sarğı cəbirə adlanır. (Mütərcim)

üzərinə pak bir parça qoyub məsh etməsi mümkün olduqda (vacib) ehtiyata əsasən, təyəmmümdən əlavə belə bir məshlə olan dəstəmaz da almalıdır.

**Məsələ-234.** Əgər bir şəxsin dəstəmaz üzvlərinin biri yara olsa və qanı kəsilməsə, gərək onun üzərinə su keçirməyən bir şey kimi cəbirə qoysun ki, qan bayıra çıxmasın.

## Dəstəmazı batil edənlər

**Məsələ-235.** Dəstəmazı batil edən şeylər "dəstəmazı batil edicilər" adlanır və aşağıdakılardır:

1. Sidiyin xaric olması
2. Ğaitin xaric olması
3. Bağırsaq yelinin xaric olması
4. Yuxuya getmək
5. Ağılı aradan aparanlar, məsələn, dəli olmaq, bihuş olmaq və məst olmaq
6. Qadınlara xas olan istihazə
7. Qüslə səbəb olanlar, məsələn, cənabət, heyz və məssi-meyit (meyitə toxunmaq).

**Məsələ-236.** Dəstəmazın batiledicilәri baş verdikdə həddi-büluğ olmayan uşaq da (həddi-büluğa çatmış şəxs kimi) mühdis olur, yəni dəstəmazı pozulur.

## Dəstəmazın hökmləri

**Məsələ-237.** Əgər bir şəxs namaz qıldıqdan sonra dəstəmazının batil olduğunu və elə də namaz qıldığını bilsə, namazı batildir. Yenidən dəstəmaz alıb namaz qılmalıdır. Necə ki, dəstəmaz şərt olan bütün əməllər üçün dəstəmaz almalıdır.

**Məsələ-238.** Əgər bir şəxs dəstəmazın işləri və şərtlərində çox şəkk edirsə, məsələn, suyun pak olub olmamasında, yaxud qəsb olub olmamasında şəkk edirsə, gərək şəkkinə etina etməsin.

**Məsələ-239.** Bir şəxs dəstəmaz alıb-almamağında şəkk edərsə, əgər bu şəkk namazdan qabaqdırsa, dəstəmaz almalıdır. Habelə əgər namazın arasındadırsa, namazını kəsməli və dəstəmaz alıb namazını yeniləməlidir. Amma namazdan sonra şəkk edərsə, qıldığı namaz səhihdir, lakin başqa namazlar (sonradan qılacağı namazlar) üçün dəstəmaz almalıdır.

**Məsələ-240.** Dəstəmazının batil olmasında şəkk edən şəxs (yəni şəkk edir ki, aldığı dəstəmaz sonradan batil olub, ya yox) dəstəmazını batil olmamış bilməlidir (özünü dəstəmazlı hesab etməlidir).

**Məsələ-241.** Dəstəmazının səhih olmasında şəkk edən şəxs (yəni şəkk edə ki, dəstəmazını düzgün alıb, ya yox) əgər dəstəmazı səhih almaq ehtimalını verirsə və dəstəmaz alarkən onun səhih olmasında lazım olan şərtlərə diqqətli olubsa, şəkkinə etina etməməlidir (və özünü dəstəmazlı hesab etməlidir).

## Dəstəmaza bağlı olan əməllər
## (hansı əməllər üçün dəstəmaz alınmalıdır)

### 1. Namaz

**Məsələ-242.** Dəstəmaz bütün vacib və müstəhəb namazların, eləcə də bu namazların unudulmuş hissələrinin səhiholma şərtidir. Buna əsasən, meyit namazından başqa heç bir namaz dəstəmazsız səhih deyil, Meyit namazı üçün dəstəmaz almaq lazım deyil.

**Məsələ-243.** Vacib namazın vaxtının daxil olmasına az qaldıqda, o namaz niyyətiylə dəstəmaz almağın işkalı yoxdur.[1]

**Məsələ-244.** Təharət (paklıq) niyyəti ilə dəstəmaz almaq şəri nöqteyi-nəzərdən müstəhəbdir və müstəhəb dəstəmazla namaz qılmaq olar.

---

[1] Amma əgər hələ onun vaxtının daxil olmasına çox vaxt qalarsa, o namaz niyyətiylə dəstəmaz almaq olmaz. Baxmayaraq ki, başqa niyyətlə, məsələn, təharətli qalmaq niyyətilə qabaqcadan dəstəmaz alarsa, dəstəmaz namazın vaxtına qədər pozulmadıqda, onunla namaz qıla bilər. (Mütərcim)

**Məsələ-245.** Müstəhəbdir insan bütün hallarda dəstəmazlı olsun, xüsusilə, məscid və ziyarətgahlara daxil olarkən, Quran tilavət edərkən, yatarkən və digər vaxtlarda.

**Məsələ-246.** Dəstəmaz səhih şəkildə alındıqdan sonra nə qədər ki, pozulmayıb, təharət şərt olan bütün əməlləri onunla yerinə yetirmək olar. Buna əsasən, hər bir namaz üçün ayrı-ayrı dəstəmaz almaq lazım deyil və bir dəstəmazla istənilən qədər namaz qılmaq olar.

**2. Vacib təvaf**

**Məsələ-247**. Dəstəmaz Allahın evini vacib təvaf etməyin səhih olmağının şərtidir və dəstəmazsız vacib təvaf batildir. Vacib təvafda məqsəd həcc, yaxud ümrənin bir hissəsi sayılan təvafdır. Hətta həcc, yaxud ümrə müstəhəb olsa belə, amma onlardan savayı edilən müstəhəb təvafın səhih olmasında dəstəmaz almaq şərt deyil.

**3. Qurana məss etmək (Qurana əl, yaxud bədənin hər hansı bir hissəsini vurmaq)**

**Məsələ-248.** Quranın xəttinə dəstəmazsız əl vurmaq haramdır və bu hökm Qurani-kərimə xas deyil. Hətta Quranın bütün kəlmə və ayələrinə, hərçənd başqa kitablarda, qəzetlərdə, jurnallarda və s. yazılsa belə aiddir.

**Məsələ-249.** Bədənin dodaq, üz və s. kimi bütün hissələrini Quranın xəttinə vurmaq ona əl vurmaq hökmündədir.

**4. Mütəal Allahın, peyğəmbərlərin (ə) və məsum imamların (ə) adlarına məss etmək (toxunmaq)**

**Məsələ-250.** Mütəal Allahın zatına xas olan ad və sifətləri dəstəmazsız məss etmək haramdır. (Vacib) ehtiyata əsasən, peyğəmbərlərin və məsum imamların adları da bu hökmdədir.

**Məsələ-251.** Ləfzi-cəlaləni, yəni "اللّٰه" kəlməsini dəstəmazsız məss etmək hətta Əbdullah və Həbibullah kimi mürəkkəb kəlmələrin bir hissəsi olsa belə haramdır.

**Məsələ-252.** (Cümlə daxilində) Allahın zatına qayıdan (və aid olan) əvəzlikləri məss etmək ləfzi-cəlaləni "الله" məss etmək hökmündə deyil. Məsələn, "بسمه تعالى" cümləsində olan əvəzlik kimi.

**Məsələ-253.** Ləfzi-cəlalənin "الله" əvəzinə bir həmzə və üç nöqtə "...ا" qoymağın şəri maneəsi yoxdur və dəstəmazsız onu məss etmək caizdir.

**Məsələ-254.** Dəstəmazsız şəxslərin ləfzi-cəlaləyə məss etməsi ehtimalına görə ləfzi-cəlaləni yazmamağın eybi yoxdur.

**Məsələ-255.** Üstündə Quran ayələri, yaxud mübarək adların yazıldığı boyun bağını boyundan asmağın işkalı yoxdur, amma gərək onun yazıları dəstəmazsız halda bədənlə təmasda olmasın.

**Məsələ-256.** Üzərində Quran ayələri, o cümlədən Ayətəl-kürsi, yaxud mübarək adlar yazılan qablarda yemək yeməyin işkalı yoxdur. Bu şərtlə ki, dəstəmazlı olsun, ya xörəyi qaşıqla götürsün (belə ki, əli yazılara toxunmasın).

**Məsələ-257.** Yazı maşınları ilə Quran ayələri, ləfzi-cəlalə, yaxud məsumların (ə) adlarının yazılması ilə məşğul olan şəxslərə yazı zamanı dəstəmaz almaq lazım deyil (yəni bu işdə təharət şərt deyil), amma təharətsiz onları məss edə bilməz.

**Məsələ-258.** Üzüklərin üzərinə həkk olan kəlmələr Quran ayəsi kimi məss edilməsinin caiz olmasında təharət şərt olan kəlmələrdən olarsa, təharətsiz məss edilməsi caiz deyil.

**Məsələ-259.** Quran ayələri və mütəal Allahın adlarının və s. çap və nəşr edilməsinin işkalı yoxdur. Amma hər kəsin əlinə yetişərsə, vacibdir onların şəri hökmlərinə riayət etsin. Ona ehtiramsızlıq etmək, nəcis etməkdən və dəstəmazsız toxunmaqdan çəkinsin.

**Məsələ-260.** Quran ayələri və mübarək adlar yazılan qəzetlərdən istifadə etmək, bir şeyi bükmək, süfrə kimi istifadə etmək, üzərinə bir şey yazmaq və s. kimi istifadə etmək, ürf arasında ona ehtiramsızlıq sayılarsa, caiz deyil. Amma ehtiramsızlıq sayılmazsa işkalsızdır.

**Məsələ-261.** Üzərinə Quran ayələri, yaxud mübarək adlar yazılan hər hansı bir şeyi arxa, ya kanala atmaq xalq arasında təhqir sayılmazsa, işkalsızdır.

**Məsələ-262.** Əgər Quran ayələri, yaxud Allahın adları və ya digər mübarək adların hər hansı bir vərəqdə olması (yazılması) məlum olmasa, onu yandırmaq və atmağın işkalı yoxdur. Axtarış da lazım deyil, Xatırladaq ki, istifadəsi mümkün olan, ya yeni istehsalla istifadəyə verilə bilən yazılı kağızların atılmasında israf şübhəsi olduğu üçün işkalsız deyil.

**Məsələ-263.** Quran ayələri və mübarək adları yerə basdırmaq, yaxud su ilə xəmirə çevirməyin işkalı yoxdur. Amma onları yandırmaq işkallıdır, hətta əgər ehtiramsızlıq sayılarsa caiz deyil. Xatırladaq ki, əgər naçarlıq üzündən olarsa, belə ki, Quran ayələrini ayırmaq da mümkün olmasa, bu halda işkalı yoxdur.

**Məsələ-264.** Quran ayələri və mübarək adları kiçik-kiçik tikələrə parçalamaq belə ki, hətta iki hərf də bitişik qalmasın və oxunması mümkün olmasın ehtiramsızlıq sayılmazsa, işkalı yoxdur. Lakin ləfzi cəlalə və Quran yazısı tamamilə aradan getməyibsə, bədəni (təharətsiz) ona toxundurmaq caiz deyil. Həmçinin bəzi hərfləri azaldıb-çoxaltmaqla xəttin şəklinin dəyişdirilməsi onun hökmünün aradan getməsinə səbəb olmur. Amma xəttin dəyişdirilməsi nəticəsində Quran və s. niyyətiylə yazılmış hərflər aradan getmiş kimi dəyişsə, onun hökmünün də dəyişməsi nəzərdən uzaq deyil (yəni dəyişir). Amma müstəhəb ehtiyat budur ki, dəstəmazsız məss edilməsin.

# QÜSLÜN HÖKMLƏRİ

**Məsələ-265.** Başdan-ayağa xüsusi şərtlər və keyfiyyətlə bədənin yuyulmasına qüsl deyilir.

## Qüslün qisimləri

### 1. Vacib qüsl

**Məsələ-266.** Kişi və qadınlar arasında olan müştərək vacib qüsllər:
1- Cənabət qüslü
2- Meyiti məss etdikdən sonra vacib olan qüsl
3- Nəzir, əhd və and içməklə vacib olan qüsl

### Qadınlara məxsus olan qüsllər:

1-Heyz qüslü: aylıq adət bitdikdən sonra vacib olan qüsl.

2-Nifas qüslü: uşaq azad olandan sonra gələn qan sona yetdikdə vacib olan qüsl.

3-İstihazə qüslü: arabir qanaxma nəticəsində vacib olan qüsl.

**2. Müstəhəb qüsl** (cümə qüslu kimi).

## Qüsl etməyin qaydası

**Məsələ-267.** Qüsl iki formada yerinə yetirilə bilər:

1. Tərtibi (tərtiblə edilən qüsl): Xüsusi tərtiblə bədəni yumaq lazımdır. Belə ki, birinci baş və boynu, sonra vacib ehtiyata[1] əsasən, bədənin tamam sağ tərəfini, daha sonra sol tərəfini yumaq lazımdır.

---

[1] Bu vacib ehtiyat bədəni boyundan aşağı sağ və sol hissələrini tərtiblə yumağa aiddir.(Mütərcim)

2. İrtimasi (birbaşa suya batmaqla edilən qüsl): Bu qüsl bədəni bütövlüklə suya batırmaqla alınır. Belə ki, su gərək bədənin hamısını əhatə etsin.

**Məsələ-268.** Qüslda vacib ehtiyata əsasən, uzun saçları və onun altını yumaq lazımdır. Buna əsasən, qadınlar (vacib ehtiyata görə) başın dərisinə suyu yetişdirməkdən əlavə saçlarının hamısını yumalıdırlar.

**Məsələ-269.** Qüsl edərkən üzü qibləyə durmaq vacib deyil.

**Məsələ-270.** Qüsl niyyətindən qabaq bədənin hər hansı bir üzvünü yumağın işkalı yoxdur.

**Məsələ-271.** Tərtibi qüsl qeyd olunan tərtiblə yerinə yetirilməzsə (istər bilərəkdən, istər unutmaq üzündən və istərsə də məsələni bilmədən) batildir.

**Məsələ-272.** Əgər bir şəxs qüsldən sonra bədəninin bir hissəsinə suyun yetişmədiyini bilsə, bu qüsl irtimasi qüsl olarsa, istər su yetişməyən yer məlum olsun, istər olmasın gərək yenidən qüsl etsin. Amma tərtibi qüsldürsə, əgər yuyulmayan yer bədənin sol tərəfindədirsə, həmin miqdarı yumaq kifayətdir. Əgər sağ tərəfində olsa, sağ tərəfinin yuyulmayan miqdarını yuduqdan sonra sol tərəfi yenidən bütövlüklə yumalıdır. Həmçinin əgər baş və boyun nahiyəsindədirsə, o miqdarı yuduqdan sonra sağ və sol tərəfi tərtiblə yumaq lazımdır. Yuyulmayan hissənin hansı tərəfdə olduğu bilinmədikdə gərək yenidən qüsl edilsin.

## Cəbirə qüslü

**Məsələ-273.** Cəbirə qüslü cəbirə dəstəmazı kimidir.

## Qüslün şərtləri

**Məsələ-274.** Dəstəmaz üçün deyilən şərtlər - suyun pak olması və digər şərtlər - qüslə də aiddir. Lakin qüsldə (dəstəmazdan fərqli olaraq) yuxarıdan aşağı istiqamətində, həmçinin bədən üzvlərinin

ardıcıl olaraq yuyulması şərt deyil. Buna əsasən, qüsl edərkən fasilə salıb başqa bir işlə məşğul olmaq, sonra qaldığı yerdən ona davam etməyin eybi yoxdur.

**Məsələ-275.** Qüsl edən zaman hər bir hissəni yuyarkən o hissə nəcisdirsə, əvvəlcə onu suya çəkmək (paklamaq) lazımdır. Amma qabaqcadan bədənin bütövlükdə pak olması vacib deyil (şərt deyil). Buna əsasən, (hər bir) üzv qüsldan qabaq pak edilərsə, qüsl səhihdir. Amma bir üzv qüsldən qabaq nəcisdirsə və bir dəfə suya verməklə həm onu suya çəkmək, həm qüsl etmək istəsə, batildir.

**Məsələ-276.** Qüsl etmək üçün suyun bədənə yetişməsinin qarşısını alan hər hansı bir maneə aradan qaldırılmalıdır. Əgər maneənin getməsinə əmin olmadan qüsl edərsə, qüsl batildir.

## Qüslün (müxtəlif) hökmləri

**Məsələ-277.** Əgər qüsl əsnasında hədəsi-əsğər baş versə (məsələn, sidiyə gedə), qüslün səhih olmasına zərər gətirməz. Qüslü əvvəldən başlamaq lazım deyil. Eləcə də onu davam etmək lazımdır. Amma bu qüsl cənabət qüslüdürsə, onda digər qüsllər kimi dəstəmaz üçün kifayət etmir, namaz və dəstəmaza bağlı olan digər əməllər üçün dəstəmaz almaq lazımdır.

**Məsələ-278.** Boynunda bir neçə qüsl olan şəxs onların hamısını birlikdə niyyət edib bir qüsl edə bilər. İstər hamısı vacib qüsl olsun, istərsə də bəziləri vacib və bəziləri müstəhəb. Əgər onlardan biri cənabət qüslüdürsə, onun niyyətiylə bir qüsl etsə, digər qüsllər üçün də kifayət edər. Baxmayaraq ki, hamısını birlikdə niyyət etmək (müstəhəb) ehtiyata uyğundur.

**Məsələ-279.** Cənabət qüslündən başqa qüsllər dəstəmaz üçün kifayət etmir.

**Məsələ-280.** Əgər bir şəxs qüsldən sonra onun batil olduğunu bilsə, onunla qıldığı bütün namazların qəzasını qılmalıdır.[1]

**Məsələ-281.** Əgər qüsl edib-etməməsində şəkk edərsə, qüsl şərt olan əməllər üçün qüsl etməlidir. Lakin o vaxta qədər qıldığı namazlar səhihdir. Amma (qüslü etsə və) onu səhih yerinə yetirib-yetirməməsində şəkk edərsə, səhih yerinə yetirməsinə ehtimal verərsə və həmçinin qüsl zamanı onun səhih olmasında lazım olan əməllərdə diqqətli olarsa, şəkkinə etina etməməlidir (qüslü səhih hesab etməlidir).

## Cənabət qüslü

**Məsələ-282.** İnsan iki yoldan biri ilə cünub olur:

1. Cinsi əlaqədə olmaqla (istər halal, yaxud haram yolla olsun, istər sperma xaric olsun, yaxud olmasın, həddi-büluğa yetişmiş olsun, yaxud yox).

2. Sperma xaric olmaqla (istər yuxuda olsun, istər ayıqlıqda, bilərəkdən, yaxud bilmədən, fərqi yoxdur).

**Məsələ-283.** Kişidən xaric olan rütubət şəhvətlə, sıçramaqla və bədənin süst olmağıyla yanaşı olarsa, məni hökmündədir (sperma hesab olunur). Amma bu üç əlamətdən heç biri, yaxud hər biri olmazsa və ya o əlamətlərin olmağında şəkk edilərsə, məni hökmündə deyil. Lakin bununla belə (əlamətlər olmadıqda, ya şəkk edildikdə) başqa yolla məni olmasına yəqin edərsə, məni sayılacaqdır.

**Məsələ-284.** Qadının ləzzətin son nöqtəsinə yetişdiyi zaman müşahidə etdiyi maye məni hökmündədir və gərək qüsl etsin. Amma bu mərhələyə yetişməsində, yaxud mayenin xaric olmasında şəkk edərsə, qüsl vacib deyil.

---

[1] Əlbəttə əgər qəzaya gedibsə, amma vaxtı ötmədikdə əda niyyətiylə qılacaqdır. (Mütərcim)

**Məsələ-285.** Düxul olmadan (yəni qeyri adi yolla) spermanın qadının daxilinə yerləşdirilməsi cənabətə (cünub olmağa) səbəb olmur.

**Məsələ-286.** Düxul hasil olmaqla hətta alətin başı (sünnət edilən hissə) miqdarında olsa belə, həm kişiyə və həm qadına cənabət qüslü vacib olur. İstər sperma xaric olsun, istər olmasın, istər qadın ləzzətin son mərhələsinə çatsın, istər çatmasın.

**Məsələ-287.** Əgər bir qadın cinsi yaxınlıqdan sonra hələ daxilində məni qalarkən fasiləsiz olaraq qüsl etsə və qüsldən sonra məni xaric olsa, xaric olan məni qadının mənisi olub-olmamağı məlum olmadıqda qüslü səhihdir. Amma qüsldən sonra gələn məni nəcisdir və bu yeni cənabətə səbəb olmur.

**Məsələ-288.** Qadınlara tibbi əşyalar vasitəsilə daxili müayinələr olduqda nə qədər ki, məni xaric olmayıb, qüsl vacib deyil.

## Cünub olana haram olan işlər

**Məsələ-289.** Beş iş cünuba haramdır:

1. Quran xəttini və mütəal Allahın zatına xas olan ad və sifətləri məss etmək. Habelə vacib ehtiyata əsasən, peyğəmbərlər (ə) və məsum imamların (ə) adlarını məss etmək də bu hökmdədir.

2. Məscidül-həram və Məscidün-nəbiyə daxil olmaq, hətta bir qapıdan girib başqa bir qapıdan çıxsa belə.

3. Məscidlərdə dayanmaq, amma məscidə bir qapıdan girib, (dayanmadan) başqa bir qapıdan çıxarsa, eybi yoxdur. (Vacib) ehtiyata əsasən, məsum imamların (ə) hərəmləri də məscid hökmündə-dir.[1]

4. Məscidə bir şey qoymaq.

---

[1] Cünub şəxslərin imamzadələrin (ə) hərəmlərinə girməsi işkalsızdır. Həmçinin təkyələr və hüseyniyyələr məscid hökmündə deyil.

5. Quranın vacib səcdələri olan surələrin səcdəyə məxsus olan ayələrindən oxumaq, amma o surələrin digər ayələrini oxumağın işkalı yoxdur.

**Məsələ-290.** Səcdə ayələri bunlardır:
- Səcdə surəsinin (32-ci surənin) 15-ci ayəsi,
- Fussilət surəsinin (41-ci surənin) 37-ci ayəsi,
- Nəcm surəsinin (53-cü surənin) 62-ci ayəsi,
- Ələq surəsinin (96-cı surənin) 19-cu ayəsi.

Bu ayələri oxuyana və eşidənə səcdə etmək vacibdir.

## Cənabət qüslünün hökmləri

**Məsələ-291.** Şəri vəzifələri yerinə yetirməkdə utanmağın yeri yoxdur və bu (cənabət qüslü kimi) vacibləri tərk etmək üçün şəri üzr sayılmır. Amma cənabət qüslü etmək birinə mümkün olmadıqda, onun vəzifəsi namaz və oruc üçün qüsl əvəzinə təyəmmüm etməkdir.

**Məsələ-292.** Əgər bir şəxs qüsl almağa üzrlü olsa, qüsl əvəzinə təyəmmüm etməlidir. Buna əsasən, əgər xanımı ilə cinsi yaxınlıq edərsə, qüsl edə bilməyəcəyini bilsə (məsələn, qüsl üçün su əldə edə bilməyəcək və ya vaxtın darlığı nəticəsində qüsl etməyə kifayət qədər vaxt olmayacaq) onunla cinsi yaxınlıq etmək caizdir, bu şərtlə ki, təyəmmüm etmək mümkün olsun. Bu halda təharət şərt olan əməlləri yerinə yetirmək üçün qüsl əvəzinə təyəmmüm etməlidir. O təyəmmümlə məscidə daxil olmaq, namaz qılmaq, Quran yazılarını məss etmək və təharət şərt olan digər əməlləri yerinə yetirməyin işkalı yoxdur (Xatırladaq ki, bu təyəmmüm vaxt darlığına görə olarsa, vacib ehtiyata əsasən, o təyəmmümlə təkcə hansı əməl üçün təyəmmüm edibsə, onu yerinə yetirə bilər).

**Məsələ-293.** Bir şəxs məni xaric olduqdan sonra qüsl etsə, sonra ondan rütubət xaric olarsa, onun məni olub olmamasını bilməsə, bu halda əgər məni xaric olduqdan və qüsl etməzdən öncə sidiyə

getməyibsə, həmin maye və rütubət məni hökmündədir, gərək yenidən qüsl etsin.

**Məsələ-294.** Əgər paltarında bir ləkə görsə və məni, yoxsa başqa bir şey olması məlum olmasa, nə qədər ki, onun məni olduğuna və öz mənisi olduğuna yəqin etməyib, qüsl vacib deyil.

**Məsələ-295.** Cənabət qüslü edən şəxs namaz (və digər əməllər) üçün dəstəmaz almamalıdır, namaz və dəstəmaz şərt olan digər əməlləri həmin qüsllə yerinə yetirməlidir.[1]

**Məsələ-296.** Əgər cənabət qüslündən sonra qüslün batil olub olmamasında şəkk etsə, namaz üçün dəstəmaz almaq lazım deyil. Amma ehtiyat üzündən dəstəmaz almağın işkalı yoxdur.

**Məsələ-297.** Əgər bir şəxs namazın vaxtı dar olan zaman cənabətdən pak olmaq niyyətiylə (nəinki bu namaz üçün) qüsl etsə, hərçənd sonradan bilsə ki, namaz qılmaq üçün vaxt qalmayıb, onun qüslü səhihdir.

## Qadınlara məxsus olan qüsllər

### 1. Heyz [2]

**Məsələ-298.** Heyzin nişanələri olsa belə, qızın doqquz yaşından tez gördüyü qan heyz deyil.

**Məsələ-299.** Qadının heyzdən pak olduqdan sonra gördüyü ləkələr qan deyilsə, heyz hökmündə deyil. Amma hətta sarı ləkə halında qan olarsa, bu halda onun ümumi qan gördüyü müddət on gündən çox deyilsə, o ləkələrin hamısı heyz hökmündədir. Bunu müəyyənləşdirmək qadının öz öhdəsindədir.

**Məsələ-300.** Hamiləlikdən qorunmaq üçün dərman (tablet) istifadə edən qadınların adət vaxtlarında və başqa vaxtlarda gördükləri

---

[1] Bu şərtlə ki, dəstəmazı batil edən işlərdən biri qarşıya çıxmasın. Məsələn, bövl kimi.(Mütərcim)

[2] Heyz qanı, çox vaxt hər ay neçə gün müddətində qadının uşaqlığından təbii halda xaric olan qandır. Bu qan nütfə bağlandıqda uşağın yeməyidir.

ləkələr heyzin şəri şərtləriylə uyğun olmazsa, heyz hökmündə deyil, istihazə sayılır.

**Məsələ-301.** Müəyyən aylıq adəti olan bir qadının (məsələn, hər ay yeddi gün heyz olan qadının) adət müddəti hamiləlikdən mexaniki qorunma, yəni spiral qoymaq nəticəsində dəyişsə və hər dəfə on gündən artıq (məsələn, on iki gün) qan görsə, adət günlərində gördüyü qan heyz, qalanları istihazə sayılır.

**Məsələ-302.** Qadının hamiləlik dövründə gördüyü qanda heyzin şərtləri və nişanələri olarsa, yaxud adət vaxtlarında olarsa, heyz qanıdır. Hərçənd daxildə cari ola və bayıra çıxmasa, amma onun şərtləri və nişanələri onda olmasa, istihazə sayılacaq.

## Haizin hökmləri

**Məsələ-303.** Cünub şəxsə haram olan bütün işlər haiz (heyz olan) qadına da haramdır.

**Məsələ-304.** Əgər qadın heyz halında cünub, yaxud cənabət halında heyz olarsa, [1] heyzdən pak olduqdan sonra vacibdir heyz qüslündən əlavə cənabət qüslü də versin. Qeyd edək ki, təkcə cənabət qüslü verərsə, heyz qüslü verməyə ehtiyac yoxdur. Hərçənd müstəhəbdir ki, hər ikisini birlikdə niyyət etsin.

**Məsələ-305.** Heyz halında edilən cənabət qüslünün səhih olması işkallıdır.

**Məsələ-306.** Bir qadının müəyyən gündə oruc tutmağı nəzir etdiyi üçün o gün oruc tutub gün arasında heyz olsa, orucu adət (heyz) olan kimi hərçənd günün bir hissəsində olsa belə, batil olur. Pak olduqdan sonra onun qəzasını tutmaq vacibdir.

**2. İstihazə**

---

[1] Habelə əgər heyzdən pak olduqda qüsl etməzdən qabaq cünub olsa, (Mütərcim)

**Məsələ-307.** Qadının yaisə dövründə[1] gördüyü qan istihazədir.[2] Buna əsasən, atası Haşimi (seyid) olmayan qadınlar hərçənd anası seyid olsa belə, yaisəlik yaşından sonra qan görərsə, istihazə hökmündə olacaq.

**3. Nifas (doğuş qanı)**

**Məsələ-308.** Uşaqsaldırmadan (abort) sonra qadından gələn qan, hətta uşaq ələqə "bağlı qan" halında olsa belə, nifas hökmündədir.

**Məsələ-309.** Haizə haram olan bütün işlər nifas qanı görən qadına da haramdır.

---

[1] Həzrət Ayətullah-üzma Xamenei yaisəlik yaşının dəqiq vaxtında təəmmül etdiyi və bu barədə ehtiyat etməyi lazım bildiyi üçün qadınlar bu məsələdə müəyyən fətvası olan cameüş-şərait müctəhidə müraciət edə bilərlər.

[2] İstihazə qanı o qandır ki, heyz və nifas günlərindən başqa vaxtlarda qadının uşaqlığından xaric olur. Bu qan bakirəlik və yara qanına da, aid edilmir.

# MEYİTİN HÖKMLƏRİ
## Məssi-meyit qüslü

**Məsələ-310.** Əgər kimsə bədəni soyumuş, amma qüslü verilməmiş insan meyitinə məss edərsə, yaxud bədəninin hansısa hissəsini onun bədəninin bir hissəsinə vurarsa, gərək namaz və bu kimi əməllər üçün qüsl etsin. Bu qüsl "məssi-meyit" qüslü adlanır.

**Məsələ-311.** Meyitin bədənindən ayrılmış bir üzvə əl vurmaq (yaxud bədənin sair hissəsinə toxunmaq) o üzv soyuduqdan sonra və qüslü verilmədən olarsa, meyitin bədəninə əl vurmaq hökmündədir.

**Məsələ-312.** Diri insanın bədənindən ayrılmış üzvə məss etmək (məsələn, ona əl vurmaq) qüslə səbəb olmur.

**Məsələ-313.** Aşağıdakı yerlərdə meyitin bədəninə məss etmək qüslə səbəb olmur:

1. Meyitin bədəni hələ (tam) soyumayıbsa,
2. Döyüş meydanında şəhid olubsa,
3. Üç qüslü verilibsə.

**Məsələ-314.** Nə zaman meyitin qüslünün verilməsində şəkk etsək, onun cəsədini, yaxud bədəninin hissələrinə (soyuduqdan sonra) məss etmək məssi meyit qüsluna səbəb olur. Həmin qüslü vermədən namaz səhih deyil. Əgər qüslün verilməsi məlum olsa, amma onun səhih verilib-verilməməsində şəkk etsək, cəsədi, yaxud bədənin hissələrini məss etmək qüslə səbəb olmur.

**Məsələ-315.** Məssi-meyit qüslü dəstəmaz üçün kifayət etmir. Cənabət qüslündən fərqli olaraq məssi-meyit qüslü edən şəxs namaz qılmaq üçün dəstəmaz da almalıdır.

## Möhtəzirin (canverənin) hökmləri

**Məsələ-316.** Yaxşıdır ki, can verən müsəlman şəxsi arxası üstə qiblə səmtinə uzatsınlar. Belə ki, ayaqlarının altı qibləyə tərəf qalsın. Fəqihlərdən bir çoxu bunu can verən şəxsin özünə, qadir olmadığı halda başqalarına vacib biliblər. Bu əməli yerinə yetirməkdə gərək ehtiyat tərk olmasın.

## Ölümdən sonra olan vaciblər

**Məsələ-317.** Müsəlman öldükdən sonra bir neçə vacib əməl (başqalarının) boynuna gəlir:

1. Qüsl
2. Hənut
3. Kəfən
4. Namaz
5. Dəfn

İslam baxımından müsəlmanın ölüsü onun dirisi kimi ehtirama malikdir. Onun ehtiramı və dəyərləndirilməsi (qüsl, kəfən, dəfn və bu kimi) məxsus əməllər şəklində həyata keçirilir ki, bu əməllər İslam şəriətində bütün müsəlmanlara vacibdir.

**Məsələ-318.** Müsəlman meyitinin qüsl, kəfən, namaz və dəfni kifayi vacibdir. Yəni hər bir müsəlmana vacibdir, lakin bəziləri (kifayət qədər şəxslər) onu yerinə yetirdikdə başqalarının boynundan götürülür. Amma heç kim yerinə yetirməsə, hamı günahkardır.

**Məsələ-319.** Əgər meyitin qüslü, kəfəni, namazı, yaxud dəfninin səhv yerinə yetirildiyi məlum olarsa, yenidən yerinə yetirilməsi vacibdir. Amma onun batil olduğuna güman, yaxud şəkk etməklə yeniləməyə ehtiyac yoxdur.

**Məsələ-320.** Meyitin qüsl, kəfən, namaz və dəfni üçün gərək onun vəlisindən icazə alınsın. Meyitin atası, anası, övladları və bu tərtiblə

irs təbəqələrində olan qohumları onun vəlisi sayılır. Meyit qadındırsa, onun əri başqalarından müqəddəmdir.

## Meyit qüslü

**Məsələ-321.** Vacibdir müsəlman meyitinə üç qüsl verilsin:
1. Bir miqdar sidr qarışdırılmış suyla (sidr suyu);
2. Bir miqdar kafur qarışdırılmış suyla (kafur suyu);
3. Xalis su ilə.

**Məsələ-322.** Meyitə qüsl verən şəxsin aşağıdakı şərtləri vardır:

1. On iki imama etiqadı olan şiə olmalıdır.
2. Həddi-büluğa yetişməlidir.
3. Aqil (ağıllı) olmalıdır.
4. Qüslün hökmlərini bilməlidir.
5. Meyit kişi olsa kişi, qadın olsa, qadın onun qüslünü verməlidir.

**Məsələ-323.** Qadın meyitinə onun əri, kişinin meyitinə onun arvadı qüsl verə bilər.

**Məsələ-324.** Meyit qüslündə də başqa ibadətlər kimi niyyət etmək şərtdir. Belə ki, qüsl verən şəxs onu Allahın əmrini yerinə yetirmək qəsdi ilə etməlidir.

**Məsələ-325.** Qüslü vacib olan meyit:

1. Müsəlman kişi və qadın;
2. Müsəlman uşağı;
3. Saldırılmış müsəlman uşağının dörd ayı tamam olubsa, qüsl vermək vacibdir. Amma dörd aydan qabaq vacib deyil.

**Məsələ-326.** Əgər meyitin bədənindən bir yer nəcasətə bulansa, gərək qüsldən qabaq suya çəkilsin. Buna əsasən, qanaxması olan meyitə qüsl vermək üçün qanı paklamaq lazımdır. Əgər gözləməklə qanın kəsilməsi, yaxud onun qarşısını almaq mümkündürsə, bunu etmək lazımdır.

**Məsələ-327.** Meyitin övrətinə (ayıb yerlərinə) baxmaq haramdır. Qüsl edən şəxs baxarsa, günah edib, lakin qüsl batil deyil.

**Məsələ-328.** Əgər meyitə qüsl vermək üçün su olmasa, yaxud maneə olarsa, hər bir qüsl əvəzinə bir təyəmmüm etmək lazımdır.

## Hənutun hökmləri

**Məsələ-329.** Vacibdir meyitə qüsl verdikdən sonra hənut vurulsun, yəni onun (səcdə edərkən yerlə təmasda olan üzvlərinə) alnının, əllərinin içinə, dizlərinin başına və ayaqlarının baş barmaqlarına kafur çəkilsin. Belə ki, kafur çəkilməklə ondan bir miqdar o yerlərdə qalsın.

**Məsələ-330.** Kafur gərək təzə və ovulmuş halda olsun, belə ki, vurulmaqla meyiti ətirləsin. Əgər köhnəlmə səbəbiylə onun qoxusu getsə, kifayət etmir.

**Məsələ-331.** Həcdə ehram bağlayan şəxs (həcc kitabında deyildiyi kimi) bu hökmdən müstəsnadır (yəni ehram halında ölərsə, ona hənut vurmaq caiz deyil).

## Meyitin kəfəninin hökmləri

**Məsələ-332.** Müsəlman meyitini üç hissə parça ilə kəfən etmək vacibdir:

**1. Fitə** - Bu parça meyitin belindən ayaqlarınadək bükülür.

**2. Köynək** - Bu, meyitin çiyninin üstündən dizdən bir qədər aşağıya qədər geyindirilməlidir.

**3. Sərtasər** - Bu parça meyitin bədənini başından ayaqlarının altınadək başdan-başa örtməlidir. Belə ki, hər iki tərəfdən bağlanması mümkün olsun. Onun eni o qədər olmalıdır ki, iki tərəfi bir-birinin üzərinə düşsün.

**Məsələ-333.** Əgər meyitin kəfəni onun bədənindən xaric olmuş, yaxud xaricdən ona dəymiş nəcasətlə nəcislənsə, gərək pak edilsin. Əgər kəfən xarab olmazsa, həmin hissə kəsilsin. Buna əsasən, meyitin kəfəni qüsldən sonra onun bədənindən gələn qanla

bulanarsa, əgər o hissəni yumaq, kəsmək, yaxud dəyişmək mümkündürsə, bu iş vacibdir. Amma mümkün olmadığı təqdirdə o halda dəfn edilməsi caizdir.

**Məsələ-334.** İnsan özünə aldığı kəfənlə başqasını istər ata-anası olsun, istərsə də qohumu, yaxud başqa bir şəxs kəfənləyə bilər.

## Meyit namazının hökmləri

**Məsələ-335.** Müsəlman meyitinə qüsl edib, hənut vurub kəfən geyindirdikdən sonra namaz qılmaq vacibdir (Onun qaydası sonradan deyiləcək).

**Məsələ-336.** Altı yaşı tamam olan və ən azı valideynlərindən biri müsəlman olan uşaq həddi-büluğa yetişmiş şəxs hökmündədir və onun meyitinə də namaz qılmaq vacibdir.

**Məsələ-337.** Meyitin namazı niyyət, aralarında dua və salavat olan beş təkbirdən ibarətdir. Aşağıda qeyd olan kimi qılınması kifayətdir:
1. Birinci təkbirdən sonra desin: Əşhədu ənla ilahə illəllah və ənnə Muhəmmədən rəsulullah.

2. İkinci təkbirdən sonra desin: Əllahummə salli əla Muhəmməd və ali Muhəmməd

3. Üçüncü təkbirdən sonra desin: Əllahumməğfir lil-muminina vəl-muminat
4. Dördüncü təkbirdən sonra desin: meyit kişi olduqda, Əllahumməğfir lihazəl-məyyit. Meyit qadın olarsa, Əllahumməğfir lihazihil-məyyit.
5. Sonda beşinci təkbir deyilir və namaz başa vurulur.

**Məsələ-338.** Meyit namazının qılınma qaydası ətraflı şəkildə geniş risalələrdə və bəzi dua kitablarında qeyd olunub.

**Məsələ-339.** Meyitə namaz qılan şəxs ayaq üstə və üzü qibləyə durmalıdır. Həmçinin meyiti onun müqabilində arxası üstə uzatmaq vacibdir. Belə ki, onun başı namaz qılanın sağ tərəfinə və ayaqları sol tərəfinə düşsün.

**Məsələ-340.** Meyitlə namazqılan arasında divar və pərdə kimi maneə olmamalıdır, amma tabut və s. kimi şeylərin içində qoyulub namaz qılmağın işkalı yoxdur.

**Məsələ-341.** Meyit namazı qılmaq üçün dəstəmazlı olmaq, namaz qılanın bədən və paltarının pak olması və ya onun qəsbi olmaması şərt deyil.

**Məsələ-342.** Əgər meyiti bilərəkdən, yaxud unutmaq üzündən və ya hər hansı bir üzrə görə namazsız dəfn etsələr, nə qədər ki, onun cəsədi çürüməyib qəbrinə namaz qılınması vacibdir.

**Məsələ-343.** Başqa camaat namazında və imam-camaatda lazım olan şərtlər meyit namazında şərt deyil, baxmayaraq ki, (müstəhəb) ehtiyat budur ki, o şərtlərə meyit namazında da riayət olunsun.

## Dəfnin (meyiti dəfn etməyin) hökmləri

**Məsələ-344.** Yuxarıda deyilən vəzifələr (qüsl, hənut, kəfən və namaz) sona çatdıqdan sonra gərək meyiti yerə dəfn etsinlər. Onun qəbrinin dərinliyi o qədər olmalıdır ki, qoxusu bayıra çıxmasın və yırtıcı heyvanlar da onun bədənini bayıra çıxara bilməsin.

**Məsələ-345.** Meyiti qəbirdə gərək sağ tərəfi üstə elə uzatsınlar ki, üzü, sinəsi və qarnı qiblə səmtinə qalsın.

**Məsələ-346.** Qüslü verilmiş müsəlman meyitinin sümüyü nəcis deyil, amma onu yenidən dəfn etmək vacibdir.

**Məsələ-347.** Müsəlman qəbirlərini bir neçə mərtəbədə düzəltmək caizdir, bu şərtlə ki, həmin iş qəbirin açılmasına səbəb olmasın, həmçinin müsəlmana (meyitə) hörmətsizlik sayılmasın.

**Məsələ-348.** Qəbrin üstünə dəfn günü su tökmək müstəhəbdir və başqa günlərdə rəca niyyəti ilə (savab ümidi ilə) su tökməyin işkalı yoxdur.

## Qəbri açmağın hökmləri

**Məsələ-349.** Şəri qaydalarla dəfn edilmiş müsəlman qəbrini açmaq caiz deyil. Həmçinin müsəlman qəbristanlığını xarab etmək, hətta küçələri genişləndirmək üçün olsa belə haramdır. Qəbir açıldıqda və müsəlman meyitin bədəni, yaxud sümükləri aşkar olunduqda yenidən onu dəfn etmək (örtmək) vacibdir.

**Məsələ-350.** Meyitin sümükləri torpağa çevrildikdə başqa bir meyiti orada dəfn etmək üçün o qəbri açmaq caizdir.

**Məsələ-351.** Qəbri açmaq caiz olmayan yerlərdə (qəbri açmaq üçün) mərceyi təqliddən icazə almağın faydası yoxdur.

## Şəhidin hökmləri

**Məsələ-352.** Şəhidə qüsl və kəfən hökmü yoxdur (yəni onların vacib olması şəhidə aid deyil).

**Məsələ-353.** Burada dediyimiz şəhiddə məqsəd o şəhiddir ki, döyüş meydanında şəhadətə yetişsin. Buna əsasən, sərhəd bölgələrində, haqq-batil və yağı arasında olan döyüşlərdə haqq qrupundan dünyasını dəyişən şəxslər şəhid hökmündədir. Amma döyüş meydanından kənarda qətlə yetirilən şəxslər, baxmayaraq ki, şəhadət savabına nail olurlar, şəhidə aid olan bu hökm onlara aid olmur. Məsələn, əgər dünyanın hər hansı bir bölgəsində İslam hökmlərini icra etmək yolunda, yaxud islami nümayişlərdə qətlə yetirilən şəxslər bu hökmdən müstəsnadırlar.

## Edam olunan şəxsin hökmləri

**Məsələ-354.** Üzərində edam hökmü icra olunan müsəlman digər müsəlmanlar hökmündədir, müsəlman meyitinin meyit namazı və s. kimi bütün islami vacib və müstəhəb hökmləri ona da aiddir.

**Məsələ-355.** Meyitlə həmcins olmaq şərti təkcə qüslə aiddir. Belə ki, meyitə onunla həmcins olanların vasitəsilə qüsl vermək mümkün

olduqda, qeyrisinin ona qüsl verməyi səhih deyil və qüsl batildir (Xatırladaq ki, qabaqda dediyimiz kimi, qadına onun əri, kişiyə onun arvadı qüsl verə bilər). Amma meyiti kəfənləmək və dəfn etməkdə həmcins olmaq şərt deyil.

**Məsələ-356.** Meyitin qüsl, kəfən və dəfninə aid lazım olan istifadələrin normal həddi, kiçik (həddi-büluğa çatmamış) vəlilərin izninə bağlı deyil və kiçik uşaqlarının olmağına xatir müşkül yaranmır. Buna əsasən, meyiti vəsisi olmasa və bir neçə nəfər kiçik övladı da olsa belə, öz yaşadığı mənzildə qüsl və kəfən etməyin işkalı yoxdur.

**Məsələ-357.** Cənazə təşyiində[1] və onu aparmaqda iştirak etmək qadınlar üçün də işkalsızdır.

[1] Meyiti dəfndən qabaq dəfn etmək üçün əllər üstündə piyada gəzdirmək və aparmaq cənazə təşyii adlanır. (Mütərcim)

## TƏYƏMMÜMÜN HÖKMLƏRİ

**Məsələ-358**. Aşağıdakı yerlərdə qüsl və dəstəmaz əvəzinə təyəmmüm etmək lazımdır.

1. Su tədarükü mümkün olmadıqda - ya su olmadıqda və ya suya əl çatmadıqda təyəmmüm etmək lazımdır. Məsələn, quyuda su var, lakin onu çıxarmaq (çəkmək) üçün lazım olan əşya və avadanlıq yoxdur.
2. Su onun salamatlığına (canına, ya bədəninə) zərər etdikdə.

3. Suyu dəstəmaz üçün istifadə edərsə, özü, yaxınları və ya canını qorumaq ona vacib olan bir şəxsin susuz qalmaq təhlükəsi olduqda.
4. İxtiyarında olan su təkcə namaz üçün bədən, yaxud paltarını paklamaq miqdarında olduqda.

5. Su, ya su qabını işlətmək haram olduqda, məsələn, qəsbi olarsa.
6. Namazın vaxtı dar olduqda, belə ki, əgər dəstəmaz alarsa, yaxud qüsl edərsə, namazın bir hissəsi vaxtdan xaric olacaq.

**Məsələ-359.** Əgər bir şəxsə dəstəmaz və qüsl zərər edərsə və ya çox çətin olarsa, gərək onun əvəzinə təyəmmüm etsin. Bu halda əgər dəstəmaz alıb, yaxud qüsl edərsə, səhih deyil.

**Məsələ-360.** Əgər bir şəxs dəstəmaz və qüsl ona zərər etdiyinə görə (məsələn, xəstələnməyinə səbəb olur) təyəmmüm etsə, onunla namaz qıla bilər. Lakin əgər o təyəmmümlə namaz qıldıqdan qabaq məlum olsa ki, zərər deyil, təyəmmüm batildir. Əgər o təyəmmümlə namaz qıldıqdan sonra zərər etməməsini bilsə, vacib ehtiyata əsasən, gərək dəstəmaz, yaxud qüsl edib namazını yeniləsin.

**Məsələ-361.** Gecə yarısında qüsl etmək çətin, yaxud cavanlar üçün ayıb sayılması şəri üzr sayılmır. Nə qədər ki, qüsl hərəcli (çox çətin), yaxud mükəlləf üçün zərərli deyil, hər hansı mümkün bir şəkildə qüsl etmək vacibdir. Hərəc və zərər halında təyəmmüm etməlidir.

**Məsələ-362.** Əgər bir şəxs cünub olarsa, bədən və paltarını yumaq və ya dəyişmək miqdarında vaxt olmasa, hava soyuq olduğu üçün də namazını lüt qıla (xüsusi şərtlərlə) bilməsə, gərək namazını qüsl əvəzinə təyəmmümlə və (əynindəki) nəcis geyimlə qılsın. Bu namaz kifayətdir, qəzası da yoxdur.

**Məsələ-363.** Əgər bir şəxs qüsl edib namaz qılarsa, namazının hamısı, yaxud bir hissəsinin vaxt daxilindən çıxmasından qorxsa, gərək təyəmmüm edib namaz qılsın.

**Məsələ-364.** Əgər bir şəxsdən yuxu halında bir rütubət xaric olarsa, oyandıqdan sonra yadına bir şey gəlməsə və paltarını yaş görərsə, möhtəlim [1] olmasını bilsə cünubdur. Gərək qüsl etsin. Vaxt dar olduqda gərək bədənini paklayıb qüsl əvəzinə təyəmmüm edərək namaz qılsın. Sonradan (başqa namazlar üçün) qüsl etsin. Amma bilməsə (və möhtəlim olmağında şəkk edə), cünub hökmündə deyil.

**Məsələ-365.** Ziyarət kimi təharət şərt olmayan əməllər niyyətiylə qüsl əvəzinə edilən təyəmmüm işkallıdır. Amma qüsl mümkün olmadığı təqdirdə rəca qəsdi (savab ümidi) ilə təyəmmüm etməyin işkalı yoxdur.[2]

## Təyəmmüm səhih olan şeylər

**Məsələ-366.** Torpaq, qum, çınqıl, kəsək və daş (gips, əhəng, mərmər və qranit daşları) kimi yer sayılan hər hansı bir şeyə təyəmmüm etmək səhihdir. Həmçinin bişmiş gipsə, əhəngə və kərpicə də təyəmmüm etmək olar.

**Məsələ-367**. Qızıl, gümüş və s. kimi yer sayılmayan mədən əşyalarına təyəmmüm etmək səhih deyil, amma mərmər (və qranit) kimi mədən daşlarına təyəmmüm etmək səhihdir.

---

[1] "Ehtilam" yuxuda spermanın xaric olmasına deyilir və o şəxs "möhtəlim" adlanır. (Mütərcim)

[2] Amma bu təyəmmümlə təharət şərt olan əməlləri yerinə yetirmək olmaz. (Mütərcim)

**Məsələ-368.** Sement və mozaikin (yerə döşənən daşlar) üzərinə təyəmmüm etməyin işkalı yoxdur, baxmayaraq ki, müstəhəb ehtiyat onlara təyəmmüm etməməkdir.

## Təyəmmüm etmək qaydası

**Məsələ-369.** Təyəmmüm etməkdə beş şey vacibdir:

1. Niyyət etmək.

2. İki əlin içini təyəmmüm səhih olan bir şeyə vurmaq.

3. İki əlin içini başın tük bitən yerindən qaşları da əhatə etməklə alnın hamısına və onun iki tərəfinə burunun üstünə qədər çəkmək.

4. Sol əli sağ əlin və sonra sağ əli sol əlin üstünə bütövlükdə çəkmək.

5. Vacib ehtiyata əsasən, yenidən əllərin içini təyəmmüm səhih olan yerə vurub, sol əli sağ əlin və sonra sağ əli sol əlin üstünə bütövlükdə çəkmək.

**Məsələ-370.** Yuxarıda deyilən qayda qüsl və dəstəmaz əvəzinə olan təyəmmümlərin hər ikisinə aiddir, bunların fərqi yoxdur.

**Məsələ-371.** Əgər alnın ya əllərin üstündən az miqdar da olsa məsh edilməsə (çəkilməsə), təyəmmüm batildir. İstər bilərəkdən olsun, istər unutmaq üzündən, istərsə də məsələni bilməmək səbəbiylə olsun. Əlbəttə, çox diqqətə də ehtiyac yoxdur, alnın hamısı və əllərin üstü bütövlükdə məsh olunub deyiləcək qədər məsh edilərsə, kifayətdir.

**Məsələ-372.** Əlin üstünü bütöv məsh etdiyinə yəqin hasil etmək üçün gərək bir qədər biləkdən yuxarı hissədən çəkilsin, amma barmaqların arasını məsh etmək (barmaqların arasına əlini çəkmək) lazım deyil.

## Cəbirə təyəmmümü

**Məsələ-373.** Vəzifəsi təyəmmüm olan şəxsin təyəmmüm üzvlərindən biri (ya bəzisi) yara və bu kimi səbəblə bağlanmış olsa, deyilən tərtiblə təyəmmüm edəcək. Yaranın üzərinə bağlanmış, yaxud qoyulmuş sarğı və ya parçanı o üzvün dərisi kimi hesab edəcək.

## Təyəmmümün şərtləri

**Məsələ-374.** Təyəmmümün yeddi şərti var:

1. Təyəmmüm edilən şey pak olmalıdır.

2. Təyəmmüm edilən şey mübah olmalıdır (yəni qəsbi olmamalıdır). Amma qəsbi olduğunu bilmədən, yaxud unutmaq üzündən ona təyəmmüm edərsə, təyəmmüm səhihdir.

3. Təyəmmüm üzvlərində maneə olmamalıdır. Buna əsasən, üzük və bu kimi şeyləri əlindən çıxarmalıdır. Həmçinin alnına və digər təyəmmüm üzvlərinə bir şey yapışdıqda qabaqcadan onu aradan qaldırmalıdır.

**Məsələ-375.** Əllərin və alnın üstündə bitən tüklər təyəmmümün səhih olmasına maneə sayılmır, amma başın tükü alına tökülərsə, təyəmmüm zamanı onu qaldırmaq lazımdır.

**Məsələ-376.** Yara və bu kimi səbəbdən təyəmmüm üzvündən biri bağlıdırsa və onu açmaq zərər, yaxud çətindirsə, bağlı əllə, ya bağlı əlin üzərinə məsh edəcək (əlini çəkəcək).

4. Alın və əllər yuxarıdan aşağıya olan istiqamətdə məsh edilməlidir.

5. Təyəmmümü qabaqca dediyimiz tərtiblə etmək lazımdır, əks halda təyəmmüm batildir.

6. Təyəmmümün əməlləri ardıcıl olaraq yerinə yetirilməlidir. Əgər onların arasında fasilə salınsa və bu fasilə təyəmmüm edir deyilməyəcək qədər olsa, təyəmmüm batildir.

7. Təyəmmümü ixtiyarlı halda (imkan daxilində) özü etməlidir və

başqasından kömək ala bilməz. Amma iflic və digər xəstəlik üzündən özü təyəmmüm edə bilmirsə, naib (köməkçi) tutmalıdır. Bu zaman naib onun öz əlləri ilə ona təyəmmüm etdirməlidir. Amma bu mümkün olmazsa, gərək naib öz əllərini yerə vursun, sonra onun alnı və əllərinə çəksin.

**Məsələ-377.** Təyəmmüm üzvlərinin (alın və əllərin üstünün) pak olması lazım deyil, baxmayaraq ki, ehtiyata uyğundur.

## Təyəmmümün hökmləri

**Məsələ-378.** Əgər təyəmmüm səhih olan bir şey tapılmasa, gərək xalça və libas kimi əşyaların üzərinə yığılmış tozlara təyəmmüm etsin. Əgər bu da olmasa, yaş palçıq olarsa, ona təyəmmüm etsin. Amma bunların heç birinə əl çatmadıqda (təyyarədə olan şəxs kimi), (vacib) ehtiyata əsasən dəstəmazsız və təyəmmümsüz namazını qılmalı, sonra dəstəmaz, yaxud təyəmmümlə (vəzifəsi əsasında) namazını qəza etməlidir.

**Məsələ-379.** Vəzifəsi təyəmmüm olan şəxs, vacib ehtiyata görə namazın vaxtından qabaq namaz üçün təyəmmüm edə bilməz. Amma əvvəlcədən başqa vacib, yaxud müstəhəb əməllər üçün təyəmmüm edibsə, namaz vaxtınadək təyəmmümə olan üzrü yerində qalıbsa (təyəmmüm batil olmadığı təqdirdə), onunla namaz qıla bilər.

**Məsələ-380.** Əgər bir şəxs namazın vaxtı qurtardıqdan qabaq üzrünün aradan getməsini bilərsə, vaxtın əvvəlində təyəmmüm edə bilməz. Gözləyib üzrü aradan getdikdən sonra qüsl edib, yaxud dəstəmaz alıb namazını qılmalıdır.

**Məsələ-381.** Qüsl əvəzinə təyəmmüm edən şəxsdən hədəsi əsğər (dəstəmazı batil edən şey) baş versə, məsələn, idrar etsə, nə qədər ki, təyəmmüm üçün şəri üzrü aradan getməyib, vacib ehtiyata əsasən, təharət şərt olan əməllər üçün yenidən təyəmmüm etməlidir. Bundan əlavə dəstəmaz da almalıdır. Əgər dəstəmaz

almaq üçün də üzrlüdürsə, dəstəmaz əvəzinə də təyəmmüm etməlidir.

**Məsələ-382.** Su olmaması ya başqa üzrlərə görə edilən təyəmmüm üzr aradan getdikdən sonra batil olur.

**Məsələ-383.** Dəstəmazı batil edən şeylər dəstəmaz əvəzinə edilən təyəmmümü də batil edir. Qüslü batil edən şeylər qüsl əvəzinə edilən təyəmmümü də batil edir.[1]

**Məsələ-384.** Qüsl əvəzinə edilən təyəmmüm, şəri baxımdan qüsl hökmündədir. Bu hökmdən vaxtın darlığına görə edilən təyəmmüm müstəsnadır.[2] Buna əsasən, qüsl əvəzinə edilən təyəmmümlə, məscidə daxil olmaq, namaz qılmaq, Quran yazılarına əl vurmaq və s. təharət şərt olan əməlləri yerinə yetirmək işkalsızdır (olar).[3]

## Namazın hökmləri

Namaz ibadətlərin ən mühümüdür. Əgər düzgün və diqqətli şəkildə yerinə yetirilərsə, insanın ruhunu (canını) paklayar, onun qəlbini nuranilaşdirər və ona bəyənilməyən xislət (və xasiyyətlərə) qalib gəlməkdə yardımçı olar. Yəni (namaz) fərdi, ictimai əxlaq və rəftarları tədricən islah edib cəmiyyəti bütün mənəvi çirkinlikdən xilas edə bilər. Çox yaxşıdır namaz əvvəl vaxtında, hüzuri-qəlblə qılınsın. Namaz qılan şəxs unutmamalıdır ki, hər bir kəlməsində Allahla danışır və bilməlidir ki, nə deyir.

---

[1] Həmçinin qüslü batil edən şeylər dəstəmaz əvəzinə edilən təyəmmümü də batil edir. Amma dəstəmazı batil edən şeylər Ayətullah Üzma Xamenei həzrətlərinin nəzərincə vacib ehtiyata əsasən, qüsl əvəzinə edilən təyəmmümü batil edir. Buna görə də 381-ci məsələdə qeyd olunan ehtiyat yolu riayət edilməlidir. (Mütərcim).

[2] Yəni əgər vaxt darlığına görə təyəmmüm edibsə, namazı qıldıqdan sonra təyəmmüm batil olur, necə ki, digər üzrlərin aradan getməsiylə təyəmmüm batil olur. (Mütərcim)

[3] Dəstəmaz əvəzinə edilən təyəmmüm də bu hökmdədir. ( Mütərcim)

# VACİB NAMAZLAR

**Məsələ-385.** Vacib namazlar aşağıdakılardan ibarətdir:

1. Yövmiyyə namazları (gündəlik namazlar).

2. Təvaf namazı: Allahın Kəbə evini ziyarət etdikdən sonra qılınan namaz.

3. Ayət namazları: Güntutulma, aytutulma və zəlzələ kimi göy və yer hadisələri baş verdikdə qılınan namazlar.

4. Meyit namazı: Müsəlman bir şəxs öldükdən sonra onun cənazəsinə qılınan namaz.

5. Ata və ananın qəza namazları: Bu namaz təkcə böyük oğula vacibdir.[1]

6. Nəzir, əhd etmək, and içmək və icarə vasitəsilə vacib olan namazlar.

## Müstəhəb namazlar

**Məsələ-386.** Müstəhəb namazlar çoxdur və onlar "nafilə" adlanırlar. Nafilə namazlarının arasında gecə-gündüzün (yövmiyyə) nafilələrinə təkidlə tövsiyə olunub.

## Yövmiyyə nafilələri

**Məsələ-387.** Gecə-gündüz qılınan yövmiyyə namazlarının hər biri üçün müstəhəb namazlar vardır ki, bunlara yövmiyyə nafilələri deyilir. Bu nafilələri qılmaq çox mühümdür və onlar üçün çoxlu savablar deyilib. Bunlardan əlavə müstəhəbdir gecənin axır üçdə bir hissəsində[2] gecə nafiləsi qılınsın və çox yaxşıdır ki, bu namaz davamlı olsun.

---

[1] Başqaları könüllü şəkildə qıla bilərlər. Bu halda qılındığı say da böyük oğlun boynundan düşür. (Mütərcim)

[2] Gecə nafiləsinin vaxtı gecənin yarısından sübh azanına kimidir və gecənin axır üçdə bir hissəsi onun daha müstəhəb olan vaxtıdır. (Mütərcim)

**Məsələ-388.** Yövmiyyə nafilələri aşağıdakılardan ibarətdir:

1. Zöhr namazının nafiləsi: Səkkiz rəkətdən ibarət dörd namazdır ki, zöhr namazından qabaq iki-iki qılınır.[1]

2. Əsr namazının nafiləsi: Səkkiz rəkətdən ibarət dörd namazdır ki, əsr namazından qabaq iki-iki qılınır.

3. Məğrib namazının nafiləsi: Dörd rəkətdən ibarət iki namazdır ki, məğrib namazından sonra qılınır.

4. İşa namazının nafiləsi: İki rəkətdən ibarətdir ki, işa namazından sonra oturaq halda qılınır.

5. Sübh namazının nafiləsi: İki rəkətdən ibarətdir ki, sübh namazından qabaq qılınır.

6. Gecə nafiləsi: Bu namaz on bir rəkətdir. Bunun vaxtı gecənin yarısından sübh azanınadəkdir və yaxşıdır gecənin axır üçdə bir hissəsində qılınsın.

**İzah:** İşa namazının oturan halda olan iki rəkət nafiləsi bir rəkət hesab olunduğu üçün yövmiyyə nafilələrinin sayı otuz dörd rəkət (yövmiyyə namazlarının iki bərabəri) olur.

**Məsələ-389.** Zöhr və əsrin nafilələri zöhr və əsr namazlarından sonra, ehtiyata əsasən qürbətən iləllah qəsdiylə, əda və qəza niyyəti etmədən qılınmalıdır.

**Məsələ-390.** Gecə namazı on bir rəkətdir. Əvvəlcə gecə namazı (nafiləsi) niyyətiylə hər biri iki rəkətdən ibarət olan dörd namaz müstəqil şəkildə, təşəhhüd və salamla qılınır. Sonra sübh namazı kimi "şəf namazı" adlanan bir iki rəkətli namaz və daha sonra "vitr namazı" adlanan bir rəkətdən ibarət olan yeni bir namaz qılınır. Dua kitablarında deyildiyi kimi vitr namazının qunutunda möminlər üçün

---

[1] Dörd namazdır ki, hər biri iki rəkətdən ibarətdir və sübh namazı kimi qılınır. Əsrin nafiləsi də bunu kimidir, həmçinin məğrib namazının dörd rəkət nafiləsi də iki namaz olduğu üçün hər biri iki rəkət qılınmalıdır. Əlbəttə başqa müstəhəb namazlarda olduğu kimi bu namazlarda da "Həmd"dən sonra "surə" oxunması vacib deyil. (Mütərcim)

istiğfar və dua etmək, həmçinin Allah-təaladan hacətləri istəmək müstəhəbdir.

**Məsələ-391.** Gecə namazında ("Həmd" surəsindən sonra "Tövhid" surəsi kimi yeni bir) surə oxumaq, (vitr namazının qunutunda özü və möminlər üçün) istiğfar və dua etmək şərt deyil. Niyyət və təkbirətül-ehram dedikdən sonra hər bir rəkətdə "Həmd" surəsini oxumaq kifayətdir. Amma istəyərsə, "Həmd" surəsini qiraət etdikdən sonra Quran surələrindən birini qiraət etsin. Bundan sonra rüku və səcdələri yerinə yetirib, təşəhhüd və salamı deyib namazı sona yetirir.

**Məsələ-392.** Nafilələri iki rəkət-iki rəkət qılmaq lazımdır ki, burada təkcə (gecə nafiləsində olan) vitr namazı müstəsnadır ki, bir rəkətdir. Belə ki, gecə namazının (nafiləsini) iki dörd rəkətli, bir iki rəkətli və bir vitr namazı şəklində qılmaq səhih deyil.

**Məsələ-393.** Nafilələri oturan halda qılmaq səhihdir, lakin ayaq üstə qılmaq daha yaxşıdır.

**Məsələ-394.** Zöhr, əsr və işa nafilələrini səfərdə qılmaq olmaz.[1]

**Məsələ-395.** Gündəlik nafilə namazlarının hər birinin özünəməxsus vaxtları var ki, təfsilatlı risalələrdə gəlib.

## Namazqılanın paltarı
## Namazda bədənin örtülmə miqdarı

**Məsələ-396.** Kişi üçün namaz halında övrətlərini (ayıb yerlərini), hətta heç bir kəs onu görməsə belə örtmək vacibdir. Amma yaxşıdır göbəkdən dizlərə qədər örtsün.

**Məsələ-397.** Qadın üçün namaz halında üzü dəstəmazda yuyulması vacib olan miqdarda, əlləri biləkdən aşağı, ayaqları oynağa

---

[1] Yəni müsafir hökmündə olan şəxslər dörd rəkətli namazları qəsr (iki rəkət) qıldıqları kimi, bu namazların nafilələrini də qılmamalıdırlar. (Mütərcim)

qədər (topuqdan aşağı) istisna olmaqla bədəninin və saçlarının bütün hissələrini örtmək vacibdir (hətta naməhrəm onu görməsə belə).

**Məsələ-398.** Çənə üzün bir hissəsi olduğu üçün namazda örtülməsi lazım deyil, amma çənənin aşağı hissəsini örtmək vacibdir.

**Məsələ-399.** Naməhrəm olduqda ayaqları (tamamilə) oynaqdan aşağı hissəsini də örtmək vacibdir.

**Məsələ-400.** Əgər namaz əsnasında saçlarının bir miqdarının göründüyünü bilsə və dərhal onu örtə, namazı səhihdir. Amma (qabaqcadan) bilərəkdən örtməsə (bu zaman namaz əsnasında örtməyin faydası yoxdur və) namaz batildir.

**Məsələ-401.** Əgər namazqılan şəxs namazdan sonra namazda lazım olan miqdar örtüyün olmamasını bilsə, namazı düzdür.

## Namazqılanın paltarının şərtləri

**Birinci şərt:** Namazqılanın paltarı gərək pak olsun.

**Məsələ-402.** Əgər bir şəxs namazqılanın paltar və bədəninin pak olması şərtini bilmədən nəcis paltar, yaxud bədənlə namaz qılsa namazı batildir.

**Məsələ-403**. Əgər bir şəxs bədən, yaxud paltarının nəcis olduğunu bilmədən nəcis bədən, yaxud paltarla namaz qılarsa və namazdan sonra onun nəcis olduğunu bilsə, namazı səhihdir. Amma namazdan qabaq onun nəcis olduğunu bilsə, lakin unudub onunla namaz qılarsa, bu zaman namazı batildir.

**Məsələ-404.** Namaz əsnasında bədən, yaxud paltarının nəcis olmasını bilərsə, bu halda əgər onun namazdan qabaq nəcis olduğunu, yaxud namazın bir miqdarını onunla qıldığını bilərsə, namaz qılmaq üçün kifayət qədər vaxt qaldıqda batildir. Amma vaxt dar olarsa, bu zaman əgər namazı sındırmadan, ya namazla müxalif olan bir iş görmədən bədən və ya paltarı paklamaq imkanı varsa, yaxud onu

əynindən çıxarmaq mümkündürsə, bu işi görmək və namazı tamamlamaq lazımdır. Amma nəcasəti paklamaq mümkün deyilsə, yaxud bu iş namazın pozulmasına səbəb olacaqsa, onda çılpaq namaz qılmaq da (xüsusi şərtlərlə) mümkün olmadığı təqdirdə nəcis bədən, yaxud paltarla namazını tamamlamalıdır.

**Məsələ-405.** Əgər nəcis paltarı suya çəksə və pak olmasına yəqin edib onunla namaz qılsa, namazdan sonra pak olmadığını bilərsə, qıldığı namaz səhihdir. Lakin sonrakı namazlar üçün o paltarı pak etməlidir.

**Məsələ-406.** Paltarın nəcis olub-olmamasına şəkk etdikdə həmin paltarla namaz qılmaq olar. Buna əsasən, nəcis olması məlum olmayan spirtli ətirlərlə ətirlənmiş libaslarla namaz qılmağın işkalı yoxdur. Həmçinin məcburiyyət halında bövl və ğaitinin məxrəcini sudan başqa bir şeylə təmizləyən şəxs, (evinə getdikdən sonra özünü paklayan zaman) paltarının sidiklə nəcis olub-olmadığını bilməzsə, həmin paltarla namaz qıla bilər və onu suya çəkmək, yaxud dəyişmək lazım deyil.

**İkinci şərt:** Namazqılanın libası gərək mübah olsun (qəsbi olmasın).

**Məsələ-407.** Əgər paltarının qəsbi olduğunu bilməsə, yaxud unutsa və onunla namaz qılsa, namazı səhihdir. Həmçinin qəsbi paltarı geyməyin haram olduğunu bilmədən namaz qılarsa, namazı səhihdir.

**Üçüncü şərt:** Namazqılanın libası gərək murdar olmuş heyvanın hissələrindən olmasın.

**Məsələ-408.** Namazqılanın paltarı gərək qanı atıcı olan murdarın (ölü və ya şəri qaydada kəsilməyən heyvanın) hissələrindən olmasın. Vacib ehtiyata görə qanı atıcı olmayan murdarın hissələrindən də olmamalıdır.

**Məsələ-409.** Əgər murdar olmuş heyvanın hissələrindən namaz qılanın üstündə olsa, vacib ehtiyata əsasən, namaz batildir. Amma əgər buynuz, yun və tük kimi ruhu olmayan hissələrdən olarsa və əti halal olan heyvandırsa, namaz batil deyil.

**Məsələ-410.** Təzkiyəsin [1] (heyvanın başının şəri qaydada kəsildiyinə) şəkk edilərsə, bu heyvanın dərisindən hazırlanmış paltarda namaz qılmaq və ətindən yemək olmaz. Bu baxımından o, murdar hökmündədir. Lakin nəcasət və təharət baxımından murdar hökmündə deyil və pak hesab olunur. Keçmiş namazlar hökmü bilməmək üzündən bu kimi dəridən hazırlanmış paltarlarda qılınıbsa, səhihdir.

Buna əsasən, qeyri-müsəlman ölkəsindən gətirilmiş və şəri qaydada təzkiyə olunub-olunmamasında şəkk edilən heyvan dərisi nəcis deyil, lakin onunla namaz qılmaq olmaz.[2]

**Dördüncü şərt:** Namazqılanın paltarı əti haram olan heyvanın dərisindən olmamalıdır.

**Məsələ-411.** Namazqılanın paltarı əti haram olan heyvanın hissələrindən olmamalıdır. Hətta onun bir tükü belə namazqılanın paltarına, yaxud bədəninə yapışsa, namaz batildir.

**Məsələ-412.** Əgər (pişik kimi) əti haram olan heyvanın ağız, yaxud burnunun suyu və ya başqa bir rütubəti (məsələn, təri) namazqılanın bədən, yaxud geyimində olarsa, onun namazı batildir. Amma əgər bu, aradan getsə və yeri də qurusa, namaz səhihdir. Deməli, əgər əti haram olan quşların ifrazatından namaz qılanın üstündə olsa, sonra o paltar, yaxud bədəndən kənar edilsə, yeri də qurusa, namaz səhih olacaq.

---

[1] "Təzkiyə" heyvanın şəri qaydada öldürülməsi, ya tutulmasıdır. Bu, əksər hallarda heyvanın başının kəsilməsi ilə olur. İnək və qoyunun təzkiyəsi onların başının xüsusi şərtlərlə kəsilməsi ilə hasil olur ki, buna "zibh" deyilir. Dəvənin təzkiyəsi xüsusi şərtlərlə boğazını deşməklə olur ki, buna "nəhr" deyilir. Balıqların təzkiyəsi onları sudan diri halda çıxarmaqladır ki, buna "seyd" (ov) deyilir. Çəyirtkənin təzkiyəsi onu diri tutmaqladır ki, buna da "seyd" (ov) deyilir.Xüsusi şərtlərlə vəhşi heyvanların (quş və ahu kimi) silahla, yaxud ov itləri vasitəsi ilə də təzkiyə olunması mümkündür ki, bunlara da "seyd" (ov) deyilir. (Mütərcim)

[2] Xatırladırıq ki, bu hökm kafir ölkələrindən gələn, ya kafirin əlindən alınıb şəri təzkiyəsi araşdırılmayan ət və dərilərə aiddir. Amma müsəlman bazarından alınan ət, yaxud dəri, kafirdən alınması, ya kafir ölkəsindən gəlməsi məlum olmadıqda pakdır, halaldır, hətta onun düzgün təzkiyə olmasında şəkk edilsə belə o dəri ilə namaz qılmaq da caizdir.(Mütərcim)

**Məsələ-413.** (Başqa bir) insanın tükü, təri və ağzının suyu, habelə arı pətəyi, mirvari və sədəfin namazqılanın bədən, yaxud paltarında olmağının namaza maneçiliyi yoxdur.

**Məsələ-414.** Paltarın əti halal, yaxud haram olan heyvanın hissələrindən olmasında şəkk edilərsə, onunla namaz qılmaq işkalsızdır.

**Beşinci şərt:** Namazqılan kişinin paltarı qızılla toxunmuş olmamalıdır.

**Məsələ-415.** Qızılla toxunmuş paltarı geymək kişiyə haramdır. Onunla namaz qılarsa, namazı batildir. Amma qadınlar üçün hər halda işkalsızdır.

**Məsələ-416.** Qızıl zəncir asmaq, qızıl üzük və ya qızıl saat taxmaq kişi üçün haramdır və vacib ehtiyata əsasən namazı batil edir.

**Məsələ-417.** Kişi üçün qızıl geyinmək, asmaq və taxmağın haram olmasının meyarı onu zinət və bəzək məqsədiylə istifadə etmək deyil. Bu mütləq şəkildə hər bir niyyətlə olsa belə haramdır.[1] Buna əsasən, nişan üzüyü taxmaq xalq arasında zinət yox, yeni həyatın başlaması üçün nişan olan bir ənənə də olsa, hərçənd başqalarının gözündən gizli olsa belə, onu istifadə etmək haramdır. Amma onun sümük cərrahiyyə əməliyatında və diş düzəltməkdə istifadə edilməsi işkalsızdır.

**Məsələ-418.** Qızılın kişilər üçün geyilməsinin haram olmasında vaxt baxımından fərq yoxdur və hətta nişan mərasimində bir an geyilməsi də haramdır.

**Məsələ-419.** Əgər ağ qızıl sarı qızıla müəyyən maddənin qarışdırılması nəticəsində rəngini dəyişən həmin sarı qızıldırsa, kişi üçün istifadəsi haramdır. Amma qızıl maddəsi onda qızıl deyilməyəcək qədər az olsa, onun istifadəsinin eybi yoxdur.

---

[1] Hətta libasın altında olsa belə.(Mütərcim)

**Məsələ-420.** Platin qızıl deyil və qızıl hökmündə də deyil. Buna görə də onun istifadəsi kişilər üçün işkalsızdır.

**Altıncı şərt:** Namazqılan kişinin paltarı xalis ipəkdən olmamalıdır.

**Məsələ-421.** Namazqılan kişinin paltarı, hətta araqçın, corab (kimi kiçik libasları, habelə), libasın astarı da xalis ipəkdən olmamalıdır. Namazdan başqa vaxtlarda da onu geymək kişi üçün haramdır. Amma ipək dəsmal və bu kimi şey namaz qılarkən onun cibində olarsa, işkalı yoxdur və namazı batil etmir.

## Namazqılanın bədən, yaxud paltarının pak olmasının zəruri olmayan halları

**Məsələ-422.** Dörd halda namazqılanın bədən, yaxud paltarı nəcis olarsa, namazı səhihdir:

**Birinci hal:** Kəsik, yara, ya da çiban vasitəsilə libası, yaxud bədəni qana bulanmış olarsa.

**Məsələ-423**. Əgər namazqılanın bədənində qan (yara qanı), kəsik və ya çiban olsa, ya da onun paltarı bu qanla bulansa, əgər paltarı, yaxud bədəni suya çəkmək, dəyişmək adətən ona çətin olarsa, yara, kəsik, ya çiban sağalana qədər o qanla namaz qıla bilər. Həmçinin qanla qırağa çıxan çirk və yara üzərinə qoyulmuş dərmana bulanan qanlı çirk də bu hökmdədir.

**Məsələ-424.** Tez sağalan, yuyulması asan olan yara və kəsiklərin qanı bu (yuxarıdakı məsələdə deyilən) hökmdə deyil. (Belə ki, əgər o qanla namaz qılarsa, namaz batildir).

**İkinci hal:** Bədən və ya paltarda olan qan bir dirhəm miqdarından (şəhadət barmağının bir bəndindən) az olarsa.

**Məsələ-425.** Əgər namazqılanın paltar və bədənində qan olsa, həmçinin miqdarı şəhadət barmağının bir bəndindən az olarsa, onunla namaz qılmağın işkalı yoxdur, bundan çox olarsa işkallıdır (Burada deyilən qan 423-cü məsələdə deyilən yara və kəsiyə aid olan qan deyil).

## Dirhəmdən az olan qanın şərtləri

**Məsələ-426.** Dirhəmdən az olan qanla namazın səhih olması üçün bir neçə şərt vardır:

1. Heyz qanı olmamalıdır: Əgər az miqdarda heyz qanı namazqılanın paltar, yaxud bədənində olarsa, namaz batildir. Vacib ehtiyata əsasən, nifas və istihazə qanları da bu hökmdədir.

2. Nəcisül-eyn heyvanların (it və donuz) və kafirin qanı olmamalıdır.

3. Xaricdən bir rütubət ona dəyməməlidir. Əlbəttə, əgər xaricdən ona dəyən rütubət ona tamamilə qarışıb aradan gedərsə, ikisi bir yerdə dirhəmdən az olduqda namaz qılmaq olar. Əks halda vacib ehtiyata əsasən, namaz işkallıdır.

**Məsələ-427.** Əgər bədən, yaxud paltar qanlı olmasa, qana dəyməklə nəcis olsa, onunla namaz qılmaq olmaz.

**Üçüncü hal:** Övrəti örtmək üçün kifayətedici miqdarda olmayan corab kimi kiçik paltarlar nəcis olarsa.

**Məsələ-428.** Əgər namazqılanın corab, əlcək və araqçın kimi övrəti örtməyə kifayət etməyən kiçik libasları, həmçinin üzük, qolbaq və bu kimi (zinət əşyaları) nəcis olarsa, onlarla namaz qılmağın işkalı yoxdur.
**Məsələ-429.** İnsanın üstündə olan dəsmal (cib dəsmalı), bıçaq və açar nəcis olarsa, namaz qılmaq işkalsızdır.

**Dördüncü hal:** Nəcis bədən, yaxud paltarla namaz qılmağa çarəsiz qalarsa.

**Məsələ-430.** Əgər soyuq, ya suyun olmaması üzündən və s. nəcis paltar, yaxud bədənlə namaz qılmaq məcburiyyətində olarsa, namazı səhihdir.

## Namazqılanın yeri

**Məsələ-431.** Namazqılanın yerinin (namaz qıldığı yerin) səkkiz şərti var:
**Birinci şərt:** Mübah olmalıdır (qəsbi olmamalıdır).

**Məsələ-432.** Namazqılanın yeri qəsbi olmamalıdır. Qəsbi yerdə namaz qılmaq hərçənd onun üzərində olan xalça və bu kimi döşəmələr qəsbi olmasa belə, batildir.

**Məsələ-433.** Yerin qəsbi olduğunu bilmədən, yaxud unutmaq üzündən həmin yerdə namaz qılarsa, namaz səhihdir. Habelə qəsbi yeri istifadə etməyin haram olduğunu bilmədən orada namaz qılarsa, namazı səhihdir.

**Məsələ-434.** Bir şəxs başqası ilə bir yerə şərik olsa və hər birinin səhmi (payı) ayrılıb müəyyən edilməsə, şərikinin razılığı olmadan o yerdə namaz qıla bilməz.

**Məsələ-435.** Əvvəldən vəqf olduğu məlum olan bir mülkü dövlət götürüb məscid, məktəb və ya idarə tikibsə, dövlətin bu işinin şəri icazə və ixtiyarının olmasına qəbul olunası bir ehtimal verilərsə, o məkanda namaz qılmaq işkalsızdır. Həmçinin sahiblərinin icazəsi olmadan onlardan alınıb məktəb tikilən yerlərin lazımı orqanlardan qanuni və şəri icazə əsasında bu işi görmələrinə qəbul olunan ehtimal verdikdə, o məkanda namaz qılmaq olar.

**Məsələ-436.** Dövlət mənzillərində yaşayan şəxslərin orada yaşamaq müddəti sona çatdıqda və mənzili təhvil vermək bildirişi onlara yetişdikdən sonra, qalan müddətdə o mənzildən istifadə icazəsi olmazsa, onların hər növ istifadəsi (o cümlədən namaz qılmaqları) qəsb hökmündədir.

**Məsələ-437.** Keçmişdə yeri qəbiristanlıq olan idarələrdə namaz qılmaq və digər istifadələrin işkalı yoxdur. Amma o yerin qəbiristanlıq üçün vəqf edilməsi və hazırda qeyri-şəri istifadəsi şəri yolla sabit olarsa, hər növ istifadə o cümlədən namaz qılmaq haramdır.

**Məsələ-438.** Zalım dövlət istifadə etdiyi məkanların qəsb olunduğu məlum olarsa, qəsbin bütün hökmləri o yerlərə də aid olur.

**İkinci şərt:** Hərəkətsiz olmalıdır.

**Məsələ-439.** Namazqılanın yeri gərək hərəkətsiz olsun. Yəni namazqılan aramlıqla və bədəni hərəkət etmədən namaz qıla bilsin. Buna əsasən, maşın və bəzi yumşaq taxtlar kimi öz-özünə yellənən yerlərdə namaz səhih deyil. Amma vaxtın darlığı kimi məcburiyyət qarşısında qaldıqda belə yerlərdə namaz qılmaq olar.

**Məsələ-440.** Şəhərlərarası avtobuslarla səfər edən müsafirlər namazlarının vaxtı keçmək təhlükəsi olduqda gərək sürücüdən münasib bir yerdə avtobusu saxlamağı istəsinlər və sürücüyə də onların istəklərinə müsbət cavab verməsi vacibdir. Hər halda məqbul üzrü olub-olmadan maşını saxlamadıqda, əgər vaxtın keçməsi qorxusu varsa, müsafirlər namazlarını avtobus hərəkətdə olan halda qılacaqlar və imkan daxilində qiblə, qiyam, rüku və səcdələrə də riayət etməlidirlər.

**Üçüncü şərt:** Orada dayanmaq haram olan yerlərdən olmasın.

**Məsələ-441.** Namazqılanın yeri o yerlərdən olmamalıdır ki, orada dayanmaq haramdır. Məsələn, insanın canı ciddi təhlükədə olan yerlər kimi. Həmçinin üzərində oturub-durmaq haram olan yerlər kimi, məsələn, hər yerinə Allah adı, yaxud Quran ayəsi yazılan və ya həkk edilən xalçalar kimi.

**Dördüncü şərt:** Peyğəmbər (s) və İmamın (ə) qəbrindən qabaqda durmamalıdır.

**Məsələ-442.** Namazqılan Peyğəmbər (s) və İmamın (ə) qəbrindən qabaqda durmamalıdır, amma bərabər durmağın işkalı yoxdur.

**Beşinci şərt:** Namazqılanın səcdə etdiyi yer pak olmalıdır.

**Məsələ-443.** Namazqılanın səcdə etdiyi yer pak olmalıdır, amma alnını qoyduğu yerdən başqa yerlərin nəcis olmasının işkalı yoxdur və namaz səhihdir.[1]

---

[1] Əlbəttə, bu şərtlə ki, o yer yaş olmasın. Belə ki, nəcasət namazqılanın paltar, yaxud bədəninə keçməsin. Necə ki, altıncı şərtdə də vurğulanıb. (Mütərcim)

**Altıncı şərt:** Namazqılanın paltar və bədəninin nəcis olmasına səbəb olmamalıdır.

**Məsələ-444.** Namazqılanın məkanı nəcis olarsa və yaşlıq nəticəsində onun paltar, yaxud bədəninə keçərsə, namazı batil edir. Amma yaşlıq az olub paltar və bədəninə keçmədiyi halda səcdə yeri də pak olarsa, namaz səhihdir.

**Yeddinci şərt:** Qadın və kişi arasında vacib ehtiyata əsasən, namaz halında ən azı bir qarış fasilə olmalıdır.

**Məsələ-445.** Vacib ehtiyata əsasən, gərək namaz halında kişi və qadın arasında ən azı bir qarış fasilə olsun.[1] Bu zaman (yəni bu fasiləyə riayət edilərsə) kişi ilə qadının bərabər durması, yaxud qadının kişidən öndə durması namaza zərər yetirmir və hər ikisinin namazı səhihdir.

**Səkkizinci şərt:** Namazqılanın yeri hamar olmalıdır (aşağıda deyilən formada)

**Məsələ-446.** Namazqılanın alın (səcdə) yeri onun dizlərinin və ayaq baş barmaqlarının yerindən bağlı şəkildə olan dörd barmaqdan yuxarı, yaxud aşağı olmamalıdır.

**Məsələ-447.** Kəbə evinin daxilində namaz qılmaq məkruhdur və vacib ehtiyat budur ki, Kəbənin damında namaz qılınmasın.

**Məsələ-448.** Üzərinə şəkil çəkilmiş səccadələrdə namaz qılmaq və belə möhürlərə səcdə etmək öz-özlüyündə işkalsızdır. Amma bu cür səccadələrdə namaz qılmaq, belə möhürlərə səcdə etmək bəziləri üçün şiələrə töhmət vurmaq bəhanəsi yaradırsa, onda o səccadə və möhürlərin istehsalı, habelə onların üzərində namaz qılıb onlara səcdə etmək caiz deyil. Həmçinin bunlar zehnin yayınmasına və hüzuri-qəlbin aradan getməsinə səbəb olarsa, məkruhdur.

---

[1] Yəni hər ikisi namaz qılan halda. (Mütərcim)

# MƏSCİDİN HÖKMLƏRİ

## Məscidin haram hökmləri

**Məsələ-449.** Məscidin yer, tavan, divar və damını nəcis etmək haramdır. Bunlardan hər hansı biri nəcis olduqda dərhal onu paklamaq vacibdir.

**Məsələ-450.** Qəsb edilib sökülərək yerində başqa bina tikilən, habelə istifadəsiz və baxımsız qalması nəticəsində viran olaraq məscid əsər-əlamətləri tamamilə məhv olan və yenidən təmir edilib düzəlməsinə ümid edilməyən məscidi (məsələn, o məntəqənin əhalisi öz məntəqəsini tərk edib başqa yerlərə köçdükləri üçün artıq oranı təmir edib yenidən məscid halına salınmasına ümid yoxdur) nəcis etmək haram deyil. Baxmayaraq ki, (müstəhəb) ehtiyat budur ki, nəcis edilməsin.

**Məsələ-451.** Məscidi qızılla zinətləndirmək israf hesab olunarsa haramdır, əks təqdirdə məkruhdur.

**Məsələ-452.** Məscidin şən və məqamını riayət etmək vacibdir. Məscidin şən və məqamı ilə müxalif olan hər bir işdən uzaq olmaq lazımdır, buna əsasən:

1. Məscid idman və məşq yeri deyil.

2. Əgər musiqi yayımı məscidin ehtiramı ilə uyğun deyilsə, hərçənd halal musiqi olsa belə haramdır.

**Məsələ-453.** Kafirlərin müsəlman məscidlərinə girməsi hərçənd tarixi əsərləri müşahidə etmək məqsədiylə olsa belə haramdır, istər Məscidül-həram olsun, istər digər məscidlər, istər onların girməsi məscidə hörmətsizlik sayılsın, istər sayılmasın.

**Məsələ-454.** Məscidi bütövlükdə, yaxud onun bir hissəsini sökmək, dağıtmaq caiz deyil. Amma həmin iş mühüm bir məsləhətlə əlaqədar olarsa və ona əhəmiyyət verməmək mümkün olmasa, bu halda işkalsızdır.

**Məsələ-455.** Məscidi sökmək onu məscid hökmündən çıxarmır. Məscidin bütün şəri hökmləri ona da aid olur. Amma (450-ci məsələdə deyildiyi kimi) bir məscid sökülüb dağılarsa, (tam şəkildə) istifadədən xaric olub onun yerində başqa bir bina salınsa və ya istifadəsiz qalmaq nəticəsində ondan əsər-əlamət qalmayıb yenidən bərpa olmasına da heç bir ümid olmasa, məscid hökmündə olmayacaq. Buna əsasən, əgər məscidin bir hissəsi bələdiyyənin abadlıqetmə layihəsinə düşdüyünə görə naçarlıq halında sökülərsə və onun əvvəlki halına qaytarılmaq ehtimalı verilməzsə, məscid hökmündə olmayacaq.

**Məsələ-456.** Məscidin vəqfinin şərtləriylə müxalifət etmək, yaxud onu dəyişmək caiz deyil.

**Məsələ-457.** Məscidin həyəti və eyvanından təfəkkür yüksəlişi, mə-dəni inkişaflar və cavanların hərbi təlimləri üçün istifadə edilməsi, məscidin həyət və eyvanının vəqfinin keyfiyyətinə (necə vəqf olunmasına) bağlıdır. Buna görə gərək o barədə məscidin imam-camaatı, məscid icmasının fikri və nəzəri soruşulsun. Əlbəttə ki, cavanların məscidlərə yığılması, imam-camaatın və məscid icmasının nəzarəti ilə dini dərslərin keçirilməsi çox yaxşı bir işdir.

**Məsələ-458.** Məscidi film nümayiş etdirmək və yayımlamaq üçün nəzərdə tutulmuş bir məkana çevirmək caiz deyil. Lakin ehtiyac olarsa, məscidin imam-camaatının nəzarəti ilə müəyyən münasibətlərdə öyrədici və faydalı (dini və) mənəvi filmlərin orada göstərilməsinin işkalı yoxdur.

**Məsələ-459.** Məsciddə olan imkanlardan, məsələn, hüzr və bu kimi məclislər keçirilərkən onun işıq sistemindən, yaxud hava təmizləyicisindən istifadə etmək kimi istifadənin caiz olması, vəqfin və nəzir edilən vəsait və imkanların hansı istifadələr üçün vəqf və nəzir edilməsinə bağlıdır.

**Məsələ-460.** Məscidin bəzi salonlarında və s. muzey, yaxud kitabxana açmaq, əgər onun, zal, yaxud salonlarının vəqf keyfiyyətiylə müxalif olarsa və ya məscid binasının (formasının) dəyişilməsinə

səbəb olarsa, caiz deyil. Daha yaxşıdır ki, bu işlər üçün məscidin yanında münasib yer hazırlansın.

**Məsələ-461.** Məscidin suyundan içmək, çay dəmləmək kimi şəxsi istifadə etmək, o suyun namazqılanlara dəstəmaz almaq üçün xüsusi vəqf edilməsi məlum deyilsə və məscidin məhəllə əhalisi arasında da o sudan qonşuların, yoldan keçənlərin istifadəsi adi bir haldırsa, işkalı yoxdur. Hərçənd ki, bu barədə ehtiyat etmək yaxşıdır. Həmçinin əgər məscid qəbiristanın yanında olduğuna görə qəbirlərin üstünə su tökmək üçün məscidin suyundan istifadə etmək, o yerin xalq arasında yayılmış və adi bir hal sayılırsa, heç bir şəxs buna etiraz bildirmirsə, həmin suyun təkcə dəstəmaz və paklamaq məqsədi ilə vəqf edilməsinə bir sübut yoxdursa, işkalsızdır.

**Məsələ-462.** Meyiti məsciddə dəfn etmək caiz deyil. Meyitin hər hansı bir məsciddə dəfn edilməsi barədə etdiyi vəsiyyəti etibarsızdır. Bu təkcə o zaman caizdir ki, (ya meyitin belə bir vəsiyyəti o zaman etibarlıdır ki) vəqf siğəsi oxunan zaman meyitin məsciddə dəfn edilməsi istisna olsun.

**Məsələ-463.** Məsciddə namaz qılanları narahat etmək caiz deyil. Bu-na əsasən, məsciddə Quran, əhkam və İslam əxlaqı və s. təlimlər o zaman caizdir ki, namazqılanların haqqına girmək sayılmasın, yəni onları əziyyətə salmasın.

**Məsələ-464**. Məscidin zirzəmisini üç şərtlə icarəyə vermək olar:
1. Məscid ünvanı daşımasın (yəni məscid hökmündə olmasın);

2. Məscidin ona ehtiyacı olmasın;

3. İntifa vəqfi olmasın.[1]

---

[1] Vəqf bir baxımdan iki hissəyə bölünür: 1. İntifa vəqfi elə vəqfdir ki, onda məqsəd maddi gəlir gətirmək deyil. Məsələn, məscid və hüseyniyyə vəqfi kimi. 2, Mənfəət vəqfi maddi gəlir gətirmək məqsədiylə edilir. Məscid, məktəb və ya xəstəxana idarəsinə maddi yardım məqsədiylə vəqf edilən mağaza kimi. (Mütərcim)

## Məscidin müstəhəb hökmləri

**Məsələ-465.** Aşağıdakı işlər məscid barədə müstəhəbdir:

1. Məscidi təmizləmək və abadlaşdırmaq;

2. Məscidə gedərkən ətirlənmək, təmiz və gözəl paltar geyinmək;
3. Ayaqqabını və ya ayağı çirklənməkdən və nəcasətə bulaşmaqdan qorumaq;
4. Hamıdan tez məscidə getmək (daxil olmaq) və hamıdan axırda məsciddən çıxmaq;

5. Məscidə girib-çıxarkən dili zikrli, qəlbi xüşulu olmaq;

6. Məscidə girən kimi təhiyyət (ehtiram) niyyəti ilə iki rəkət namaz qılmaq.

**Məsələ-466.** Məsciddə yatmaq məkruhdur.

**Məsələ-467.** Məsciddə namaz qılmağın savabı kişilərə məxsus deyil, qadınlara da aiddir.

**Məsələ-468.** Məhəllə məscidində namaz qılmağı başqasında camaat namazı qılmaq üçün, xüsusilə, əgər o məscid cami məscidi olarsa, tərk etməyin işkalı yoxdur.

**Məsələ-469.** Cami məscidi o məscidə deyilir ki, xüsusi bir qrupa (ya məhəlləyə) məxsus olmadan şəhərin bütün əhalisinin orada cəm olması (və namaz qılması) məqsədi ilə tikilib.

**Məsələ-470.** Məscidin təmirə ehtiyacı olduğu zaman könüllü olaraq xeyriyyəçilər tərəfindən təmir edilmək istənildikdə şəri hakimin icazəsinə ehtiyac yoxdur.

**Məsələ-471.** Kafirlər tərəfindən tikilən məscidlərdə namaz qılmağın işkalı yoxdur. Həmçinin kafirlərin könüllü olaraq məscidə maddi kömək göstərmələri işkalsızdır.

**Məsələ-472.** Məscidin əşyalarını o məsciddə ehtiyacsız olduqda başqa bir məscidə istifadə məqsədiylə verilməsinin işkalı yoxdur.
**Məsələ-473.** Məscidin adının dəyişilməsi, məsələn, Sahibəzzəman

(ə) adını Cami məscidi adı ilə dəyişmək kimi, onun vəqf siğəsində bu adın qeyd olunması məlum olmadığı təqdirdə işkalsızdır.

**Məsələ-474.** Hüseyniyyələr və təkyələr məscid hökmündə deyil.

**Məsələ-475.** Hüseyniyyə ünvanı ilə səhih şəri vəqf edilən hüseyniyyələri məscidə çevirmək və ya məscidə birləşdirmək[1] caiz deyil.[2]

## Qiblənin hökmləri

**Məsələ-476.** Müsəlman gərək namazı üzü "Kəbə" səmtinə qılsın. Elə buna görə də o, (Kəbə evi) "qiblə" adlandırılır. Əlbəttə, uzaqda olanlar üçün həqiqi bərabərlik mümkün olmadığına görə "üzü qibləyə namaz qılır" deyilən həddə qiblə səmtinə olması kifayətdir.

**Məsələ-477**. Üzü qibləyə olmağın meyar və ölçüsü yer kürəsi səthindən "Beyti-ətiq" (Kəbə) səmtinə olmaqdır. Belə ki, yer səthindən Məkkeyi-mükərrəmədə olan Kəbə binası səmtinə dursun. Buna əsasən, əgər insan yer kürəsinin elə bir nöqtəsində olsa ki, o yerin dörd tərəfindən Kəbə səmtinə düz xətt çəkiləndə məsafə baxımından bütün xətlər bərabər olsa, bu halda ixtiyarı var ki, üzü qibləyə durmaq üçün istədiyi hər bir tərəfə durub namaz qılsın.

Amma o xətlər məsafə baxımından fərqli olarsa, belə ki, bəzi cəhətlər qısa olsa və bu fərqlər bəzi cəhətlərin xalq arasında qiblə səmtinə olması hesab olunmamağına səbəb olsa, vacibdir ən qısa cəhəti seçsin.

**Məsələ-478.** Müstəhəb namazları, piyada, yaxud süvari olan halda da qılmaq caizdir və bu zaman üzüqibləyə olmaq şərt deyil.

**Məsələ-479.** Namazqılan gərək qiblənin cəhətinə yəqin etsin, yaxud buna xatircəm olsun. Bu yəqinlik onda istər etibarlı qiblə-göstərən vasitəsilə hasil olsun, istər günəş və ulduzlar vasitəsilə (əlbəttə

---

[1] Yəni məscid məqsədiylə birləşdirmək (Mütərcim)

[2] Yəni onu məscid adlandırmaqla, yaxud bu məqsədlə ona birləşdirməklə məscid hökmünü almır və hüseyniyyə olaraq qalır.(Mütərcim)

əgər bu yollardan istifadə etməyi bacarırsa), istərsə də digər vasitələrlə olsun. Amma xatircəm olmadıqda gümanı çox olduğu səmtə namaz qılmalıdır.

**Məsələ-480.** Əgər bir şəxsin qibləni təyin etmək üçün heç bir yolu yoxdursa və gümanı da heç bir tərəfə getmirsə, (vacib) ehtiyata görə gərək dörd tərəfə namaz qılsın. Əgər (namazın vaxtı dar olmasına görə) dörd səmtə namaz qılmağa vaxt yoxdursa, vaxt imkan verdiyi qədər (tərəflərə durub) namaz qılsın.

**Məsələ-481.** Qibləyə yəqin edilmədiyi təqdirdə, heyvanı zibh etmək və s. kimi qiblə şərt olan (namazdan) başqa işlərdə gümana əməl edilməlidir. Heç bir tərəfin qiblə olmasına güman edilmədikdə hər bir səmtə əməl edilməsi düzdür.

**Məsələ-482.** Qiblənin təyin edilməsində birinin dediyinə, yaxud kompasa etimad etmək o zaman səhihdir ki, mükəlləfi xatircəm etsin və bu zaman ona əməl etməlidir. Amma onlardan yəqin, yaxud xatircəmlik hasil olmazsa, məscidin mehrabı və müsəlman qəbiristanlıqları ilə qibləni təyin etmək olar.

**Məsələ-483.** Qibləni təyin etmək üçün "şaxis"dən istifadə etməkdə məqsəd budur ki, hicri-şəmsi tarixiylə xordad ayının dördü və tir ayının altısı, yaxud miladi tarixiylə may ayının iyirmi beşi və iyul ayının on yeddisi Məkkə şəhərinin üfüqü ilə zöhr vaxtı günəş şaquli şəkildə Kəbəyə düşür (Məkkənin zöhr azanı zamanı). Bu zaman düz bir ağac və bu kimi şaxisi hamar bir yerə sancırıq, şaxisin kölgəsi düşən istiqamətin əksi qiblədir.

# YÖVMİYYƏ (GÜNDƏLİK) NAMAZLARI
## Yövmiyyə namazlarının əhəmiyyəti

**Məsələ-484.** Gündəlik beş vaxtda qılınan namazlar İslam şəriətinin çox mühüm vaciblərindəndir, hətta dinin sütunudur. Onu tərk etmək, yaxud yüngül saymaq haramdır və axirət əzabına səbəb olur.

**Məsələ-485.** Namaz heç bir halda, hətta (müharibə zamanı) döyüş halında belə boyundan düşmür. Buna əsasən, döyüş bölgəsində savaşın şiddətli olduğuna görə Fatihə surəsini oxumağa, səcdə və rükunu yerinə yetirməyə imkan olmadıqda gərək mümkün olan şəkildə namazı qılsın. Əgər rükunu və səcdəni yerinə yetirə bilmirsə, işarə ilə rüku və səcdə etsin.

## Yövmiyyə namazlarının sayı

**Məsələ-486.** Yövmiyyə namazları beş namazdan (on yeddi rəkətdən) ibarətdir:

1. Sübh namazı (iki rəkət);
2. Zöhr namazı (dörd rəkət);
3. Əsr namazı (dörd rəkət);
4. Məğrib namazı (üç rəkət);
5. İşa namazı (dörd rəkət).

**İzah:** Səfərdə (xüsusi şərtlərlə) dördrəkətli namazlar (zöhr, əsr və işa) iki rəkət qılınır. Onun xüsusiyyəti və hökmləri inşallah gələcəkdə deyiləcək.

# Yövmiyyə namazlarının vaxtları

## Sübh namazının vaxtı

**Məsələ-487.** Sübh namazının vaxtı fəcr doğandan günəş çıxana qədərdir. Sübh namazının vaxtı üçün şəri meyar fəcri-sadiqdir (fəcri-kazib yox). Onu təyin etmək mükəlləfin öhdəsinədir.

**Məsələ-488.** Fəcrin doğmasında (sübh namazının vaxtında) aydın və qaranlıq gecələrin fərqi yoxdur. Baxmayaraq ki, bu barədə ehtiyat etmək yaxşıdır. Belə ki, möhtərəm möminlər ehtiyata riayət etmək üçün aydın gecələrdə təqribən sübh namazlarını beş-altı dəqiqə sübh azanından sonra qılsınlar.

**Məsələ-489.** Günəşin doğmasında (sübh namazı vaxtının sona çatmasında) meyar günəşin namazqılan şəxsin olduğu üfüqdə görsənməsidir nəinki onun işığının yerə çatması.

## Zöhr namazının vaxtı

**Məsələ-490.** Zöhr namazının vaxtı zöhrün əvvəlindən (yəni hər bir şeyin kölgəsi günəşin yuxarı qalxması ilə kamil şəkildə qısalıb sonra yenidən şərqə tərəf - günçıxan səmtinə -çoxalmağa başlayan zaman) günəşin qürubuna əsr namazı qılmaq qədərində vaxt qalana kimidir.

## Əsr namazının vaxtı

**Məsələ-491.** Əsr namazının vaxtı zöhr namazının vaxtından zöhr namazı qılmaq miqdarında vaxt ötdükdən günəşin qürubuna kimidir.

## Məğrib namazının vaxtı

**Məsələ-492.** Məğrib namazının vaxtı günəş qürub etdikdən sonra şərqdən (günçıxandan) yuxarı qalxan qırmızılıq aradan getdikdən gecənin yarısına işa namazı qılmaq miqdarında vaxt qalana kimidir.

## İşa namazının vaxtı

**Məsələ-493.** İşa namazının vaxtı məğrib namazının vaxtından məğrib namazı qılmaq qədərində vaxt ötdükdən gecənin yarısına kimidir.

**Məsələ-494.** (Vacib) ehtiyat budur ki, məğrib, işa namazları və bu kimi əməllər üçün (gecənin yarısını hesablamaqda) gecəni gün batandan sübh azanına qədər hesablasınlar. Buna əsasən, (gecənin yarısı) təqribən on bir saat on beş dəqiqə şəri zöhrdən sonradır ki, bu vaxt məğrib və işa namazlarının vaxtının sonudur.

## Namaz vaxtlarının hökmləri

**Məsələ-495.** Namaza o zaman başlamaq olar ki, vaxtın daxil olmasına yəqin edilə, yaxud xatircəm olunsun. Həmçinin iki adil kişi vaxtın daxil olmasını xəbər versin və ya inanılmış, vaxt tanıyan azançı azan versin.

**Məsələ-496.** (Yuxarıdakı məsələdə deyilən) vaxtı təyin etmək yollarından biri ilə vaxtın daxil olmasını əldə edilməyincə namaza daxil olmaq caiz deyil.

**Məsələ-497.** Əgər vaxtın daxil olmasına yəqin edərək namaza başlasa, namaz arasında vaxtın daxil olub-olmamasında şəkk etsə, namaz batildir. Amma namaz daxilində vaxtın daxil olmasına yəqini olsa, qıldığı miqdarın vaxt daxilində olub-olmamasında şəkk etsə, namaz səhihdir.

**Məsələ-498.** Televiziya və radio vasitəsilə bir gün qabaqdan namaz vaxtlarının elan edilməsiylə mükəlləfə vaxtın deyilən zaman daxil olmasına xatircəmlik gətirsə, o elanlara etimad etmək olar.

**Məsələ-499.** Azanın deyilməsi ilə mükəlləf vaxtın daxil olmasına xatircəm, olarsa, azanı sonuna qədər gözləmək lazım deyil və namaza başlamaq olar.

**Məsələ-500.** Mükəlləf yövmiyyə (gündəlik) namazların vaxtlarını müəyyən etməkdə sakini olduğu yerin üfüqünə riayət etməlidir (yəni həmin yerin üfüqü ilə vaxtı təyin etməlidir).

**Məsələ-501.** İki məntəqə arasında fəcrin tüluu (sübh azanı), zöhr azanı və ya günəşin batması arasında olan fərqlərin bərabər olması digər namaz vaxtlarının bərabər olmasına dəlalət etmir. Adətən namazların üç vaxtı müxtəlif şəhərlər arasında fərqli olur. Məsələn, əgər iki əyalət arasında zöhr namazının vaxtı iyirmi beş dəqiqə fərqlidirsə, sübh və məğrib namazlarında da bu qədər fərqlənir (lakin eyni zamanda mümkündür ki, iyirmi beş dəqiqədən az, ya çox fərq etsin).

**Məsələ-502.** Əgər vaxtın sonuna bir rəkət namaz qılmaq miqdarında vaxt qalarsa, gərək namazı əda niyyətiylə qılsın. Amma namazı biləərkdən bu vaxta qədər təxirə salmaq caiz deyil. Əgər namazın vaxtından ən azı bir rəkət namaz qılmaq miqdarında vaxtın qalıb-qalmamasında şəkk edərsə, namazı mafizzimmə (öhdəsində olan namaz) niyyətiylə qılmaq lazımdır.

**Məsələ-503.** İki namazın vaxtı (zöhr və əsr yaxud məğrib və işa namazlarının vaxtı) yetişdikdən sonra mükəlləf onları ardıcıl olaraq birlikdə, yaxud hər birini öz fəzilətli vaxtında qılmaqda ixtiyarlıdır.

**Məsələ-504.** Müstəhəbdir insan namazı əvvəl vaxtında qılsın. İslam göstərişlərində bu barədə təkid olunub. Əgər əvvəl vaxtından keçiribsə, nə qədər əvvəl vaxta yaxın qılarsa, yaxşıdır. Amma namazı təxirə salmaq müəyyən bir cəhətdən yaxşıdırsa, məsələn, təxirə salmaqla namazını camaatla qılmaq istəyirsə, (təxir) yaxşıdır.

**Məsələ-505.** Əgər borc sahibi öz borcunu tələb etsə, (borcu verməyə) imkanı olduqda gərək birinci borcunu versin, sonra namazını qılsın. Həmçinin əgər təcili vacib bir iş qarşıya çıxarsa, gərək birinci o işi görsün. Amma namazın vaxtı dardırsa, birinci namazını qılmalıdır.

## Namazlar arasında tərtib

**Məsələ-506.** Zöhr və əsr namazları gərək tərtiblə, yəni birinci zöhr, sonra əsr namazı qılınsın. Həmçinin məğrib və işa namazları arasında tərtibə riayət olunmalıdır (belə ki, birinci məğrib, sonra işa namazı

qılınmalıdır). Əgər bilərəkdən əsr namazını zöhr namazından qabaq, yaxud işa namazını məğrib namazından qabaq qılarsa, namaz batildir.

**Məsələ-507.** Əgər bir şəxs səhvən, yaxud qəflət üzündən ikinci namazı birinci namazdan qabaq qılsa, məsələn, işa namazını məğrib namazından qabaq qılarsa və namaz qurtardıqdan sonra bunu bilsə, onun namazı səhihdir.

**Məsələ-508.** Əgər zöhr namazı niyyətiylə namaza başlasa və namaz arasında yadına düşə ki, zöhr namazını qılıb, gərək bu namazı sındırıb yenidən əsr namazı niyyətiylə namazı başlasın. Həmçinin məğrib və işa namazları da bu hökmdədir.

**Məsələ-509.** Zöhr namazını qılıb deyə əsr namazına başlasa və namaz arasında yadına düşsə ki, zöhr namazını qılmayıb, əgər zöhr və əsr namazının müştərək vaxtındadırsa, gərək dərhal niyyətini əsr namazından zöhrə döndərib namazı qurtarsın. Sonra əsr namazını qılsın. Amma əgər bu, zöhr namazının xüsusi vaxtında (yəni zöhrün əvvəlindəki dörd rəkətli namaz vaxtında) olarsa, vacib ehtiyata əsasən, niyyəti zöhrə döndərib namazı qurtarmalıdır. Sonra hər iki namazı tərtiblə (zöhrü birinci qılmaqla) qılmalıdır. Bu hökm məğrib və işa namazlarına da aid olur.

## Azan və iqamə

**Məsələ-510.** Müstəhəbdir ki, gündəlik (yövmiyyə) namazlardan qabaq azan və iqamə oxunsun. Bu müstəhəb əməl sübh və məğrib namazları barədə, xüsusilə, camaat namazı halında təkid olunub. Amma başqa namazlar üçün (məsələn, ayət namazları kimi) azan və iqamə yoxdur.

**Məsələ-511.** Azan on səkkiz cümlədən ibarətdir:

1. Əllahu əkbər (dörd dəfə): Allah vəsf edilməkdən daha böyükdür (vəsfə sığmaz)

2. Əşhədu ənla ilahə illəllah (iki dəfə): şəhadət verirəm ki, Allahdan başqa bir məbud yoxdur.

3. Əşhədu ənnə Muhəmmədən rəsulullah (iki dəfə): şəhadət verirəm ki, Məhəmməd (s) Allahın elçisidir.

4. Həyyə ələs-səlah (iki dəfə): namaza tərəf tələsin.
5. Həyyə ələl-fəlah (iki dəfə): xoşbəxtliyə tərəf tələsin.
6. Həyyə əla xəyril əməl (iki dəfə): əməllərin ən yaxşısına tərəf tələsin.
7. Əllahu əkbər (iki dəfə): Allah vəsf edilməkdən daha böyükdür (vəsfə sığmaz)

8. La ilahə illəllah (iki dəfə): Allahdan başqa bir məbud yoxdur.

İqamə on yeddi cümlədən ibarətdir və azan kimidir, bu fərqlə ki, əvvəldə "Allahu əkbər" iki dəfə deyilir, sonda "la ilahə illəllah" bir dəfə deyilir və "həyyə əla xəyril-əməl" cümləsindən sonra iki dəfə "qəd qamətis-səlah" (yəni namaz bərpa oldu) deyilir.

**Məsələ-512.** "Əşhədu ənnə Əliyyən vəliyyullah" (Şəhadət verirəm Əli ələyhissalam Allahın vəlisidir) azan və iqamənin hissəsindən deyil. Amma şiənin şüarı kimi deyilməsi yaxşı və mühümdür. Deyildikdə mütləq qəsdi-qürbət niyyətiylə deyilməlidir.

**Məsələ-513.** Yövmiyyə namazlarının vaxtlarını bildirmək üçün bu namazların əvvəl vaxtında deyilən elan azanını onu eşidənlərə uca səslə təkrar etmək təkid olunmuş müstəhəbdir.

**Məsələ-514.** Ümumi küçələrdə qrup halında azan vermək yolun kəsilməsinə və ya camaatın əziyyətinə səbəb olmazsa, işkalsızdır.

**Məsələ-515.** Evlərin damında (üstündə) normal şəkildə azan vermək, hətta qonşuların etirazına səbəb olsa belə, xüsusilə, sübh namazı üçün işkalsızdır.

**Məsələ-516.** Sübh namazı vaxtının daxil olmasını elan etmək məqsədiylə mikrafonla azanın yayımının işkalı yoxdur. Amma məsciddən Quran ayələri və duaların mikrafonla yayılması qonşuların əziyyətinə

səbəb olarsa, bunun (caiz olmasının) şəri dəlili yoxdur və hətta işkallıdır.

**Məsələ-517.** Naməhrəmlər üçün qadın azanı kifayət etmir. Hətta məhrəmlər üçün də kifayət etməsi işkallıdır (yəni əgər qadının azanını naməhrəm bir kişi eşitsə, onun boynundan azan düşmür. Əgər onun məhrəmi olan bir kişi eşidərsə, vacib ehtiyata əsasən, azan öhdəsindən düşmür).[1]

## NAMAZIN VACİBLƏRİ

**Məsələ-518.** Namazın vacibləri on birdir:
1) Niyyət
2) Təkbirətul-ehram
3) Qiyam
4) Qiraət
5) Rüku
6) Səcdə
7) Zikr
8) Təşəhhüd
9) Salam
10) Tərtib
11) Müvalat

**Məsələ-519.** Namazın vaciblərindən bəziləri "rükn"dür. Yəni əgər namazda yerinə yetirilməzsə, yaxud vacib miqdardan artıq edilərsə, istər bilərəkdən, istər səhvən, istərsə də unutmaq üzündən olsa, namaz batil olur (rüku və iki səcdə kimi). Amma "qeyri-rükn" hissələri təkcə bilərəkdən azaldıb-artırmaq namazı batil edir. Amma səhvən olarsa, namaz səhihdir (qiraət kimi).

[1] Məlum olduğu kimi azan müstəhəb bir əməldir. Bu məsələ onu bildirmək istəyir ki, əgər bir kişi azanın da savabını qazanmaq istəyirsə, qadın azanıyla kifayət olmamalıdır, özü də deməlidir. Amma azan deyən kişidirsə və azanı eşidirsə, o yerdə namaz qıldıqda onun yenidən azan deməyinə ehtiyac yoxdur və azanla qılınan namazın savabını qazanır. (Mütərcim)

**Məsələ-520.** Namazın rüknləri aşağıdakılardır:
1) Niyyət
2) Təkbirətul-ehram
3) Qiyam (təkbirətul-ehram deyilən zaman olan qiyam və rükuya gedilən zaman qiyam halından getmək)
4) Rüku
5) İki səcdə

### 1. Niyyət

**Məsələ-521.** Namazda niyyət etmək vacibdir. Niyyətdə məqsəd müəyyən bir namazı Allahın əmrinə itaət etmək məqsədiylə qılmaqdır.

**Məsələ-522.** Namazda vacib niyyət etməkdə məqsəd müəyyən bir namazı Allah üçün qılmaqdır. Niyyəti dilə gətirmək, yaxud ürəkdən keçirməyə ehtiyac yoxdur. Məsələn, "dörd rəkət zöhr namazı qılıram qürbətən iləllah", - deməyi, yaxud qəlbindən keçirməsi lazım deyil.

**Məsələ-523.** Namazqılan gərək hansı namazı qıldığını bilsin. Buna əsasən, məsələn, əgər dörd rəkət namaz qıldığını niyyət edərsə, amma zöhr yaxud əsr namazını qılmağını niyyət etməsə, onun namazı batildir.

**Məsələ-524.** İnsan namazı gərək Allahın əmrinə itaət etmək məqsədiylə qılsın. Buna əsasən, əgər riya, yəni özünü dindar və bu kimi göstərmək məqsədiylə olsa, onun namazı batildir. Ümumiyyətlə, namazın hamısı, yaxud bir qismi Allahdan qeyrisi üçün olarsa, namaz batildir.

## Niyyətdə üdul etmək (niyyəti dəyişmək)

**Məsələ-525.** Aşağıdakı yerlərdə niyyəti dəyişmək vacibdir:

1. Əsr namazından zöhr namazına: Əgər əsr namazının xüsusi vaxtından qabaq əsr namazı qılarkən zöhr namazını qılmadığı yadına düşsə, bu zaman gərək niyyətini zöhrə döndərsin.

2. İşa namazından məğrib namazına: Əgər işa namazının xüsusi vaxtından qabaq işa namazı qılarkən yadına düşsə ki, məğrib namazını qılmayıb, bu zaman niyyəti dəyişmək yerini keçməyibsə,[1] gərək niyyətini işa namazından məğribə döndərsin.

3. Tərtiblə qılınması vacib olan iki namazın qəzası öhdəsində olarsa (zöhr və əsr namazları kimi) və unudaraq ikincini birincidən qabaq qılarsa.[2]

**Məsələ-526.** Aşağıdakı yerlərdə niyyəti dəyişmək müstəhəbdir: 1. Əda namazından vacib qəza namazına bu şərtlə ki, qəza namazını qılmaqla əda namazının fəzilətli vaxtı ötməsin.

2. Camaat namazının fəzilətinə yetişmək üçün vacib namazdan müstəhəb namaza.[3]

3. Cümə gününün zöhründə vacibdən (zöhr namazından) nafilə namazına "Cümə" surəsini unudub başqa surə oxuyanlar üçün hətta oxuduğu surəni yarıya çatdırsa, yaxud yarıdan keçsə belə, bu şəxsə müstəhəbdir vacib namazdan niyyətini nafilə namazına dəyişsin ki, zöhr namazını "Cümə" surəsi ilə yerinə yetirsin.

## 2. Təkbirətul-ehram

**Məsələ-527.** Namazda təkbirətul-ehram demək vacibdir. Məqsəd Əllahu əkbər deməkdir.

---

[1] Belə ki, hələ dördüncü rəkətin rükusuna daxil olmayıbsa. Amma dördüncü rəkətin rükusuna daxil olandan sonra yadına düşərsə, artıq niyyəti işadan məğribə dəyişmək yerini keçib. Çünki dördüncü rəkətin rükusuna daxil olmaqla daha onu üç rəkət (məğrib namazı) niyyəti etmək olmaz. Çünki rüku "rükn" olduğu üçün üç rəkətli namazda artıq rükn sayılaraq üç rəkətli namazı batil edir. (Mütərcim)

[2] Bu, birinci və ikinci bəndlərdə deyilən hökmdədir. (Mütərcim)

[3] Yəni əgər bir şəxs furada (fərdi şəkildə) zöhr namazına başlasa və camaat namazının qılındığını görsə, camaat namazını qılmaq üçün zöhr namazını nafilə namazına (məsələn, zöhrün nafiləsinə) dəyişməsi müstəhəbdir. Bu şərtlə ki, niyyəti dəyişmək yeri ötüb keçməsin. Belə ki, üçüncü rəkətin rükusuna daxil olmasın. Amma üçüncü rəkətin rükusuna daxil olarsa, nafilə namazı iki rəkətli olduğu üçün niyyəti ona dəyişmək olmaz. (Mütərcim)

**Məsələ-528.** Namazın əvvəlində təkbirətul-ehram deməmək, istər bilərəkdən, istər səhvən namazın batil olmasına səbəb olur. Həmçinin namazın əvvəlində birinci dəfə onu səhih dedikdən sonra ikinci dəfə fasiləsiz, yaxud fasilə ilə demək namazı batil edir. Bu əlavə istər bilərəkdən, istərsə də səhvən olsun fərq etmir.

**Məsələ-529.** Təkbirətul-ehramı elə deməlidir ki, tələffüz sayılsın. Onun meyarı budur ki, (qulaqları ağır eşitmədikdə, yaxud səs-küy səbəbiylə eşitməyə bir maneə olmadıqda) öz dediyini eşidə bilsin.

**Məsələ-530.** Təkbirətul-ehram ərəbcə səhih deyilməlidir. Onun tərcüməsi və ya ərəbcə səhv deyilməsi (məsələn, "Əllahə əkbər" və s. kimi deyilməsi) səhih deyil,

**Məsələ-531.** Təkbirətul-ehram deyərkən bədən aram və sabit (hərəkətsiz) olmalıdır. Bədən hərəkətdə olan zaman təkbirətul-ehram deyərsə, namaz batildir.

**Məsələ-532.** Əgər namazqılan təkbirətul-ehramı düzgün tələffüz etməyi bilmirsə, öyrənməsi vacibdir. Əgər heç bir halda bacarmırsa və onu səhih tələffüz etməyə qadir deyilsə, belə ki, hətta başqasının təlqini (deməsi) ilə ardıcıllığı riayət etməklə hərf-hərf də demək mümkün deyilsə, onda tərcüməsini deməlidir.

**Məsələ-533.** Təkbirətul-ehramı deyib-deməməsində hər zaman şəkk edərsə, əgər "Həmd" surəsini oxumağa başlayıbsa, şəkkinə etina etməməlidir. Amma əgər "Həmd"dən bir şey oxumayıbsa, təkbirətul-ehramı deməlidir. Əgər təkbirətul-ehramı dediyini bilsə, lakin onun səhih olub-olmamasında şəkk edərsə, şəkkinə etina etməməlidir.

## 3. Qiyam

**Məsələ-534.** Əgər şəxs namazı ayaq üstə qılmağa qadirdirsə və heç bir üzrü yoxdursa, gərək əvvəldən rükuya gedənədək namazı ayaq üstə qılsın, Həmçinin vacibdir rükudan sonra və səcdədən qabaq ayaq üstə dursun (buna qiyam deyilir). Qiyamı bu hallarda bilərəkdən tərk etmək namazı batil edir.

**Məsələ-535.** Təkbirətul-ehram zamanı, habelə rükudan qabaqkı qiyam rükndür. Yəni (hətta) səhvən və unutmaq üzündən tərk olunsa belə, namaz batildir.

**Məsələ-536.** Əgər rükunu unudarsa, "Həmd" və "surə"ni oxuyub otursa, bu zaman rükuya getmədiyi yadına düşdükdə gərək ayağa qalxıb qiyam halındarı rükuya getsin. Buna əsasən, əgər oturduğu haldan birbaşa rüku halına qalxarsa, namazı batildir.[1]

**Məsələ-537.** Namazqılan gərək qiyam halında bədənini hərəkətə gətirməsin. Belə ki, bir səmtə əyilməsin, yaxud harasa söykənməsin. Əlbəttə, bu iş bilmədən, yaxud naçarlıq üzündən olsa, eybi yoxdur.

**Məsələ-538.** Namaz qılarkən bir az qabağa-arxaya getmək, yaxud bədəni azca sağa və sola əymək namazı batil etmir. Lakin bu zaman dediyi zikri saxlamalı (bədəni aram olduqdan sonra saxladığı yerdən davam etməlidir).

**Məsələ-539**. Namazqılanın qiyam halında bədənini düz saxlaması, çiyinlərini aşağı buraxması, əllərini budlarının üzərinə qoyması, barmaqlarını bir-birinə birləşdirməsi, səcdə yerinə baxması, bədəninin ağırlığını bərabər olaraq iki ayağının üstünə buraxması, ayaqlarını bərabər qoyması, xüzu və xüşulu olması müstəhəbdir.[2]

**Məsələ-540.** Namazda ayaq üstə qalmağa qadir olmayan şəxs onu oturaq halında qılmalıdır. Amma bir yerə söykənməklə ayaq üstə namaz qıla bilirsə, vəzifəsi budur (və oturaq halda qılmaq caiz deyil).

**Məsələ-541.** (Ayaq üstə durub namaz qılmağa qadir olmayan şəxs) oturub namaz qılmağa da qadir deyilsə, uzanıb namaz qılmalıdır. Vacib ehtiyata görə mümkün olan halda sağ tərəfi üstə uzanmalıdır. Belə ki, üzü bədəni(nin qabaq hissəsi) qibləyə tərəf qalsın. Bu da

---

[1] Çünki yuxarıdakı məsələdə deyildi ki, rükudan qabaqkı qiyam rükndür və onu tərk etmək namazı batil edir.(Mütərcim)

[2] Xüzu və xüşu hər ikisi birmənalı olaraq təvazö mənasındadır, lakin bəzən xüzu zahiri təvazö mənasında (rəftar və danışıq və s.), xüşu isə batini və qəlbin təvazösü mənasında işlədilir. (Mütərcim)

mümkün deyilsə, sol tərəfə uzanmalıdır. Bu da mümkün olmadıqda arxası üstə elə uzanmalıdır ki, ayaqlarının altı qibləyə tərəf qalsın.

**Məsələ-542.** Oturaq halında namaz qılan şəxs "Həmd" və "surə"ni oxuduqdan sonra ayağa qalxıb rükuya qiyam halından gedə bilirsə, gərək ayağa dursun və rükuya qiyamdan getsin.

**Məsələ-543.** Uzanan halda namaz qılan şəxs əgər namaz arasında əziyyətsiz ayağa durub-otura bilirsə, gərək imkan daxilində ayağa qalxsın və ya otursun. Həmçinin oturan halda namaz qılan nə qədər əziyyətsiz ayağa dura bilirsə, o qədər durub qılmalıdır.

**Məsələ-544.** Ayaq üstə namaz qıla bilən şəxs, əgər ayağa qalxıb namaz qıldığı təqdirdə xəstələnəcəyindən və ya başqa bir zərərin ona yetişəcəyindən qorxursa, oturan halda namaz qıla bilər. Əgər bu qorxu oturub namaz qılan üçün olarsa, uzanıb namaz qıla bilər.

**Məsələ-545.** Namazın axır vaxtında ayaq üstə namaz qılmağa qadir olacağına ehtimal verən şəxs, (vacib) ehtiyata görə o vaxta qədər səbr etməlidir. Amma üzrlü səbəbə görə namazı əvvəl vaxtda oturan halda qılan şəxsin üzrü vaxtın axırınadək aradan getməzsə, namazı səhihdir və yenidən qılmağa ehtiyac yoxdur.

**Məsələ-546.** Əgər vaxtın əvvəlində ayaq üstə namaz qılmağa qadir olmasa, üzrünün vaxtın axırınadək qalmasına yəqin edərsə (və namazını oturan halda qıla), amma vaxt sona yetmədən öncə üzrü aradan getsə və ayaq üstə namaz qılmağa qadir olsa, gərək namazını ayaq üstə yeniləsin.

## 4. Qiraət

**Məsələ-547.** Vacib yövmiyyə namazlarının birinci və ikinci rəkətlərində təkbirətul-ehramdan sonra "Həmd" surəsi, sonra vacib ehtiyata əsasən, digər kamil bir surə oxunmalıdır. Bir neçə ayə oxunması kifayət deyil.

**Məsələ-548.** Namazın üçüncü və dördüncü rəkətlərində ixtiyarlı olaraq, ya təkcə "Həmd" surəsini (başqa surə əlavə etmədən təkcə

“Həmd”i), ya da təsbihati ərbəəni oxumalıdır, yəni (Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər) deməlidir.

**Məsələ-549.** “Fil” surəsi və “İlaf” surəsi bir surə hökmündədir. Onların birini “Həmd”dən sonra oxumaq kifayət deyil (əgər bir şəxs bunu oxumaq istəsə, gərək hər ikisini oxusun). Həmçinin “Zuha” və “Ələm nəşrəh” surələri də belədir.

**Məsələ-550.** Əgər bir şəxs bilmədən yuxarıdakı məsələdə ikisi birlikdə oxunması lazım olan surələrdən birini oxuyarsa, məsələni öyrənməkdə səhlənkarlıq etməyibsə, qıldığı namazlar səhihdir.

**Məsələ-551.** Vacib yövmiyyə namazlarında “Həmd” və Qurani-kərimdən kamil bir surə oxuduqdan sonra, Quran niyyətiylə bir neçə ayə oxumağın işkalı yoxdur.

**Məsələ-552.** Əgər namazın vaxtı dar olsa və ya surəni oxuduğu təqdirdə oğru, yaxud yırtıcı bir heyvan və ya başqa bir şey zərərin ona yetirəcəyindən qorxsa, gərək “surə”ni oxumasın.

**Məsələ-553.** Əgər səhvən “surə”ni “Həmd”dən qabaq oxusa və rükuya getməmişdən qabaq yadına düşsə, gərək “Həmd”dən sonra yenidən “surə”ni oxusun. Əgər surəni oxuyarkən yadına düşə ki, “Həmd”i oxumayıb, gərək “surə”ni saxlasın, “Həmd”i oxuduqdan sonra onu əvvəldən oxusun.

**Məsələ-554.** Əgər “Həmd” və “surə”ni, yaxud ikisindən birini unutsa və rükuya getdikdən sonra yadına düşsə, namazı səhihdir.

**Məsələ-555.** Əgər rükuya getməzdən qabaq yadına düşsə ki, “Həmd” və “surə”, yaxud təkcə “surə”ni oxumayıb, gərək oxusun sonra rükuya getsin. Əgər yadına düşsə ki, təkcə “Həmd”i oxumayıb, “Həmd”i oxuduqdan sonra “surə”ni də yenidən oxumalıdır. Həmçinin əgər rüku həddinə çatandan qabaq yadına düşə ki, “Həmd” və “surə”ni, yaxud ikisindən birini oxumayıb, gərək qalxsın və deyilən hökmə əməl etsin.

**Məsələ-556.** Vacib namazlarda səcdə surələrini oxumaq caiz deyil. Əgər bilərəkdən, yaxud səhvən səcdə surələrindən birini oxuyub səcdə ayəsinə yetişsə, vacib ehtiyata əsasən, gərək tilavət səcdəsi etsin. Sonra surə qurtarmayıbsa, qalxıb onu sona yetirsin. (Namazı qurtardıqdan) sonra onu yenidən qılsın. Amma səcdə ayəsinə yetişəndən qabaq bilsə, vacib ehtiyata əsasən, surəni saxlamalı və başqa bir surə oxuyub (namazı qurtardıqdan sonra) onu yenidən qılmalıdır.

**Məsələ-557.** Əgər namaz əsnasında səcdə ayəsini eşidərsə, namazı səhihdir. Səcdə ayəsini eşidəndən sonra səcdə etmək əvəzinə səcdəyə işarə etməlidir.

**Məsələ-558.** Əgər "Həmd"dən sonra "Qul huvəllah" və ya "Qul ya əyyuhəl-kafirun" surəsini oxumağa başlayarsa, onu saxlayıb başqa surə oxuya bilməz. Amma cümə namazında unudub "Cümə" surəsi, yaxud "Munafiqun" surəsi yerinə bunlardan birini oxumağa başlayarsa, onu saxlayıb "Cümə", yaxud "Munafiqun" surəsini oxuya bilər.

**Məsələ-559.** Əgər namazda "Qul huvəllah" və "Qul ya əyyuhəl-kafirun"surəsindən başqa bir surə oxumağa başlayarsa, nə qədər ki, surənin yarısından çoxunu oxumayıb, onu saxlayıb başqa bir surə oxuya bilər.

**Məsələ-560.** Əgər surəni oxuyarkən onun bir hissəsini yadından çıxarsa, yaxud vaxtın darlığından və ya başqa bir səbəbə görə naçarlıq üzündən onu başa vura bilməsə, gərək o surəni saxlasın, başqa surə oxusun. Bu halda (birinci oxuduğu) surənin yarısını keçib-keçməməyinin, həmçinin o surənin "Qul huvəllah", ya "Qul ya əyyuhəl-kafirun" olub-olmamasının fərqi yoxdur.

**Məsələ-561.** Müstəhəb namazlarda, hətta o namaz nəzir vasitəsilə vacib olsa belə, surə oxumaq lazım deyil. Amma bəzi müstəhəb namazlarda xüsusi surə gəldiyi üçün o namazın göstərişinə əməl etmək istəyərsə onu oxumaq lazımdır. Məsələn, valideyn üçün qılınan müstəhəb namazda olduğu kimi.

**Məsələ-562.** Namazın üç və dördüncü rəkətlərində təsbihati-ərbəəni bir dəfə demək kifayətdir. Hərçənd (müstəhəb) ehtiyat budur ki, üç dəfə deyilsin.

**Məsələ-563**. Əgər hansısa şəxs təsbihati-ərbəəni üç dəfə, ya az və ya çox dediyini bilməsə, onun boynuna bir şey gəlmir və gərək namazına davam etsin. Amma nə qədər ki, rükuya getməyib, dediyini az hesab edib təsbihati-ərbəəni üç dəfə dediyinə yəqin edənə qədər təkrar edə bilər.

**Məsələ-564.** Əgər bir şəxs namazın üç və dördüncü rəkətlərində təsbihat deməyə adət edərsə (yəni adətən "Həmd" deyil, təsbihat oxuyarsa), əgər "Həmd" oxumaq istəyərkən səhvən öz adəti üzündən təsbihat oxusa, namazı düzdür. Həmçinin əgər şəxsin adəti "Həmd" oxumaq olub təsbihat oxumaq istədikdə də belədir.

**Məsələ-565.** Əgər bir şəxs qəflət üzündən (bilmədən) namazın üç və dördüncü rəkətlərində "Həmd" və "surə" oxusa, namazdan sonra yadına düşərsə, namazı səhihdir. Yeniləməyə də ehtiyac yoxdur.

**Məsələ-566.** Əgər namazqılan ayaq üstündə olan halda təsbihatı, yaxud "Həmd"i deyib-deməməyində şəkk etsə, gərək "Həmd"i, yaxud təsbihatı oxusun. Amma ("Həmd" və ya təsbihatdan sonra müstəhəb olan) istiğfarı deyərkən şəkk edərsə, onu oxumaq lazım deyil.

**Məsələ-567.** Əgər namazın üç, yaxud dördüncü rəkətinin rükusunda "Həmd", yaxud təsbihatı oxuyub-oxumamasında şəkk edərsə, gərək öz şəkkinə etina etməsin. Amma rükuya gedərkən və rüku halına çatmamış şəkk edərsə, [1] (vacib) ehtiyata əsasən, qayıdıb "Həmd", yaxud təsbihatı deməlidir.

**Məsələ-568.** Kişilərə sübh namazı, məğrib və işa namazlarının (bir və ikinci rəkətlərində) "Həmd" və "surə"sini ucadan oxumaq vacibdir. Qadınlar isə bu namazlarda "Həmd" və "surə"ni ixtiyarlı

[1] Bu şərtlə ki, təsbihatdan sonrakı müstəhəb olan istiğfarı deməsin, yaxud deyib-deməməsi məlum olmasın. Necə ki, qabaqkı məsələdə deyildi. (Mütərcim),

olaraq ucadan, yaxud yavaş oxuya bilərlər. Baxmayaraq ki, naməhrəm onların səsini eşidərsə, yavaş oxumaları yaxşıdır. Amma zöhr və əsr namazlarını yavaş (pıçıltı ilə) oxumaq hamıya (istər kişi, istər qadın) vacibdir.

**Məsələ-569.** Həm kişiyə, həm da qadına vacibdir ki, namazın üç və dördüncü rəkətlərində "Həmd", yaxud təsbihati-ərbəəni yavaş (pıçıltı ilə) oxusun. Amma "Həmd" oxuyarsa, namazı furada (tək və fərdi halda) qıldıqda "Bismillahir-rəhmanir-rəhim" ayəsini ucadan oxuya bilər. Hərçənd ehtiyat budur ki, onu da yavaş desin. Bu ehtiyat camaat namazında vacibdir.

**Məsələ-570.** Sübh, məğrib və işa namazlarında qiraətin ucadan oxunması, zöhr və əsr namazlarında yavaş oxunmasının vacib olması (namazın bir və ikinci rəkətlərində) "Həmd" və "surə"yə məxsusdur. Necə ki, təsbihati-ərbəə, yaxud təkcə "Həmd"in yavaş oxunmasının vacib olması namazların üçüncü və dördüncü rəkətlərinə aiddir. Amma rüku və səcdələrin zikri, habelə təşəhhüd və salam, həmçinin digər vacib zikrlərin deyilməsində mükəlləf uca, yaxud yavaş deməkdə ixtiyarlıdır.

**Məsələ-571.** Vacib namazlarda cəhr (uca oxumaq) və ixfatın (yavaş oxumaq) vacib olmasında əda və qəza namazları arasında, hətta qəza namazı ehtiyat niyyətiylə qılınsa belə, fərq yoxdur.

**Məsələ-572.** İxfatın (yavaş oxumağın) meyarı səsin cövhərini aşkar etməməkdir (yəni pıçıltı ilə oxumaqdır), necə ki, cəhrin (uca oxumağın) meyarı səsin cövhərini aşkar etməkdir (səslə oxumaqdır).

**Məsələ-573.** Uca oxunması vacib olan yerdə bilərəkdən yavaş, həmçinin yavaş oxunması vacib olan yerdə bilərəkdən uca oxuyarsa, namazı batildir. Amma bu, unutmaq, yaxud qəflət üzündən və ya məsələni bilmədən olarsa, namazı səhihdir. Əgər "Həmd" və "surə" oxuduğu əsnada səhvini bilsə, qayıdıb yenidən düz oxumağa ehtiyac yoxdur.

**Məsələ-574.** Əgər bir şəxs "Həmd" və "surə"ni oxuyarkən səsini normadan çox ucaltsa, məsələn, qışqırmaqla oxuyarsa, namazı batildir.

**Məsələ-575.** Qiraət edərkən kəlmələrin tələffüz edilməsi vacibdir. Belə ki, qiraət hesab olunsun. Buna görə də sözləri qəlbdən keçirmək kifayət deyil. Qiraətin meyarı budur ki, onu oxuyarkən eşitmək üçün (ağır eşitmək, yaxud səs-küy kimi) heç bir maneə olmadığı təqdirdə özü dediyini eşitsin.

**Məsələ-576.** Əgər bir şəxs lal olduğu üçün danışmağa qadir deyilsə, sağlam hissiyyat üzvü varsa, namazını işarə ilə qılması kifayətdir.

**Məsələ-577.** Qiraəti səhih və səhvsiz oxumaq vacibdir. Əgər bir şəxs heç bir halda onun səhih oxunmasını öyrənməyi bacarmırsa, bacardığı kimi oxuya bilər. Müstəhəb ehtiyat budur ki, namazını camaatla qılsın (camaat namazında iştirak etsin).

**Məsələ-578.** "Həmd", "surə" və namazın digər tələffüzlərini yaxşı bilməyən, amma öyrənməyi bacaran şəxs namazın vaxtı dar olmadıqda gərək öyrənsin (sonra namazını qılsın). Amma vaxt dar olarsa, vacib ehtiyata əsasən, mümkün olduqda namazını camaatla qılsın.

**Məsələ-579.** Qiraətin səhihliyinin meyarı ərəb dili qaydaları və hərflərin məxrəclərindən düzgün xaric olunmasını riayət etməkdir. Belə ki, o hərfi (məxrəcindən xaric edərkən) ərəbdillilər onu həmin hərf bilsinlər, nəinki başqa hərf.

**Məsələ-580.** Qiraətdə təcvid hüsnlərinə riayət etmək lazım deyil.

**Məsələ-581.** Əgər bir şəxs "Həmd" və "surə"nin kəlmələrindən birini bilməsə, yaxud onu bilərəkdən deməsə və ya bir hərfin yerinə başqa bir hərf desə, məsələn, "ض" hərfinin yerinə "ز" hərfi, yaxud da fəthə və kəsrəni dəyişik desə və ya təşdidi deməsə, namazı batildir.

**Məsələ-582.** Bir şəxs "Həmd" və "surə"nin qiraətində, yaxud onun erab və hərəkələrində səhv edibsə, məsələn, "yuləd" kəlməsinin əvəzinə "yulid" deyibsə, müqəssir (təqsirli) cahil olduğu təqdirdə

(yəni öyrənmək imkanı olmaqla belə öyrənməyibsə), vacib ehtiyata əsasən, namazları batildir. Amma müqəssir deyil, qüsurlu cahil olubsa, namazı səhihdir. Əlbəttə, əgər keçmiş qıldığı namazlarını düz bilirdisə, səhih hökmündədir, yeniləmək və qəza etmək lazım deyil.

**Məsələ-583.** "Maliki (məliki) yəvmiddin" ayəsində "maliki" (məliki) kəlməsi uzun və qısa "ə" ilə, başqa sözlə əlif və fəthə ilə oxunub, ona görə də ehtiyat üzündən hər iki formada "maliki" və "məliki" qiraət olunması işkalsızdır.

**Məsələ-584.** Namazın qiraətində bir ayəni sonrakı ayəyə birləşdirəndə (birinci) ayənin axırının hərəkəsini zahir etmək (desin) lazım deyil. Məsələn, əgər "məliki yəvmiddin" desə və ayənin axırında "nun" hərfini (səsini) sakin oxuyub fasiləsiz olaraq "iyyakə nəbudu və iyyakə nəstəin" desə, işkalı yoxdur. Buna "sükunla vəsl etmək" deyilir. Həmçinin ayəni təşkil edən kəlmələr barədə də bu hökm caridir. Baxmayaraq ki, axırıncı yerdə (kəlmələrdə) (müstəhəb) ehtiyat budur ki, sükunla birləşdirilməsin.

**Məsələ-585.** Namazqılan "ğəyril-məğzubi ələyhim" deyən zaman onu dərhal "vələzzallin" kəlməsinə bağlamadan vəqflə oxusa (yəni birincini deyib dayansa, sonra ikincini oxuya), əgər bu vəqf (fasilə) cümlənin vahidliyinə zərər yetirməsə, işkalı yoxdur.

**Məsələ-586.** Əgər ayəni qurtardıqdan sonra onu düz oxuyub-oxumamasında şəkk etsə, öz şəkkinə etina etməsin. Həmçinin əgər ayədən bir cümləni sona yetirsə, sonra onun düz olub-olmamasında şəkk edərsə, şəkkinə etina etməsin. Məsələn, "iyyakə nəbudu" kəlməsindən sonra düz oxuyub-oxumamasında şəkk etsə, şəkkinə etina etməsin. Əlbəttə, bu yerlərin hamısında yenidən ehtiyat edib oxumağın işkalı yoxdur.

**Məsələ-587.** "Həmd", "surə" və təsbihat oxunan zaman bədən aram və hərəkətsiz olmalıdır. Əgər bir qədər qabağa, yaxud arxaya getmək, bədənini bir qədər sağa-sola hərəkət etdirmək istəsə,

gərək hazırda oxuduğu zikri saxlasın (və bədən aram olduqdan sonra qaldığı yerdən davam etsin).

**Məsələ-588.** Namazın birinci rəkətində "Həmd"i başlamadan öncə "əuzu billahi minəş-şəytanir-rəcim" demək müstəhəbdir. Birinci və ikinci rəkətlərdə "Bismillahir-rəhmanir-rəhim" ayəsini uca (yəni səsli) oxumaq, habelə "Həmd" və "surə"ni aram-aram (tərtillə) qiraət etmək hər ayənin sonunda vəqf etmək (dayanmaq), yəni onu sonrakı ayəyə birləşdirməmək müstəhəbdir. Həmçinin "Həmd" və "surə" oxuyarkən ayələrin mənalarına diqqət yetirilmək, "Həmd"i sona çatdırdıqdan sonra ("surə"dən qabaq) istər fərdi halda, istərsə də camaatla, istər imam olsun, istər məmum, "əlhəmdu lillahi rəbbil-aləmin" demək müstəhəbdir. "Qul huvəl-lahu əhəd" surəsini oxuduqdan sonra bir, ya üç dəfə "kəzalikəllahu rəbbi" demək, təsbihati-ərbəəni dedikdən sonra istiğfar etmək, məsələn, "əstəğfirullahə rəbbi və ətubu iləyh", ya "əllahumməğ-firli" demək müstəhəbdir.

**Məsələ-589.** Bir gecə-gündüzün namazlarının (gündəlik namazlarının) heç birində "Qul huvəllah" surəsini oxumamaq məkruhdur. Həmçinin (bir namazın) iki rəkətində eyni surəni oxumaq məkruhdur, amma "Qul huvəllah" surəsi bu hökmdən müstəsnadır (yəni iki rəkətdə onu oxumaq məkruh deyil).

## 5. Rüku

**Məsələ-590.** Hər rəkətdə qiraətdən sonra bir "rüku" vacibdir. Rüku əllərini dizlərinə qoya bilən miqdarda əyilməkdən ibarətdir.

**Məsələ-591.** Əgər rüku həddinə yetişdikdən və bədəni (rükuda) aram olduqdan sonra yenidən rüku məqsədiylə əyilsə, namazı batil olur (çünki rüku rükndür və artıq rükn namazı batil edir).

**Məsələ-592.** Hər rəkətdə o qədər əyilməlidir ki, əlləri dizlərinə çatsın və barmaqlarının dizlərinə çatması kifayət edir.

**Məsələ-593.** (Vacib) ehtiyat odur ki, rüku halında əllərini dizlərinə qoysun.

**Məsələ-594.** Əyilmək rüku qəsdiylə (məqsədiylə) olmalıdır. Buna əsasən, əgər başqa bir iş üçün, məsələn, həşərat öldürmək və ya nəyisə götürmək üçün əyilərsə, rüku sayılmır. Onu rüku hesab etmək olmaz. Gərək qalxsın, ikinci dəfə rüku məqsədiylə əyilsin. Bu əməl artıq rükn sayılmır və namaz batil olmur.

**Məsələ-595.** Oturan halda rüku edən şəxs üzü dizlərinin bərabərinə (tuşuna) çatana qədər əyilərsə, kifayət edər.

**Məsələ-596**. Rükunun vacib zikri bir dəfə "subhanə rəbbiyəl-əzimi və bihəmdih", ya üç dəfə "subhanəllah" deməkdən ibarətdir. Amma onların yerinə başqa zikr, məsələn, "əlhəmdu lillah" ya "Əllahu əkbər" zikrini də o qədər deməyi kifayətdir.[1]

**Məsələ-597.** Rükuda vacib zikri deyən zaman bədəni aram saxlamaq lazımdır. Hətta vacib ehtiyata görə müstəhəb məqsədlə deyilən zikr zamanı da, məsələn, "subhanə rəbbiyəl-əzimi və bihəmdih" zikrini təkrar edərkən və s. bədən aram olmalıdır.

**Məsələ-598.** Rükunun vacib zikrini deyən zaman bədən ixtiyarsız hərəkət edib vacib "tumənninə"[2] halından xaric olarsa, gərək bədəni aram olduqdan sonra zikri yenidən desin.

**Məsələ-599.** Əgər bir şəxs "tumənninə"nin rüku zikrində vacib olmasını bilsə, rükuya yetişməzdən və bədən aram olmazdan qabaq bilərəkdən rükunun zikrinə başlasa, namazı batildir. Amma səhvən olarsa, gərək rükuya yetişib bədən aram olduqdan sonra zikri ikinci dəfə desin, Əgər zikri tamamlamadan rükudan qalxsa, bilərəkdən olarsa, namazı batildir. Amma səhvən olarsa, əgər rüku həddindən xaric olduqdan sonra zikri tamamlamadığını bilsə, gərək elə o halda

---

[1] Xatırladaq ki , "Əllahu əkbər" və "əlhəmdu lillah" kimi qısa zikrlər "subhanəllah" zikri kimi gərək üç dəfə deyilsin. Ümumiyyətlə, zikrin miqdarı üç "subhanəllah" qədərindən az olmamalıdır. (Mütərcim)

[2] "Tumənninə" namaz halında bədənin aram və normal halda hərəkətsiz (sabit) olmasına deyilir.(Mütərcim)

dayanıb zikri tamamlasın. Əgər rüku həddindən xaric olubsa, namazı səhihdir.

**Məsələ-600.** Əgər bir şəxs xəstəlik və bu kimi səbəbə görə üç "subhanəllah" demək qədərində rüku halında qala bilmirsə, bir dəfə "subhanəllah" desin. Amma o qədər də qala bilmirsə, məsələn, bir an qalmağa qadirdirsə, vacib ehtiyata görə rükuya çatan kimi zikri başlasın və qalxan halda tamamlasın.

**Məsələ-601**. Rükunun zikri qurtardıqdan sonra gərək düz dursun və bədən aram qaldıqdan sonra səcdəyə getsin. Buna əsasən, əgər tam qalxdıqdan, yaxud bədən aram olduqdan qabaq bilərəkdən səcdəyə gedərsə, namazı batildir.

**Məsələ-602**. Bir şəxs rükunu unudarsa, birinci səcdəyə yetişməzdən qabaq yadına düşsə, gərək qalxıb sonra rükuya getsin (və əgər oturduğu yerdən ayağa qalxmadan birbaşa rüku halına qalxarsa, kifayət etmir və bu rüku ilə kifayətlənərsə, namazı batildir). Əgər ikinci səcdəyə yetişməzdən qabaq yadına düşərsə (yəni birinci səcdədə, birinci səcdədən sonra və ikinci səcdədən qabaq), gərək ayağa qalxıb rüku etsin. Sonra iki səcdəni yerinə yetirsin və namazını qurtardıqdan sonra artıq səcdəyə görə iki səcdeyi-səhv etsin. Amma əgər ikinci səcdəyə gedəndən sonra yadına düşə, namazı batildir (çünki bir rüknü tərk edib başqa bir ruknə daxil olub).

**Məsələ-603.** Rükuya getməzdən qabaq qiyam halında olarkən təkbir (yəni "Əllahu əkbər") demək müstəhəbdir. Namazqılan kişidirsə (rüku halında) dizlərini arxaya vermək, qadındırsa dizlərini arxaya verməmək müstəhəbdir. (Müstəhəbdir rüku halında) baş aşağı salınmasın və bədən ilə bərabər tutulsun, əllərin içi dizlərə söykənilsin. Əgər namazqılan qadındırsa, əllərini dizlərindən yuxarı qoysun. (Müstəhəbdir rüku halında) baxışını ayaqlarının arasına diksin, rüku zikrindən qabaq, yaxud sonra salavat göndərsin. Rükudan qalxdıqdan və bədəni aram durduqdan sonra "səmiəllahu limən həmidəh" desin.

## 6. Səcdə

**Məsələ-604.** Namazqılan vacib və müstəhəb namazların hər rəkətində rükudan sonra gərək iki səcdə etsin. Səcdə xüzu üzündən alını yerə qoymaqdan ibarətdir.

**Məsələ-605.** Bir rəkətdə iki səcdə bir rükndür. Belə ki, bilərəkdən, yaxud səhvən ikisini birlikdə tərk etmək və ya yerinə yetirməmək namazı batil edir.

**Məsələ-606.** Bilərəkdən bir səcdəni artırmaq, ya da tərk etmək namazı batil edir. Amma səhvən olarsa, namaz batil deyil. Lakin xüsusi hökmü var ki, sonradan deyiləcək.

**Məsələ-607.** Səcdədə yeddi üzv yerə dəyməlidir: Alın, iki əlin içi, iki diz, iki ayağın baş barmağı. Əgər bilərəkdən və ya səhv üzündən alın yerə qoyulmasa, hətta qalan altı üzvü (iki əl, iki diz və iki ayağın baş barmaqlarının başı) yerə qoyulsa belə, səcdə edilməyib. Amma alın yerə qoyulsa, səhvən başqa üzvlər yerə çatdırılmasa, yaxud zikr deyilməsə, səcdə səhihdir.

**Məsələ-608.** Səcdə zamanı əlləri kiçik-kiçik dəlikləri olan mozaikaya qoymağın işkalı yoxdur.

**Məsələ-609.** Əgər səcdə edərkən ayağın baş barmaqlarından əlavə digər barmaqları da yerə qoyularsa, işkalı yoxdur.

**Məsələ-610.** Əgər bir şəxs alnını yerə qoya bilməsə, gərək bacardığı qədər əyilsin, möhür və ya səcdə səhih olan digər bir şeyi hündür yerə qoyub alnını onun üzərinə elə qoysun ki, səcdə deyilsin. Amma gərək əllərinin içini, dizlərini və ayağın baş barmaqlarının ucunu imkan təqdirində normal şəkildə yerə qoysun. Əgər möhürü qoymaq üçün bir şey olmasa, gərək (bacardığı qədər əyildikdən sonra) onu əli ilə qaldırıb başını ona qoysun.

**Məsələ-611.** Başını hündür səcdə yerinə qoya bilməyən şəxs səcdə əvəzinə gərək başı ilə işarə etsin. Ona da qadir deyilsə, gözü ilə işarə etsin.

**Məsələ-612.** Cismi vəziyyəti ilə əlaqədar yeddi üzvünü yerə qoymağa qadir olmayıb stuldan (əlil arabasından) istifadə edirsə, əgər o arabaya möhür və bu kimi səcdə səhih olan bir şey qoymaqla, yaxud qarşısına stol ya stul və bu kimi əşya qoyub üzərinə möhür qoyub səcdə edə bilirsə, bu formada səcdə etməlidir və namazı səhihdir. Buna qadir olmadıqda nə cür imkan varsa, hərçənd işarə ilə də olarsa səcdə etməlidir. Bu şəxsin (vəziyyətiylə əlaqədar işarə ilə rüku və səcdə etməsi işkalsızdır və) namazı səhihdir.

**Məsələ-613.** Palçıqlı yerdə namaz qıldıqda[1] bədən və paltarının palçığa bulanması məşəqqət və çətinliyə səbəb olursa, ayaq üstə başı ilə səcdəyə işarə edə, təşəhhüdü də ayaq üstə oxuya bilər.

**Məsələ-614.** Səcdədə vacib zikr bir dəfə "subhanə rəbbiyəl-əla və bihəmdih", yaxud üç dəfə "subhanəllah" deməkdir. Əgər onun yerinə "əlhəmdulillah" və "Əllahu-əkbər" zikri kimi başqa zikrlər deyilsə, kifayətdir.[2]

**Məsələ-615.** Səcdənin vacib zikrlərini deyən zaman bədən aram olmalıdır. Hətta vacib ehtiyata görə müstəhəb məqsədlə deyilən zikr zamanı da məsələn, "subhanə rəbbiyəl-əla və bi-həmdih" zikrini təkrar edərkən və s. bədən aram olmalıdır.

**Məsələ-616.** Bir şəxs səcdə zikrində bədən aramlığının vacib olmasını bilsə, alnı yerə yetişməzdən və bədən aram olmazdan qabaq bilərəkdən səcdənin zikrinə başlayarsa, namazı batildir. Amma əgər səhvən olsa və səcdədə bilsə, gərək bədən aram olduqdan sonra zikri ikinci dəfə desin. Əgər başını səcdədən götürdükdən sonra yadına düşə, namazı səhihdir. Əgər zikri tamamlamadan başını səcdədən qaldırsa, bilərəkdən olarsa, namazı batildir. Amma səhvən olarsa, namazı səhihdir.

---

[1] Əlbəttə ki, əgər bu namazı qılmağa naçardısa. (Mütərcim)

[2] Rükunun zikrində dediyimiz kimi, "Əllahu əkbər" və "əlhəmdu lillah" kimi qısa zikrlər "subhanəllah" zikri kimi gərək üç dəfə deyilsin. Ümumiyyətlə, zikrin miqdarı üç "subhanəllah" qədərindən az olmamalıdır. (Mütərcim)

**Məsələ-617.** Əgər döşək kimi yumşaq yer üzərində səcdə edərkən - belə ki, bədən əvvəl aram olmur, amma sonradan aram olur - bədən aram olduqdan sonra zikri deyilsə, işkalı yoxdur.

**Məsələ-618.** Səcdə zikrini deyərkən bilərəkdən yeddi üzvdən birini yerdən qaldırarsa, namazı batildir. Amma zikr demədən alnından başqa bir üzvü qaldırıb sonra yerə qoysa, işkalı yoxdur.

**Məsələ-619.** Əgər səcdə zikri sona çatmadan alın səhvən yerdən götürülsə, ikinci dəfə yerə qoyula bilməz və gərək bir səcdə hesablansın. Amma başqa üzvləri səhvən yerdən götürülsə, gərək ikinci dəfə yerə qoyulsun və zikri deyilsin.

**Məsələ-620.** Səcdə zamanı alın səcdə yerinə dəyib ixtiyarsız olaraq yerdən qalxsa, gərək yenidən yerə qoyub zikr deyilsin və bu bir səcdə hesab olunur.

**Məsələ-621.** Birinci səcdənin zikri sona çatdıqdan sonra oturub bədən aram olduqdan sonra ikinci səcdəyə getmək lazımdır.

**Məsələ-622.** Alnın yeri diz və ayaq baş barmaqların yerindən dörd bağlı barmaqdan hündür, yaxud alçaq olmamalıdır.

**Məsələ-623.** Möhür və s. səcdə edilən yer pak olmalıdır. Amma möhür nəcis xalça və yer üzərində olsa, həmçinin səcdə yerinin (məsələn, möhürün) bir hissəsi nəcis olsa, amma alın onun pak hissəsinə qoyularsa, işkalı yoxdur.

**Məsələ-624.** Gərək alın ilə səcdə edilən yer (məsələn, möhür) arasında bir maneə olmasın. Buna əsasən, əgər başın tükü, papaq, (yaylıq), maneə yaradan miqdarda çirk və s. kimi maneə olarsa, səcdə və namaz batildir.

**Məsələ-625.** Əgər səcdədə çadra, yaylıq və s. kimi maneənin fasilə salmasına görə alnın möhürlə təmasda olmaması bilinsə, başını yerdən götürmədən alnını hərəkətə gətirib möhürün (səcdə etdiyi hər hansı bir şeyin) üzərinə gətirmək vacibdir. Əgər (məsələni) bilmədən, yaxud unutmaq üzündən baş qaldırılsa, bu iş bir rəkətin təkcə bir səcdəsində belə olarsa, namazı səhihdir və yeniləmək

lazım deyil. Amma bu iş məsələni bilərkən və qəsdən olsa, yaxud da bir rəkətin iki səcdəsində baş versə, namaz batildir. Onu yenidən qılmaq vacibdir.

**Məsələ-626.** Alnı ona səcdə edilməsi səhih olan yerə qoymaq lazımdır.

**Məsələ-627**. Namazların birinci rəkətində və dördrəkətli namazların üçüncü rəkətində vacib ehtiyata əsasən, ikinci səcdədən sonra əyləşmək, sonra yeni rəkət üçün ayağa qalxmaq lazımdır.

## Üzərinə səcdə etməyin səhih sayıldığı şeylər

**Məsələ-628.** Namazda səcdə gərək yerə, yaxud yerdən çıxan yeyilməyən bitkilərə daş, torpaq, ağac, ağac yarpağı və s. olsun. Səcdə yeyilən və geyilənlərdən hərçənd yerdən göyərmiş olsa belə, pambıq, buğda kimi, habelə filiz və şüşə kimi yer cinsindən olmayan mədən əşyaları kimi əşyalara səhih deyil.

**Məsələ-629.** Binaların tikintisi və zinətləndirilməsində işlədilən mərmər daşı və s. daşlara səcdə səhihdir. Həmçinin əqiq, firuzə, dürr və s. kimi daş-qaşlara səcdə etmək olar. Hərçənd (müstəhəb) ehtiyat bu daş-qaşlara səcdə etməməkdir.

**Məsələ-630.** Yerdən göyərən və ancaq heyvanların yeməyi olan ot və saman kimi bitkilərə səcdə səhihdir.

**Məsələ-631**. Çayın yaşıl yarpağına səcdə etmək vacib ehtiyata əsasən, səhih deyil. Amma qəhvə yarpağı yeyilmədiyi üçün ona səcdə etmək səhihdir.

**Məsələ-632**. Yerdən göyərən yeyilməyən güllərə və ancaq müalicə üçün istifadə olunan bitki dərmanlarına səcdə səhihdir. Gülxətmi və bənövşə kimi müalicə əhəmiyyəti olduğuna görə yeməklərdə də istifadə olunan bitkilərə səcdə səhih deyil.

**Məsələ-633.** Bəzi məntəqələrdə, yaxud bəzi insanlar arasında yeyilən lakin başqalarının xörək kimi istifadə etmədiyi bitkilər yemək qismindədir və onlara səcdə səhih deyil,

**Məsələ-634.** Kərpic, saxsı, gips, əhəng və sementə səcdə səhihdir.

**Məsələ-635.** Ağacdan və (kətan və pambıqdan başqa) bitkilərdən hazırlanmış kağıza səcdə səhihdir.

**Məsələ-636.** Əgər səcdə səhih olan bir şey olmasa, yaxud soyuq, istilik və s. səbəbə görə ona səcdə edə bilməsə, paltarı pambıq, kətan parçadan olsa, yaxud kətan və pambıq cinsindən səcdə etmək üçün bir şey olsa, gərək ona səcdə etsin. Lakin (vacib) ehtiyata əsasən, kətan, pambıq cinsindən olan paltara səcdə etmək mümkün olduqda həmin cinsdən olan başqa bir şeyə səcdə etməsin. Bu da olmadıqda əlinin arxasına səcdə etməlidir.

**Məsələ-637.** Əgər namaz əsnasında səcdə etdiyi şey (məsələn, möhür) itsə və səcdə səhih olan bir şey də əl altında olmasa, vaxt (namazın vaxtı) genişdirsə, gərək namazı sındırsın (və səcdə etmək üçün bir şey götürsün, sonra namaza yenidən başlasın). Amma vaxt dardırsa, yuxarıdakı məsələdə deyilən tərtibə əməl etsin.

**Məsələ-638.** İnsan təqiyyə etməli olduğu yerdə xalça və bu kimi şeylərə səcdə edə bilər. Namaz qılmaq üçün başqa yerə getmək lazım deyil. Amma o yerdə zəhmətə düşmədən həsirə, daşa və bu kimi səcdə səhih olan şeylərə səcdə etmək mümkündürsə, gərək o əşyalara səcdə etsin.

**Məsələ-639.** Birinci səcdədə möhür alnına yapışarsa, ikinci səcdə üçün onu alından ayırmaq lazımdır. Möhürü alından götürmədən ikinci səcdəyə getmək işkallıdır.

**Məsələ-640.** Ən yaxşı səcdə torpağa və yerin üzərinə olan səcdədir. Bu, mütəal Allahın qarşısında xüzu və xüşu nişanəsidir. Səcdə üçün fəzilət baxımından heç bir torpaq həzrət Seyyidüş-şühəda (İmam Hüseyn) əleyhissəlamın türbətinə çatmaz.

**Məsələ-641.** Səcdədə bir neçə şey müstəhəbdir:

1. Səcdədən qabaq və sonra bədən aram olduqda təkbir demək;
2. İki səcdə arasında bədən aram olduqda "əstəğfirullahə rəbbi və ətubu iləyh" demək;

3. Səcdəni uzadıb zikr demək, dünya və axirət hacətləri diləmək və salavat göndərmək;

4. Səcdədən sonra sol budunun üstündə oturub, sağ ayağının üstünü sol ayağının içinə (sol ayağının altına) qoymaq.

**Məsələ-642.** Səcdə halında Quran oxumaq məkruhdur (yəni savabı azdır).

**Məsələ-643.** Mütəal Allahdan başqasına səcdə etmək haramdır. Bəzən bir sıra insanların İmamların (ə) hərəminə daxil olarkən alınlarını yerə qoymaları Allaha şükür səcdəsi məqsədiylə olarsa, işkalı yoxdur. Əks təqdirdə haramdır.

## Quranın vacib səcdələri

**Məsələ-644.** "Səcdə", "Fussilət", "Nəcm" və "Ələq" surələrinin hər birində bir səcdə ayəsi var ki, əgər insan onu oxusa, yaxud ona qulaq assa,[1] gərək ayə sona çatdıqdan sonra dərhal səcdə etsin. Əgər unudarsa, hər zaman yadına düşsə gərək səcdə etsin.[2]

**Məsələ-645.** Əgər səcdə ayəsinə radio, televiziya və ya maqnitafondan yayımlanarkən qulaq assa,[3] səcdə vacibdir.

**Məsələ-646.** Quranın vacib səcdəsi gərək namazda səcdə səhih olan şeylərə olunsun. Amma üzüqibləyə, dəstəmazlı və s. kimi namazın səcdəsində olan digər şərtlər onda lazım deyil.

---

[1] Yaxud eşidərsə. (Mütərcim).

[2] Səcdə ayələri: 1. "Səcdə" surəsi, 32-ci surənin 15-ci ayəsi, 2. "Fussilət" surəsi, 41-ci surənin 37-ci ayəsi. 3. "Nəcm" surəsi, 53-cü surənin 62-ci ayəsi, 4. "Ələq" surəsi, 96-cı surənin 19-cu ayəsi.

[3] Yaxud eşidərsə. (Mütərcim).

**Məsələ-647.** Quranın vacib səcdəsində alını yerə qoymaq kifayətdir və xüsusi zikr demək vacib deyil. Amma müstəhəbdir ki, zikr deyilsin və daha yaxşıdır bu zikr oxunsun:

“La ilahə illəllahu həqqən həqqa, la ilahə illəllahu imanən və təsdiqa, la ilahə illəllahu ubudiyyətən və riqqa, səcədtu ləkə ya rəbbi təəbbudən və riqqa, la mustəkbirən və la mustənkifa, bəl ənə əbdun zəlilun zəifun xaifun mustəcir”.

## 7. Zikr

**Məsələ-648.** Mütəal Allahı xatırlatmağa aid olan hər bir ibarət “zikr” sayılır (Əllahu əkbər, əlhəmdu lillah və subhanəllah və s. kimi). Məhəmməd (s) və onu ailəsinə (ə) salavat göndərmək ən yaxşı zikrlərdəndir.

**Məsələ-649.** Namazın zikrlərini elə demək lazımdır ki, tələffüz sayılsın. Onun nişanəsi budur ki, (ağır eşitmək müşkülü və ya səs-küy kimi maneələr olmadığı təqdirdə) öz dediyini eşidə bilsin.

**Məsələ-650.** Namazın bütün vacib zikrlərini ərəbcə səhih oxumaq vacibdir. Əgər namazqılan ərəb kəlmələri düzgün necə tələffüz etməli olduğunu bilmirsə, vacibdir ki, öyrənsin. Amma öyrənmək qüdrətində deyilsə, üzrlü sayılır.

**Məsələ-651.** Bütün vacib və müstəhəb zikrlərin bədən aram olan halda oxunması vacibdir. Əgər bir qədər qabağa-arxaya getmək, yaxud bədənini bir qədər sağa-sola hərəkət etdirmək istəsə, gərək dediyi zikri hərəkət zamanı saxlasın. Amma hərəkət halında mütləq zikr məqsədiylə zikr deməyin eybi yoxdur.

**Məsələ-652.** Əgər rüku və səcdənin zikrlərini səhvən bir-birinin yerinə deyərsə, işkalı yoxdur. Bilərəkdən olarsa, caiz deyil. Amma Allahı mütləq zikr etmək məqsədiylə eybi yoxdur.

**Məsələ-653.** Əgər rüku və səcdələrdən sonra onların zikrini səhv dediyini bilsə, ona bir şey vacib deyil.

**Məsələ-654.** Rükuda və səcdələrdə zikr demək vacibdir. Həmin zikri təkrar etməyin fəziləti var və çox yaxşıdır ki, tək ədədlərlə tamamlansın. Səcdədə deyilənlərdən əlavə salavat göndərmək dünya və axirət hacətləri üçün dua etmək müstəhəbdir.

**Məsələ-655.** Rükudan qabaq, hər səcdədən qabaq və sonra təkbir demək müstəhəbdir. Bu təkbir rükuya və səcdəyə gedən halda, başı səcdədən qaldıran, halda olmamalıdır. Ümumiyyətlə, hər halda, rükuya və səcdəyə gedən zaman, başı səcdədən qaldırarkən təkbir, yaxud hər hansı bir zikri mütləq zikr məqsədiylə demək olar.

**Məsələ-656.** Müstəhəbdir növbəti rəkətə qalxarkən "bi-həvlillahi və quvvətihi əqumu və əqud" (Allahın qüdrət və qüvvəsilə qalxıb otururam) zikrini desin.

## 8. Təşəhhüd

**Məsələ-657.** Hər namazın ikinci, məğrib namazının üçüncü, işa, zöhr və əsr namazlarının dördüncü rəkətlərində namazqılan ikinci səcdədən sonra gərək otursun. Bədəni aram olduqdan sonra təşəhhüdün zikrində deyiləcək cümlələri dilinə gətirsin ki, buna "təşəhhüd" deyilir.

**Məsələ-658.** Təşəhhüddə deyilən vacib zikr bunlardır:

"Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh. Əllahummə salli əla Muhəmmədin və ali Muhəmməd. "

**Məsələ-659**. Müstəhəbdir yuxarıdakı cümlələrdən qabaq "əlhəmdu lillah" ya "bismillahi və billahi vəlhəmdu lillahi və xəyrul-əsmai lillah" deyilsin. Həmçinin müstəhəbdir ki, təşəhhüddən sonra deyilsin: "və təqabbəl şəfaətəhu vərfə dərəcətəh"

**Məsələ-660.** Təşəhhüddə "Əllahummə salli əla Muhəmmədin" cümləsində vəqf etmək, yəni onu tənvinsiz "Əllahummə salli əla

Muhəmməd" oxumaq sonra "ali Muhəmməd" demək cümlənin birliyinə zərər yetirməyəcək qədər fasilə ilə olarsa, işkalı yoxdur.

**Məsələ-661.** Əgər bir şəxs təşəhhüdü unudub ayağa qalxarsa, rükudan qabaq təşəhhüdü deməməsi yadına düşsə, gərək oturub təşəhhüdü desin. Sonra durub o rəkətdə nə oxunmalıdırsa, (əvvəldən) oxusun. Müstəhəb ehtiyata əsasən, yersiz ayağa qalxdığı üçün namazdan sonra iki səcdeyi səhv etsin. Əgər üçüncü rəkətin rükusuna getdikdən sonra yadına düşərsə, gərək namazına davam edərək namazı sona yetirsin. Namazın salamını dedikdən sonra təşəhhüdü unutduğuna görə iki səcdeyi səhv etsin. (Vacib) ehtiyata əsasən, səcdeyi səhvdən qabaq unutduğu təşəhhüdü qəza etsin.

## 9. Salam

**Məsələ-662.** Namazın axırıncı hissəsi "salam"dır. Onu deməklə namaz sona çatır. Namazın vacib salamı "əssəlamu ələykum" deməkdir. "Və rəhmətullahi və bərəkatuh" cümləsini də ona əlavə etmək daha yaxşıdır və ya "Əssəlamu ələyna və əla ibadillahis-salihin" deyilsin.

**Məsələ-663.** Yuxarda deyilən iki salamdan qabaq: "Əssəlamu ələykə əyyühən-nəbiyyu və rəhmətullahi və bərəkatuh" demək müstəhəbdir.

**Məsələ-664.** Əgər namazın salamı unudulsa, namaz halı pozulmamışdan üzü qiblədən döndərmək kimi namazı bilərəkdən və səhvən batil edən işlər edilmədən yadına düşsə, gərək salamı desin və namazı düzdür.

## 10. Tərtib

**Məsələ-665.** Namazqılan namazı gərək deyilən tərtiblə qılsın və onun hər bir hissəsini öz yerində icra etsin. Buna əsasən, əgər bilərəkdən tərtibi pozsa, məsələn, bilərəkdən "surə"ni "Həmd"dən qabaq oxusa, yaxud səcdəni rükudan qabaq etsə, namazı batildir.

**Məsələ-666.** Rüknlərin birini digərindən əvvəl yerinə yetirmək (qabaq etmək) namazı batil edir. Belə ki, məsələn, iki səcdəni etmədən qalxıb növbəti rəkətin rükusu yerinə yetirilsə, bu zaman namaz batildir (istər bilərəkdən olsun, istərsə də səhvən).

**Məsələ-667.** Əgər qeyri-rüknü rükndən əvvəl yerinə yetirsə, məsələn, iki səcdəni unudub təşəhhüd deyilsə və səcdələrin yerinə yetirilmədiyi yada düşsə, gərək rükn (iki səcdə) yerinə yetirilsin. Sonra qabaqcadan səhvən deyilən (təşəhhüd) yenidən oxunsun.

**Məsələ-668.** Əgər rükn qeyri-rükndən əvvəl yerinə yetirilsə, məsələn, "Həmd" unudulsa və rükuya getdikdən sonra oxunmadığı yada düşsə, (namazına davam etməlidir və) namazı səhihdir.

**Məsələ-669**. Əgər qeyri-rükn başqa qeyri-rükndən əvvəl icra edilsə, məsələn, "Həmd" unudulub "surə" oxunsa, rükuya gedəndən qabaq yadına düşsə, bu zaman gərək unudulan (misalda "Həmd") oxunulsun, sonra qabaqcadan səhvən oxunan (misalda "surə") yenidən oxusun.

## 11. Müvalat (ardıcıllıq)

**Məsələ-670.** Namazqılan namazın hissələrini - rüku, səcdələr, təşəhhüd və s. qisimlərini gərək ardıcıllıqla yerinə yetirib onların arasında çox və qeyri-adi fasilə salmasın. Buna əsasən, namazın hissələri arasında "namaz halından xaric olub" deyiləcək qədərində fasilə salarsa, namazı batildir.

**Məsələ-671.** Əgər kəlmələr, yaxud hərflər arasında səhvən qeyri-adi fasilə salınsa, amma bu fasilə namazın surətini (şəklini) pozmasa, bu zaman ondan sonrakı rüknə (məsələn, rükuya) getdikdən sonra yadına düşsə, namaz səhihdir, o kəlmə, yaxud cümləni təkrar etmək lazım deyil. Amma ondan sonrakı rüknə daxil olmamışdan qabaq yada düşsə, gərək qayıdıb onları ikinci dəfə oxunsun.

## Qunut

**Məsələ-672.** Bütün vacib və müstəhəb namazlarda ikinci rəkətin "Həmd" və "surə"si sona çatdıqdan sonra, rükuya getməzdən əvvəl əllərini duaya qaldırıb dua etmək müstəhəbdir. Bu əməl "qunut" adlanır. Cümə namazında (hər iki rəkətdə qunut var) birinci rəkətdə rükudan qabaq və ikinci rəkətdə rükudan sonra yerinə yetirilir. Fitr və qurban namazlarında (doqquz qunut var) birinci rəkətdə beş, ikinci rəkətdə isə dörd qunut yerinə yetirilir.

**Məsələ-673.** Qunutda hər bir zikr, dua, Quran ayəsi oxumaq olar. Hətta bir salavat, "subhanəllah", "bismillah", yaxud "Bismillahir-rəhmanir-rəhim" deməklə kifayətlənmək olar. Amma Quranda gəlmiş dualardan oxunması daha yaxşıdır, məsələn:

"Rabbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənətən və qina əzabən-nar".

Yaxud məsum İmamlardan (ə) çatmış dualardan oxunsun, məsələn:
"La ilahə illəllahul-həlimul-kərim"

"La ilahə illəllahul-əliyyul-əzim"

"Subhanəllahi Rəbbis-səmavatis-səb'"i və Rəbbil-ərəzinəs-səb'"i"
"Və ma fihinnə və ma bəynəhunnə və Rəbbil-ərşil-əzim"
"Vəl-həmdu lillahi Rəbbil-aləmin"

## NAMAZIN TƏQİBATI
### (NAMAZIN ARDINCA EDİLƏN MÜSTƏHƏB ƏMƏLLƏR)

**Məsələ-674.** Namazın təqibatının ərəbcə olması lazım deyil. Amma daha yaxşıdır ki, İmamlardan (ə) bizə nəql olunan dua və zikrlər oxunsun. Onların ən yaxşılarından biri Həzrət Zəhra (s) adı ilə tanınmış 34 dəfə "Əllahu əkbər", 33 dəfə "əlhəmdu lillah" və 33 dəfə "subhanəllah" zikrindən ibarətdir.

**Məsələ-675.** Namazdan sonra şükür səcdəsi etmək müstəhəbdir. Yəni Allahın bütün nemətləri və namaz qılmaq nemətinin şükrünü yerinə yetirmək məqsədiylə alın yerə qoyulsun. Daha yaxşı olar ki, üç dəfə, ya çox "şukrən lillah" deyilsin.

## Namazın tərcüməsi

Yaxşı olar ki, namazqılan namazın sözləri və zikrlərinin mənalarına diqqət yetirməklə, xüzu və xüşu ilə desin, bu fürsətdən ruhunu paklamaq, böyük və mehriban Allaha yaxın olmaq üçün bəhrələnsin.

## "Həmd" surəsi və onun tərcüməsi

**Bismillahir-rəhmanir-rəhim.**
(Rəhman və rəhim Allahın adı ilə)
**Əlhəmdu lillahi rəbbil aləmin.**
(Allaha - aləmlərin Rəbbinə həmd olsun)
**Ər-rəhmanir-rəhim.**
(Həmd olsun rəhimli və mərhəmətli olana)
**Maliki yaumiddin.**
(Haqq-hesab gününün sahibinə)
**İyyakə nəbudu və iyyakə nəstəin.**
(Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik)
**İhdinəs-sıratəl mustəqim.**
(Bizi doğru yola yönəlt)
**Siratəl-ləzinə ən-əmtə əleyhim ğayril məğzubi əleyhim vələzzallin.**
(Nemət verdiyin kəslərin yoluna, qəzəbə düçar olanların və azanların yoluna yox).

## "Tövhid" surəsi və onun tərcüməsi

**Bismillahir-rəhmanir-rəhim.**
(Rəhman və rəhim Allahın adı ilə)
**Qul huvəllahu əhəd.**
(De ki, Allah təkdir)

**Əllahus-saməd.**
(Allah ehtiyacsızdır)
**Ləm yəlid və ləm yuləd.**
(O, nə doğmuş, nə də doğulmuşdur)
**Və ləm yəkul-ləhu kufuvən əhəd.**
(Onun heç bir tayı-bərabəri, bənzəri də yoxdur)

## Rüku və səcdənin zikrləri, onların tərcüməsi

### Rükunun zikri

**Subhanə rəbbiyəl əzimi və bi-həmdih**
(Rəbbim pakdır, əzəmət və həmd sahibidir)

### Səcdənin zikri

**Subhanə rəbbiyəl əla və bi-həmdih**

(Rəbbim pakdır, ucadır və həmd sahibidir)

## Bəzi zikrlər və onların tərcüməsi

**Səmiəllahu limən həmidəh**
(Allahın nəzəri o şəxsə olsun ki, Onu sitayiş edir)
**Əstəğfirullahə Rəbbi və ətubu ileyh**
(Allahdan bağışlanmaq diləyirəm və Ona tərəf qayıdıram)
**Bihəvlillahi və quvvətihi əqumu və əqud**
(Allahın qüdrət və qüvvəsilə qalxıb-otururam - Qalxmağım və oturmağım Allahın qüdrət və qüvvəsiylədir).

## Qunutun zikrləri və onun tərcüməsi

**Rəbbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənətən və qina əzabən-nar.**
(Ey Rəbbimiz! Dünya və axirətdə bizə ehsan və yaxşılıq bəxş et və bizi od əzabından (cəhənnəm odundan) uzaq et)

**La ilahə illəllahul-həlimul-kərim**

(Kərəm və helm sahibi olan Allahdan başqa bir məbud ibadətə layiq olan kimsə yoxdur.)

**La ilahə illəllahul-əliyyul-əzim**

(Böyük, uca mərtəbə əzəmətli olan Allahdan başqa ibadətə layiq olan bir məbud yoxdur)

**Subhanəllahi Rəbbis-səmavatis-səb"i və Rəbbil-ərəzinəs-səb"i və ma fihinnə və ma bəynəhunnə və Rəbbil-ərşil-əzim**

(Hər eyb və nöqsandan pak və münəzzəhdir o Allah ki, yeddi qat göylərin, yeddi qat yerlərin və onların arasında olanların, əzəmətli ərşin Pərvərdigarıdır)

**Vəl-həmdu lillahi Rəbbil-aləmin**

(Həmd və səna aləmlərin Rəbbi olan Allaha məxsusdur)

## Təsbihati-ərbəə və onun tərcüməsi

**Subhanəllahi vəl-həmdu lillahi və la ilahə illəllahu vallahu əkbər** (3 dəfə)

(Allah pak və təmizdir, həmd olsun Allaha, Allahdan başqa məbud yoxdur, Allah böyükdür)

## Təşəhhüd və onun tərcüməsi

**Əlhəmdu lillah**

(Allaha həmd olsun)

**Əşhədu ənla ilahə illəllah, vəhdəhu la şərikə ləh**

(Şəhadət verirəm ki, Allahdan başqa məbud yoxdur. O təkdir və şəriksizdir)

**Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh**

(Şəhadət verirəm ki, Məhəmməd Onun qulu və elçisidir)

**Əllahummə salli əla Muhəmmədin və ali Muhəmməd**

(Allahım, Məhəmmədə və onun ailəsinə xeyir-dua göndər)

## Salamlar və onların tərcüməsi

**Əssəlamu ələykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh**
(Allahın salamı, mərhəməti və bərəkəti olsun sənə, ey Peyğəmbər!)
**Əssəlamu ələyna və əla ibadillahis-salihin**
(Allahın salamı olsun bizə və Allahın saleh bəndələrinə!)
**Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh**
(Allahın salamı, mərhəməti və bərəkəti üzərinizdə olsun)

# Namazı batil edən şeylər

Aşağıdakılar namazı batil edir:

1. Namazda riayət olunması vacib olanlardan birinin aradan getməsi, məsələn, vacib örtüyə, yaxud məkanın qəsbi olmamasına riayət etmək kimi.
2. Dəstəmazın batil olması,
3. Arxası qibləyə namaz qılmaq,
4. Danışmaq,
5. Gülmək,
6. Ağlamaq,
7. Namazın şəklinin pozulması,
8. Yemək-içmək,
9. Namazı batil edən şəklər,
10. Rüknləri azaldıb-çoxaltmaq.

**Məsələ-676.** Namazı batil edən şeylərə "mübtilat" deyilir. Onlar aşağıdakılardan ibarətdir:

### 1. Namazda riayət olunması vacib olanlardan birinin aradan getməsi

**Məsələ-677.** Əgər namaz arasında namazda riayət olunması vacib olan şeylərdən biri aradan getsə, məsələn, namaz halında namaz qıldığı yerin qəsbi olmasını və ya vacib miqdarda örtüyə riayət etmədiyini bilsə, namazı batildir.

## 2. Dəstəmazın batil olması

**Məsələ-678.** Əgər dəstəmaz, yaxud qüslu batil edən işlərdən biri - yuxulamaq (yatmaq), sidiyin xaric olması və s. kimi işlər namaz əsnasında baş versə, namazı batil olur.

## 3. Arxası qibləyə namaz qılmaq

**Məsələ-679.** Əgər üz ilə bədən birlikdə qiblədən döndərilsə, belə ki, sağ və solu asanlıqla görülə bilinsə, namaz batildir. Hətta bu iş səhvən də olsa, vacib ehtiyata əsasən, namaz batildir. Amma üz bir az iki tərəfə döndərilsə, namaz batil olmur.

## 4. Danışmaq

**Məsələ-680.** Bilərəkdən namazda danışmaq, hətta bir kəlmə olsa belə, namazı batil edir.

**Məsələ-681.** Başqalarını (bir şeydən) xəbərdar etmək üçün namaz arasında qiraət edərkən, yaxud zikrləri deyərkən səs ucaldılsa, namazın şəkli (surəti) pozulmasa, işkalı yoxdur. Bu şərtlə ki, qiraət və zikri qiraət və zikr niyyətiylə desin.

**Məsələ-682.** (Namazqılana namaz halında salam verilərsə, salamın cavabını almaq vacibdir.) Əgər bir şəxs qrupa salam versə və (məsələn) "əssəlamu ələykum cəmiən" desə, onlardan biri salamın cavabını versə, namazqılan cavab verməməlidir.

**Məsələ-683.** Namaz halında salam ifadəsiylə deyil, başqa bir ifadə ilə görüşən şəxsin cavabını vermək lazım deyil. Amma namaz halından başqa hallarda olarsa, xalq arasında təhiyyət (və salam) sayılırsa, (vacib) ehtiyata əsasən, gərək cavabı verilsin.

**Məsələ-684.** Müməyyiz uşağın salamının cavabını vermək istər oğlan olsun, istər qız, kişi və qadınların salamının cavabı kimi vacibdir.

**Məsələ-685.** Əgər bir nəfər ona verilən salamı eşitsə, lakin qəflət üzündən, yaxud hər hansı bir səbəbə görə cavab verməsə, yadına düşdüyü vaxt artıq salamın cavabını vermək çox gec olarsa (yəni

veriləcək cavab artıq həmin salamın cavabı sayılmayacaqsa), cavab vermək vacib deyil.

**Məsələ-686.** Əgər salamverən "salam əleykum" yerinə təkcə "salam" desə, xalq arasında salam sayılarsa, cavabını vermək vacibdir.

**Məsələ-687.** Əgər şəxs eyni zamanda bir neçə salam versə, bir cavab kifayətdir. Əgər eyni zamanda bir neçə nəfər salam versə, cəm ibarə ilə hamısını nəzərə alaraq salamların cavabı qaytarılsa (məsələn, "salam aleykum" deyə), kifayətdir.

## 5. Gülmək

**Məsələ-688.** Bilərəkdən səslə gülmək (qəhqəhə) namazı batil edir.

## 6. Ağlamaq

**Məsələ-689.** Bilərəkdən səslə ağlamaq dünyəvi işlər üçün olarsa, namazı batil edir. Amma Allah qorxusu səbəbiylə, yaxud axirət üçün olarsa, işkalı yoxdur. Hətta ən yaxşı əməllərdəndir.

## 7. Namazın surətinin (şəklinin) pozulması

**Məsələ-690.** Namazın şəklini pozan, əl çalmaq və tullanma kimi hər bir iş namazı batil edir.

**Məsələ-691.** Əgər namaz əsnasında bir şəxsə nəyisə başa salmaq üçün, yaxud onun sualına cavab vermək məqsədiylə əl, göz və ya qaşı ilə işarə edilsə, namazda lazım olan sabitlik, aramlıq və onun surəti ilə zidd olmasa, batil deyil.

**Məsələ-692.** Namazda gözü bağlamağın şəri maneəsi yoxdur (və namazı batil etmir), baxmayaraq ki, rükudan başqa hallarda məkruhdur.

**Məsələ-693.** Qunutdan sonra əlləri üzə sürtmək məkruhdur, amma namazı batil etmir.

**Məsələ-694.** Həsəd, kin və düşmənçiliyi izhar etmək caiz deyil, amma bu iş namazı batil etmir.

# NAMAZDA ŞƏKLƏR (ŞƏKKİYAT)

Namazda olan şəklər 23 qisimdir. Onun səkkizi batil edən, altısı etina edilməyən, doqquzu isə səhih şəklərdir.

## Namazı batil edən şəklər

**Məsələ-695.** Namazı batil edən şəklər bunlardır:

1. İkirəkətli namazların rəkətlərinin sayında olan şəkk. Məsələn, sübh namazı və müsafir namazı kimi.

2. Üçrəkətli namazların rəkətlərinin sayında olan şəkk (məğrib namazı).

3. Dördrəkətli namazların rəkətlərində əgər şəkkin bir tərəfi bir rəkət olsa. Məsələn, şəkk etsə ki, bir rəkət qılıb, yoxsa üç rəkət.

4. Dördrəkətli namazlarda ikinci rəkətin ikinci səcdəsi sona çatmazdan qabaq, şəkkin bir tərəfi iki rəkət olarsa. Məsələn, iki səcdə sona çatmadan şəkk edə ki, iki rəkət qılıb, yoxsa üç rəkət.

5. İki və beş, yaxud beşdən artıq rəkətlərdə olan şəkk.
6. Üç və altı, yaxud altıdan artıq rəkətlərdə olan şəkk.
7. Dörd və altı, yaxud altıdan artıq rəkətlərdə olan şəkk.
8. Namazın rəkətlərində şəkk etsə, amma neçə rəkət qıldığını bilməsə.

## Etina edilməyən şəklər

**Məsələ-696.** Etina edilməyən və etibarlı sayılmayan (namazın səhih olmasına təsir etməyən) şəklər bunlardır:

1. Yeri ötüb keçdikdən sonra olan şəkk. Məsələn, rükuya daxil olandan sonra "Həmd" və "surə"ni oxuyub-oxumamağına şəkk etsə.

2. Salamdan sonra olan şəkk.[1]
3. Namazın vaxtı keçdikdən sonra olan şəkk.
4. Kəsirüş-şəkkin (namazda çox şəkk edənin) şəkki.
5. İmam və məmumun şəkki (camaat namazında).
6. Müstəhəb namazlarda olan şəkk.

**Məsələ-697.** Əgər bir şəxs bir neçə ildən sonra (bu illər ərzində) qıldığı namazların səhih olub-olmamağına şəkk etsə, belə şəklərə etina etməməlidir (çünki bu qəbildən olan şəklər namazdan sonra və vaxt keçəndən sonra olan şəklərdir ki, etina edilməyən şəklərdəndir).

**Məsələ-698.** Namazda çox şəkk edən şəxs gərək şəkk etdiyini yerinə yetirməmiş hesab etsin. Əlbəttə, bu şərtlə ki, onu yerinə yetirmək namazın batil olmağına səbəb olmasın. Amma onu yerinə yetirmək namazı batil edirsə, etməmiş kimi hesab etməlidir. Burada rəkətlər, əməllər və sözlər arasında olan şəklərdə heç bir fərq yoxdur (Məsələn, əgər şəkk etsə ki, səcdə ya rükunu yerinə yetirib, yoxsa yox, hətta yeri ötüb keçməsə belə özünü onu yerinə yetirən kimi hesab etməli və namazına davam etməlidir. Amma sübh namazını iki, yaxud üç rəkət qılmağında şəkk etsə, iki rəkət qılan kimi hesab etməlidir).

**Məsələ-699.** Nafilə namazlarının əməl və sözlərindəki şəkk, fərizə (vacib) namazların əməl və sözlərindəki şəkk kimidir (yəni yeri ötüb keçdikdə, şəkkə etina edilmir). Yeri ötüb keçmədikdə ona etina edilməlidir (Məsələn, əgər "Həmd"i, yaxud rükunu yerinə yetirib-yetirməməyində şəkk etsə, yeri ötməyibsə, yəni növbəti hissəyə daxil olmayıbsa, onu yerinə yetirməlidir. Amma yeri ötüb keçibsə, etina etməyib namaza davam etməlidir).

---

[1] İstər rəkətlərin sayında olsun, istərsə də namazın hissələrində. Amma rəkətlərin sayında olduqda, lazımı miqdardan az ya çox olmağına yəqin olacaq şəkildə olmasın. Məsələn, əgər sübh namazının salamından sonra şəkk edə ki, bir rəkət qılıb, yaxud üç rəkət. (Mütərcim)

## Səhih şəklər

**Məsələ-700.** Dördrəkətli namazların rəkətlərinin sayında doqquz halda şəkk səhihdir:

1. İki səcdədən başını qaldırdıqdan sonra iki və üç rəkət arasında olan şəkk;
2. Səcdələrdən başını qaldırdıqdan sonra iki və dörd rəkət arasında olan şəkk;
3. İki səcdədən başını qaldırdıqdan sonra iki, üç və dörd rəkət arasında olan şəkk;
4. İki səcdədən başını qaldırdıqdan sonra dörd və beş rəkət arasında olan şəkk;
5. Namazın bütün yerlərində üç və dörd rəkət arasında olan şəkk
6. Qiyam halında (ayaq üstə) dörd və beş rəkət arasında olan şəkk;
7. Qiyam halında (ayaq üstə) üç və beş rəkət arasında olan şəkk;
8. Qiyam halında (ayaq üstə) üç, dörd və beş rəkət arasında olan şəkk;
9. Qiyam halında (ayaq üstə) beş və altı rəkət arasında olan şəkk.

**Məsələ-701.** (Namazın rəkətlərində olan şəklərə görə yerinə yetirilməsi vacib olan) ehtiyat namazının rəkətlərinin sayı namazda az olduğu ehtimal verilən qədərdir. Buna əsasən, əgər iki və dörd rəkət arasında şəkk edərsə, (dörd rəkət hesab edib namazı sona yetirməli, sonra dərhal) iki rəkət (ayaq üstə) ehtiyat namazı qılmalıdır. Habelə əgər üç və dörd rəkət arasında şəkk edərsə, bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır.

**Məsələ-702.** Əgər namaz zikrlərindən, yaxud Quran ayələrindən bir kəlmə bilməyərəkdən səhv oxunsa, səhv səcdəsi vacib deyil.

## Səhv-səcdəsinin qaydası

Səhv-səcdəsinin qaydası belədir: Namazın salamından sonra dərhal səhv-səcdəsi niyyəti edilməli və səcdəyə gedilməlidir. Müstəhəbdir ki, səcdədə aşağıdakı zikr deyilsin:

"Bismillahi və billahi, əssəlamu əleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh"

Zikr deyildikdən sonra baş səcdədən qaldırılıb oturulmalı, sonra yenidən səcdəyə gedib həmin zikr deyilməlidir. Başı səcdədən qaldırdıqdan sonra təşəhhüd oxunub salam verilməlidir.

# CÜMƏ NAMAZI

**Məsələ-703.** Cümə günü zöhr namazının yerinə qılınan cümə namazı hal-hazırda (yəni İmam Zaman əleyhissalamın qeybət əsrində) təxyiri (ixtiyarlı) vacibdir. Amma İslam ədalət hökuməti bərpa olan zaman, müstəhəb ehtiyat budur ki, imkan daxilində cümə namazı tərk olunmasın.

**Məsələ-704.** Təxyiri vacibin mənası odur ki, mükəlləf cümə günü fərizəsini yerinə yetirməkdə zöhr namazı, yaxud cümə namazını qılmaqda ixtiyarlıdır.

**Məsələ-705.** Cümə namazı vacibi-ixtiyaridir. Cümə namazında iştirak etmək vacib deyil, amma onun fayda və təsirlərinə görə möminlərin yersiz üzrlər gətirməklə özlərini onun bərəkətindən məhrum etməyi yaxşı deyil.

**Məsələ-706.** Qadınların cümə namazında iştirak etməyinin işkalı yoxdur. Onların bu namazda iştirak etmələri cümə namazı əda etməyin savabına malikdir.

**Məsələ-707.** Daimi olaraq ibadi və siyasi cümə namazında iştirak etməməyin şəri dəlili yoxdur. Əgər bunu tərk etmək və bu namazda

iştirak etməmək ona əhəmiyyət verməmək üçün olarsa, şəri baxımdan məzəmmət olunur.

**Məsələ-708.** Əgər bir şəxs cümə namazında iştirak etməsə, zöhr namazını vaxtın əvvəlində qıla bilər. Ona cümə namazının qurtarmasını gözləmək vacib deyil,

**Məsələ-709.** Cümə namazı qılınan yerin yaxınlığında başqa bir yerdə onunla eyni zamanda zöhr namazını camaatla qılmaq özözlüyündə işkalsızdır. Cümə gününün zöhr namazı onun boynundan götürülür. Çünki cümə namazı hazırkı əsrdə vacibi ixtiyaridir. Lakin cümə günü cümə namazı qılınan yerin yaxınlığında zöhr namazını camaatla qılmaq möminlərin cərgələrinin (vahidliyinin) pozulmasına səbəb olduğu üçün, bəzən də bu iş camaatın gözündə imam-cüməyə ehtiramsızlıq, cümə namazına etinasızlıq sayıldığına görə daha yaxşıdır ki, möminlər belə bir iş görməsinlər. Hətta bu əməl fəsada səbəb olduqda haramdır və tərk olunması vacibdir.

**Məsələ-710.** Cümə namazı zöhr namazını əvəz edir (başqa sözlə cümə namazı zöhr namazının yerinə qılınır).

**Məsələ-711.** Baxmayaraq ki, cümə namazı zöhr namazını əvəz edir, hətta imam-cümə cümə namazından sonra zöhr namazını qılmasa belə, zöhr namazını cümə namazından sonra ehtiyata görə qılmağın işkalı yoxdur. Əgər zöhr namazını ehtiyat məqsədiylə (cümə namazından sonra) qıldıqdan sonra, əsr namazını da camaatla birlikdə qılmaq istəyərsə, kamil ehtiyatın yolu budur ki, əsr namazını zöhrü cümədən sonra ehtiyat niyyətiylə qılan şəxsə iqtida etsin.

**Məsələ-712.** İslam şuraları tərəfindən Avropa ölkələrində və digər ölkələrdə, əksər iştirakçıları, habelə imam-cüməsi əhli-sünnə qardaşlardan olan cümə namazlarında İslam vəhdətini (birliyini) qorumaq məqsədiylə iştirak etməyin eybi yoxdur. Bu zaman cümə namazından sonra zöhr namazını qılmaq lazım deyil.

**Məsələ-713.** Müsafirin cümə namazı səhihdir və zöhr namazını əvəz edir.

**Məsələ-714.** Beli qırılan və sidiyini saxlaya bilməyən əlillər (də) cümə namazında iştirak edə bilərlər. Amma onlara dəstəmaz alandan sonra dərhal namaza başlamaları vacib olduğu üçün dəstəmazları batil olmadığı təqdirdə cümə namazının xütbələrindən qabaq aldıqları dəstəmaz cümə namazı qılmaq üçün kifayət edəcək.

## Cümə namazının şərtləri

1. Cümə namazının şərtlərindən biri budur ki, camaatla qılınmalıdır. Hərçənd camaat namazı qılanların yanında olsa belə, fərdi şəkildə səhih deyil.

2. Camaatın sayı ən azı beş nəfər olmalıdır - biri imam, dördü məmum.
3. Camaat namazında etibarlı sayılan (yəni riayət olunması lazım olan) bütün şərtlər cümə namazına da aiddir. Məsələn, cərgələrin birləşməsi.
4. (Əgər iki yerdə cümə namazı qılınsa,) gərək onların arasında olan məsafə bir fərsəxdən az olmasın. Fasiləsi bir fərsəxdən az olan yerdə iki cümə namazı qılınsa, birinci qılınan cümə namazı səhih, ikinci qılınan batildir. Hər ikisi eyni zamanda qılınarsa, hər ikisi batildir.
5. İmam-cümə adil şəxs olmalıdır. Buna əsasən, bir şəxs adil bilmədiyi, yaxud da ədalətinə şəkk etdiyi şəxsə iqtida edə bilməz və (ona iqtida edib) qıldığı cümə namazı səhih deyil. Amma (bununla belə) vəhdəti qorumaq məqsədiylə cümə namazında iştirak etməyin işkalı yoxdur. Hər halda, (istər özü cümə namazında iştirak etsin, istər iştirak etməsin) başqalarını cümə namazından yayındırmağa haqqı yoxdur.

**Məsələ-715.** Əgər cümə namazından sonra imam-cümənin ədalətinə şəkk, yaxud adil olmamasını yəqin etsə, qıldığı namazlar səhihdir, yeniləmək lazım deyil.

**Məsələ-716.** İmam-cüməni cümə imamlığına təyin etmək əgər insanı onun adil olmağına xatircəm edərsə, həmin şəxsə iqtida etməyin səhih olması üçün kifayət edir.

**Məsələ-717.** İslam dünyasının hər bir nöqtəsində imam-cüməni gərək İslamın adil hakimi təyin etsin.[1]

**Məsələ-718.** (Şəriət hakimi tərəfindən müəyyən yerə təyin edilən) İmam-cümə heç bir maneə olmadığı təqdirdə, yaxud (başqa bir cümə namazına) maneçilik törətmədən cümə namazını təyin edildiyi yerdən başqa yerdə qıla bilər.

**Məsələ-719.** (Şəriət hakimi tərəfindən) təyin edilmiş imam-cümə başqasını müvəqqəti imam-cümə kimi özünə canişin seçə bilər. Lakin onun seçdiyi naibə vəliyyi-fəqihin təyin etdiyi imam-cüməyə aid olan hökmlər aid olmayacaq.

**Məsələ-720.** (Vəliyyi fəqih tərəfindən) təyin edilmiş imam-cümənin naibi vasitəsilə cümə namazının qılınması və təyin edilmiş imam-cümənin öz naibinə iqtida etməsinin işkalı yoxdur.

## Cümə namazının vaxtı

**Məsələ-721.** Cümə namazı günəşin zavalının əvvəlindən (zöhrün əvvəlindən) başlayır. (Vacib) ehtiyata əsasən, gərək bir-iki saatdan çox təxirə salınmasın.[2]

## Cümə namazının qılınma qaydası

**Məsələ-722.** Cümə namazı sübh namazı kimi iki rəkətdir. Amma onun iki xütbəsi var ki, imam-cümə oxumalıdır.

---

[1] Cümə namazı iqaməsində (qılmaqda) imamlıq etmək caizdir və şəri hakimin icazəsinə bağlı deyil. Amma şəri hakimi nəsb (təyin) etdikdən sonra imam-cüməyə aid olan hökmlərin ona aid olması imam-cümənin vəliyyi-fəqih tərəfindən təyin olmasına bağlıdır. Bu hökm vəliyyi fəqih hakim olduğu və hökmə itaət olunan bütün yer və məntəqələrə aiddir. Seyid Əli Xamenei, Əcvibətül-istiftaat, 613-cü sualın cavabı. (Mütərcim)

[2] Yəni bu müddətdə cümə namazı tamamlanmalıdır. (Mütərcim)

**Məsələ-723.** Müstəhəbdir, cümə namazı ucadan (səslə) qiraət olunsun, birinci rəkətdə “Cümə”, ikinci rəkətdə “Munafiqun” surəsi oxunsun. Həmçinin iki qunut tutmaq müstəhəbdir ki, biri birinci rəkətdə rükudan qabaq, digəri isə ikinci rəkətdə rükudan sonra.

**Məsələ-724.** Əgər bir şəxs cümə namazının xütbələrinə çatmasa, hətta ikinci rəkətin rükusunda namaza qoşulsa belə, namazı səhihdir.

**Məsələ-725.** Xanım Fatimeyi-Zəhra (s.ə.) cümə namazının ikinci xütbəsində imam-cümənin salavat göndərdiyi imamlar sırasına daxil deyil və o xanımın adını çəkmək vacib deyil. Amma cümə namazının xütbəsində o Həzrətin mübarək adını çəkmək işkalsızdır. Hətta bəyənilmiş bir əməldir, əcri və savabı var.

**Məsələ-726.** Cümə namazının xütbələrini zöhrdən qabaq da oxumaq olar. Baxmayaraq ki, onun bir hissəsinin zöhrün vaxtına düşməsi müstəhəbdir. (Müstəhəb) ehtiyat budur ki, bütövlükdə vaxt daxilində olsun.

**Məsələ-727.** Möminlərin ixtilafına və parçalanmağına səbəb olan heç bir iş caiz deyil. Cümə namazı müsəlmanların vəhdətini təmin edən ibadətlərdən biri olduğuna görə bu ibadətin yerinə yetirilməsində vəhdətin qorunmasına daha çox diqqət olunmalıdır.

**Məsələ-728.** Cümə günündə əsr namazını imam-cümədən başqasına iqtida edib qılmağın işkalı yoxdur.

**Məsələ-729.** Cümə namazında başqa vacib namazı imam-cüməyə iqtida edib qılmağın səhih olması işkallıdır.

## Müsafir namazı

**Məsələ-730.** Səfərdə dördrəkətli namazlar deyiləcək xüsusi şərtlərlə qəsr (iki rəkət) qılınmalıdır.

**Məsələ-731.** Qəsrin vacib olması təkcə dördrəkətli namazlara məxsusdur ki, zöhr, əsr və işa namazlarından ibarətdir. Sübh və məğrib namazları qəsr qılınmır.

## Müsafir namazının şərtləri

**Məsələ-732.** Müsafir səkkiz şərtlə gərək dördrəkətli namazları iki rəkət qılsın:

**Birinci şərt:** Onun səfəri şəri məsafə həddinə yetişsin. Yəni təkcə getməyi, yaxud (təkcə) qayıtmağı və ya gedib-qayıtmağı birlikdə səkkiz fərsəxdən az olmasın. Bu şərtlə ki, getməsi dörd fərsəxdən az olmasın.

**İkinci şərt:** Səfərin əvvəlindən səkkiz fərsəxi niyyət etməlidir (səkkiz fərsəx məqsədi olmalıdır). Buna əsasən, əgər əvvəldən səkkiz fərsəx qət etmək məqsədi olmasa və ya az getmək qəsdi olsa, məqsədə çatdıqdan sonra elə bir yerə getmək məqsədində olsun ki, oradan getmək istədiyi yer arasında olan fasilə şəri məsafədən az olsun. Lakin birinci çıxdığı yerlə onun arası səkkiz fərsəxə çatsa, gərək namazını tam (kamil) qılsın.

**Üçüncü şərt:** Yolun yarısında şəri məsafəni qət etmək məqsədindən dönməsin. Buna əsasən, əgər yolun ortasında dörd fərsəxə çatmamış öz məqsədindən dönsə, yaxud tərəddüdlü olsa (yəni gedib-getməmək fikri arasında bir qənaətə gələ bilməsə) səfər hökmü daha ona aid edilməyəcək. Hərçənd ki, fikrindən dönməmiş qıldığı namazlar səhihdir.

**Dördüncü şərt:** Səfər əsnasında (ya əvvəldən) öz vətənindən, yaxud on gün və daha artıq qalacağı yerdən keçməklə səfərini sındırmaq məqsədi olmasın.

**Beşinci şərt:** Şəri baxımdan səfər ona caiz olsun. Buna əsasən, əgər onun səfəri günah səfəri olsa, istər səfərin özü haram olsun (müharibədən qaçmaq kimi), yaxud səfərin məqsədi haram iş üçün olsun (quldurluq məqsədiylə edilən səfər kimi), səfər hökmündə olmayacaq və gərək namazlarını kamil qılsın.

**Altıncı şərt:** Müəyyən bir məkanı olmayan köçərilərdən olmasın. Məsələn, sabit məkanları olmayan və heyvanları üçün su, ot olan yerlərə (yaylaq və qışlaq) daimi olaraq səfər edənlər kimi.

**Yeddinci şərt:** İşi səfər etmək olmasın. Məsələn, yük maşını sürücüləri, gəmiçi və s. kimi. Həmçinin işi səfərdə olanlar da işi səfər olanlar hökmündədir.

**Səkkizinci şərt:** Tərəxxüs həddinə yetişsin. Tərəxxüs həddi o məkandır ki, artıq o yerə çatdıqda şəhərin azan səsi eşidilməsin və divarları görünməsin. Hərçənd təkcə şəhərin azanının eşidilməməsi tərəxxüs həddini təyin etmək üçün kifayət etməsi elə də uzaq nəzər deyil.

**Məsələ-733.** Əgər bir şəxsin getməsi dörd fərsəxdən az olsa, qayıtması da şəri məsafə həddində olmasa,[1] namazı tamam qılmalıdır. Buna əsasən, başqa yerlərə ezamiyyətə gedən məmurların getdiyi səfər şəri məsafə həddində olmazsa (hətta gedib-qayıtmaqla birlikdə),[2] müsafir hökmündə deyil.

**Məsələ-734.** Əgər insan müəyyən bir məkana getmək məqsədiylə öz şəhərindən xaric olub orada gəzintiyə məşğul olsa, bu gəzinti onun evindən çıxıb səfərə getdiyi məsafədən hesablanmır.

**Məsələ-735.** Səkkiz fərsəx məsafəni getmək şəhərin sonundan hesablanır. Şəhərin axırını təyin etmək ürfün (camaatın) öhdəsinədir. Əgər xalqın nəzərində şəhərin ətrafına pərakəndə şəkildə yerləşən zavodlar, fabriklər və s. şəhərin hissəsi sayılmırsa, o zaman gərək məsafə şəhərin axırıncı evlərindən hesablansın.

**Məsələ-736.** Müsafir üç fərsəxlik məsafəyə səfər etmək məqsədiylə evdən xaric olsa və əvvəlcədən yolun ortasında əsl yoldan xaric olub bir fərsəxlik yerə baş vurub sonra əsl yoluna davam etmək fikrində[3] olsa (belə ki, bunun səfəri bütövlükdə dörd fərsəxə yetişəcək), müsafir hökmündə deyil. Əsl yoldan xaric olub - qayıtmaq məsafəsi şəri məsafəni qət etməkdə təsirsizdir və şəri məsafə bununla tamamlana bilməz.

---

[1] Amma əgər getməsi dörd fərsəxdən azdırsa, qayıtması ən azı səkkiz fərsəx olduqda təkcə qayıdarkən namazı qəsr olacaq. (Mütərcim).

[2] Bu şərtlə ki, getməsi dörd fərsəxdən az olmasın. (Mütərcim)

[3] Yaxud sonradan bu fikrə düşsə, (Mütərcim)

**Məsələ-737.** İnsan öz qaldığı yerdən şəri məsafədən az olan hansısa yerə səfər edərsə və səfərdə qaldığı müddət ərzində bir neçə dəfə o yerdən ümumi səfərləri səkkiz fərsəxdən çox olan başqa yerə getsə, əgər evdən çıxarkən səkkiz fərsəxi qət etmək əzmində olmayıbsa və səfər etdiyi yerlə sonradan getdiyi yer arasında şəri məsafə yoxdursa, müsafir hökmündə deyil.

**Məsələ-738.** İnsan günah məqsədi olmadan səfər etsə və yolun ortasında səfərinə günah məqsədiylə davam etsə, günah məqsədiylə səfərinə davam edən zamandan namazını tam qılması vacibdir. Günah məqsədindən sonra qəsr qıldığı namazları yeniləməli və tam qılmalıdır.

**Məsələ-739.** Əgər insan getdiyi səfərdə günaha və harama mürtəkib olacağını bilsə, onun bu səfərdən məqsədi vacibi tərk etmək və haram işə bulaşmaq olmayınca namazı digər müsafirlərin namazı kimi qəsrdir.

**Məsələ-740.** Əgər səfərdə bəzi vacibləri tərk etməyə mübtəla olacağını bilsə, (vacib) ehtiyata görə səfəri tərk etmək ona zərərli, yaxud məşəqqətli olmasa, gərək o səfərə getməsin. Amma hər halda namazı tərk etmək caiz deyil.

**Məsələ-741.** Əgər bir şəxsin səfəri sürücülər, gəmiçilər, təyyarəçilər və çobanlar kimi onun işi olsa (yəni onun işi səfərə bağlı olarsa), bu şəxslərin namazları üçüncü səfərdə tam olacaq, amma birinci və ikinci səfərdə qəsrdir.

**Məsələ-742.** Bir şəxsin işi səfər deyil, amma səfər onun işinin müqəddiməsidir. Məsələn, müəllim, işçi, fəhlə və əsgər kimi özü başqa yerdə sakindir, lakin işi ilə əlaqədar on gün ərzində ən azı bir dəfə iş yerinə səfər edir. Belə şəxslərin hökmü işi səfər olanların hökmü kimidir (fərqi yoxdur və namazları tamdır).

**Məsələ-743.** Təhsil məqsədiylə həftəlik, yaxud gündəlik şəri səfər edən tələbələrin namaz və orucları ehtiyata əsasəndir. Amma təhsil

almağa məmur olsalar, məsələn, tədrislə bərabər təhsil almaq məmuriyyətinə də gedən bəzi müəllimlər kimi, namazları tam olacaq.[1]

**Məsələ-744.** Daimi işləri sürücülük olmayanlar, lakin müvəqqəti olaraq (şəri məsafəyə) hərbi bölgələrdə sürücülük vəzifəsi olan əsgərlər kimi sürücülük edən şəxslər, əgər xalq arasında həmin müddətdə (şəri məsafədə) sürücü sayılsalar (məsələn, ən azı iki-üç ay) hökmləri digər sürücülər kimidir.

**Məsələ-745.** Əgər camaatın nəzərində öz məntəqəsindən tədris üçün başqa bir şəhərə gedib axşam, yaxud o günün ertəsi evinə qayıdan müəllimlərin səfəri kimi gedib-qayıtmağı bir səfər sayılarsa, bu halda gedib-qayıtmaq birlikdə birinci səfər sayılır. Amma camaatın nəzərində yük maşınları sürücüləri kimi bir səfər hesab olunmasa (belə ki, öz yerlərindən müəyyən bir şəhərə yük aparıb sonra oradan başqa yerə yük daşıyır, daha sonra öz şəhərinə qayıdır), bu halda onun birinci səfəri (birinci) məqsədə çatan kimi qurtarır.

**Məsələ-746.** İşi səfər olan şəxs işindən başqa məqsədlə səfər edərsə, gərək digər müsafirlər kimi namazlarını qəsr qılsın. Amma öz işi ilə əlaqədar səfər etsə, lakin qohum-əqrəbaya baş çəkmək kimi başqa işlərlə də məşğul olsa, bəzən də (əlavə olaraq) bir neçə gün orada qalarsa, bu əməl onu işi səfər olanların hökmündən xaric etmir. Namazı tamdır.

**Məsələ-747.** Təbliğ, əmr-be-məruf və nəhy-əz-münkər etmək xalq arasında mübəlliğlər üçün iş sayılarsa, səfərdə onların hökmü işi səfər olan şəxslərin hökmü kimidir. Nə zaman bu işdən başqa bir iş üçün səfər etsələr, digər müsafirlər kimi namazlarını qəsr qılmalıdırlar.

**Məsələ-748.** İşi səfər olan bir şəxs istər öz vətənində, istərsə də ayrı bir yerdə on gün, yaxud daha artıq bir yerdə qalsa, gərək on gündən sonra getdiyi birinci səfərdə namazını qəsr qılsın.

---

[1] Bu şəxslər başqa müctəhidə müraciət etmək şərtlərinə riayət etməklə digər bir müctəhidin fətvasına əməl edə bilərlər, yaxud ehtiyata əməl edib ikisini də yerinə yetirsinlər.

## Tərəxxüs həddi

**Məsələ-749.** Tərəxxüs həddini təyin etmək üçün şəhərin azan səsinin eşidilməməsi kifayətdir. Hərçənd hər iki əlamətə (yəni həm şəhərin azanının eşidilməməsini, həm də şəhərin divarlarının görünməməsini) riayət etmək (müstəhəb) ehtiyata uyğundur.

**Məsələ-750.** Tərəxxüs həddinin meyarı müsafirin xaric olduğu səmtdən şəhərin sonundakı azan səsinin eşidilməməsidir (Nəinki şəhərin ortasında verilən azanı eşitməmək).

## Səfəri kəsən səbəblər
## (səfəri səfər hökmündən çıxaran şeylər)

**Məsələ-751.** Bir neçə şey səfəri səfər hökmündən çıxarır:

**Birinci:** Vətənə çatmaq.

Vətən iki qismə bölünür:

**1. Əsl vətən:** İnsanın dünyaya gəlib böyüdüyü yer. Belə ki, doğulduqdan sonra orada bir müddət qalıb, böyüyüb boya-başa çatıb. **2. Seçilmiş vətən (yeni vətən, ikinci vətən):** İnsan oranı yaşayış üçün ən azı yeddi səkkiz illik seçmiş olsun.

**Məsələ-752.** Müsafir vətəndən çıxdıqdan sonra vətənində verilən azanın səsini eşidə və ya şəhərinin evlərinin divarlarını görə biləcək bir yerdən keçsə, nə qədər ki, vətənindən keçməyib, onun qət etdiyi şəri məsafəyə zərər yetirmir. Amma nə qədər ki, vətəni ilə tərəxxüs həddi arasındadır, müsafir hökmündə deyil.

**Məsələ-753.** Təkcə bir məkanda dünyaya gəlmək həmin yerin əsl vətən olmağına səbəb olmur. Bir müddət orada qalıb böyümək lazımdır. Tutaq ki, bir şəxs Tehranda (yaxud Bakıda) dünyaya gəlib doğulduqdan sonra orada böyüməsə, Tehran (yaxud Bakı) onun əsl vətəni sayılmır. Vətəni ata-anası o dünyaya gəldikdən sonra birgə yaşadığı yer olacaq.

**Məsələ-754.** Seçilmiş (ikinci) vətənin şərtləri: Bir yerin ikinci vətən olmağı üçün üç şərt lazımdır:

1. Gərək qətiyyətlə orada yaşamaq əzmində olsun. Buna əsasən, həmin yerdə yaşamağa qəti məqsədi olmayınca, başqa sözlə nə qədər ki, uzun müddətlə orada yaşamaq fikrində deyil, onun vətəni sayılmır. Amma o yerdə uzun müddətə qalmaq fikri olmadan o qədər qalsa ki, artıq xalq arasında onun vətəni sayılsa, bu halda vətən hökmündədir. Onun xalq arasında vətən sayılıb-sayılmamasını ayırd etmək mükəlləfin öhdəsinədir. Buna əsasən, qeyri-müəyyən müddətə səfər edən, dərs oxumaq üçün dini elm hövzələrinə gedən dini maarif tələbələri və ya müəyyən bir iş üçün bir yerə məmuriyyətə göndərilən dövlət işçilərinin təhsil və iş yerləri vətən hökmündə deyil. Əgər xalq arasında vətən sayılacaq qədər qalsalar, o zaman vətən hökmündə olacaq (məsələn, səkkiz il vətən hökmü aid olmaq üçün kifayətdir). Həmçinin əgər bir nəfər uzun müddətdir ki, başqa hansısa ölkədə qalıb öz ölkəsinə daxil olmağa icazə verilməsə, lakin bir gün vətəninə qayıdacağını bilsə, həmin şəxs digər müsafirlər hökmündədir.

2. Gərək yaşayış yerində, xüsusi və müəyyən bir şəhərdə vətən niyyəti etmiş olsun, buna əsasən, məsələn, İran ölkəsini vətən niy-yəti edə bilməz.

3. Gərək həmin yerdə oranın əhalisindən sayılana qədər qalmış olsun. Amma altı ay mütəmadi olaraq qalması lazım deyil. O yeri özü üçün vətən seçdikdən sonra bu məqsədlə bir müddət orada qalsa (hərçənd gecələr də olsa), onun vətəni sayılar.

**Məsələ-755.** Yeni vətəndə ev və mülk sahibi olmaq şərt deyil.

**Məsələ-756.** İnsanın iki, hətta üç vətəni ola bilər, Köçəri yaşayan qəbilələrin yaylaqdan qışlağa və əksinə daimi köçdükləri, ilin bir hissəsini bu, digər hissəsini başqa məkanda keçirtdikləri hər iki yer onların vətəni sayılır və hər iki məkanda vətən hökmünə əməl etməlidirlər. Əgər köçdükləri yerlə qaldıqları yer arasında şəri məsafə varsa, səfər zamanı müsafir hökmündədirlər. Məsələn, şəxs

ömrünün bir hissəsini doğulduğu kənddə, digər hissəsini şəhərdə yaşayıb, hal-hazırda isə üçüncü bir yerdə yaşayır. Əgər doğulduğu vətəndən eraz (imtina) etməyibsə, həmin məkan ona vətən sayır. İkinci yaşadığı yerdə vətən niyyəti (məqsədi) olubsa və oradan da eraz etməyibsə, onun ikinci vətəni sayılır. Habelə üçüncü yaşadığı yerdə camaatın nəzərində o yerin əhalisindən sayılacaq qədər qalsa, həmin yer onun üçüncü vətəni olacaq.

**Məsələ-757.** Nə qədər ki, insan öz vətənindən eraz (imtina) etməyib, o yer onun vətənidir və orada vətən hökmünü yerinə yetirməlidir. Amma vətənindən eraz etdikdən sonra o yer vətən hökmündən çıxır və vətən sayılmaq üçün (yenidən onu vətən seçmək lazımdır), gərək oraya qayıtsın, daimi qalmaq məqsədiylə bir müddət orada yaşasın. Tutaq ki, bir şəxsin iş yeri və hal-hazırda yaşadığı yer Tehran şəhərindədir. Ata-anası kənddə yaşayır və orada mülkü var. Baxmayaraq ki, həmin şəxs ata-anasını görmək və onlara kömək məqsədiylə kəndə gedir və yaşamaq üçün oraya qayıtmaq fikri yoxdur, əksinə, yaşamaq məqsədiylə oraya heç vaxt qayıtmamaq qərarına gəlib, o yerdə onunçün vətən hökmü yoxdur.

**Məsələ-758.** Ər-arvadlıq vətən hökmündə tabeçiliyə səbəb olmur. Qadın vətən seçməkdə və vətəndən imtina etməkdə ərinə tabe olmaya bilər. Buna əsasən, təkcə bir yerin ərin vətəni olmağı oranın arvadın da vətəni olmasına və arvad üçün vətən hökmündə olmağına səbəb olmur. Əgər bir ər öz arvadını arada hal-hazırda yaşamadığı vətəninə aparsa, gərək xanım orada namazlarını qəsr qılsın. Həmçinin qadının evlənməsi və başqa bir şəhərdə ər evinə köçməsi öz əsl vətənindən eraz etmiş sayılmasına səbəb olmur. Buna əsasən, başqa bir şəhərdən olan cavanla evlənən qadın atasının evinə gedərkən nə qədər ki, o vətəndən imtina etməyib, namazlarını tamam qılmalıdır. Əgər qadın vətən seçməkdə və ondan imtina etməklə ərinin iradəsinə (və istəyinə) tabe olsa, ərin (vətən seçmək və vətəndən imtina etməklə bağlı olan) məqsədi onun üçün kifayətdir. Onunla birlikdə daimi yaşamaq məqsədiylə qalırsa, qadın üçün də vətəndir. Habelə ərin vətəndən imtina etməsi onun üçün də imtina sayılır.

**Məsələ-759.** Əgər övladlar (uşaqlar) öz qərarlarını verməkdə və məqsədlərində müstəqil deyillərsə, yəni təbii olaraq ata iradəsinə bağlıdırlarsa, əvvəlki vətəndən imtina etməkdə və daimi yaşamaq üçün yeni vətən seçməkdə ona tabedirlər, əks halda tabe deyillər. Buna əsasən, bir şəxs həddi-büluğa çatmamış, atası ilə birlikdə doğulduğu yerdən başqa şəhərə mühacirət edərsə, ata o yerə yaşamaq məqsədi ilə qayıtmaq fikrində olmazsa (yəni məqsədi daha vətənə qayıtmamaq olarsa), artıq həmin vətən uşaq üçün də vətən hökmündə olmayacaq və uşağın vətəni atasının yeni vətəni olacaq.

**İkincisi:** On gün bir yerdə qalmağı qəsd etmək (buna məqsədi olmaq).

**Məsələ-760.** Müsafir nə zaman ardıcıl olaraq ən azı on gün bir yerdə qalmaq istəsə, yaxud bu müddətdə məcburi şəkildə qalacağını bilsə, gərək namazlarını tam qılsın. Amma on gündən az qalmaq istəyərsə (yaxud bunu bilirsə), müsafir hökmündədir. Buna əsasən, əsgərlər və s. hərbi məmurların müəyyən məntəqədə on gün, yaxud daha artıq qalmaq fikirləri olsa, yaxud orada qalacaqlarını bilsələr, namazlarını bütöv qılmaları vacibdir.

**Məsələ-761.** Bir yerdə on gündən az qalacağını bilən[1] şəxsin on gün qalmaq qəsdi etməsinin faydası yoxdur və gərək namazlarını qəsr qılsın. Məsələn, əgər bir şəxs İmam Rzanın (ə) hərəminin ziyarətinə getsə, baxmayaraq ki, on gündən az qalacağını bilir, lakin namazlarını tam qılmaq üçün on gün qalmaq niyyəti etsə, namazı qəsrdir.

**Məsələ-762.** Qalmaq məqsədi gərək bir məntəqədə olsun. İki məntəqədə qalmaq niyyəti etmək düzgün deyil. Buna əsasən, bir şəxs təbliğ məqsədiylə iki məntəqədə olmaq istəsə və ictimai baxımdan onlar iki məntəqə sayılsa, gərək onun birində qalmağı niyyət etsin. Amma bir neçə gün bir məntəqədə, qalanlarını digər məntəqədə qalmaq istəsə, belə ki, ikisi birlikdə on günə çatsa,

---

[1] Yaxud on gün qalacağını bilməyən. (Mütərcim)

qalmaq niyyəti düzgün deyil. Gərək hər iki məkanda namazlarını qəsr qılsın.

**Məsələ-763.** Müsafir bir məkanda on gün qalmaq niyyəti edərsə, o şəhərin başqa məhəllələrinə gedib-qayıtmaq niyyət və hökmünə zərər yetirmir.

**Məsələ-764.** Müsafir on gün və daha çox bir yerdə qalmaq istəsə, əgər əvvəldən, on gün qaldığı zaman ərzində ətraf yerlərə (ətrafdakı bağlara, tarlalara) getmək məqsədi olarsa, işkalı yoxdur (və bu onun on gün qalmaq qəsdinə və niyyətinə zərər yetirmir), namazı da tam qılmalıdır. Həmçinin (əvvəldən) o yerdən şəri məsafədən az olan yerə (qısa müddətlik) getmək məqsədi, qəsd etdiyi yerdə on gün qalmaq hesab olunmasına zərər yetirməzsə, yəni oradan xaric olmaq bir neçə saatlıq olsun (gecə, yaxud gündüz) belə ki, əgər bir neçə gün bir neçə saatlıq çıxırsa, ümumi miqdarı altı-yeddi saatdan çox olmasa, bu halda zərəri yoxdur və namazları tamdır. Amma bundan artıq olarsa, on gün qalmaq niyyətinə zərər vurur və namazı qəsrdir.

**Məsələ-765.** Əgər müsafir on gün qalmaq niyyəti edərkən, arada bir neçə dəqiqəlik dörd fərsəxlik və ya daha çox məsafəyə getmək (şəri məsafəyə) qərarına gəlsə, niyyəti bağlanmır və namazları qəsrdir.

**Məsələ-766.** Müsafir bir yerdə qalmağı qəsd edib bir dördrəkətli namaz (zöhr, ya əsr və ya işa namazı) qılmadan niyyətindən dönsə və ya tərəddüd etsə, nə qədər ki, oradadır namazı qəsrdir.[1] Amma niyyətindən dönəndən qabaq ən azı bir dördrəkətli namaz qılarsa, nə qədər ki, oradadır namazı tamdır və bundan sonra niyyətdən dönməyin, yaxud niyyətdə tərəddüd etməyin bu hökmdə təsiri yoxdur. Buna əsasən, nə qədər ki, oradadır və yeni səfərə başlamayıb namazları tamdır (hətta on gün niyyət etdikdən sonra bir gün də qalmalı olsa belə).

**Məsələ-767.** On gün qalmaq (hökmü) iki şərtdən biri ilə hasil olur: 1. On gün qalmaq qəsdi etmək və ən azı bir dördrəkətli namaz

---

[1] Həmçinin yolda namazı qəsrdir. (Mütərcim)

qılmaq.
2. On gün qalmaq qəsdi etmək və on gün ardıcıl olaraq (hətta bu müddətdə dördrəkətli namaz qılmasa belə) bir yerdə qalmaq.

**Məsələ-768.** On gün qalmaq niyyəti hasil olduqdan sonra şəri məsafədən az miqdarda o yerdən xaric olmaq, hərçənd dəfələrlə və uzunmüddətlik olsa belə, işkalı yoxdur və namazı bütövdür. Amma şəri məsafə həddində, yaxud daha çox (o şəhərdən başqa bir şəhərə) [1] xaric olarsa, digər müsafirlər hökmündə olacaq. Buna əsasən, əgər niyyət etdikdən sonra aralarında şəri məsafə olan bir şəhərdən başqa şəhərə gedərsə, onun birinci niyyəti pozulur və öz qaldığı yerə qayıtdıqdan sonra gərək yenidən niyyət etsin.

**Məsələ-769.** Vətən məsələsində xanımın (həyat yoldaşının) və övladların tabe olub-olmaması haqqında deyilən hökmlər on gün qəsd (niyyət) etməyə də aiddir.

**Üçüncüsü:** Qəsd (niyyət) etmədən bir ay eyni yerdə qalmaq.

**Məsələ-770.** Əgər müsafir şəri məsafəni getdikdən sonra (səkkiz fərsəx) neçə gün qalacağını bilmədən (on gün, yaxud az) bir yerdə dayanarsa, nə qədər ki, bu haldadır bir aya qədər namazlarını qəsr qılmalıdır. Amma bir ay keçdikdən sonra hətta o gün qayıtmaq istəsə belə, gərək namazlarını tamam qılsın.

## Böyük şəhərlər

**Məsələ-771.** Müsafir hökmlərində, vətən seçməkdə və on gün qalmaq qəsdində böyük şəhərlərlə adi şəhərlər arasında fərq yoxdur. Belə ki, hətta böyük şəhərlərin birini vətən seçib (vətən niyyəti və qəsdi edib) xüsusi bir məhəlləni müəyyən etmədən vətən üçün deyilən müddətdə orada qaldıqdan sonra o şəhər bütövlükdə onun şəhəri sayılır və vətənin bütün hökmləri ona da aid olur. Habelə əgər böyük şəhərlərin birində xüsusi bir məhəlləni müəyyən etmədən on

[1] Amma 763-cü məsələdə deyildiyi kimi o şəhərin məhəlləsinə getmək hətta şəri məsafə həddində də olsa, niyyətinə zərər yetirmir və namazı tamamdır. (Mütərcim)

gün qalmaq niyyəti edərsə, namazları bütöv qılmaq hökmü o şəhərin hər yerinə aid olacaq.

## Müsafir namazının hökmləri

**Məsələ-772.** Əgər bir şəxs müsafir olmasını və müsafirin namazlarını qəsr qılmalı olduğunu bilsə, öz namazlarını tam qılarsa, batildir. Həmçinin əgər müsafirin namazlarını qəsr qılmalı olduğunu unutsa və tam qılsa, gərək namazını yeniləsin. Vaxtı keçdikdə gərək qəzasını qılsın.

**Məsələ-773.** Əgər bir müsafirin öz namazını qəsr qılmalı olduğunu bilməsə və tam qılsa, namazı səhihdir.

**Məsələ-774.** Bir şəxsin müsafirin namazını qəsr qılmalı olduğunu bilsə, amma onun bəzi xüsusiyyətlərindən xəbəri olmasa, məsələn, bilmir ki, gərək səkkiz fərsəxdə qəsr qılsın və tam qılsa, vacib ehtiyata əsasən, gərək namazı vaxt varsa əda, vaxt keçibsə qəza niyyətiylə qılsın.

**Məsələ-775.** Vəzifəsi namazı tam qılmaq olan şəxs onu qəsr qılarsa, bütün hallarda namazı batildir.

## Qəza namazı

**Məsələ-776.** Hər kəs vacib namazını, hərçənd vaxtın hamısını yuxuda olmaq, xəstəlik, yaxud məstlik səbəbiylə vaxt daxilində qılmasa, gərək onu qəza etsin. Amma vaxtın hamısını bihuş olsa, qəza vacib deyil.[1] Həmçinin kafir müsəlman olarsa, namazının qəzaları yoxdur. Habelə heyz və nifas halında qadının tərk etdiyi namazların qəzası yoxdur.

**Məsələ-777.** Əgər namazın vaxtından sonra qıldığı namazın batil olduğunu başa düşsə, gərək onu qəza etsin. Məsələn, hökmünü bilməmək üzündən qüslünü səhv verib, gərək onu qəza etsin, çünki

---

[1] Qəzası yoxdur (Mütərcim)

batil qüsl ilə qılınan namazlar da batildir (istər bilsin, istərsə də bilməsin).

**Məsələ-778.** Tərk olunmağına, yaxud batil olmaqlarına yəqin olunan namazların qəzası vacibdir. Amma bəzi keçmiş namazların tərk, ya batil olmasına şəkk, ya güman edərsə, onları qəza etmək vacib deyil.

**Məsələ-779.** Qəza namazlarında tərtib vacib deyil. Təkcə (hər) bir günün zöhr və əsr, habelə məğrib və işa namazları arasında tərtibə riayət etmək vacibdir. Həmçinin dövriyyə namazı qılmaq, yəni tərtibi əldə etmək üçün namazları təkrar etmək lazım deyil. Buna əsasən, bir şəxs bir ilin namazının qəzalarını qılmaq istəsə, aşağıdakı tərtiblə yerinə yetirə bilər. Məsələn, əvvəl iyirmi dəfə sübh, sonra iyirmi dəfə zöhr və əsr, daha sonra iyirmi dəfə məğrib və işa namazlarını qəza edə bilər. Həmçinin namazların birindən başlayıb yövmiyyə namazı tərtibiylə qıla bilər.

**Məsələ-780.** Bir şəxsin bir neçə namazı qəzaya gedib, lakin onun sayını bilmir. Məsələn, iki namaz, yoxsa üç namaz olduğunu bilmir, az miqdarı (misalda iki namaz) qılmaq kifayət edir (yəni yəqin etdiyi miqdarda).

**Məsələ-781.** Əgər bir şəxs üç dəfə, məsələn, ayın iyirmisi, iyirmi beşi və iyirmi yeddisi cənabət qüslu edib, sonra onlardan birinin batil olmağına yəqin etsə, vacib ehtiyata əsasən, gərək namazlarını o cür qəza etsin ki, namazlarının boynundan düşməsinə yəqin etsin.[1]

**Məsələ-782.** Nafilələr və müstəhəb namazlar qəza namazlarının yerinə hesablana bilməz. Boynunda qəza namazı olan şəxs onları qılarkən qəza niyyəti etməlidir.

[1] Bu şəxs ehtiyat niyyətiylə yeni bir qüsl etməli və o zamandan hesablamalıdır. Göstərilən misala əsasən, hesablama belə olur: Məsələn, misalda deyilən qüsllər sübh namazlarından qabaq verilibsə və ehtiyat niyyətinə verdiyi qüsl da ayın otuzunda olubsa, beş günün qəzasını qılmalıdır. (Mütərcim)

**Məsələ-783.** Hal-hazırda qəza namazlarının hamısını qılmağa qadir olmayan şəxslərə vacibdir ki, gücləri çatan qədər qəza edib qıla bilmədiklərini vəsiyyət etsinlər.

## İcarə namazı

**Məsələ-784**. Heç kəs başqası sağ ikən (diri vaxtında) hətta o özü qəza etməkdə aciz olsa belə, namazlarının qəzalarını qıla bilməz. Dünyadan getdikdən sonra isə qılmaq olar. Mükəlləf nə qədər ki, diridir, gərək namazlarının qəzasını özü yerinə yetirsin və naibin onun tərəfindən qıldığı namazlar istər icarə etməklə, istərsə də icarəsiz, kifayət etmir.

**Məsələ-785.** İcarə namazlarında meyitin xüsusiyyətini qeyd etmək lazım deyil. Təkcə zöhr və əsr, habelə məğrib və işa namazları arasında tərtibə riayət etmək şərtdir. Əgər icarə əqdində əcirə (icarə edilmiş şəxsə) namaz qılmaqda xüsusi şərtlər qoyulmayıbsa (məsələn, ona deyilməyib ki, məsciddə yaxud filan saatda qılsın) və həmçinin icarə edilərkən danışıqlarından xüsusi şərtlər də düşünülməyibsə, o zaman əcirə adi müstəhəblərlə (yəni hamının adətən yerinə yetirdiyi müstəhəblərlə) namazı qılmaq lazımdır. Lakin hər namaz üçün azan demək vacib deyil.

## Ata-ananın qəza namazı

**Məsələ-786.** Böyük oğula vacibdir ki, ata və anası dünyadan getdikdən sonra onların itaətsizlik üzündən olmadan tərk etdikləri namazların qəzasını qılsın. Müstəhəb ehtiyat budur ki, hətta itaətsizlik üzündən olsa belə, onları qəza etsin.

**Məsələ-787.** Əgər ata-ana heç namaz qılmayıblarsa, vacib ehtiyata əsasən, bu halda da böyük oğlana onların namazlarının qəzası vacibdir.

**Məsələ-788.** Böyük oğulda məqsəd ata və ana ölən zaman həyatda olan oğlandır. Buna əsasən, əgər böyük oğul ata-anadan qabaq

dünyadan gedərsə, istər həddi-büluğa çatmış olsun, istər yox, ata və ananın qəza namazları onlar dünyadan gedərkən diri olan (həyatda olsun) həmin böyük oğlana vacib olacaq.

**Məsələ-789.** Ata-ananın qəza namazlarının vacibolma meyarı onların böyük övladı deyil, böyük oğulun olmasıdır (əgər digər oğlanları da varsa)[1] Ola bilsin bir şəxsin böyük övladı qız, ikinci övladı isə oğlandır. Valideynlərin qəzası ikinci övlada (oğlana) vacib olur.

**Məsələ-790.** Əgər başqa bir şəxs onun ata-anasının qəza namazlarını qılarsa, böyük oğlanın boynundan düşür.

**Məsələ-791.** Böyük oğula vacibdir ki, ata-anasının namazlarından qəzaya getməsinə yəqin etdiyi miqdarda qılsın (şəkk və güman etdikləri vacib deyil). Əgər ata-anasının namazlarının qəzaya getməsini bilmirsə, boynunda bir şey yoxdur və axtarmağa da ehtiyac yoxdur.

**Məsələ-792.** Böyük oğula vacibdir ki, ata-anasının qəza namazlarını imkanı olduğu hər bir yolla, hətta əcir tutmaqla olsa belə, (başqasına qıldırmaqla) yerinə yetirsin. Amma aciz olduqda üzrlüdür.

**Məsələ-793.** Əgər bir şəxsin özünün və valideynlərinin qəzaları onun boynunda olsa, istədiyini birinci yerinə yetirməyə ixtiyarı var.

**Məsələ-794**. Böyük oğul ata-anası dünyasını dəyişdikdən sonra (onların namazlarını qılmadan) özü də ölsə, başqalarına bir şey vacib deyil. Buna əsasən, ata-ananın namazları böyük oğulun oğluna, yaxud qardaşına vacib deyil.

## Ayət namazı

**Məsələ-795.** Dörd halda ayət namazı vacib olur (başqa sözlə dörd hadisə ayət namazının vacib olmasına səbəb olur):

1. Kusuf: Günəş tutulması, hətta az miqdarda tutulsa belə

[1] Tək oğlan olduqda, yaxud oğlan tək övlad olduqda da böyük oğlan sayılır və valideynlərin qəzası ona vacibdir. (Mütərcim)

2. Xusuf: Ay tutulması, hətta az miqdarda tutulsa belə

3. Zəlzələ

4. Camaatın əksəriyyətinin qorxusuna səbəb olan hər hansı qeyri-adi (səmavi və yer) bir hadisə, qeyri-adi olan qara və sarı yellər (küləklər), şiddətli qaranlıq, yerin batması (çökməsi), dağın uçulması, göydən gələn dəhşətli səs və bəzi hallarda göydə müşahidə olunan od və s.

**Məsələ-796.** Kusuf, xusuf və zəlzələdən başqa hadisələrdə ayət namazı o zaman vacib olur ki, o hadisə camaatın əksəriyyətinin qorxusuna səbəb olsun. Əgər əksəriyyətin deyil, az insanın qorxusuna səbəb olarsa, etibarlı sayılmır (ayət namazına səbəb deyil).

**Məsələ-797.** Ayət namazı hadisə baş verən məntəqədə (şəhərdə) olan kəslərə vacib olur. Həmçinin hadisə baş verən şəhərə birləşən şəhərlərdə olanlara da o zaman vacibdir ki, hadisə baş verənlə ona bitişik şəhər ikisi bir şəhər sayılsın.

**Məsələ-798.** Seysmoloji[1] xidmət mərkəzi (əsl zəlzələdən sonra baş verən) yüngül zəlzələlərin olmasını elan edərsə, amma o məntəqədə yaşayanlar onu hiss etməsələr, ayət namazı vacib deyil.

**Məsələ-799.** İstər şiddətli, istər zəif olan hər bir zəlzələyə görə, hətta sonrakı zəlzələ müstəqil sayıldıqda ayət namazına səbəb olur.

## Ayət namazının üsulu və qaydası

**Məsələ-800.** Ayət namazı iki rəkətdir, hər rəkətdə beş rüku və iki səcdə var ki, bir neçə şəkildə qılına bilir:

**Birinci üsul:** Niyyət edib təkbirətul-ehramı dedikdən sonra "Həmd" və "surə" oxunub rükuya gedilir. Rükudan qayıtdıqdan sonra yenidən

---

[1] Zəlzələləri, habelə onlarla əlaqədar baş verən hadisə və prosesləri öyrənən elm sahəsinə seysmologiya deyilir. (Mütərcim).

“Həmd” və “surə” oxunub rükuya gedilir. Bu minvalla beş rükusu olan bir rəkət yerinə yetirilir. Belə ki, hər bir rükudan qabaq “Həmd” və “surə” oxunur. Sonra səcdəyə gedilir və iki səcdəni etdikdən sonra qalxıb birinci rəkətdə olduğu kimi beş rükusu olan bir rəkət daha qılınır, iki səcdə yerinə yetirildikdən sonra təşəhhüd və salam deyilir.

**İkinci üsul:** Niyyət edib təkbirətul-ehramı dedikdən sonra, “Həmd” və bir ayə, yaxud bir ayədən az qiraət edərək rükuya gedilir. Rükudan qalxdıqdan sonra həmin surədən daha bir ayə oxuyub rükuya gedir, başını rükudan qaldırdıqdan sonra yenə də həmin surədən daha bir ayə oxuyub rükuya gedir, bu minvalla beş rükudan ibarət olan bir rəkət yerinə yetirilir. Belə ki, “Həmd”dən sonra oxumağa başladığı surə axrıncı rükudan qabaq sona yetir. Sonra səcdələri yerinə yetirib qiyama qalxaraq birinci rəkətdə olduğu kimi ikinci rəkəti də qılınır, təşəhhüd və salamı deyilib namaz sona yetirilir. Əgər hər rükudan qabaq bir ayə oxumaq istəsə,“Həmd” surəsini təkrar etməməli, təkcə birinci rükudan qabaq bir dəfə oxuyub “surə”ni beş hissəyə bölərək hər bir hissəni oxuduqdan sonra rükuya getməlidir.

**Məsələ-801.** Vacib ehtiyata əsasən, “Bismillahir-rəhmanir-rəhim” ayəsini surənin bir hissəsi hesab edib onunla rükuya getmək olmaz.

**Üçüncü üsul:** Rəkətlərin birini birinci, digərini isə ikinci üsuldakı kimi yerinə yetirmək olar.[1]

**Dördüncü üsul:** “Həmd”dən sonra oxumağa başladığı surəni ikinci, üçüncü və ya dördüncü rükudan qabaq bitirə bilər. Lakin gərək bu halda yeni bir surə başlasın və sonuncu rükudan qabaq onu sona yetirsin.

---

[1] Birinci rəkəti birinci, ikinci rəkəti ikinci üsuldakı kimi, yaxud əksinə olaraq birinci rəkəti ikinci, ikinci rəkəti birinci üsuldakı kimi yerinə yetirməyin fərqi yoxdur. (Mütərcim)

## Fitr və Qurban bayramı namazı

**Məsələ-802.** Fitr və Qurban bayramının namazı hal-hazırkı dövrdə (yəni qeybəti- kubra, böyük qeybət zamanında) vacib deyil, müstəhəbdir.

**Məsələ-803.** Fitr və Qurban bayramının namazı iki rəkətdir. Birinci rəkətdə "Həmd" və "surə" oxuduqdan sonra beş təkbir deyib hər birindən sonra qunut tutulur (oxunur). Beşinci qunutdan sonra yeni bir təkbir (altıncı təkbiri) deyib rükuya gedib səcdələri yerinə yetirərək qiyama qalxılır. İkinci rəkətdə "Həmd" və "surə"dən sonra dörd təkbir deyib hər birinin ardınca qunut tutulur (oxunur).

Dördüncü qunutdan sonra yeni bir təkbir (beşinci təkbiri) deyib rükuya gedilir, səcdələr yerinə yetirilərək təşəhhüd və salam oxunur.

**Məsələ-804.** Bayram namazının qunutlarını qısa, yaxud uzun oxumağın işkalı yoxdur.

**Məsələ-805.** Bayram namazında iqamə yoxdur. Əgər imam-camaat iqamə desə, namazın səhihliyinə zərər gətirmir.

**Məsələ-806.** Bayram namazı qılmağa vəliyyi-fəqih tərəfindən icazəsi olan nümayəndələr, həmçinin təyin edilmiş imam-cümələr onu camaatla qıla bilərlər. Amma başqaları (vacib) ehtiyata əsasən, gərək fərdi şəkildə qılsınlar. Lakin rəca qəsdiylə (niyyətiylə) camaatla qılmağın işkalı yoxdur. Vurud[1] qəsdiylə camaatla qılmaq olmaz. Əlbəttə, məsləhətə görə müəyyən bir şəhərdə bayram namazının camaatla təşkil edilməsi lazım olarsa, bu zaman vəliyyi-fəqih tərəfindən təyin olunan imam-cümədən başqasının onu qılmaması daha yaxşıdır.

---

[1] Vurud qəsdində məqsəd, onun bu şəkildə qılınmasının caiz olması şəriət sahibinə nisbət verilməsidir. Bəzi hökmlər müctəhidlərə aydın olmadıqları üçün onun müstəhəb olmasına fətva vermirlər, amma savab ümidi ilə yerinə yetirilməsini işkalsız bilirlər. Sözügedən məsələ onlardan biridir. Bu və bu kimi məsələləri yerinə yetirdikdə savab ümidi etmək lazımdır. Yəni əgər müstəhəb olarsa, Allah savabından onu məhrum etməsin. Amma o hökmü Allaha nisbət vermək olmaz. (Mütərcim)

**Məsələ-807.** Bayram namazının qəzası yoxdur.

**Məsələ-808.** İmamın bayram namazını başqa məmumlara görə təkrar etməsi işkallıdır.

# CAMAAT NAMAZI

## Camaat namazının əhəmiyyəti və bəzi hökmləri

**Məsələ-809.** Camaat namazı ən mühüm müstəhəblərdən və İslamın ən böyük şüarlarındandır ki, ən azı iki nəfərlə (bir imam və bir məmum) təşkil oluna bilər.

**Məsələ-810.** Əgər imam[1] imamlıq qəsdi (niyyəti) etmədən namaza başlasa, onun və iqtida edən məmumların[2] namazı səhihdir. Başqa sözlə camaat namazının təşkil olmasında məmumun iqtida niyyəti kifayətdir, imamın niyyəti şərt deyil. Baxmayaraq ki, imam üçün camaat namazının fəzilətinə çatmaq imamlıq niyyəti etməyə bağlıdır.

**Məsələ-811.** Ehtiyat üçün qəza namazı qılmaqla imamlıq etmək olmaz. Buna əsasən, əgər bir nəfər müxtəlif yerlərdə imamlıq edirsə, onları ehtiyat qəza niyyətiylə qıla bilməz.

**Məsələ-812.** İmam-camaatın ona iqtida edilməsinə razı olması iqtidanın səhih olması üçün şərt deyil. Buna əsasən, imamlığa razı olmayan şəxsə iqtida etməyin işkalı yoxdur.

**Məsələ-813.** Məmum nə qədər ki, iqtida halındadır, ona iqtida etmək olmaz. İnsan iqtida etdiyini (məmumdur) bilməyib ona iqtida etsə, əgər rüku və səcdələrində fərdi namazlarda olan şərtlərə

---

[1] Burada camaatın iqtida etdiyi şəxsə “imam” deyilir. (Mütərcim)

[2] Camaat namazında iqtida edənə “məmum” deyilir. (Mütərcim)

düzgün riayət edibsə, belə ki, bilərəkdən, yaxud səhvən rükn azaldıb-çoxaltmayıbsa, namazı səhihdir.

**Məsələ-814.** (İmam üçün) başqa məmumlar üçün yövmiyyə namazlarını bir dəfə camaatla təkrar etməyin işkalı yoxdur, hətta bu iş müstəhəbdir. Amma bir dəfədən artıq təkrar etmək caiz deyil. Buna əsasən, bir imam-camaat iki məsciddə camaat namazı qıla bilər, yəni namazını ikinci dəfə təkrar edə bilər.

**Məsələ-815.** Yövmiyyə namazlarında hər bir namazı digər birini qılana iqtida etmək olar. Məsələn, işa namazını məğrib namazı qılana iqtida edib qılmaq olar.[1]

**Məsələ-816.** Qadınların camaat namazında iştirak etmələrinin işkalı yoxdur və camaat namazının savabına nail olurlar.

**Məsələ-817.** Bir şəxs namaza imam axırıncı rəkətinin təşəhhüdünü oxuyan zaman yetişsə, əgər camaat namazının savabına çatmaq istəyirsə, niyyət edib təkbirətul-ehram dedikdən sonra oturub təşəhhüdü imamla birgə oxusun. Amma salamı deməyib imam namazın salamını deyib qurtarana qədər səbr etsin. Bu zaman ayağa qalxıb[2] namazına davam etsin, yəni “Həmd” və “surə”ni oxuyub onu birinci rəkəti hesab etsin (Bu əməl camaat namazının axırıncı rəkətinə məxsusdur və camaat namazının savabına yetişmək üçündür. Bunu üçrəkətli və dördrəkətli namazların ikinci rəkətinin təşəhhüdündə etmək olmaz).

**Məsələ-818.** İmam və məmumun müxtəlif mərceyi-təqlidlərə təqlid etmələri iqtidanın düzgünlüyünə xələl gətirmir. Buna əsasən, bir şəxs müsafir namazında bir müctəhidə təqlid edib başqa müctəhidə təqlid edən imama iqtida edə bilər. Amma məmumun təqlid etdiyi müctəhidin fətvasına əsasən namaz qəsr, imamın müctəhidinin fətvasına görə tam və ya əksinədirsə, iqtida səhih deyil.[3]

---

[1] Həmçinin qəza namazını əda namazına və ya əksinə iqtida etmək olar. (Mütərcim)

[2] Təkbirətul-ehram demədən. (Mütərcim)

[3] Bu o zamandir ki, ya hər ikisi müsafir olsun və ya təkcə imam müsafir olsun və iqtida edənin müctəhidinin fətvasına əsasən, o müsafirin namazı tam və ya imam müsafir olsun və

**Məsələ-819.** Əgər camaat namazı qılınan zaman o məkanda bəziləri fərdi namaz qılsa, bu iş camaat namazının zəifləməsinə və ona hörmətsizlik, yaxud camaatın etimad edib adil bildiyi imam-camaata ehtiramsızlıq olarsa, caiz deyil.

**Məsələ-820.** (İmamı) töhmətdən qorumaq kimi (camaat arasında düzgün sayılan bir məqsədlə) zahiri şəkildə camaat namazında iştirak etməyin işkalı yoxdur. Amma qiraətin ("Həmd" və "surə"nin) uca oxunması vacib olan namazlarda özünü iqtida edənlər kimi göstərmək üçün qiraəti yavaş oxuması səhih deyil və kifayət etmir.

**Məsələ-821.** Dövlət idarələrinin namazxanalarında qılınan camaat namazından əvvəl, sonra və ya namaz əsnasında müstəhəb namaz, təvəssül duası və s. uzun dualar kimi əməllərin edilməsi namazın çox uzanmasına səbəb olur. Əgər idarə vaxtının hədər olmasına, yaxud vacib işlərin təxirə düşməsinə səbəb olursa, caiz deyil.

**Məsələ-822.** İmam-camaatın camaat namazı qılmaq üçün muzd (məsələn, pul) alması caiz deyil. Əlbəttə, camaat namazına gəlmək üçün lazım olan müqəddimələrə görə ala bilər.

**Məsələ-823.** Camaat namazından sonra salavat ayəsi oxumaq, Peyğəmbər (s) və onun Əhli-beytinə salavat-salam göndərmək nəinki işkalsızdır, hətta savabdır. Həmçinin camaat namazından sonra İslam inqilabının hədəflərini xatırladan İslam və inqilab şüarlarını demək (təkbir və s. kimi) çox yaxşıdır.

**Məsələ-824.** Namazın əvvəl vaxtının, camaat namazının fəzilətlərini (birlikdə) əldə etmək və idarə işçilərinin bu ilahi vacib əməli camaat şəklində ən qısa müddətdə yerinə yetirə bilmələri üçün idarə vaxtlarının tənzimlənməsi çox yaxşıdır.

---

təkcə imamın müctəhidinin fətvasına əsasən o müsafirin namazı tam olsun. Amma məmum müsafir olarsa və onun müctəhidinin nəzərincə namaz qəsr olarsa, imamın müctəhidinin nəzərincə onun namazı tam olsa belə, namazı və iqtidası səhihdir. (Mütərcim)

## Camaat namazının şərtləri

**Məsələ-825.** Camaat namazında bir neçə şərtə riayət olmalıdır:

**Birinci şərt: Hailin (maneənin) olmaması**

Camaat namazının cərgələrindən biri tamamilə namazı qəsr olan namazqılanlarla dolsa, sonrakı cərgədəki namazqılanların hamısının namazı tam (bütöv) olsa, bu halda əgər qabaq cərgədəkilər iki rəkət qıldıqdan sonra dərhal sonrakı iki rəkəti də iqtida edərlərsə (və ya qəza namazı olduqda qəza namazı niyyəti edib iqtida edərlərsə, arxadakılar üçün), camaat namazına davam etməyin işkalı olmayacaq.

**Məsələ-826.** Cərgədə duranların arasında həddi-büluğa yetişməyən müməyyiz (yaxşını pisdən ayıran) uşaq dursa, onun namazının batil olmasını bilmədikdə iqtida edə bilərlər.

**Məsələ-827.** Böyük camaat namazlarında olduğu kimi qadınların kişilərin namazına birləşməyə vasitə olmaqlarının işkalı yoxdur. Məsələn, İmam Rzanın (ə) hərəmində qılınan camaat və ya cümə namazları kimi.

**Məsələ-828**. Qadınlar kişilərin arxasında, hətta fasiləsiz olsa belə dursalar, pərdəyə ehtiyac yoxdur. Amma kişilərin yanında dursalar, qadınla kişinin namazda yanaşı dayanması məkruh olduğu üçün bu məkruhluq aradan qalxsın deyə ortadan pərdə çəkilsə yaxşıdır. Bu heç də qadınların təhqir olunmağı sayılmır və onların kəramətinə zərər yetirmir.

**İkinci şərt: İmamın durduğu yerin məmumların durduğu yerdən hündür olmaması**

**Məsələ-829.** Əgər imamın durduğu yer məmumların durduğu yerdən icazə verilmiş həddən çox hündür olsa, camaat namazı batildir.

**Üçüncü şərt**: İmam və məmum arasında fasilənin olmaması

**Məsələ-830.** Əgər bir məmum ilk cərgənin iki tərəfindən birinin sonunda dursa, imam namaza başladıqdan sonra onunla imam

arasında duran məmumlar kamil şəkildə iqtida etməyə hazır olduqda bu şəxs təkbirətul-ehram deyib iqtida edə bilər (hətta o məmumlar hələ namaza daxil olmaya belə).

**Dördüncü şərt: Məmum imamdan qabaq durmamalıdır**

## Camaat namazının hökmləri

**Məsələ-831.** Zöhr və əsr namazlarında[1] heç bir halda, hətta fikrini yayınmaqdan qorumaq məqsədiylə də olsa belə, "Həmd" və "surə" oxumaq məmumlara caiz deyil.[2] Amma birinci və ikinci rəkətdə imamın üçüncü, yaxud dördüncü rəkətinə iqtida edirsə, "Həmd" və "surə"ni özü oxumalıdır.

**Məsələ-832.** Əgər imam-camaat məğrib namazının üçüncü, işa namazının üç və ya dördüncü rəkətində məmum isə birinci və ya ikinci rəkətdə olsa, məmuma "Həmd" və "surə"ni yavaş oxumaq vacibdir.

**Məsələ-833.** Əgər bir şəxs camaat namazının ikinci rəkətinə yetişib məsələni (hökmü) bilməmək üzündən sonrakı rəkətdə (yəni özünün ikinci rəkətində) qunut[3] və təşəhhüd oxumasa, namazı səhihdir. Amma (vacib) ehtiyata əsasən, təşəhhüdün qəzası ona vacib olur. Həmçinin vacib ehtiyata əsasən, iki səhv səcdəsi də etməlidir.

**Məsələ-834.** Əgər bir şəxs camaat namazının üçüncü (ya dördüncü) rəkətində yetişib imamın birinci (ya ikinci) rəkətdə olduğunu sanıb bir şey ("Həmd" və "surə") oxumasa, rükudan qabaq onun üçüncü (ya dördüncü) rəkətdə olmağını bilsə, gərək "Həmd" və "surə"ni oxusun. Amma rükuya getdikdən sonra bilsə, namazı

---

[1] Birinci və ikinci rəkətdə, amma üç və dörddə fərdi halda olan namazın hökmünə əməl etməli, yaxud "Həmd" və ya təsbihati-ərbəə oxumalıdır. (Mütərcim)

[2] Amma sübh, məğrib və işa namazlarında imamın qiraətini, hətta pıçıltısını eşitmədikdə özü "Həmd" və "surə"ni qiraət edə bilər. (Mütərcim)

[3] Əlbəttə ki, qunut ümumiyyətlə vacib deyil, hərçənd müstəhəbdir. (Mütərcim)

səhihdir. Müstəhəb ehtiyatın qiraəti tərk etdiyi üçün iki səhv səcdəsi yerinə yetirmək olmasına baxmayaraq ona bir şey vacib deyil.

**Məsələ-835.** İmam-camaat təkbirətul-ehramı dedikdən sonra səhvən rükuya gedərsə, məmum namaza başlayıb rükuya getmədən öncə bunu bilsə, vacibdir namazını furada edib (niyyətini fərdi namaza döndərsin) "Həmd" ilə "surə"ni oxusun.

**Məsələ-836.** Əgər imam-camaat namaz əsnasında bir kəlməni düz tələffüz edib-etməməsində şəkk etsə və namazdan sonra səhv tələffüz etdiyini bilsə, onun və məmumların namazı səhihdir.

**Məsələ-837.** İslam vəhdətini (birliyini) qorumaq məqsədiylə əhlisünnəyə iqtida etmək caizdir. Əgər bu birliyi qorumaq onların namazda bəzi etdiyi əməlləri etməyə bağlı olarsa, hətta xalça və bu kimi şeylərə səcdə etməli olsa belə, namaz səhih və kifayətdir.

## İmam-camaatın şərtləri

**Məsələ-838.** İmam-camaat gərək aşağıdakı şərtlərə malik olsun:
1. Həddi-büluğa yetişsin.
2. Aqil (ağıllı) olsun.
3. Adil (ədalətli) olsun.
4. Halalzadə olsun.
5. On iki imama etiqadı olan şiələrdən olsun.
6. Namazı səhih (qılmağı bacarsın və) qılsın.
7. Kişi olsun (əgər məmum kişidirsə).

**Məsələ-839.** İmam-camaata iqtida etməkdə onu yaxından tanımaq şərt deyil. Əgər ədaləti məmuma hansısa yolla sübuta yetərsə, ona iqtida edə bilər və namazı səhihdir.

**Məsələ-840.** Qiraəti səhih olmayan imama iqtida etmək olmaz, baxmayaraq ki, öyrənməyə qüdrəti olmadıqda onun namazı səhihdir.

**Məsələ-841.** Əgər imam-camaatın namazı məmumun nəzərində səhih olmasa, nəticədə onun namazını səhih bilməsə, həmin şəxsə

iqtida edə bilməz. İqtida edərsə, namazı batildir. Gərək namazını yenidən qılsın.

**Məsələ-842.** Qadın qadınlar üçün imam-camaat ola bilər.

**Məsələ-843.** Camaat namazı təşkil etmək üçün imam-camaat təyin etməkdə ruhani tapmaq mümkündürsə (camaata imamlıq etmək üçün ruhani tapmaq mümkündürsə), gərək ruhani olmayanlar imam-camaat qoyulmasın.

**Məsələ-844.** Əgər imam-camaat qiyam halında bədənini təbii şəkildə aram və sabit, həmçinin bu sabitliyi qiraət, zikr və namazın digər əməlləri zamanı saxlaya bilib rüku və səcdəyə gedə, səhih dəstəmaz ala bilirsə, imam-camaatın başqa şərtlərini də onda tapdıqdan sonra camaat ona iqtida edə bilər və namazları səhihdir. Əli, yaxud ayağı kamil şəkildə kəsilərsə (olmazsa) və ya iflic olarsa, ona iqtida etmək işkallıdır. Amma ayağının baş barmağı olmadıqda imamlıq etmək səhihdir.

**Məsələ-845.** Şəri baxımdan dəstəmaz, yaxud qüsl almaqda üzrlü olan şəxs etdiyi təyəmmümlə camaata imamlıq edə bilər və ona iqtida etməyin işkalı yoxdur.

**Məsələ-846.** Keçmişdə hökmlərini bilməmək üzündən imam-camaatın bəzi şərtlərinə malik olmayan (məsələn, əli olmayan) şəxsə iqtida edənlərin keçmiş namazları səhihdir, yeniləmək, yaxud qəza etmək vacib deyil.

## Namaza aid müxtəlif məsələlər

**Məsələ-847.** Ailə üzvlərini sübh namazı üçün yuxudan oyatmağın xüsusi yolu yoxdur.

**Məsələ-848.** Vəlisinə[1] uşaqlar müməyyiz[2] olan zaman şəri hökm və ibadətləri onlara öyrətməsi müstəhəbdir.

**Məsələ-849.** Araq içənin qırx gün namazının namaz sayılmamasında məqsəd, araq içməyin namazının qəbul olmasına mane olmasıdır, nəinki araq içənin boynundan namaz düşməsi və əvəzində qəza və ya əda ilə qəza birlikdə gəlməsi.

**Məsələ-850.** Namaz sona çatdıqdan sonra əl ilə görüşməyin işkalı yoxdur. Ümumiyyətlə, möminlərin bir-biriylə əl verib görüşməsi müstəhəbdir.

**Məsələ-851.** Əgər bir şəxs başqasının namazında bəzi əməllərin düz olmamasını görsə, bu zaman ona bir şey vacib deyil. Amma onun namazda səhvə yol verməsi hökmü bilməmək üzündən olarsa, bu zaman ona hökmü başa salmaq vacibdir.

## ORUCUN HÖKMLƏRİ

**Məsələ-852.** "Oruc" müqəddəs İslam şəriətində o əmələ deyilir ki, insan bütün gün (fəcrdən məğribədək)[3] Allahın fərmanına itaət etmək məqsədiylə yemək-içməkdən və sonradan geniş şəkildə deyiləcək (orucu batil edən) şeylərdən qorunsun.

**Məsələ-853.** Oruc vaxtının şəri meyarı "sadiq fəcr"dir, nəinki "kazib fəcr" və onu təyin etmək mükəlləfin öz öhdəsinədir.[4]

---

[1] Məsələn, atası (Mütərcim)

[2] "Müməyyiz" o uşaqlara deyilir ki, artıq onlar yaxşını pisdən seçə biləcək yaş həddinə yetişiblər. Məsələn, ayıb yerləri ayıb kimi düşünürlər. Bu uşaqlar "təmyiz" həddinə çatmış sayılır. (Mütərcim)

[3] Sübh azanından məğrib azanınadək. (Mütərcim)

[4] Sübh azanı yaxınlaşan zaman məşriq (günçıxan) səmtindən üzüyuxarı bir ağartı qalxır ki, buna "birinci fəcr" və ya "kazib fəcr" deyilir. O ağartının yuxarı qalxdıqdan sonra üfüqdə yayılması "ikinci fəcr" və ya "sadiq fəcr" adlanır ki, bu zaman sübh azanının vaxtıdır və oruc tutmaq üçün də həmin vaxtdan yeyib-içməkdən, orucu batil edən digər işlərdən qorunmaq lazımdır. (Mütərcim)

**Məsələ-854.** Fəcrin doğmasında (sübh azanı və imsak vaxtında) aydın gecələrlə başqa gecələr arasında fərq yoxdur.

**Məsələ-855.** Münasibdir möhtərəm möminlər orucun imsakında ehtiyata riayət etmək üçün radio-televiziyadan sübh azanı deyilən zaman oruc üçün imsak etsinlər.

**Məsələ-856.** Əgər oructutan məğrib azanının məğrib vaxtı daxil olmaqla birgə verilməsinə (yəni düz vaxtında verilib və səhv edilməyib) xatircəm olsa, azan deyilən kimi iftar etməsi caizdir və azanın sonunadək gözləmək lazım deyil.

## Orucun qisimləri (növləri)

**Məsələ-857.** Oruc dörd qismə bölünür:

1. Vacib oruclar; məsələn, mübarək Ramazan ayının orucu

2. Müstəhəb oruclar; məsələn, Rəcəb və Şaban aylarının orucları
3. Məkruh oruclar; məsələn, Aşura gününün orucu
4. Haram oruclar; məsələn, Fitr bayramı (Şəvval ayının biri) və Qurban bayramı gününün (Zilhəccə ayının onu) orucları.

**Məsələ-858.** Əgər bir şəxs orucun ona zərər edəcəyini bilsə, yaxud zərər edəcəyindən qorxsa, gərək orucu tərk etsin (tutmasın). İstər onun yəqini və ya qorxusu şəxsi təcrübədən əldə olunsun, istər əmin həkimin dediyindən hasil olsun, istərsə də başqa bir üqəlayi (aqil və normal insanlar arasında qəbul olunan və etina edilən) mənşə olsun, əgər oruc tutarsa, batildir, hətta haramdır.

**Məsələ-859.** Orucun xəstəliyə səbəb olması, yaxud xəstəliyi şiddətləndirməsi və ya oruc tutmağa qadir olmamasında meyar oruc tutan şəxsin özünün təyin və müəyyən etməsidir. Buna əsasən, əgər həkim ona orucun zərər etməsini bildirsə, lakin o, şəxsi təcrübə nəticəsində orucun ona zərər etməməsini bilsə, gərək oruc tutsun. Həmçinin əgər həkim ona orucun zərər etməməsini deyərsə, lakin o, orucun özünə zərər etməsini bilsə, yaxud zərər edəcəyindən qorxsa, oruc tutmamalıdır.

**Məsələ-860.** Əgər orucun ona zərər etmədiyini güman edib oruc tutsa, amma sonradan orucun ona zərər etməsi məlum olsa, gərək onun qəzasını tutsun.

**Məsələ-861.** Həkimlərin xəstələrə orucun zərər etməsinə görə oruc tutmaqdan çəkindirmələri o zaman etibarlıdır ki, onların sözü insanı xatircəm etsin və ya zərər qorxusuna səbəb olsun, əks təqdirdə etibarlı deyil.

## Vacib oruclar

**Məsələ-862.** Vacib oruclar aşağıdakılardan ibarətdir:
1. Mübarək Ramazan ayının orucu;
2. Qəza orucu;
3. Kəffarə orucu;
4. Ata-ananın orucunun qəzası (böyük oğula vacibdir);
5. Nəzir, əhd və andla vacib olan müstəhəb oruclar;
6. Etikaf günlərindən üçüncü günün orucu;
7. Təməttü həccində qurbanlıq əvəzinə tutulan oruc.[1]

## Orucun vacibolma şərtləri

**Məsələ-863.** Orucun vacibolma şərtləri aşağıdakılardır:

1. Büluğ (Həddi-büluğa çatmaq);
2. Əql (Aqil -ağıllı- olmaq);
3. Qüdrət (Oruc tutmağa qadir olmaq);
4. Bihuş olmamaq;
5. Müsafir olmamaq;
6. Haiz (aylıq adətdə - heyz) və nəfsa (uşaq azad etdikdən sonra nifas halında) olmamaq;
7. Orucun zərər etməməsi;
8. Orucun hərəcli (yəni çox çətin və məşəqqətli) olmaması;

**Məsələ-864.** Oruc (yalnız) yuxarıdakı məsələdə göstərilən şərtlərə

[1] Əgər hacının həcdə qurban kəsməyə qüdrəti və borc etmək mümkün olmasa, gərək onun əvəzinə on gün oruc tutsun. Onun üç gününü həcc səfərində və yeddi gününü vətənində tutmalıdır.

malik olan şəxslərə vacibdir. Buna əsasən, həddi-büluğa çatmamış uşaqlara, dəlilərə (məcnunlara), bihuşlara, oruc tutmağa qadir olmayanlara, müsafirlərə, haiz və nəfsa qadınlara, oruc zərər edən və ya çox məşəqqətli olan şəxslərə vacib deyil.

**Məsələ-865.** İnsan zəifliyə görə orucu tərk edə bilməz. Amma zəifliyi elə bir həddə olsa ki, ona dözmək çox çətin və müşküldür, orucunu yeyə bilər. Həmçinin əgər oruc ona zərər edərsə və ya orucun ona zərər etməyindən qorxarsa, orucunu yeyə bilər.[1] Buna əsasən, həddi-büluğa çatan qızlara oruc tutmaq vacibdir və onu çətinliyə, cismi zəifliyə görə tərk etmək caiz deyil. Amma oruc tutmaq onlara zərər etsə və ya çox çətin və məşəqqətli olsa, bu zaman iftar edə bilərlər.[2]

## Orucun səhiholma şərtləri

**Məsələ-866.** Orucun səhiholma şərtləri aşağıdakılardır:
1. İslam;
2. İman;
3. Əql;
4. Bihuş olmamaq;
5. Müsafir olmamaq;
6. Haiz və nəfsa olmamaq;
7. Orucun zərər etməməsi;
8. Niyyət etmək;
9. Orucu batil edənləri tərk etmək;
10. (Müstəhəb oruc tutmaq üçün) boynunda qəza orucunun olmaması.

---

[1] 858-ci məsələdə deyildiyi kimi, bu zaman oruc tutarsa, orucu batildir və hətta oruc tutmaq haramdır. Amma çox çətin və məşəqqətli olduqda orucunu yeyə bilər, lakin oruc tutarsa, orucu səhihdir. (Mütərcim)

[2] Zərər və çox məşəqqətin hökmlərinin fərqi yuxarıda deyilib. Başqa sözlə desək, orucun zərər etməməsi orucun həm vacib, həm də səhih olmasının şərtindəndir. Amma hərəc və çox məşəqqətin olmaması orucun təkcə vacib olmasının şərtlərindəndir. (Mütərcim)

**Məsələ-867.** (Yalnız) yuxarıda göstərilən şərtlərə malik olan şəxslərin orucları səhihdir (düzdür). Buna əsasən, kafirin, dəlinin, müsafirin, haiz və nəfsa qadınların, oruc zərər edən şəxslərin, oruc niyyəti etməyənlərin və bilərəkdən orucu batil edən işləri görənlərin orucları batildir. Həmçinin boynunda qəza orucu olan şəxslər müstəhəb oruc tuta bilməz, tutsalar səhih deyil.

## Orucun niyyəti

**Məsələ-868.** Oruc gərək başqa ibadətlər kimi niyyətlə olsun. Belə ki, yemək-içməkdən və orucu batil edən işlərdən uzaq olmaq gərək Allahın fərmanına əməl etmək üçün olsun. Belə bir əzm etmək (niyyət üçün) kifayətdir və onu dilə gətirmək lazım deyil.

**Məsələ-869.** Oruc fəcrdən başladığı üçün niyyəti o andan təxirə salmaq olmaz və oruc niyyətinin fəcrdən qabaq edilməsi daha yaxşıdır.

**Məsələ-870.** Əgər gecənin əvvəlində sabah oruc tutacağını niyyət edərsə, sonra yatıb sübh azanınadək yuxudan oyanmasa və ya başı işə qarışmaq nəticəsində sübhün yetişməyini bilməsə, sübh olduqdan sonra xəbəri olsa, orucu səhihdir.

**Məsələ-871.** Əgər bir şəxs Ramazan ayında, sübh azanı zamanı bilərəkdən oruc niyyəti etməsə, hətta gün boyu niyyət etsə belə, orucu batildir. Amma qürubadək[1] orucu batil edən işlərin hər birindən qorunmaq və Ramazan ayından sonra o günün qəzasını yerinə yetirmək vacibdir.

**Məsələ-872.** Bir şəxs unutmaq və ya xəbərsizlik üzündən Ramazan ayında oruc niyyəti etməsə və günün əsnasında yadına düşsə, əgər orucu batil edən işlər edibsə, orucu batildir. Amma qürubadək orucu batil edənlərin hər birindən gərək qorunsun.[2] Əgər orucu batil

---

[1] Məğrib azanınadək (Mütərcim)
[2] Və Ramazan ayından sonra o günün qəzasını tutsun. (Mütərcim)

edənlərdən heç birini etməyibsə, zöhrdən sonradırsa, orucu batildir,[1] zöhrdən qabaqdırsa, vacib ehtiyata əsasən, oruc niyyəti edib, sonradan o günü qəza etsin.

**Məsələ-873.** Ramazan ayından başqa vacib oruc üçün, məsələn, kəffarə, yaxud qəza orucu kimi, zöhrə yaxın vaxtadək niyyət etməsə, əgər o zamanadək orucu batil edən iş görməyibsə, niyyət edə bilər və orucu səhihdir.

**Məsələ-874.** Müstəhəb oruc üçün gün boyu nə zaman oruc tutmaq fikri olsa, niyyət edə bilər və orucu səhihdir. Bu şərtlə ki, o zamanadək orucu batil edən işlərdən heç biri baş verməmiş olsun.

**Məsələ-875.** Ramazan ayının qəza orucu boynunda olan şəxs müstəhəb oruc tuta bilməz. Hətta əgər vacib orucun niyyət vaxtı ötüb keçəndən sonra da müstəhəb oruc niyyəti etsə (yəni zöhrdən sonra da olsa belə), müstəhəb oruc səhih deyil. Amma yadından çıxarıb müstəhəb oruc tutsa, gün ərzində yadına düşdükdə orucu batildir (istər zöhrdən sonra, istər qabaq). Əgər zöhrdən qabaq yadına düşsə, Ramazan ayının qəza orucunu niyyət edə bilər və orucu səhihdir.

**Məsələ-876.** Ramazan ayının oruc qəzası boynunda olan şəxs müstəhəb oruc niyyəti etsə, bu qəza orucu yerinə sayılmaz.

**Məsələ-877.** Bir şəxs boynunda qəza orucu olub-olmamasını bilməyib şəri baxımdan əmri olan oruc niyyətiylə (qəza və müstəhəb olmağından asılı olmayaraq) oruc tutsa, əgər həqiqətən boynunda oruc qəzası olarsa, qəza hesablanır.

**Məsələ-878.** Xəstə əgər ramazan ayı əsnasında sağalsa, oruc niyyəti etməsi vacib deyil. Amma zöhrdən qabaq sağalıbsa və orucu batil edən işlər etməyibsə, müstəhəb ehtiyat budur ki, oruc niyyəti edib oruc tutsun. Sonradan gərək o günün qəzasını tutsun.

[1] Amma gərək qürubadək orucu batil edən işlərin hər birindən qorunsun və Ramazan ayından sonra o günün qəzasını yerinə yetirsin. (Mütərcim)

**Məsələ-879.** Əgər insan şaban ayının axırı, yaxud ramazan ayının əvvəli (yövmüş-şəkk) olmasında şəkk etsə, oruc tutmaq vacib deyil. Əgər oruc tutmaq istəsə, ramazan orucu niyyəti edə bilməz, amma şaban ayının axırıncı gününü müstəhəb orucunun və ya qəza niyyəti (qəzası olanlar üçün) edə bilər. Sonradan o günün ramazanın biri (əvvəli) olması məlum olsa, ramazan ayı orucundan sayılacaq və həmin günün qəzası yoxdur. Əgər (şaban və ya qəza niyyətilə oruc tutarsa və) gün əsnasında ramazan ayının olması məlum olarsa, gərək həmin andan ramazan ayının orucu niyyəti etsin.

## Niyyətin davamlı olması

**Məsələ-880.** Vacibdir ki, orucun niyyəti axıradək (arası kəsilmədən) davam etsin.

**Məsələ-881.** Niyyətin davamlı olmasını pozanlar bunlardır:

1. Oruc niyyətini kəsmək (belə ki, gün əsnasında niyyətdən dönüb orucu davam etmək məqsədi olmasa) orucu batil edir və ikinci dəfə niyyət etməyin faydası yoxdur. Amma məğrib azanınadək orucu batil edən işlərdən gərək çəkinsin.

2. Orucun davamında tərəddüd etmək (belə ki, hələ orucunu batil etmək qərarına gəlməyib).

3. Onucu batil etmək niyyəti (belə ki, orucu batil edənlərdən istifadə etmək istəyib, məsələn, yemək qərarına gələ, amma hələ bir iş görməyib).

İkinci və üçüncü yerlərdə vacib ehtiyat budur ki, orucu sona çatdırıb sonradan qəzasını da tutsun.

**Məsələ-882.** Bu dediklərimiz ramazan ayının, yaxud müəyyən bir günün nəzir orucu kimi vaxtı müəyyən olan vacib oruclara aiddir. Müstəhəb və vaxtı müəyyən olmayan vacib oruclarda belə deyil,

Belə ki, orucu sındırmaq qərarına gəlsə (niyyətindən dönə),[1] amma onu batil edən işlərdən heç biri baş verməsə, sonradan zöhrdən qabaq (müstəhəb oruclarda qürubadək) yenidən niyyət edərsə, orucu səhihdir.

## Orucu batil edən işlər

**Məsələ-883.** Orucu batil edən işlərə "müftirat" deyilir və onlar aşağıdakılardır:
1. Yemək-içmək;
2. Cinsi yaxınlıq;
3. İstimna (onanizm);
4. Allaha, peyğəmbərlərə (ə) və məsumlara (ə) yalan nisbət vermək (vacib ehtiyata əsasən);
5. Qatı tozu hülquma yetirmək (vacib ehtiyata əsasən);
6. Başı bütövlükdə suyun altına batırmaq (salmaq) (vacib ehtiyata əsasən);
7. Sübh azanınadək cənabətli, heyzli və ya nifaslı qalmaq;
8. Maye ilə imalə etmək;
9. Bilərəkdən qusmaq.

### 1. Yemək-içmək

**Məsələ-884.** Əgər oructutan bilərəkdən bir şey yeyib-içsə, orucu batildir, yeyib-içdiyi istər yeməli və içməli olsun, istərsə də parça və kağız kimi yeyib-içməli olmasın, istər çox olsun, istərsə də çox kiçik su damcısı və ya çox kiçik çörək qırıntısı kimi az.

**Məsələ-885.** Əgər oruc olan şəxs dişinin dibində qalanı (xörək qırıntısını) bilərəkdən udsa, orucu batil olur. Amma dişinin dibində bir

[1] Həmçinin orucunu davam etməkdə tərəddüd və ya orucu batil etmək niyyəti edərsə. (Mütərcim)

şeyin qaldığını, yaxud hülqumuna yetişdiyini bilməsə, yaxud udmağı qəsdən olmasa və ya qəflət üzündən olsa, orucu batil olmur.

**Məsələ-886.** Səhv və unutmaq üzündən yeyib-içmək orucu batil etmir.[1] Bu barədə vacib və müstəhəb oruclar arasında fərq yoxdur. Həmçinin ağız suyunu udmaq orucu batil etmir.

**Məsələ-887.** Vacib ehtiyat budur ki, enerji verən, qida sayılan (ampullardan) və ya damara vurulan iynələrdən, yaxud sistem köçürülməsindən qorunsun. Amma əzələyə vurulan və ya keyidici iynələrin, həmçinin yara və kəsik üzərinə qoyulan dərmanların işkalı yoxdur.

**Məsələ-888.** Vacib ehtiyata görə oructutan şəxs burun yolu ilə çəkilən və ya dilin altına qoyulan narkotik maddələri istifadə etməməlidir.

**Məsələ-889.** Yemək yeyən zaman sübh olduğu bilinsə, gərək ağızdakı tikə çıxarılsın. Bilərəkdən udulsa, oruc batil olur (Orucu bilərəkdən batil edənin hökmü sonradan deyiləcək).

**Məsələ-890.** Başdan və sinədən gələn bəlğəmi ağızın fəzasına (daxilinə) yetişmədikdə udmağın eybi yoxdur və orucu batil etmir. Amma ağız daxilinə gəldikdə vacib ehtiyata əsasən, udmaq olmaz.

**Məsələ-891.** Əgər oruc halında təzyiq dərmanı (həbb, kapsula) içmək zəruri olarsa, işkalı yoxdur, lakin onu içmək orucu batil edir (yəni dərman atmaq yemək sayılır).

**Məsələ-892.** Damaqdan gələn qan nə qədər ki, udulmayıb, oruc batil deyil. Əgər ağız suyuna qarışıb aradan getsə, pakdır, onu udmağın işkalı yoxdur və orucu da batil etmir. Həmçinin əgər ağız suyunun qanlı olub-olmamasında şəkk edərsə, onu udmağın işkalı yoxdur və oruc səhihdir.

---

[1] Məqsəd budur ki, oruc olduğunu unutsun. Amma bir şeyin orucu batil etdiyini bilməsə və ya yadından çıxarsa, oruc olduğunu bilə-bilə yeyib-içdikdə orucu batildir. (Mütərcim)

**Məsələ-893.** Ağızdan qan gəlməklə oruc batil olmur, amma hülquma çatmağın qarşısını almaq vacibdir.

## 2. Cinsi yaxınlıq

**Məsələ-894.** Cinsi yaxınlıq hərçənd məni (sperma) xaric olmasa belə, orucu batil edir.

**Məsələ-895.** Əgər oruc olmağını unudub cinsi yaxınlıq edilsə, oruc batil olmur. Amma yadına düşən kimi, dərhal bu işi saxlamalıdır, əks təqdirdə orucu batildir.

## 3. İstimna (onanizm)

**Məsələ-896.** Əgər oructutan bilərəkdən özü özündən məni xaric etsə, orucu batildir.

**Məsələ-897.** Gündüz möhtəlim olmaq (məninin yuxuda xaric olması) orucu batil etmir. Hətta əgər yatdıqda möhtəlim olacağını bilsə, yuxusunun qarşısını almaq lazım deyil.

**Məsələ-898.** Əgər oruc olan şəxs yuxuda məni xaric olduqda yuxudan ayılsa, qarşısını almaq vacib deyil.

## 4. Allaha, peyğəmbərlərə və məsumlara (ə) yalan nisbət vermək

**Məsələ-899.** Allaha, peyğəmbərlərə və məsumlara (ə) yalan nisbət vermək hərçənd sonradan tövbə edib yalanına etiraf etsə belə, (vacib) ehtiyata əsasən, orucu batil edir.

**Məsələ-900.** Rəvayət (hədis) kitablarında yalan olub-olmaması sabit olmayan (məlum olmayan) hədisləri deməyin işkalı yoxdur. Müstəhəb ehtiyat budur ki, onları deyən zaman nəql edildiyi kitablara istinad olunsun (məsələn, filan kitabda belə yazılıb ki, Peyğəmbər (s) buyurubdur… deyilsin).

## 5. Qatı tozu hülquma yetirmək

**Məsələ-901.** Oructutan şəxs vacib ehtiyata əsasən, yeri süpürərkən yerdən qalxan toz kimi qatı tozu udmasın. Tozun təkcə ağıza, yaxud buruna daxil olması orucu batil etmir. Həmçinin siqaret tüstüsü və digər tüstülər də vacib ehtiyata əsasən, orucu batil edir.

**Məsələ-902.** Əgər oructutan tənginəfəsliyə düçar olub (astma xəstəliyi) təzyiqli hava, dərmanla hərçənd qaz şəklində hülquma daxil olan (sprey) maddədən istifadə etsə, orucun işkalı yoxdur.

## 6. Başı suya batırmaq (salmaq)

**Məsələ-903.** Oruc tutan şəxs bilərəkdən başını bütövlükdə suyun altına salarsa, vacib ehtiyata əsasən, orucu batildir. Gərək o günün orucunun qəzasını tutsun.

**Məsələ–904.** Yuxarıdakı məsələdə təkcə başı, yaxud bədəni də suya batırmağın fərqi yoxdur.

**Məsələ-905.** Əgər əvvəlcə başının bir yarısını suya salıb-çıxartsa, sonra o biri yarısını salsa, orucu batil olmur.

**Məsələ-906.** Əgər başını bütövlüklə suya salsa, amma saçlarından bir miqdarı çöldə qalsa, orucu batil olur.

**Məsələ-907.** Başı bütövlükdə suyun altına daxil olub-olmamasında şəkk edilsə, oruc səhihdir.

**Məsələ-908.** Oructutan ixtiyarsız olaraq suya düşüb başı da tamamilə suyun altına girsə, orucu batil olmur, lakin başını dərhal gərək sudan çıxarsın. Həmçinin əgər oruc olmağını unudub başını suya salsa, orucu batil olmur, lakin yadına düşən kimi başını dərhal gərək sudan çıxarsın.

**Məsələ-909.** Əgər oructutan şəxs məxsus geyimlə (dalğıcların libası kimi), bədəni islanmadan suya girsə, o geyim bədənə yapışan olduqda[1] orucun səhih olması işkallıdır və vacib ehtiyata əsasən, onun qəzasını tutmalıdır.

---

[1] Məqsəd başın islanıb-islanmaması və paltarın başa yapışıb-yapışmamasıdır. (Mütərcim).

**Məsələ-910.** Başa su tökmək (qabla, duşla və s.) orucu batil etmir.

## 7. Sübh azanınadək cənabət, heyz və (ya) nifas halında qalmaq

**Məsələ-911.** Ramazan ayının gecəsi cənabətli olan şəxs gərək sübh azanından qabaq qüsl etsin. Əgər bilərəkdən qüsl etməsə, orucu batildir (səhih deyil). Bu hökm ramazan ayının qəza orucuna da aid olur.

**Məsələ-912.** Əgər bir şəxs ramazan ayının gecəsində cünub olub bilmədən sübhə kimi qüsl etməsə, məsələn, yuxuda cünub olub sübhədək yatsa, orucu səhihdir.

**Məsələ-913.** Sübhədək cənabətli qalmağın orucun batil olmasına səbəb olması ramazan ayının orucuna aiddir, başqa orucları, xüsusilə, müstəhəb orucları batil etmir.

**Məsələ-914.** Əgər cünub ramazan ayında cənabət qüslünü sübhədək unudub cənabətli halda sübh edərsə, orucu batildir. (Vacib) ehtiyata əsasən, ramazan ayının qəzası da bu hökmdədir. Amma başqa oruclarda oruc batil olmur.

**Məsələ-915.** Əgər bir şəxs cənabətli olmamağı orucun səhiholma şərtlərindən olmasını bilmədən cənabətli halda bir neçə gün oruc tutsa, bu oruclar batildir və gərək qəzası yerinə yetirilsin.

**Məsələ-916.** Əgər kimsə ramazan ayında nəcis suyla qüsl edib bir neçə gündən sonra o suyun nəcis olmasını bilsə, onun tutduğu oruclar səhihdir.[1]

**Məsələ-917.** Ramazan ayının gecəsində vəzifəsi qüsl vermək olan şəxs, vaxtın darlığı, suyun ona zərər etməsinə və ya başqa səbəblərə görə qüsl edə bilmirsə, gərək qüsl əvəzinə təyəmmüm etsin.

---

[1] Lakin qüslu batil olduğu üçün yenidən qüsl etməlidir. (Mütərcim)

**Məsələ-918.** Vəzifəsi təyəmmüm olan şəxs ramazan ayının gecəsi özünü cünub edə bilər (xanımı ilə yaxınlıq edə bilər). Bu şərtlə ki, təyəmmüm etmək üçün kifayət qədər vaxt olsun.

**Məsələ-919.** Ramazan ayının gecəsində cənabət qüslu, yaxud qüsl əvəzinə təyəmmüm edən şəxsdən sübh azanından sonra məni xaric olsa belə, onun orucu səhihdir.

**Məsələ-920.** Yuxuda cünub olmaq orucu batil etmir. Buna əsasən, əgər sübh azanından qabaq və ya sonra yatıb yuxuda cünub olsa və sonra yuxudan oyansa, orucu batil olmur. Baxmayaraq ki, namazlar üçün qüsl verməsi vacibdir və qüslu namaz vaxtına qədər təxirə sala bilər.

**Məsələ-921.** Oructutan şəxs ramazan və digər aylarda yuxuda cünub olarsa, dərhal qüsl etmək vacib deyil.

**Məsələ-922.** Əgər bir şəxs oyaq halda cünub olsa, yaxud da yuxuda cünub olduqdan sonra oyanıb-yatarsa, qüsl üçün sübh azanından qabaq oyana bilməyəcəyini bilsə, qüsl etməzdən qabaq yatmaq caiz deyil. Əgər yatıb sübhdən qabaq qüsl etməsə, orucu batildir. Amma yatarsa, sübh azanından qabaq qüsl etmək üçün oyanacağına ehtimal versə və qüsl etmək fikri də olarsa (yəni durduqdan sonra qüsl etmək qərarında olarsa), oyana bilmədiyi təqdirdə orucu səhihdir. Əgər ikinci dəfə yatıb sübhədək oyana bilməsə, gərək o günün qəzasını tutsun.

**Məsələ-923.** Nə zaman ramazan ayının gecəsində sübh azanından qabaq möhtəlim olduğunu bilməyib yenidən yatsa, sübh azanından qabaq möhtəlim olmasını sübh azanından sonra bilsə, orucu səhihdir. Həmçinin əgər fəcrdən qabaq (sübh azanından qabaq) möhtəlim olub olmamasında şəkk etsə və şəkkinə etina etmədən yenidən yatsa, sübh azanından sonra ayılıb fəcrdən qabaq möhtəlim olduğunu bilsə, necə ki, birinci dəfə ayıldığından sonra möhtəlim olmaqdan heç bir əsər-əlamət müşahidə etməyib təkcə ehtimal versə ki, möhtəlim olub, orucu səhihdir.

**Məsələ-924.** Aylıq adətdən pak olub vəzifəsi qüsl vermək olan qadın, həmçinin nifasdan pak olub qüsl verməsi vacib olan qadın qüslünü ramazan ayının sübh azanınadək verməsə, orucu batildir.

**Məsələ-925.** Oruc olan qadın gün əsnasında heyz və ya nifas qanı görərsə, hərçənd məğrib azanına yaxın olsa belə, orucu batil olur.

**Məsələ-926.** Əgər qadın nəzir orucu əsnasında heyz qanı görərsə, orucu batildir və pak olduqdan sonra qəzasını tutmaq vacibdir.

## 8. İmalə etmək

**Məsələ-927.** Hərçənd naçarlıq üzündən və müalicə üçün olsa belə, maye ilə imalə etmək orucu batil edir.

**Məsələ-928.** Müalicə üçün bəzi xəstə qadınların istifadə etdikləri (bədəninə qoyulan) xüsusi dərmanlar orucu batil etmir.

## 9. Qusmaq

**Məsələ-929.** Oruc tutan bilərəkdən qusarsa, hərçənd xəstəliyə görə buna naçar olsa belə, orucu batildir. Amma səhvən, yaxud ixtiyarsız olarsa, işkalı yoxdur (orucu səhihdir).

**Məsələ-930.** Gəyirmək nəticəsində (mədəsindən) bir şey ağız boşluğuna gəlsə, gərək bayıra çıxarılsın (yəni əgər. bilərəkdən udulsa, oruc batildir), əgər ixtiyarsız olaraq udulsa, oruc səhihdir.

**Məsələ-931.** Oructutan bilərəkdən ixtiyarlı olaraq orucu batil edən işlərdən birini etsə, orucu batil olur. Əgər bilərəkdən olmazsa, məsələn, ayağı sürüşüb suya düşməklə başı suya batsa, yaxud oruc olmağını unudub bir şey yesə və ya zorla boğazına bir şey töksələr, orucu batil deyil. Bu hökmdə vacib, müstəhəb, ramazan və qeyri-ramazan orucları arasında fərq yoxdur.

**Məsələ-932.** Oructutan ikrah nəticəsində, belə ki, başqası onu orucunu batil etməyə məcbur edib iftar etdirsə (məcbur edə ki, özü orucunu sındırsın), məsələn, ona "əgər orucunu açmasan canına,

malına zərər vurulacaq",- desələr və o, bu zərərin qarşısını almaq üçün orucunu açsa, orucu batildir.[1]

**Məsələ-933.** Əgər oructutan səhvən orucu batil edən işlərdən birini etsə və orucu batil olub deyə bilərəkdən yenidən orucu batil edən işlərdən görsə, orucu batil olur.

**Məsələ-934.** Əgər bir şəxs orucu batil edən işlərdən görüb-görməməsində, məsələn, ağzına daxil olan qatı tozu, yaxud suyu udub-udmamasında şəkk etsə, orucu səhihdir.

## Ramazan ayının orucunu bilərəkdən batil etməyin kəffarəsi

**Məsələ-935.** Ramazan ayının orucu bilərəkdən, ixtiyarlı olaraq və heç bir şəri üzrü olmadan batil edilsə (batil edənlərdən birini edə), oruc batil olub və o günün qəzasından əlavə kəffarə də həmin şəxsə vacib olur, istər batil edən zaman kəffarənin vacib olmasını bilsin, istərsə də bilməsin.

**Məsələ-936.** Əgər bir şəxs müəyyən üzrə görə ramazan ayının orucu ona vacib olmamasına ehtimal verib oruc tutmasa, amma sonardan orucun ona vacib olması məlum olsa, qəzadan əlavə kəffarə də vacibdir (çünki orucun vacib olmamasına ehtimal vermək, iftar etmək üçün kifayət etmir). Amma iftar etməsi (oruc tutmaması, yaxud orucunu pozması) orucun ona zərəretmə qorxusuna görə olub mənşəyinin də məntiqli əsası olsa (aqillər arasında bu qorxu normal və düzgün sayıla), bu zaman kəffarə vacib deyil, o günün qəzası isə vacibdir.

**Məsələ-937.** Əgər şəxs şəri hökmü bilmədən orucu batil edən işlərdən birini görsə, məsələn, başı suya salmağın orucu batil etməsini bilmədən başını suya salsa, orucu batildir. Amma kəffarə vacib deyil və təkcə qəza etməlidir.

---

[1] Baxmayaraq ki, bu zaman orucu açmaq günah deyil. Həmçinin agər suda boğulan şəxsi xilas etmək üçün özünü suya atsa və başı suya batsa, orucu batildir, lakin bu iş haram deyil. (Mütərcim)

**Məsələ-938.** Şəxs haram olmasını bildiyi, lakin orucun batil olmasına səbəb olmasını bilmədiyi orucu batil edən bir işi edərsə, orucu batildir. Qəzadan əlavə vacib ehtiyata əsasən, kəffarə də vacib olur.

**Məsələ-939.** Əgər müəyyən səbəbə görə orucu açmaq caiz, yaxud vacib olsa, məsələn, onu orucunu batil etməyə məcbur etsələr, yaxud suda boğulanı xilas etmək üçün özünü suya atsa, bu halda kəffarə vacib deyil, amma gərək qəzası yerinə yetirilsin.

**Məsələ-940.** Oruc tutanın mədəsindən bir şey onun ağız boşluğuna gəlsə, onu uda bilməz. Əgər bilərəkdən udarsa, qəza və kəffarə vacib olur.

**Məsələ-941.** Əgər oructutan etibarlı olmayan şəxsin məğrib olmasını xəbər verməsinə etimad edib iftar etsə və sonradan (iftar etdiyi zaman) məğribin olmaması məlum olsa, həm qəza, həm kəffarə vacibdir.

**Məsələ-942.** Oructutan kişi oruc olan xanımı ilə cinsi yaxınlıq etsə, qadın da bu işə razı olsa, onların hər birinə bilərəkdən orucunu batil edən şəxsin hökmü aiddir və hər ikisinə qəzadan əlavə kəffarə də vacib olur.

## Kəffarənin miqdarı və qaydası

**Məsələ-943.** İslam dinində ramazan ayında bilərəkdən (iftar etməyin) orucu batil etməyin kəffarəsi üç şeydən biridir:

1. Bir qul azad etmək.
2. İki ay (altmış gün) oruc tutmaq.
3. Altmış yoxsula yemək vermək.

Bu dövrdə azad etməyə qul olmadığı üçün mükəlləf gərək digər iki kəffarədən birini yerinə yetirsin.

**Məsələ-944.** Kəffarənin miqdarında orucu halalla və ya haramla batil etməkdə fərq yoxdur, istər yemək yeməklə, istər halal xanımı ilə yaxınlıq etməklə, istərsə də zina, yaxud istimna etməklə orucunu batil etsin (bir kəffarə vacib olur, yəni ya altmış gün oruc tutmalı, ya

da altmış yoxsulu yedirtməlidir). Baxmayaraq ki, haram işlə batil etdikdə cəm kəffarə (hər ikisini) vermək müstəhəbdir, yəni həm altmış gün oruc tutsun, həm də altmış yoxsula yemək versin.

**Məsələ-945.** Əgər bu üç kəffarədən heç biri mümkün olmasa, gərək nə qədər yoxsullara yemək verə bilirsə versin, vacib ehtiyata əsasən, istiğfar da etsin. Amma əgər yoxsula yemək vermək qüdrəti yoxdursa, istiğfar etməsi kifayətdir, yəni ürəkdən və dili ilə desin: “Əstəğfirullah” (yəni Allahdan bağışlanmaq diləyirəm).

**Məsələ-946.** (Kəffarə üçün) oruc tutmaq və yoxsul yedirtməyə qadir olmadığına görə istiğfar edən şəxs sonradan oruc tutmağa, yaxud yoxsula yemək verməyə qadir olarsa, bu işi görmək lazım deyil, baxmayaraq ki, müstəhəb ehtiyatla uyğundur.

**Məsələ-947.** Əgər bir şəxs altmış gün kəffarə orucu tutmaq istəsə, gərək bir ay tam ikinci aydan ən azı bir gün də ona əlavə etməklə ardıcıllıqla oruc tutsun. Qalan günlər ardıcıl olmasa da işkalı yoxdur.

**Məsələ-948.** Altmış gün kəffarə orucu tutmaq istəyən qadın bu arada aylıq adət günlərinə və s. təsadüf edərsə, o günlər sona yetdikdən sonra qalanların tuta bilər və əvvəldən başlaması lazım deyil.

**Məsələ-949.** Yoxsula yemək vermək iki cür ola bilər:

1. Hazır yeməklə onları doyurmaqla.

2. Hər bir yoxsula 750 qram çəkisində (bir müdd) buğda, un, çörək, düyü, yaxud bu kimi ərzaqlar verməklə.

**Məsələ-950.** Əgər bir şəxs (yuxarıdakı məsələdə deyildiyi kimi) kəffarə üçün altmış yoxsula yemək vermək istəsə, altmış yoxsul tapa bildiyi təqdirdə bir-iki nəfərin və ya çoxunun payını bir nəfərə verə bilməz. Altmış nəfərin hər birinə bir pay yemək vermək lazımdır. Amma yoxsul ailənin sayı qədər ailə başçısına (yoxsula) onların paylarını verə bilər ki, onlar üçün məsrəf etsin. Yoxsullarda böyük və kiçik, kişi və qadın arasında fərq yoxdur.

## Kəffarənin hökmləri

**Məsələ-951.** Əgər oructutan bir gündə bir neçə dəfə orucu batil edən işlərdən görsə, təkcə bir kəffarə boynuna gəlir. Lakin bu iş cinsi yaxınlıq və ya istimna olarsa, vacib ehtiyata əsasən, hər bir cinsi yaxınlıq və ya istimna üçün ayrıca kəffarə vacib olur.

**Məsələ-952.** Bilərəkdən orucunu batil edən şəxs, orucunu batil etdikdən sonra səfərə gedərsə, kəffarə boynundan düşmür. Buna əsasən, əgər gecə cünub halında yuxudan oyanıb bilərəkdən sübh azanınadək qüsl, yaxud təyəmmüm etməsə, kəffarə verməmək üçün[1] (gecədən) səfərə getmək qərarına gəlib zöhrdən qabaq səfərə çıxsa, bu iş, yəni gecə səfərə getməyi qərara alıb gündüz səfərə çıxmaq kəffarənin üstündən götürülməsi üçün kifayət etmir.

**Məsələ-953.** Boynuna kəffarə gələn şəxsə onu dərhal yerinə yetirmək vacib deyil, amma o qədər təxirə salmamalıdır ki, vacibi yerinə yetirmək üçün səhlənkarlıq sayılsın.

**Məsələ-954.** Vacib kəffarənin üzərindən bir neçə il ötsə və yerinə yetirilməsə, kəffarəyə bir şey əlavə olmur.

**Məsələ-955.** Orucun kəffarəsində qəza və kəffarə arasında tərtib vacib deyil.

## Ramazan ayının orucunun qəzasını iftar (batil) etməyin kəffarəsi

**Məsələ-956.** Ramazan ayı orucunun qəzasını tutan şəxs zöhrdən sonra onu poza bilməz (caiz deyil) və əgər bilərəkdən batil edərsə, kəffarə vacib olur.

**Məsələ-957.** Ramazan ayı orucunun qəzasını tutan şəxs zöhrdən qabaq onu poza bilər, bu şərtlə ki, qəzanı tutmaq üçün vaxt olsun. Məsələn, əgər beş gün qəzası varsa və ramazan ayına da beş

[1] Hətta zəruri səfər qarşıya çıxsa belə. (Mütərcim)

gündən artıq qalmayıbsa, vacib ehtiyata əsasən, zöhrdən qabaq da poza bilməz. Əgər pozarsa, kəffarə vacib olur.[1]

**Məsələ-958.** Əgər bir şəxs başqası üçün ramazan ayının qəza orucunu tutmağa əcir olsa, zöhrdən sonra bu orucu pozduqda kəffarə vacib olmur.

**Məsələ-959.** Ramazan ayı orucunun qəzasının kəffarəsi budur ki, gərək on nəfər yoxsula yemək versin. Əgər gücü çatmırsa, gərək üç gün (vacib ehtiyata əsasən ardıcıl) oruc tutsun.

## Təxir kəffarəsi

**Məsələ-960.** Əgər bir şəxs üzrlü səbəbə görə ramazan ayının orucunu tutmayıb növbəti ramazan ayınadək üzrsüz və səhlənkarlıq üzündən onun qəzasını yerinə yetirməsə, gərək dərhal orucu qəza edib hər gün üçün təxir kəffarəsi versin. Amma ramazan ayının oruc qəzasını oruc tutmağa mane olan üzrün (məsələn, səfərin) uzanmasına görə tuta bilməyib gələn ramazan ayınadək təxirə salsa, bu zaman təkcə qəzasını tutmaq kifayətdir. Kəffarə vermək vacib deyil, baxmayaraq ki, (müstəhəb) ehtiyatla müvafiqdir. Xatırladırıq ki, bu üzr xəstəlik olarsa, onun xüsusi hökmü var və deyiləcək.[2]

**Məsələ-961.** Gələn ramazan ayınadək tutulmayan ramazan ayının qəza orucunun kəffarəsi məsələni bilməməyə görə boyundan düşmür. Buna əsasən, əgər bir şəxs bilməsə ki, bu ilin ramazan orucunun qəzasını növbəti ramazan ayınadək yerinə yetirməyin vacib olduğunu bilməyib təxirə salsa, gərək təxirə saldığı hər günə bir kəffarə versin.

**Məsələ-962.** Ramazan ayının oruc qəzasının təxir kəffarəsi (hərçənd bir ildən də artıq təxirə salınsa belə), bir dəfə vacib olur və illər

---

[1] Ramazan ayına qədər tutmadıqları orucların təxir kəffarəsi var ki, 960 və sonrakı məsələlərdə gəlib. (Mütərcim)
[2] Məsələ 969

ötdükcə ona əlavə olmur. Buna əsasən, əgər bir neçə il təxirə salarsa, gərək qəza etsin və hər günə görə bir kəffarə versin.

**Məsələ-963.** Təxir kəffarəsi bir müdd (750 qram) təamdır (yemək) ki, yoxsula verilməlidir.

**Məsələ-964.** Hər günə görə bir müdd təam təxir kəffarəsi vacib olan şəxs, bir neçə günün kəffarəsini eyni yoxsula verə bilər.

## Fidyə[1] və onun vacibolma yerləri

**Məsələ-965.** Aşağıdakı yerlərdə gərək fidyə verilsin:

1. Oruc tutmaq məşəqqətli və çətin olan qoca kişi və qoca qadın;
2. "İstisqa" xəstəliyinə düçar olan şəxs, yəni teşnə və susuzluq xəstəliyinə düçar olanlar, belə ki, oruc tutmaq onlar üçün məşəqqətli olsun;
3. Doğumu yaxın olan hamilə qadınlar, əgər oruc uşağa zərər edirsə;
4. Südverən qadınların südü az olduqda, əgər oruc tutmaq körpəyə zərər edərsə;

5. Xəstə şəxslərə əgər oruc tutmaq zərər edərsə və xəstəlikləri növbəti Ramazan ayınadək davam edərsə.

**Məsələ-966.** Əgər hamilə qadın orucun uşağa zərər etməyindən qorxsa və onun bu qorxusunun üqəlayi (aqillər arasında qəbul edilmiş və normal) mənşəyi olsa, (oruc tutmamalıdır və əgər oruclursa) gərək orucunu iftar etsin (pozsun), hər bir gün üçün fidyə ödəyib həmin günlərin qəzasını da tutsun.

**Məsələ-967.** Əgər südverən qadın oruc tutmaq nəticəsində südünün azalması, yaxud quruması körpəsinə zərər etməsindən qorxsa

---

[1] Üzürlü səbəbə görə tutulmayan orucun yerinə ödənilən əvəzə fidyə deyilir. Xəstəliyi növbəti ramazan ayınadək davam etməsi nəticəsində orucunun qəzasını tuta bilməyən xəstələrin yoxsula verdikləri təam kimi. Həmçinin bəzi hallarda qəzadan əlavə olaraq ödənilməsi vacib olan təam da fidyə adlanır, körpəyə süd verən ananın orucunun qəzasından əlavə yoxsula verməsi vacib olan təam kimi. Xatırladaq ki, bu yalnız üzrlü səbəblərə görə orucunu tutmayan şəxslərə aiddir. Amma üzrü olmadan orucunu qəzaya verən şəxslərə vacib olan xüsusi kəffarələrə fidyə deyilməz. (Mütərcim)

(oruc tutmamalıdır və əgər oruсdursa), gərək orucunu iftar edib (pozsun), hər bir gün üçün fidyə ödəsin. Həmin günlərin qəzasını da tutsun.

**Məsələ-968.** Xəstəliyə görə ramazan ayı orucunu tutmayan xəstənin xəstəliyi növbəti ramazan ayınadək davam edərsə, tutmadığı orucların qəzası vacib deyil, təkcə hər bir gün üçün fidyə verməlidir.

**Məsələ-969.** Xəstəlik üzündən ramazan ayı orucunu tuta bilməyən qadının xəstəliyi növbəti ramazan ayınadək davam etdiyinə görə qəzasını tutmadığı orucların fidyəsi onun özünə vacibdir və ərinin boynuna bir şey vacib olmur.

**Məsələ-970.** İki il ardıcıl şəri üzrə görə oruc tuta bilməyən qadının üzrü bətnindəki uşağa, yaxud körpəsinə zərər etmək qorxusu olubsa, qəzadan əlavə hər gün üçün fidyə də ödəməlidir. Əgər bu orucların qəzasını növbəti ramazan ayınadək şəri üzrü olmadan təxirə salıbsa, qəza və fidyədən əlavə təxir kəffarəsi də verməlidir. Amma onun üzrü özünə olan zərər olubsa və zərərə görə növbəti ramazan ayınadək orucun qəzalarını tutmağa qadir olmayıbsa, (qəzası yoxdur və) təkcə fidyə ödəməlidir.

**Məsələ-971.** Fidyənin miqdarı təxir kəffarəsi, yəni bir müdd təam miqdarındadır. Bu təam yoxsula verilməlidir.

**Məsələ-972.** Əgər bir şəxs müəyyən gündə oruc tutmağı nəzir edib bilərəkdən o gün oruc tutmasa, yaxud orucunu sındırsa, gərək kəffarə versin.[1]

**Məsələ-973.** Nəzirin kəffarəsi "qəsəm" (and içmək) kəffarəsidir ki, öz yerində bəyan ediləcək.

---

[1] Bu kəffarə orucu pozmağa yox, nəziri sındırmağa görədir. Bunun miqdarı nəzir bölməsində gələcək. (Mütərcim)

## Təkcə orucun qəzası vacib olan yerlər (kəffarə vacib olmadan)

**Məsələ-974.** Bir şəxs ramazan ayında oruc niyyəti etməsə, yaxud riya ilə orucunu batil etsə, lakin orucu batil edən işlərdən heç birini yerinə yetirməsə (məsələn, yeyib içməsə və s.), o günün qəzası vacibdir, amma kəffarəsi yoxdur.

**Məsələ-975.** Əgər bir şəxs ramazan ayında cənabət qüslünü unudub o halda bir və ya bir neçə gün oruc tutsa, təkcə həmin günlərin qəzası vacib olur.

**Məsələ-976.** Əgər ramazan ayının səhərində sübhün olub-olmamağında axtarış etmədən orucu batil edən işləri görsə (məsələn, yemək yesə), həmin vaxt sübh olmağı məlum olsa, gərək (yalnız) o günün qəzasını tutsun. Amma araşdırdıqdan sonra məlum olsa ki, hələ sübh olmayıb və (məsələn) bir şey yesə, sonra həmin vaxt sübh olmağı məlum olsa, o günün qəzası vacib deyil.

**Məsələ-977.** Əgər ramazan ayında havanın qaranlığına görə məğrib olmağına yəqin etsə və ya şəri cəhətdən sözü höccət olan (etibarlı olan) şəxsin məğrib olmasın haqda verdiyi xəbərə görə iftar etsə, sonradan həmin vaxt hələ məğrib olmaması məlum olsa, gərək o günün qəzasını tutsun (kəffarəsi yoxdur).

**Məsələ-978.** Əgər üfüqdə bulud olmağa görə məğrib olmağını güman edib iftar edərsə, sonradan həmin vaxt məğrib olmaması məlum olsa, o günün qəzası vacib deyil.

**Məsələ-979.** Ramazan ayının səhərində fəcrin tülu etməsinə (sübh azanı vaxtının daxil olmasına) yəqin etməyənə qədər, orucu batil edən işlərdən edə bilər, məsələn, yeyib-içə bilər. Amma sonradan o zaman sübh olmağı məlum olsa, onun hökmü 976-cı məsələdə bəyan edilib.

**Məsələ-980.** Ramazan ayının günü məğribin yetişməsinə yəqin etməyənə qədər iftar edilə bilməz, (yəni orucu batil edən işlərdən görə bilməz və) əgər məğribin olmasına yəqin edərək iftar edərsə,

sonradan o zaman məğrib olmaması məlum olarsa, bunun hökmü 977 və 978-ci məsələlərdə bəyan olunub.

**Məsələ-981.** Əgər oructutan dəstəmaz zamanı suyu ağıza alıb məzməzə etmək müstəhəb olduğu üçün bu işi etsə və ixtiyarsız olaraq suyu udsa (su hülqumundan içəri gedə), orucu batil olmur, qəzası da vacib deyil. Amma bu işi dəstəmaz üçün deyil, sərinləşmək və s. üçün edərsə və su ixtiyarsız olaraq daxilə gedərsə, gərək o günün qəzasını tutsun.

## Orucun qəzasının hökmləri

**Məsələ-982.** Əgər bir şəxs bir neçə gün huşsuz, koma halında olub vacib orucları əldən versə, o günlərin qəzası vacib deyil.

**Məsələ-983.** Əgər bir şəxs məst olmaq nəticəsində orucu əldən versə, məsələn, məst olduğu üçün niyyət etməyib bütün günü orucu batil edən bir iş etməsə belə, o günün qəzası vacibdir.

**Məsələ-984.** Əgər bir şəxs oruc niyyəti etdikdən sonra məst olub bütün günü, yaxud günün bir hissəsini məst halda keçirsə, xüsusilə ağılı aradan aparan şiddətli məstlik halında olarsa (vacib) ehtiyata əsasən, gərək o günü qəza etsin.

**Məsələ-985.** Aylıq adəti, yaxud doğuş səbəbiylə (heyz və nifas səbəbinə) oruc tutmayan qadınlar, gərək ramazan ayından sonra onları qəza etsinlər.

**Məsələ-986.** Bir şəxs üzrlü səbəbə görə bir neçə gün ramazan ayının orucunu tutmayıb həmin günlərin sayını da bilməsə, (məsələn, bilməyə ki, beş gün tutmayıb, yoxsa altı gün, beş gün tutsa, kifayət edər, yaxud) məsələn, bilmir ki, ramazanın iyirmi beşi səfərə gedib beş gün qəzası var, yoxsa iyirmi altısı səfərə gedib dörd gün qəzası var, az miqdarı (dörd gün) tutarsa, kifayət edər. Amma səfərə getdiyi günü, məsələn, ramazan ayının beşi səfərə getməyini bilsə, onuncu gecəsi (bu zaman beş gün qəzası olacaq), yoxsa on birinci gecəsi qayıtmağını bilməsə, (bu zaman altı gün qəzası olacaq) vacib ehtiyata əsasən, çox miqdarı (misalda altı gün) qəza etməlidir.

**Məsələ-987.** Şəxsin bir neçə ramazan ayından qəzası olsa, hansını qabağa salsa, eybi yoxdur. Amma axırıncı ramazan ayının vaxtı dar olsa, məsələn, axırıncı ramazan ayından beş gün qəzası var, növbəti ramazan ayının yetişməsinə də beş gün qalsa, bu zaman (vacib) ehtiyata əsasən, axırıncı ramazan ayının oruclarını qəza etməlidir.

**Məsələ-988.** Ramazan ayı orucunun qəzasını yerinə yetirən şəxs zöhrdən qabaq iftar edə bilər (orucunu poza bilər), bu şərtlə ki, qəza etmək üçün kifayət qədər vaxt olsun. Zöhrdən sonra iftar etmək isə caiz deyil.

**Məsələ-989.** Əgər bir şəxs xəstəlik üzündən ramazan ayının orucunu tutmasa və onun xəstəliyi növbəti ramazana qədər uzansa, tutmadıqları orucların qəzası vacib deyil. Amma (həmin şəxs, yəni xəstəlik səbəbinə oruc tuta bilməyən şəxs, xəstəliyin uzanmasına xatir deyil) başqa bir üzrə görə (məsələn, səfərdə olduğu üçün) növbəti ramazanadək qəzaları tuta bilməsə, onları qəza etmək vacibdir. Həmçinin əgər kimsə xəstəlik üzündən deyil, başqa bir səbəbə görə, məsələn, səfərdə olduğu üçün oruclarını qəzaya versə və onun üzrü növbəti ramazanadək uzansa, qəzaya verdiyi orucları qəza etməsi vacibdir.

**Məsələ-990.** Zəifliyə və acizliyə görə oruc tuta bilməmək qəzanın götürülməsinə səbəb olmur. Buna əsasən, (təzə) həddi-büluğa çatmış qız uşaqları cismi zəifliyə görə tuta bilmədikləri orucları hətta növbəti ramazanadək tuta bilməsələr belə, qəza etmələri vacibdir. Həmçinin bir neçə il oruc tutmayan şəxs sonradan gərək tutmadıqları bütün orucları qəza etsin. Hal-hazırda tutmağa qadir olmasa da onun boynundan götürülmür.

## Ata-ananın oruclarının qəzası

**Məsələ-991.** Əgər ata, həmçinin vacib ehtiyata əsasən, ana səfərdən başqa üzrə görə orucunu tutmayıb qəza edə bildiyi halda qəza etməsələr, böyük oğula vacibdir ki, onlar dünyadan getdikdən sonra o orucların qəzasını yerinə yetirsin. Ya özü tutsun, ya icarə ilə

başqasına tutdursun. Amma qəzaları səfərdə olduqları üçün olubsa, hətta ata-anasının qəza etməyə imkanları, yaxud fürsətləri olmasa belə onları qəza etməsi vacibdir.

**Məsələ-992.** Ata-ananın bilərəkdən (yəni üzrsüz) qəzaya verdikləri orucların qəzası da vacib ehtiyata əsasən, böyük oğulun boynuna gəlir. Ya özü tutmalı, ya əcir vasitəsilə tutdurmalıdır.

**Məsələ-993.** Ata-ananın namaz və oruclarının qəzası arasında heç bir fərq yoxdur, belə ki, (böyük oğlu) hər birini qabağa sala bilər.

## Müsafir orucunun hökmləri

**Məsələ-994.** Ramazan ayında səfərə gedən şəxs namazlarını qəsr qılacağı yerlərdə oruc tutmamalıdır. On gün bir yerdə qalmaq məqsədi olan müsafir və ya işi səfər olan müsafir kimi dördrəkətli namazlarını tam qılmalı olduğu yerdə oruc da tutmalıdır (Əlbəttə bəzi yerlər müstəsnadır).

**Məsələ-995.** Oructutan şəxs zöhrdən sonra səfərə çıxarsa, gərək orucunu tamamlasın. Amma zöhrdən qabaq səfərə çıxarsa, orucu batildir, tərəxxüs həddinə çatmadan orucunu iftar edə bilməz. Əgər tərəxxüs həddinə çatmadan iftar edərsə, vacib ehtiyata əsasən, (bilərəkdən orucu batil etmək) kəffarəsi boynuna gəlir. Əlbəttə, əgər məsələni bilmədən olsa, kəffarə yoxdur.

**Məsələ-996.** Müsafir zöhrdən qabaq vətəninə daxil olsa, yaxud on gün qalmaq niyyəti olan yerə yetişsə, əgər orucu batil edən işlərdən etməyibsə, oruc niyyəti edib oruc tutması vacibdir. Amma orucu batil edən iş görübsə, o günü sonradan qəza etməlidir. Əgər zöhrdən sonra yetişərsə, oruc tuta bilməz (və sonra gərək qəza etsin).

**Məsələ-997.** Ramazan ayında səfərə getmək hərçənd orucdan qaçmaq məqsədiylə olsa belə caizdir. Əlbəttə, yaxşıdır ki, yaxşı və zəruri işlərdən başqa işlər üçün səfər edilməsin.

**Məsələ-998.** Məscidül-həramda etikaf etmək istəyən müsafir əgər Məkkədə on gün qalmaq qərarına gəlsə, yaxud səfərdə oruc

tutmağı nəzir etmiş olsa, (etikafa daxil olub) iki gün oruc tutduqdan sonra etikafını üçüncü günün orucu ilə tamamlamaq ona vacib olacaq. Amma on gün qalmaq məqsədi yoxdursa və səfərdə oruc tutmağı nəzir etməyibsə, səfərdə orucu səhih deyil. Oruc səhih olmadığı üçün etikaf da səhih olmayacaq.

## Ayın əvvəlinin sübutayetmə yolları

**Məsələ-999.** Ayın əvvəli beş şeylə sübuta yetir:

1. Mükəlləf özü (ayın çıxmasını) görməklə;
2. İki adil şəxsin şəhadətiylə;
3. Elm və yəqin gətirən məşhurluqla;
4. Otuz gün keçməklə;
5. Hakimin hökmü ilə.

**Məsələ-1000.** Gündüz hilalı görmək ay görünəndən sonra olan gecə üçün kifayətdir.[1]

**Məsələ-1001.** Aparatla (məsələn, teleskopla) ayı görməyin adi gözlə görməklə fərqi yoxdur. Meyar ayı görməkdir (hər hansı yolla olursa olsun). Buna əsasən, adi gözlə, eynəklə və teleskopla görməyin hökmü birdir. Amma kompüterlə hilalın şəklini göstərmək (çəkmək) görmək sayılmadığı üçün (ayın əvvəlini sübut etmək üçün) işkallıdır.

**Məsələ-1002.** "İstihlal" (ayı görmək) öz-özlüyündə vacib deyil.

**Məsələ-1003.** Ayın kiçik və aşağıda, böyük və yuxarıda, yaxud nazik ya qalın olması və s. ayın biri, ikisi olmaq üçün şəri dəlil deyil. Amma mükəlləfə onun vasitəsilə yəqin hasil olarsa, gərək öz yəqininə əməl etsin.

---

[1] Yəni istər ay, günəş qürub edəndən qabaq, istər günəş qürub etməklə yanaşı, istərsə də günəş qürub edəndən sonra görünsə, hər üç halda hilal görünəndən sonra gələn gecə üçün kifayət edir və o gecənin sabahı ayın əvvəli olur. (Mütərcim)

**Məsələ-1004.** Ayın əvvəli təqvim və münəccimlərin elmi hesablamaları ilə sübut edilmir. Əlbəttə, əgər onların dediyindən yəqin hasil olarsa, yəqinə əməl olunmalıdır.

**Məsələ-1005.** Əgər bir şəhərdə ayın əvvəli sübuta yetsə, o şəhərlə üfüqü bir olan şəhərlər üçün də kifayət edir.

**Məsələ-1006.** Üfüqlərin bir olmasında məqsəd budur ki, ayın görünmə ehtimalının olub-olmaması baxımından birdir.

**Məsələ-1007.** Nə qədər ki, hakim ayın görünməsinə hökm etməyib, ayın onun yanında sübuta yetməsi başqaları üçün kifayət etmir. Əgər başqaları (hakim üçün ayın görünməsinin sübuta yetməsindən) ayın görünməsinə xatircəm olarsa, kifayət edər.

**Məsələ-1008.** Əgər bir şəxs hilalı görə və bilə ki, ayın görünməsi şəri hakim üçün hər hansı bir səbəbə əsasən mümkün deyil, ayın görünməsini şəri hakimə deməyi lazım deyil. Bu şərtlə ki, onun xəbər verməməsinin müəyyən bir fəsadı olmasın.

**Məsələ-1009.** Əgər hakim sabahın bayram olmasına hökm edib bu ölkənin hamısına aid olsa, onun hökmü (ölkənin) bütün şəhərləri üçün etibarlıdır.

**Məsələ-1010.** Hökumət tərəfindən ayın görünməsini elan etməkdə o hökumətin İslam hökuməti olub-olmaması şərt deyil. Bu barədə meyar ayın məntəqədə görünməsinə xatircəmlik tapmaqdır.

**Məsələ-1011.** Hilal bir şəhərdə görünməsə, lakin radio və televiziya vasitəsilə ayın görünməsi elan olunsa, əgər bu elandan ayın görünməsinə xatircəmlik hasil olarsa və ya vəliyyi-fəqihin ayın görünməsinə dair hökmünü elan etsələr, kifayətdir və ayın əvvəli sübuta yetir.

**Məsələ-1012.** Əgər ayın əvvəli hətta o məntəqə ilə vahid üfüqü olan qonşu şəhərlərin üfüqündə də görünməsi, iki adil şəxsin şəhadət verməsi, yaxud da hakimin hökmü ilə sübuta yetməzsə, gərək ayın əvvəli sübuta yetənə qədər ehtiyat edilsin.

**Məsələ-1013.** Əgər ramazan ayının əvvəli sübuta yetməzsə, oruc vacib deyil.[1] Amma sonra məlum olsa ki, oruc tutmadığı gün ayın əvvəli olub, gərək o günü qəza etsin.

**Məsələ-1014.** Ramazanın axırı və şəvvalın əvvəlində şəkk etdiyi gün (yəni bilmir ki, ramazan ayının axırıdır, yoxsa şəvval ayının əvvəli və bayram günüdür) gərək oruc tutsun. Əgər gün əsnasında məlum olsa ki, bayramdır, hərçənd məğribə yaxın olsa belə gərək iftar etsin.

## Orucun müxtəlif məsələləri

**Məsələ-1015.** Mübarək ramazan ayının gecələrində Quran tilavət etmək, dua oxumaq, dini mərasimlərdə iştirak etmək məqsədiylə camaatın əksəriyyətinin oyaq olduqları məntəqələrdə onların eşitməsi üçün bu ayların səhərlərində xüsusi proqramların mikrafonla yayımlanmasının işkalı yoxdur. Amma məscidin qonşularının əziyyətinə səbəb olarsa, caiz deyil.

**Məsələ-1016.** Ramazan ayının günlərinin dualarını (birinci gün, ikinci gün və s. günlərin dualarını) savab məqsadiylə oxumağın işkalı yoxdur.

**Məsələ-1017.** Müstəhəb oruc tutan şəxsə onu sona çatdırmaq vacib deyil və istədiyi vaxt orucunu batil edə bilər. Hətta mömin bir qardaşı onu yemək yeməyə dəvət edərsə, onun dəvətini qəbul edib orucunu sındırmaq müstəhəbdir. Mömin qardaşın bu dəvətini qəbul etmək orucun batil olmasına səbəb olmasına baxmayaraq, həmin şəxs orucun əcr və savabından məhrum olmur.

**Məsələ-1018.** Əgər oructutan şəxs bir məntəqədə (iftar vaxtı) iftar edib sonra günəşin qürub etmədiyi elə bir yerə səfər edərsə, onun orucu səhihdir. Öz məntəqəsində məğrib zamanı iftar etdiyi üçün o yerdə də bir şey yemək (və orucu batil edən işləri görmək) caizdir.

**Məsələ-1019.** Bir şəxs ramazan ayının iyirmi yeddisinədək öz yerində oruc tutub ayın iyirmi səkkizində öz şəhəri ilə üfüqü eyni olan

---

[1] Ramazan ayı niyyətiylə oruc tutmaq da caiz deyil. (Mütərcim)

şəhərə getsə, iyirmi doqquzu o yerə yetişsə və həmin məntəqədə bayram elan olunması məlum olsa, əgər iyirmi doqquzuncu günün o məkanda bayram elan edilməsi şəri yollarla olarsa, günün qəzası ona vacib olmur. Bunun mənası budur ki, o bir gün ramazanın əvvəlindən oruc tutmayıb. [1] Ona görə də tutmadığına yəqin etdiyi günün qəzasını tutmalıdır.

## Fitrə zəkatının hökmləri

**Məsələ-1020.** Ata fitrə vermədikdə onun həyat yoldaşı və övladlarına bir şey vacib deyil, fitrə vermələri lazım deyil.

**Məsələ-1021.** Qadın ərinin yeməkyeyəni hesab olunduqda, imkanı olduğu təqdirdə ərə onun fitrə zəkatını vermək vacibdir. Amma ərinin, yaxud başqasının yeməkyeyəni hesab olunmasa,[2] gərək özü öz fitrə zəkatını versin.[3]

**Məsələ-1022.** Ərinin cinsi tələblərindən boyun qaçıran qadının fitrə zəkatı da ərinin boynundadır və ödəməsi vacibdir. Əlbəttə, başqasının yeməkyeyəni olduqda ərə vacib olmayacaq.

**Məsələ-1023.** Yalnız fitr bayramı gecəsi qonaq olan qonağın fitrə zəkatı ev sahibinin öhdəsində deyil.

**Məsələ-1024.** Fitrə zəkatı ev sahibinə vacib olan qonaq ev sahibinin razılığı ilə öz fitrə zəkatını verərsə, onun zəkatı ev sahibinin öhdəsindən düşür.

**Məsələ-1025.** Yoxsul olan və maddi imkanı olmayan şəxslərə fitrə zəkatı vacib deyil. Əgər belə bir şəxsin 3 kq buğda və bu kimi imkanı və ya bu miqdarın pulu varsa, onu fitrə zəkatı niyyətiylə verməsi müstəhəbdir. Həmçinin ailə sahibi olduqda onu fitrə zəkatı niyyətiylə

---

[1] Əlbəttə mümkündür ki, bu şəxs ramazanın əvvəlinci gününü ramazan olduğunu bilmədiyi üçün qəza niyyətinə, yaxud şəban ayı niyyətinə oruc tutmuş olsun. Bu təqdirdə o oruc ramazan orucu sayılır və qəzası yoxdur. (Mütərcim)

[2] Məsələn, hazırda əri ilə yaşamır və heç kimin də qonağı deyil. (Mütərcim)

[3] Əlbəttə, əgər zəkatın vacibolma şərtlərinə malik olarsa. (Mütərcim)

ailənin nəfərləri arasında əlbəəl gəzdirsinlər. Sonuncu şəxsin onu özlərindən olmayan bir fəqirə verməsi daha yaxşıdır.

**Məsələ-1026.** Fitrə zəkatını buğda, arpa, xurma, düyü və bu kimi şeylərdən vermək olar, əksər hallarda istifadə edilən ərzağa xas deyil.

**Məsələ-1027.** İnsan gərək özü və onun yeməkyeyəni hesab olunan hər bir şəxs üçün (buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı və bu kimi) camaatın yediklərindən sayılan üç kiloqram ərzaq, yaxud onun pulunu ehtiyaclı fəqirə versin.

**Məsələ-1028.** Fitrə zəkatını ayırdıqdan sonra onun özü fəqirə verilməlidir, istifadə edilib əvəzi verilə bilməz.

**Məsələ-1029.** Şəvval ayının hilalının görünməsi sübuta yetdikdən sonra fitrə zəkatı ayrıla bilər. Fitr bayramının namazı qılınsa, vacib ehtiyata əsasən, gərək namazdan öncə ödənsin, yaxud ayrılsın. Amma şəxs fitr bayramı namazını qılmırsa, bayram gününün zöhrünədək möhləti var.

**Məsələ-1030.** Ramazan ayından öncə fitrəni fəqirə vermək kifayət etmir. Amma o miqdarı əvvəlcədən fəqirə borc verib, sonra fitr bayramı günü onu fitrə hesab edə bilər.

**Məsələ-1031.** Əgər öz məhəlləsində və şəhərində ehtiyaclı şəxs tapılmasa, fitrə zəkatı başqa bir şəhərə aparıla bilər.

## Fitrə zəkatının xərclənməsi

**Məsələ-1032.** Fitrə zəkatı verilən şəxsin ədalətli olması şərt deyil. Amma ehtiyata əsasən aşkar şəkildə böyük günah edən şəxslərə zəkat verilməməlidir.

**Məsələ-1033.** Ata-ana fəqir övladlarının xərcini verməlidir. Buna əsasən, onların yaşayış xərci üçün fitrə zəkatından verə bilməzlər. Amma onların borcuna və onların valideynə vacib olmayan ehtiyacları üçün fitrə zəkatından verə bilərlər.

**Məsələ-1034.** Fitrə zəkatını hədiyyə adı ilə də vermək olar və verdiyi şəxsə onun fitrə zəkatı olduğunu bildirmək lazım deyil. Amma hər halda onu verdikdə fitrə zəkatı niyyəti edilməlidir.

**Məsələ-1035.** Qeyri-seyid seyidə fitrə zəkatı verə bilməz.

**Məsələ-1036.** Fitrə zəkatını dini maariflərin yayılması yolunda xərcləməyin işkalı yoxdur, amma fəqirə verilməsi daha yaxşıdır.

**Məsələ-1037.** Fitrə zəkatını ödəməkdə meyar ailə başçısıdır (yəni fitrəni ödəyən şəxs). Buna əsasən, əgər ailə başçısı seyid olmasa, hətta onun ailə üzvləri (məsələn, xanımı, ya qonağı) seyid olsa belə, ailə üzvlərinin fitrə zəkatını seyidə verə bilməz.

**Məsələ-1038.** Fəqir şəxsə fitrə zəkatı vacib deyil. Fitrə zəkatını ona vermək olar. Fəqirə fitrə zəkatı verdikdən sonra fəqir olmaması məlum olsa, bu halda əgər ona verilən mal (ərzaq və ya onun pulu) aradan getməyibsə, geri alıb fəqirə verə bilər. Əgər geri almaq mümkün olmazsa, gərək yenidən fitrə zəkatını ödəsin.

## Etikafın hökmləri

**Məsələ-1039.** Lüğətdə bir yerdə dayanmağa «etikaf» deyilir. Fiqhi terminalogiyada bu söz «məsciddə ibadət etmək niyyətilə qalmaq» deməkdir.

**Məsələ-1040.** Etkafın xüsusi vaxtı yoxdur, hərçənd mübarək ramazan ayının son on günündə daha çox fəziləti var.

**Məsələ-1041.** Etikaf edən şəxs etikafın əvvəlində üzr qarşıya çıxdıqda, hətta üçüncü günü etikafı saxlamağı niyyət edə bilər.

**Məsələ-1042.** Etikaf birinci günün əvvəlindən üçüncü günün sonunadək olmalıdır. Birinci günün bir hissəsiylə sonuncu günün bir hissəsini birləşdirib üç kamil gün hesablamaq səhih deyil.[1]

---

[1] Etikaf birinci günün sübh azanından başlamalı, üçüncü günün məğrib azanında bitməlidir. Birinci günün azanından qabaq məsciddə olmaq lazımdır. Buna görə birinci günün,

**Məsələ-1043.** Etikafı günün əvvəlindən başlamaq lazımdır. Təxirlə başladığı gün etikafın hissəsindən sayılmır, hətta bu təxir üzrlü səbəbə görə olsa belə.

**Məsələ-1044.** Əgər insan iki gün etikaf etməyi nəzir etsə, onun nəziri səhih deyil (başqa sözlə üç gündən az etikaf etməyi nəzir etmək düzgün deyil və nəzir doğru olmur).

**Məsələ-1045.** Üç gündən artıq etikaf etmək caiz və səhihdir. Üç gündən çox miqdarın müəyyən bir həddi yoxdur. Amma günün bir hissəsiylə gecənin bir hissəsini birləşdirməklə etikaf niyyəti etmək işkallıdır.

**Məsələ-1046.** Etikafda dörd gün niyyət etdikdə dördüncü gün də etikafdan sayılır. Beş gün etikaf etdikdə altıncı günü də etikaf etmək vacibdir.[1]

## Etikaf və etikaf edən şəxsin şərtləri

**Məsələ-1047.** Etikafda hər bir orucu tutmaq olar. Amma oruc ona zərər edən şəxs etikaf edə bilməz.

**Məsələ-1048.** Etikaf kişilərə xas deyil, amma qadının etikaf etməsi kişinin haqqının aradan getməsinə səbəb olarsa, vacib ehtiyata görə gərək ərindən icazə alsın.

**Məsələ-1049.** Müməyyiz (yaxşı və pisi anlayıb ayıran) uşağın etikafı səhihdir.

**Məsələ-1050.** Müstəhəb ibadətlər öz-özlüyündə etikaf edən şəxsə vacib deyil.

---

məsələn, günçıxan vaxtından başlayıb, onun çatışmazlığını dördüncü günün gecəsiylə kamilləşdirə bilməz. (Mütərcim)

[1] Yəni hər iki gün etikaf etdikdən sonra üçüncü günü də etikaf etmək vacib olacaq və məsələdə göstərilən rəqəm misal kimidir. (Mütərcim)

## Etikafın niyyəti

**Məsələ-1051.** Etikafın niyyətinin vaxtı birinci günün fəcrinin doğması zamanıdır (sübh azanı zamanı). Gecənin əvvəlində niyyət etmək o zaman səhih olacaq ki, niyyət zamanından etikafa başlansın.

**Məsələ-1052.** Müstəhəb etikafda, birinci və ikinci gün etikafı poza bilər. Amma ikinci gün etikafa davam etdikdə üçüncü günü də etikaf etmək vacibdir.

## Etikafın məkanı

**Məsələ-1053.** Müəyyən bir şəhərdə etikaf etməyi nəzir edərsə, həmin şəhərdə etikaf etməyin müəyyən üstünlüyü varsa, işkalı yoxdur.

**Məsələ-1054.** Məscidül-həram, Məscidün-nəbi, Kufə məscidi və Bəsrə məscidindən[1] başqa məscidlərdə istər cami məscidi olsun, istərsə də olmasın, savab və Allahın istədiyi əməl ümidi niyyətiylə etikaf etmək olar.

**Məsələ-1055.** Hər bir məsciddə etikaf etmək olar. Bu, cami məscidinə xas deyil, bir şərtlə ki, rəca məqsədi və niyyətiylə olsun. Yəni bu iş Allahın istədiyi əməl olduğu ümidi ilə yerinə yetirilsin. Bir şəhər, yaxud kənddə bir neçə cami məscid olması da mümkündür.

**Məsələ-1056.** Bir şəhərdə iki və daha çox cami məscidi olduqda yuxarıda qeyd olunan niyyətlə hər birində etikaf etmək olar.

**Məsələ-1057.** Cami məscidi o məsciddir ki, ümumi camaatın namaz qılmağı məqsədiylə tikilib və xüsusi bir məhəlləyə aid deyil.

**Məsələ-1058.** Universitetlərin məscidlərində savab ümidi niyyətiylə etikaf etmək işkalsızdır.

---

[1] Etikaf bu dörd məsciddə səhihdir və başqa məscidlərdə deyildiyi kimi Allahın istədiyi əməl ümidi niyyətiylə etikaf etmək lazımdır. (Mütərcim)

**Məsələ-1059.** Məscidin mehrab, zirzəmi və damından başqa yerlərinin məscid hökmündə olması məlum olmadıqda orada etikaf səhih deyil.

**Məsələ-1060.** Məscidin damı, nə qədər ki, vəqf zamanı onun vəqfdən xaric olması məlum deyil, məscid hökmündədir.

**Məsələ-1061.** Məscidin həyəti məscidin hissəsindən olmadıqda, orada etikaf səhih deyil.

**Məsələ-1062.** Əgər etikaf edən şəxs başqa bir etikaf edənin məsciddə yerini qəsb etsə, baxmayaraq ki, ehtiyata əsasən düz iş görməyib, etikafı səhihdir və kəffarəsi də yoxdur.

**Məsələ-1063.** Etikaf etdiyi məsciddə onu davam etməyə maneə yaranarsa, etikaf batildir. Bu etikaf ona vacib olduqda başqa bir məsciddə, yaxud o məsciddə maneə aradan getdikdən sonra yenidən etikafa başlamalı, yaxud qəza etməlidir.

## Etikaf edən şəxsin məsciddən xaric olması

**Məsələ-1064.** Məscidin xaricində və ona aid olan ayaqyoluna getməyin işkal yoxdur, amma gərək ehtiyacdan artıq bayırda qalmasın.

**Məsələ-1065.** Məscidin daxilində su olduqda etikaf edən şəxs dəstəmaz üçün məsciddən bayıra çıxa bilməz.

**Məsələ-1066.** Məsciddə xörək yeməyin öz-özlüyündə işkalı yoxdur.

**Məsələ-1067.** Əgər xalq arasında yemək üçün məsciddən bayıra çıxmaq zəruri hal sayılırsa, çıxmağın işkalı yoxdur, lakin yubanmamalıdır. Amma belə bir şey xalq arasında zəruri hal hesab olunmazsa, məsciddən xaric ola bilməz.

**Məsələ-1068.** Vacib ehtiyat budur ki, zəruri işlər üçün məsciddən xaric olduqda ən qısa yolu seçsin. Vacibdir ki, imkan daxilində kölgə

altında oturmasın, amma kölgə altında yol getməyin işkalı yoxdur, baxmayaraq ki, müstəhəb ehtiyat onu tərk etməkdir.

**Məsələ-1069.** Əgər qısa yol vaxtın çox getməsinə, nisbətən uzaq yol isə az sərf olunmasına səbəb olarsa, bu halda ikinci yolu seçmək işkalsızdır. Məsələn, dəstəmaz almaq üçün yaxında olan dəstəmazxanaya gedərsə, camaatın çoxluğuna görə çox vaxt çəkəcək. Məscidin həyətində hovuz var ki, nisbi olaraq dəstəmazxanadan uzaqdır, amma orada tez bir zamanda dəstəmaz ala bilər. Belə olduqda hovuz olan məkana gedə bilər.

**Məsələ-1070.** Əgər etikaf edən şəxs bilmədən və unutmaq üzündən məsciddən (etikafda icazə verilən yerlərdən başqa bir yerə) çıxsa, məsciddən bayırda qalmaq müddəti çox çəkmədikdə, etikafı batil olmur.

## Etikafda haramlar və onu batil edənlər

**Məsələ-1071.** Etikaf edən şəxs aşağıdakı işlərdən qorunmalıdır:

1. Ətirli qoxuları (xoşa gələn iyləri) və ətriyyatı, hətta iyli bitkiləri iyləmək. Deməli, iyləmə hissiyyatı olmayan şəxslər üçün bunun işkalı yoxdur.
2. Alver (alverdən başqa müamilələr və müqavilələr vacib ehtiyata əsasəndir);
3. Ticarətin sair növləri, sülh, müzaribə və s. (vacib ehtiyata əsasən);

4. Mücadilə və cidal, istər dini işlərə aid olsun, istərsə də dünyəvi, əgər müqabil tərəfə özünü göstərmək və ona qalib olmaq məqsədiylə olarsa. Amma haqqı aşkar etmək və müqabil tərəfi batildən çəkindirmək məqsədiylə olsa, işkalı yoxdur;

5. Öpmək, toxunmaq və cinsi yaxınlıq kimi ehtiraslı əməllər;
6. İstimna[1] (vacib ehtiyata əsasən).[2]

**Məsələ-1072.** Əgər etikaf edən şəxs, hansısa məkanı məscidin bir hissəsi bilib ora getsə, sonra məsciddən ayrı olması məlum olsa, etikafı batildir.

**Məsələ-1073.** Əgər etikaf edən şəxs xəstəlik üzündən orucunu pozmağa məcbur olsa, etikafı batil olur, çünki etikaf oruc olmadan səhih deyil.

**Məsələ-1074**. Etikaf zamanı təkcə əqd və iqaların icrası (müamilələrdən başqa) işkalsızdır.[3]

**Məsələ-1075.** Cənabət və heyz qüslü Məkkə və Mədinənin iki şərafətli məscidində mütləq şəkildə caiz deyil. (Cünub olduqda) dərhal təyəmmüm edib məsciddən xaric olmalıdır. Digər məscidlərdə də əgər qüsl etmək yubanmağa, yaxud məscidin bulanmağına səbəb olarsa, caiz deyil. Amma digər qüsllər imkan olduqda, başqalarının haqqına girməmək şərtilə işkalsızdır.

**Məsələ-1076.** Vacib ehtiyata əsasən, vaxtı müəyyən olan vacib etikafda, gülab vurmaq və ya onları iyləmək ləzzət məqsədiylə olarsa, onu sona çatdırmalı, qəzasını da yerinə yetirməlidir. Amma vaxtı müəyyən olmayan vacib etikafda əvvəlki iki gündə olarsa, etikafı yenidən başlamalıdır. Amma üçüncü gün olarsa, etikafı bitirib, sonra yeniləməlidir. Müstəhəb ehtiyatda iki gün sona çatdıqdan öncə olarsa, öhdəsində bir şey yoxdur.[4] Amma iki gün bitdikdən sonra olarsa, etikafı yeniləməlidir.[5] Qeyd olunanlarda vacib ehtiyata görə bu işi bilərəkdən və səhvən etmək arasında heç bir fərq yoxdur.

---

[1] İstimna hər halda haram və böyük günahlardandır, amma etikafda onun günahı daha da böyükdür.

[2] Yuxarıda deyildiyi kimi istimna hər halda haram və günahdır, burada vacib ehtiyat istimnanın etikaf halında haramlığının xüsusiyyətinə görədir. (Mütərcim)

[3] Əqd iki tərəfin vasitəsilə icra edilən müqavilədir. Məsələn, nikah və alver «İqa»nın icrasında ikinci tərəfə ehtiyac yoxdur. Məsələn, talaqla olduğu kimi. (Mütərcim)

[4] Bu zaman etikafını poza bilər və ehtiyat niyyətiylə sona da çatdıra bilər. (Mütərcim)

[5] Əlbəttə, hazırkı etikafı sona çatdırdıqdan sonra. (Mütərcim)

**Məsələ-1077.** Vacib etikafı cinsi yaxınlıqla pozduqda hətta gecə də olsa, kəffarə vacib olur. Müstəhəb etikafda (iki gün bitmədən olarsa,) bu iş etikafı saxlamaq məqsədi ilə olduqda kəffarə vacib deyil. Amma bundan başqa məqsədlə olduqda vacib ehtiyata əsasən, kəffarəsi var. Etikaf edən şəxs etikaf edənə haram olan digər işləri etdikdə, kəffarə vacib olmur. Baxmayaraq ki, müstəhəb ehtiyat budur ki, kəffarə ödəsin. Etikafın pozulmasının kəffarəsi (kəffarə vacib olan yerdə) ramazan ayının orucunu bilərəkdən pozanın kəffarəsidir.

## Etikafda qadınlara xas olan hökmlər

**Məsələ-1078.** Qadın etikaf əsnasında heyz qanı görərsə, hətta üçüncü günün sonu olsa belə, etikafı batil olur və gərək dərhal məscidi tərk etsin. Amma istihazə qanı gördükdə, istihazənin oruca aid hökmünə əməl etməklə etikafı səhihdir.

**Məsələ-1079.** Qadın etikaf əsnasında heyz qanı görərsə, hətta üçüncü günün bəzi hissəsində olsa belə, etikafı batil olur, qəzası da yoxdur. Etikaf əvvəldən nəzir etmək vasitəsilə ona vacib olubsa, sonradan onun qəzasını[1] istədiyi vaxtda və hər hansı bir məsciddə yerinə yetirə bilər. Əlbəttə, əgər məxsus bir məscid və ya bir zamanda etikaf etməyi nəzir edibsə, onu riayət etməlidir.

**Məsələ-1080.** Əgər qadın heyz, ya istihazə qanı görməsində şəkk edirsə, şəkkinə etina etməsin. Bu hökmdə etikafin günləri arasında fərq yoxdur.

**Məsələ-1081.** İstihazənin yalnız orucun səhihliyində şərt olan qüsl-ləri etikafın şərt olmasında şərtdir.

[1] Qəza o zamandır ki, müəyyən bir gün üçün nəzir edib. Amma nəziri müəyyən nəzir olmasa və nəzirində xüsusi bir günü qeyd etməsə, baxmayaraq ki, sonradan onu yerinə yetirməlidir, qəza niyyəti etməməlidir. (Mütərcim)

## Etikafın qəzası

**Məsələ-1082.** Etikafın qəzası vacib olduqda istənilən zaman onu qəza edə bilər. Əlbəttə, müəyyən bir ayda etikaf etməyi nəzir etdikdə həmin günü qəza etməlidir (Ramazan ayı kimi).

## Müsafirin etikafı

**Məsələ-1083.** Vətənindən (yaxud vətən hökmündə olan yerdən) dörd fərsəx uzaqda etikaf etmək üçün orada ən azı on gün qalmağı niyyət və ya səfərdə etikaf etmək nəzir[1] edilməlidir. Çünki əks halda müsafirə oruc tutmaq caiz deyil, nəticədə etikaf da səhih deyil.

**Məsələ-1084.** Müsafir səfərdə etikaf etmək üçün oruc tutmağı nəzir edərsə, vacib ehtiyata əsasən, nəziri səfərdən qabaq etməlidir.

# XÜMSÜN HÖKMLƏRİ

**Məsələ-1085**. Xüms lüğətdə beşdə bir mənasındadır, terminologiyada İslam dininin mühüm vaciblərindən biri sayılır, imkanı olan hər bir şəxsin malının xüsusi qayda ilə beşdə birini ödəməsindən ibarətdir.

**Məsələ-1086**. Baxmayaraq ki, İslam respublikasının qayda-qanunlar əsasında təyin etdiyi maliyyələri ödəmək, qanuna aid olan şəxslərə vacibdir və hər ildə, ödədikləri maliyyələr o ilin məunəsindən[2] sayılır, amma xümsdən hesablanmır və o şəxslərə illik gəlirlərinin məunədən artıq qalanının xümsünü vermək vacibdir.

---

[1] Nəzir etmək ramazan ayından başqa aylara aiddir. (Mütərcim)

[2] "Məunə" illik tələbatlara və mənəvi ehtiyaclara çəkilən xərclərə aid edilir, ev, ev əşyaları, şəxsi avtomobil, ərzaq və s. kimi ehtiyacları olduğu hər hansı tələbat məunə sayılır və onlara (işlətdikləri qədər) xüms gəlmir. Lakin bir ildən artıq olan ehtiyaclarından qaldıqda, yerdə qalanın xümsünü verməlidirlər. Deyilən məsələdə verilən maliyyələr məunə hesablanır və onlara xüms lazım deyil. Daha artıq tanışlıq üçün 1111-ci və sonrakı məsələlərə də müraciət edə bilərsiz. (Mütərcim).

**Məsələ-1087.** Xümsün vacib olması İslam dininin zərurətlərindəndir. Onu inkar etmək əgər İslam Peyğəmbərini (s) inkar etməyə səbəb olarsa, yaxud (İslam) şəriətinə nöqsan gətirərsə, küfrə səbəb olur.

**Məsələ-1088.** Xüms verməyə gücü çatmamaq, yaxud onu verməyin çətin olması (xümsün vacib olmaq) təklifini boyundan salmır. Buna əsasən, xüms vacib olan, indiyədək xüms verməyən və hal-hazırda xüms verməyə maddi qüvvəsi çatmayan, yaxud xüms vermək çətin olan şəxslərə vacibdir ki, nə zaman onu verməyə imkanları oldu, versinlər. Bu şəxslər xümsün vəlisi (hakimi şəri) və ya vəkili (nümayəndəsi) ilə öz borclarının məbləğini (xüms borcunu) dəstgərdan [1] etməklə onu zaman və miqdar baxımından imkan dairəsində tədricən (hamısını) ödəyə bilərlər.

**Məsələ-1089.** Xümsü xüms ilindən sonrakı ilədək təxirə salmaq caiz deyil, baxmayaraq ki, nə zaman onu ödəsə, borcunu vermiş olur. Əgər (təxirə saldığı müddətdə pulun dəyəri ölərsə, (vacib) ehtiyata əsasən gərək şəri-hakim ilə müsalihə etsin.

**Məsələ-1090.** Həddi-büluğa yetişməyən uşağın şəxsi malına xüms gəlsə, (mədən və ya halal malın harama qarışması kimi) şəri vəlisinə onu ödəmək vacibdir. Amma ticarətetmə səbəbiylə malına xüms gəlibsə, onu ödəmək vəliyə vacib deyil. Əgər ticarət yolu ilə ələ gələn qazancından (bir ildən sonra) artıq qalarsa, (vacib) ehtiyata əsasən, o şəxsin özünə həddi-büluğa yetişəndən sonra ödəməsi vacibdir.

**Məsələ-1091.** Xüms təkcə həqiqi şəxsiyyətlərə (şəxs və şəxslərə) vacib olur, dövlətlər, hökumətlər, müəssisələr və banklar kimi hüquqi şəxsiyyətlərə vacib deyil. Buna əsasən, əgər bir müəssisə mənfəət gətirərsə, illik məxaricini kəsr etdikdən sonra xüms vermək

---

[1] "Dəstgərdan" budur ki, xüms borcu olub, hal-hazırda onu bütövlükdə ödəyə bilməyən şəxslərə şəri-hakimi icazə verir ki, xüms məbləğində olan miqdarı ona, yaxud nümayəndəsinə ödəsin və o (hakimi şəri yaxud nümayəndəsi), həmin məbləği borc olaraq müəyyən müddətdə tədricən qaytarmaq şərtiylə onun özünə qaytarır. Bu işlə onun boynundan xüms götürülür, lakin o, həmən məbləğdə şəri-hakimə borclu qalır və tədricən ödəyir. (Mütərcim)

vacib deyil. Amma o, hüquqi şəxsiyyətlərin malları həqiqi şəxslərin malıdırsa, (o şəxslərə) vacibdir ki, mənfəətlərinin xümsünü ödəsinlər.

## Xümsün yeddi mənbəyi

**Məsələ-1092.** Yeddi şeyə xüms vacibdir:

1. Gəlir (İş və qazanc mənfəəti);
2. Mədən;
3. Xəzinə;
4. Harama qarışan halal mal;
5. Dalğıc vasitəsilə dənizdən çıxarılan cəvahirat;
6. Döyüş qənimətləri:
7. Zimmi kafirin[1] müsəlmandan aldığı yer.

**Məsələ-1093.** Üzrsüz xümsü ödəməmək haramdır.

**Məsələ-1094.** Əgər meyit (ölümündən qabaq) mallarının bir miqdarı xüms kimi ödənilməsini vəsiyyət etsə və ya varis mərhumun müəyyən qədər xüms borclu olmasını yəqin etsə, mərhumun vəsiyyətinə əməl olunmayanadək və ya onun irs qoyub getdiyi əmlaka düşən xüms verilməyənədək ondan istifadə edilə bilməz. Vəsiyyətə əməl olunmamışdan qabaq, yaxud vəsiyyətə və ya xüms əhkamına görə xüms borcu verilməmişdən qabaq varislərin bu əmlakdan istifadəsi qəsb hökmündədir və istifadə etdiklərinə zamindirlər.

## Gəlirin xümsü

**Məsələ-1095.** Xümsün şərtləri aid olan hər bir şəxsə gəlirinin məunədən artıq qalan miqdarının xümsünü ödəməsi vacibdir. Burada gəlirin artığında məqsəd, iqtisadi fəaliyyət nəticəsində qazandığı mal və sərvətdən ibarətdir, başqa sözlə qazanca daxil olanlardır.

---

[1] "Zimmi kafir"- İslam dövlətinə "cizyə" adlanan maliyyə ödəməklə o dövlətin ərazisi və himayəsində yaşayan kitab əhli olan (məsihi, yəhudi və məcusi) kafirlərdir. (Mütərcim)

**Məsələ-1096.** Gəlirin müxtəlif növləri vardır ki, bəzilərini qeyd edirik:

1. Əkinçiliklə əldə olunan qazanclar.

2. Ticarət yolu ilə gələn gəlirlər.

3. İcarə yolu ilə əldə edilən gəlirlər. İstifadə sərmayələrinin - ev, avtomobil kimi va ya istehsal sərmayələrinin - tornaçılıq dəzgahının və ya corabtoxuyan dəzgahın icarəsi kimi.

4. Xidmət icarəsi yolu ilə gələn qazanclar. Müəllim, mühəndis, fəhlələrin muzd və maaşları kimi, həmçinin öz güc və qüvvəsini başqasının ixtiyarında qoyub əvəzinə muzd alan hər bir şəxsin fəaliyyəti kimi.

**Məsələ-1097**. İrs (və onu satarsa) pulunun, hərçənd dəyəri və qiyməti qalxsa belə, xümsü yoxdur. Amma onu ticarət və qiymətinin qalxması məqsədiylə saxlayarsa, bu halda vacib ehtiyata əsasən, satdıqdan sonra qiymət artımının xümsünü verməlidir.

**Məsələ-1098.** Baxmayaraq ki, səğir övladlara yetişən irsin də xümsü yoxdur, həddi-büluğa yetişənədək ondan əldə olunan mənfəətdən mülkündə qalan hissəsinin (vacib) ehtiyata əsasən həddi-büluğa yetişəndən sonra xümsünü verməlidirlər.[1]

**Məsələ-1099.** Mehriyyənin xümsü yoxdur. Bu barədə müddətli və müddətsiz, nəqd pul və mal arasında heç bir fərq yoxdur.

**Məsələ-1100.** Hibə [2] və hədiyyənin xümsü yoxdur, hərçənd müstəhəb ehtiyat budur ki, illik xərcindən artıq qalarsa, xümsü verilsin.

---

[1] Ümumiyyətlə, irsə (istər vərəsə səğir olsun, istər həddi-büluğa çatmış olsun) xüms yoxdur. Lakin irslə edilən qazancın xümsü var. Məsələn, atasından apardığı irslə alver və qazanc edib, həddi-büluğa çatmayanlara xüms vacib olmadığı üçün, onun irsdən olan səhminin mənfəətindən həddi-büluğa yetişəndən sonra artıq qalan hissəsinə xüms vacib olur. (Mütərcim)

[2] “Hibə” və “hədiyyə” hər ikisi əvəzsiz verilən (bağışlanan) pul və mala aid edilir. Başqa sözlə “hibə” bir növ hədiyyədir, bu fərqlə ki, hədiyyə o mal va pula aiddir ki, onu verməkdə məqsəd müqabil tərəfin məhəbbətini cəlb etməkdir. (Mütərcim)

**Məsələ-1101.** Bir şeyin hibə və hədiyyə adlanması onu verənin qəsdinə (məqsəd və niyyətinə) bağlıdır, buna əsasən ata, qardaş və s. qohumlar tərəfindən aldığı nəfəqə o zaman hibə, yaxud hədiyyə sayılır ki, onu verən hibə və ya hədiyyəni qəsd etmiş olsun.

**Məsələ-1102.** Ata, ana, qardaş və başqaları tərəfindən verilən əşya-ların xümsü yoxdur, hərçənd bu əşyalara ehtiyacı olmasın və ya şənindən yuxarı olsun. Amma bu cür əşyaları hədiyyə etmək hədiyyə edənin şənindən xaric olarsa, onların məunəsi sayılmır, gərək onların xümsünü versinlər.[1]

**Məsələ-1103.** Atanın öz qızına cehiz kimi verdiyi mənzil xalq baxımından atanın şəniylə uyğun olarsa və xüms ili arasında əldə edilən qazancdan hədiyyə edilərsə, xümsü yoxdur.

**Məsələ-1104.** Şəhid idarəsinin şəhid ailələrinə (pul, ərzaq, əşya və s.) verdiyi hədiyyələrin xümsü yoxdur. Amma onun gəlirinin illik məunəsindən (xərcindən) artıq qalarsa, artıq qalana xüms vacib olur. Həmçinin o idarənin şəhid uşaqlarına (həddi-büluğdan qabaq) verdiyi hədiyyələrin xümsü yoxdur. Lakin onunla əldə olunan gəlirdən uşaqlar həddi-büluğa yetişənədək mülklərində qalarsa, (vacib) ehtiyata əsasən o zamanadək qalan gəlirlərə xüms verilməlidir.

**Məsələ-1105.** Xüms verməkdən boyun qaçırmaq məqsədiylə zahiri hədiyyəyə xüms vacibdir. Buna əsasən, ər-arvadın xüms ili yetişmədən (xüms verməmək üçün) bir-birlərinə verdiyi zahiri hədiyyələrə xüms vacibdir (Bu işlə xüms onların boynundan götürülmür).

**Məsələ-1106.** Hibə və hədiyyəni satdıqdan sonra hətta qiyməti yu-xarı olsa belə, onun puluna xüms gəlmir. Amma onu ticarət və qiymətinin artması məqsədiylə saxlayarsa, satdıqdan sonra vacib ehtiyata əsasən, artımının xümsünü verməlidir.

---

[1] Məqsəd budur ki, bu halda hədiyyəverən şəxs hədiyyə verdiyi malı məunədən hesablaya bilməz və onların da xümsünü verməlidir. (Mütərcim)

**Məsələ-1107.** İşçilərə verilən bayram hədiyyələrinin (bayramla əlaqədar dövlət və ya sahibkarların öz işçilərinə verdiyi əşya, ərzaq və ya pul kimi hədiyyələrin), hətta (xüms) ili yetişsə belə, xümsü yoxdur. Amma dövlət (ya müəssisə) müəyyən malları ucuz qiymətə (endirimlə) onlara satarsa, bu halda həqiqətdə o malların bir qismi dövlət tərəfindən hədiyyə olub digər qismi satışla onlara verildiyi üçün müqabilində pul ödədikləri malların qalanına (ildən artıq qalanına) xüms vacib olur.

**Məsələ-1108.** Bankların və pul müəssisələrinin müştərilərinə verdikləri hədiyyələrə xüms vacib deyil.

**Məsələ-1109.** Vəqf olunmuş malın və yerin xümsü yoxdur, hətta xüsusi vəqf olsa belə, onun faydasına xüms gəlmir.

**Məsələ-1110.** Dini hövzələrdə təhsil alan möhtərəm tələbələrə mərcəi-təqlidlər tərəfindən verilən (xüms və zəkat kimi) şəri hüquqlara xüms yoxdur.

**Məsələ-1111.** İllik gəlirdən ticari və qeyri-ticari gəlirlərə çəkilən xərclər (yük maşını kirayəsi, anbar, fəhlə və tərəzi xərci və s. kimi) o ilin gəlirindən istisna olunur, xümsü də yoxdur.

**Məsələ-1112.** Bir dəfə xümsü verilən mala bir daha xüms gəlməz. Buna əsasən, növbəti ildə xərclənməsə də ikinci dəfə xümsü yoxdur.

**Məsələ-1113.** Sığorta şirkətlərinin müqavilə əsasında zərər-ziyanları ödəmək, müalicə xərcini təmin etmək və s. kimi ödədiyi pulun xümsü yoxdur.

**Məsələ-1114.** Təhsil Nazirliyi tərəfindən tələbələrə verilən təqaüdlərin xümsü yoxdur. Amma bursiya olunan tələbələrin tələbəlik dövründə aldıqları maaşa xüms vacib olur.

**Məsələ-1115.** Borc alınan mala (və pula) xüms yoxdur. Əgər borc tədriclə ödənilsə, ödənilən pul illik gəlirdən olarsa, xüms ili yetişənədək ödədiyi məbləğə (aldığı mal o zamanadək qalarsa) xüms vacibdir. Buna əsasən, əgər bir şəxs müəyyən məbləğdə borc alıb ildən qabaq onu ödəyə bilməsə, onun xümsünü verməyi lazım

deyil. Amma onu hissə-hissə illik gəlirindən ödəyirsə və aldığı malın (məbləğ) özü xüms ili yetişənədək onun yanında qalarsa, ödədiyi məbləğ miqdarına nisbət xümsü verməyi vacibdir.

**Məsələ-1116.** 1111-ci məsələdə deyildiyi kimi gəlirin xümsündən məunə müstəsnadır, xümsü də yoxdur. Burada "məunə"də məqsəd illik xərcdir (məqsəd gəlir xərci deyil) və o, hər bir şəxsin özü və ailəsinin dünyəvi, axirət tələbatlarına çəkilən - xörək (və ərzaq), geyim, mənzil, ev əşyaları, avtomobil və s. nəqliyyat vasitələri, kitab, normal səfər xərcləri, hədiyyələr, sədəqələr, nəzirlər, kəffarələr, qonaqlıq və s. kimi xərclərdən ibarətdir.

**Məsələ-1117.** Hər bir xərc məunə sayılmır, təkcə dünyəvi və axirət tələbatlarına (ehtiyaclarına) çəkilən xərclərə məunə deyilir. Buna əsasən, ehtiyac olmayan mal və əşyalar məunə sayılmır. Kişi üzüyü kimi haram zinət əşyaları, ləhvü-ləib (haram musiqi) əşyaları və qumar alətləri kimi digər haram əşyalar bu qəbildəndir.

**Məsələ-1118.** Məunə bir şəxsin gündəlik və aylıq xərci deyil, onun illik xərcinə aid edilir. Beləliklə, o gəlirin xümsü vacib olur ki, il ərzində (ehtiyaclarına çəkilən) xərcindən artıq qalsın.

**Məsələ-1119.** Məunədə meyar (yəni məunənin xümsdən istisna olmasında ölçü) il ərzində həmin ilin gəlirindən ayrılıb xərclənməsidir, keçmiş və gələcək illərin gəlirlərinə çəkilən xərclərə aid edilmir. Buna əsasən, əgər hər hansı ildə məunəyə bir şey sərf edilməyibsə, keçmiş və gələcək ilin məunəsini o ilin (məunə olmayan ilin) gəlirindən ayırmaq olmaz.

**Məsələ-1120.** Məunənin (digər) meyarı insanın çəkdiyi xərclərin onun şəninə (yəni onun durumuna və mövqeyinə) uyğun olmasıdır. Beləliklə, bu xərclər bir tərəfdən zəruri xərclər və ilk məişət ehtiyacları ilə məhdudlaşmır, digər tərəfdən də bədxərcliyə, israfçılığa, insanın şənindən artıq olan xərclərə (məsələn, şan-şöhrət məqsədi daşıyan qonaqlıqlar, cehizlik, toy və yas məclisləri və s.) aid olmur.

**Məsələ-1121.** Məunədə məqsəd özü və külfəti üçün az, yaxud çox sərf etdiyi xərclərdir. Hal-hazırda xərcləmədikləri məunə sayılmır, baxmayaraq ki, əgər xərcləsəydi, öz şən və həddindən artıq sayılmazdı (və israf hesab olmazdı). Buna əsasən, özünü çətinliyə salıb özü və ailəsinin şəni ilə münasib xərcləri çəkməyərək pulunu saxlayan şəxsin xərcləmədiyi miqdarı məunədən hesablamağa haqqı yoxdur.

**Məsələ-1122.** Ərin arvada aldığı qızıl (və sair zinət əşyaları) əgər normal miqdardadırsa, ərinin ictimai şəni ilə münasib və uyğun olduğu təqdirdə məunə sayılır və xümsü yoxdur.

**Məsələ-1123.** Ata övladının gələcəyini nəzərə alaraq özü evin birinci mərtəbəsində yaşamaqla belə, övladı üçün ikinci mərtəbəni də qaldırsa, bu iş onun hal-hazırda münasib xərclərindən hesab olunub ictimai şəni ilə uyğun olarsa, xərclədiyi məbləğə xüms yoxdur. Amma belə olmazsa, hal-hazırda nə özünün, nə uşağının ona ehtiyacı olmadığı təqdirdə xümsünü ödəmək vacibdir.

**Məsələ-1124.** Xeyriyyə işləri üçün, məsələn, məktəb (və xəstəxana) tikilməsinə, sel (və zəlzələ) nəticəsində zərər görənlərə yardım edilməsinə çəkilən xərclər illik infaq xərclərindən hesablanır və xümsü yoxdur.

**Məsələ-1125.** Ehtiyacdan xaric olan məunələr, məsələn, öz ehtiyacına görə yaşayış məqsədiylə tikdiyi, yaxud aldığı evə dövlət evlərində yaşadığı üçün ehtiyacı olmayan məunə kimi iki cür təsəvvür olunur:

1. İl arasında əldə etdiyi gəlirlə, yaxud xüms düşməyən mənfəətlərlə və ya xümsünü verdiyi qazancla təşkil olunubsa, xümsü yoxdur.
2. Xüms vacib olan və xümsü verilməyən (qazancla və pulla) təşkil olunubsa, xüms vacibdir.[1]

---

[1] Diqqət etmək lazımdır ki, ikinci halda hətta o məunə onun ehtiyacından xaric olmasa belə, xümsünü vermək vacibdir və onu vermədən hər cür istifadəsi haramdır. (Mütərcim)

**Məsələ-1126.** Ehtiyacdan xaric olan məunə barədə deyilən hökm məunənin satılmasına da aiddir. Buna əsasən, insanın özü və ailəsinin ehtiyacı olduğu maşın və s. əşyalar il arasında olan qazancla, xümsü verilmiş pulla, yaxud da (irs və hibə kimi) xüms vacib olmayan pulla alınıbsa, zəruri halda və ya dəyişmək məqsədiylə, yaxud hər hansı səbəbə görə satılarsa, onun puluna xüms yoxdur,

Həmçinin qiymətinin artımına da xüms gəlmir. Amma onları xüms vacib olan pulla təşkil edibsə, hətta satmasa belə gərək xümsünü versin.

**Məsələ-1127.** Bir şəxs maşınını satsa, əgər avtomobil onun məunəsi olubsa (yəni şəxsi istifadə və ehtiyaclarını təmin etmək üçün alıbdırsa və ictimai şəni ilə uyğun ehtiyaclardan olubsa), satdıqdan sonra da pulunun xümsü yoxdur. Amma onu iş üçün alıbsa (taksi, yaxud avtobus kimi) ona verdiyi məbləğə xüms vacibdir.

**Məsələ-1128.** İşlə əldə olunan sərmayənin (maaş və s.) xümsü var. Buna əsasən, başqasına müzaribə [1] sərmayəsi verən şəxsə sərmayənin xümsünü vermək vacibdir. Həmçinin sərmayə ilə ələ gələn mənfəətə illik məunəyə xərclədiklərini çıxdıqdan sonra (yerdə qalanlara) xüms vacibdir.

**Məsələ-1129.** Əgər bir şəxs il arasında əldə etdiyi qazancla sonra satıb pulu ilə ev tikmək məqsədiylə yer (torpaq sahəsi) alsa, xümsünü vermək vacibdir.

**Məsələ-1130.** Əgər bir şəxs bəzi mərtəbələrini icarəyə verib o pulu öz güzəranına xərcləmək məqsədiylə neçə mərtəbəli bina tiksə, yaxud alsa, gərək (il arasında ələ gətirdiyi gəlirdən) artıq mərtəbələrə xərclədiyi pulun xümsünü versin.

**Məsələ-1131.** Meyvə bağı salmaq üçün abadlaşdırılan yararsız yerə sərf edilən gəlirin (illik gəlirdən ona xərclənən məbləğin) xümsü gərək ödənilsin.

---

[1] Sərmayəsi birindən, ticarəti digərindən olan müqavilə “müzaribə” adlanır. (Mütərcim)

**Məsələ-1132.** Şəriklik halında vacibdir ki, şəriklərin hər biri öz səhminin xümsünü ödəsin. Buna əsasən, xüsusi məktəb təsis edən şəxslərin hər birinə vacibdir ki, şirkət (şəriklik) sərmayəsi adı ilə qoyduqları sərmayənin xümsünü ödəsinlər. Həmçinin müştərək sərmayədən əldə etdikləri mənfəətin öz səhmindən illik məunədən artıq qalan hissəsinin xümsünü vermələri vacibdir.

**Məsələ-1133.** Şirkətin sərmayəsinin xümsünü vermək şirkət üzvlərindən (şəriklərin) hər birinin ümumi sərmayədən ələ gələn öz payına nisbət təklifləridir. Buna əsasən, idarə heyətinin məsul şəxsləri tərəfindən (ümumi sərmayənin) xümsünü ödəmək səhmdarların onlara verdiyi icazələrinə, yaxud vəkalətlərinə bağlıdır.

**Məsələ-1134.** Şirkət üzvlərinin (səhmdarların) hər biri şirkətin sərmayəsində olan səhmlərinin xümsünü ödədikdən sonra ümumi sərmayənin ikinci dəfə xümsü yoxdur.

**Məsələ-1135.** Qərzül-həsənə (xeyriyyə kredit) müəssisələrində, (müqavilə əsasında) səhmdarların hər biri müəssisənin təşkil olunmağı üçün qoyduqları sərmayədən əlavə müəssisənin sərmayəsini artırmağa görə hər ay müəyyən məbləğ də verməli olsalar, əgər onların hər hansı biri öz səhmini xüms ilindən sonra və xümsü verməzdən öncə öz maaşından və ya qazancından verərsə, vacibdir onun xümsünü versinlər. Amma il arasında vermiş olsalar, bu halda əgər xüms ilinin sonunadək verdiklərini geri almaq mümkündürsə, gərək ilin sonunda, onun xümsünü versinlər. Əgər mümkün deyilsə, hələlik xüms vacib deyil, lakin nə zaman alsalar, gərək xümsünü ödəsinlər.

**Məsələ-1136.** Əgər xeyriyyə kredit müəssisəsinin sərmayəsi müştərək şəkildə şəxsi şəxslərin mülkü olarsa, ondan əldə olunan mənfəət hər bir şəxsin sərmayəsinə nisbət onun şəxsi mülkü olur. İllik məunə xərcindən əlavəyə xüms vacib olur. Əgər onun sərmayəsi şəxsi mülk olmasa, məsələn, ümumi vəqf malından təşkil olunsa, əldə olunan mənfəətin xümsü yoxdur.

**Məsələ-1137.** Ticarət yeri (bina və mağaza kimi) sərmayə hesab olunur və xümsü ödənilməlidir. Əgər bir şəxs onun xümsünü ödəməyə qadir deyilsə, şəri hakim, yaxud onun nümayəndəsiylə dəstgərdan edə bilər.[1]

**Məsələ-1138.** Sərqufli[2] sərmayə olduğu üçün onun xümsü var.

## İş alətləri

**Məsələ-1139.** İş alətləri sərmayə hökmündədir və əgər il arasında əldə olunan gəlir ilə alınıbsa, xümsünü vermək vacibdir. Buna əsasən, işlə əlaqədar, yəni o işin lazımi işlərini yerinə yetirmək üçün alınan maşınlara (aparat və dəzgahlara) da xüms vacibdir.

## Sərmayənin artması

**Məsələ-1140.** Əgər malın qiyməti artsa, onu almaq üçün də hazır müştəri olsa, lakin daha artıq mənfəət əldə etmək üçün malı satmasa, gərək xüms ili yetişəndə onun qiymətinin artan miqdarının da xümsünü ödəsin. Amma malı (xüms) ili yetişənədək satılmasa, belə ki, onu almağa müştəri olmasa, hal-hazırda onun qiymət artımına xüms vacib deyil. Çünki qiymət artımı həmin ilin gəlirindən sayılır ki, onu satmaq imkanı olsun.

**Məsələ-1141.** Əgər xümsü verilmiş pul ilə bir mal alıb müəyyən müddətdən sonra onu satsa, alış qiymətindən artıq olan miqdar

---

[1] "Dəstgərdan" budur ki, xüms borcu olub, hal-hazırda onu bütövlükdə ödəyə bilməyən şəxslərə şəri-hakimi icazə verir ki, xüms məbləğində olan miqdarı ona, yaxud nümayəndəsinə ödəsin və o (hakimi şəri yaxud nümayəndəsi), həmin məbləği borc olaraq müəyyən müddətdə tədricən qaytarmaq şərtiylə onun özünə qaytarır. Bu işlə onun boynundan xüms götürülür, lakin o, həmən məbləğdə şəri-hakimə borclu qalır va tədricən ödəyir. (Mütərcim)

[2] "Şərqufli" icarənin əvvəlində (qabaqcadan) bəzən (müəyyən səbəbə əsasən) mucirin (malikin) müstəcirdən (icarə edən şəxsdən) müəyyən məbləğ almasıdır və bu məbləğə malik (sahib) olur. Əlbəttə, bəzəri müstəcir malikdən və ya üçüncü bir şəxsdən icarə yerini boşaltmaq müqabilində aldığı məbləğ də sərqufli adlanır ki, əlavə izah üçün geniş risalələrə müraciət etmək lazımdır. (Mütərcim)

qazanc olduğu üçün gərək illik məunədən artıq qalanının xümsünü versin.

**Məsələ-1142.** Yığıb saxlanılan gəlirlərin xüms ilinin başında xümsü var. Əgər yaşayışının zəruri əşyalarını almaq pulu yığıb saxlamağa bağlı olarsa və məqsədi də yığdığını yaxın gələcəkdə, məsələn, xüms ilindən bir neçə gün sonra lazım olan (məsələdə deyilən) yerlərə xərcləmək olsa, bu halda xümsü yoxdur.

**Məsələ-1143.** Qazancın mənfəətindən nə qədər yığılıb saxlansa, onlara bir dəfə xüms vacib olur. Qərzül-həsənə (xeyriyyə kredit) müəssisələrində pul əmanət qoymaq xümsün boynundan düşməsinə səbəb olmur.

## Tələblər

**Məsələ-1144.** Şəxsin nisyə satdığı mallar və ya işinin muzdu baxımından başqasından alacaqlarını (müştəri və ya sahibkardan) xüms ili yetişənədək almaq mümkün olsa, hərçənd o tələbləri o zamanadək almamış olsa belə, xüms ili yetişəndə onların xümsünü ödəmək vacibdir. Əks təqdirdə (yəni əgər o zamanadək almaq mümkün deyilsə, hələlik xüms vacib deyil və) aldığı ilin gəlirlərindən hesablanacaq.

**Məsələ-1145.** İşçilərin dövlət tərəfindən bir neçə il təxirə salınan maaşları aldıqları ilin gəlirindən hesablanır, nəinki işlədikləri ilin. (Buna əsasən, maaşlarını aldıqdan sonra) həmin ilin xərcini (aldıqları vaxtdan xüms ili yetişənədək) çıxdıqdan sonra yerdə qalanlarına xüms vacib olacaq.

**Məsələ-1146.** Əgər işçinin xüms ili ilin sonuncu ayına təsadüf edirsə və o, əmək haqqını xüms ilindən cəmi bir neçə gün əvvəl alırsa, xüms ili çatanadək bu məbləğ dolanışıq xərclərinə sərf edilmədiyi təqdirdə onun xümsünü verməlidir.[1]

---

[1] Bu məsələdə məqsəd budur ki, bəzən idarələr müəyyən münasibətlə işçilərin maaşlarını vaxtından tez verir. Bu halda bəzən onların maaş alması xüms ilinin əvvəlinə təsadüf edir, belə olan halda təkcə müqabilində işlədikləri maaşın xümsünü verməlidirlər, əlbəttə əgər

**Məsələ-1147.** Əgər bir şəxs müəyyən məbləği borc versə, bu məbləğ illik işinin gəlirindəndirsə və xümsünü ödəmədən borc verib tələbini xüms ili yetişənədək borc verdiyi şəxsdən ala bilərsə, xüms ili yetişən kimi o məbləğin də xümsü vacib olur (hərçənd onu almasa belə). Amma ilin sonunadək almaq mümkün deyilsə, hələlik xüms vacib deyil, amma nə vaxt alsa, gərək xümsünü ödəsin.

**Məsələ-1148.** Qızıl sikkə qazanc sayıldığı təqdirdə digər qazanc və gəlirlərin hökmündədir, xüms də vacibdir.

**Məsələ-1149.** Qocalıq təqaüdü illik xərcdən artıq qalarsa, xümsü verilməlidir.

**Məsələ-1150.** Əgər bir şəxs kəfən alsa və üstündən il keçsə, onun xümsünü ödəmək vacibdir.

**Məsələ-1151.** Qənd, şəkər tozu, düyü, yağ və s. gündəlik tələbatlı davamsız istehlak malları (ərzaq malları) il boyu işlətmək məqsədiylə alınıb işlədilibsə, məunədir və xümsü yoxdur. Amma xüms ili yetişənədək işlədilməyən miqdar məunə deyil, gərək xümsü ödənilsin. Amma mənzil, ev əşyaları, şəxsi avtomobil, qadın zinət əşyaları[1] və s. qeyri-ərzaq malları ehtiyaclardan sayılır, məunədir və xümsü yoxdur.

**Məsələ-1152.** Qeyri-ərzaq mallarına (davamlı və istifadə edilərkən cinsi aradan getməyən mallar, başqa sözlə müddətli mallara) xümsün vacib olmamaq meyarı onlara insanın ictimai şəni və səviyyəsiylə uyğun, münasib ehtiyacının olmasıdır, baxmayaraq ki, il ərzində ondan istifadə olunmasın. Buna əsasən, əgər xalça, qab və s. kimi əşyalar təsadüfən il ərzində istifadə edilməyibsə, lakin qonaqlar üçün onların istifadəsinə ehtiyac varsa, xümsü yoxdur. Amma ərzaq

---

xüms ili yetişənədək xərcləməyiblərsə. Məsələn, əgər işçinin maaşı 300 manatdırsa, bir ayın iyirmi gününü işlədikdən sonra ayın maaşını bütövlükdə alıbsa (300 azn), bu zaman xüms ili də yetişibdirsə, təkcə 200 manatın xümsü vacib olur. Yəni iyirmi günlük işin maaşının xümsü. Çünki 100 manat gələcək günlərin maaşıdır, hələ onu qazanmayıb və yeni ilin gəlirindən hesablanır. (Mütərcim)

[1] Adətən qızıl olduğu üçün qadın qeyd olunub, çünki kişi üçün qızıl zinəti haram olduğu üçün məunə hesab olunmur. (Mütərcim)

(istehlak) mallarında meyar işlənib-işlənilməməsidir, yəni işlənibsə xüms yoxdur, işlənilməyibsə, illik xərcdən artığının xümsü var.

**Məsələ-1153.** Çoxlu cildlərdən təşkil olan kitab ("Vəsailuş-şiə" kitabı kimi ki, iyirmi və bəzi çapları otuz cilddir) hamısına ehtiyac olduğu halda və ya bəzilərinə ehtiyac olub alınması cildlərin hamısının alınmasına bağlı olduğu halda xümsü yoxdur. Əks halda gərək hal-hazırda ehtiyac olmayan cildlərin xümsü verilsin. Hər cilddən (xüms gəlməmək üçün) bir səhifə oxumaq xümsü onun boynundan salmır.

**Məsələ-1154.** Ehtiyacı olduğu mənzilə xüms yoxdur və məunədir. Buna əsasən, bir neçə mərtəbəli evi olan şəxs bir mərtəbəsindən özü, digər mərtəbələrindən övladları istifadə etdiyi evə xüms yoxdur.

**Məsələ-1155.** Şəxsi istifadə, öz ehtiyaclarını təmin etmək üçün öz ictimai şəni ilə münasib illik gəlirdən alınan avtomobil məunədir və xümsü yoxdur. Amma qazanc məqsədiylə taksi, yük maşını, avtobus və s. kimi alınan maşınlar iş alətləri hökmündədir və xümsünü vermək vacibdir.

**Məsələ-1156.** İl ərzində ələ gələn gəlirlə alınan dərmanlar xarab olmadan xüms ili yetişənədək istifadəsiz qalıbsa, onu almaqda məqsəd ehtiyac olduqda istifadə etmək olubsa və daimi olaraq ehtiyac astanasında olarsa (başağrı tabletləri kimi), məunədir, xümsü də yoxdur.

**Məsələ-1157.** Mənzil, ev əşyaları, cehiz və s. kimi gələcəkdə ehtiyac olacaq əşyaları ehtiyac zamanı bütövlükdə almaq mümkün deyilsə, onları tədricən alıb ehtiyac zamanı üçün saxlayarsa, hər il öz ictimai şəni həddində alıb yığdıqları məunədir, xümsü də yoxdur.

**Məsələ-1158.** Bir məntəqənin adət-ənənəsi belədir ki, oğlanın ailəsi ev əşyalarını (qızın cehizini) alıb bunu tədricən toplayır. Belə ki, onun üstündən il ötür. Əgər gələcək üçün bu formada cehiz toplamaq məunə hesab olunarsa, xümsü yoxdur.

**Məsələ-1159.** Bir şəxsin yaşayış mənzili olmayıb ev tikmək üçün yeri olsa və onun üstündən illər keçsə, lakin tikə bilməsə, həmin yeri

illik gəlirindən öz yaşayışı məqsədiylə ev tikmək üçün alıbsa, nə qədər ki, onu satmayıb, xümsü yoxdur. Amma onu illik gəlirindən satmaq və pulunu ev tikməyə sərf etmək məqsədiylə alıbsa, xümsünü vermək vacibdir.

**Məsələ-1160.** Ev tikmək üçün ehtiyacı olduğu yerə xümsün vacib olmamasında, məsafəsinin nə qədər olması və ya bir, yaxud bir neçə mənzil olmağının aidiyyatı yoxdur. Meyar ictimai baxımdan şəninə uyğun ehtiyacın olması, həmçinin tədricən tikilməsində (xümsün vacib olmaması meyarı ehtiyacdan əlavə) şəxsin maddi vəziyyətidir.

**Məsələ-1161.** Bir şəxsin yaşayış mənzili olmasa və illik gəlirindən ev tikmək üçün yer alsa, əgər onu tikməyə başlayıb, qurtarmazdan öncə xüms ili yetişsə, binanı tikməkdə istifadə etdiyi tikinti materiallarının xümsü yoxdur.

**Məsələ-1162.** Ödənilməmiş tələb (yəni veriləcək, başqa sözlə başqasının bu şəxsdən olan tələbi, istər müddətli, istərsə də müddətsiz olsun, həmçinin istər borc almaqla, istərsə də nisyə mal almaqla borclu qalarsa) illik gəlirdən istisna olmur. Əgər bu, (borc aldığı pul və ya nisyə aldığı mal) gəlir ilinin xərclərini təmin etmək üçün olarsa, belə olan halda illik gəlirdən nə qədər borcundan vermək məqsədi varsa, o miqdar illik gəlirdən istisna olur və xümsü yoxdur. Amma bu borc keçmiş illərin borcu olarsa, baxmayaraq ki, həmin ilin gəliriylə onu ödəmək caizdir,[1] əgər (xüms) ili yetişincə ödəməsə, o ilin gəlirindən istisna olmayacaq.

**Məsələ-1163.** İşçilərin illik xərclərindən hərçənd nağd, yaxud tədrici verəcəkləri olsa belə, bəzən artıq qalan gəlirlərinə xüms vacibdir. Onun verəcəyi o ilin xərclərini təmin etmək üçün aldığı borc üzündəndirsə və ya ilin bəzi tələbatını təmin etmək üçün nisyə mal alması nəticəsində olarsa, əgər verəcəyini o ilin gəlirindən ödəmək istəyərsə, həmin miqdarda gəlirdən istisna olur (və xümsü yoxdur).

**Məsələ-1164.** Mənzil kredit ödənişlərini baxmayaraq ki, hər bir ilin gəlirindən vermək olar (və verildiyi halda gəlirdən istisna olur və

---

[1] Yəni əgər ödəyərsə, illik gəlirdən istisna olacaq və xümsü olmayacaq. (Mütərcim)

xümsü yoxdur) ödənilmədikdə o ilin gəlirindən istisna edilmir və gəlirinin ilin sonunadək qalanına xüms vacib olur.

**Məsələ-1165.** Məunə üçün olmayan verəcəkləri (kəffarə üçün edilən borc kimi) ilin gəlirindən ödənilməsinin caiz olmasına baxmayaraq, əgər ilin sonunadək ödənilməzsə, borclu olduğu ilin gəlirindən istisna edilmir və o ilin gəlirinin illik xərclərdən artıq qalanına xüms vacib olur.

**Məsələ-1166.** Müstəcirin (icarə edənin) mucirə (icarəyə verənə, malikə) qabaqcadan verdiyi pul[1] müstəcirin qazanc və gəlirindən olarsa, bir il keçdikdən sonra ona xüms vacib olur. Müstəcir onu mucirdən almaq imkanı olduqda gərək xümsünü versin.

**Məsələ-1167.** Həcc və ümrəyə getmək məqsədiylə hal-hazırda öz növbələrini qorumaq üçün müzaribə müqaviləsi əsasında banklara qoyulan pullara və mənfəətinə, növbələri yetişdikdə qoyduqları sərmayəni və onun mənfəətini bankdan alıb “həcc və ziyarət” idarəsinə verərək, həmin ildə (banka qoyduqları ildə və həmin xüms ilində) həcc və ya ümrəyə getsələr, onun xümsü yoxdur. Əgər (pulu aldıqdan sonra) həccə getmək növbələri xüms ilindən sonraya düşərsə, sərmayə xümsü verilməmiş gəlirdən olduqda xümsü var. Amma onun mənfəətini həccə getdikləri ildən qabaq bankdan ala bilməsələr, aldıqları ilin gəlirindən hesab olunur və aldıqdan sonra həmin ildə xərclənərsə, xümsü yoxdur.

## Xüms vacib olan zaman (xümsün aid olan zamanı)

**Məsələ-1168.** Gəlirin xüms aid olan zamanı o zamandır ki, gəlir əldə olunur, amma bir ilin tamam olmasına möhləti var. Belə ki, onun sahibinin ixtiyarı var ki, bir ildən qabaq xümsünü ödəsin. Həmçinin o, xüms ilini tezləşdirib, yaxud gecləşdirməkdə ixtiyar sahibidir, bu

---

[1] Diqqət etmək lazımdır ki, qabaqcadan müstəcirin mucirə pul borc verməsi, icarə müqaviləsinin daxilində olan şərt əsasında olarsa, riba deyil. Xatırladırıq ki, icarə müqaviləsi daxilində olan bu şərt adətən İran İslam respublikasında camaat arasında icra olunur, amma Azərbaycan respublikasında hələ ki, belə bir şərtə təsadüf etməmişik. Bu 1138-ci məsələdə qeyd olunan “sərqufli” deyil və mahiyyət baxımından ayrı-ayrı məsələlərdir. (Mütərcim)

şərtlə ki, gecləşdirərsə, xüms sahibinə zərər dəyməməsi üçün gərək keçmiş müddəti ödəsin.

**Məsələ-1169.** İllik gəlirdən mənfəət əldə etmək üçün mal daşımaq, zərərlər, mağaza kirayələri, dəllal və fəhlə muzdu, maliyyə və s. iqtisadi fəaliyyətlərə çəkilən xərclər o ilin gəlirindən istisna olur və xümsü yoxdur.

**Məsələ-1170.** Əgər şəxs satış məqsədiylə mülk, yaxud qızıl sikkə alsa, hərçənd onu (hələ) satmasa belə, alış qiyməti və artan qiymətə xüms vacibdir. Amma satış məqsədiylə almazsa, təkcə alış qiymətinin xümsü var.

**Məsələ-1171.** Gəlirin xümsü məunəyə aid deyil. Yəni gəlirdən il ərzində özü və ailəsinin ehtiyaclarına, ev əşyalarına xərclədikləri istisnadır, xümsü yoxdur. Təkcə ilin sonunda yerdə qalan xərclənməmiş və istifadə edilməmişlərə xüms vacib olur.

**Məsələ-1172.** Hər ilin məunəsi əvvəlki və sonrakı ildən deyil, o ilin gəlirindən ayrılmalıdır. Buna əsasən, əgər bir ildə mənfəət etməzsə, o ilin məunəsini əvvəlki və ya sonrakı illərin gəlirindən ayırmaq olmaz.

**Məsələ-1173.** Məunəni xərcləməkdə[1] qazancdan əlavə malın olmaması şərt deyil. Hətta əgər onun qazancdan əlavə xüms gəlməyən, yaxud xüms gəldikdə xümsünü verdiyi malı da olsa belə, məunəni o ilin qazancından ayıra bilər. Amma o deyilən xümsü verilmiş malın gəliri ilə müştərək şəkildə məunəyə xərcləyərsə, vacibdir ki, yerdə qalan gəlirin xümsünü tamamilə ödəsin. Xümsü verilmiş maldan (ya puldan) məunəyə xərclədiyi miqdarı gəlirdən ayırmaq olmaz. Məsələn, əgər xümsü verilmiş düyünü işlədərsə, onun əvəzinə o ilin gəlirindən aldığı düyünü gəlirdən ayıra bilməz.[2]

---

[1] Yəni məunəni gəlirdən çıxmaqda. (Mütərcim)

[2] Amma xümsü verildiyi düyünü saxlayıb, o ilin gəlirindən aldığı düyünü işlədərsə, xümsü verildiyi düyünün onun əlində olmasına baxmayaraq, işlətdiyi düyü o ilin gəlirindən çıxılır. (Mütərcim)

Buna əsasan, o ilin gəliriylə aldığı düyünün işlətdiyi miqdarına xüms yoxdur, amma qalanının xümsünü ödəməlidir.

**Məsələ-1174.** Gəliri və qazancı olan bütün şəxslərin gəlirlərinin çox, yaxud az olmağından, evli, yaxud subay olmağından asılı olmayaraq xüms ili təyin edib gəlirlərini hesablayıb ilin sonunda qalan miqdarın xümsünü ödəmələri lazımdır. Əlbəttə, ilin sonunda hesablamaq va illik gəliri hesablamaq müstəqil olaraq vacib deyil. Bu, xümsün miqdarını bilmək üçün bir yoldur. Şəxs onun əmlakına xümsün düşdüyünü bildikdə, lakin onun miqdarını bilmədikdə (xüms ilinin olması və illik qazancın xümsünün hesablanması) vacib olur. Amma qazancından bir şey əlində qalmazsa və əldə etdiklərinin hamısını məunəyə xərcləyirsə, malına xüms gəlmir ki, hesablamaq ona vacib olsun.

**Məsələ-1175.** Qazanclarını evdə müştərək şəkildə xərcləyən ər və arvadın hər birinə öz gəlirləri əsasında müstəqil xüms ili təyin edib ilin sonunadək (yəni xüms ili yetişənədək) xərclədiklərindən artıq qalan mallarının (və pullarının) xümsünü ödəmək vacibdir. Həmçinin bəzən qazanc əldə edən evdar qadına da gəlir əldə etdiyi ilk günü xüms ili təyin edib illik xərcindən artıq qalan miqdarın xümsünü ödəmək vacibdir, baxmayaraq ki, ərinin xüms ili var və öz qazancının xümsünü ödəyir.

**Məsələ-1176.** Şəxs özü öz malının xümsünü hesablayıb ödəyə bilər.[1]

## Xüms ili təyin etmək

**Məsələ-1177.** Xüms ilinin başlanmasında mükəlləfin təyin etməsinə ehtiyac yoxdur (yəni xüms ilinin əvvəli mükəlləfin təyin etməsiylə müəyyən olmur). O, həqiqi bir vaxtdır ki, öz-özlüyündə illik gəlirin ələgəlmə vaxtı əsasında hasil olur. Buna əsasən, işçi və fəhlə kimi şəxslərin xüms ilinin başlaması birinci maaş və muzdlarını almaq

[1] Bəzi şəxslərin etdiyi kimi, mallarının xümsünü müctəhid nümayəndələrinə hesablatdırmaq lazım deyil. (Mütərcim)

imkanı olan zamandır. Tacir və alverçilərin xüms ilinin əvvəli ticarət və alverə başladıqları tarixdəndir. Əkinçilərin xüms ilinin başlanğıcı ilk məhsulu əldə etdikləri zamandandır.

**Məsələ-1178.** Yuxarıdaki məsələdə deyildiyi kimi işçi, fəhlətək maaş və muzd alan şəxslərin xüms ilinin başlanğıcı maaş və muzdlarını aldıqları, yaxud ala bildikləri gündən hesablanır, nəinki işə başladıqları gündən.

**Məsələ-1179.** Xüms ilini həm hicri-qəməri, həm də hicri-şəmsi (yaxud miladi) tarix ilə götürmək olar və bu seçimdə mükəlləf azaddır.

## Sərmayənin xümsünü hesablamaq və ödəməyin yolları

**Məsələ-1180.** Sərmayənin xümsünü hesablamaq üçün əvvəl xüms ilinin başında bütün mallarının qiymətini və nağd pulları hesablayıb xümsünü ödəməlidir. Sonrakı ildə mövcud sərmayəni əvvəlki ildəki sərmayə ilə (yəni ötən ildə xümsünü verdiyi sərmayə ilə) müqayisə etməlidir. Əgər əsl sərmayədan artıq olarsa, mənfəət sayılır və artığının xümsünü ödəməlidir. Amma birinci sərmayədən artıq olmazsa, xüms vacib deyil. Məsələn, əgər bir şəxsin sərmayəsi doxsan səkkiz baş qoyun və müəyyən qədər nağd puldursa və ilin sonunda mövcud qoyunlarla nağd pulun cəmi doxsan səkkiz baş qoyunun qiyməti və keçən il əldə olduğu nağd pul miqdarından artıq olsa, artığın xümsünü ödəmək vacibdir.

**Məsələ-1181.** Sərmayənin xümsünün hesabında mümkün olması təxminlə olsa belə, (nağd olmayan) mallara qiymət müəyyən edilməsi vacibdir.

**Məsələ-1182.** Hədiyyə və bu kimi xümsü olmayan mal sərmayə ilə qarışarsa, ilin sonunda onu sərmayədən istisna etmək caizdir (olar). Belə ki, onu gəlirdən ayırıb qalanın xümsünü versin. Amma öz məunəsini sərmayədən götürdüyü təqdirdə, mağazaçı kimi sərmayədən götürmək məqsədi olmadan sərmayədən xərclədikləri

xümsü verilmiş və verilməmiş mallar arasında nisbi olaraq paylanmalıdır.

**Məsələ-1183.** Əgər şəxs keçmiş gəlirlərinin xümsünü hesablamağın səhihliyində şəkk etsə, yenidən xüms ödəmək vacib deyil. Amma gəlirin keçmiş, yaxud indiki ilə aid olmasında şəkk edərsə, ehtiyat üzündən onun xümsünü verməsi vacibdir.

**Məsələ-1184.** Əgər bir şeyin xümsünü verib-verməməyində şəkk etsə, şəkk etdiyi şey xüms vacib olanlardan olarsa, vacibdir xümsünü ödəməyinə yəqinlik hasil etsin.[1]

**Məsələ-1185.** Gəlirinə xümsün vacib olub-olmamasını bilməyən şəxslərə vacibdir ki, şəri-hakim və ya onun vəkili ilə müsalihə[2] etsin. Məsələn, əgər bir şəxsin yəqini var ki, mənzil aldığı pul onun qazancla əldə etdiyi pul ilə olub. Lakin xüms ilinin arasında, yoxsa xüms ili yetişdikdən sonra pulu verməsində və pulun xümsünü verməməsində (bu halda deyildiyi kimi sülh etməlidir) şəkk edir.

**Məsələ-1186.** Məlum olan xümsü müsalihə etmək olmaz (müsalihə şəkli olan yerlərə aiddir).

## Dəstgərdan[3]

**Məsələ-1187.** Xüms vacib olan zaman onu ödəməyə imkan olmadıqda gərək öhdəsində olan xümsü şəri-hakim, yaxud onun vəkili ilə dəstgərdan edib sonradan miqdar və zaman baxımından öz qüvvələri əsasında onu tədricən ödəsinlər.

---

[1] Belə bir şəkk zamanı xümsü verməyə yəqin hasil etmək onun xümsünü ödəməklə ələ gəlir. (Mütərcim)

[2] Razılaşma (Mütərcim)

[3] Dəstgərdan budur ki, xüms borcu olub, hal-hazırda onu bütövlükdə ödəyə bilməyən şəxslərə hakimi şəri icazə verir ki, xüms məbləğində olan miqdarı hakimi şərə yaxud onun nümayəndəsinə ödəsin və o, (hakimi şəri yaxud nümayəndəsi) məbləği borc olaraq müəyyən müddətdə tədricən qaytarmaq şərtilə onun özünə qaytarır. Bu işlə onun boynundan xüms götürülür, lakin o, həmən məbləğdə hakimi şərə borclu qalır və tədricən onu ödəyir. (Mütərcim)

**Məsələ-1188.** Əgər bir şəxs xüms vacib olmayan malın xümsünü versə, o məbləğ onun şəri məsrəfinə xərclənibsə, həmin məbləği hal-hazırda borclu olduğu xüms yerinə hesab edə bilməz. Amma onun verdiyi malın özü qalıbsa, onu tələb edə bilər.

**Məsələ-1189.** Xümsü və digər şəri hüquqları bank vasitəsilə ödəməyin işkalı yoxdur. Buna əsasən, xümsün özünü vəlisinə (şəri-hakim, yaxud onun vəkilinə) ödəməyə imkanı olmayan şəxslər, onu bank vasitəsilə ödəyə bilərlər. Hərçənd ki, bankdan götürülən pul onun verdiyi pulun eyni olmayacaq.

## Mədənin xümsü

**Məsələ-1190.** Müəyyən bir şəxs, yaxud müştərək şəkildə bir neçə nəfər vasitəsilə çıxarılan mədənin xümsü vacibdir. Bu şərtlə ki, müəyyən şəxsin, müştərək olduqda isə hər bir şərikin səhmi onun çıxarılmasına çəkdiyi xərci çıxarıldıqdan sonra iyirmi misqal qızıl, yaxud iki yüz misqal gümüş miqdarında və ya onun ikisindən birinin miqdarı qədər qiyməti olsun.

**Məsələ-1191.** Mədənə xümsün vacibolma şərtlərindən bəzisi budur ki, onu şəxs, yaxud bir neçə nəfər şərikli olaraq çıxarsın. Bu şərtlə ki, şərikli olduqları təqdirdə hər birinin səhmi nisab həddinə[1] çatsın və çıxardıqları mədən onların mülkü olsun. Buna əsasən, dövlətin çıxardığı mədən müəyyən şəxsin və ya bir neçə şərikin mülkü sayılmadığı üçün və müəyyən bir cəhətin mülkü olduğu üçün xümsün vacibolma şərtinə malik olmur. Nəticədə dövlətin öhdəsinə çıxarılan mədənin xümsünü ödəmək vacib olmur.

---

[1] Miqdar baxımından vacib olma həddi "nisab" həddi adlanır. (Mütərcim)

## Harama qarışmış halal mal

**Məsələ-1192.** Bir şəxs mallarının (və ya pullarının) içində haram mal (və ya pulun) olmasına yəqin etsə, sahibini tanımayıb (yəni tapa bilməyə) və malın (və ya pulun) dəqiq miqdarını da bilməsə, o malın (və ya pulun) halal etmək yolu onun xümsünü ödəməkdir. Əgər haram malın onun malına qarışmasına şəkk edərsə, vacib deyil və öhdəsinə bir şey gəlmir.

**Məsələ-1193.** Əgər şəxs xüms və zəkat verməyən, malları da riba ilə qarışıq olan bir ailə ilə yaşasa, nə qədər ki, istifadə etdiyi malın haram olmasına yəqini yoxdur, onu istifadə edə bilər (baxmayaraq ki, o ailənin ümumiyyətlə xüms və zəkat əhli olmadığına yəqini var. Lakin bu o demək deyil ki, onun hal-hazırda istifadə etdiyi malların da haram olmasına yəqini olsun). Əlbəttə ki, istifadə etdiyi malın haram olmasına yəqini olduqda onu istifadə etmək caiz deyil. Bu zaman həmin ailədən ayrılıb ayrı yaşamaq onun üçün hərəc və məşəqqətli olduqda, o maldan istifadə etməyin işkalı yoxdur, lakin işlətdiyi malların başqasının olduğu miqdarında ona zamin olacaq (yəni onu ödəmək şəxsə vacib olacaq).

## Xümsün məsrəfi
## (istifadə və ödənmə yerləri)

**Məsələ-1194.** Xüms iki bərabər hissəyə bölünür: Onun bir hissəsi İmamın (ə) mübarək səhmi, digər hissəsi isə seyidlərin səhmidir.

**Məsələ-1195.** İmamda (ə) məqsəd hər əsr və zamanın məsum imamıdır ki, bizim əsrimizdə on ikinci rəhbər İmam Məhdidir (ə.f.). Seyidlərdə məqsəd ata tərəfdən Peyğəmbərin (s) babası cənab Haşimə yetişən şəxslərdir (Bu barədə sonradan izahlar veriləcək).

**Məsələ-1196.** İmamın (ə) mübarək səhmi bizim İmama əlimiz yetismədiyi zamanda ümumiyyətlə vəliyyi-əmri müsliminin (müsəlmanların işləri öhdəsində olan fəqihin, yəni vəliyyi-fəqihin) ixtiyarında qoyulmalıdır ki, o, İmam Zamanın (ə.f.) razı olduğu yerlərə, həmçinin müsəlmanların xeyirlərinə, xüsusilə, dini elmi hövzələri

idarə etməyə və s. xərcləsin. Seyidlərin səhmləri də İmamın (ə) səhmi kimi müsəlmanların vəliyyi-əmrinə aid olur. Buna əsasən, boynunda xüms olan şəxslər istər İmamın (ə) mübarək səhmini, istərsə də seyidlərin səhmini gərək xüms vəlisinə (vəliyyi-fəqihə), yaxud onun vəkilinə təhvil versinlər. Əgər onu özləri dini və faydalı kitablar alıb paylamaq üçün ehtiyacı olan seyidlərin evlənməsinə və ya onların su pulu, işıq pulu kimi və s. xərclərinə vermək istəyirlərsə, gərək əvvəlcədən bu işlər üçün icazə alınsın.

**Məsələ-1197.** Hər bir möhtərəm mərcəi-təqlidlərin (Allah onların bərəkətlərini davamlı etsin) müqəllidləri iki mübarək səhmi (yəni xümsün hər iki hissəsini) öz mərcəi-təqlidinin fətvasına istinad edərək xərcləyərsə, boynundan düşür (və kifayətdir).

**Məsələ-1198.** İmamın (ə.f.) mübarək səhmi və seyidlərin səhmini bağışlamaq olmaz.

**Məsələ-1199.** (Xüms və zəkat kimi) şəri hüquqla ticarət etmək hərçənd onun mənfəətini mədəniyyət müəssisələrində işlətmək məqsədiylə olsa belə, xümsün vəlisinin icazəsi olmadan işkallıdır. Əgər onunla ticarət edilərsə, gəlir sərmayəyə tabedir və hər ikisi birlikdə gərək öz yerinə çatdırılsın, Buna əsasən də ona (mənfəətə) ayrıca xüms verilmir (əksinə bütövlükdə xümsün gəliri sayılır).

**Məsələ-1200.** Əgər bir şəxs (xüms vəlisi tərəfindən) xüms almaqda icazəsinin olmasını bildirən şəxsin dediyinə şəkk edərsə, ehtiramla ondan yazılı surətdə xüms vəlisinin icazəsini və ya icazəsini təsdiq edən möhürlü pul qəbzini təqdim etməyini tələb edə bilər. Bu zaman əgər onun dediyi düzgün olarsa və xüms vəlisinin icazəsi ilə əməl edərsə, təsdiq olunur.

**Məsələ-1201.** İmam (ə.f) və seyidlərin səhmini ona şəri baxımdan ehtiyacı olmayanlara və dini elmi hövzəsinin qanunları aid olmayanlara caiz deyil.

## Seyidlərin səhmi verilən şəxslərin şərtləri

**Məsələ-1202.** Aşağıdakı şərtlərə malik olan seyidə seyid səhmi vermək olar:

1. Siyadət (seyid olsun);
2. İman (on iki imama etiqadı olsun);
3. Yoxsul olsun;
4. Vacibun-nəfəqə olmasın (yəni nəfəqəsini vermək xüms verənə vacib olmasın);
5. Günahda xərcləməsin;
6. Aşkar günah etməsin.

## Seyidlik

**Məsələ-1203.** Yalnız ata tərəfdən Peyğəmbərin (s) babası cənab Haşimə yetişən şəxslər (seyidlər) seyid səhmindən istifadə edə bilər. Buna əsasən, Ələvi, Əqili və Əbbasi seyidlərin də Haşimi olduqları üçün bu imtiyazdan istifadə etmək haqları var.

**Məsələ-1204.** Ata tərəfdən Əbbas ibni Əliyə (ə) yetişən şəxslər Ələvi seyidlərdir.

**Məsələ-1205.** Baxmayaraq ki, ana tərəfdən Peyğəmbəri-əkrəmə (s) yetişən şəxslər də Peyğəmbərin (s) övladları sayılırlar, lakin seyidliyin hökmlərinin meyarı ata tərəfdən yetişməkdir.

**Məsələ-1206.** İşləri, qazancları olan seyidlərin qazanc və gəlirləri onların normal və şənləriylə münasib tələbatını ödəyirsə, xüms ala bilməzlər.

**Məsələ-1207.** Onların nəfəqələrini ödəməkdə ataları səhlənkarlıq edən seyid ailələri öz nəfəqələrini atalarından almaq imkanları olmadığı təqdirdə nəfəqələri miqdarında seyidlərin səhmindən onlara vermək olar.

**Məsələ-1208.** Əgər ehtiyaclı seyidlərin yemək və geyimlərindən əlavə öz şənləri ilə münasib başqa şeylərə də ehtiyacları varsa, onları təmin edəcək miqdarında seyidlərin malından vermək olar.

**Məsələ-1209.** Əgər seyidə bir xanımın əri yoxsulluq üzündən onun nəfəqəsini verə bilmirsə və xanımın özü də yoxsuldursa, ehtiyacını təmin etmək miqdarında seyidlərin səhmindən alıb onu özü, uşaqları, hətta əri üçün xərcləyə bilər.

**Məsələ-1210.** Vacibün-nəfəqəyə xüms vermək olmaz. Məsələn, şəxs öz fəqir ata-anasına kömək etmək imkanında olarsa, öz xümsünü onlara verə bilməz.

## Xümsün müxtəlif məsələləri

**Məsələ-1211.** Xüms vacib olub-olmamasında şəkk edilən malı işlətməyin işkalı yoxdur.

**Məsələ-1212.** Xüms əhli olmayan şəxsin yeməyindən yeməyin işkalı yoxdur.

**Məsələ-1213.** Əgər mağaza sahibi onunla alver edən (və ona malın müqabilində) pul ödəyən müştərinin pulunun xümsünü verib vermədiyini bilməsə, öhdəsində bir şey yoxdur və axtarış da vacib deyil.

**Məsələ-1214.** Dini işlərə, xüsusilə, namaz və xümsə əhəmiyyət verməyən müsəlmanla get-gəl etmək onun bu dinə olan laqeydliyini bir növ təsdiqləmək olmazsa, işkalı yoxdur. Amma onunla müvəqqəti olaraq əlaqəni kəsmək dini işlərə əhəmiyyət verməkdə təsirli olarsa, vacibdir ki, müvəqqəti olaraq nəhy-əz-münkər baxımından onunla get-gəli tərk etsin.

**Məsələ-1215.** Bir şəxs Allahın evinin ziyarətinə getmək üçün həcc və ziyarət idarəsinə müəyyən məbləğdə pul ödəyib həccə getməzdən öncə dünyasını dəyişsə, həcc idarəsinə verdiyi məbləğin müqabilində aldığı çekin hal-hazırdakı qiyməti onun tərəkəsi (yəni onun tərk edib qoyduğu mal, başqa sözlə ondan qalan pul ki, adətən irs sayılır) hesablanır. Bu zaman əgər onun boynunda vacib həcc yoxdursa və həccə getməyi vəsiyyət də etməyibsə, həmin məbləği onun tərəfindən həccə getməyə xərcləmək vacib deyil. O çekin

məbləği əgər xüms vacib olub və xümsü ödənməyən pulla ödənibsə, xümsünü ödəmək vacibdir.

## Ənfalın hökmləri

**Məsələ-1216.** Peyğəmbər (s) və onun məsum canişinlərinin ixtiyarında olan ümumi mallar "ənfal" adlanır. Ənfal İmamm (ə.f.) qeybdə olduğu zaman müsəlmanların vəliyyi-əmrinin ixtiyarındadır. Ənfal cəmiyyətin ümumi mənfəəti yolunda və hamının xeyrinə istifadə edilməlidir.

**Məsələ- 1217.** Ənfal aşağıdakılardan ibarətdir:

1. "Fey" (hücumsuz və müharibəsiz müsəlmanların əlinə düşən torpaq (yer) və qeyri-torpaq);
2. Abadlaşdırmadan başqa yolla istifadəsi mümkün olmayan yarar-sız torpaqlar (yerlər);
3. Sahibləri tərk edib getmiş şəhər və kəndlər;
4. Dənizlərin və böyük çayların sahilləri;
5. Təbii meşələr, qamışlıqlar, dərə və dağların başı;
6. Döyüş zamanı müsəlmanların əlinə keçən, padşahlara xas olan qiymətli və seçilib-sayılmış mallar;
7. Qiymətli at və geyim kimi böyük qənimətlər;
8. Müsəlmanların rəhbərinin icazəsi olmadan edilən döyüşdə əldə edilən qənimətlər;
9. Dünyadan gedib varisi olmayan şəxslərin malları;
10. Mədənlər.

**Məsələ-1218.** Bələdiyyə idarələrinin şəhəri və s. abadlaşdırmaq üçün çayların içinin qum və çınqıllarından istifadə etməsi caizdir, böyük və ümumi çayların xüsusi şəxslər tərəfindən xüsusi mülkiyyət iddiası sürməsi qəbul edilmir.

**Məsələ-1219.** Qabaqcadan xüsusi mülkiyyəti olmayan təbii ümumi otlaqlar ənfal və ümumi mallardır. Onun ixtiyarı vəliyyi-əmrin (vəliyyi-fəqihin) əlindədir və heç bir yolla onun alğı-satqısı düzgün

deyil. Həmçinin tərəkəmələrin oraya qabaqcadan get-gəl etməsi həmin yerlərin onların mülkü olmağına səbəb olmur.

**Məsələ-1220.** Qabaqcadan xüsusi mülkiyyəti olmayan təbii ümumi otlaqların otları heç kəsin malı deyil, onu satmaq da heç kimə caiz deyil. Amma dövlət tərəfindən kəndlərin məsul şəxsləri kəndin ümumi işləri üçün o yerlərdə heyvan otaranlardan müəyyən məbləğ ala bilərlər.

**Məsələ-1221.** Camaatın şəxsi mülkünün yanında yerləşən otlaqlarda mal-qara otarmağa icazəsi olan şəxslərə mülk sahiblərinin razılığı olmadan onların mülkünə daxil olub sularından istifadə etmək caiz deyil.

**Məsələ-1222.** Vəqfin səhih olması vəqf edilən mal və mülkün qabaqcadan vəqfedənin malı və mülkü olmağına bağlı olduğu üçün, həmçinin irs yolu ilə malın və mülkün varisin mülkiyyətinə keçməsi irs aparılan mal və mülkün müvərrisin (irs qoyanın) malı və mülkü olmasına bağlı olduğu üçün indiyə kimi şəxsi mülk olmayan, qabaqcadan kiminsə tərəfindən abadlaşdırılmayan təbii meşə və otlaqları vəqf etmək düzgün deyil, irs yolu ilə heç bir şəxsin mülkiyyətinə daxil olmur. Çünki heç bir şəxsin xüsusi mülkü deyil, Amma hər halda meşələrdən hər nə qədər qanuni və şəri yolla tarla və ya bina kimi abadlaşdırılıb şəri mülk olubsa, əgər vəqf olarsa, o yerdən (hər növ) istifadə etmək onun şəri vəlisinin ixtiyarındadır. Əgər vəqf olmazsa, ixtiyarı sahibindədir, lakin təbii meşə halında qalan hissələr ənfal və ümumi maldır, onu istifadə etmək şəri qanunlara tabedir.

# CİHADIN HÖKMLƏRİ

**Məsələ-1223.** “Cihad” burada İslama dəvət etmək, onu genişləndirib yaymaq naminə və ya düşmən təcavüzünün qarşısını almaq üçün səy və təlaş mənasındadır.

**Məsələ-1224.** Cihad dinin ən mühüm sütunlarından biridir və onun vacibliyi İslam dininin zərurilərindən sayılır.

**Məsələ-1225.** Cihad iki qisimdir:

**1. İbtidai cihad:** İbtidai cihad İslama dəvət etməyin maneələrini aradan qaldırmaq üçün həyata keçirilir və İslam ordusu düşmən tərəfindən hücuma məruz qalmadan İslam təbliğinin maneələrini aradan qaldırmaq, digər yerlərin müsəlman olması, İslamı və uca haqq kəlməni genişləndirmək, dini şüarları bərpa etmək, kafir və müşrikləri hidayət etmək, müşrüklük və bütpərəstliyi aradan götürmək, maneələri aradan qaldırmaq məqsədiylə edilən cihad və müharibədir (Həqiqətdə ibtidai cihadın məqsədi ölkəni genişləndirmək yox, millətlərin küfr və şirk qüdrətləri tərəfindən allahpərəstlik, tövhid və ədalət kimi məhrum edildikləri fitri hüquqlarını müdafiə etməkdir).

**2. Müdafiə cihadı:** Müdafiə cihadı düşmən təcavüzünün qarşısını almaq məqsədiylə həyata keçirilir. Bu o zaman baş verir ki, düşmən müsəlmanların torpağına hücum edərək onlara hərbi, siyasi, mədəni və iqtisadi ağalıq etmək istəyir.

## İbtidai cihad

**Məsələ-1226.** İbtidai cihad Peyğəmbəri-əkrəmin (ə) və məsum İmamların (ə) zamanına xas deyil, müsəlmanların işlərinin vilayəti öhdəsində olan cameüş-şərait müctəhid də məsləhət gördüyü zaman ibtidai cihada hökm edə bilər.

**Məsələ-1227.** Əhli-kitab (yəhudi, məsihi və zərdüştilər kimi) nə qədər ki, himayəsində yaşadıqları İslam dövlətinin qayda-qanun-

larına tabe olurlar və əmniyyətə müxalif bir iş görmürlər, "müahəd" hökmündədirlər (yəni onların can, mal və abırları qorunmalı, şəri və qanuni hüquqlarına riayət olunmalıdır).

**Məsələ-1228.** Əgər kafirlər İslam ölkəsinə hücum edib bəziləri döyüşdə müsəlmanların əliylə əsir düşsələr, onların taleyini müəyyən etmək İslam hakiminin əlindədir. Buna əsasən, heç bir müsəlmana istər kitabi, istər qeyri-kitabi kafiri, istər qadını, istərsə də kişini küfr məntəqəsində və ya İslam məntəqəsində öz mülkiyyətinə keçirmək caiz deyil.

## Müdafiə cihadı

**Məsələ-1229.** İslam və müsəlmanları müdafiə etmək vacibdir, valideynin icazəsinə bağlı deyil. Amma eyni zamanda imkan daxilində valideynin də razılığının alınması çox yaxşıdır.

**Məsələ-1230.** Əgər möhtərəm canı [1] qorumaq və onun ölmünün qarşısını almaq dərhal və birbaşa dəxalət etməyə bağlı olarsa, bu iş şəri baxımdan caizdir, hətta möhtərəm canı qorumağın vacib olması baxımından vacibdir. Bu iş öz-özlüyündə hakimin icazəsinə və ya onun əmrinə bağlı deyil (bu şərtlə ki, möhtərəm canı müdafiə etmək hücum edən şəxsin ölümünə bağlı olmasın).

Amma möhtərəm canı müdafiə etmək hücum edən şəxsin ölümünə bağlı olarsa, bu təqdirdə müxtəlif vəziyyətlər ortaya çıxır və onların fərqli hökmləri ola bilər.

---

[1] Məqsəd öldürülməsi haram olan şəxsdir, məsələn, müsəlmanlar və İslam himayəsində olan müahəd və zimmi kafirlər. Necə ki, bir sıra insanların canları möhtərəm sayılmır və öldürmələri haram deyil, İslam hakimi tərəfindən qətlinə hökm edilən şəxs kimi. (Mütərcim).

# ƏMR-BE-MƏRUF VƏ NƏHY-ƏZ-MÜNKƏRİN
## (VACİBLƏRƏ ƏMR, HARAMLARDAN NƏHY ETMƏYİN) HÖKMLƏRİ

**Məsələ-1231.** Əmr-be-məruf və nəhy-əz-münkər camaatı yaxşı işlərə vadar etmək və pis əməllərdən çəkindirməkdir.

**Məsələ-1232.** Əmr-be-məruf və nəhy-əz-münkər İslamın ən böyük vaciblərindən biri sayılır. Bu böyük ilahi vacibi tərk edənlər, yaxud ona qarşı laqeyd olanlar günahkardırlar, axirətin çətin və ağır əzabları onları gözləyir. Əmr-be-məruf və nəhy-əz-münkər nəinki İslam fəqihlərinin yekdilliklə fətva verdiyi vaciblərdəndir, hətta İslam dininin zərurilərindən sayılır.

**Məsələ-1233.** Əmr-be-məruf və nəhy-əz-münkər onun şəri şərtlərini riayət etməklə İslam hökmlərini və ictimai sağlamlığı qorumaq üçün ümumi şəri təklifdir. Nəhy-əz-münkər edən şəxsə, yaxud İslam dininə qarşı bəzilərinin bədbin olması xəyalı ilə bu mühüm İslam vəzifəsini tərk etmək olmaz.

**Məsələ-1234.** Qanunla müxalif əməl edən şəxslərin əməlindən xəbərdar olan şəxslərə, şəri şərtləri və qanunları riayət etməklə nəhy-əz-münkər etmək vacibdir. Amma əgər əmr-be-məruf və nəhy-əz-münkərin şərtləri olmasa, heç bir vəzifəsi yoxdur. Məsələn, əgər vacibi yerinə yetirdiyi təqdirdə yuxarı məqamlar tərəfindən ona zərər yetişəcəyindən qorxsa, bu təqdirdə təklif boynundan düşür. Təbii ki, bu hökm o zamandır ki, İslam hökuməti hakimiyyət etməsin.

Amma İslam hökuməti hakimliyi edərsə, bu vacibə gücü çatmayanlara lazımı yerdə (yəni əmr-be-məruf və nəhy-əz-münkər məqamında) bu iş üçün ayrılıb nəzərdə tutulmuş məsul təşkilatları xəbərdar etməsi vacibdir. Onlar bu fəsadın mənşəyi ilə bağlı tədbirlər görməklə fəsadın kökünü kəssinlər. Qeyri-qanuni yollara əl atmaq hətta fəsadın qarşısını almaq üçün caiz deyil.

**Məsələ-1235.** Münkərlər (haram əməllər) münkər olmaq baxımından bir-birindən fərqlənmir. Amma mümkündür ki, onların bəziləri bir-biriylə müqayisədə şiddətli haram olmağa malik olsun. Hər-halda

əmr-be-məruf və nəhy-əz-münkər onun şərtlərini aşkar edən şəxslərə şəri bir təklifdir və onu tərk etmək caiz deyil.

**Məsələ-1236.** Məsul orqanlara İslam ölkəsinin bəzi müəssisələrində çalışan əcnəbilərə şərab içmək, haram ət yemək və s. kimi haram yeməkləri aşkar etməkdən çəkindirmələri barədə tapşırıq vermələri və onların aşkar yemələrinin qarşısını almaları vacibdir. Amma ümumi iffətlə müxalif olan işlərin qarşıya çıxmasına heç bir halda imkan verilməməli və məsul orqanlar tərəfindən bu barədə münasib tədbirlər görülməlidir.

**Məsələ-1237.** Mömin cavanlara vacibdir (oğlanlarla qızların birlikdə təhsil aldıqları) qarışıq universitetlərdə, bəzi məkanlarda müşahidə etdikləri fəsad qarşısında fəsada mübtəla olmaqdan özlərini qorumaqla bərabər, əmr-be-məruf və nəhy-əz-münkər şərtləri olduqda, onları münkər əmələ mübtəla olmaqdan nəhy etmələri vacibdir.

**Məsələ-1238.** Kamil hicaba riayət etməyən qadınlara əmr-be-məruf və nəhy- əz-münkər etmək onlara reybə ilə baxılmağa bağlı deyil və (əmr-be-məruf və nəhy-əz-münkər şərtləri olduqda onları əmr-be-məruf və nəhy-əz-münkər etmək) vacibdir.

## Əmr-be-məruf və nəhy-əz-münkərin əhatə dairəsi

**Məsələ-1239.** Əmr-be-məruf və nəhy-əz-münkərin əhatə dairəsi camaatın müəyyən bir sinif və qrupuna xas deyil, əmr-be-məruf və nəhy-əz-münkər etməyə şərtləri olan bütün qruplara və siniflərə vacibdir, hətta qadına (xanıma) və övlada da ərindən, yaxud ata və ya anasından mərufu (vacibi) tərk etdiyini, yaxud haram iş gördüyünü müşahidə etdikləri zaman və (əmr-be-məruf və nəhy-əz-münkərin şərtləri olduğu təqdirdə) onları əmr-be-məruf və nəhy-əz-münkər etmələri vacibdir.

**Məsələ-1240.** Əmr-be-məruf və nəhy-əz-münkərin məqamı və şərtləri mövcud olduğu zaman buna əməl etmək bütün mükəlləflərin

vacib şəri vəzifəsidir. Mükəlləflərin evli və subay olmaqları kimi müxtəlif halları bu barədə fərqə səbəb olmur.

## Əmr-be-məruf və nəhy-əz-münkərin şərtləri

### 1. Məruf və münkəri tanımaq

**Məsələ-1241.** Əmr-be-məruf və nəhy-əz-münkərin birinci şərti məruf və münkəri tanımaqdır. Yəni əmr və nəhy edən şəxs gərək məruf və münkəri tanısın, əks təqdirdə əmr və nəhy etmək təklifi yoxdur, hətta bu halda həmin işi görməməlidir. Çünki bu zaman cahillik və bilməmək üzündən münkərə əmr, mərufdan nəhy edə bilər. Buna əsasən, bir şəxsin etdiyi əməlin münkər olduğunu bilmədən nəhy və əmr etməsi vacib deyil, hətta heç caiz də deyil (məsələn, bir şəxsin qulaq asdığı musiqinin haram və halal növdən olduğunu bilmədən onu nəhy etmək caiz deyil).

### 2. Təsir ehtimalı vermək

**Məsələ-1242.** Əmr-be-məruf və nəhy-əz-münkərin ikinci şərti təsiretmə ehtimalı verməkdir. Yəni əmr və nəhy edən şəxs gərək (ən azı) ehtimal versin ki, hətta gələcəkdə nəticə versə belə, onun əmri və nəhyi təsirli olsun.

**Məsələ-1243.** Əgər məsullara qəti şəkildə idarə işçilərinin bəzilərinin namaz qılmaqda səhlənkarlıq etmələri və ya namaz qılmamağı məlum olsa, onlara nəsihət etməyin də təsiri yoxdursa, yenə də vacibdir ki, onlara davamlı şəkildə nəsihət etməyin təsirindən qafil olmasınlar. Amma artıq əmr-be-məruf və nəhy-əz-münkərin onlara təsir etməyindən naümid olduqda, əgər qanun çərçivəsində belə şəxsləri iş imtiyazlarından məhrum etmək üçün müəyyən tədbirlər nəzərə alınıbsa, gərək həyata keçirilsin, özlərinə də bu məhrumiyyət onların ilahi fərizəyə (vacibə) səhlənkar yanaşmaqlarına görə olması bildirilsin.

### 3. Günahda israr etmək (təkrar etmək)

**Məsələ-1244.** Əmr-be-məruf və nəhy-əz-münkərin üçüncü şərti günahda israr etməkdir, yəni günahkar şəxsin günah əməlinə davam etməsidir. Əgər onun əmr-be-məruf və nəhy-əz-münkər etmədən öz səhvindən əl çəkib mərufu yerinə yetirərək və münkəri tərk edəcəyi məlum olsa, əmr və nəhy vacib deylil.

### 4. Fəsadın olmaması

**Məsələ-1245.** Əmr-be-məruf və nəhy-əz-münkərin dördüncü şərti (hər hansı) bir fəsadın yaranmamasıdır, yəni gərək əmr və nəhy fəsada səbəb olmasın. Belə ki, əgər əmr və nəhy etmək əmr və nəhy edən şəxsə, yaxud hər hansı bir müsəlmana can, mal və abır zərəri kimi fəsad yaranmasına səbəb olsa, bu zaman əmr və nəhy vacib deyil. Əlbəttə ki, işin əhəmiyyətini nəzərə almaq lazımdır. Belə ki, gərək bütün məruf və münkərlərdə əmr və nəhydən qarşıya çıxacaq zərər və fəsad arasında, əmr və nəhyi tərk etməyə görə yaranacaq zərər və fəsad arasında müqayisə edilsin. Sonra daha əhəmiyyətlisi əsasında əməl edilsin.

**Məsələ-1246.** Əgər bir şəxs nüfuzlu və xüsusi ictimai mövqeyi olan bir şəxsi əmr-be-məruf və nəhy-əz-münkər etməsi ilə qarşı tərəfdən özünə mühüm zərərin yetişməsindən qorxarsa, ona əmr və nəhy etməyi vacib deyil. Bu şərtlə ki, onun qorxusunun əqli bir mənşəyi olsun. Amma vacibi tərk edən və haram iş görən bir şəxsin ictimai məqamını nəzərə almaqla, yaxud onun tərəfindən kiçik bir zərərin yetişməsi ehtimalı ilə mömin qardaşa moizə etməkdən çəkinmək heç də münasib deyil. Hər halda əhəmiyyəti nəzərə almaq lazımdır (yuxarıdakı məsələdə deyildiyi kimi).

**Məsələ-1247.** Əmr-be-məruf və nəhy-əz-münkər o zaman vacibdir ki, (yuxarıda deyilən) dörd şərt onda olsun. Əgər şərtlərdən biri olmazsa, məsələn, fəsada səbəb olarsa, hətta digər şərtlər onda olsa belə, vacib deyil.

**Məsələ-1248.** Əmr-be-məruf və nəhy-əz-münkərdə əmr və nəhy edən şəxs təkcə özü əməl etdiklərinə və qorunduqlarından əmr və nəhy etməsi şərt deyil. Başqa sözlə, əmr-be-məruf və nəhy-əz-münkər günahkar şəxslərə də vacibdir. Onun özü əməl etmir deyə bu işdən boyun qaçıraraq vacibə əməl etməməyə üzr gətirə bilməz (Dini mənbələrdə özü əməl etməyib başqalarını əmələ dəvət edənlərin və özü günah edib başqalarını günahdan çəkindirənlərin məzəmmət olunması buna görədir ki, nə üçün özləri dediklərinə əməl etmirlər, nəinki nə üçün əmr və nəhy edirlər).

**Məsələ-1249.** Əmr-be-məruf və nəhy-əz-münkərdə şərt deyil ki, əmr və nəhy etmək vacibi tərk edən və haram işi görənin abırının getməsinə, yaxud ehtiramının azalmasına səbəb olmasın. Buna əsasən, əgər əmr-be-məruf və nəhy-əz-münkər etməyin bütün şərtləri və qanunlarına riayət olunub hədd aşılmasa, o zaman əmr-be-məruf və nəhy-əz-münkər etmək vacibi tərk edən və haram işi görənin abrının getməsinə, yaxud ehtiramının azalmasına səbəb olsa belə, işkalı yoxdur.

## Əmr-be-məruf və nəhy-əz-münkərin mərhələləri

**Məsələ-1250.** Əmr-be-məruf və nəhy-əz-münkərin mərhələləri aşağıdakılardan ibarətdir:

1. Qəlblə əmr və nəhy etmək;
2. Dillə əmr və nəhy etmək;
3. Əməllə əmr və nəhy etmək.

**Məsələ-1251.** Əmr-be-məruf və nəhy-əz-münkərin mərhələlərinə riayət etmək vacibdir. Yəni nə qədər ki, aşağı mərhələ ilə məqsəd əldə olunur, yuxarı mərhələni tətbiq etmək caiz deyil.

### 1. Qəlblə əmr və nəhy etmək

**Məsələ-1252.** Əmr-be-məruf və nəhy-əz-münkərin birinci mərhələsi, qəlblə əmr və nəhy etməkdir. Qəlb ilə əmr və nəhy etməkdə məqsəd qəlbin razılıq, yaxud narazılığını bildirməkdir. Yəni mükəlləf

mərufa qarşı öz daxili razılığını, münkərə qarşı narazılıq və narahatlığını aşkar etməlidir. Bu yolla vacibi tərk edən, yaxud münkərə mübtəla olan şəxsi məruf əməli etməyə və münkərdən çəkinməyə vadar etməlidir.

**Məsələ-1253.** Qəlblə əmr və nəhy etməyin (daxili razılıq və narahatlığı izhar etməyin) dərəcələri vardır ki, (lazımdır onlar riayət olunsun. Belə ki,) aşağı və yüngül dərəcə ilə məqsəd əldə olunduqda, yuxarı və şiddətli dərəcəyə növbə yetişmir. Bu dərəcələr zəiflik, şiddətlik və növ baxımından çoxdur. Onların bəziləri bunlardan ibarətdir: təbəssüm və xoş üzlə rəftar etmək, gözü aşağı dikmək, diqqətlə baxmaq, əlin üstünə vurmaq, dodağı dişləmək, əl, yaxud başla işarə etmək, salam verməmək, üz döndərmək, arxa çevirmək, söhbəti dayandırmaq, qəzəblənmək və əlaqəni kəsmək.

## 2. Dil ilə (sözlə) əmr və nəhy etmək

**Məsələ-1254.** Əmr-be-məruf və nəhy-əz-münkərin ikinci mərhələsi dillə (və sözlə) əmr və nəhy etməkdir. Məqsəd budur ki, mükəlləf deməklə gərək müqabil tərəfdən münkərdən əl çəkib mərufa əməl etməsini istəsin.

**Məsələ-1255.** Dillə əmr və nəhy etməyin dərəcələri var. Ən aşağı mərhələ və ən aram intonasiya ilə məqsəd əldə edildiyi təqdirdə, yuxarı mərhələyə keçmək olmaz. Bu dərəcələr zəiflik, şiddət və növ baxımından çoxdur. Onların bəziləri bunlardan ibarətdir: yol göstərmək, yada salmaq, moizə etmək, nəsihət vermək, əməllərin (haramların) zərər və fəsadlarını, (vaciblərin) xeyir və məsləhətlərini sadalamaq, mübahisə və münazirə etmək, məntiqlə danışmaq, şiddətli və əsəbli danışmaq, təhdid etmək.

## 3. Əməllə əmr və nəhy etmək

**Məsələ-1256.** Əmr-be-məruf və nəhy-əz-münkərin üçüncü mərhələsi əl ilə əmr və nəhy etməkdir (yəni güc və qüdrətdən istifadə edib məcbur etməkdir). Məqsəd budur ki, mükəlləf gərək güc və

qüvvə tətbiq etməklə müqabil tərəfi harama mübtəla olmaq və vacibi tərk etməkdən saxlasın.

**Məsələ-1257.** (Əməli və əl ilə) əmr və nəhyin dərəcələri var. Onun aşağı və zəif dərəcəsiylə məqsəd əldə olunduqda yuxarı və şiddətli dərəcələrini tətbiq etmək olmaz. Bu dərəcələr zəiflik, şiddət və növ baxımından çoxdur. Onların bəziləri bunlardan ibarətdir: Şəxsə maneə yaratmaq və qarşısını almaq, əlindən almaq, günah vasitəsini əlindən çıxarmaq, arxaya itələmək, müqabil tərəfin əlini möhkəm tutmaq, həbs etmək, çətinliyə salmaq, vurmaq və döymək, yaralamaq, üzvünü sındırmaq, şikəst etmək, yarıcan etmək və öldürmək.

**Məsələ-1258.** İslam hakimiyyətinin iqtidarı zamanı dillə əmr və nəhy mərhələsindən sonrakı mərhələləri əmniyyət qüvvələri (polis) və məhkəməyə həvalə etmək lazımdır. Xüsusilə də günahın qarşısının alınması üçün əmlakın müsadirə edilməsi, cəza kəsilməsi, həbs edilməsi kimi güc tətbiq etməkdən başqa çıxış yolu qalmadığı hallarda mükəlləflərə vacibdir ki, əmr-be-məruf və nəhy-əz-münkərin qəlb və dil mərhələləri ilə kifayətlənsinlər. Zor və güc tətbiq etmək lazım olduqda məsul orqanlara müraciət etsinlər. Amma İslam hakimiyyəti olmayan yerdə mükəlləflərə əmr-be-məruf və nəhy-əz-münkərin şərtləri hasil olduqda məqsəd əldə olunanadək onun bütün mərhələlərini tərtiblə tətbiq etmələri vacibdir.

**Məsələ-1259.** İslam respublikasında əmr-be-məruf və nəhy-əz-münkər etməkdə dil mərhələsindən keçməməyin mükəlləflərə vacib olması fiqhi fətvadır (dövlət tərəfindən qəbul edilən qərar deyil).

**Məsələ-1260.** Müsəlmanın salamının cavabını vermək vacibdir. Amma haram iş görənin salamının cavabını nəhy-əz-münkər etmək məqsədiylə verməmək xalq arasında nəhy sayılarsa, caizdir.

**Məsələ-1261.** Dövlət tərəfindən əmr-be-məruf və nəhy-əz-münkər üçün ayrılmış orqanlar, məsul şəxslər öz vəzifələrini yerinə yetirməkdə səhlənkarlıq etsələr də başqaları üçün onların öhdəsində olan işlərə müdaxilə etmək caiz deyil. Amma əmr-be-məruf və nəhy-əz-münkərin hədd və şərtlərinə riayət etməklə camaatın əmr-be-məruf və nəhy-əz-münkər etməyinin işkalı yoxdur.

**Məsələ-1262.** Maşınlarında ğina və haram musiqi oxutduran sürücülərlə üzləşdikdə gərək nəhy-əz-münkər şərtləri varsa, onları nəhy etsinlər. Lakin ona dillə nəhy etməkdən artıq bir şey vacib deyil və nəhyi təsirsiz olduqda ğina və haram musiqiyə qulaq asmamaları vacibdir. Əgər ixtiyarsız olaraq eşidərsə, bir şey vacib deyil.

**Məsələ-1263.** Xəstəxanalarda tibb köməkçisi işləyənlər bəzən bəzi xəstələrin ğina və haram musiqilərə qulaq asdıqlarını müşahidə etdikdə və nəsihətinin də təsirsiz olduğunu gördükdə onların kasetlərindən haram musiqiləri pozmaq istəsələr bu iş onun sahibinin, yaxud şəri-hakimin icazəsiylə olmalıdır.

**Məsələ-1264.** Camaatın əmr-be-məruf və nəhy-əz-münkər məqsədiylə başqalarının evlərinə daxil olması caiz deyil. Buna əsasən, əgər qonşunun evindən uca haram musiqi səsi gələrsə və möminləri əziyyət edərsə, onların evinə girmək caiz deyil (Bu halda şərtlərə riayət etməklə qəlb və dillə nəhy-əz-münkər etmək lazımdır. Təsirsiz olduqda məsul orqanlara xəbər vermək lazımdır).

**Məsələ-1265.** Əgər bir şəxsin qohumlarından biri günah iş görsə və belə işlərə laqeyd olsa, gərək onun bu işlərinə nifrət bəsləyib öz narahatlığını izhar edərək müxtəlif təsirli yollarla onu nəsihət etsin. Amma əlaqəni kəsmək caiz deyil. Əgər müvəqqəti onunla əlaqəni kəsməklə onun günah işini tərk etməyinə səbəb olacağını ehtimal edərsə, bu zaman həmin iş əmr-be-məruf və nəhy-əz-münkər baxımından vacibdir.

**Məsələ-1266.** Hər bir mükəlləfə əmr-be-məruf və nəhy-əz-münkərin mərhələləri, vacib olub-olmayan yerlərini öyrənmək vacibdir ki, əmr və nəhy etməkdə özü harama düçar olmasın.

## Əmr-be-məruf və nəhy-əz-münkərin müxtəlif məsələləri

**Məsələ-1267.** Keçmişdə şərab içmək kimi haram iş görənlərlə rəftarın meyarı onların hal-hazırkı vəziyyətləridir. Belə ki, əgər keçmişdə etdikləri əməllərdən tövbə ediblərsə, onlarla get-gəl etmək digər möminlərlə get-gəl etmək hökmdədir. Amma hal-

hazırda da keçmiş haram əməllərindən əl çəkməyiblərsə, nəhy-əz-münkərin şərt və hədlərinə riayət etməklə nəhy-əz-münkər etmək vacibdir. Haram işdən əl çəkmələri yalnız onunla əlaqəni kəsməklə mümkün olursa, bu zaman o iş əmr-be-məruf və nəhy-əz-münkər baxımından vacibdir.

**Məsələ-1268.** Qızıl taxmaq mütləq şəkildə kişilərə haramdır. Habelə tikiş, rəng və s. kimi qeyri-müsəlman mədəniyyətlərini yayan bütün geyimlər də caiz deyil. Həmçinin İslam düşmənlərinin mədəniyyətlərini təqlid etmək sayılan zinət əşyalarından istifadə etmək də caiz deyil. Başqalarına belə rəftarların dil ilə nəhy etməklə qarşısını almaq vacibdir.

**Məsələ-1269.** Əri dini məsələlərə əhəmiyyət verməyən, məsələn, namaza laqeyd olan xanıma vacibdir onun islaholma şəraitini yaratsın və gərək hər növ dava-dalaşa səbəb olan, əxlaqsızlıq sayılan işlərdən çəkinsin. (Xatırladırıq ki,) dindar ailələrlə get-gəl etmək və əlaqə saxlamaq onun islah olmasında çox təsiri vardır.

**Məsələ-1270.** Alimlərin zalımlarla və zalım sultanlarla get-gəl və otur-dur etməsi, əgər onların zülmünün qarşısını almağa, münkərdən çəkinmələrinə səbəb olarsa, yaxud mühüm bir məsələni araşdırmaq zalım yanında araşdırmağa bağlı olarsa, işkalı yoxdur.

**Diqqət:** Namaz qılmayan şəxslə otur-dur etmək məcburiyyətində qalan və bəzən müəyyən işlərdə ona yardımçı olan şəxsə vacibdir ki, əmr-be-məruf və nəhy-əz-münkərin şərtləri yarandıqda əmr-be-məruf və nəhy-əz-münkər etsin. Onunla get-gəl etmək həmin şəxsi namaz qılmamağa təşviq etmirsə, işkalı yoxdur.

# ALVERİN HÖKMLƏRİ

## Müqəddimə

Ticarət (alver) insan üçün zəruri olanlardan biridir. İnsan həyatı yaranandan bu günədək istər fərdi və ibtidai, istərsə də ictimai və inkişaf etmiş şəkildə olub. Bu arada insan cəmiyyəti get-gedə nisyə və nağd alver təcrübələri əsasında ticarət üçün bir sıra qaydalar yaradıb ki, onların ticarətləri nizamlı şəkildə asanlıqla həyata keçsin, zərərlərin də qarşısı alınsın. Bu səbəbdən mübadilələrin bir qismi qadağan, bir qismi isə caiz elan olunub. Caiz mübadilələr üçün də ağıl və məntiq əsasında bir sıra qayda-qanunlar yaranıb. Məsələn, cəmiyyətə zərər vuran mübadilə və alverlər qadağan, xeyirli, məsləhətli mübadilə və alverlər isə caiz olub. Aydındır ki, məsləhət və fəsadların meyarları müxtəlif xalqlar arasında fərqlidir. Müxtəlif cəmiyyətlərin üsul və əsaslarına əsasən hər hansı mübadilənin bir cəmiyyətdə caiz, digər cəmiyyətdə qadağan olması mümkündür. Bəzilərinin gümanının əksinə olaraq (onlar ilahi dinləri təkcə mənəviyyata xas bilirlər və təsəvvür edirlər ki, şəriətin insan ictimaiyyətilə heç bir işi və əlaqəsi yoxdur) ilahi dinlər, xüsusilə İslam dini bəşər həyatını idarə etməyi öhdəsinə alıb və onların bütün fərdi, ictimai əlaqə və rəftarları üçün qayda-qanunları vardır. Bu cəhətdən müqəddəs şəriət sahibi insanların ictimai rəftarlarına aid olan məsələlərdən biri olan mal[1] mübadilələri məsələsində, İslam şəriəti əsasında olan öz baxış va fikirlərini (qanun və qaydalarını) bəyan edib. Bu bölümdə onların təfərrüatından danışılacaq.

### Haram müamilələrin (mübadilələrin) hökmləri

**Məsələ-1271.** Müamilələr[2] (mübadilələr) halal və haram baxımından iki qismə bölünür:

---

[1] Burada malda məqsəd onun ümumi mənasıdır, xarici mal, mənfəət və hüquqda da aid edilir.

[2] Müamilədə məqsəd (haram və halal) hər növ müamilədir və alğı-satqıya xas deyil.

1. Haram müamilələr: O mübadilələrdir ki, (şəriətdə) qadağan olub və insan onları etməyə görə cəzalanmalı olacaq.[1] Bəzi yerlərdə haram olmaqdan əlavə alver batil də olur, yəni alıb-satılan mallar bir-birinin mülkiyyətinə daxil olmur.[2] Məsələn, şərab alveri kimi ki, həm haramdır, onu alıb-satmaqla alıcı və satıcı cəzaya layiq olur, həm də alver batil olur.

2. Caiz müamilələr: O mübadilələrdir ki, şərtlərinə riayət etməklə səhih və təsirli olur, məsələn, ev alğı-satqısı kimi.

**Məsələ-1272.** Haram müamilələr dörd qisimdir:
1. Nəcis şeylərin müamiləsi;
2. Haram yolda işlədilən şeylərin müamiləsi;
3. Etina ediləsi halal mənfəəti olmayan şeylərin müamiləsi;
4. Haram əməllə edilən müamilə.

## Nəcis şeylərin müamiləsi

Bəzən nəcasətin özü, bəzən də nəcis olmuş şeylər müamilə edilir. Bu səbəbdən hər birinin hökmlərini ayrı-ayrılıqda bəyan edirik.

## Nəcisin özünün müamiləsi

**Məsələ-1273.** Nəcasətdən bəzilərinin (məsələn, şərab kimi) müamiləsi şübhəsiz haram və batildir. Amma mütləq şəkildə bütün nəcasətlərin müamiləsi haram, yaxud batil olmur. Bu bölümdə nəcislərin bəzilərinin müamiləsi barədə danışırıq.

### 1. Heyvanın murdarı[3]

**Məsələ-1274.** Heyvanın murdarının alveri halal mənfəət üçün, məsələn, yeyilməyən dərmanlarda istifadə edilmək üçün, yaxud vəhşi

---

[1] Terminalogiyada buna "təklifi haram" deyilir.
[2] Terminalogiyada buna "vəzi" haram deyilir.
[3] Məqsəd ölmüş, yaxud qeyri-şəri yolla zibh edilmiş heyvandır. Habelə diri heyvandan ayrılan üzv (hissə) də murdar adlanır. (Mütərcim)

heyvanların yeməyi məqsədiylə satışı caizdir. Amma haram mənfəət məqsədiylə, məsələn, insanların yeməyi üçün satmaq haramdır.

**Məsələ-1275.** Murdardan təharətə (paklığa) ehtiyacı olmayan yerlərdə istifadə etmək məkruhdur.

## 2. Qan

**Məsələ-1276.** İnsan qanının alğı-satqısının işkalı yoxdur. Əgər heyvan qanında da halal mənfəət (istifadə) olarsa, alğı-satqısının işkalı olmayacaq. Amma yemək-içmək kimi haram məqsədlə haramdır.

## 3, Şərab

**Məsələ-1277.** Şərabda məqsəd təkcə üzüm suyundan hazırlanmış şərab deyil, mütləq şəkildə məstedici içkilərə aiddir. Baxmayaraq ki, bəzi məstedici içkilərə şərab deyilməsin (ərəbcə xəmr adlanmasın) lakin müamilənin haram olması bunlara da aid edilir. Məsələn, arpa suyu kimi, baxmayaraq ki, ona şərab deyilmir, amma məstedicidir.

Həmçinin meyvə və s. kimi bəzi maddələrdə məstedici maddələr olması və buxarlanma yolu ilə məstedici maye alınması, bunlardan məstedici içki üçün istifadə edilməsi mümkündür.

Məsələn, üzümün, yaxud kişmişin məstedici maddələrini buxarlanma yolu ilə yığsalar, bunların hamısı şərab sayılır. Hərçənd ki, bu dediyimiz buxarlanma yolu ilə əldə edilən məstedici içkilərə şərab yox, araq deyilir.

**Məsələ-1278.** Əgər şərab tanınmış faydası (içmək) üçün müamilə edilərsə, haramdır, müamilə də batildir.

**Məsələ-1279.** Tibbi spirt və ya sənaye işlərində istifadə edilən spirtlər kimi, məstedicilik məqsədilə istehsal olmayan məstedicilər, məstedicilik deyil tibbi və sənaye işlərində istifadə etmək məqsədilə müamilə edilərsə, işkalı yoxdur. Amma məstedicilik məqsədilə müamilə edilərsə, haram və batildir.

**Məsələ-1280.** Pivənin müaminləsi şərab müamiləsi hökmündədir.[1]

**Məsələ-1281.** Bəzi maye olmayan, amma məstedici olan həşiş və bəng kimi maddələrin istifadəsi şübhəsiz haramdır, lakin nəcis deyil. Onun müamiləsi məstedicilikdən başqa məqsədlə olarsa, işkalı yoxdur. Lakin məstedicilik məqsədiylə haramdır.

**Məsələ-1282.** Bir maddənin xüsusiyyəti zəhər və öldürücü olmaq olsa, onun tərkibinə su qatmaqla zəhər xüsusiyyəti məstedicilik xüsusiyyətinə dönsə, əgər bu şey məstedicilik məqsədiylə satılarsa, haram və batildir.

**Məsələ-1283.** Məstedici olan bütün mayelər, istər az, istərsə də çox olsun, istər başqa bir şeylə qarışmış olsun, istərsə də olmasın, şərab hökmündədir.

### 4. Donuz

**Məsələ-1284.** Əgər donuzu onun tanınmış istifadəsi üçün (insanların yeməyi üçün) müamilə edilərsə, təklifi haram olmağı məlum deyil, amma alver batildir.

**Məsələ-1285.** Əgər donuzu halal istifadə - məsələn, zooparkda vəhşi heyvanlara yedirtmək üçün və ya yunundan istifadə etmək üçün müamilə etsələr, müamilə səhihdir.

## Nəcis olmuş şeylərin müamiləsi

**Məsələ-1286.** Nəcis olmuş şey pak edilib-edilə bilməmək baxımından iki qisimdir:

1. Pak edilməsi mümkün deyil: (Nəcis olmuş maye dərman kimi) bu zaman əgər nəcis halında halal mənfəəti olmazsa, məsələn, maye dərman nəcislənib, onun faydası və istifadəsi təkcə içmək yolu ilə mümkündür. Nəcis şeyi yeyib-içmək qeyri-zəruri halda haram

[1] İçkisinin hökmü kimi. (Mütərcim)

olduğu üçün onun alveri də səhih deyil. Amma onun nəcis halında halal mənfəəti varsa,[1] müamilə səhihdir.

2. Paklanması mümkündür: Bu halda müamilə səhihdir.

## Nəcis olmuş şeyin satılmasının halal mənfəət (istifadə) məqsədiylə olması

**Məsələ-1287.** Əgər nəcis olmuş şeyin halal istifadəsi onun tanınmış, yaxud haram istifadəsiylə bərabər olsa, bu zaman (müamilə edilərkən) halal istifadəni qəsd (niyyət) etmək mütləq şəkildə lazım deyil. Amma onun halal istifadəsi nadir olsa, bu halda bəzən onun müxtəlif mənfəətləri (istifadələri) olur, lakin bir-iki istifadəsi digər istifadələrə nisbət daha çox olur. Amma belə deyil ki, digər istifadələrin onun maliyyətində təsiri olmasın. Bu halda da halal istifadə etmək qəsdinə ehtiyac yoxdur. Məsələn, (yağla dolu) qazan və ya böyük bir yağ qabındakı yağın tanınmış istifadəsi yeməkdir. Qabın nəcis olmasıyla onda bir şey yemək haramdır. Lakin belə deyil ki, mütləq şəkildə (o yağ) maliyyətdən düşsün və dəyəri olmasın. Bəlkə onu sabun düzəltmək üçün də istifadə etmək mümkündür. Baxmayaraq bu onun nadir mənfəətidir, lakin belə deyil ki, maliyyətində təsirsiz olsun. Həmin nadir mənfəətin maliyyədə təsir etməsinin dəlili budur ki, əgər onun tanınmış və adi mənfəəti (yemək) aradan gedərsə, bu zaman onun dəyər və qiymətinin aşağı düşməyinə baxmayaraq heç kəs belə güman etməz: artıq yağ lazımsızdır və müqabilində pul vermək olmaz. Əgər bu nadir mənfəət və istifadənin onun maliyyətində heç bir təsiri olmasa və insanlar həmin nadir mənfəəti mənfəət hesab etməsələr (belə ki, onun müqabilində bir şey verməyə hazır olmasalar), lakin o, bəzilərinə lazım olur və müqabilində bir şey verməyə (pulla almağa) hazır olur. Bu müamilənin səhih olmasında onu alarkən müştərinin halal istifadə məqsədi olması lazımdır. Məsələn, öskürək üçün

[1] Nəcis olmuş dərman maz və s. kimi yemək-içməkdən başqa yolla istifadə edilərsə. (Mütərcim)

satılan dərmanların qiymət qoyulmasında heç vaxt onun (paltardan və s.) ləkə aparmaq xüsusiyyəti nəzərə alınmır, yəni bu baxımdan onun maliyyəti yoxdur. Bir şəxsin bu baxımdan ona ehtiyacı olarsa və nəcis olduğuna görə həmin mayeni içmək haram olarsa (və bu baxımdan maliyyəti və qiyməti olmazsa), amma ləkə aparmaqda ona ehtiyaclı olan şəxs bərabərində pul verməyə hazır olarsa, bu zaman həmin dərman maliyyət tapır (mal hesablanır). Mal hesablandığına görə onun alğı-satqısı da caiz olur. Amma bu müamilə o zaman caizdir ki, belə bir halal qəsd və məqsədlə olsun.

**Məsələ-1288.** Müamilənin halal mənfəət və istifadə məqsədi şərt olan surətdə, təkcə müştəri bu qəsdi edərsə, kifayət edir. Buna əsasən, satıcının onun məqsədindən xəbəri olmasa belə, müamilə səhihdir. Çünki müamilənin səhih olmaması və batil olmaqdan xaric olması üçün iki əvəzin ikisindən (satıcı və müştəri) birinin nəzərində maliyyətinin (mal) olması kifayətdir. Məsələn, əgər bir kitabın bir səhifəsi satıcının nəzərində dəyərsiz olsa, lakin müştəri həmin kitaba naqis şəkildə malik olsa və həmin səhifə onda olan kitabın kamilləşməsinə səbəb olsa, bu vərəq əmtəə dəyəri qazanır və onların müamiləsi səhih olur.

## Nəcis olmuş şeyi elan etmək (xəbər vermək)

**Məsələ-1289.** (Nəcis olmuş şeyi satarkən) onun nəcis olmasını xəbər vermək o zaman vacibdir ki, haramda işlətməyinin mümkünlüyünü yəqin etsin, yaxud çox ehtimal versin. Amma satıcı müştərinin onu haramda istifadə etməyəcəyini bilsə, xəbər vermək vacib deyil. [1]

---

[1] Məqsəd budur ki, məsələn, satıcı nəcis bir qabı satır. Bilir, yaxud ehtimal edir ki, əgər ona o qabın nəcis olmasını deməsə, yaxalamadan onda yemək yeyəcəklər. Məsələn, səfərdədirlər və yumaq imkanı azdır. Bu zaman vacibdir ki, müştərini o qabın nəcis olmasından agah etsin. Amma əgər satdığı və nəcis olmuş mal yeməkdə istifadə edilmirsə, məsələn, çölü nəcis olmuş ayaqqabıdırsa, yaxud qabdırsa, amma satıcı onu yumadan işlətməyəcəklərini bilsə, bu zaman onun nəcis olmasını xəbər verməyə ehtiyac yoxdur. (Mütərcim)

## Cahili aldatmaqla harama salmaq

**Məsələ-1290.** Başqasını aldatmaq üç cürdür:

1. Əgər aldatmaq ilahi maariflərdə olsa, məsələn, səhih tanınması vacib olan imamət və məad məsələsini səhv şəkildə deyərsə, haramdır. Bəzən həqiqəti məntiqsiz və zəif şəkildə müdafiə etmək özü bu qəbildəndir. Çünki belə bir müdafiə həqiqətə hücum edib onunla mübarizə aparmaqdır. Bu cəhətdən gərək bəyan möhkəm və məntiqli olsun, Əgər bir həqiqət barədə şəkki varsa, bəyan etməsin.

2. Əgər aldatmaq şəri hökmü bilməmək nəticəsində olarsa, bu halda batil əqidədən əlavə əməldə də fəsad və səhvin olmasına yer verilir. Məsələn, əgər insan namaz, oruc, həcc və s. kimi məsələlərdə həqiqətin əksini desə, bu halda həm müxatəbinə səhv və batil inanc verib, həm də onun əməli batil olur. Bu iş də haramdır.

3. Əgər aldatmaq mövzunu bilməmək üzündən olsa, məsələn, şəxs mövzunun ünvanını dəyişməklə, yaxud başqa hər hansı bir yolla şəri hökmün mövzusunu başqasına elə başa salsın ki, o, harama düçar olsun. Yəni aldadanın deməyi, yaxud əməli aldananın harama düşməyinə səbəb olsun. Aldatmağın təsiri istər səbəb, istərsə də şərti[1] şəklində olsun, haramdır.

**Məsələ-1291.** Bir şəxs başqasının günaha düşməsinə bais olmayıb, amma onu günah halında görsə, əgər o şəxsin günaha mürtəkib olması hökmü bilməmək üzündəndirsə, mükəlləfə hökmü bəyan

---

[1] Səbəblə şərtin fərqi budur ki, səbəbin nəticəni yaranmasına təsiri "səbəb"in "nəticə"nin hasil olmasına təsiri qismindəndir. Şərtin təsiri isə "səbəb"in təsiri qismindən deyil. "Səbəb"dən nəticənin yaranmasına zəmin yaratmaq qismindədir. Belə ki, o, səbəbin nəticənin yaranmasına təsir göstərə bilməsi üçün münasib şərait yaradır. Şərti məfhumlarda buna misal olaraq şəriətin alğı-satqı üçün müəyyən etdiyi modeli göstərmək olar. Belə ki, həmin vaxt satıcı ilə alıcının hər birini alğı-satqı sözlərini deməsi şərti aləmdə alğı-satqının gerçəkləşməsinə səbəb olur. Lakin bunun şərti qarşılıqlı razılığa gələn tərəflərin ağıllı, həddi-büluğa çatmış və iradə sahibi olmasıdır. Burada mülkiyyət hüququnun yaranması üçün tərəflərin qarşılıqlı razılaşmasının gerçəkləşməsinin şərti, onların ağıllı və həddi-büluğa çatmış olmasıdır. Yaradılış qanunlarına aid məsələlərdə buna misal olaraq odun yanğına səbəb olmasını göstərmək olar. Bu səbəbdən gerçəkləşməsinin şərti odun cismə toxunmasıdır. Əgər toxunuş olmasa, od səbəbliyini həyata keçirmir. Onların hər ikisinin müəyyən formada təsiri var, amma odun təsiri toxunmanın təsirindən fərqlidir. Buna görə də onlar ayrı-ayrılıqda iki təsirdirlər və onların birincisinə "səbəb", ikincisinə isə "şərt" deyilir.

etməsi vacibdir. Məsələn, əgər bir şəxs hökmünü bilmədən su olan yerdə təyəmmüm edib namaz qılsa və ya zəlzələ olan zaman ayət namazının vacib olmasını, yaxud pivənin haram olmasını, qohum-əqrəba arasında naməhrəmə baxmağın haram olmasını, bunların hamısının külli hökmə cahil olmaq qəbilindən olmasını bilməsə, mükəlləfə cahili başa salmaq və hökmü elan etmək vacibdir. Amma onun harama mürtəkib olması hökmün mövzusunu bilməmək üzündəndirsə, bunun iki halı var:

1. Bu mövzu İslam şəriətində elə mühüm mövzulardandır ki, Allah heç vaxt mükəlləfin ona mübtəla olmasına razı deyil (bilərəkdən, ya bilmədən). Məsələn, insanın canı və abırı kimi, həmçinin onun malı kimi mühüm mövzular. Bu halda mükəlləfə mövzunu aydınlaşdırmaq vacibdir. Məsələn, bir şəxs bir malı başqasının və ya qəsb olmasını bilmədən istifadə etsə, yaxud birinin qanının halal edildiyini güman edib onu öldürmək istəyirsə, ya tanımadan (süd bacısı olduğunu bilmədən) süd bacısı ilə evlənmək istəsə, mövzunu aydınlaşdırmaq vacibdir.
2. Bu mövzu mühüm mövzulardan deyil, bu surətdə elan etmək və xəbər vermək vacib deyil. Məsələn, cahilin üzrlü olduğu hökmlər kimi.[1]

**Məsələ-1292.** Mövzunun mühüm olmasına şəkk edən zaman vacib ehtiyata əsasən, mükəlləfə elan etməsi vacibdir.

## Haram yolda istifadə edilən şeylərin müamiləsi

Bu qismin üç halı var:

1-O şeyin adi, adətən istifadə edilən mənfəəti və faydası haramdır.
2-O şeyin həm halal, həm haram mənfəət və faydası (istifadəsi) var, lakin satıcı və müştərinin hər ikisi, yaxud ikisindən birinin məqsədi onun haram istifadəsidir.

[1] Məsələn, bir şəxs bilmədən nəcis libasda namaz qılarsa və ya yediyi yeməyin nəcis olduğunu bilməsə, xəbər vermək vacib deyil. (Mütərcim)

3-O şeyin şəni (xüsusiyyəti) haramda istifadə edilməkdir.

**Birinci hal:** O şeyin adi və adətən istifadə edilən faydası haramdır.

Məqsəd o müamilədir ki, satılan, yaxud müqabilində verilən malın halal istifadəsi yoxdur.

## Büt və xaç [1]

**Məsələ-1293.** Əgər büt və xaç ibadət üçün müamilə edilsə, o müamiləylə alver haram və batildir. Amma ibadətdən başqa bir iş üçün müamilə edilərsə, işkalı yoxdur. Məsələn, əgər bir gün ibadət məqsədiylə düzəldilmiş, hazırda heç kimin ibadət etmək üçün almadığı Babil və Aşur dövrünün bütləri kimi bütü, uzun illər keçdikdən sonra arxeoloji qazıntılar nəticəsində yerin altından kəşf etsələr bunun müamiləsinin işkalı yoxdur. Həmçinin hazırkı dövrdə Hindistanda pərəstiş edilən bütləri bütpərəstliyə əqidəsi olmayan bir şəxs alıb ev tikintisində binanın, yaxud pilləkənin bir hissəsini təmin etmək məqsədiylə müştəriyə satsa, hal-hazırda bir qrup şəxslərin məbudu olmasına baxmayaraq alan və satanın məqsədi ibadət olmadığı üçün (ondan daş kimi istifadə etməkdir) işkalı yoxdur. Yaxud da onun cins və materialına ehtiyacı olduğu üçün alsa, məsələn, onun maddəsi əqiq daşındandır və bu daşa olduğu ehtiyacını təmin etmək, ya da muzeydə saxlamaq üçün və ya zinət

[1] Xaç xristianlar arasında adi bir əlamət deyil, ibadət əlaməti və şüardır. Amma xristianların dindarlarının bellərinə bağladıqları qayış, hərçənd xristianlıq əlaməti olsa da ibadət üçün istifadə edilmir. Amma xaç ibadi mərasimlərdə istifadə edilir, necə ki, rəbbani işada və kilsədə yerinə yetirilən digər ibadətlərdə xaçı öpür və təqdis edirlər. Hətta katoliklərin kilsə mərasimlərində yaxşı cümə (good Friday) adlı müəyyən bir cümə var ki, xaçı qaldıraraq dua edirlər. Buna əsasən, baxmayaraq ki, xaç, büt deyil, amma ibadət mərasimlərində özünə məxsus yeri var. Bu cəhətdən büt ilə eyni sırada dayanır. Necə ki, büt də simvolik bir əlamətdir, müşrik və bütpərəstlərin çoxu onu maddə aləmindən xaric bir həqiqətin simvolik əlaməti bilirlər. Məsələn, Çin və Hindistanda Buddanın mücəssəməsi büt xüsusiyyətli olaraq müxtəlif şəkillərdə olur və onların hər biri bir şeyin simvoludur.

əşyası olduğuna görə zinət kimi istifadə etmək üçün müamilə edərsə, işkalı yoxdur.

**Məsələ-1294.** Büt şəklində düzələn əşyalar büt olmadıqda, məsələn, Hindistanın məşhur bütləri şəklində uşaq oyuncağı məqsədiylə düzəldilən gəlinciklər, yaxud bütpərəstlik yayılmayan bölgələrdə park və qonaq otağında qoyulmaq üçün (ibadət məqsədi olmadan) Hindistan bütlərinin birinin şəklində düzəldilən heykəllərin və ya cavan müsəlmanın xristianları təqlid edərək sitayiş məqsədi ilə deyil, zinət məqsədiylə boyuna asmaq üçün xaç şəklində düzəldilən boyunbağların müamiləsi, əgər küfr mədəniyyəti və ya məzhəbini yaymaq olmazsa, haram deyil.

## Qumar alətləri

**Məsələ-1295.** Məqsəd qumar oynamaq üçün olan əşyalardır, istər kart və nərd taxtası kimi insan düzəltdiyi əşya olsun, istərsə də qoyun ayağının sümüyü, aşıq kimi qumar üçün istifadə edilən təbii bir şey olsun.

**Məsələ-1296.** Qoz ilə qumar oynasalar da o, qumar aləti hesablanmır. Amma onunla qumar oynamaq haramdır.

**Məsələ-1297.** Qumar alətlərinin müamiləsində məqsəd qumar oynamaq olarsa, müamilə haram və batildir. Amma məqsəd qumar oynamaq deyil, halal iş üçün olarsa, bu zaman müamilənin işkalı yoxdur. Təsəvvür edin hər hansı bir qumar alətinin tarixi dəyəri var və onu oyun məqsədləri olmadan muzeydə saxlamaq üçün alsalar, yaxud müştərinin onu almaqda məqsədi cinsindən (maddəsindən və materialından) istifadə etmək olsa, məsələn, onun taxtasından (halal işlərə) istifadə etmək məqsədi olsa işkalı yoxdur.

**Məsələ-1298.** Qumar alətini sındırmaq və aradan aparmaq vacib deyil. Amma nəhy-əz-münkər baxımından nəhy etmək ona bağlı olarsa, bu zaman vacib olacaq.

## Şahmat

**Məsələ-1299.** Şahmat qumar aləti hesablanmadığı təqdirdə düzəldilməsi, alğı-satqısı və onunla şərtsiz (uduş şərtiylə olmadan) oyun oynamaq, həmçinin qeyd olunan şərtlərlə öyrədilməsi işkalsızdır.

## Saxta kağızlar

**Məsələ-1300.** Saxta kağız (çek) və pulların müamiləsi iki cür fərz edilə bilər:

1. Müamilədə mal kimi istifadə olunur, yəni bu saxta kağızların özü bir mal kimi satılır,[1] həmin müamilə haram və batildir.

2. Müamilədə əmtəənin qiyməti (müştərinin aldığı malın müqabilində verdiyi hər hansı bir dəyərli şey, məsələn, pul kimi) istifadə olunur.

Bu halda əgər saxta pulu verən şəxsin onun saxta olmağından xəbəri varsa və müamilə zamanı pulu həmin kağız pullarla vermək (ödəmək) məqsədi olarsa, müamilə haram və batildir.[2] Amma əvvəl malı ümumi qiymətlə alıb cibində saxta pul olmasını da bilməsə, sonra qiyməti ödəyərkən cibində saxta pul olduğunu bilərək onu qiymət yerinə ödəsə, bu halda müamilə səhihdir.[3] Lakin həmin malın həqiqi qiyməti onun öhdəsindədir.

Əgər satıcı və alıcının hər ikisi pulun saxta olmasını bilmirlərsə, müamilə səhihdir. Amma o malın qiyməti müştərinin öhdəsindədir,[4]

---

[1] Bu zaman (adətən) həm müştəri, həm də satıcı bu vərəqlərin saxta olmasından xəbərdardır, çünki satıcı özü saxtakardır, müştəri də onun saxta olduğunu bildiyinə görə onları ucuz qiymətə alır.

[2] Çünki müamilə bu saxta pulun əsasında olub, ümumi qiymətlə yox.

[3] Çünki mal nisyə alverdə olduğu kimi saxta pul müqabilində deyil ümumi qiymət müqabilində satılıb. Təsəvvür edin bir şəxs nisyə mal alır, pulunu ödəyən zaman saxta pulla ödəyir. Bu alver səhihdir, baxmayaraq ki, saxta pul ödəməklə onun öhdəsi tələbdən xilas olmur.

[4] Çünki adətən alver ümumi qiymət əsasında olur. Yəni çox az müşahidə oluna bilər ki, məsələn, alıcı desin "bu kitabı əlimdə olan pulun müqabilində alıram". Adətən o, malı ümumi əmtəə müqabilində alver edilir, sonra hər hansı bir mal, yaxud pul ilə ödənilir.

baxmayaraq ki, bilmədikləri üçün haram əməl etməyiblər və üzrlü sayılırlar.

## Ləhv alətləri

**Məsələ-1301.** Ləhv alətlərində məqsəd nəğmə və musiqi çalmaq üçün olan sazlardır.[1] Buna əsasən, burada məqsəd hər ləhv (bihudə əməl) deyil, məqsəd musiqi yaratmaq baxımından olan ləhvdir. Həmçinin hər bir musiqi alətinə istər İslamın əvvəllərindən olmuş kubə,[2] ud və ney kimi musiqi aləti olsun, istərsə də sonradan yaranan sazlar, gitara kimi musiqi alətlərinə aid edilir. Bu şərtlə ki, alətlər həmin məqsədlə (musiqi çalmaq üçün) düzəldilmiş olsun. Buna əsasən, həmin məqsədlə yaranmayan əşyalar hətta musiqi səsi versə belə nəzərdə tutulmur. Məsələn, stəkanları (yaxud nəlbəkiləri) düzüb üzərinə vurmaqla müxtəlif, zəif və şiddətli səslərin çıxması, piyano və səntur kimi musiqi alətlərindən xaric olan səslərə oxşaması, yaxud bəzi qabların dəf kimi vurulması onların ləhv aləti olmasına səbəb olmur. Deməli, ləhv aləti deyəndə bu məqsədin ələ gəldiyi hər şey deyil, həmin məqsədlə düzəldilmiş alətlər nəzərdə tutulur.

**Məsələ-1302.** Musiqi aləti olmayan və musiqi üçün istifadə edilə bilən (stəkanları və nəlbəkiləri bir-birinin yanına düzüb vurmaqla piyano və səntur səsi çıxarmaq kimi, yaxud qabdan dəf səsi çıxarmaq kimi) əşyaların ləhv olmaması səs baxımından deyil, onların alğı-satqısı baxımındandır. Deməli söz budur ki, ləhv səsi çıxarmaq mümkün olan, lakin bu məqsədlə düzəlməyən əşyalar ləhv alət-lərindən hesab olunmur.

## Qızıl və gümüş qablar

**Məsələ-1303.** Qızıl və gümüş qablar da o əşyalardandır ki, həm halal və həm haram mənfəətlərə (istifadələrə) malikdir. Buna əsasən,

---

[1] Sazdan məqsəd musiqi alətidir, istər simli olsun, tar və gitara kimi, istər vurmaqla olsun, dəf və dümbək kimi, istərsə də nəfəslə olsun ney və klarnet kimi.

[2] İki tərəfdən vurulan kiçik təbil.

əgər onların maddələrinə görə müamilə edilərsə, belə ki, onların şəkil və formasının müamilədə heç bir aidiyyatı olmasa, bu halda həmin müamilənin işkalı yoxdur. Məsələn, müştəriyə üzük, yaxud başqa bir zinət əşyası düzəltdirmək üçün müəyyən miqdarda qızıl lazımdır. Əgər həm onun forması, şəkli, həm də onun maddəsi nəzərə alınaraq müamilə edilərsə, sonrakı məsələyə aiddir. Yəni halal və haram mənfəətə malik olan şeylər əgər haram istifadə məqsədiylə satılarsa, onun hökmü geniş şəkildə deyiləcək.

**İkinci hal:** O şeyin həm halal, həm haram faydası (istifadəsi) var, lakin satıcı və müştərinin hər ikisi, yaxud ikisindən birinin məqsədi onun haram istifadəsidir.

**Məsələ-1304.** Bu məsələ üç cürdür:

1. Satıcı müamilə zamanı şərt edir ki, müştəri aldığı malı onun haram olan mənfəətində işlətsin. Bu halda müamilə haramdır, lakin batil deyil. Məsələn, üzümü bu şərtlə satır ki, ondan şərab düzəltsin, yaxud kağızı insanları düz yoldan çıxaran mətləbləri yazmaq şərtiylə satır.
2. Satıcının məqsədi haram istifadədir (baxmayaraq ki, o), onu şərt etmir. Məsələn, müştəri satıcıya deyir ki, bu silahı mənə sat filan qətli yerinə yetirim. Bu halda müştərinin məqsədinə uyğun satıcının da məqsədi o olur. Hərçənd satıcı belə bir şərt etmir. Yaxud müştəri deyir ki, şərab düzəltmək üçün yüz kiloqram münasib üzüm istəyirəm. Satıcı da həmin miqdarda üzümü ona satır. Bu halda da müamilə haramdır, lakin batil deyil. Əgər xalçasatan müştəriyə onun pulu ilə qumar oynayacağını desə, müştəri də xalçanı ondan alsa, məsələ bu qəbildəndir. Yaxud bir xanım gözəllik salonuna gedib, bu gecə kişilərlə qadınların iştirak edəcəyi qonaqlığa və ya toya dəvət olunduğunu deyib onlardan yaxşı bəzənməyini tələb etsə, işçi də bunu qəbul edərsə, məsələ eyni qəbildəndir.
3. Satıcı bilir ki, müştəri malı haram istifadədə işlədəcək, bu zaman satıcının ona mal satması harama köməklik göstərmək sayılarsa, müamilə haramdır. Həmçinin əgər vəzifəsi nəhy-əz-münkər etmək olarsa, satmamalıdır, əks təqdirdə caizdir.

**Məsələ-1305.** Xalqın nəzərində harama kömək etmək sayılan yerlər:

**Birinci:** Satıcı malını haram işlərdə istifadə etmək şərtiylə satsa;

**İkinci:** Malı haramda işlətmək məqsədiylə müamilə edilsə;

Bu iki yer harama kömək etməyin aşkar nümunələrindəndir.

**Üçüncü:** Satıcı müştərinin malı haram yolda istifadə edəcəyini bilsə.

A) Əgər haram əməl və onun müqəddiməsi olan müamilə arasında heç bir vasitə yoxdursa (yəni yaxın müqəddimədirsə), bu müamilə harama və günaha kömək etməkdir. Həmçinin nəhy-əz-münkər baxımından da gərək bu alveri etməsin. Məsələn, kişilər üçün qızıl üzük taxmaq haram olduğu üçün qızıl üzüyü kişiyə satarsa, bu, harama kömək etməkdir.

B) Əgər uzaq müqəddimədirsə (yəni haram əməl və onun müqəddiməsi olan müamilə arasında vasitə varsa), başqa sözlə bu müamilə bir və ya bir neçə vasitə ilə harama səbəb olursa, həmin müqəddimələr Allahın böyük və xüsusi əhəmiyyət verdiyi işlər üçündürsə, qətlə yetirmək, camaatın malını qarət etmək, küfrü və batili yaymaq kimi (işlərə səbəb olursa), hətta qəsdsiz (yəni bu məqsədlə satmasa belə) bu müamilə harama kömək etmək sayılır. Məsələn, bir şəxs terroristə silah, yaxud partlayıcı maddə satsa, əgər onun terroristlik məqsədiylə aldığını bilərsə, bu, xalq baxımından zülmə kömək etmək sayılır. Əgər bir kəs terroristi sərhəddən keçirsə və ya ona evində pənah versə, həmin şəxs köməkçi (harama kömək edən) sayılır. Çünki bu çox böyük iş olduğuna görə uzaq və vasitəli müqəddimələri də harama və ona kömək göstərmək hesab olunur. Həmçinin əgər bir şəxs dəmir, yaxud filizi büt və ya xaç düzəldənə satarsa, bu müamilə haramdır, çünki şirkdən böyük günah yoxdur.

**Üçüncü hal:** O şeyin şəni (xüsusiyyəti) haramda istifadə edilməkdir.

**Məsələ-1306.** Bu qəbildən olan müamilələrdə, satılan malın şəni və xüsusiyyəti belədir ki, ondan - (silah kimi) din düşmənlərinə silah satmaq kimi haram yolda istifadə edilir. Baxmayaraq ki, silah öz-

özlüyündə təkcə haram yolda işlədilmir. Buna əsasən, birinci qəbildən (birinci surətdən) deyil. Həmçinin satıcının, yaxud alıcının qəsdi hökmən onun haram yolda istifadə edilməsi deyil. Çünki mümkündür din düşməni silahı haram yolda istifadə etməsin. Məsələn, müsəlmanların əleyhinə işlətməsin. Buna əsasən, ikinci qisimdən (ikinci surətdən) də deyil. Onda belə bir xüsusiyyət var ki, din düşməni əlinə keçdikdə müsəlmanların, haqq və ədalətin əleyhinə istifadə edilmək potensialına malikdir.

**Məsələ-1307.** "Malın şəni baxımdan (xüsusiyyət baxımından) harama səbəb olur", yəni onun haramda istifadə edilmək potensialına malik olması, şübhəsiz, onun üstünə haram adı qoyulmasına səbəb olmur. Məsələn, üzümü satır, eyni zamanda ehtimal verir ki, onunla şərab düzəldilsin. Çünki üzüm şərab olmaq potensialına malikdir (başqa sözlə, onda şərab hazırlamaq zəmini var). Halbuki, heç kəs bu müamiləni haram bilmir. Buna əsasən, həmin kateqoriya özözlüyündə insanın alğı-satqının haram olması hökmünü verdiyi kateqoriyalardan ola bilməz. Amma burada barəsində danışılan və diqqət mərkəzində olan məsələ bu kateqoriyanın davamında çəkilən misal, yəni din düşmənlərinə silah satılmasıdır.

## Din düşmənlərinə silah satmaq

**Məsələ-1308.** Əgər din düşmənlərinə silah satmaq, yaxud verməyə haram kateqoriyalardan biri şamil olarsa, müamilə haram və batildir. Misal olaraq bir neçə nümunəni qeyd edirik:

A) Onlara silah satmaqla düşmən öz küfründə möhkəmlənib qüvvətlənəcək.
Bu (müamilə) kafiri qüvvətləndirmək, yaxud da onu küfründə möhkəmləndirməyin xarici nümunəsi sayılır.

B) Onlara silah vermək, zülmə kömək etməkdir. Təsəvvür edin bir şəxs hansısa yerin hakimidir, sizlə də heç bir işi yoxdur. Amma öz ölkəsində zülmkardır. Əgər ona silah satsanız, zülmə kömək göstərmək olacaq və ya ona silah satmağınız onun başqa müsəlman

ölkəsinə sultanlıq etməyinə, zorakılığına səbəb olacaq. Buna əsasən, həmin iş zülmə kömək etmək olacaq.

C) Onlara silah verməklə müsəlman cəmiyyəti təhlükəyə düşür, qüvvələrin müvazinəti düşmənin xeyrinə dəyişir və onların müsəlman ölkəsinə hücum etmək ehtimalı artır. Ola bilsin ki, silahı alanın silahlanması İslam dövlətlərini təhdid edən ölkə deyil, İslam cəmiyyətini təhlükəyə salan və yaxud yolların əmniyyətini aradan aparan bir qrupdur. Bu da zülm və günaha kömək göstərmək sayılır. Müamilənin şəriət baxımından haram olmasında şübhə yoxdur.

**Məsələ-1309.** Əgər bu silahı satmaqda lazımlı (zəruri), yaxud mühüm bir xeyirli cəhət olsa, müamilə halaldır.

Aşağıdakı misalları silah satmağın halal olmasına nümunə göstərmək olar:

A) Əgər İslam dövləti kafir dövlətinə silah satarsa, İslam dövlətinin həmin dövlətə siyasi nüfuz etməsinə səbəb olacaq. Çünki o silahın istifadəsini öyrənməkdə, parçalarını almaqda və onu təmir etməkdə İslam dövlətinə möhtac olacaq. Buna əsasən, əgər İslam dövləti kafir dövlətinə silah satmaqla o ölkədə öz nüfuzunu artırmaq şəraiti yaradırsa, şübhəsiz bu, lazımlı bir tədbir olmasa da ən azı bəyənilən bir tədbir olduğunu deyə bilərik. Belə yerlərdə silah satmaq ya vacib olacaq, ya da bəyənilən.

B) Bəzən silah satmaqda məqsəd siyasi nüfuz deyil, ticarətdir. Çünki silah ticarəti böyük (maddi) mənfəətə malikdir. İslam dövləti silah satmaqla və onun mənfəətiylə ölkənin və camaatın xeyrinə bəhrələnirsə, bu müamilə də faydalı müamilədir. Qeyd edək ki, bu o zamandır ki, belə silah satmaqda təhlükə və haram kateqoriyası həmin alverə aid olmasın. Bu da şübhəsiz işkalsızdır.

C) Bəzən heç vaxt silahlandırmaq istəmədiyiniz bir düşmən, sizin daha təhlükəli düşməninizlə üz-üzə olur (və müharibə edir). Bu zaman ona kömək etmək, hətta lazım gələrsə ordusunda iştirak da etmək lazımdır. Necə ki, İslamın əvvəllərində olan böyük müharibələrdə (tarixi xəbərlərə əsasən) möminlər, hətta İmamların (ə)

övladları da zalımların yanında (onlarla birlikdə) kafirlərlə döyüşüblər. Çünki o müştərək düşmən (böyük düşmən) yaxın (kiçik) düşməni məğlub etsə, hamıya hakim olacaq və onun təhlükəsi İslama daha çoxdur. Silah alveri İslam dövlətinin vəzifələrindəndir.

**Məsələ-1310.** Silah alveri məsələsi bizim dövrümüzdə İslam dövlətinə aiddir. Onu saxlamaq və işlətmək bu gün (İslam) dövlətinin ixtiyarındadır. Hətta müstəqil və dövlət ixtiyarında olmayan şirkətlərin siyasətləri də dövlətin ixtiyarındadır. Buna əsasən, silah alveri İslam dövlətinin vəzifələrindəndir. İslam dövlətinin təklif və vəzifəsi də ədalətə riayət, məzlumu müdafiə etmək, zülmlə mübarizə aparmaq, küfrü zəiflətmək, İslamı qüvvətləndirmək və bu qəbildən olan işlərdir. Buna əsasən, bizim silah alverinə baxışımız gərək fərdi baxış deyil, dövlətə aid iş kimi baxmalı, onun hökmlərinə dövlətin vəzifəsi kimi yanaşmalı və onu bu kontekstdə başa düşməliyik.

## Silah alğı-satqısında dövlət siyasəti

**Məsələ-1311.** Bugünkü dövrdə olan silah alverinin nizə və xəncər kimi keçmiş dövrdə olan silah alveri ilə olan fərqinə əsasən (onlar arasında çox fərq var), bu günün silahı qüdrətin (və iqtidarın) əsl amillərindəndir. İstər dövlətlər və millətlər üçün, istərsə narkotik maddə qrupları və mafiyalar kimi siyasi təşkilat olmayan qruplar üçün qüdrətin amillərindəndir, necə ki, (bu gün) mafiyalar silah qüdrətilə qeyri-qanuni hərəkətlər edirlər. Keçmiş dövrdə hər kəsin evində (adətən) xəncəri olardı və onunla bir neçə nəfərin qabağında dayana bilirdi. Amma bu gün bir qrup, dağıdıcı silahlar vasitəsilə bir ölkəni öz təsiri altına salır, bugünkü dövlət çevrilişlərinin çoxu kimi dövləti əlbəəl fırladırlar. Buna əsasən, silahın belə mühüm rolu olduğu bir zamanda dövlətin vəzifəsidir ki, onun alğı-satqısına aid aydın və aşkar siyasəti olsun. Elə bir siyasət ki, İslam dövlətinin ixtiyarında olan şəriət əsasları ilə uyğun olan vəzifələrindən qaynaqlansın. Bizim şəriətdə elə əsas və üsullar vardır ki, hənif dininin möhkəm və aşkar qanunlarındandır. İslamı gücləndirmək kimi onda heç bir şübhəyə yol yoxdur. Bu səbəbdən İslam dövlətinə İslamı gücləndirmək, müsəlmanlara izzət bəxş etmək, rəiyyətin işlərini sahmana salmaq, ilahi

hədləri onların arasında icra etmək və düşmənlərin müsəlmanlara hakim olmasının (zorakılıq etməklərinin) qarşısını almaq vacibdir. Bunlar o külli əsaslardandır ki, şübhəsiz İslam dövlətinin vəzifələrindəndir. Buna əsasən, silah alverinin müxtəlif hökmləri var ki, müqabil tərəfin (müştərinin) iman və küfrü (müsəlmanlıq və kafirlik) ilə bağlı deyil, İslam dövlətinin qeyd etdiyimiz vəzifə və məsuliyyətləri ilə bağlıdır. Bu səbəbdən yölkəsənlərə, yaxud narkotik maddə daşıyanlara silah satmaq olmaz. Qəsbkar sionist rejiminə silah satmaq (və verməyin) qadağan olduğu qədər, narkotik maddə daşıyanlar və bunun kimilərə də (qadağandır və) haramdır. Buna əsasən, meyar qeyd olunan haramlardır, istər müştəri kafir olsun, istərsə də fasiq və zülmkar müsəlman.

İslam dövləti gərək (silah) satışı, hədiyyəsi və əmanətvermə siyasətində bu külli meyarları tənzimləsin.

## Etina ediləsi faydası (istifadəsi) olmayan şeylərin müamiləsi

**Məsələ-1312.** Etina ediləsi mənfəəti (istifadəsi) olmayan şeylər iki cürdür:

1. Heç bir mənfəəti (istifadəsi) yoxdur, nə şəxsi, nə də ümumi mənfəətə malik deyil, (həmçinin) nə hal-hazırda mənfəəti var, nə də gələcəkdə mənfəəti olacağına ümid var. Buna əsasən, o şeydə rəğbət ediləsi heç bir şey yoxdur ki, maliyyət mənşəyi olsun.[1] Bu şeyin müamiləsi batildir. Məsələn, əgər hər hansı bir müamilədə iki tərəf, yaxud onlardan biri satılası şeyin faydaya malik olmasını güman etsə, alverdən sonra onun heç bir faydasının olmaması məlum olsa, müamilə batildir.

2. “Məbi” (yəni satılan mal) faydalıdır, lakin onun bu faydasına elə də əhəmiyyət verilmir. Yəni ya ümumi fayda deyil və ya camaat çox nadir hallarda o faydanı nəzərə alırlar. Yaxud da şəxsi faydadır və xas bir şəxsə faydası var ki, bu da nadir hal sayılır. Bu cür müamilə də səhihdir. Məsələn, əgər bir şəxsin ata-babalarından qalmış üzərində

[1] Yəni heç bir dəyəri olmadığı üçün mal hesab olunmur sayılmır. (Mütərcim)

yüz il öncə yazı yazılmış vərəq tapılsa və “mən onu filan məbləğə almağa hazıram” desə müamilə səhihdir. Baxmayaraq ki, bu vərəqin (ümumi) dəyəri yoxdur, lakin o şəxs üçün (çox) dəyərlidir və onun üçün bu vərəqin maliyyəti var. Bu rəğbət şəxsi rəğbətdir. Həmçinin bir şəxs ev pişikləri üçün siçan alır, bu fayda nadir faydadır. Bu rəğbət ümumi bir rəğbətdir. Habelə bəzi şəxslər çöl bitkilərindən xüsusi istifadə edir ki, camaat o faydaya etina etmir, hətta bitkiləri ayaq altında tapdalayır. Bu o bitkinin maliyyət və qiymətdən düşməyinə səbəb olmur. Çünki maliyyətin də şiddət və zəifliyi var ki, camaatın rəğbət həddinə bağlıdır.

**Məsələ-1313.** Malın maliyyət dəyəri ağıl ilə şərtləndirilir. Yəni o, obyektiv reallıq deyil, əqli və zehni olmaqla ağıl sahibləri onu hər hansı bir şey üçün fərz edirlər. Bu etibarın (zehində və ağılda yaratmanın) mənşəyi də o fayda və mənfəətdir ki, aqillərin (camaatın) ona rəğbət göstərməsinə səbəb olur və insanlar müqabilində müəyyən bir əvəz verməyə hazır olurlar və ya onu əldəetmək üçün çalışırlar. Məsələn, mübahatı [1] hiyazət etmək kimi. [2] Amma aqillər (aqil insanlar) arasında heç bir faydası olmadığına görə ona qarşı rəğbət olmayan şey olsa, bu şey mal deyil (maliyyəti yoxdur).

Buna əsasən, maliyyətin meyarı (yəni hər hansı bir şeyin mal olmaq ölçüsü) onu əvəzlə (başqa bir şeylə) müqabilə etmək (dəyişmək) deyil, insanların ona rəğbət etməsidir. Bu rəğbət zaman və məkan baxımından fərqlidir. Belə ki, bir şeyə müəyyən zamanda rəğbət edilməyib, başqa bir zamanda rəğbət edilməsi mümkündür. Ola bilsin (bir zaman) onun faydasının olmamasına görə olsun və onun faydasının tanınmamasına görə olması mümkündür. Məsələn, neft

---

[1] “Mübahat”da məqsəd müəyyən bir şəxsə məxsus olmayan, yəni heç kimin malı olmayıb maliyyəti olan şeylərdir. Məsələn, sahibsiz quşlar və sudakı balıqlar. (Mütərcim)

[2] “Hiyazət”, sahibi olmayan daşınan mübahatı ələ keçirməyə deyilir, dənizi və ümumi çayların suyu, dəniz (və ümumi çayların) balıqları, sahibsiz quşlar, sahibi olmayan yerlərin otları və odunları kimi maliyyəti olan şeyləri əldə etmək kimi. Müqəddəs şəriət sahibi, “hiyazət” i mülkiyyət üçün qəhri qərar verib, istər hiyazət edən onu qəsd etsin, istər etməsin.

quyulardan öz-özünə bayıra çıxıb, camaat tanımadığı üçün ona rəğbət göstərməyib. Ona görə də həmin zaman maliyyəti yox idi, halbuki bu günlərdə ən qiymətli mala çevrilib (Bu zaman baxımından).

Məkan baxımından da maliyyət fərqlənir. Məsələn, dünyanın bir yerində müəyyən qidaya tələbat olur, başqa bir bölgədə isə qida kimi istifadə olunmur. Həmçinin mümkündür şəxslər baxımından da fərqli olsun. Belə ki, mümkündür bir şey kimsə üçün dəyərli olsun, buna görə onunçün mal sayılır. Lakin başqa bir şəxs üçün onun heç bir dəyəri olmasın və əmtəə sayılmasın. Buna əsasən, maliyyət, zaman, məkan və şəxslər baxımından fərqli ola bilir, necə ki, adətən belədir.

**Məsələ-1314.** Maliyyət əqli və tələbatdan asılı olan şərti məsələ olsa da, tələbatın əqli və ümumi olmasına gərək yoxdur və o, şəxsi ola bilər. Məsələn, əgər kimsə hər hansı dəlilə görə bir şeyə rəğbət edərsə, bu səbəbdən həmin şeyin onunçün maliyyəti olur, baxmayaraq ki, aqillər elə rəğbəti qəbul etmirlər. Yəni əgər ağıl sahibləri bir şeyin - hətta onların özlərinin həmin şeyə tələbatı olmasa belə - bir şəxs üçün maraq obyekti olmasını və həmin tələbat müqabilində qarşılıq almağın mümkünlüyünü təsdiqləsələr, o, əqli olur. Məsələn, bir şəxsin ağcaqanada marağı var və onun müxtəlif növlərini yığır. İndi deyə bilmərik ki, ağcaqanadın maliyyəti olmadığı üçün həmin ağcaqanadı aradan aparmaqla ona zamin deyilik. Həmçinin əgər bir şəxs güllərin qurumuş yarpaqlarına rəğbəti olduğu üçün onları yığsa, demək olmaz ki, onun maliyyəti yoxdur. Deməli, nə zaman rəğbət olsa, onun üçün mal sayılır, baxmayaraq ki, başqalarının ona rəğbəti yoxdur.

## Mülkiyyət maliyyətə bağlı deyil

**Məsələ-1315.** Mülkiyyət hər hansı bir şeylə bir şəxs arasındakı əlaqə və mənsubiyyətdən yaranan əqli və şərti məfhumdur. Əgər bir şeyin hansısa şəxslə əlaqəsi varsa, bu əlaqəyə mülkiyyət əlaqəsi deyilir. İstər o şey mal olsun, istərsə də olmasın (yəni maliyyəti olmasın) və heç bir dəyəri olmasın, o şəxsin mülküdür. Məsələn, bir

şəxsin paltarındakı sap kimi. Baxmayaraq ki, onun heç bir dəyəri yoxdur, lakin onun mülküdür və sahibinin icazəsi olmadan onu heç cür işlətmək (götürmək) olmaz. Onu icazəsiz götürmək başqasının mülkünü işlətmək və qəsb sayılır, halbuki bir sapın heç bir dəyəri yoxdur.

## Haram əməllə müamilə etmək (qazanc etmək)

Haram müamilələrdən biri də şəri baxımdan haram olan əməllə, məsələn, yalan və qeybət etməklə qazanc əldə etmək kimi qazanc əldə etməkdir. Məsələn, yalan məlumatları yaymaq üçün əcir olur və ya iftira və yalanla dolu olan diski satır. Bu bölümdə müamilə edilən haram əməllərdən bəziləri bəyan ediləcək.

## Müamilədə tədlis

**Məsələ-1316.** "Tədlis" aldatmaq mənasındadır, amma hər aldatmağa aid olunmur. Tədlisdə məqsəd eybi örtmək və malik olmadığı kamalı və ya şəxsi o kamala malik olan bir şey və ya şəxs kimi tanıtdırmaq, rəğbət olunan hər hansı bir vəsfi onda izhar etməkdir. Halbuki həqiqətdə onda həmin xüsusiyyət və vəsf yoxdur və ya insanlar arasında rəğbət göstərilməyən bir vəsfi və xüsusiyyəti gizlətməkdir. Məsələn, bir oğlan evlənmək istəyəndə filan tayfadan olduğunu bildikdə ona qız verməyəcəklər, bu cəhətdən nəsəbini gizlətsə, tədlis sayılır. Yaxud əgər bilsələr ki, bu filankəsin oğlu və ya qohumudur, ona asanlıqla qız verməyəcəklər, şəxs yalan danışaraq başqasının oğlu, yaxud qohumu olduğunu söyləyir. Halbuki mümkündür, filan şəxsin (başqasının) oğlu olmaq onun üçün üstünlük, olmamaq nöqsan olsun.

Qeyd edək ki, yenə də tədlisdə məqsəd mütləq şəkildə tədlis deyil, müamilədə olan tədlisdir. Təsəvvür edin ki, bir şəxs ona daha çox ehtiram qoysunlar deyə, saqqalını ağardıb özünü qoca göstərsə, yaxud ona xüsusi ehtiram göstərsinlər deyə filan qrupun libasını

geysə, baxmayaraq ki, bu da tədlisdir, lakin bizim məsələdən xaricdir.

**Məsələ-1317.** Əgər bir şəxs müamilədə tədlis üçün əcir olsa, müamilədə tədlis haram olduğuna görə tədlisçün olan müamilə də (burada icarə müamiləsi də) haramdır. Məsələn, bir şəxs evlənmək üçün özünü başqasının yerinə göstərir və ona saxta şəxsiyyət vəsiqəsi lazım olur. Buna görə də bir şəxsi əcir edir ki, lazımi sənədləri hazırlasın. Bu müamilə haram və batildir. (Eləcə də) bir şəxsi saxta cəvahirat düzəltmək üçün əcir edir, məqsədi də onu başqasına əsl cəvahirat adı ilə satmaqdır, bu müamilə haram və batildir.

**Məsələ-1318.** Döyüşdə (müharibədə) hiylə etmək, kafirlər və İslam düşmənləri ilə[1] siyasi problemlərdə qarşıya çıxan aldatmalar, yaxud müamilədən başqa yerdə oları tədlis kimi[2] yerlərdə, bu tədlis üçün müamilə etmək (məsələn, əcir olmaq) haram deyil.

**Məsələ-1319.** Tədlisi müəyyən etməyin meyarı budur ki, xalq onu tədlis hesab etsin (yəni xalq arasında tədlis sayılsın). Məsələn, əgər elçilik zamanı oğlan, yaxud qız özünü müqabil tərəfin rəğbətini cəlb edəcək şəkildə özünü bəzəsə, bu nə azdırmaq, nə aldatmaq, nə də tədlisdir, buna görə də haram deyil. Buna əsasən, başqasının rəğbətinə səbəb olan hər bir şey tədlis deyil. Amma cinsi yaxınlığa mane olan xəstəlikləri gizlətmək, habelə cüzam və dəlilik kimi eyibləri gizli saxlamaq və ya evliliyin baş tutması üçün zinazadə olduğunu deməmək tədlis sayılır. Bu günlərdə qrim tədlisin nümunələrindəndir. Təsəvvür edin qoca kişi, yaxud qadın qrim vasitəsilə özünü 25 yaşlı cavan kimi göstərir və ya bu işlə şəxsiyyət vəsiqəsində saxtakarlıq etmək istəyir.

**Məsələ-1320.** Kişi və ya qadın üçün haram olan zinətin bu məqsədlə olan müamiləsi də haramdır. Məsələn, kişi üçün qızıl üzük, boyunbağı və qolbaq kimi zinət əşyasından istifadə etmək haram

---

[1] İslam düşmənlərini siyasi işlərdə aldatmaq onlarla döyüşdə olan rəftar hökmündədir.

[2] Şənlik məclislərində qızıla oxşar zinət əşyalarından istifadə edən qadınlar kimi. Bu zinət əşyalarını bu məqsədlə düzəltmək, satmaq və icarəyə vermək haram deyil.

olduğu üçün həmin əşyaların bu məqsədlə olan müamiləsi də haram və batildir. Əgər kimsə muzdla qadın üçün ona kənar bir amil səbəbindən haram olan bəzənmə işi görsə, bu müamilə haram və batildir.[1]

## Kişinin özünü qadına oxşatması və əksinə

**Məsələ-1321.** Məqsəd budur ki, kişi rəftarlarında (hərəkət və danışıqlarında) davranışını yumşaltmaqla (incələşdirməklə) özünü qadına oxşadır, qadının kişi qarşısında olan cazibə halını özündə əks etdirir və ya qadın öz həmcinslərinin qarşısında kişi kimi rəftar edir, bu qəbil oxşatmalar haramdır. Buna əsasən, əgər bir şəxs belə bənzətmə üçün əcir olarsa, müamilə haram və batildir.

**Məsələ-1322.** Təkcə müxalif cinsin paltarını geyməklə müxalif cinsə oxşatmazsa, bu iş haram deyil. Əgər kişi kişiyə aid xüsusiyyətləri qorumaqla qadın paltarı geyərsə, haram deyil.

**Məsələ-1323.** Oxşatmaq təkcə libasla deyil. Mümkündür kişi kişi libasını geysin, lakin rəftar, davranış və danışığı qadın kimi olsun. Yəni necə ki, qadınların adi və normal rəftarları müxalif cins üçün bir növ cazibə yaradır, kişi də həmcinslərinin qarşısında belə bir rəftardan istifadə edərsə, bu rəftar şübhəsiz özünü qadına oxşatmaq və haramdır.

**Məsələ-1324.** Kişinin özünü qadına, qadının özünü kişiyə oxşatmasında qəsd (məqsəd) şərtdir. Belə ki, əgər kişinin qadın rəftarı etməsi özünü qadına oxşatmaq olmasa (və əksinə qadının da qadın qarşısında kişi rəftarı etməsi, özünü kişiyə oxşatmaq olmasa), sadəcə onun bu rəftarı hansısa bir əqli (camaat arasında qəbul edilmiş) səbəbdən etsə, haram deyil, Məsələn, əgər kişi filmdə və ya dini əzadarlıqda qadın rolunu oynamaq məqsədiylə qadın libası geyib

---

[1] İkinci ünvanda məqsəd budur ki, bir sıra əməllər əvvəldən haramdır. Amma bəzi əməllər əslində haram deyil, lakin müəyyən səbəblərə görə haram olur. Məsələn, əslində qadının bəzənməsinin və ya onu bəzəməyin işkalı yoxdur. Amma o bəzənmək və bəzəmək haramla fəsada səbəb olduqda haram olur. Bu və bu qəbildən olanlar ikinci ünvan adlanır. (Mütərcim)

qadın rəftarlarını ifa edirsə, bunun eybi yoxdur və həmçinin əksi də belədir.

**Məsələ-1325.** Ehtiyat budur ki, qadın və kişi hərçənd oxşatmaq məqsədiylə olmasa da belə müxalif cinsə aid olan zinətlərdən istifadə etməsinlər. Məsələn, kişilərin gözəl görünmək məqsədiylə qaşlarını alması kimi.

## Tətfif [1] (Ölçüdə aldatmaq)

**Məsələ-1326.** Tətfif (ölçüdə aldatmaq) böyük günahlardan sayılır və haramdır, Məsələn, əgər bir şəxs yüz kvadrat metrlik sahəsində bina tikmək üçün əcir olub, o binanı 95 kvadrat metr sahəsində tiksə və ya ondan ondördlük dəmirdən istifadə edilməsi tələb olunsa, lakin o, onikilik dəmir işlədərsə, bunlar tətfifin nümunələrindəndir və haramdır.

**Məsələ-1327.** Əgər bir şəxsi tətfif üçün əcir etsələr, bu icarə batildir.

**Məsələ-1328.** Əgər bir şəxsi səhih çəkidə (məsələn, düzgün tərəzidə) işləmək üçün əcir etsələr, lakin o, xəyanət edərək çəkidə aldadarsa, bu icarə səhihdir. Amma muzd almağa haqqı yoxdur. Məsələn, əgər bir ay müddətində çəkidə aldadıbsa, bir ayın muzdunda haqqı yoxdur, çünki icarə səhih çəki üçün olub, halbuki özü icarəyə əməl etməyib. Əgər icarə haqqı günlə müəyyən edilibsə, bir gün xəyanət etdikdə bir günün muzduna haqqı yoxdur. Əgər "çəki sayı" ilə təyin edilibsə, neçə dəfə xəyanət edibsə, o miqdarda muzda haqqı yoxdur.

**Məsələ-1329.** Əgər səhih və batil çəki qeydi etmədən biri çəki üçün əcir edilsə, bu da səhih çəki üçün əcir edilən icarə hökmündədir. Yəni bu halda da xəyanət edərsə, muzda haqqı olmayacaq.

---

[1] "Tətfif", müamilə edərkən ölçüdə (çəkidə, ədəddə, metrdə və s.) aldatmaq və naqis vermək deməkdir.

**Məsələ-1330.** Tətfif və ölçüdə aldatmaq çəkiyə və ölçüyə məxsus deyil. Ədədlə hesablanan əşyalara, parça kimi metrlə ölçülən mallara və ya kvadrat metrlə ölçülən yerlərə də aid edilir.

**Məsələ-1331.** Tətfif və ölçüdə aldatmaq təkcə alverə məxsus deyil, digər müamilələrə də aiddir.

**Məsələ-1332.** Bəzən az vermək satıcının haqqıdır. O yerdə ki, satıcının müştəridən tələbi var (yəni müştərinin satıcıya borcu var), bu müamilədə təqass[1] caiz olduğu halda, tələbi miqdarında götürə bilər (yəni tələbi miqdarında az verə bilər).

## Tətfif olan müamilənin hökmü

### 1. Həmcins olmayan malların müamiləsi

**Məsələ-1333.** Əgər satıcı xaricdə müəyyən olmuş bir malı deyil, külli[2] malı satsa, müştəri də həmin küllini qəbul etsə, lakin satıcı müştəriyə o külli malın xarici nümunəsini (xaricdə olan malı) verərkən müamilədə təyin edilmiş miqdardan az verərsə, bu müamilə səhihdir. Amma az verdiyi miqdarda müştəriyə borcludur və gərək onu ödəsin. Müəyyəndə və qeyri-müəyyəndə olan külli[3] arasında heç bir fərq yoxdur.

---

[1] "Təqass" budur ki, bir şəxsin digərinə borcu olsa və onu verməsə, müəyyən şərtlərlə tələbi olan şəxs borclu olanın malından onun razılığı olmadan tələbinin miqdarında götürə bilər. (Mütərcim)

[2] "Külli" mal o mala deyilir ki, müamilə zamanı xaricdə müəyyən deyil. Məsələn, satıcı müəyyən etmədiyi bir kisə unu müştəriyə satır, sonra qabaqcadan müəyyən olmuş anbardakı unlardan bir kisəsini ona verir və ya müəyyən edilməmiş yerdən onun bir kisə ununu verir. Külli iki qisimdir: Müəyyəndə və qeyri-müəyyəndə olan külli. Çəkdiyimiz misallar tərtiblə bu iki qismin nümunələridir. Qeyri-müəyyəndə olan külli "öhdədə olan külli" də adlanır. (Mütərcim).

[3] Müəyyəndə olan külli, bir mağaza daxilində olan on kiloqramlıq düyü kisələrindən birini (müəyyən etmədən) almaq kimi (ki, burada aldığı on kiloqramlıq düyü kisəsi məlum olmadığı və ümumi şəkildə düyü kisələrinin içində olduğu üçün, "külli" adlanır, lakin eyni zamanda müəyyən olmuş düyülərin içində olduğu üçün "müəyyən külli" adlanır). Amma qeyri-müəyyəndə olan külli, bir şəxsdən (xaricdə məxsus bir küllinin içində olmayan) bir kisə düyünün alması kimi, burada mal satıcının öhdəsində olur (nəinki xaricdə və ya xaricdə müəyyən olmuş düyülərin içində).

**Məsələ-1334.** Əgər müamilə xaricdə olan mal üzərində olarsa, bunun bir neçə halı var:

**Birinci hal:** Alıcı malın kəmiyyətinə elə də əhəmiyyət vermir. Məsələn, tort satılan mağazada tortun üstünə iki kiloqram yazılıb, halbuki onun üzərinə yazdığı miqdardan yüz qram az olduğunu bilir. Bu tortun zahiri görünüşü (və keyfiyyəti) müştərinin məqsədiylə tam uyğun olduğu üçün müştəriyə onun iki, yaxud bir kiloqram yarım olması elə də əhəmiyyət daşımır. Bu alver səhihdir, çünki müştəri üçün onun çəkisi elə də maraqlı deyil. Buna əsasən, iş müştəriyə zərər yetirmək sayılmır.

**İkinci hal:** Kəmiyyət və çəki müamilədə olan şərtdir. Belə ki, müamilə onun üstündə qurulur[1] və ya müamilə əsnasında o, şərt edilir. Məsələn, müştəri on kiloqramlıq düyü kisələrinin arasından birini götürür və elə bilir ki, düyü on kiloqramdır. Bu müamilədə də onun məqsədi düyünün on kiloqram olmasıdır. Buna görə də çəkini dilinə gətirib soruşmasa da çəki onun şərtlərindəndir. Hətta bəzən müamilə zamanı kisəni on kiloqram şərti ilə alır. (Bu zaman əgər onun çəkisi on kiloqramdan az olarsa) müamilə səhihdir, lakin müştərinin bu müaminəni pozmaq haqqı var və malı qaytara bilər.

**Üçüncü hal:** Miqdar malın qeydidir.[2] Bu, üç cür ola bilər:

1. Zahiri və halından belə məlum olur ki, əgər mal bu miqdarda olmazsa, müştəri onu istəmir. Bu halda müamilə batildir.
2. Zahirindən və halından belə məlum olur ki, müştəri o müamilədə çəkini dilinə gətirməsə də şərt edir.

Bu halda müamilə səhihdir, lakin müştərinin müamiləni pozmaq və malı qaytarmaq haqqı var.

3. Zahirindən və halından belə məlum olur ki, müştərinin məqsədi təqsim, yəni verdiyi pulu aldığı mala bölməkdir. Belə ki, o, miqdar

---

[1] Yəni baxmayaraq ki, müamilə əsnasında çəkidən söz getmir, amma onun şərt olması elə aydındır ki, hətta adını çəkməyə ehtiyac yoxdur. (Mütərcim).

[2] Bunun ondan öncəki halla fərqi budur ki, əvvəlkində müamilə mal əsasında olur və miqdar müamilədən xaric bir şərtdir və on kiloqram kimi müamiləyə daxil deyil. Lakin üçüncü halda xaricdəki düyüyə işarə edərək (göstərərək) on kiloqram qeydini ona əlavə edərək deyir: "Bu on kiloqramlıq düyünü səndən alıram". Buna əsasən, miqdar malın qeydidir.

və kəmiyyəti qeyd etməklə pulun mala necə bölündüyünü və hər kiloqramın qiymətini müəyyən edir. Bu halda müamilənin təhvil verilən mal miqdarı səhih, tətfif edilən miqdar qədəri isə batildir. Məsələn, əgər misaldakı düyü kisəsində 9,5 kq. düyü olarsa, bu miqdarın müqabilində olan müamilə səhihdir və satıcı o miqdarın müqabilindəki pula sahib olur. Amma yarım kiloqram müqabilində müamilə (səhih) olmadığı üçün yarım kiloqramın pulu satıcının mülkünə keçmir (satıcı ona sahib olmur) və o miqdarda müamilə batildir.

## 2. Həmcins malların müamiləsi

**Məsələ-1335.** Əgər müamilə öhdədə olan küllidirsə, hərçənd mal, ya pulda tətfif olsa belə bu müamilə səhihdir. Malı təhvil verərkən edilən tətfif (ölçüdə aldatmaq) müamilənin batil olmasına səbəb olmur. Çünki həmcins malların müamiləsində birinin miqdarının çox olması o zaman müamiləni batil edir ki, müamilənin əslində bu fərq olsun. Məsələn, satıcı "Mən filan buğdadan, iki mən (ya kiloqram) buğdanın müqabilində bir mən (ya kilo) satdım", - desə, bu ribadır. Amma burada müamilə bir mən konkret hansısa buğda deyil, ümumi şəkildə "bir mən buğda" adı altında aparıldığı və müamilədə çəki baxımından onlar arasında fərq olmadığı üçün müamilə səhihdir. Lakin satıcı az verdiyi miqdarın müqabilində müştəriyə borcludur, gərək onu versin və həmin miqdarın müqabilində aldığını istifadə etməsi haramdır.

**Məsələ-1336.** Əgər mal öhdədə olan külli deyil, xaricdə olan müəyyən mal olub alver də çəki ilə olan alver olarsa, bunun üç halı var:

**Birinci:** Əgər müştəri onun çəkisinə əhəmiyyət verməsə (yəni müştəri üçün onun çəkisi elə də maraqlı deyil), təsəvvür edin müştəri iki kiloqramlıq tortu alıb əvəzində həmin cinsdən olan şirniyyat verir. Amma o tort iki kiloqramdan yüz qram azdır. Bu müamilə (alver) batildir, çünki cinsləri eyni olan malların çəkisində fərq olarsa, ribadır və müamilədə olan riba müamiləni batil edir.

**İkinci:** Əgər müamilə predmeti müəyyən kəmiyyət şərti olan konkret və real şeydirsə, müamilə riba və batildir.

**Üçüncü:** Əgər alğı-satqı konkret və real şey üzərində qurulursa, müəyyən çəki şərti ilə ünvanlansa,[1] bu müamilə də (birinin çəkisi az olduğu üçün rıbadır və) batildir.[2] Amma əgər müamilədə məqsəd təqsim olsa,[3] bu halda müamilə səhihdir, az verən tərəf az verdiyi malın miqdarında müqabil tərəfə borclu olur. Məsələn, satıcı bir üç kiloqram yerli düyünü üç kiloqram xarici düyünün müqabilində satır. Belə ki, bunun bir kiloqramı digərinin bir kiloqramı müqabilində olur. Müqabil həmcinsinin bərabərində verilən miqdarda müamilə səhih, az olan miqdarda isə batildir və az verənin öhdəsində qalır.

## Nücum (və münəccimlik)

Nücumdan müxtəlif məqsəd və maraqlarla istifadə edilir. Bəzilərinin marağı (və məqsədi) ulduzları və onların yollarını tanımaqdır. Belə ki, (planetlərin) onların həyatında təsir edib-etməməsini nəzərə almadan onların doğduğu və batdığı yer haqda məlumat əldə etmək istəyirlər. Məsələn, filan planet hansı səmtdən çıxıb hansı səmtdə batır, onun vaxtı nə vaxtdır və ya iki ulduzun yaxınlaşması nə zaman baş verir. Amma bəzən də bu elmlə onların insan həyatında olan təsirlərini kəşf etməyə görə istəyirlər.

Qədim iranlılar, hindlər və ərəblər kimi keçmiş millətlər və insanlar inanırdılar ki, ölüm, həyat, xəstəlik, salamatlıq, döyüş, sülh, izzət və zillət, həmçinin ticarətdə yaranan mənfəət və ziyan kimi insanların həyatında baş verən digər yer aləminin hadisələri, bir sözlə bunların hamısı səma cisimlərinin insan həyatında qoyduğu təsir nəticəsində baş verir. Onlar bu əqidədə idilər ki, yer və yerdə olan bütün şeylər səma cisimlərinin əsiridir. Məsələn, deyirdilər: "Əgər bir uşaq filan

[1] Yəni deyə ki, çəkisi bu qədər olan malı səndən aldım (Yaxud sənə satdım)

[2] Əvəzlər həmcins olduğu üçün ribadır və batildir. Əvəzlər həmcins olmasa, riba deyil, amma yenə də başqa baxımdan batildir ki, bu məsələ 1334-cu məsələnin üçüncü halının birinci fərzində keçdi. (Mütərcim)

[3] Yəni hər kiloqramın müqabilində onun əvəzini təyin etmək,

planetin çıxdığı zaman doğularsa, zühəl taleyinə malik olur və zühəl taleyi olan şəxs belə-belə xüsusiyyətlərə malikdir. Yaxud iki müəyyən planetin yaxınlaşdığı zaman səfərə gedilsə, belə bir nəticəsi olacaq”. Buna görə də padşah iqtidar taxtına oturmaq istəyən zaman münəccimlərə göstəriş verirdi ki, xoşbəxtlik və səadət saatını tapsınlar.

Bu bölümdə sözü gedəcək nücum elminin hökmləri) insanların həyatında təsirqoyma baxımındandır.

## Nücum elmini öyrətmək, öyrənmək və nücum yolu ilə xəbər vermək

**Məsələ-1337.** Planetlərin vəziyyət və halları əsasında insanların həyatı barədə hökm etmək, keçmiş və gələcəkdən xəbər vermək iki formada olur:

**Birinci:** Bu elm vasitəsilə verilən xəbərlər, yaxud münəccimin özü üçün hasil olan qəzavətlər, qəti və yəqin edilmiş qəzavət və xəbərlər. Belə ki, bu hadisə şübhəsiz baş verəcək, dua, istiğfar, sədəqə və Allahdan kömək istəməyin heç birinin baş verəcək hadisələrin qarşısını almaqda təsiri yoxdur. Bu halda nücumu öyrətmək, öyrənmək və onun vasitəsilə belə xəbərlər vermək haramdır. Həmçinin münəccimin sözünü qəbul və təsdiq etmək də haramdır.

**İkinci:** Xəbərlər və qəzavətlər qəti və yəqinlə deyil. Məsələn, deyir: “Mən belə başa düşdüm ki, əgər Allahın iradə və istəyi onun qarşısını almaq olmasa, baş verəcək. Amma mümkündür ki, Mütəal Allah Quranda buyurduğu kimi onu məhv edib qarşısını alsın.

Həmçinin mümkündür Allahdan kömək diləməklə, sədəqə verməklə sileyi-rəhm etməklə, dua edib yalvarmaqla bəla aradan getsin”. Bu halda onu öyrətmək, öyrənmək və belə xəbər vermək haram deyil.

**Məsələ-1338.** Rəml və cəfr (elmlərini) öyrənib-öyrətmək, bu yolla xəbər vermək nücumda dediyimiz hökm kimidir.

**Məsələ-1339.** Qeyd olunan yollarla bir şeyi (məlumatı) kəşf etmək və onunla qazanc əldə etmək halal növdən olarsa, aldatmaq, yalan danışmaq, pul qopartmaq və s. kimi haram işlər ona aid olmazsa, müamilənin işkalı yoxdur. Amma onun haram növü olarsa, (bu iş) həm haramdır, həm də müamilə batildir. Yəni o cür xəbər verməyin haram olmasından əlavə bu yolla müamilə də batildir.[1]

## Kəhanət (kahinlik)

Kəhanət keçmiş və gələcəkdən oğurlanmış, yaxud itmiş şeyin yerini demək kimi camaatın gözündən məxfi olan şeylərdən xəbər verməyə deyilir. Kahinin xəbərinin mənbəyi şeytandır, yəni xəbəri şeytandan alıb camaata xəbər verir.

**İzah:** Bəzən xəbərlər hesablamalar vasitəsilə olur. Məsələn, rəml, cəfr,[2] nücum elmlərinin köməyilə qeybdən xəbər verirlər, bu kəhanət deyil. Xəbər vermənin başqa bir növü hesablamalar əsasında deyil, yuxuyozanların keçmiş, gələcək və indiki zamandan xəbər vermələridir. Bu bəzən də düz və uyğun olur, lakin kəhanət deyil.

Kahinin xəbər verməsinin mənşəyi hesablamalar deyil, (dediyimiz kimi) onun qəlbinə şeytan vasitəsilə ilham olunmaqla xəbər verir. Şeytan cin olduğu üçün asanlıqla hər yerdə olub hadisələri yaxından görüb kahinə xəbər verə bilir. Bəzən də kahinin düşüncə və zirəkliyi kimi nəfsani xüsusiyyətləri təsirsiz deyil. Qeyd edək ki, şeytan batini və gizli şeyləri bilmir, lakin insanların əməllərini görə bilir. Buna görə də kahindən oğurlanmış şey barədə soruşduqda o, malın gizlədildiyi

---

[1] Yəni bu yolla xəbər verib müqabilində aldığı pul onun mülkü deyil, (Mütərcim)

[2] “Cəfr” elmi İmamların (ə), “rəml” elmi də Peyğəmbərlərin elmlərindəndir və Həzrət Danyal peyğəmbərə (ə) nisbət verilir. Eyni zamanda bəzi böyük şəxsiyyətlər və möminlər də bu elmi bilirlər. Ola bilsin bəzi fırıldaqçı insanlar bu elmi bildiklərini iddia etsinlər. Əslində bu elm şərafətli elmdir.

yerdən xəbər verir. Buna əsasən, kahinə xəbər gətirən şeytandır. Kahin şeytanla əlaqədə olan bir şəxsdir.

**Məsələ-1340.** Kəhanət istər keçmiş, istər gələcək, istərsə də indiki zamandan və ya hər bir qeybdən xəbər versin, mütləq şəkildə haramdır. (Həmçinin haramdır), istər ehtimalla xəbər versin, istərsə də qəti surətdə və yəqinlə, habelə istər onun xəbər verməsi iddia ilə olsun, istər iddiasız haramdır. Həmçinin onu öyrədib-öyrənmək də haramdır.

**Məsələ-1341.** Bir mətləbi başa düşmək üçün kahinə müraciət etmək, hətta ürəyində onu təsdiq etməyib Allahın məhv və isbat[1] qanununa inansa belə, haramdir. Amma təkcə ona tamaşa etmək üçün onun yanına gedərsə, bunun işkalı yoxdur.

**Məsələ-1342.** Deyildiyi kimi belə deyil ki, kahinə hər bir cin xəbər versin, kahinə xəbər verən şeytandır. Buna əsasən, cinlərlə əlaqədə olanlar kahin sayılmır. Həmçinin rəml, cəfr və nücum elmləri vasitəsilə xəbər verənlər kahin deyil.

**Məsələ-1343.** Kəhanətdən başqa bir yolla xəbər vermək cəhalətə salmaq, aldatmaq, təkzib etməyə səbəb olmaq kimi harama səbəb olarsa, haramdır.

**Məsələ-1344.** Başqalarına xəbər vermədən şeytandan təkcə xəbəri almaq haram deyil.

## Sehr

**Məsələ-1345.** Sehr müxatəbin, yaxud sehr edilmiş şəxsin gözündə, zehn və xəyalında təsir qoyur, lakin xaricə və həqiqətə heç bir təsiri yoxdur. Buna əsasən, həqiqi işlər görülsə, bu, sehr deyil. Sehri sehrə oxşar işlərdən ayıran nişanələrdən biri budur ki, sehrin mənşəyi şeytandır.

---

[1] “Məhv və isbat” budur ki, Allah müəyyən səbəblərə əsasən gələcəkdə baş verəcək və ya baş verə biləcək hadisələri lövhədən silir və yerinə başqa bir şey yazır. Necə ki, “Rəd” surəsinin 39-cu ayəsində bildirilib. (Mütərcim)

Əgər bir şəxs başqasına cəzbedici bir filmi göstərib onu səhv xəyala salsa, belə ki, o, həmin halda olmağını xəyal etsə, bu, haram deyil. Necə ki, əvvəllər camaat ilk dəfə televiziya filmlərini görəndə vahiməyə düşür, kameraya tərəf hərəkət edən avtomobilin şəklinin qabağından qaçırdılar. Bu gün elmin inkişafı sayəsində kamera və çəkiliş hiylələriylə insanın özünün (canlı şəkildə) hadisə yerindədir və ya məsələn, uçuş halında xəyal etməsinə şərait yaratsalar, bu sehr deyil. Çünki onun mənşəyi insandır, şeytan deyil.

**Məsələ-1346.** Sehr mütləq şəkildə haramdır. İstər haqsız iddia ilə, azdırmaq, yaxud digərinə zərbə vurmaq məqsədiylə olsun və ya əksinə, bütün hallarda haramdır.

## Sehri öyrədib-öyrənmək

**Məsələ-1347.** Əgər sehri öyrənmək sehr etmək məqsədiylə olarsa, haramdır. Əgər onun təlimi də sehri öyrəndikdən sonra sehr etmək məqsədiylə olsa haramdır. Əks təqdirdə onu öyrənmək və təlim etmək haram deyil. Məsələn, əgər sehri məlumatını artırmaq məqsədiylə öyrənərsə, işkalı yoxdur. Yaxud onun sehrbaz düşməni var, ehtimal verir ki, ona, ya başqasına sehr etsin və ya elə bir şəxs var ki, sehrlə camaatın fikirlərini özünə cəlb edir. Bu halda onların sehrlərini batil etmək üçün sehr öyrənməyin də işkalı yoxdur.

## Sehrə oxşar digər qəribə işlər

**Məsələ-1348.** Tilsim, təsxir, ruhları gətirmək, “nirnəciyat” və ya “nirnəcat” deyilən əməl kimi sehrəoxşar qəribə əməllər sehr deyil. Buna görə də bu cəhətdən (sehr baxımından) haram deyil. Amma başqasına zərər vurmaq kimi digər işlərə aid olarsa, o cəhətdən haram olur və başqasına zərər yetirən hər bir əməl haramdır, təkcə tilsimə xas deyil. Həmçinin başqalarının əqidə və imanında haqq yoldan çıxmağa səbəb olarsa, bu baxımdan haramdır. Həmçinin ondan tövhid və peyğəmbərlərlə mübarizə aparmaq yolunda is-

tifadə edilərsə, bu baxımdan haram olur. Necə ki, bu gün bir sıra insanlar haqqın dəvətiylə mübarizə yolunda onlardan istifadə edirlər.

## Gözbağlayıcılıq

**Məsələ-1349.** Gözbağlayıcılıqda məqsəd mahirliklə və sürətlə olan hərəkət nəticəsində həqiqəti qeyri-həqiqi göstərməkdir. Bu iş təbii bir işdir, qeyri-təbii deyil. Gözbağlayıcı məşq və təcrübəsi sayəsində təbii və adi hərəkətləri elə bir sürətlə yerinə yetirir ki, insan səhvə düşür. Məsələn, görüşərkən görüşdüyü tərəfin cibindən pul çantasını götürmək. Buna əsasən, onun gördüyü iş qeyri-adi deyil, mahiyyəti də sehrlə fərqlidir.

Sehrdə insanın zahiri hiss üzvləri səhv edir və o, qarabasmaya düçar olur. Belə ki, məsələn, səhrada dəniz görür, yaxud dağ olmayan yerdə dağ müşahidə edir, (cansız bir) şeyi heyvan görür, sap və ipin hərəkətini ilan hərəkəti görür. Bunların hamısı sehrdir və gözbağlayıcılıqdan fərqlənir.

Əlbəttə ki, bəzi gözbağlamaların sehr olması mümkündür. Məsələn, insanın divardan o biri tərəfə keçməyini görür. Bu həqiqətdə gözbağlayıcılıq deyil, sehrdir. Çünki divardan keçmək heç vaxt mümkün deyil.

**Məsələ-1350.** Gözbağlayıcılıq, yəni sürət və məşq etməkdən yaranan iş haram deyil.

## Azdırıcı və yoldan çıxaran işlərlə qazanc etmək

**Məsələ-1351.** İstər hal-hazırda olsun, istərsə də gələcəkdə insanların yoldan çıxmasına (haqq əqidə və inanclarında azmasına) səbəb olan hər bir şeyi yaratmaq, nəşr etmək, qorumaq və yaymaq haramdır. Buna əsasən, onunla müamilə haram və batildir. Məsələn, əgər bir şəxsi azdırıcı və fəsada səbəb olan kitab, yaxud filmləri saxlamaq, yaymaq üçün əcir etsələr, ya televiziya və radio studiyalarına onları yaymaq üçün elan etsələr haramdır. Bu icarə həm müstəcirə (yəni bu işi görməyi başqasından tələb edənə, başqa sözlə

bu iş üçün digərini əcir edənə), həm də əcirə (bu işi görənə) haram və batildir.

**Məsələ-1352.** “Zəlalət” sözü “hidayət olmaq” sözünün əksi və qarşılığı olub azdırmaq, düz yoldan çıxarmaq mənasındadır. Buna əsasən, azdırıcı kitab o kitabdır ki, onun vasitəsilə camaat yoldan çıxıb azır. Hətta mümkündür müəllifi o kitabı zəlalət məqsədiylə yazmasın, amma oxuyanlar yolunu azır. Həmçinin azdırıcı filmlər izləyiciləri yoldan çıxaran filmlərdir, baxmayaraq ki, ola bilsin həmin filmlər zəlalət məqsədiylə çəkilməyib. Məsələn, ola bilsin bir şəxs ruhaniləri və ruhaniyyəti müdafiə etmək üçün bir film çəksin, amma camaat ruhani və ruhaniyyətdən üz döndərməyinə səbəb olacaq səhvlərə yol versin. Belə filmlər də zəlalətin nümunələrindən hesab olunur.

**Məsələ-1353.** Meydana çıxacaq zəlalət gərək qəti surətdə zəlalət olsun. Amma ixtilaflı olarsa, onun zəlalət olmağına hökm vermək olmaz.

**Məsələ-1354.** Zəlalət təkcə etiqadi məsələlərdə deyil, fiqhi və şəriət məsələləri, həmçinin əməli rəftar və əxlaqi məsələlərə də aid edilir. Məsələn, əgər bir film heç kimin əqidəsini dəyişib xarab etməsə, amma onun əxlaqını fasid və xarab etsə, belə filmləri çəkib hazırlamaq, saxlayıb yaymaq haramdır.

**Məsələ-1355.** Kitab, film və s. şeyləri qoruyub saxlamaq bəzən onun aradan getməsinin qarşısını almaqla və ya eyibdən qorumaqladır. Məsələn, adi kasetə yazılmış azdırıcı mövzu və məlumatları orijinal kasetə köçürür ki, on illərlə qalıb xarab olmasın. Bəzən də qoruyub saxlamaq onu təmir etmək və səhvlərini düzəltməklədir. Məsələn, vərəqləri xarab olan kitabı təmir edir və ya onu davamlı bir nüsxəyə köçürür. Həmçinin təsəvvür edin ki, virusla dolu olan kaseti bugünkü aparatlarla təmizləyir. Halbuki əgər viruslar kasetdə qalsaydı, heç də azdırıcı olmayacaqdı. Bu qeyd etdiklərimizin hamısı qoruyub saxlamağın nümunələrindəndir.

**Məsələ-1356.** Qoruyub saxlamağın haram olmasının mənası azdırıcı əşyaların qorunmamasının vacibliyidir və bu qorumamaq onu aradan aparmaq deməkdir. Çünki aradan aparmamaq özü də bir növ qorumaq sayılır və qorumağın bir mərhələsidir. Qorumağın mərhələləri müxtəlifdir. Bəzən seyfdə saxlamaqla, bəzən də onu aradan aparmamaqla olur. Belə halda baxmayaraq ki, onu qorumaq üçün çalışmır, lakin bunun özü də qorumağın bir mərhələsidir. Buna əsasən, onu imkan daxilində aradan aparmaq lazımdır.

**Məsələ-1357.** Məhv etməyin vacibliyi onun təkcə əlimizdə olan bir nüsxənin və ya əlavə başqa nüsxələrin də mövcudluğu arasında fərq yoxdur.[1] Çünki meyar bu şəxsdə olan nüsxənin fəsada səbəb olmasıdır.

**Məsələ-1358.** İzlal (zəlalətə, uçuruma salmaq, düz yoldan çıxarmaq və azdırmaq) böyük günahlardandır. İstər burada şəxsin özü birbaşa izlal etsin, istərsə də ona səbəb olsun və ya izlalın qarşısını almamaq nəticəsində olsun, böyük günahlardandır. Məsələn, birinin əlindən fəsada səbəb olan kitab, film və s. keçsə və onun qarşısını almasa, nəticədə camaatın ixtiyarında qoyulsa, belə bir şəxs də camaatın azmasına səbəb olur.

**Məsələ-1359.** İzlal hökmü o vaxtdır ki, zəlalətin hasil olmasına yəqin etsin və ya buna xatircəm olsun. Həmçinin çox əhəmiyyətli və mühüm işlərdə zəlalətin yaranması camaatın əhəmiyyət verdiyi ehtimal[2] həddində olsun (Çox mühüm işlərdə ağıl sahibləri yəqin hasil olmasını gözləmir və güclü ehtimala da əhəmiyyət verib əməl edirlər).

---

[1] Bu məsələ həqiqətdə bir şübhəyə cavab verir. O şübhə budur: mümkündür bəziləri belə güman etsinlər ki, aradan aparmaq dedikdə, məsələn, bir kitabın bütün tirajlarını aradan aparmaq nəzərdə tutulur. Çünki 1000 tirajdan birini yandırmaq fəsadı aradan aparmaq deyil. Bu məsələdə cavab verilir ki, xeyr, belə deyil, birini də aradan aparmaq, məhv sayılır. Çünki onu aradan götürməklə onun vasitəsilə yarana biləcək fəsadın qarşısı alınır. Əksinə, aradan qaldırılmasa, onun vasitəsilə fəsad yarana bilir. Buna əsasən, misalda deyilən 1000 tirajlı kitabın aradan aparılmasının vacib olması onların ayrı-ayrılıqda, hər birinə aiddir. (Mütərcim)

[2] Güclü ehtimalın özünün də mərtəbələri var. Ehtimal edilən şeyin qüvvə və əhəmiyyətinin, ehtimalın qüvvət və şiddətiylə əks nisbəti var.

## Haramda istisna olanlar [1]

**Məsələ-1360.** Əgər zəlalətə səbəb olan kitab və s. kimi şeylərin qorunmasında onun fəsadından çox müəyyən fayda olsa, haram olması aradan gedir, hətta bəzi hallarda onu qoruyub saxlamaq vacib də olur. Əlbəttə, həmin şeyin qorunmasında olan üstün xeyirin nədən ibarət olmasına və onun həmin fəsaddan nə qədər üstün olmasına baxmaq lazımdır. Məsələn, əgər bu azdırıcı kitabı aradan aparsaq, onun camaat arasında (onların zehnində) yaratdığı şübhələr yerində qalacaq. Amma onu saxlayıb bir mütəxəssisə onun əleyhinə möhkəm rədd (tənqid və batiledici elmi mətləblər) yazması üçün versək, bu şübhə aradan gedəcək, gələcəkdə də heç kim belə bir şübhəyə düşməyəcək. Buna əsasən, dediyimiz misalda o kitabın saxlanmağı fəsadlı olmağından daha faydalıdır ki, bu kitabın qorunub saxlanmasını caiz edir. Yaxud belə bir kitabı yığıb məhv etsək, böyük bir qrupun belə təsəvvür etməyi mümkündür: "O kitabda haqq mətləblər olub və aradan aparılıb ki, bu iş böyük bir şübhə və problemin yaranmasına səbəb olur".

**Məsələ-1361.** Bir şeyin aradan aparılması o zaman vacib, saxlanması isə haram olur ki, onun yaradacağı azğınlığı qəti surətdə məlum olsun. (Saxlanmasının caiz olması üçün lazım olan) əks cəhətinin xeyirli olması da gərək qəti surətdə məlum olub aşkar edilsin. Təkcə güman və xəyallarla kifayətlənmək olmaz.

## İslam hökumətinin vəzifəsi (sözügedən mövzu barədə)

**Məsələ-1362.** İslam cəmiyyətində camaatdan əlavə hökumətin də vəzifəsi budur ki, camaatın azması və fəsadına səbəb olan hər bir şeyin saxlanmasının, nəşrinin və yayılmasının qarşısını alsın. Camaatın düz yoldan azması üçün həmişə bu hökmdən boyun qaçıranların olmasına görə hökumətin də vəzifəsi odur ki, həmin boyunqaçırma və itaətsizliklərin qarşısını alsın, hidayətə səbəb olan şeylər vasitəsilə həmin problemləri aradan aparsın. Diqqət etmək

[1] Azdırıci və yoldan çıxaran işlərin haram olmasında müstəsnalar. (Mütərcim)

lazımdır ki, bu, şəxsi bir fikir deyil, şəri və fiqhi hökmdür. Hökumətin vəzifəsidir ki, cəmiyyətdə günahın yayılmasının qarşısını alsın. Əlbəttə, mümkündür bəzi günahların qarşısını almaq hökumətin vəzifəsi olmasın və hökumətin ona müdaxilə etməsi başqa fəsad və böyük günahlara səbəb olsun. Lakin insanların düz yoldan azdırılması bu qəbildən deyil, hökumətin o barədə böyük vəzifəsi var. Kitab, film və s. günün rabitə vasitələri məsələsi (azdırıcı saytları filtirləmək kimi) buna aiddir.

## Rüşvət

İslam Peyğəmbərindən (s) nəql edilir:

Rüşvət xalis küfrdür, ondan qaçın. Rüşvət sahibinin burnuna behişt iyi dəyməyəcək.[1]

## Rüşvətin haram olması

Rüşvətin haram olması icmal şəkildə İslam dinində aşkar məlumdur. Şiə və sünninin əqidəsi budur. Qəza (qəzavət, məhkəmə və hökm etmək) və qeyri-qəzada rüşvətin hökmü fərqli olduğu üçün münasibdir ki, hər birini ayrıca bəyan edək.

### 1. Qəza[2] (hökm) bölməsində (olan) rüşvət

**Məsələ-1363.** Qaziyə (hakimə) rüşvət vermək aşağıdakı hallardan biri ilə ola bilir:

1. Hakimə rüşvət verilir ki, rüşvət verənin lehinə və xeyrinə hökm etsin, istər bu hökm haqq (və düz) olsun, istərsə də batil (nahaq). Məsələn, rüşvətverən deyir: "Mən bilmirəm bu mülk kimindir, amma istəyirəm elə hökm çıxarasan ki, bu ev mənim olsun".
2. Haqq (və düz) hökm çıxarmaq üçün verilən rüşvət. Şəxs qaziyə pul verir ki, hətta onun zərərinə olsa belə, haqqı sübuta yetirib haqqa hökm etsin.

---

[1] Biharul-ənvar, cild 101, səh. 274

[2] Məqsəd məhkəmədə hökm etməkdir. Yəni qazinin (məhkəmənin) rüşvət alması və ya ona rüşvət vermək. (Mütərcim)

3. Batil (və nahaq) hökmü çıxarmaq üçün verilən rüşvət. Məsələn, qaziyə deyir: “Bu pulu al və batil hökm ver”. Bu hökm də elə bir hökmdür ki, həm hakim, həm də rüşvətverən batil olduğunu bilir.

Bu üç halın hamısında, rüşvət həm verənə, həm də alana haramdır.

**Məsələ-1364.** Əgər (ikinci halda) rüşvət verən rüşvət verməyə naçar olsa, rüşvət vermək ona ikinci hökmlə haram deyil. Məsələn, əgər haqqını almağın təkcə rüşvət verməklə mümkün olacağını bilsə, burada rüşvət vermək caizdir (lakin onu almaq haramdır).

**Məsələ-1365.** Əgər rüşvət əsl hökmü çıxarmaq üçün yox, hökmün bəzi xüsusiyyətləri üçün verilsə, məsələn, rüşvətverən haqqa çıxarılmış hökmü elan etməməyi və ya elan edildikdən sonra icra etməməyi, yaxud rüşvətverən şəxs qazidən qanuni istinadlardan istifadə etməklə çıxarılmış hökmün icrasını gecikdirməsini, bəzi zabitəsiz, işi qurtarmayan mərhələlərə salan yeni baxışın keçirmələrini istəsə, bu da rüşvətdir. Həmçinin rüşvət hökm çıxarıldıqdan qabaq olan fəaliyyətlər üçün də haramdır. Təsəvvür edin ki, müttəhim, hakimə qəbuledici və qaneedici sənəd və sübutları təşkil etməyi üçün rüşvət verir. Baxmayaraq ki, bu, hökm çıxarmaq üçün olan rüşvət deyil, lakin hökm çıxarmağa səbəb ola bilən müqəddimələrə rüşvət verməkdir. Habelə müstəntiq həqiqəti tapıb aydınlaşdırmaqda hakimə kömək etdiyi üçün şəxs müstəntiqə rüşvət verir ki, sübut və dəlilləri (və həqiqəti) olduğu kimi bəyan etməsin, rüşvət hökmü buna da aid olur.

**Məsələ-1366.** Qazi (hakim) rüşvət almaqla ədalətdən düşür.

## 2. Qeyri-qəzada (qəza və hökmdən başqa yerlərdə olan) rüşvət

**Məsələ-1367.** Qəza bölməsindən başqa işlərdə olan rüşvət qəza bölməsində olduğu kimi mütləq şəkildə haram deyil, bəzi yerlərdə caizdir. Məsələn, satıcıya malı başqasına deyil ona satıb öz müştərisi kimi qəbul etməsi üçün rüşvət verir, belə bir rüşvət haram deyil.

## Digər yerlərdə rüşvətin haram olması

**Məsələ-1368.** Əgər rüşvət haram bir iş üçün olarsa, istər bu iş zülm və əmanətə xəyanət, istər haqqı tapdalamaq, istərsə də digər haramlar olsun, bu halda işlərin özünün haram olmağından əlavə verilən rüşvət və onu almaq da ayrı bir haramdır. Məsələn, bir şəxs hər hansı malı onun tərəfindən ədalətli qiymətə alması üçün başqasını vəkil edir. Başqaları (məsələn, malı satan) vəkilə rüşvət verir ki, o malları həqiqi qiymətindən artıq qiymətə alsın. Bu iş həm xəyanət, həm də o iş üçün verilən və alınan rüşvət haramdır. Yaxud bir şəxs hər hansı idarənin mallarını almaq üçün ayrılan işçidir, ona fakturada aldığı qiymətdən artıq yazması üçün pul verirlər. Həmçinin müzayidədə satış məmuruna rüşvət verilir ki, malı ona satsın, halbuki malı daha artıq qiymətə alanlar da var. Habelə maliyyə məmuruna rüşvət verilir ki, maliyyədən azaltsın, məsələn, yüz milyon əvəzinə əlli milyon yazsın.

Bunların hamısı haram işə verilən rüşvət, əmanətə xəyanət etməkdir. Həmçinin başqasının haqqını əlindən almaq üçün verilən rüşvət də bu qəbildəndir. Məsələn, bir şəxs imtahanda az bal topladığından aşağı rütbə qazandığı üçün rüşvət verir ki, (balını çoxaldaraq) rütbəsini qaldırsınlar. Bu işin nəticəsi başqa bir şəxsin öz rütbəsindən aşağı gəlmək, yaxud universitetə qəbul ola bilməməsidir. Şübhəsiz, bu iş başqasının haqqını tapdalamaqdır. Habelə, idman yarışlarında hakimə udanı uduzan, uduzanı udan elan etmək üçün verilən rüşvət də (bu qəbildəndir və həmin iş) zülmdür.

**Məsələ-1369.** Hər hansı bir işin müqabilində olan rüşvət, istər halal olsun, istərsə də haram, iki qisimdir:

**Birinci:** Əməl həm halal və həm haram yolla ələ gələ bilən işdir. Məsələn, rüşvətverən şəxs istəyir ki, tender, ya auksiona daxil olsun və deyir: "Bu malı istər qanuni, istərsə də qeyri-qanuni yolla olsun, mənim üçün almağınızı, yaxud satmağınızı istəyirəm".

**İkinci:** Rüşvət verən şəxs həm halal, həm haram olmaq ehtimalı olan bir işin görülməsini tələb edir, məsələn, belə deyir: "Bu mənzil

və ya malı mənim üçün təşkil et”. Halbuki ehtimalı var o, öz malı olsun və ehtimalı var başqasının malı olsun. Hər iki halda rüşvət haramdır.

**Məsələ-1370.** Əgər bir işi görmək onun vəzifəsi olarsa, həmin iş üçün rüşvət vermək və almaq haramdır.

**Məsələ-1371.** Rüşvət vermək və onu almaq fəsadla nəticələndikdə, istər o işi görmək onun vəzifəsi olsun, istərsə də olmasın haramdır. Məsələn, insanın dövlət məmurlarına vəzifələri olduğu işi görmək üçün rüşvət verməsi haramdır. Həmçinin vəzifəsini yerinə yetirmək üçün məmurların aldığı rüşvət haramdır.[1]

## Ticarət kompaniyaları və şirkətlərin öz müştərilərini təşviq etmək üçün onlara verdikləri pul

**Məsələ-1372.** Böyük ticarət kompaniya və şirkətlərindən çoxlu alver etdikdə (bəzi şirkətlər) müştərinin bank hesabına pul köçürürlər. Onlar üçün alıcının kimliyi və kim üçün almasının fərqi yoxdur. Həqiqət budur ki, onlar həmin şəxsi daimi müştərilərinə çevirmək fikrindədirlər. Bu əməl rüşvət və haram sayılırmı?

Bu barədə iki hal mövcuddur:

1. Bir şəxs idarə tərəfindən onların lazımi mallarını almaq üçün vəkil və nümayəndədir. Məsələn, Təhsil Nazirliyi idarə mühitindən xaric mütəxəssis bir şəxsi idarə üçün min ton kağız təşkil etməyə vəkil edir və onun işinin müqabilində də haqqını ödəyir. Bu halda müştərinin (o vəkilin) alver etdiyi şirkətdən təşviq üçün aldığı məbləğin işkalı yoxdur.

---

[1] Burada iki fəsad yaranır: Məmurun qanunsuz hərəkəti və ictimaiyyətin qanunsuzluğu. Belə ki, məmurlar öz vəzifələrini yerinə yetirmək üçün rüşvət ala biləcəklərini düşünürlər. Bu məmurların fəsada uğraması və qanunsuzluğudur. Bundan daha böyük fəsad fəsadların ən böyüyü olan, adi camaatın fəsadından da təhlükəli olan fəsad işlər və əməllərdə olan fəsaddır. Çünki hər zaman hökumət və dövlət təşkilatında rüşvət yayılarsa, artıq məmurlar rahatlıqla xalqa xidmət etmir və iş görmək üçün rüşvət fikrində olurlar. Nəticədə rüşvət verənlərə xidmət göstərilir, verməyənlər xidmətdən məhrum olurlar.

2. Bəzən də bu iş idarə işçilərinə tapşırılır. Belə ki, bu iş o şəxsin idarədəki işlərindən biri sayılır. Bu halda da (şirkət tərəfindən) ona verilən pulun işkalı yoxdur. Amma pul idarəyə məxsusdur, çünki o şəxs bu idarənin nümayəndəsidir.

**Məsələ-1373.** Yuxarıda qeyd olunan ikinci halda əgər satıcı (şirkət) "sizin kim tərəfindən nümayəndə olmağınız bizə maraqlı deyil və biz pulu sizin hesabınıza köçürdürük", - desə, bu halda da nümayəndənin həmin pulu istifadə etməsi haramdır, çünki həqiqi alıcı idarədir. Buna əsasən, o pulu almaq nə rüşvət, nə də haramdır.[1]

## Rüşvət və hədiyyənin fərqi

**Məsələ-1374.** Rüşvət bir işi görmək, ya tərk etməyin müqabilində verilən mal (məsələn, pul) və ya bu kimi şeydir. Məsələn, bəzən hər hansı bir hökmü çıxarmaq üçün və ya müəyyən bir məqama sahib olmaq üçün rüşvət verilir. Hətta bəzən sükut etmək və haqqı deməməyin müqabilində verilir. Buna əsasən, rüşvət mənasında mübadilə, bir işi görmək və ya tərk etmək nəzərə alınır. Amma hədiyyədə əslində mal və ya bu kimi şeylər müqabil tərəfə (mübadiləsiz və) havayı verilir. Hərçənd normal şəxsin hər bir əməli xüsusi məqsədlə olur, hədiyyə vermək belədir. Məsələn, bir şəxs öz xanımına və ya övladına olan məhəbbətə görə onlara hədiyyə verir və ya bir nəfərə xeyir vermək məqsədiylə hədiyyə verir. Bəzən də hədiyyə vermək məhəbbətə görə deyil, mənəvi bir işə görə olur. Məsələn, bir möminə onun imanına və ya alimə elminə görə hədiyyə verir. Deməli, belə hədiyyələri verməkdə məqsəd elm və təqvaya verilən dəyərdir. Bəzən də məqsəd bir şəxsin məhəbbətini özünə cəlb etməkdir. Bundan məqsədi budur ki, ola bilsin bir gün ona ehtiyacı olsun və qarşı tərəf onun ehtiyacını aradan qaldırsın. Burada ona malı havayı verir. Lakin hədiyyəni verməkdə onun

[1] Qeyd edək ki, mətndə təkcə nümayəndəyə verilən puldan söz açılıb. Şübhəsiz ki, qeyd edilən pul şəxsi alver edənin hesabına köçürüldükdə heç bir işkalı olmayacaq. (Mütərcim)

məqsədi budur ki, hər hansı bir işi onun üçün görsün. Bu pul o işin müqabilində olmadığı üçün rüşvət sayılmır.

**Məsələ-1375.** Bəzən verilən mahın zahiri hədiyyə, amma batini rüşvətdir. Məsələn, bir şəxs məhkəmədə (onunla bağlı) hökm çıxarılmadan bir gecə öncə hakimə ailəsinə xərcləmək adı ilə və ya onun xanımına qızıl və almaz kimi qiymətli zinət əşyası hədiyyə edir. Bu işin zahiri hədiyyə olsa da, həqiqəti rüşvətdir. Çünki hər ikisi pul və ya malın sabahkı hökm müqabilində verildiyini bilir. Bunlar şübhəsiz rüşvətdir.

## Hakimə (qaziyə) hədiyyə verməyin hökmü

Əgər verdiyini həqiqi olaraq hədiyyə məqsədiylə verərsə, yəni onun müqabilində bir şeyi nəzərə almazsa, onun hökmü hədiyyə verənin və alanın məqsədinə tabedir. Hədiyyəverən həmişə hədiyyə alanın məqsədini bilmədiyi üçün onun hökmü həmişə hədiyyə alanın hökmü ilə bir deyil. Bu səbəbdən növbəti məsələlərdə hər birinin hökmünü ayrı-ayrılıqda bəyan edəcəyik.

**Məsələ-1376.** Əgər hədiyyəverən şəxsin məqsədi hakimin hökmü olmasa, məsələn, (hakim) mömin şəxs və ya qohumlarından olduğu üçün ona hədiyyə versə, bu hədiyyəni vermək və almağın işkalı yoxdur.

**Məsələ-1377.** Əgər hədiyyəverən şəxsin məqsədi fasid (və qeyri şəri bir) məqsəd olsa, məsələn, hədiyyə verməklə hakimin məhəbbətini özünə cəlb edib onun xeyrinə hökm çıxarılmasını istəyir. Hərçənd, onun istəyi ilə nəticələnməsə belə, bu hədiyyəni vermək və almaq haramdır.

**Məsələ-1378.** Əgər hədiyyəni alan (hakim) hədiyyəverən şəxsin məqsədini bilə-bilə hədiyyəni ondan qəbul edərsə, məqsədi də onun istəyinə uyğun rəftar etmək olsa, bu hədiyyə şübhəsiz haramdır.

**Məsələ-1379.** Əgər hakimin məqsədi hədiyyəni ondan almağına baxmayaraq, qanuna zidd əməl etməmək olsa, (o şəxsin məqsədi

hakimin qanunsuz və nahaq hökm etməsi olduğu üçün və) bu hədiyyə vermək haram olduğu üçün onu almaq da haramdır. Çünki belə bir hədiyyəni almaq günaha kömək etməkdir.

**Məsələ-1380.** Əgər hədiyyəni alan (hakim) hədiyyəverənin məqsədini bilməsə və ya qəflət edərsə, bu halda hakimə o hədiyyəni almağın işkalı yoxdur. Amma hədiyyəverən üçün haramdır.

**Məsələ-1381.** Rüşvət haram müamilə olduğu üçün rüşvətalanın mülkiyyətinə daxil olmur (yəni rüşvətalanın mülkü olmur). Hədiyyə də rüşvətlə uyğun olduqda, hədiyyə alanın mülkiyyətinə daxil olmur. Yəni nə qədər ki, aldığı rüşvət, yaxud hədiyyə aradan getməyib, rüşvət və ya hədiyyəverənin mülkündədir, gərək geri qaytarılsın.

**Məsələ-1382.** (Rüşvət və həmçinin hədiyyə haram olduqda) aradan gedərsə, onun misli, yaxud qiyməti rüşvət və hədiyyə alanın öhdəsindədir, istər onun aradan getməsi səhlənkarlıq nəticəsində olsun, istərsə də yox. Çünki onun əlində bir əmanət sayılmır.

## Məsul orqanların vəzifəsi

**Məsələ-1383.** Hakim rüşvət tələb edərsə, şəxsin vəzifəsi nəhy-əz-münkər baxımından müvafiq orqanlara xəbər verməkdir. Məsul şəxslər də gərək şikayətin düz olub-olmaması barədə araşdırma aparsınlar. Araşdırmalar gərək xatircəmliklə nəticələnsin. Hətta əgər pulun hakimin əlinə yetişməsi də sübut olunarsa, bu o demək deyil ki, hakim rüşvət almaqla ittiham olunsun (ittiham etmək üçün). Gərək hakimin o pulu rüşvət məqsədiylə alması sübuta yetirilsin. Çünki mümkündür bu şəxsin hakimlə düşmənçiliyi olsun, bir tərəfdən də hakimə borcu olduğu üçün ona borcunu vermiş olsun. Hakim də pulu tələbini almaq məqsədiylə ondan qəbul etsin. Yaxud hakim ondan borc istəsin, qarşı tərəf pulları nişanlayaraq borc məqsədiylə hakimə təhvil versin. Buna əsasən, belə yerlərdə verilən xəbərlər gərək (insanı yəqinə çatdırsın və ya ən azı) xatircəmliyə və etimada səbəb olsun.

## Hakimin məvacibi

**Məsələ-1384.** Hakimin hökmünün məvacibi gərək beytül-malla təmin edilsin. Buna görə də istər o muzd əsl hökmə, istərsə də onun müqəddimələrinə görə olsun, şikayət və iddia tərəflərindən muzd almaq olmaz.

**Məsələ-1385.** Zəhmət haqqı müstəcirin (icarə edən şəxs) gördürdüyü işin müqabilində ödədiyi haqdır. Məsələn, əgər hakim iddia tərəflərinə (ittiham edənə və olunana): "Mən hökm verməyimin müqabilində pul alacağam", - desə və hər iki tərəf də bunu qəbul edərsə, hökmün xərcini öz aralarında bölsələr və ya iki tərəfdən biri pulu ödəsə və yaxud üçüncü bir şəxs onların arasında olan ixtilafa son qoymaq üçün onun pulunu ödəsə, buna ücrət, yəni haqqa hökm vermək üçün verilən pul deyilir. Amma hakim bu muzdu məhkəmə orqanından və ya beytül-maldan alsa və rüşvətverən şəxs hakimin nahaq hökm çıxarmağından narahat olub, hakimə pul verərək haqqa hökm verməsini tələb edərsə, burada şəxsin hakimə verdiyi pul onun əməli müqabilində deyil, əməlinin muzdundan artıq və ayrıdır. Həqiqətdə o istəyir ki, hökmün keyfiyyəti o pulla təmin edilsin və ya hakimə rüşvət verilməyinin qarşısı alınsın. Baxmayaraq ki, hər ikisində hakimə pul verilib haqqa hökm çıxarılması tələb edilir, rüşvət ücrət və muzddan fərqlənir. Beytül-malın hakimə verilməsi onun maddi ehtiyacını təmin etmək üçündür, halbuki rüşvətverən haqqa hökm edəcəyindən xatircəm olmaq üçün ona pul verir.

## Güzəştli müamilə[1]

**Məsələ-1386.** Hakimə verilən rüşvət həmişə pul və ya mal növündən olmur. Bəzən hakimlə elə bir mübadilə edilir ki, hakimə çoxlu faydalar nəsib olur. Məsələn, bir malı hakimə bazar qiymətindən çox

---

[1] "Güzəştli müamilə" o müamiləyə deyilir ki, iki tərəfdən biri digərinə xüsusi mənfəət verir. Məsələn, malı çox ucuz satır və ya müqabil tərəfin verdiyi pulun dəyərindən daha artıq və keyfiyyətli mal verir.

aşağı satır, yaxud hakimin malını öz qiymətindən bir neçə dəfə yuxarı qiymətə alır.

**Məsələ-1387.** Güzəştli alverdə hakim həm satıcı, həm alıcı ola bilər, müamilə alver, icarə, yaxud başqa müamilə ola bilər.

**Məsələ-1388.** Güzəştli müamilə bir neçə növdür:

**Birinci növ:** Müamilədə onun məqsədi güzəşt etməkdir. Təsəvvür edin hakimin bir üzüyə çoxlu maraq və istəyi var. Əgər satıcının hakimin hökmünü dəyişmək fikri olmasaydı, onu hakimə satmaq fikri yox idi. Amma hakimin hökmünü öz xeyrinə tərəf cəlb etmək üçün bu mübadiləni onunla edir. Bu növdə baxmayaraq ki, malı öz qiymətinə satır müamilənin əsli güzəştdir.

**İkinci növ:** Müamilənin əsli güzəşt deyil (lakin müamilə zamanı güzəşt edilir). Təsəvvür edin, iddia tərəflərindən birinin işi maşın alveridir. Hakim ondan maşın istədikdə maşını hakimə başqalarına verdiyi qiymətdən çox aşağı qiymətə, məsələn, əlli milyonluq maşını iyirmi milyona satır. Məqsədi də budur ki, həmin güzəşt hakimin hökmündə təsir qoya bilsin. Deməli, (müamilənin əsli güzəşt üçün olmasa da belə, onun daxilində güzəşt edilir və bu) güzəşt də hakimin hökmünü öz xeyrinə cəlb etmək üçündür.

**Üçüncü növ:** Üçüncü növ ikinci növ kimidir və əslində müamilə etmək məqsədi var. Lakin güzəşt hakimin hökmü müqabilində deyil və hakimlə də mənfəətin hökm müqabilində olmasını şərt etmir. Amma eyni zamanda hakimin məhəbbətini özünə cəlb etmək istəyir ki, əgər işi ondan keçsə, hakim onun istəyi əsasında hökm etsin.

**Dördüncü növ:** Müamilə zahiri müamilədir və həqiqətdə hakimə pul vermək məqsədi var. Amma bu işin nəticəsindən qorxduğu üçün zahiri müamilə edir.

Əvvəlki üç növdə məqsəd ciddidir, həqiqətən müamilə edilir, lakin bu müamilədə məqsədi güzəşt etməkdir. Amma axırıncı növ ümumiyyətlə müamilə deyil. Qeyd olunan növlərin hamısı haram və batildir.

**Məsələ-1389.** İş də mal[1] kimi rüşvət nümunəsi ola bilər. Məsələn, sizin əlinizdə qiymətli bir mal var və onu heç kimə satmaq da istəmirsiniz. Bir tərəfdən də hakimin o malda gözü var və sizdən onu həqiqi qiymətə istəyir. Siz onu hətta həqiqi qiymətə hakimə satsanız, baxmayaraq ki, malı ona güzəştlə vermirsiniz, bu əməlin özü güzəşt və hakimi nəzərə almaq sayılır.

## Səbbül-mömin (möminə söyüş vermək)

**Məsələ-1390.** "Səbb[2] o zamandır ki, bir şəxsi qəbahətli adla adlandırsınlar. Belə ki, onun təhqir edilməsinə səbəb olsun və ya həmin adla ona xitab edilsin, yaxud pis və qəbahətli bir əməl ona nisbət verilsin. Məsələn, əlbəttə, ciddi olmamaq şərtiylə bir şəxsə bəzi nisbətlər verməklə olan söyüşləri göstərmək olar. Çünki ciddi olduqda bu "səbb" deyil, "qəzf"[3] sayılır. Əgər bir şəxsə qəbih sifətlər nisbət verilsə, məsələn, ona xəsislik nisbəti verilsə və ya heyvan adı ilə çağırılsa, yaxud cismində bir qüsur olduğu halda, onu məsələn, çolaq, lal və kor kimi adlarla çağırsalar, bu nisbət və çağırmalar təhqir sayılarsa, səbb və söyüşdür.

**Məsələ-1391.** Qəbahət nisbidir, yəni müxtəlif şəraitlərdə fərqli olur. Məsələn, bizim xalq arasında it nisbəti vermək böyük söyüşdür. Amma mümkürdür, iti özləri ilə hamama aparıb çimizdirən, onunla bir yerdə yatan və səfərə gedənlərin arasında səbb və söyüş hesab olunmasın.

**Məsələ-1392.** Mömini səbb etmək və söymək, istər şiə olsun, istərsə də olmasın, haramdır. Amma kafiri səbb etmək ona zülm olduğu təqdirdə haram, zülm olmazsa, məkruhdur. Amma kafirləri "həcv"[4] etmək lazım gəldikdə məkruh da olmayacaq.

---

[1] Burada malda məqsəd təkcə xaricdə mövcud olan maldır, nəinki maliyyəti olan şey. Çünki mal həqiqi mənada işə, haqqa və bu kimi bütün maliyyətə malik olan hər bir şeyə aid edilir, baxmayaraq ki, onun daha aydın nümunəsi xaricdə mövcud olan maldır. (Mütərcim)

[2] Söyüş vermək.

[3] Bir şəxsə haram nisbəti vermək, zina nisbəti kimi.

[4] "Həcv" bir növ səbdir ki, hünər (ədəbiyyat və şer) yolu ilə deyilir. (Mütərcim)

## Haramdan istisna edilənlər

**Məsələ-1393.** Bidət qoyana[1] söyüş söymək istər dinin əsaslarında, istərsə də təfərrüatında olsun, iki cürdür:

1. Bu şəxslərə söyüş söymək onların kənara çəkilməklərinə səbəb olur. Belə ki, möminlərin imanlarında təsir qoya bilmirlər, bu şəxsləri səbb etmək vacibdir.

2. Bu şəxslərə söyüş söymək əks təsir qoyur, o səbb haramdır. Məsələn, bidətqoyan şəxsə söyüş vermək nəticəsində o, özünü məzlumluğa vurur, camaat da elə düşünür ki, bu səbb məntiqsizlikdən irəli gəlir.

**Məsələ-1394.** Söyülən şəxsin onu söyənə qaytardığı söyüş, həmin söyüşün özünün, ya bənzərinin - nə artıq, nə də daha kəskin - ona qaytarılması şərti ilə haram deyil.

**Məsələ-1395.** Aşkar günah edən şəxsi aşkar etdiyi günahda nəhyəz-münkər məqsədiylə söyüb təhqir etmək haram deyil.

**Məsələ-1396.** Söyüşün haram olmağında müxatəbin (eşidənin) orada olması şərtdir, istər söyülən şəxs özü olsun, istərsə də başqası. Buna əsasən, əgər bir şəxs təklikdə digərini söysə, o, haram deyil.

**Məsələ-1397.** Hal-hazırda psixoloji hücumların əsas işlərindən biri səblə (söyüşlə) qazanc etməkdir. Məsələn, jurnalistləri qəzetlərdə müəyyən bir qrupu (və ya partiyanı) söymək və təhqir etmək üçün əcir edirlər, yaxud da şairə başqasını həcv etməkçün pul verilir. Mömini söymək haram olduğu üçün bu əsasda olan müamilə də haram və batildir.

---

[1] "Bidət" dində qəti olan bir şeyi inkar etməyə və ya dində olmayan şeyi dinə daxil etməyə deyilir. Fərqi yoxdur ki, bidət üsuli-dində olsun və ya fürui-dində. Həmçinin fərqi yoxdur ki, əsaslarında olsun, ya ona etiqad bağlamaq küfrə səbəb olmasın. Məsələn, bir çox etiqad və inancla bağlı olan, amma üsuli-dindən olmayan inancları göstərmək olar.

## Qeybət

**Məsələ-1398.** Haram qazanclardan biri də qeybət etmək yolu ilə qazanc etməkdir. Məsələn, bir jurnalistə pul verilir ki, qəzetdə bir şəxsiyyəti rüsvay etsin və ya xətib pul alır ki, minbərdə kimisə biyabır və ya onun hansısa gizli əməlini aşkar etsin. Bu, qeybət yolu ilə qazanc etməkdir.

**Məsələ-1399.** Qeybət böyük günahlardandır. Buna görə də qeybətedən tövbə etməzsə, ədalətdən düşər.[1]

**Məsələ-1400.** Qeybət bir kəsin gizli eybini özündən məxfi olaraq, məzəmmət etmək və ona nöqsan gətirmək məqsədiylə aşkar etməkdir.

**Məsələ-1401.** Sahibinin narahatlığına səbəb olan, lakin eyb və nöqsan sayılmayan, əksinə yaxşı və müsbət olan gizli bir işin aşkar və bəyan edilməsi hətta onu nöqsan kimi desələr belə, qeybət sayılmır. Məsələn, əgər "Filan şəxs, müstəhəb işlərlə məşğuldur, gecələr sübh azanına iki saat qalmış ayağa qalxır, namaz və ibadətlə məşğul olur, gündüzlər yuxulu olur", yaxud "Filan şəxs, bütün olan-olmazını yoxsullar arasında bölüşdürdü və öz cibi boş qaldı", - desələr, bunlar hətta o şəxsə nöqsan vurmaq məqsədiylə olsa belə, şəri və xalq baxımından nöqsan sayılmadığı üçün hərçənd sahibi bəyan edilməsinə razı olmasa belə, qeybət sayılmır.

Əlbəttə ola bilər bu iş bəzən başqa kateqoriyaya daxil olsun və həmin kateqoriya onun haram olmasına səbəb olsun. Təsəvvür edin təhlükəsizlik məmuru müəyyən bir yerə nüfuz edib onun namaz və ibadət əhli olduğunu bilsələr, onun görmək istədiyi böyük faydası olan bir iş xarab ola, yaxud o təhlükə ilə qarşılaşa bilər.

Bəzən də bu gizli və məxfi iş yaxşı olmasına baxmayaraq, təbii olaraq insan onun aşkar olmasını istəmir. Məsələn, ailə, sevgi-məhəbbət rabitəsi buna aiddir. Baxmayaraq ki, qeybət sayılmır, bu

---

[1] Kiçik günaha bir dəfə mürtəkib olmaqla, ədalətdən düşmür. Amma onu təkrar edərsə, bu zaman ədalətdən düşür. Lakin böyük günaha bir dəfə mürtəkib olmaqla ədalətdən düşür.

hallarda onu aşkar etmək haramdır. Məsələn, deyir: "Bu ər-arvad hər zaman bir-birini görüb məhəbbət, eşq və sevgi ilə qarşılayırlar".

Deməli, belə işlər əziyyət vermək, təhlükəyə salmaq, aşkar olmasını sevmədiyi bir sirri aşkar etmək başqa məqsəd daşıdıqda baxmayaraq ki, qeybət deyil, haramdır.

**Məsələ-1402.** Yanında olmayan insanın hər bir eyib və nöqsanını demək, istər bu eyib və nöqsan onun dininə, istər dünyasına, istərsə də onun xüsusiyyətləri, işləri, sözlərinə, yaxud da cisminə aid olsun, qeybətdir.

**Məsələ-1403.** (İnsanın özündə deyil) ona aid şeylərdə olan nöqsan və eyibləri demək iki növdür:

1. Bəzən bu eyib və nöqsanı demək, insanın öz eybini deməkdir. Bu, qeybət sayılır.

2. Bəzən eyib və nöqsanı demək, şəxsin eyib və nöqsanını demək sayılmır, bu halda qeybət deyil.

Məsələn, bir şəxsin barəsində: "Onun paltarları köhnə və çirklidir" və ya "avtomobili qədimidir" - deyir. Məqsədi şəxsin çirkin biri olub təmizliyə əhəmiyyət vermədiyini, onun xəsis insan olduğunu bildirmək istəyir. Amma şəxsə aid olan şeylərin eybini demək o şəxsin özünə qayıtmazsa, qeybət sayılmır.

**Məsələ-1404.** Qeybət sayılmağın meyar və ölçüsü, gizli və məxfi bir işi aşkar etməkdir. Əgər gizlidirsə, qeybətdir, aşkardırsa qeybət deyil. Gizli və aşkarda məqsəd eşidənin yanında gizli olması və ona aşkar etmək deyil, məqsəd xalq baxımından gizli və aşkar olmaqdır. Xalq arasında olan məxfi və gizlilik o deməkdir ki, adətən bir şəxsin o eyibdən xəbəri yoxdur və ya əksəriyyət onu bilmir. Xalq arasında aşkar olmaqda məqsəd budur ki, adətən camaatın onun eybindən xəbəri var, baxmayaraq ki, bəzilərinin xəbəri yoxdur. Buna əsasən, xalq baxımından gizli olan və bilinməyən eybi aşkar etmək mütləq şəkildə qeybətdir. Ürfi baxımdan aşkar və məlum olan eybi demək, hətta bilməyənlərin yanında olsa belə, qeybət deyil.

**Məsələ-1405.** Qeybətin caiz olub-olmamasına səbəb olan aşkar və gizli olmaqda məqsəd, həmin mühitdə olan aşkarlıq və gizlilikdir. Buna əsasən, bir məntəqədə aşkar olan eyb, başqa şəhərlərdə, ya radio və saytlar kimi geniş yayılmağa səbəb olan rabitə vasitələriylə ifşa etmək caiz deyil.

**Məsələ-1406.** Müxtəlif məntəqələrin camaatının ləhcələrini yamsılamaq qeybət deyil. Çünki gizli bir iş, bundan əlavə eyib də deyil. Amma ələ salmaq üçün olduqda haramdır və fərqi yoxdur ki, müəyyən bir məntəqənin camaatının ləhcəsini yamsılasın, yaxud xüsusi bir şəxsin. Təkcə fərq bundadır ki, əgər ümumi camaatın ləhcəsini yamsılasa, gərək onların hamısından halallıq alsın, amma bir nəfər olduqda təkcə ondan halallıq almalıdır. Əgər ələ salmaq məqsədiylə olmasa, haram deyil.

**Məsələ-1407.** Əgər bir şəxsin eyib və nöqsanı onun olmadığı yerdə, məzəmmət və nöqsan vurmaq məqsədiylə deyilməzsə, bu, qeybət deyil.

**Məsələ-1408.** Qınaq məqsədinin olmasının əksi belə bir məqsədin olmamasıdır. Qınaq məqsədinin olmaması neçə cür ola bilər. Məsələn, ola bilər bir şəxsin həmin eybi deməkdə məqsədi öyüd-nəsihət vermək olsun. Məsələn, bir ataya deyirlər ki, oğlun filan problemə, ya günaha, ya pis vərdişə düçar olub. Ola da bilər məqsəd nə öyüd-nəsihət olsun, nə də qınaq və məzəmmət. Məsələn, söhbət o şəxsdən getmir, lakin onun eybini demək başqa bir söhbət əsnasında baş verir. Fərz edin ki, filan şəxsin ehtiyaclı olub və ona zəkat verməyin mümkünlüyünü demək istəyərsiniz. Məqsədi çatdırarkən bunu da əlavə edirsiz: "Bu şəxs ehtiyacı olduğu üçün atasına onun nəfəqəsini vermək vacib olsa da, atası ona pul vermir". Bu sözü atasının eybini demək məqsədiylə deyil, başqa bir məqsədi (yəni onun həqiqətən ehtiyaclı olduğunu) çatdırmaq üçün deyir. Bəzən də eyib o şəxsin özünə aiddir, amma onu deməkdə məqsəd ona nöqsanı gətirmək deyil. Məsələn, təsəvvür edin ki, baş vermiş cinayət hadisəsini müəyyən bir şəxsə nisbət verirlər və siz onu müdafiə etmək məqsədiylə deyirsiz: "Bu adam o qədər qorxaqdır ki,

belə meydana daxil olmaz və əlini birinin qanına bulaşdırmaz". Bu da onun eybini deməkdir. Amma nə nəsihət vermək məqsədiylədir, nə də nöqsan vurmaq, buna görə də qeybət sayılmır.

## Qeybətin baş verməsinin, ya onun haram olmasının şərtləri

**Məsələ-1409.** Qeybət olunan şəxs gərək müəyyən olsun. Buna görə də əgər eyib və nöqsan, qeybəti edilən şəxsin neçə nəfər arasında "itməsinə" və onun kimliyi barədə tərəddüd yaranmasına səbəb olacaq şəkildə deyilsə, qeybət sayılmır. İstər tərdid və şəkk müəyyən şəxslər arasında olsun (məsələn, deyə ki, filan şəxsin qardaşlarından biri şərabxordur), istərsə də qeyri-müəyyən (məsələn, min nəfərlik bir məclisin şəxsləri barədə deyə ki, onlardan biri şərab içəndir). Bu, qeybət deyil.

**Məsələ-1410.** Əgər bir ailənin pisliyindən danışılarsa, məsələn, "bu ailənin hamısı şərabxordur" deyilsə, qeybətdir.

**Məsələ-1411.** Əgər uşaq müməyyiz olarsa,[1] onun nöqsanını danışmaq qeybət və haramdır. Amma müməyyiz olmayan uşağın, məsələn, qeybəti başa düşməyən və ona təsir etməyən iki yaşlı uşağın qeybəti haram deyil.

**Məsələ-1412.** Dəli də müməyyiz və qeyri-müməyyiz qisimlərinə bölünür: Qeyri-müməyyiz dəli o şəxsdir ki, heç bir şey başa düşmür. Belə dəlinin qeybəti qeyri-müməyyiz uşağın qeybəti hökmündədir. Amma müməyyiz, başa düşən və qeybəti eşitməkdən narahat olan dəlinin qeybətini etmək müməyyiz uşağın qeybəti hökmündədir.

**Məsələ-1413.** Qeybətin haram olması müsəlmanın qeybətinə xasdır, istər on iki imama əqidəsi olan şiə olsun, istərsə də başqa məzhəblərdən. (Özlərini müsəlman sayan, amma həqiqətdə) ğalilər

[1] Burada müməyyizdə məqsəd budur ki, uşaq onun pisliyindən danışıldığını başa düşə. Belə ki, əgər eşidərsə, narahat olur. Necə ki, onu təriflədikdə şad olur. (Mümkündür müməyyiz kəlməsində məqsəd başqa yerlərdə başqa mənada olsun).

və nasibilər kimi kafir hökmündə olan firqələr bu hökmdən müstəsnadır.

**Məsələ-1414.** Qeybət haramdır, istər qeybət olunan şəxsin acığına gəlsin, istərsə də gəlməsin.

**Məsələ-1415.** Qeybətin hasil olmağı üçün (yəni o danışığın qeybət sayılmağı üçün), eşidənin olması lazımdır, istər müəyyən bir şəxsə deyilsin, istərsə də uca səslə başqalarına eşitdirsin.

**Məsələ-1416.** Əgər qeybət edərkən onu eşidib anlamayan şəxs olsa, bu, qeybət hökmündə deyil. Məsələn, südəmər körpə yanında birinin dalınca danışılsa, bu uşağın orada olmağı ilə olmamağı arasında fərq yoxdur və onun eşitməyi, eşitməmək kimidir. Həmçinin kar adamın yanında danışılarsa, yaxud ərəb dilini bilməyən şəxsin yanında ərəb dilində danışmaq kimi yanındakının başa düşməyəcəyi şəkildə söhbət etsə, qeybət deyil. Həmçinin əgər insan eşidən var deyə birinin dalınca onun nöqsanından danışsa, halbuki onu eşidəcək kimsə yoxdur, məsələn, gözü görmür danışır, amma yanındakı şəxs gedib, yaxud telefonla danışır və telefon əlaqəsi kəsilib. Bu yerlərin heç birində qeybət hökmü yoxdur.

**Məsələ-1417.** Əgər söhbəti eşidən şəxs pisi yaxşıdan ayıran uşaq, yaxud heç nə başa düşməyən deyil, anlayan, yəni danışan, işləyən və qərar qəbul edən dəli olsa, o da qeybət sayılır.

**Məsələ-1418.** Əgər işarə ilə bir şəxsin eybi bəyan edilsə, məsələn, əli ilə işarə etməklə onun ağlının az olmasını bildirsə, bu işarə qeybətdir. Həmçinin karikatura çəkməklə bir şəxsin xəsis, yaxud oğru olmağını başa salsa, bir kitabda yazsa, hərçənd həmin kitab hal-hazırda oxunmayıb, gələcəkdə nəşr olunub oxunacaq olsa, bunlar da qeybət sayılır. Həmçinin əgər mesajla və ya məktubla birinin eybini aşkar etsə, habelə kamera ilə şəxsin eybini çəkib sonra bir yerdə göstərsə, bunlar hamısı qeybətdir.

**Məsələ-1419.** Qeybət sayılmasında aşkar şəkildə və ya kinayə ilə demək arasında fərq yoxdur. Məsələn: "Biz belə bir problemə düçar olmarıq, haram mal yemərik, vəqf edilmiş malı işlətmərik", -

deməklə məqsədinin filan şəxs olması məlum olsun. Bu da qeybət və haramdır.

## Qeybəti eşitmək

**Məsələ-1420.** Qeybəti eşitməkdə məqsəd ona qulaq asmaqdır, nəinki təsadüfən qulağa çatması. Qulaq asmaqda qulaq asanın razılığı olub-olmaması arasında heç bir fərq yoxdur. Bəzən şəxs qeybəti eşitmək istəmədən ona qulaq asır. Bu da qeybəti eşitməkdir (və eyni hökmdədir), çünki ixtiyarlı olaraq qulaq asır. Həmçinin istər qulaq asan şəxsə qeybət edilsin (danışılsın), istərsə də başqasına danışılsın və onların danışığına qulaq assın, qeybətə qulaq asmaq sayılır. Məsələn, iki nəfər qeybət edir, üçüncü şəxs onlara qulaq asır və ya qeybətedənin səsi lentə alınıb, başqası ona qulaq asır.

**Məsələ-1421.** Hətta qeybət etmək qeybət edən şəxsə haram olmasa belə, qeybətə qulaq asmaq mütləq şəkildə haramdır. Məsələn, qeybət etməyə məcbur edilən və ya uşağın qeybət etməsinə qulaq asmaq kimi.

**Məsələ-1422.** Aşağıdakı yerlərdə qeybətə qulaq asmaq haram deyil:
1. Qeybət edilən şəxsin qeybəti halal olsun. Məsələn, qeybəti edilən şəxs o kəslərdəndir ki, açıq-aşkar günah edir, həm qeybət edən, həm də eşidən bunu bilir. Buna əsasən, belə bir şəxsin qeybətini etmək və dinləmək caizdir.

2. Məzlum ona olunan zülmü bəyan etməsi (və zalımın ona etdiyi zülmü barədə etdiyi qeybət) onun üçün caiz olduğu kimi, onu eşitmək də caizdir.

3. Əgər qulaq asan buna məcbur olarsa, Məsələn, təsəvvür edin, zalım bir hakimin məclisində qeybət edilir və bu şəxs də oradadır. Elə bir vəziyyətdədir ki, nə etiraz edə, nə də məclisi tərk edə bilir, çünki hər iki halda hakim ona zərər yetirəcək.

**Məsələ-1423.** (Qeybəti inkar etmək vacibdir) və onu inkar etməkdə məqsəd budur ki, qeybət edənin qeybət olunan şəxsə verdiyi nisbət qəbul edilməsin və ona öz etirazını bildirsin. Məsələn, əgər "filan şəxs haram mal yeyir", - deyilsə, cavabında "haradan məlumdur ki, haram yeyir, bəlkə öz malıdır və halal yolla əldə edib", - deyilsin. Həmçinin əgər bu yolla onu inkar etmək mümkün deyilsə, onda desin: "İnsandır, səhv edə bilər, bəlkə də tövbə və istiğfar edib". Bu inkaretmə və qəbul etməməyin əsas kökü buna qayıdır ki, yaşayış, ictimai əlaqələrə bağlıdır, camaatın bir-birinə şübhəli olması və pis gümanları, ictimaiyyətin qaranlıq olmasına səbəb olur. Buna görə də gərək qeybət inkar edilsin, insanların əməl və rəftarlarının düz və səhih olması əsas götürülsün.

**Məsələ-1424.** Qeybəti eşitməyən, lakin bir şəxsin qeybət edilməsindən xəbəri olan şəxsə onu inkar etmək vacib deyil. İxtiyarsız olaraq onu eşidənə də inkar etmək vacib deyil. Məsələn, yolla gedərkən qeybəti eşidən şəxs kimi. Amma qulaq asana inkar vacibdir.

**Məsələ-1425.** Qeybəti eşidənə vacibdir ki, qeybət edəni bu əməldən nəhy etsin.

**Məsələ-1426.** Əgər qeybət etməyin qeybət edənə halal olmasını bilərsə, nəhy vacib deyil, çünki o, günah etmir. Həmçinin əgər qeybəti eşidən onun qeybət etməsinin haram və halal olmasında şəkk edərsə, nəhy etmək vacib deyil. Məsələn, bir şəxs sizin yanınızda qeybət edir, siz ehtimal verirsiz ki, ona zülm edildiyi üçün zalımdan şikayət edir. Buna əsasən, nəhy etməyin mövzusu aşkar edilmədiyi üçün nəhy vacib deyil. Amma etiraz və inkar etmək vacib, qulaq asmaq haramdır. Həmçinin əgər bir şəxs onun haqqına zülm edildiyini güman edib qeybət etsə, bu şəxs özünü məzlum güman etdiyi üçün zahiri hökm baxımından, hərçənd qeybəti edilən şəxs şəri baxımdan qeybətə layiq olmasa belə, həmin qeybət halaldır. Bəzən də qeybəti edilən şəxsin məcburiyyət qarşısında şəxsə zülm etməsi mümkündür. Onun bu işi haram deyil, çünki məcbur olub.

**Məsələ-1427.** Qeybətin halal və caiz olması qeybət olunan şəxsin şəri baxımdan qeybət edilməyə layiq olmasına bağlı deyil. Deməli, bu qeybəti eşitmək caiz deyil və inkar etmək vacibdir.

**Məsələ-1428.** Əgər qeybət edilmiş şəxs diridirsə və ondan halallıq almaq mümkündürsə, gərək qeybət edən şəxs ondan halallıq alıb özünü bağışlatdırsın. Amma dünyadan gedib, ya halallıq almaq mümkün deyilsə, onun üçün istiğfar etsin (yəni onun Allahdan bağışlanmağını istəsin).

## Qeybətin haram olmasında istisna olan yerlər

### 1. Aşkar günah edən fasiq

**Məsələ-1429.** Aşkar günah etməkdə məqsəd budur ki, şəxs camaatın onun günahını görüb bilməyindən heç də çəkinməsin. Məsələn, aşkar şərab içən şəxs. Camaatın bu işi bilməyi hamının onu bilməsi demək deyil. Bir qrup bilsə, o şəxs də işdən çəkinməsə, bu, aşkar günah etməkdir.

**Məsələ-1430.** Aşkar günah edənin yalnız aşkar etdiyi günahı barədə qeybətini etmək caizdir. Onun digər sirr və günahlarını ifşa etmək caiz deyil.

**Məsələ-1431.** Günahda israr edən şəxs aşkar günah etmirsə, onun qeybəti caiz deyil.

**Məsələ-1432.** Bir şəxs aşkar günah edib həmin işi etməkdə üzrlü olduğunu bildirsə, məsələn, üzünü qırxıb onu həkim göstərişi ilə etdiyini bildirsə, əgər onun bu dəlili insanı xatircəm edərsə, qeybəti caiz deyil. Çünki bilir ki, onun əməli haram deyil. Buna əsasən, aşkar günah etməyib. (Həmçinin) əgər onun bu dəlilini qəbul etməyib (yəni dəlili qaneedici olmaya) yalan dediyini bilsə, (yenə də) onun qeybəti caiz deyil. Çünki bu şəxs (günah etməyə) laqeyd deyil və etdiyi əməlin günah olmamasına sübut gətirir. Elə buradan da məlumdur ki, başqasının onu günah edərkən görməyini və günah etməyini bilməyini istəmir.

**Məsələ-1433.** Əgər günah edən şəxsin günahı aşkar edib-etməməsində şəkk edərsə, belə ki, onun etdiyi əmələ gətirdiyi üzrün düz olub-olmamasında şəkk edərsə, bu halda da onun qeybəti haramdır.

## 2. Məzlumun özünə edilən zülmdən şikayət etməsi

**Məsələ-1434.** Əgər bir şəxsə zülm edilsə, həmin şəxs başqalarının yanında şikayət edib ona edilən zülmü bəyan edə bilər. Qeyd edək ki, bu istisna o zamandır ki, ona edilən zülm məxfi və gizli olsun (aşkar olmasın). Amma aşkar olarsa, o zalımın qeybətini etmək aşkar günah etmək baxımından caiz olacaq.

## 3. İki hökm arasında təzahüm"[1]

**Məsələ-1435.** Qeybətin haram olması və başqa bir hökm arasında təzahüm (toqquşma) olarsa və o hökmün faydası və əhəmiyyəti qeybəti tərk etməyin faydasından, yaxud qeybətin fəsadından çox olarsa, burada həmin hökm müqəddəmdir.

**Məsələ-1436.** Qeybət hökmü ilə başqa bir hökm təzahüm etdikdə qeybət iki şərtin hasil olması ilə caiz olur:

1. O işin vacib olması aşkar edilsin.

---

[1] İki ayrı hökmü eyni zamanda yerinə yetirməyin mümkün olmamasına "təzahüm" deyilir. Daha dəqiq desək, iki ayrı hökm bir zamanda insanın boynuna gəlsə, amma belə bir şəraitdə olsa ki, eyni zamanda onların hər ikisini yerinə yetirmək mümkün olmasın və hər halda onların biri, insanın ixtiyarından xaric olaraq tərk olunsa, buna iki hökmün arasında olan "təzahüm" deyilir. O iki hökmün hər ikisi vacib ola bilər, həmçinin biri vacib, biri haram ola bilər. Məsələn, iki şəxsin dənizdə batmasını görürsüz, bu zaman sizə onların hər ikisini xilas etmək vacibdir, amma siz onların birini xilas edə bilərsiz. Yaxud məsələn, ata, ana, qardaş və bacı kimi qan qohumları ilə əlaqəni kəsmək haramdır, bir tərəfdən də onlardan biri günahkardır və onu günahdan ayırmaq, müvəqqəti olaraq ondan üz çevirmək və onunla əlaqəni kəsməyə bağlıdır. Nəhy-əz-münkər etmək üçün müvəqqəti olaraq onunla əlaqəni kəsmək vacibdir. Gördüyünüz kimi eyni zamanda həm əlaqəni kəsmək haramdır, həm də bu iş vacibdir. Hər ikisini eyni zamanda yerinə yetirmək mümkün deyil. Burada mükəlləf onlardan birini etməlidir. Belə ki, əgər iki vacib arasında və ya vaciblə haram arasında təzahüm baş verərsə, baxmalıyıq ki, hansı daha çox əhəmiyyətə malikdirsə, onu yerinə yetirməliyik. Amma müsavi olduqda, ikisindən birini ixtiyarlı olaraq seçmək lazımdır. (Mütərcim)

2. Həmin işin meyarı qeybətin haramlığının meyarından güclü olmalı, daha doğrusu onun əhəmiyyəti qeybətin haramlığının əhəmiyyətindən çox olmalı, yaxud heç olmasa onun əhəmiyyətli olması ehtimalı verilməli, qeybət barədə isə elə bir ehtimal verilməməlidir.

## İki hökm arasında olan təzahümün bəzi nümunələri

### 1. Müşavirə və nəsihət məqamı

**Məsələ-1437.** Təsəvvür edin bir şəxs xeyirli iş üçün sizdən məşvərət və məsləhət almaq istəyir və sizin ona məsləhət verməyiniz başqasının qeybətini etməyə bağlı olacaq. Məsələn, qızına elçi gəlib, sizdən oğlan barədə, yaxud onun ailəsi barədə məlumat almaq istəyir. Əgər siz həqiqətən ona məsləhət göstərmək istəsəniz, onlar barəsində qeybət etməyə məcbur olacaqsınız. Həmçinin bir nəfər başqa biri ilə şərik olmaq istəyir və bu barədə sizdən məsləhət almaq istəyir və ya bir şəxs başqasını mühüm və böyük vəzifəyə qoymaq istəyir və barəsində sizinlə məşvərət edir, belə yerlərdə o şəxsin qeybətini etmək lazımdır.

**Məsələ-1438.** Əgər bir şəxsin gördüyü işdən şübhəsiz zərbə alacağını bilirsizsə, burada istər sizdən məsləhət və məşvərət istəsin, istərsə də istəməsin ona yol göstərmək vacibdir.

**Məsələ-1439.** Hər yerdə vacib hökm qeybətin haram olmağından, başqa sözlə qeybətin fəsadından daha əhəmiyyətli deyil. Buna görə də bəzən nəsihətin vacib və qeybətin haram olması arasında olan təzahümdə qeybətin haram olması müqəddəm olur, bəzən də nəsihətin vacib olması. Məsələn, əgər məşvərət məqamında soruşulan şəxsin zalım və fasiq olmasını bilərsə, gərək nəsihət edib onun xüsusiyyətlərini desin. Əks təqdirdə məsləhət istəyənə böyük zülm etmiş və əvəzsiz zərər yetirmiş olur. Deməli, burada məşvərət daha məsləhətli və əhəmiyyətlidir. Buna əsasən, hər yerdə əgər həqiqəti deməkdən çəkinməklə müsəlmanı müşkül və

bəlaya düçar etmək arasında qalarsa, həqiqəti demək vacibdir. Fasiq və zalımın xasiyyət və xüsusiyyətlərini bəyan etmək lazımdır.

## 2. Fəsad və günah mənbəyini aradan aparmaq məqsədi

**Məsələ-1440.** Cəmiyyətdə fəsadın yayılmasına səbəb olan şəxsin fəsadının qarşısını almaq məqsədiylə o şəxsin qeybətini etmək caizdir. Məsələn, bir şəxs, dində olmayan bir mətləbi dinə daxil edərək camaatı din adı ilə ona vadar edir, halbuki camaat onun bidət olmasını və həqiqət olmamasını bilmir. Əgər qeybətini etməklə fəsadın qarşısı alınarsa, onun qeybəti vacibdir.

**Məsələ-1441.** Fəsad həm əqidədə, həm də əməldə olan fəsada aid olur. Məsələn, bir şəxs camaatı azdırmaq, yoldan çıxartmaq, şəhvəti təhrik edən diskləri yaymaq kimi şəhvət və fəsad məqsədiylə məxfi surətdə təşkilat yaradarsa, belə bir fəsadı yaymaq əmələ aid olan fəsadı yaymaqdır (halbuki bundan öncəki məsələdə vurduğumuz misal əqidədə olan fəsaddır).

**Məsələ-1442.** Dindar cəmiyyəti arasında fəsadın qarşısını almağın əhəmiyyəti, qeybətin haram olmasından daha da artıqdır. Bir qrupu həlak edən şəxsin fasid əməlinin qarşısını almaq üçün onun qeybətini etmək, şübhəsiz qeybətini etməməkdən məsləhətlidir. Hərçənd ki, əgər o, bu işi görməsəydi, qeybətini etmək haram idi.

**Məsələ-1443.** Fəsadın qarşısını almağın əhəmiyyəti, qeybətin haram olmasının əhəmiyyətindən üstün olmasının nəticəsi budur ki, fəsadı yayan şəxsin onun kökünü kəsməyə səbəb olan hər bir eybini aşkar edib xalqa çatdırmaq caizdir, nəinki təkcə həmin günahı demək vacib olsun. Məsələn, əgər bir şəxs dində bidət qoyub xalqı öz qondarma əqidəsinə tərəf çəkirsə, bu şəxsin qeybəti (nəinki təkcə onun bidət qoymasında, hətta) xalqı onun ətrafından kənar edə biləcək, şəhvətpərəstlik və ya siyasi xəyanət kimi eyib və nöqsanlarını da ifşa etmək caizdir. Xatırladaq ki, məsələ əhəmiyyət ölçüsünə aid olduğu üçün gərək qeybətin caizolma dairəsində də riayət olunsun. Yəni əgər bir eybi və ya eybini bir dəfə deməklə bu fəsadın kökü kəsilirsə, ikinci dəfə deməkdən çəkinmək lazımdır.

## 3. Şahidləri və raviləri cərh [1] etmək (ifşa edilərək etibardan salınması)

**Məsələ-1444.** Onun fasiq və günah əhli olduğunu bildiyiniz bir şahid məhkəmədə şəhadət verməyə qalxsa (şəhadət verməyə hazır olsa), burada onun günahını aşkar etmək haram qeybət deyil və qeybət hökmündən istisna olunub. Həmçinin bir ravi, yaxud şəxs hansısa hədisi inanılmış bir ravidən nəql edir.

Siz o şəxsin fasiq, yalançı və özündən hədis düzəldən olduğunu bilirsiz. Burada o şəxsin qeybətini etməyin[2] işkalı yoxdur. Bəzən də mümkündür hər iki yerdə "bu şəxs inanılmış və yalandan uzaq olan bir şəxs deyil" deməniz vacib olsun.

**Məsələ-1445.** İslam dinində ilahi ədalət məhkəməsinin əhəmiyyəti o qədər yüksəkdir ki, əgər bir hadisə yaranmaq astanasında olsa, belə ki, yaranarsa məhkəməni qüsurlu, ilahi hökmü nöqsanlı edəcək, belə bir hadisənin qarşısını almaq və onun fəsadını aradan aparmaq, nəzərimizdə fasiq olan şəxsin günahın aşkar etməkdən (dəfələrlə) üstün və əhəmiyyətlidir. Bu səbəbdən, əgər insan şahidin, hətta hakimin özünün fasiq, günahkar olub ədalət şərtlərinə malik olmadığını bilsə, məhkəmənin müqəddəs paklığını qorumaq üçün onun qeybətini etmək caizdir.

**Məsələ-1446.** Rəvayət və hədis nəql etmək məsələsi də elə yuxarıda dediyimiz kimidir. Hədisin məsum imamlardan (ə) bizə yetişməyin düzgün olmasının əhəmiyyəti hədis nəql edən ravini cərh etməkdən dəfələrlə üstün və əhəmiyyətlidir. Məsələn, bir şəxs hədis nəql edir, siz onun yalançı və hədis düzəldən olduğunu bilirsiz. Əgər bu mətləbi deməsəniz, hədislərin sənədlərinin silsiləsi və imamlardan (ə) gələn hədislər səhv ola bilər. Buna görə də onun əhəmiyyətində heç bir şəkk-şübhə yoxdur. Qeyd edək ki,

---

[1] Şahidi "cərh" etməkdə məqsəd budur ki, onun eybini aşkar etməklə artıq onun şəhadəti məhkəmədə qəbul edilmir. Çünki ədalətli olmaq şahidin şərtlərindəndir. Günahını aşkar etməklə onun ədalətsiz olması məlum olur. Qeyd edək ki, bu qeybət təkcə onun günahlarına aiddir. Ravini "cərh" etməkdə də məqsəd hədis nəql edən ravinin raviliyin etibarlı olmasına xələl gətirən, yalançı, yaddaşsız, əqidəsiz və s. olmaq kimi eyiblərini aşkar etməkdir. (Mütərcim)

[2] Yəni onun fasiq, yalançı və özündən hədis düzəldən olmasını demək (Mütərcim)

ravini cərh etmək o zaman caizdir ki, bu yalançı və hədis düzəldən şəxsin hədislərinə etina etməmək onu cərh etməyə bağlı olsun. Amma cərh etmədən də bu məqsədə yetişmək mümkündürsə, onda cərh etmək caiz olmayacaq. Məsələn, əgər "mən onun inanılmış şəxs olduğunu bilmirəm" və yaxud "heç kim onun inanılmış şəxs olduğunu deməyib" kimi cümlələrlə onun nəql etdiyi hədislərə etinasızlıq yaratmaq hasil olursa, bunu deməklə kifayətlənmək lazımdir və bu, cərh etmək deyil. Amma etinasızlıq yaratmaq təkcə cərh etməyə bağlı olarsa, o zaman şübhəsiz, cərh etmək caizdir.

## 4. Qeybəti edilən şəxsdən zərərin dəf edilməsi

**Məsələ-1447.** Əgər qeybət etmək qeybət olunan şəxsdən zərərin dəf olmasına səbəb olarsa, onun qeybəti caiz olur. Bu şərtlə ki, o zərəri dəf etməyin əhəmiyyəti, eybi aşkar etməməyin əhəmiyyətindən çox olsun (başqa sözlə, o zərəri dəf etmək, qeybətin fəsadından daha da əhəmiyyətli olsun). Bəzən insan qeybət etməklə kiçik bir zərəri hansısa şəxsdən dəf etmək istəyir, halbuki abırını örtmək, qeybətini etməmək o zərərdən çox üstün və əhəmiyyətlidir. Məsələn, istəyirlər o şəxsdən bir az pul alsınlar, bu zərərin qarşısını almaq üçün deyir: "Dünən gecə bu şəxs dilənçilik edirdi". Bu, mömin üçün böyük bir təhqirdir. Buna əsasən, gərək zərəri dəf etmək və eybi aşkar etmək müqayisə edilsin. Başqa sözlə, zərərin dəyməsi və eybi aşkar etməyin zərəri müqayisə edilsin, daha əhəmiyyətlisinə riayət olunsun.

**Məsələ-1448.** Qeybət mühüm məsələdir. Çünki böyük günahlardandır. Buna görə də qeybət etmək üçün özümüzə qeybəti halal edən dəlillər və yollar biçmək olmaz. Çünki bu hökmdən (haramdan) xaric olmaq üçün möhkəm sübuta ehtiyac var.

# Yalan

Haram qazanclardan biri də yalan danışmaq vasitəsilə qazanc etməkdir. Qədim zamanlarda bu yolla qazanc etməyə az rast gəlmək olurdu. Amma indi bu, həqiqi mənada mövcuddur. Bugünkü gündə bir qrup insan yalan deməklə pul qazanır. Yalan və şayiə yaymaq dünyada yayılmış bir iş olub. Bəzi yazarlar, radio və televiziya işçiləri yalan quraşdırmaqla pul qazanırlar.

**Məsələ-1449.** Düz danışmaq həqiqətlə uyğun olan xəbər, yalan danışmaq isə həqiqətlə uyğun olmayan xəbərə deyilir. Xəbərin həqiqətlə uyğun olub-olmamasında məqsəd budur ki, əgər xəbərverənin dediyində məqsədi həqiqətlə uyğundursa, bu xəbər düzdür. Amma uyğun deyilsə, yalandır. Xəbərverənin məqsədini nəzərə almadan xəbərin həqiqətlə uyğun olub-olmaması düz, yaxud yalan sayılmır.

**İzah:** Bəzən danışan bir söz deyir, amma sözünün zahirindən anlaşılan məna onun məqsədi deyil. Deməli, məqsədi həqiqətə uyğun olduqda, hərçənd kəlamının zahiri həqiqətlə uyğun olmasa da onun xəbəri düzdür. Məsələn, "tövriyə"də xəbərverənin məqsədi həqiqətlə uyğundur, lakin sözünün zahiri isə yox. Buna əsasən, tövriyə yalan yox, düz danışmaqdır. Məsələn, bir nəfər "Filankəs evdədir?" soruşur, o, əlini otağın boş yerinə uzadaraq "Burada deyil" - deyir. Onun məqsədi şəxsin işarə etdiyi yerdə olmamasıdır. Halbuki soruşan şəxs elə başa düşür ki, o, evdə deyil. Fərz edin ki, bir şəxsdən pul istəyirlər və o, pul verməmək üçün "əlim və ya cibim boşdur" deyir. Bu şəxsin məqsədi cibinin boş olmasıdır, cibi də həqiqətən boşdur. Halbuki pul istəyən şəxs sözündən elə başa düşür ki, qarşı tərəf onun sualına cavab verərək pulunun olmadığını bildirdi. Bu və bu kimi cümlələr "tövriyə" adlanır. Tövriyənin zahiri həqiqətə uyğun olmasa da yalan deyil, çünki tövriyə edənin məqsədi həqiqətlə uyğundur.

**Məsələ-1450.** Tövriyə yalan olmadığı üçün ondan qeyri-zəruri hallarda da istifadə etmək caizdir.

**Məsələ-1451.** Tövriyənin caiz olmasında fərq etmir ki, sözdanışanın məqsədinə uyğun işlədilə bilsin, yaxud təklikdə məqsədinə uyğun olmasın və o məqsəddə işlədilmək üçün başqa köməkçi hallara, sözlərə ehtiyac olsun. Amma bununla belə o tövriyə də caizdir.

Məsələn, "Uzunqulağı gördüm" cümləsində uzunqulaq kəlməsi təklikdə zehni küt olan şəxs barəsində işlədilmir, bunun üçün köməkçi hallara və ya sözlərə ehtiyac var. Lakin bununla belə, həmin qəbildən olan tövriyələr də caizdir.

**Məsələ-1452.** Əgər bir şəxs "Mən min dəfə bunu demişəm", - desə, bu mübaliğədir. Şübhəsiz ki, rəqəm onun məqsədi deyil, bunu çox dediyini demək istəyir. Buna əsasən, əgər bu söz həqiqətlə uyğun olarsa, yəni həqiqətən çox deyib təkrar edibsə, yalan deyil. Həmçinin məcazi sözlər və kinayələr də yalan sayılmır. Məsələn, məcazi mənada deyir: "Döyüş meydanında şiri ox atarkən gördüm" və ya kinayə işlədərək "Filankəsin evinin qapısı həmişə açıqdır" desə, bu kinayədə məqsədi onun səxavətli və qonaqpərvər olmasını bəyan etməkdir. Bu xəbərlər həqiqətin əksinə deyil, həqiqətdir. Çünki birinci cümlədə onun məqsədi sözü dəfələrlə deməkdir, nəinki min dəfə demək. Həmçinin digər misallarda.

Buna görə də eyni qəbildən olan xəbərlər düz xəbərlərdir. Qeyd edək ki, məcazi və kinayəli sözlərdə onu başa düşmək üçün köməkçi sözlər, yaxud hallar olarsa, eşidən də deyənin əsl məqsədini başa düşür. Əgər olmasa, onun əsl məqsədini başa düşmür, amma hər iki halda yalan sayılmır.

**Məsələ-1453.** Yalan həmişə sözlə olmur. Yazı və işarə ilə də yalan işlətmək mümkündür və yalan sayıla bilir. Məsələn, əgər "filankəs yalançıdır, yaxud yalan danışır" deyiriksə, bu o demək deyil ki, bizim işlətdiyimiz cümlə düz olmaq üçün gərək o yalanı sözlə və cümlə ilə desin. Məsələn, Zeydin harada olmağını bir şəxsdən soruşan kəsin cavabında işarə ilə Zeydin olmadığı yer göstərilsə, bu da yalandır, baxmayaraq ki, sözlə cavab verilməyib. Həmçinin xəbərdarlıq bildirən nişanlar və yol göstəriciləri vasitəsilə həqiqətin əksinə

xəbər verməк də yalan hesab olunur. Məsələn, hansısa küçəyə **"giriş qadağandır"** işarəsi qoyulsa, halbuki yol polisi tərəfindən o küçəyə girməyə qadağan qoyulmayıb, bu da bir növ yalandır.

**Məsələ-1454.** Düz və yalan təkcə xəbərin özünə aid edilir, xəbərin özünün nəticəsinə yox. Xəbərin düz olmasında meyar onun nəticəsinin həqiqətlə uyğun olması, yalan olmasında isə meyar nəticəsinin həqiqətlə uyğun olmaması deyil. Məsələn, xəbər verir: "Bu gün cümə günüdür". Bunun başqa bir mənası da onun nəticəsidir. Yəni sabah şənbə günüdür, sabah yox o biri gün bazar günüdür, dünən cümə axşamı olub və s. İndi əgər bu xəbər yalan olarsa, o xəbərin nəticələri qədər yalan danışılması demək deyil. Əgər xəbərin nəticələri də düz və yalan sayılır desək, onda "bu gün cümə günüdür" deyən şəxs bunu yalan deyərsə, gərək "bu şəxs sonsuz yalan danışdı" deyək, halbuki belə deyil.

**Məsələ-1455.** Qeyri-nəqli cümlələrdə düz və yalanın mənası yoxdur.[1] Məsələn, əgər "get" deyirsə, bu cümlədə düz və yalan, həqiqətlə uyğun olub olmamaq təsəvvür edilmir. Düz və yalan təkcə xəbər verməyə aiddir. Amma eyni zamanda bəzi qeyri-nəqli cümlələrin nəticəsi xəbərdir. Məsələn, bir şəxs müəllimə "Siz filan məktəbdə dərs verin", - deyir. Bunun özü qeyri-nəqli cümlədir, düz və yalan olmasının mənası yoxdur. Çünki ondan dərs verməyi tələb edir və bir şeydən xəbər vermir. Amma cümlədən başqa bir məna da başa düşülür ki, bu cümlənin təbii nəticəsidir. O da budur: Siz (müəllim) bu elmi bilir və ona alimsiniz. İndi əgər şəxs alim olmasa, yəni dediyimiz qeyri-nəqli (inşa) cümlənin nəticəsi həqiqətlə uyğun olmasa, qeyri-nəqli cümləyə düz, yaxud yalan demək olmaz.

Əgər həqiqətən, bu qeyri-nəqli (tələb və əmr) cümləni deməkdə məqsədi onun nəticəsi və həmin məqsəd ciddi olsa, (yəni həqiqətən "siz filan məktəbdə dərs deyin" cümləsindən məqsədi

[1] Əmr, nəhy, sual və təəccüb cümlələri "qeyri-nəqli" cümlələr adlanır. Həmçinin müqavilə və əqdlərdə işlədilən cümlələr də qeyri-nəqli cümlələrdir. Məsələn, əgər bir şəxs sual soruşursa və ya biri digərinə əmr edirsə, bu cümlənin həqiqətlə uyğun olub-olmamağını deməyin mənası yoxdur. (Mütərcim)

onun elmindən xəbər vermək olub, elmi bilib alim olmağı demək istəsə)[1] cümlə həqiqətlə uyğun olarsa, düz, olmazsa, yalan olacaq. Məsələn, qrupun içində bir nəfərə müraciət edərək "Nə üçün risalə yazmırsınız!?", - deyir, məqsədi də həmin şəxsin müctəhid və ələm olmasından xəbər verməkdir. Bu cümlənin düz və yalan olması mümkündür.

**Məsələ-1456.** Yalan zarafat iki növdür:

1. Bəzən həqiqətə uyğun olmayan bir hadisədən xəbər verir, məqsədi camaatı güldürməkdir. Məsələn, birinə "Sizin bu gün şam yeməyinə filan şəxsin evinə dəvətiniz var" deyir və o şəxs də gedib görür ki, belə bir şey yoxdur. Bəziləri də bunu görür, yaxud onun həmin evə getməsindən xəbərdar olub gülürlər. Bu cümlə bihudə və mənasız söz deyil, həqiqətlə uyğun olmayan xəbərdir. Amma məqsədi budur ki, o şəxs bunu ciddi xəbər bilib qonaqlıq məqsədiylə həmin evə getsin. Bu şübhəsiz haramdır. Çünki xəbərverənin həqiqi məqsədi bu olub. Bu xəbər həqiqətlə uyğun olmadığı üçün başqa yalanlar kimidir. Fərq odur ki, digər yalanlarda başqa məqsədlər var, amma bu yalanda məqsəd zarafatdır. (Hökm baxımından) bu yalanın başqa yalanlardan heç bir fərqi yoxdur və haramdır.

2. Əslində bir hadisədən xəbər verilmir, o xəbərin mənası heç də nəzərə alınmır və xalq arasında olan lətifələr kimi yalanın özü zarafatdır. Məsələn, heyvanın dilindən bir şey nəql edir və ya şagirdlə müəllim, yaxud atayla övladın dilindən bir lətifə deyir, halbuki o cümlələrin həqiqəti yoxdur. Bu zarafatlar (yalan və) haram deyil.
Baxmayaraq ki, əslində məqsəd zarafat etmək deyil. Hekayə və nağıllar da bu zarafatlar hökmündədir. Buna əsasən, yalan baxımından haram deyil (çünki yalan sayılmır). Hərçənd ki, (bəzən)

---

[1] Qeyri-nəqli cümlədən belə məna da istifadə etmək bir növ kinayə hesab olunur. Dedik ki, kinayə və məcazi cümlələr düz və yalan ola bilər. (Mütərcim)

başqa bir cəhətdən haram olması mümkündür. Məsələn, fəsadla nəticələnmək baxımından haram olsun.

**Məsələ-1457.** Vədə xilaf iki növdür:

1. Verdiyi vəd ilə müxalif olacağını (yəni vədəyə əməl etməyəcəyini) bilərək vəd verir. Bu, yalan sayılır.

2. Müxalif olacağını və verdiyi vədə əməl etməyəcəyini bilmir. Bu, yalan sayılmır.

## Yalanın hökmləri

**Məsələ-1458.** Yalanın haram olması fiqhin zəruri məsələlərindəndir, istər kiçik və əhəmiyyətsiz olsun, istərsə də böyük və təsirli. Amma onun böyük günah olması o zamandır ki, dinə aid, Allaha və Peyğəmbərə (s) yalan qoşmaq, yaxud çoxlu fəsadlara səbəb olan yalan olsun. Əks halda kiçik günahlardan sayılır. Məsələn, sizdən "filan şəxsi görməmisiz" soruşurlar, siz cavabında "xeyr" deyirsiniz, halbuki görmüsüz. Bu yalanın əhəmiyyəti yoxdur (amma kiçik günahdır).

**Məsələ-1459.** Əgər danışdığı yalan böyük günahlardan olarsa, bir dəfə deməklə ədalətdən düşür, amma kiçik günahlardan olub israr (və təkrar) edərsə, ədalətdən xaric olmasına səbəb olur.

## Yalana icazə verilən yerlər

### 1. İztirar (naçarlıq)

**Məsələ-1460.** Yalana iztirarlı olmaqda məqsəd budur ki, insan yalan danışmağa məcbur olduğu şəraitdə olsun. Məsələn, sizin yanınızda bir malı əmanət olaraq qoyublar. Zalım israr və təhdidlə onu sizdən almaq istəsə, bela yerdə sizin "o mal mənim yanımda deyil" deməyinizin işkalı yoxdur. Burada fərq etmir ki, bu zərəri tövriyə ilə dəf etmək mümkün olsun, yaxud olmasın.

## 2. Camaatın və qrupların arasında sülh yaratmaq

**Məsələ-1461.** Əgər camaat, yaxud qruplar arasında ixtilaf yaransa, onların ixtilafını həll etmək və aralarında sülh yaratmaq üçün yalan danışmaq caizdir. Amma camaat arasında sülh yaratmaq xaric, başqasının xeyrinə olan yalanı demək caiz deyil. Lakin elə burada mühüm bir məsələ olduqda caiz olacaq. Məsələn, əgər bir ümmət həmin yalanla şirkdən çıxarsa - necə ki, Həzrət İbrahim (ə) bir ümməti ayıltmaq üçün belə etdi - caizdir.

## 3. Həyat yoldaşına və övladlara yalan vəd vermək

**Məsələ-1462.** Həyat yoldaşına və övladlara yalan vəd verməyin caiz olmasında məqsəd bu deyil ki, ailələr yalanla idarə edilib yalan və etimadsızlıq mühiti yaransın. Əksinə, məqsəd ailəni möhkəmləndirməkdir. İslam dinində ailənin maddi idarə edilməsi kişinin öhdəsindədir. Bu barədə qadının hətta maddi imkanı olsa belə, heç bir vəzifə və təklifi yoxdur. Belə mühitdə əgər ailə üzvlərinin kişidən istəkləri olsa, kişi də onları təmin etməyə qadir olmasa, ailə mühitinə hakim olan gözəl atmosferin korlanmaması üçün (narazılıq və narahatlıq yaranmamaq üçün), kişiyə yalan vədlər verməyə icazə verilir. Məsələn, münasib bir zamanda desin: "Təəssüf ki, o işi görmək üçün, şərait olmadı" və s.

## Sözgəzdirənlik

**Məsələ-1463.** Söz gəzdirməkdə məqsəd budur ki, bir şəxs başqası barədə söz danışır, onu bilən, yaxud eşidən kəs də həmin sözü ona çatdırır. Məsələn, Zeyd Əmirin yanında, Xalidin dalınca onun pisliyindən danışır. Əmir o sözü Xalidə çatdırır. Söz gəzdirmək istər fitnə və fəsad məqsədiylə olsun, istərsə də olmasın, hər halda bu iş fəsad və fəsad yaratmaqdır. Yəni bu işdə xeyir niyyəti yoxdur və xeyir məqsədiylə edilmir.

**Məsələ-1464.** Əgər bir şəxs başqasını sözgəzdirənlik üçün əcir edərsə, bu müamilə haramdır.

## Qumar

**Məsələ-1465.** Qumar pul, yaxud malı udub-uduzmaq şərtiylə oynanan oyundur, istər bu, qumar alətləri[1] ilə olsun, istərsə də olmasın, amma onunla qumar oynasınlar. Buna əsasən, qumarın iki şərti var:

1. Oyun olsun:
2. Oynayanlar arasında udub-uduzmaq olsun.

## Qumar alətləri ilə oyun

**Məsələ-1466.** Qumar aləti ilə oynamaq iki cür olur:

1. Qumar alətiylə və uduşla, yəni mal udub-uduzmaq şərtiylə oynanılır. Məsələn, kart oynamaqla pul udub-uduzurlar və udan pulu götürür, istər pulu uduzan versin, istərsə də üçüncü şəxs. Bu halda iş qumar və haramdır.

2. Qumar alətiylə uduşsuz oynanılır. Məsələn, udub-uduzmaq şərti olmadan kart oynayırlar. Bu halda (uduşsuz olduğu üçün) qumar deyil, amma haramdır. Çünki qumar alətiylə oyun oynamaq mütləq şəkildə haramdır.

## Qumar aləti olmayan əşyalarla oynamaq

**Məsələ-1467.** Bəzən oyunları uduş şərtiylə oynayırlar ki, bu iki cürdür:
1. Bəzən buna oyun deyilmir, amma eyni zamanda uduş şərti də edilir. Buna müsabiqə deyilir. Məsələn, təsəvvür edin ki, iki nəfər uduş şərtiylə güclərini sınayır, buna oyun yox, müsabiqə deyilir. Həmçinin üzgüçülük müsabiqəsi və s. oyun adlanmır, bunlara müsabiqə deyilir. Buna əsasən, qumar sayılmır, çünki qumar sayılmaq üçün onun oyun olması şərtdir. Amma vacib ehtiyata əsasən, bunlar

---

[1] Qumar oynamaq üçün düzəldilən əşyalara qumar aləti deyilir. Buna əsasən, qumar oynamaq məqsədiylə düzəlməyən bir şeylə qumar oynanılsa belə, ona qumar aləti deyilmir. Ləhv və musiqi alətləri kimi ki, bəzi alətlər həqiqətən ləhv və musiqi üçün düzəldilib, amma bəzi əşyalar o məqsədlə düzəldilməyib, lakin bəzən onunla musiqi çalınır.

da qumar hökmündədir və haramdır. Təkcə at sürmək və ox atmaq müsabiqələri bu hökmdən istisna olunur və haram deyil.

2. Bəzən həqiqətən oyundur, amma qumar aləti ilə deyil, eyni zamanda udub-uduzmaq şərti də edilir. Məsələn, aşıq-aşıq oyunu kimi. Bu, qumar və haramdır.

**Məsələ-1468.** Bəzən oyun və müsabiqə uduş şərtiylə olmur. Yəni həm qumar alətiylə deyil, həm də uduş şərti edilmir, at sürmək, qaçış və s. müsabiqələr kimi. Bunlar qumar və haram deyil, heç bir işkalı da yoxdur.

**Məsələ-1469.** Qumar hökmündə olan müsabiqələr, baxmayaraq ki, qumar deyil, vacib ehtiyata əsasən, haramdır. Məsələn, iki nəfər müəyyən ağır bir yükü qaldırmaq qərarına gəlir və gücü çatmayan şəxsin qaldıra bilən şəxsə müəyyən məbləğdə pul verməyini şərt kəsirlər. Bu, o zaman qumar hökmündə olur ki, araya qoyulan pul müsabiqə edənlər tərəfindən olsun. Amma bunu üçüncü şəxs versə, qumar olmadığı kimi haram da deyil. Məsələn, bir şəxs "Sizin hər biriniz, bu müsabiqədə qalib gələrsə, müəyyən məbləğdə pul verəcəm" deyir. Artıq burada müsabiqə edənlərdən pul alınmır. Hal-hazırda dünyada olan müsabiqələr kimi qalib gələn komandaya hədiyyə verilir, bu nə qumardır, nə də haram.

**Məsələ-1470.** Qumarla ələ gələn mal haramdır və onun heç bir növ istifadəsi caiz deyil, istər həqiqətən qumar olsun, istərsə də qumar hökmündə olsun. Buna əsasən, əgər həmin mal onda qalıbsa, gərək sahibinə qaytarsın. Amma qalmayıbsa, "misli" olduqda mislini, "qiymi" olduqda qiymətini sahibinə qaytarmalıdır.[1]

**Məsələ-1471.** Şəkilli qumar alətləri ilə oynanılan kompüter oyunları iki cürdür:

---

[1] "Misli" və "qiymi" malın izahı "şirkət" bölməsində açıqlanacaq.

1. İki nəfər, yaxud bir neçə nəfərin iştirakı ilə oynayırlar, istər bir-birinin yanında əyləşib oynasınlar, istərsə də internet vasitəsilə uzaqdan oynasınlar. Bu, qumar və haramdır.[1]

2. Əgər bu oyunlarda müqabil tərəf olmasa, məsələn, şəxs kompüterlə oyun oynayır, yəni kompütere yüklənmiş kart, ya nərd oyunları ilə təklikdə oynayır. Əgər bu oyunda udub-uduzmaq olmazsa,[2] işkalı yoxdur. Baxmayaraq ki, qumar alətiylə uduşsuz olsa belə, oynamaq haramdır, lakin qumarda ən azı iki nəfərin olması şərt olduğu üçün bunun işkalı yoxdur.

**Məsələ-1472.** Əgər şərt bağlayanların özləri müsabiqədə iştirak etməsələr, əksinə başqaları müsabiqədə iştirak edirlər və bunlar hansının udub hansının uduzmasını güman edib qərara gələrək öz aralarında şərt edirlər. Qumarın əsasları və şərtlərindən şərt bağlayanların qumar oynamağı olduğu üçün bu iş qumar sayılmır və haram deyil. Baxmayaraq ki, ehtiyat onu tərk etməkdədir. Həmçinin bəzi stadionlara bilet alırlar. Əgər onların gümanları səhv olsa, bilet pulları əllərindən gedir, amma düz olsa, hədiyyə alırlar. Bu da qumar və haram deyil. Qeyd edək ki, bu dediyimiz hökm təklifi hökmdür, yəni haram və günah olub olmamaq baxımındandır. Amma bu işdə udduqları pulun onların mülkiyyətinə keçməsi işkallıdır. Sonradan hibə və sülh kimi şəri əqdlərdən biri vasitəsilə mülkiyyət əldə edə bilərlər.

**Məsələ-1473.** Bu günlərdə qumarın növlərindən biri budur ki, qumar oynayanlar qumarxanaya daxil olmamışdan öncə pul ödəyirlər. Sonra qumarxanaya daxil olan şəxs aparata pul, yaxud bilet salır. Bu aparat xüsusi tərtiblə hərəkət edir və xüsusi nömrələri

---

[1] Yəni əgər uduş şərtiylə oynasalar, həm qumar, həm haramdır. Amma uduşsuz oynasalar, qumar sayılmasa da qumar hökmündədir. (Mütərcim)

[2] Məqsəd budur ki, bu şəxs oyunu tək oynamasına baxmayaraq, lakin ola bilsin bəzi oyunlar birtərəfli olsa da müəyyən bir şirkət və ya müəssisəyə bağlı olduğu üçün onun həqiqi müqabil tərəfi o şirkət, yaxud müəssisə olsun, mal udsun və uduzsun. Deməli, belə olarsa, həqiqətdə bu oyun da tək deyil, müqabil tərəfi olur, ona görə də qumar və haram olur. Əlbəttə, bəzi belə oyunlar şans uduşu kimi də ola bilər ki, bu halda onun haram olması vacib ehtiyata əsasən olacaq, (Mütərcim)

göstərir. Sonra o nömrənin sahibinə pul verilir. Əgər başqa nömrə gələrsə, udmur. Bu da bir növ qumardır ki, dünyanın məşhur qumarxanalarında yayılıb, amma şəri terminologiyada qumar adlanmır. Çünki qumar gərək (ən azı) iki nəfər arasında olsun, halbuki bu bir növ şans uduşudur. Amma xalq arasında buna qumar deyilir. Vacib ehtiyata əsasən, bu haramdır və udulan mal da udanın mülkünə daxil olmur.

## Şans biletləri

**Məsələ-1474.** Gəliri xeyir əməllərdə istifadə edilməyən şans biletlərini almaq dünyada məşhur və tanınmışdır. Bu biletlərin üzərinə nömrələr yazılır, onu camaata satırlar, sonda püşk atılır. Sonra pulların hamısı, yaxud onlardan bir qismi püşkdə adı çıxanlara verilir. Əslində bu iş çoxlu pul əldə etmək üçün biletləri almağa bir təşviqdir. Bu oyun vacib ehtiyata əsasən haramdır.

**Məsələ-1475.** Əgər camaatın xeyir işlərdə iştirak etməyi üçün xüsusi çeklər çıxarılıb müqabilində camaat onlara müəyyən məbləğ versə və təşviq edilmək üçün püşk atılıb onlara hədiyyə verilərsə, bu əməl şans biletləri məsələsindən ayrı bir mövzudur. Çünki burada olan müamilə çek və pul arasında deyil, bir növ sədəqə və ehsan etməkdir. Əslində xeyir bir iş üçün pul verilir və bu pulun çeki ona verilən kağız olur. Deməli, burada alver yoxdur. Bu əməl şübhəsiz, halal və xeyir bir əməldə köməkçi və yardımçı olmaqdır, müqabilində alınan hədiyyə də hətta əgər bu çekləri alan şəxslərin məqsədi o hədiyyəni qazanmaq olsa belə şübhəsiz, halaldır. Bu, bankların öz müştərilərini təşviq etmək üçün verdiyi hədiyyələr kimidir və işkalı yoxdur. Buna əsasən, o nə haramdır, nə də müamilə yoxdur ki, batil olsun və hədiyyə kimi aldığı pulun da işkalı yoxdur.

## Ğəşş

**Məsələ-1476.** İki şeyin mübadiləsi zamanı cinsində - istər malın özündə olsun, istər onun qiymətində - hiylə-kələyə yol verilən bütün müamilələr ğəşdir.[1]

**Məsələ-1477.** Ğəşş o zaman yaranır ki, ğəşş olan malı verən onun qüsurlu olmasını bilsin, alan isə bilməsin. Buna əsasən, əgər malı alan onun qüsurlu olmasını bilərsə və ya malı verən onun ğəşli və qüsurlu olmasını bilməzsə, istər onu alan onun qüsurlu olmasını bilsin, istərsə də bilməsin, ğəşş sayılmır və müamilə də səhihdir. O malı verən də təklif baxımından haram iş görməyib. Məsələn, bazardan süd alan şəxs bilir ki, orada su qatılmamış süd yoxdur, bu zaman ğəşş sayılmır, istər müştəri və satıcının xəbəri olsun, istərsə də olmasın.

**Məsələ-1478.** Bəzən müştəri malın ğəşli olmasını bilir, qəlbində müamiləyə razı olmamasına baxmayaraq naçarlıq üzündən onu alır.[2] Bu müamilə ğəşş sayılmır, amma satıcının bu işi ğəşş cəhətindən deyil, zülm baxımından haramdır. Məsələn, xüsusi bir dərmana ehtiyacı olan şəxsin istədiyi dərman təkcə bir nəfərdədir və onu iyirmi bərabər qiymətinə satır. Müştərinin isə onu almaqdan başqa çarəsi yoxdur, bu müamilə səhihdir, çünki müamilə razılığı mövcuddur. Amma satıcı üçün bu iş haramdır, çünki işi zülmdür.

**Məsələ-1479.** Malda olan dəyişiklik və qarışıqlıq gərək gizli və naməlum olsun. Amma məlum və göz qabağında olarsa, ğəşş sayılmır. Məsələn, əgər satdığı buğda etina ediləsi miqdarda arpa, yaxud torpaqla qarışıq olarsa, bu belə deyil ki, baxmaqla müəyyən edilməsin. Yaxud avtomobili təzə və sürülməmiş maşın adı ilə satırsa və onun bir hissəsinin rəngi gedibsə, bunun qabaqcadan işlədilməsi məlumdur. İstər alver olsun, istərsə də icarə, belə bir müamilə, ğəşş sayılmır. Buna əsasən, müamilə batil deyil.

---

[1] Aldatmaq məqsədiylə əsl malın başqa malla qarışdırılmasına, yaxud onun nöqsanının gizlədilməsinə "ğəşş" deyilir. (Mütərcim)

[2] Müztərr (naçar) alverdə mümkündür qəlbi razılıq olmasın, lakin müamilə razılığı olduğu üçün bu, müamilənin səhih olmasında kifayət edir.

**Məsələ-1480.** Gizli olduqda hətta bir az diqqət etməklə onun ğəşli olmağı məlum olsa belə, yenə də ğəşş sayılır. Məsələn, təmiz meyvəni qabın üstünə, çürüklərini altına yığıb satarsa, baxmayaraq ki, bir qədər diqqət və axtarış etməklə məlum edilə bilər, ğəşş sayılır.

**Məsələ-1481.** Gizliliyi bir az diqqət etməklə məlum olmazsa və onun məlum edilməsi ya satıcının deməsi, ya da mütəxəssisin müəyyən etməsi ilə məlum olursa, bu da ğəşş sayılır. Məsələn, avtomobilin hissələrinin dəyişdirilməsi kimi.

**Məsələ-1482.** Ğəşş sayılmaqda müamilədə ğəşşə səbəb olan şey satıcının, ya üçüncü bir şəxsin vasitəsilə yaranmaqda fərqi yoxdur. Hətta nöqsan malın keyfiyyətinə qayıdarsa, bu da ğəşş sayılır. Məsələn, düyü yaxşı bişməsə, satıcı da onu müştəriyə deməsə, ğəşş sayılır.

**Məsələ-1483.** Gizli eyblərdə, istər diqqət etməklə məlum edilsin, istərsə də edilməsin, satıcının məqsədi aldatmaq olarsa, müamilə haram və batildir. Əgər məqsədi aldatmaq deyilsə, gizli eyb olmağına baxmayaraq, ğəşş sayılmır və haram deyil (müamilə də səhihdir). Amma eyb və nöqsan aşkar olarsa, ğəşş deyil, istər satıcının məqsədi aldatmaq olsun, istər olmasın.

## Müamilədə ğəşşin növləri

### 1. Qarışdırmaqla olan ğəşş

**Məsələ-1484.** Müamilədə olan mal istər satılan, istərsə də alınan olsun, qarışıq olarsa, iki halı var:

1) Bir şey (mal) öz cinsindən olmayan başqa bir şeylə qarışdırılır. Məsələn, buğdanın çəkisini artırmaq üçün onun torpaqla qarışdırılması, yaxud südün su ilə qarışdırılması kimi.

2) Öz cinsindən olan şeylə qarışdırılır, lakin qarışdırılan cinsin keyfiyyəti aşağı olur. Məsələn, qabın altına keyfiyyətsiz və üstünə keyfiyyətli xurmanın düzülməsi, yaxud maşınların saf hissələrinin nöqsanlı hissələr ilə dəyişdirilməsi kimi.

## 2. Malın arasında eybi gizlətmək

**Məsələ-1485.** Bu müamilədə eyb və nöqsan müştəridən gizli saxlanılır. Məsələn, avtomobili satarkən təzə və təmiz göstərmək üçün ona rəng vurulur, yaxud nöqsanlı bir mal saf və sağlam mal kimi cilvələndirilir.

## 3. Malın kəmiyyətini artıran dəyişiklik

**Məsələ-1486.** Məsələn, çəki ilə satılan dərinin və ya ipək sapın çəkisini artırmaq üçün onu rütubətli yerdə saxlayırlar. Bu da bir növ ğəşdir.

## 4. Satılan malı onda olmayan xüsusiyyətlərlə vəsf etmək

**Məsələ-1487.** Məsələn, 100 kilometrə adətən 10 litr benzin işlədən avtomobili satır və 6-7 litr işlətməsini bildirir. Yaxud adi bir atı müsabiqə atı adı ilə satır. Yaxud da hər hansı bir malı, müəyyən bir fabrikin malı adı ilə satır, halbuki bu fabrikin malı satdığı maldan daha da yaxşıdır. Bu qəbildən olan müamilələrdə əgər qeyd olunan vəsflər müştəri üçün əhəmiyyətli olarsa, belə ki, o, malı həmin vəsflər əsasında alırsa, şübhəsiz, ğəşdir.

## 5. Mahiyyəti fərqli olan malı başqa mal yerinə verir

**Məsələ-1488.** Qızıl suyuna salınmış əşyanın qızıl adı ilə satılması, yaxud da təbii gül adıyla süni gülün satılması ğəşdir.

## Ğəşli müamilənin hökmləri

**Məsələ-1489.** Ğəşş haramdır, müsəlman və kafir arasında fərq yoxdur, hər bir şəxslə belə müamilə haramdır. Amma hərbi kafir[1] bu hökmdə müstəsnadır.

---

[1] Burada “hərbi kafir”də məqsəd bizimlə müharibə halında olan kafirlərdir.

**Məsələ-1490.** Əgər müamilə külli bir iş üzərində edilərsə (yəni xaricdə müəyyən edilmiş hər hansı mal üzərində müamilə edilməzsə, əksinə ümumi şəkildə hansısa malı alarsa, malda ğəşş olduğu halda da), bu müamilə səhihdir, müştəri o eyibli malı qaytarıb təmiz və saf malı satıcıdan tələb edə bilər. Məsələn, müştəri 50 kq. düyü istəyib onun növünü də müəyyən edir. Satıcı da ona 50 kq. düyü satır. Əgər müştəriyə verdiyi düyü eyibli olarsa, alver nəinki xüsusi düyü üzərində 50 kq. külli düyü üzərində olduğu üçün ğəşş o düyünün xarici nümunəsində olub. Buna görə də müamilə səhihdir, lakin müştəri onu qaytarıb saf və sağlam, müamilə əsasında istədiyi düyünü tələb edə bilər. Çünki satıcının öhdəsində olan düyü saf və sağlam düyüdür, eyibli düyü deyil.

**Məsələ-1491.** Müamilə xaricdə müəyyən edilmiş hər hansı mal üzərində olarsa və satıcı da onun eyibli olmasını bilərsə, bunun bir neçə halı var:

1) O malın həqiqəti və mahiyyəti müştərinin güman etdiyi maldan fərqlidir. Məsələn, qızıl üzük əvəzinə gümüş üzük satsa, bu müamilə batildir.

2) Fərq təkcə onun xüsusiyyətində və vəsfindədir, mahiyyətində heç bir dəyişikliyə səbəb olmur. Amma bununla belə onun vəsfinin də malda (malın qiymətində) təsiri var, həmin müamilə də batildir. Məsələn, adi bir atı müsabiqə atı adı ilə satır, halbuki müştəriyə müsabiqə atı lazımdır və müsabiqə atı üçün müamilə edib.

3) Fərq vəsfdə və xüsusiyyətdədir, müştəri üçün də alveri təşkil edən əsas xüsusiyyət deyil. Belə ki, o xüsusiyyətin malda (malın qiymə-tində) heç bir təsiri yoxdur, sadəcə olaraq təkcə o mal üçün müsbət bir xüsusiyyətdir. Bu müamilə səhihdir, amma müştərinin müamiləni pozmaq haqqı var. Məsələn, minik üçün, yaxud səfərə getmək üçün at istəyir və şərt edir ki, at üç-beş yaşında olsun. Sonradan məlum olur ki, atın iyirmi yaşı var. Malda olmayan xüsusiyyət onun kamillik və müsbət xüsusiyyətidir ki, maldan əlavə bir şeydir. Bu alver səhihdir, lakin müştərinin onu pozmaq haqqı var. Çünki satıcı istədiyi vəsfdə olan malı, ona təhvil verməyib.

4) Malın cinsindən olmayan, yaxud cinsindən aşağı keyfiyyətli mal ilə qarışdırılsa, belə ki, bu, malda eyb və nöqsan sayılarsa, müamilə səhihdir, lakin müştərinin müamiləni pozmaq ixtiyarı var. Burada müştərinin müamiləni pozmaq haqqına malik olması "eyibə görə olan ixtiyar" qismindəndir. Eyibə görə olan pozma ixtiyarında müştəri müamiləni həm pozmaq, həm də təsdiqləmək (qəbul etmək), yaxud qiymət fərqində dəymiş ziyanı alıb-almamaq haqqına malikdir.

5) Müxtəlif hissələrdən təşkil olunmuş malın hissələri onun kamil olmasına aid olduqda naqisini kamil yerinə satarsa, bu müamilə batildir. Məsələn, bir cüt sırğa, ya ayaqqabı alır, sonra məlum olur ki, bir tayı yoxdur. Burada onların hər iki tayı alverin təşkil olmasında şərtdir. Şübhəsiz, müştərinin məqsədi o maldır ki, istifadəyə yararlı olsun.

6) Ğəşş hissələrdən təşkil olunmuş malda olan nöqsanladır, amma bu tərkibin o malın kamil olmasında aidiyyatı yoxdur. Məsələn, bir ton buğda alır və ondan yüz kiloqram torpaq çıxır. Bir ton buğdada az torpağın olması adi bir hal olduğu üçün ğəşş sayılmır. Amma bir tonda yüz kiloqram torpaq çox olduğu üçün ğəşş sayılır. Bu müamilə mövcud miqdarda ixtiyar haqqı (pozmaq haqqı) olmadan səhih, mövcud olmayan miqdarda batildir (misalda müamilə 900 kq. müqabilində səhih, 100 kq. müqabilində isə batildir). Amma çəkinin müştəri üçün xüsusi əhəmiyyəti olarsa, belə ki, o miqdardan az olduqda, artıq həmin malın müştəri üçün dəyəri yoxdur. Bu halda da müamilə səhihdir, lakin müştərinin müamiləni pozmaq ixtiyarı var. Məsələn, müəyyən miqdarda olan dərmanın təsiri var, o miqdar əsasında da müamilə edilib, lakin dərmanın miqdarı lazım olan miqdardan az olub.

## Nəcş

**Məsələ-1492.** "Nəcş" ya "nəcəş" müştərini təhrik etmək və onu malı almağa vadar etməkdir (malı almağa marağını artırmaqdır). Bu iki cür olur:

1. Malı almaq məqsədi olmayan şəxs tərəfindən malı almaq istəyənin həqiqətən qiymətinin çox olub onu yuxarı qiymətə alması üçün malın qiyməti qaldırılır. Məsələn, bir şəxs beş milyon dəyərində olan maşını almaq istəyir. Başqa bir şəxs satıcı ilə sözləşərək maşının qiymətini qaldırır və deyir: "Çox yaxşı maşındır, mən onu yeddi milyona alıram". Halbuki həqiqətən almaq məqsədi yoxdur. Bu işə "nəcş" deyilir.

2. Şəxs bir malı tərifləyir, amma alıcı kimi yox, sadəcə başqasını onu almağa təhrik etmək istəyir. Məsələn, o, həmin avtomobil barədə həqiqəti olmayan tariflər deyir. Halbuki o avtomobil həmin tərifə layiq deyil, Bu da "nəcş" adlanır.

**Məsələ-1493.** "Nəcş" o zaman olur ki, arada hiylə və aldatmaq məqsədi olsun. Amma aldatmaq və hiylə olmadıqda nəcş sayılmır. Nəcşdə məqsəd müştərini malı almağa təşviq etmək üçün xüsusi fəza yaratmaqdır, istər o şəxs özünü müştəri kimi göstərsin, istərsə də xüsusi tariflərlə müştərini onu almağa vadar etsin.

**Məsələ-1494.** Bu əməlin "nəcş" sayılmasında malı tərifləyənin qabaqcadan satıcı ilə sözləşməsi şərt deyil. Yəni şərt deyil ki, özünü müştəri kimi göstərən şəxs satıcı ilə qabaqcadan bu barədə danışıb razılaşsın. Təsəvvür edin, Əli Əhmədin bu malı almasını istəyir, satıcı ilə də heç bir əlaqəsi yoxdur. Amma malı elə tərifləyir ki, Əhməd onu alsın. Bu, "nəcş" sayılır. Çünki onun bu əməli hiylə və aldatmaqdır. Buna əsasən, nəcşin yaranmasında satıcı ilə danışıb razılaşmaq şərt deyil, baxmayaraq ki, o nəcşin bariz nümunəsidir. Qeyd edək ki, bu bölmədə satıcı ilə danışıb razılaşmaqla yaradılan nəcşdən söz gedir. Çünki burada nəcş əsasında edilən müamilənin haram və batil olmasından danışılır. Başqa sözlə, burada demək istəyirik ki, əgər satıcı malının qiymətini yuxarı qaldırmaq məqsədiylə bir nəfəri nəcş üçün əcir edərsə, bu icarə haram və batildir.

**Məsələ-1495.** Nəcş əsasında edilən müamilə haramdır. Məsələn, əgər Həsən Əliyə "bu malın qiymətini yuxarı qaldır ki, mən onu yuxarı qiymətə sata bilim" deyirsə, əslində, Həsən Əlini bu iş üçün

əcir edir. Bu icarə haram və batildir, amma nəcş yolu ilə edilən müamilə isə səhihdir. Yəni satıcı ilə müştəri arasında olan müamilə (məsələn, alver) səhihdir.

**Məsələ-1496.** Möminə zərər vurmaq və "ğəşş" kimi haram əməllər "nəcşə" aid olduğu üçün (nəcş) haramdır. Məsələn, əgər nəcş üzündən müştəri malı ikiqat qiymətə alırsa, həqiqətən zərər edir. Buna əsasən, o, nəcş edən şəxsin əməli nəticəsində zərərə düşür və həmin şəxs ona zərər yetirir. Həmçinin mömini aldatmaq haram olduğu üçün nəcş də haramdır. Buna əsasən, baxmayaraq ki, nəcş öz-özlüyündə haram bir əməl deyil, lakin bu ümumi haramlar ona aid olduğu üçün haram olur, nəinki mütləq şəkildə haramdır. Hərçənd müştəriyə zərər yetişməsə və ya başqa haram əməllər ona aid olmasa, haram deyil. Mümkündür bəzi hallarda nəcş olmasına baxmayaraq müştəri zərər etməsin. Məsələn, müştərinin ona çox ehtiyacı olduğu hallarda bəzən onun özü bu malı həqiqi qiymətindən yuxarı almağa razılaşır. Müzayidələri buna misal göstərmək olar. Məsələn, bir şəxs "mən bu malı yüz manata alıram" deyir. Başqa bir müştəri o malın doxsan manatdan yuxarı qiymətə olmamasına baxmayaraq, müzayidədə qalib gəlmək üçün yüz on manata almağa razılaşır.

Bu hallar nəcş mövzusundan xaricdir. Çünki burada aldatmaq və hiylə yoxdur. Buna görə də haram deyil.

**Məsələ-1497.** Nəcş sayılıb-sayılmamasında şəkk edilən yerlər, haram deyil.

## Ğina

Müamilə bölməsində ğinadan bəhs etmək məqsədi onun müamiləsinin haram olub-olmamasını bilməkdir. Məsələn, əgər bir müğənni, yaxud musiqiçi bu iş üçün əcir edilərsə, həmin müamilə (burada yəni icarə) caizdir, ya haram? Yaxud da bir şəxs mal satır və onun əvəzini ğina oxumaq qərar verir, belə bir alver caizdir, yoxsa haram? Belə bir icarə və alver səhihdir, yoxsa batil? Bu müamilənin

haram olmasına hökm etmək üçün əvvəlcə gərək ğinanın haram olması məlum olsun.

**Məsələ-1498.** Ğina iki mənada işlədilir:

1. Ğinanın ümumi mənası (lüğətdə olan mənası): Avazla ifadə edilən istənilən şey ğinadır. Avazın əsas elementi səsin zil və bəmdə uzadılması və qalxıb düşməsidir ki, buna zəngulə[1] deyilir.

**İzah:** Mətləbi bəyan etmək bəzən danışmaqla, bəzən səsdən kömək almaqla (minbərdə çıxış edənlər kimi), bəzən zümzümə etməklə, bəzən də avazla olur ki, bu, ğinanın ümumi mənasıdır.

2. Ğinanın xüsusi mənası (xalq arasında olan məna): Ğinanın xüsusi, xalq arasında istifadə edilən başqa bir mənası da var ki, bu, məxsus şəkildə olan avazdır. Zil və bəmlə, xüsusi qayda-qanun və üslubla oxunan avaza ğina deyilir. Buna əsasən, xalq arasında hər səsini ucaldan şəxsə "avaz oxuyur" deyilmir, əksinə, bu, müğənnilərə aid edilir.
İkinci mənada işlədilən ğina xalq arasında məlumdur. Məsələn, heç kəs azan deyənə müğənni demir, halbuki azan demək də ginanın birinci mənası ilə uyğundur. Həmçinin avazla normal və zümzümə ilə Quran tilavət edənə müğənni deyilmir, baxmayaraq ki, birinci məna ilə uyğun gəlir. Burada sözügedən ğina ikinci mənada olan ğinadır. Ğina kəlməsindən camaatın zehninə gələn ilk məna yalnız onun ikinci mənasıdır, birinci məna ağıla gəlmir.

**Məsələ-1499.** Ğinanı başqa musiqi və avazlardan ayırmaq üçün ona xas olmayan və ya ğinada rolu olmayan bəzi məsələləri qeyd edirik:
**1. Gözəl səs:** Hər hansı bir şeyin ğina sayılmasının əsas şərti səsin gözəl olması deyil. Bəzilərinin səsi yaxşı, bəzilərinin səsi orta, bəzilərinin isə səsi yaxşı deyil. Bununla belə hətta səs pis olsa da onların hər biri ilə avaz oxumaq mümkündür.

---

[1] Zəngulənin mənası cəh-cəh vurmaq deyil. Onun mənası səsin boğaz və hulqumda titrədilməsidir. İnsan bəzən səsi zəngulə vurmadan və əvvəldən axıra kimi yeknəsəq şəkildə uzadır. Amma bəzən səsin ortasında səsini titrədir, onu qaldırıb salır. Buna zəngulə deyilir.

**2. Musiqi dəstgahları ilə uyğun olması:** Hər hansı bir musiqinin ğina sayılıb-sayılmamasının meyarı onun musiqi dəstgahları ilə uyğun gəlməsi deyil. Çünki insanın boğazından çıxan hər bir səs hətta ğina olmasa belə, musiqi pərdələrindən biri ilə uyğun gəlir. Məsələn, azan deyən şəxsin avazı musiqi dəstgahında olan muğamlardan biriylə uyğundur. Buna əsasən, ğinanın meyarı onun musiqi dəstgahları ilə uyğun olması deyil.

**3. Tərəbli və mütrib olmaq:** (Musiqidə) ğinanın yaranması onun mütrib olmasına bağlı deyil:
**İzah:** "Tərəb" və "mütrib" sözü üç mənada işlənir;
1) Fərəh (şadlıq), yaxud fərəhin şiddətli həddə olması.
2) Fərəh və hüzndən yaranan süstlüklə yüngüllük, insan sevinc və şadlıq hissi keçirərkən özündə bir yüngüllük və süstlük hiss edir. Həmin hiss qəmgin və hüznlü olan zaman da yaranır. İnsan qəmli bir hadisə ilə rastlaşdıqda özündə dözümsüzlük və aramsızlıq hiss edir ki, buna tərəb deyilir.

Birinci məna təkcə fərəh və şadlığa aid edilir, ikinci məna isə fərəh və hüzn arasında müştərək mənada işlədilir.
3) "Tərəb" insanın ruhunda yaranan xüsusi bir yüngüllükdür ki, şiddətli aramsızlıq və qərarsızlıqdan yaranır, istər bu aramsızlıq və qərarsızlıq, fərəh və şadlıq nəticəsində yaransın, istərsə də hüzn və kədər.

**Məsələ-1500.** İstər o sevinc və fərəh mənasında, istər fərəh və hüzn mənasında, istərsə də biqərarlıq və bitablıq mənasında olsun, ğinanın məfhumu onun tərəbli və mütrib olmasına bağlı deyil. (Başqa sözlə desək) avaz oxumaq istər tərəbli olsun, istər tərəbsiz, ğina sayılır.

**Məsələ-1501.** Bəzən "tərəb" ğina və xanəndəliyin səciyyəvi xüsusiyyəti olur, bəzən isə olmur. Çox vaxt insan özü üçün oxuyur, nə onun özündə, nə də başqasında heç bir tərəb və fərəh hissi yaratmır. Bir çox avazlar insanın qəlbinə təsir qoyub onun xoşuna gəlir. Amma bu xoşa gəlmək qeyd etdiyimiz fərəh, yaxud hüzndən yaranan

yüngüllük hissi demək deyil. Buna əsasən, baxmayaraq ki, burada ictimai baxımdan ğina mövcuddur, amma mütrib də deyil.

**4. Ləhv və günah məclisləriylə münasib olması**: Ləhv və günah məclislərində avaz oxumağın başqa məclislərdə avaz oxumaqla fərqi yoxdur. Mümkündür bir şəxs Hafizin qəzəllərindən oxusun, onu eşidənlər məna aləminə fikirləşsinlər.

Mümkündür həmin şəxs eyni qəzəl və avazı başqa bir məclisdə oxusun, eşidənlər də əl çalıb rəqs etsinlər. Buna əsasən, ğinanın mənası yalnız buna ləhv və günah məclislərinə xas, yaxud onunla münasib olmasına bağlı deyil.[1]

**5. Musiqi notları ilə uyğun olmaq:** İnsan səs tellərindən xaric olan hər səsə lüğətdə deyilən ğina aid olub cəhcəhə ilə yanaşı olduqda musiqi növlərinin biri ilə uyğun olmalıdır. Lakin musiqi nəzmi başqa şeydir.

**Məsələ-1502.** (Musiqi və avazın) ğina sayılmağında onun musiqi notları və nəzmi ilə uyğun olması şərt deyil. Mümkündür, bir nəfər iki cür avaz oxusun ki, onun biri musiqi notları ilə uyğun olsun, digəri uyğun olmasın (Amma eyni zamanda hər ikisi avaz və ğina sayılır). Buna əsasən, ğinanın sayılması buna bağlı deyil.

**6. Musiqi alətiylə səslənmək:** (Musiqi və avazın) ğina sayılmağında onun musiqi alətləriylə səslənməsi, yaxud yanaşı olması şərt deyil. Əlbəttə, bu musiqi alətləri çox vaxt (həmişə yox) belə avazsız çalınmır. Musiqi alətlərindən istifadə edənlərin çoxu onları avazla səsləndirir. Bəzən də avazsız istifadə edirlər.

**7. Onun sözlə birgə olması:** (Musiqi və avazın) ğina sayılması onun söz və cümlə ilə olmasına bağlı deyil. Ğina sözlə olduğu kimi sözsüz

---

[1] Musiqinin haram olmasında meyar onun ləhvli və azdırıcı olmasıdır. Amma ləhv məclisiylə uyğun olan səslər adətən ləhvli səslər olduğu üçün demək olar ki, ləhvli səs, başqa sözlə ləhv məclisləri ilə münasib olan səslər musiqi alətiylə yaransa belə, haramdır. Məsələ 1524 . (Mütərcim)

də ola bilər. Belə ki, avaz oxuyan şəxs bəzən müəyyən avazla hər hansı mətni oxuyur, bəzən də mətnsiz zümzümə edir.

**8. Sözün puç və batil (bihudə ləğv və nahaq) olması:** Sözlərin batil (bihudə, ləğv və nahaq) olmasının da ğinanın yaranmasında aidiyyatı yoxdur. Mümkündür ki, avazla oxunan sözlər batil sözlər olduğu kimi haqq sözlər olsun, hər iki halda ğina və avaz sayılır. Buna əsasən, kimsə hər hansı muğam üstə yaxşı bir şeir, yaxud növhə oxuyursa, ğinadır. Necə ki, batil və şəhvətamiz kəlamlardan istifadə edirsə, ğina sayılır.

**Məsələ-1503.** Bu dediklərimizin hamısına ğina məfhumu aid edilir. Bu saydığımız xüsusiyyətlərin heç biri ğinanın məfhumunda rol oynamır. Əvvəldə dediyimiz kimi ğinada məqsəd odur ki, xalq arasında ona ğina və avaz oxumaq deyilsin.

## Ğinanın haram olması

**Məsələ-1504.** Ğina (yəni avaz oxumaq) Allah yolundan azdırıcı və ləhvli olduqda haramdır. Buna əsasən, iki növ ğina mövcuddur: halal və haram. Halal ğinada məqsəd odur ki, azdırıcı və ləhvli olmasın. Haram ğinada məqsəd azdırıcı və ləhvli olmasıdır.

**Məsələ-1505.** Ğinanın haram olmasına aid olan iki məsələ var: 1. Ləhv xüsusiyyəti: İnsanın başını qarışdıraraq onu bir işdən yayındıran şeyə ləhv deyilir. Amma hər bir ləhv haram deyil. Təkcə insanı azdırıb düz yoldan yayındıran ləhvlər haramdır. Məsələn, əgər insanın fikri hər hansı səbəbə görə məşğul olarsa və ya xüsusi bir narahatlığı olarsa, bu zaman hər hansı avazı dinləməklə, yaxud hər hansı filmi izləməklə narahatlığını unudursa, həmin ahəng və filmlər ləhv olmağına baxmayaraq haram deyil.

2. Allah yolundan azdırmaq xüsusiyyəti: Yəni istər əqidədə, istərsə də səhih bir əməldə insanı düz yoldan yayındırmaq.

A) Əqidədən yayındırmaq: Yəni insanı dini maarifə qarşı tərəddüd və şübhəyə salır, belə ki, insanda dini maarifə qarşı laqeydlik və

etinasızlıq meydana gəlir. Ğinanın çox nümunələrində belə bir xüsusiyyət mövcuddur. Məsələn, başın belə qarışdırılması nəticəsində tədricən insanın zehni və təfəkkürü dəyişir.

Belə ki, çox vaxt baxmayaraq ki, adi hallarda ruhi meylləri nəticəsində məscid, möminlər, dindarlar və dini mərasimlərlə əlaqədə olmağı sevir, lakin ləhvə qərq olmaq nəticəsində insanın əqidəsi dəyişib bu yoldan daşınır. Buna əsasən, Allah yolundan yayınmaqda məqsəd dinin əsasları və inanclardan yayınmaqdır.

B) Əməldən yayındırmaq: Yəni insanı günaha vadar etsin, yaxud günahdan çəkinməyə (təqvaya qarşı) onu laqeyd etsin.[1] Həqiqətdə haram ğinanın böyük təhlükələrindən biri insanı həqiqətlər qarşısında laqeyd edərək günaha qarşı cəsarətli etməkdir.

**Məsələ-1506**. Ğinanın azdırıcı olması üç cürdür:

1. Onun məzmunu azdırıcı olsun. Məsələn, ğinanın məzmunu insanı şərabxorluğa və ya hicabsızlığa tərəf sövq etdirə, yaxud xeyirli əməldən yayındıra, yaxud da haqq inanclar batil inanclarla əvəz edilməyinə səbəb ola bilər.

2. Ahəngin özü elə olsun ki, insanı günaha vadar etsin. Məsələn, haram rəqsə xas olan ahənglər, yaxud insanı şəhvətə vadar edən ahənglər kimi.

3. Cürbəcür fərqli şəraitlər insanı azğınlığa vadar etsin. Məsələn, müğənnidə olan xüsusiyyət insanı günaha salır. Misal üçün müğənni qadın öz əməli və rəftarı ilə insanın günaha düşməyinə səbəb olsun. Burada ola bilsin o müğənni batil məzmunlu mahnı oxumasın, musiqinin də günaha salan xüsusiyyətləri olmasın, lakin onun xüsusiyyət və rəftarları oxumaqla yanaşı olduqda insanın şəhvətini təhrik edib onu günaha vadar etsin.

**Məsələ-1507.** Bəzən bir avaz hansısa şəxsi Allah yolundan çıxara bilir, amma başqasında belə təsir qoymur. Bu şəxsdə ğinanın təsir qoymamasının müxtəlif səbəbləri ola bilər. Mümkündür onun təqvasına görə, yaxud onu çox eşitdiyi üçün və ya başqa səbəblərə görə

---

[1] Yaxud da vacibi tərk etməyə vadar, ya vacib əmələ laqeyd etsin. (Mütərcim)

təsirsiz ola bilər. Deməli, ğinadan təsirlənmə baxımından insanlar müxtəlifdir. Burada belə bir sual yaranır: Bu insanlara nisbətdə ğinanın hökmü fərqli olurmu?

Cavab budur ki, xeyr. Ğinada qeyd etdiyimiz xüsusiyyətlər olduqda mütləq şəkildə haramdır və bəzi insanların ondan təsirlənməməsi onlara qarşı bu hökmü dəyişmir.

**Məsələ-1508.** Ğinanın haram olmasına aid olmayan qeydlər:
1. Tərəbli olması: (Dediyimiz kimi) avazın tərəbli olmasının nəinki ğina məfhumunda, hətta onun haram olmasında da rolu yoxdur. Yəni ğinanı eşitməklə insanda yaranan hal və yüngüllük onun haram olması üçün meyar deyil. Bəzən bəzi mənzərələri müşahidə etməkdən yaranan fərəh və şadlıq, ğina nəticəsində yaranan fərəh və şadlıqdan daha da çoxdur. Necə ki, bəzən bəzi mənzərə və səhnələri müşahidə etməklə yaranan qəm-kədər, ğina eşitməkdən yaranan qəm-kədərdən daha şiddətlidir. Bəzən rövzəxan rövzə oxumaqla insanı elə təbii haldan xaric edir ki, o, ixtiyarsız olaraq özünə vurur. Bu tərəb və ğinanın tərəbli olmaq xüsusiyyətidir. Yaxud bəzi lətifələri eşitmək insanda elə təsir qoyur ki, o, özünü idarə edə bilməyib şiddətlə qəhqəhə çəkərək gülür. Bunlar haram deyil, baxmayaraq ki, tərəblidir.

2. Kəskin ritmli olması: Ritmin kəskin olması ğinanın haramolma meyarı deyil.

3. Əyləncə məqsədi: Ğina (azdırıcı və) ləhvli olduqda onu dinləmək istər əyləncə məqsədiylə olsun, istərsə də bu məqsədlə olmasın, haramdır.

4. Ğinanın ləhvli olmasında onun şiddətli və zəif olması: Əgər ğinanı təşkil edən ünsürlər, yəni söz, müğənni və ləhvli olmaq kamil olarsa, bu ğina haramdır, istər insanda az təsir qoysun, istər çox, istər bəzisində az, bəzisində isə çox.

Təsirlərin az-çox olması, yaxud müxtəlif təsirlərin olmasının hökmdə təsiri yoxdur.

5. Ləhv məqsədiylə oxumaq və səsləndirmək: Ğina ləhvli olduqda haramdır və oxuyanın bu məqsədlə oxuyub-oxumamasının bu hökmdə təsiri yoxdur.

## Haram ğinanı haram olmayan ğinadan ayırmaq

**Məsələ-1509.** Bu mövzunu müəyyən etmək digər mövzular kimi xalqa həvalə edilir, yəni haram ğinanın nə olduğunu bildikdən sonra (ki, ləhvli və azdırıcı olan ğina haramdır) onun xarici nümunəsini müəyyən etmək camaatın öz əlindədir.

**Məsələ-1510.** Bəzən xalqın haram ğinanı müəyyən etməsindən əlavə mükəlləfin özünün də onu əldə etməsi lazımlı olur. Belə ki, əgər mükəlləf özü hər hansı bir musiqinin xalqın haram ğina kimi müəyyən etdiyi avazla uyğun olmasında şəkk edərsə, bu zaman onun haram olmasını müəyyən etmək mükəlləfin öz ixtiyarındadır. Əgər xalqın haram ğina üçün müəyyən etdiyi mövzu ilə uyğunluğunu müəyyən etsə, bu zaman haram olacaq. Amma o mövzu ilə uyğun olub-olmamasında şəkk edərsə, halaldır.

**Məsələ-1511.** Haram ğinanın (ləhvli və haqq yoldan yayındıran ğinanın) aşkar nümunələrindən biri, onun rəqsetdirmə xüsusiyyətinə malik olmasıdır.[1]

**Məsələ-1512.** Ğinanın ləhvli olması təkcə ahəngin, yaxud musiqinin sözlərinin ləhvli olmasına bağlı deyil. Bəzən musiqi və avazla yanaşı olan müxtəlif şəraitlərdə onun ləhvli olmasında təsirli olur. Məsələn, mümkündür kimsə dini məclisdə, Hafizin qəzəllərindən birini oxusun və bunun heç bir eybi də olmasın. Amma həmin qəzəli naməhrəm qadınlarla, fəsad proqramları olan bir mərasimdə oxusa, bu ləhvli və haram sayılır. Mümkündür biz bu mətləbi ümumi ölkəyə də aid edək, nəinki xüsusi bir məclisə və mərasimə. Çünki radio və televiziya bütün ölkəyə aiddir. Əgər ölkənin ümumi mühiti (radio ya televiziyadan yayımlanarı) musiqinin ləhvli olmasına şərait yaradırsa,

---

[1] Yəni o ğinadır ki, insanı rəqs etməyə vadar edir. Hətta ola bilsin o ğina səslənərkən heç kim rəqs etməsin, amma onda belə bir xüsusiyyət olduğuna görə, haram ğinanın nümunəsindən sayılır. (Mütərcim)

o musiqi haram ğina sayılacaq. Əks təqdirdə (öz-özlüyündə haram ğinanın şərtləri onda olmasa) halal olacaq, baxmayaraq ki, hər ikisi ğina olmaqda müştərəkdir.

Məsələn, İslam respublikasında hər bir şey (o cümlədən ictimai proqramlar) dini səmtdə olduğu üçün ictimai mühit də islami və dinidir, tağut hökumətlərindən tamamilə fərqlənir. Hökumətin dini və tağut hökuməti olmasının da xalqın istiqamətində olduqca böyük rolu var.

**Məsələ-1513.** Əgər hər hansı bir ğinanın haram olub-olmamasında şəkk edilərsə, haram deyil.

**Məsələ-1514.** Ləhvli və azdırıcı olan bütün ğinalar istər onunla mərsiyə oxunsun, istər Quran tilavəti olsun haramdır. Qeyd edək ki, Quran tilavəti haram ğina ilə olduqda onun haram olması daha da şiddətlidir, çünki Qurana hörmətsizlik sayılır.

**Məsələ-1515.** Ğinanın haram olmasında onun toy mərasimində səslənməsiylə başqa mərasimlərdə olmasının heç bir fərqi yoxdur. Əgər toy mərasimində də ləhvli və azdırıcı ğina səslənərsə, bu da haramdır.

**Məsələ-1516.** Ərin ləzzət almaq məqsədiylə ondan öz arvadından haram ğina oxumasını tələb etməsi caiz deyil.

**Məsələ-1517.** (Haram) ğina böyük günahlardandır.

**Məsələ-1518.** (Haram) ğina məclisində iştirak etmək haramdır.

**Məsələ-1519.** (Haram) ğinaya qulaq asmaq hətta o məclisdə olmasa belə, haramdır.

**Məsələ-1520.** Ğinanı öyrədib-öyrənmək, yəni onun qaydalarını tədris edib təhsil almaq öz-özlüyündə haram deyil. Amma (öyrədib-öyrənən zaman) icra edilən ğina haram (ləhvli və azdırıcı) ğina olduqda, həmin ifa etmək haram olacaq ki, bu muğamların yollarını öyrətmək və öyrənməyə deyil, musiqini ifa etməyə aid olsun.

**İzah:** Musiqi qaydalarında məqsəd muğamlardır. Bu muğamları öyrənib öyrətməyin işkalı yoxdur. Məsələn, əgər şur, yaxud humayun muğamını öyrənmək istədikdə sizə onun dəramədi (girişi), zili və bəminin (ümumiyyətlə ifa etmək yolu) necə olması deyilir və bunun işkalı yoxdur. Bu yolları öyrəndikdən sonra növbə onu ifa etməyə çatır. Bu muğamları öyrənən şəxs artıq onu öz zövq və istəyi ilə uyğun ahənglərlə oxuya bilir. Adətən bunlar öyrənmək sayılmır və oxuyan zaman haram ğina ilə ifa etməsi mümkündür (Bu ifa haram olmasına baxmayaraq, öyrənmək sayılmadığı üçün muğamları öyrənməyin hökmündə təsir qoymur).

**Məsələ-1521.** Haram ğina ilə ifa edilən musiqinin müqabilində alınan muzd haramdır.

## Bu barədə bir neçə sual

1. Əgər qadın kişilər arasında normal halda və şəhvətamiz rəftarlar etmədən ğina oxusa və bu, xalq arasında da heç bir fəsada səbəb olmasa, bunun hökmü nədir?

**Cavab:** Qadının kişilər arasında oxuması (naməhrəmlər qarşısında mahnı oxuması), onların günaha düşüb şəhvətlərinin təhrik olmasına səbəb olduğu üçün bu, haram ğinadır, həm oxuyan, həm də eşidənlər üçün haramdır (Hətta oxuduğu mahnı öz-özlüyündə və bu məclisi nəzərə almadan haram olmasa belə).

2. Qadın səsinin lent yazılarına (istər radio-kaset, istərsə də film vasitəsilə) qulaq asmağın hökmü nədir?

**Cavab:** Səsi ləhvli və azdırıcı olduqda haramdır.

3. Əgər qadınlar mərsiyə və növhə oxuyarkən onların səsi naməhrəm qulağına çatırsa, hökmü nədir?

**Cavab:** Ğinanın haram olmasının meyarı istər mahnı oxunsun, istərsə də mərsiyə və növhə, onun ləhvli və azdırıcı olmasıdır. Ləhvli və azdırıcı olduqda haramdır.[1]

---

[1] Hətta səslərini naməhrəmlər eşitməsələr belə. (Mütərcim)

4. Qadın müğənnilərin qadınlar arasında, yaxud qadın-kişi müştərək olan mərasimlərdə konsert ifa etmələrinin hökmü nədir?

**Cavab:** Qadının naməhrəm qarşısında fərdi şəkildə mahnı ifa etməsinin kişidə yaratdığı təsir, adətən qrup şəklində olduqda ya zəifdir, ya da olmur. Belə olarsa, işkalı yoxdur. Amma qrup şəklində ifa edilən konsert də günaha, şəhvətin təhrikinə və fəsada səbəb olarsa, haramdır.

## Ləhv və musiqi alətləri

**Məsələ-1522.** Musiqi ümumi camaat arasında iki mənada işlədilir: 1. Musiqi səslərin tərkib fənnindən ibarətdir, belə ki, eşidənin ondan xoşu gəlir. Buna əsasən, səsə zil və bəm, şiddət və zəiflik verməklə xüsusi keyfiyyətlə xaric edilməsi nəticəsində eşidənlərin xoşuna gələn belə münəzzəm səslər istər insan hülqumundan xaric olsun, istərsə musiqi alətlərilə çalınsın, istərsə də quş nəğməsi olsun, musiqi adlanır. Hətta bəzən danışan şəxs səsinə zil və bəm, şiddət və zəiflik verməklə, onun danışığı musiqiyə dönür.

2. Camaat arasında musiqi kimi tanınan ikinci məna musiqi alətləriylə avazın səslənməsidir. Qeyd edək ki, məqsəd o alətin adi və normal səsidir (yəni o cürə ki, çalınmalıdır), nəinki, məsələn, tarın simlərinə nizamsız vurmaqla xaric olan səslər. Deməli, musiqi alətinin öz normal səsində məqsəd onda musiqiçinin ifa etməsidir.

**Məsələ-1523.** Əgər musiqi alətiylə ləhvli və Allah yolundan yayındıran (yəni əqidə və əməldə insanın azmasına səbəb olan) avazlar səslənirsə, bu musiqi haramdır.[1]

**Məsələ-1524.** Musiqinin haram olmasında meyar, onun ləhvli və azdırıcı olmasıdır. Amma ləhv məclisiylə uyğun olan səslər adətən ləhvli səslər olduğu üçün demək olar ki, ləhvli səs, başqa sözlə ləhv məclisləri ilə münasib olan səslər musiqi alətiylə yaransa belə,

---

[1] Yəni ümumiyyətlə ğinanın barəsində deyilən şərtlər musiqi alətiylə səslənən səslərdə olduqda bu musiqi haramdır. (Mütərcim)

haramdır. Qeyd etmək lazımdır ki, bunu müəyyən etmək camaatın özünə həvalə edilir.

**Məsələ-1525.** Haram ləhvin bəzi xarici nümunələri:

1. Musiqi alətinin səsi şəhvətamiz olarsa, bu haram ləhvdir.
2. Haram iş görməyə təhrik edərsə, yaxud səbəb olarsa, haram ləhvdir.
3. İnsanı vacib əməldən saxlayan səslər (avazlar), məsələn, səsin cazibəsindən insan cihadı, elm, təhsil almağı və ya ruzi dalınca getməyi tərk edərsə, bu da haram ləhvlərdəndir.
4. Dinə qarşı insanı laqeyd edən səslər və onu dini mühitdən uzaqlaşdıran səslər də bunun nümunələrindəndir.

5. İnsanı rəqs etməyə vadar edən səslər - bu, Allah yolundan xaric edən ləhvin ən kamil nümunəsidir.

**Məsələ-1526.** Ümumiyyətlə, insanı dinə qarşı laqeyd edən və onu şəri vəzifəsinə qarşı süstləşdirən hər bir səs (avaz) haramdır.

**Məsələ-1527.** Qeyd edilən işlərdə meyar onun səciyyəvi olmasıdır. Yəni dinləyicinin hal-hazırda belə bir təsirə məruz qalmasına lüzum yoxdur. Əgər o avazın təbiəti və xüsusiyyəti belə bir təsir qoymağa malik olarsa, haram olması üçün kifayətdir.[1]

**Məsələ-1528.** Musiqi alətləri hər yerdə azdırıcı, Allah yolundan yayındıran və səsi ləhvli deyil. Bəzi yerlər vardır ki, şübhəsiz, belə deyil. Məsələn, döyüş meydanında vurulan təbil və şeypur, yaxud bəzi qədim ənənəvi idmanlarla yanaşı vurulan zərblər ləhvli səs sayılmır.

---

[1] Məsələn, insanı rəqs etməyə vadar edən musiqi haramdır. Hətta ola bilsin o musiqi və avaz səslənərkən heç kim rəqs etməsin, amma buna səbəb olub belə bir xüsusiyyətə malik olduğu üçün haramdır. (Mütərcim)

## Ləhv və musiqi alətlərinin alğı-satqısı, təlim və təhsili

**Məsələ-1529.** (Musiqi və) ləhv aləti halal və haram musiqilər arasında müştərək istifadə olunan alətlərdəndirsə, onu düzəltmək haram deyil. Amma onun düzəlməsində haram istifadələr şərt edilərsə, bu halda müamilə haram və batildir.

**Məsələ-1530.** Bu alətlərdən istifadə etməyin təlim-təhsili ləhv və azdırıcı ahənglərlə olduqda haramdır, çünki burada təlim etmək əməli formadadır.

Deməli, əgər onun öyrədilməsi haram musiqilərlə olarsa, haramdır. Amma bu hökm ona görə deyil ki, təlim öz-özlüyündə haram olsun. Bu əməl (haram musiqi ifa etmək) haram olduğu üçün təlimə də icazə verilmir. Buna əsasən, onun təlimi öz-özlüyündə işkalsızdır (və halal musiqi ilə təlim edilərsə, işkalsız olacaq).

**Məsələ-1531.** Bu alətlərin alğı-satqısı və s. müamilələri də dediyimiz mətləblə əlaqəlidir. Belə ki, bunlar müştərək alətlər kimi satılarsa, halal-haramda müştərək istifadə olunan digər əşyalar kimi əgər ondan haram istifadələrin edilməsi şərt olunmazsa, işkalı yoxdur. Amma alıcının onu haram istifadələrdə işlədəcəyini bildikdə bu alver harama kömək göstərmək sayılarsa, haramdır.

## Musiqini (musiqi sənətini və mədəniyyətini) yaymaq

**Məsələ-1532.** Musiqini cəmiyyətdə adiləşdirən hər bir şey onu yaymaq sayılır. Bizim əsrimizdə ləhvli və haram musiqilər halal musiqilərə qalib gəldiyi (yəni ondan qat-qat çox olduğu) üçün gərək onun yayılıb adiləşməsinin qarşısı alınsın. Çünki bu iş cəmiyyətdə yayılarsa, təbii olaraq haram da cəmiyyətdə yayılacaq.

**Məsələ-1533.** Haram musiqilərin halal musiqilərdən çox olduğu şəraitdə onu yaymaq caiz deyil.

**Məsələ-1534.** Musiqinin təlim və təhsili onu yaymaq deyil. Amma musiqinin təlim və təhsili özü yayılarsa, belə ki, geniş şəkildə müxtəlif şəhərlərdə musiqi məktəbləri fəaliyyət göstərərsə və bu iş

cavanları ona tərəf sövq etdirərsə, şübhəsiz, musiqini yaymaqdır. Buna əsasən, ölkənin məsul şəxslərinin o barədə böyük məsuliyyətləri var. Hətta müxtəlif məktəblərdə musiqinin yayılmasını hiss edən şəxslər də bu barədə vəzifə daşıyırlar.

**Məsələ-1535.** Şübhə yoxdur ki, cəmiyyətdə musiqi və ğinanın haram növləri halal növlərindən çox olduqda, [1] onu yaymaq haramdır. Buna əsasən, belə bir şəraitdə həmin alətləri göz önündə qoyub onlarla əlaqədar sərgilər açmaq onu yaymaq sayılır və caiz deyil.

**Məsələ-1536.** Haram musiqi ifası hər hansı məqsədlə olursa-olsun, istər təlim və təhsil, istərsə də onunla tanışlıq məqsədiylə olsun, haramdır.

**Məsələ-1537.** Musiqinin haram olması meyarı baxımından qərb və qeyri-qərb musiqiləri arasında heç bir fərq yoxdur. Bunların hamısının meyarı eynidir. Amma o, qərb mədəniyyətinə meyl də yaratsa, artıq bu, ikinci bir məsələdir. Məsələn, əgər o, ləhv olmayan, yəni öz-özlüyündə haram meyarlarına malik olmayan qərb musiqisi olsa, lakin qərb mədəniyyətinə meyl göstərilməsinə səbəb olsa, bu halda o "sanəvi" (ikinci dərəcəli) hökm baxımından haram olur.

**Məsələ-1538.** Haram musiqinin hökmündə insanın onu İslam ölkəsində, yaxud qeyri ölkələrdə, məsciddə, yaxud küçədə eşitməsində fərq yoxdur. Ləhvli və azdırıcı musiqilər mütləq şəkildə haramdır.

**Məsələ-1539.** Musiqinin nizamlı olması, yəni musiqi muğamları üstündə səslənməsi onun haramolma meyarı deyil. Onun haram olmasının meyarı ləhvli və Allah yolundan yayındırıcı olmasıdır. Əgər hər hansı bir ahəng ləhvli və azdırıcı olarsa, istər rövzə, yaxud növhə oxunsun, istər mahnı, haramdır. Sözlərin növhə və rövzə olması onu haram olmaqdan xaric etmir.

---

[1] Yəni çox istifadə olunub ona cəmiyyət arasında çox maraq göstərildikdə. (Mütərcim)

**Məsələ-1540.** Musiqi alətlərinin hökmlərində onun qədim və yeni olması əl, yaxud elektronika ilə səslənməsi arasında heç bir fərq yoxdur. Halal və haramolma meyarları hamısında bərabərdir.

**Məsələ-1541.** Dəf çalmağın hökmündə istər halqalı olsun, istərsə də halqasız, toy və başqa mərasimlər arasında fərq yoxdur. Buna görə də əgər ona vurulan zərbələrin keyfiyyəti ləhvli olarsa, haram, olmadıqda isə caizdir.

**Məsələ-1542.** Musiqi səsləndirməkdə dəf, teşt və qaba vurmaq arasında fərq yoxdur.

## Rəqs

**Məsələ-1543.** Rəqs - oynamaqla bədənə verilən hərəkətdir. Buna əsasən, oynamaqla olmazsa, məsələn, idmanda kata hərəkətləri kimi məqsədli və hədəfli olaraq bədənə verilən hərəkət rəqs etmək deyil. Həmçinin gimnastik hərəkətlər, yaxud yüngül atletikalar, baxmayaraq ki, nəzmli surətdə bədənə verilən hərəkətlə olur, rəqs sayılmır. Deməli, rəqsi yaradan bədən hərəkətiylə oynamaqdır.

**Məsələ-1544.** Hər rəqs haram deyil, ləhv məzhəri olan rəqslər haramdır.

**Məsələ-1545.** Kişinin rəqs etməyi vacib ehtiyata əsasən, haramdır. Qadının qadın üçün rəqs etməsinə ləhv nümunəsi aid edilərsə işkallıdır və vacib ehtiyata əsasən, tərk edilsin. Başqa halda da əgər şəhvətamiz başqa fəsadlara səbəb olarsa, haram musiqilərlə yanaşı naməhrəm olan yerdə olarsa, haramdır. Bu hökmdə toy mərasimləri ilə digər mərasimlər arasında heç bir fərq yoxdur. Rəqs məclislərində iştirak etmək onları təsdiqləmək və ya başqa bir harama səbəb olarsa, caiz deyil. Əks təqdirdə işkalsızdır.

## Zalıma kömək etmək

Zalıma kömək etmək iki cürdür:

### 1. Zalımın zülmündə ona kömək etmək

**Məsələ-1546.** Ürfdə zalıma kömək etmək sayılan hər hansı bir iş haramdır. İstər birbaşa kömək etmək olsun, məsələn, zalım, bir şəxsə şallaq vurur, bu da şallağı onun əlinə verməklə ona kömək edir, yaxud məzlumu tutub saxlayır ki, zalım onu vursun. Bu, zalıma birbaşa kömək etməkdir. İstərsə də vasitə ilə, məsələn, zalım zülm edərkən susayır və bu ona su verir ki, susuzluğu yatsın və zülmünə davam etdirsin. Zalıma köməklik göstərməyin bugünkü və yayılmış nümunələrindən biri şiələrin qətlinə edilən təbliğatlar kimi təbliğat vasitəsilə kömək etməkdir. Yaxud bir şəxs terror fikrinə düşür, başqası ona yol göstərir. Bu da zalıma kömək etməkdir. Həmçinin əgər Həzrət İmam Hüseyn əleyhissalamın qətlinin caiz olmasına verilən fətva kimi, zülmün qarşısını bir qrup almaq istəsə, başqası zalıma haqq qazandırsa, bunların hamısı zülmə kömək etmək sayılır.

**Məsələ-1547**. Zalıma kömək etməyin haram olmasında, o zülmün zalım hakim və zalım müdirin zülmü kimi ictimai mühitdə, iş mühitində, yaxud ərin arvada, qardaşın qardaşa, yaxud bacıya etdiyi zülm kimi ailə mühitində olmaları arasında heç bir fərq yoxdur. Bunların hər birinə kömək etmək zalıma kömək etmək sayılır.

### 2. Zalıma zülmünə aid olmayan işdə kömək etmək

**Məsələ-1548**. Məlum olduğu kimi birinci qisimdə dediyimiz zalımda məqsəd hər bir zalımdır və mütləq şəkildə nəzərdə tutulur. Amma bu qisimdəki zalımda məqsədimiz xüsusi mənadır. Çünki əgər bu qisimdəki hökmü də hər bir zalıma aid etsək, onda yaşayış nizamı pozular. Çünki hər bir şəxsin ömründə bir dəfə də olsa zülm etməsi mümkündür. Buna əsasən, deyəcəyimiz zalımda məqsəd onlar-

dır ki, peşələri zülm və ədalətsiz işdir, zalım hakimlər və onların işçiləri, yaxud oğru və quldurlar kimi.

Burada haram köməkdə məqsəd birbaşa, yaxud vasitə ilə onlara belə bir kömək olsun ki, məsələn, onlar cəmiyyətdə müəyyən ad qazansınlar və işləri haqlı sayılsın. Həmçinin təhlükəsizlik xəbərlərini çatdırmaq da onlara kömək göstərmək hesab olunur. Habelə maddi kömək göstərmək, yaxud onların qüdrətlərinin genişlənməsinə səbəb olan həmkarlıq da bu qəbildəndir. Bu köməklər zalıma zülmündə birbaşa kömək etmək deyil. Çünki mümkündür ki, bunlar həmişə zülm etsinlər və ya heç zülm etməsinlər. Bununla belə mümkündür ki, bu köməklər zalımın qüdrətinin genişlənməsinə səbəb olsun və onun zülmü üçün münasib şərait yaransın. Bu qəbildən olan köməklər də haramdır.

## Təsvir (şəkil çəkmək və mücəssəmə yaratmaq)

**Məsələ-1549.** Şəkil çəkməyə və heykəltaraşlığa aid olan təsvir bizim dövrümüzün geniş yayılmış məsələlərindəndir. Canlılara və cansızlara aidolma baxımından dörd qismə bölünür:

1. Qabarıq və canlı.
2. Qabarıq və cansız.
3. Sadə və canlı, insan və heyvan şəkli kimi.
4. Sadə və cansız, ağac və gül şəkli kimi. Dördüncü qismin halal olması aydındır.

**Məsələ-1550.** Təsviri istər qabarıq olsun, istərsə də sadə, başqa haram cəhətlərə səbəb olmadıqda öz-özlüyündə haram deyil. İnsanı küfr və şirk təhlükəsiylə üz-üzə qoyan təsvirlər kimi, yaxud cinsi təhrikə səbəb olan lüt qadın və kişi şəkilləri kimi olarsa, haramdır.

**Məsələ-1551.** Heykəltaraşlıq din əleyhinə olan mədəniyyəti yayma-dığı halda hətta insan və heyvanın kamil heykəli olsa belə, haram deyil.

**Məsələ-1552.** Hünər və sənət portretlərini təmir etmək, hətta məsihiyyət kimi başqa dinlərə, Həzrət İsa (ə) və Həzrət Məryəmin (ə)

şəklinə aid olsa da caizdir. Bu şərtlə ki, batilə, azğınlığa və ya hər hansı bir günaha səbəb olmasın.

**Məsələ-1553.** Tatuaj haram deyil, bu şərtlə ki, qeyri-islami mədəniyyətin yayılması olmasın. Onunla dəstəmaz və qüsl də səhihdir.

**Məsələ-1554.** Mücəssəmənin (heykəl və qabarıq şəkillərin) müaviləsi (məsələn, alğı-satqısı) haram ünvana (məsələn, əxlaqsız səhnələrin heykəli kimi) şamil olmazsa, caizdir.

## Riba

**Məsələ-1555.** Riba böyük günahlardandır və onun haram olması dinin zərurətlərindəndir. İmam Rzadan (ə) belə rəvayət olunub:

Allah sənə yar olsun! Agah ol ki, riba haram və böyük günahlardandır. Allah ona cəhənnəm vədəsi verib. Allaha ribadan pənah aparıram. Riba bütün peyğəmbərlərin dilində və bütün kitablarda haram buyurulub.

**Məsələ-1556.** Riba iki qisimdir:

1. **Borc ribası:** ribanın bu qisimi borcun hökmlərində bəyan ediləcək.
2. **Müamilə ribası:** aşağıdakı şərtlərlə müamilə ribalı olacaq.

**Məsələ-1557.** Müamilə ribası aşağıdakı şərtlərə malikdir:

1. Xalq arasında həmcins sayılan malların mübadiləsi olarsa;
2. Malın müamiləsi çəki, yaxud ölçü ilə olarsa, görməklə, yaxud sayla yox;

3. Satılan mal alınan maldan az, yaxud çox olarsa.

**Məsələ-1558.** Arpa və buğda bir cinsdən sayılır. Buna görə də 100 kq. buğdanın 50 kq. arpanın müqabilində satılması riba və haramdır. Amma zəkat məsələsində bunlar həmcins mal hesablanmır və biri digərinin nisabını (yəni zəkatın vacibolma miqdarını) tamamlaya bilmir.

**Məsələ-1559.** Hər bir əsl mal ondan hazırlanan mal ilə həmcins sayılır. Məsələn, küncüd və küncüd yağı, süd, pendir və ayran, üzüm

və sirkə. Həmçinin əsli bir olan iki mal həmcins sayılır. Məsələn, pendir və kərə yağı.

**Məsələ-1560.** İnək və qoyun südü iki ayrı cins heyvanlardan tutulduğu üçün bir cinsdən sayılmır. Həmçinin inək və qoyun ətləri həmcins sayılmır. Buna əsasən, 2 kq. inək yağı, yaxud ətini 1 kq. qoyun yağı, yaxud əti əvəzinə almaq olar.

**Məsələ-1561.** Əgər bir şeyin əsli çəki ilə ölçülənlərdən, ondan hazırlanan mal sayla hesablananlardan olarsa, onları biri digərinə artıq olmaqla mübadilə etmək olar. Məsələn, 1 kq. pambıq, yaxud kətanı, pambıq, yaxud kətandan hazırlanmış iki köynəklə mübadilə etmək olar.

## Ribanın hökmləri

**Məsələ-1562.** Riba haramdır. Naçarlıq müamilə ribasının caiz olması üçün dəlil deyil. Onu naçarlıq halında murdar yeməyin caiz olması ilə müqayisə etmək düzgün deyil.

**Məsələ-1563.** Ribalı müamilə batildir. Yəni tərəflərin heç biri bu mübadilədə əldə etdiklərinin sahibi olmur və onu sahibinə qaytarmalıdırlar.

**Məsələ-1564.** Malın keyfiyyət fərqi (mübadilədə) onun miqdarının başqasından artıq olmasının caiz olmasına dəlil deyil. Buna əsasən, 1 kq. əla növ düyünün 2 kq. aşağı keyfiyyətli düyü müqabilində mübadilə etmək caiz deyil.

**Məsələ-1565.** Əgər hər iki mal eyni çəkidə olsa, yaxud eyni ölçüdə olsa, lakin satıcı, yaxud müştəri müqabil tərəfin ona müəyyən bir işi yerinə yetirməsini şərt etsə, bu da riba hökmündədir.

**Məsələ-1566.** Malın çəki, yaxud ölçü ilə olmasının meyarı müamilə edilən şəhərdir. Buna əsasən, əgər hər hansı bir şəhərdə belə olmazsa, riba deyil.

**Məsələ-1567.** Riba alverə məxsus deyil, digər müamilələrə də aiddir.

**Məsələ-1568.** Ata və övlad arasında, həmçinin ər və arvad arasında riba caizdir. Amma ana və övlad arasında caiz deyil.

## Caiz müamilələr

### Cins və onun əvəzinin şərtləri

**Məsələ-1569.** Satılan mal və onun müqabilində verilən əvəzin bir neçə şərti var:

**Birinci:** Onun miqdarı (çəki, peymanə, say və s.) camaat arasında olan ölçü ilə məlum olmalıdır.

**İkinci:** Onu təhvil vermək mümkün olmalıdır. Buna əsasən, qaçmış atı müştəri tuta bilməsə, satılması səhih deyil.

**Üçüncü:** Cins və onun əvəzi, həmçinin onu almaq üçün camaatın rəğbətinə səbəb olan onlarda olan xüsusiyyətləri məlum olmalıdır.
**Dördüncü:** Cins və onun əvəzində heç kəsin haqqı olmamalıdır. Məsələn, başqasının girovunda və rəhnində olmamalıdır.

**Beşinci:** Baxmayaraq ki, mənfəət, iş və haqq da olmasının işkalı yoxdur, ehtiyata əsasən, satılan mal malın özü (cins) olmalıdır (mənfəət, iş və haqq yox).

(Malın müqabilində verilən) əvəz, mənfəət, iş və başqasının mülkünə keçə biləcək haqq da ola bilər. Məsələn, ixtisas və təhcir haqqı[1] kimi. Lakin onun ləğv edilə bilən və birindən digərinə keçməsi mümkün olmayan haqlardan məsələn, şüfə və ixtiyar və s. kimi haqlardan olması işkallıdır.

**Məsələ-1570.** Vəqfi alıb-satmaq olmaz. Təkcə vəqf bölməsində deyilən bəzi yerlər istisna olunur.

---

[1] İxtisas haqqı odur ki, hər hansı bir şeyin maliyyəti olmadığı üçün, ona sahib deyil, amma həmin şey ona məxsusdur. Məsələn, birinin heyvanı murdar olur, murdarın maliyyəti olmadığı üçün artıq onun malı deyil. Lakin ona məxsus olduğu üçün ixtisas haqqı var. Təhcir haqqı isə abad olmayan və sahibi olmayan yerə nişan vurmaqdır. Belə ki, bir şəxs o yerə daş və bu kimi əlamətlərlə nişan vurarsa, o yerdə onun haqqı var və həmin yeri abad edib sahib olmaqda başqasından qabaqdadır. Bu deyilən haqlar müamilədə əvəz qoyula bilər. (Mütərcim)

## Satıcının və müştərinin şərtləri

**Məsələ-1571.** Satıcı və müştərinin bir neçə şərti var:

**Birinci:** Həddi-büluğa yetişmək: həddi-büluğa yetişməmiş uşaqla edilən müamilə batildir, hərçənd uşaq müməyyiz ola və bu müamiləni vəlisinin izniylə edərsə batildir. Əlbəttə ki, əgər müamilə edilən mal çox az qiymətli şeylərdən olsa, belə ki, onun müamiləsi uşaqlar üçün adi olarsa, belə bir müamilə səhihdir. Əgər uşaq pulu müştəridən alıb satıcıya vermək, yaxud əksinə, malı satıcıdan alıb müştəriyə çatdırmaq üçün vasitə olarsa, bu müamilənin işkalı yoxdur.
**İkinci:** Əql, dəli ilə dəlilik halında olarkən müamilə batildir. Dəlilik iki cürdür:
1. Həmişəlik: bu halda malı işlətmək haqqı yoxdur.

2. Bəzi hallarda dəli olur: ağıllı olan halda malı istifadə edə bilər.

**Məsələ-1572.** Təkcə həkim müayinəsi əsasında insanın dərk və zəkasının az olmasının sübuta yetməsi səbəb olmur ki, o öz malına sahib çıxıb onları idarə edə bilməsin. Xalq arasında ağıllı sayılması (belə bir haqqa malik olması üçün) kifayətdir.

**Üçüncü:** İstifadəsi qadağan olmasın (səfeh və müflis olmasın, yəni iqtisadi iflasa uğramasın).

**Məsələ-1573.** Səfeh o şəxsdir ki, malını heç bir ağıllı məqsəd olmayan bihudə yerlərə xərcləyir. Qeyd edək ki, səfeh dəli deyil. Səfehin ixtiyar sahibləri barədə (mallarını istifadə etmək baxımından) sonrakı bölümlərdə söz açılacaq.

**Məsələ-1574.** Müflis şəri baxımdan o şəxsdir ki, (mənzil, avtomobil və ev əşyaları kimi, şəni həddində ehtiyacı olduğu mallarını çıxmaq şərtiylə) onun malları borclarını ödəyə biləcək həddə deyil. Tələb sahibləri də şəriət hakiminə şikayət edir və şəriət hakimi həmin şəxsi iflasa uğramış elan edərək öz mallarının istifadəsini ona qadağan edir.

**Dördüncü:** Ciddi məqsədi olsun, məqsəd odur ki, müamiləni zarafatla, yuxuda, səhvən və ya məqsədsiz etməsin.

**Məsələ-1575.** Əgər bir şəxs alveri zarafatla etməsini iddia edib məhkəmədə şəri yollarla onu sübuta yetirə bilməsə, iddiası qəbul edilmir.

**Beşinci:** Məcbur olmasın (ixtiyarlı olsun), əgər bir şəxs qüdrətli bir şəxs tərəfindən hər hansı müamiləni etmək üçün təhdid olunsa, yaxud məcburiyyət qarşısında qalsa və bu şəxs özündən zərər və hərəci (çətinlik və məşəqqəti) dəf etmək üçün bu müamiləyə razılaşsa, belə bir müamilə batildir. Amma icbar və ikrah götürüldükdən sonra icazə verərsə, bu zaman müamilə səhih olacaq. Mümkündür bu təhdid onun qohumları barədə, yaxud malı, abırı və canı ilə əlaqədar olsun, insan bu təhdidi aradan qaldırmaq üçün belə bir müamiləyə məcbur olsun.

**Məsələ-1576.** Hər bir məcburi müamilənin səhih olması məcbur edilmiş şəxsin icazəsinə bağlı deyil. Belə ki, əgər onun məcbur edilməsi haqlı olsa, müamilə səhih olur. Məsələn, əgər dövlət, ya şəriət hakimi tərəfindən bir şəxsin evi, ev əşyaları haqq olaraq satışa qoyularsa, başqaları tərəfindən onların alınması caizdir.

**Məsələ-1577.** Əgər bir şəxs zəruri olaraq (naçarlıq üzündən) bir şeyi hətta qiymətindən aşağı satsa, bu alver səhihdir. Amma əxlaqi baxımdan başqaları onun bu vəziyyətindən sui-istifadə etməməlidirlər. Buna əsasən, camaat arasında məcbur olub-olmamaq (yəni naçarlıq üzündən malını satmaq) bu bölümə (yəni burada sözü gedən ixtiyarlı olmaq və məcbur olmamağa) aid edilmir.

**Altıncı:** Sahibi, ya ixtiyar sahibi olmalıdır, əgər şəxs malın sahibi və ya ixtiyar sahibi olmasa, o malı müamilədə satılan mal, yaxud verilən əvəz qərar versə, müamilədəki iki əvəzin külli və cüzi olması ilə əlaqədar olaraq xüsusi hökmlərə malikdir. Bu, növbəti məsələdə bəyan ediləcək.

**Məsələ-1578.** Əgər satılan mal külli olsa, məsələn, müştəri 10 kq düyü istəyir, lakin hansı olduğunu müəyyən etmir, satıcı da malı təhvil verən zaman başqasının malını verir. Bu müamilənin iki halı

var:
1. Əgər satıcı öz tərəfindən müamilə edibsə, müamilə səhihdir. Əgər başqasının malını müştəriyə veribsə, bu halda mal sahibi öz malını müamilənin hər iki tərəfdən (satıcı və müştəridən) tələb edə bilər. Amma gərək satıcı malı müəyyən edilmiş xüsusiyyətlərlə müştəriyə təhvil versin.

2. Əgər satıcı bu malı sahibi tərəfindən müştəriyə verirsə[1] və buna sahibi tərəfindən icazəsi yoxdursa, mal sahibi (sonradan da) icazə verməsə, müamilə batildir.

**Məsələ-1579.** Əgər satılan mal (külli deyil) cüzi olsa (yəni xaricdə müəyyən edilmiş malı satsa, bu kitab, maşın və bu ev kimi), bu zaman müamilənin səhih olması onun əsl sahibinin icazəsinə bağlıdır. Belə ki, əgər onun sahibi icazə versə, müamilə səhih olacaq.

**Məsələ-1580.** Müamilənin səhih olması onun sahibinin icazəsinə bağlı olduğu halda, əgər malı müştəridən almağa da ona icazə veribsə, bu halda müştəridən bir şey tələb etməyə haqqı yoxdur. Əgər buna icazə verməyibsə, onda malının əvəzini müştəridən tələb edə bilər. Başqa sözlə, əgər malın əsl sahibi müamiləyə razı olmaqdan əlavə malın pulunun da özbaşına müamilə etmiş şəxsə verilməsinə razılıq versə, mal sahibi müştəriyə "mənim malımın pulunu ver", - deyə bilməz. Amma təkcə əsl müamiləyə icazə verərsə, bu zaman malın pulunu müştəridən tələb edə bilər.

**Məsələ-1581.** Əgər kimsə başqasının malını onun icazəsi olmadan satıb pulunu öz ehtiyaclarına xərcləyərək bir müddətdən sonra onun əvəzini mal sahibinə qaytarmaq istəsə, gərək aşağıdakı tərtibə əməl etsin:
1. Əgər mal sahibi bu alverə icazə verdikdən sonra onun pulunu da almağa icazə versə, gərək satdığı malın müqabilində müştəridən

---

[1] Yəni həm müamiləni başqasının tərəfindən edir, həm də malı təhvil verən zaman onun tərəfindən təhvil verir. (Mütərcim)

aldığı məbləği qaytarsın, aradan gedibsə (məsələn, xərcləyibsə), onun misli, ya qiymətini ödəsin.

2. Əgər mal sahibi bu alveri inkar etsə: o zaman malın özünü sahibinə qaytarmaq mümkündürsə, gərək müştəri, yaxud mal əlində olan hər bir şəxs həmin malı sahibinə qaytarsın. Amma malı qaytarmaq mümkün deyilsə, gərək müştəri, yaxud mal əlində olan hər bir şəxs onun misli və ya qiymətini sahibinə ödəsin.

**Məsələ-1582.** Vacib ehtiyata əsasən, gərək inflyasiya da hesablansın. Məsələn, yuxarıdakı misalda malın sahibi alverdən iki il sonra xəbərdar olub icazə verərsə, bu halda özbaşına iş görmüş satıcı satdığı məbləğ qədərində qaytarmamalıdır, inflyasiyanı hesablamaqla razılığa gəlib mal sahibinə daha artıq məbləğ ödəməlidir.

**Məsələ-1583**. Çox vaxt satılan malın müqabilində ödənən mal (səmən) külli olur. Məsələn, satıcı yüz qram pendiri bir manata satırsa, belə deyil ki, müştəri, yaxud satıcı xüsusi bir manat pulu nəzərində tutsun, əksinə hər hansı bir manatlıq ödənərsə, kifayətdir. Eyni zamanda bəzən satılan mal külli deyil, cüzidir. Məsələn, müəyyən bir maşının müəyyən torpaq sahəsinin müqabilində satılması kimi.

**Məsələ-1584.** Əgər bir şəxs hansısa torpaq sahəsini başqasının malı ilə alsa, mal sahibi bu müamiləyə icazə verərsə, alver onun tərəfindən yerinə yetirilmiş olur və alıcının o yerdə heç bir haqqı yoxdur. Amma icazə verməzsə, müamilə batildir.

**Məsələ-1585.** Əgər bir şəxs müəyyən yerin pulunu öhdəsinə götürərək alsa, sonra onun pulunu başqasının malı ilə ödəsə, bu halda aldığı yer onun öz mülkü sayılır. Amma onun pulunu (hələ də) satıcıya borcludur və malını satıcıya verdiyi şəxsin malına görə zaminlik məsuliyyəti daşıyır. Satıcıya da müamilə zamanı torpaq sahəsinin qarşılığı olaraq aldığı şeyi əsl sahibinə qaytarması vacibdir.

**Məsələ-1586.** Satıcı və müştərinin müamilə etdiyi malların ixtiyar sahibi olduqlarında şəkk edilərsə,[1] müamilə səhihdir, çünki mal hal-hazırda onun əlindədir. Amma sonradan o malın oğurluq olması məlum olarsa, gərək sahibinə deyib öz vəzifəsini müəyyən etsin, icazə vermədiyi təqdirdə malı sahibinə qaytarsın. Aradan gedibsə, mislini, yaxud onun qiymətini versin. Məsələn, hansısa həmkarlıq şirkəti bir yeri üzvlərin arasında bölüb onun pulunu üzvlərdən alaraq "bu yeri filan şəxsdən almışam" deyir. Əgər qarşı tərəf şirkətin onun icazəsi olmadan bu işi gördüyünü iddia etsə, bu halda yer ixtiyarlarında olan şəxslər müamilənin şəri olmasını iddia etsələr və bunun əleyhinə bir dəlil də olmasa, o yerləri istifadə etməyin işkalı yoxdur.

**Məsələ-1587.** Mülkiyyət iddiası etmək mala sahib olmaq üçün kifayət etmir. Gərək iki adil şəxs şahid kimi məhkəmədə qəbul ediləsi dəlil gətirilsin, əks halda iddianın faydası yoxdur.

**Məsələ-1588.** Əgər bir şəxs satılan malın onun olduğunu, satış üçün onun icazəsinin lazım olduğunu iddia etsə, bu iddia məhkəmədə sübut edilməyincə təsirsizdir. Çünki mal, satan şəxsin ixtiyarında olub və bunu sübut etmək üçün iddia edən şəxs dəlil gətirməlidir.

**Məsələ-1589.** Mülkün rəsmi sənədinin kiminsə adına olması o şəxsin həmin mülkə sahib olmasına dəlil deyil. Buna əsasən, əgər bir şəxs hansısa mülkün rəsmi sənədini övladının adına yazdırsa, lakin hələ də atanın ixtiyarında olsa, belə olan halda övlad həddi-büluğa yetişdikdən sonra mülkün onun olub və atasının olmadığını iddia edə bilməz.

**Məsələn-1590.** Əgər bir mülk, ya mal şəriət hakimi, ya İslam dövləti tərəfindən əvvəlki sahibindən alınsa, yaxud əvvəldən onun sahibi olduğu məlum olmasa, həmin mülk və malı istifadə etməyin

[1] Məsələn, böyük ehtimal verir ki, bu mal oğurluq olsun.

caiz olmasının əvvəlki sahibi və ya digər iddiaçılar ilə heç bir əlaqəsi yoxdur. O yerdə məscid salmaq və namaz qılmaq caizdir.

## Malında istifadə haqqı olmayan şəxslərin malını istifadə etməkdə hüquqlu şəxslər

**Məsələ-1591.** Şiə fiqhində bir sıra şəxslərin öz mallarını istifadə etmək haqları yoxdur ki, bunlar fiqhi terminalogiyada "məhcur" adlanır. Bu şəxslər aşağıdakılardır:

1. Həddi-büluğa çatmamış uşaq (səğir)
2. Səfeh (malını bihudə və hədərə xərcləyən şəxs)
3. Dəli
4. Müflis (iqtisadi iflasa uğrayan şəxs).

**Məsələ-1592.** Malında istifadə haqqı olmayan (yəni yuxarıda qeyd olunan) şəxslərin malını istifadə etməkdə hüquqlu şəxslər aşağıdakılardır:

1. Həddi-büluğa çatmamış uşağın vəlisi: ata, ata babası (atanın atası), bunlar olmadığı təqdirdə bunların vəsiyyətiylə təyin edilən qəyyum. Qəyyum təyin edilmədikdə uşağın malının ixtiyar sahibi şəriət hakimidir. Bu da olmazsa, möminlərə aiddir və vacib ehtiyata əsasən, gərək adil olsun.

2. Səfehin vəlisi: əgər uşaqlıq vaxtından səfeh olub bu halla həddi-büluğa çatsa, onun hökmü həddi büluğa çatmamış uşağın hökmü kimidir. Amma həddi-büluğa çatdıqdan sonra səfeh olubsa, şəriət hakimi onun vəlisidir.

3. Dəlinin vəlisi: əgər həddi-büluğdan öncə dəli olubsa, onun hökmü həddi-büluğa çatmamış uşağın hökmü kimidir. Amma həddi-büluğdan sonra dəli olubsa, onun ixtiyar sahibi şəriət hakimidir, lakin ehtiyata əsasən ata, ya ata babası da razılıq verməlidirlər.

4. Müflisin vəlisi: fiqhi kitablarda geniş surətdə bəyan edilmiş şərtlərlə şəriət hakimi onun vəlisidir.

**Məsələ-1593.** Səğirin (həddi-büluğa çatmamış uşağın) malını istifadə etməyin forması aşağıdakı kimidir:

1. Ata və ata babası: Onların istifadəsinin uşaq üçün heç bir fəsadı (və zərəri) olmamalıdır. Hərçənd müstəhəb ehtiyat budur ki, uşağın xeyir və mənafeyi də nəzərə alınsın.

2. Qəyyum: Onun istifadəsində uşağın xeyiri nəzərə alınmalıdır.

3. Şəriət hakimi: Onun istifadəsində uşağın xeyiri nəzərə alınmalıdır. Hərçənd ehtiyat budur ki, o uşağın malını yalnız sərf etməyəcəyi təqdirdə uşağa ziyan dəyəcək hallarda sərf etməklə kifayətlənməlidir.

**Məsələ-1594.** Vəli və şəri qəyyum tərəfindən həddi-büluğa çatmamış uşağın malını işlətmək caiz istifadə olarsa, düzdür (yəni onunla alver və s. kimi müqavilələr edilsə, səhihdir). Əks halda haram və batildir, hakim onun qarşısını ala bilər.

**Məsələ-1595.** Vəli və şəri qəyyumdan başqaları tərəfindən həddi-büluğa çatmamiş uşağın malını işlətmək, vəli və şəri qəyyumun icazəsiylə və caiz istifadə olarsa, düzdür (yəni onunla alver və s. kimi müqavilələr edilsə, səhihdir), amma haram istifadə olarsa, haram və batildir. Hakim bundan xəbərdar olduqda onun qarşısını almalıdır. İstifadə caiz olduqda, lakin vəli və şəri qəyyumun icazəsiylə olmadığı halda, bu iş haramdır. Amma sonradan vəli və şəri qəyyum, yaxud həddi-büluğa çatmış və məhcur olmayan uşağın[1] icazəsi olarsa, əvvəlki müamilələr səhihdir. Uşağın xeyir və mənafeyi riayət edilmədikdə bu işlər haram və batildir.

**Məsələ-1596.** Uşaqların qəyyumu olması (yəni onların malına ixtiyar sahibi olmaq), mallarını vəliyə təslim etmək və onları həddi-büluğadək öz mallarından məhrum etmək deyil. Əksinə, vəlinin onların mallarına nəzarət etməsinin lazım olması və onların malını

---

[1] Yəni uşaq həddi-büluğa çatmamışdan qabaq onun malı istifadə edilib və həddi-büluğa çatdıqdan sonra keçmiş müamiləyə razı olub. (Mütərcim)

qorumaqda məsuliyyət daşıması deməkdir. Onların malını da işlətmək vəlinin icazəsinə bağlıdır. Vəliyə də vacibdir ki, səğirin malından ehtiyac qədərində və onların şənlərinə uyğun olaraq işlətsin.

**Məsələ-1597.** Həddi-büluğa yetişməyən uşağın malı ilə uşaq üçün qazanc əldə etmək vəli və qəyyumun vəzifəsi deyil. Amma belə etsələr, malın bütün qazancı uşağındır, onlar yalnız zəhmət haqqı götürə bilərlər.

**Məsələ-1598.** Həddi-büluğa çatmamış uşağın malını baxımsız qoyub zay etməyə vəli və qəyyumun haqqı yoxdur.

**Məsələ-1599.** Səğir üçün mal əldə etmək vəli, yaxud qəyyumun öhdəsinə deyil. Amma gərək onların mallarını qorusunlar və həmin malı işlətmək uşağın xeyrinə olsun, yaxud zərərinə olmasın (izah etdiyimiz kimi).

**Məsələ-1600.** Ədalət, uşağın ata və ata babasının ona vəliliyinin şərti deyil. Amma əgər şəriət hakiminə hətta müəyyən yollar və nişanələrlə ata, ya ata babasının uşağın zərər görməsinə səbəb olacağı məlum olsa, gərək onları vəli olmaqdan xaric edib uşağın malını işlətmələrinin qarşısını alsın. Həmçinin əgər şəriət hakiminə şəri qəyyumun uşağa qəyyumluğunun davam etməsi, uşağın zərərinə olması məlum olsa, onu bu işdən məhrum etmək şəriət hakiminə vacibdir.

**Məsələ-1601.** Uşağın ata, ya ata babası olmadıqda uşaq üçün şəri qəyyum təyin etməklə əlaqədar Qəyyumlar idarəsinə müraciət etmək lazımdır. Ana, yaxud başqaları bu işi görə bilməz.

**Məsələ-1602.** Həddi-büluğa yetişməmiş uşağın vəlisi, ya şəri qəyyumu uşağın xeyrinə uyğun olaraq onun malı ilə müamilə edərsə, yaxud onu işlədərsə, uşaq həddi-büluğa çatdıqdan sonra onu inkar etməyə (qaytarmağa) haqqı yoxdur.

**Məsələ-1603.** Vəli, ya şəri qəyyumu olmayan şəxslərin səğirin mallarından heç cür istifadə etmək haqları yoxdur. Yalnız vəli, ya şəri qəyyumun izni ilə və uşağın faydasına uyğun olmaqla onun malını

işlədə bilərlər. Təsəvvür edin, bir kişi şəhid xanımı ilə evlənir, şəhid idarələrinin onlara verdiyi yardımlar kimi şəhid uşaqlarının malından o kişinin istifadəsi istər uşaqlara aid olan xərclər olsun, istərsə də başqalarının istifadəsinə aid olsun, hətta bu istifadədə uşaqların xeyir və mənafeyi nəzərə alınsa belə, uşaqların şəri vəlisinin izni ilə olmalıdır.

**Məsələ-1604**. Həddi-büluğa çatmamış uşaqlara verilən hədiyyələr şəri baxımdan o zaman uşağın malı sayılır ki, onun vəlisi, ya şəri qəyyumu bu hədiyyələri uşaq üçün qəbul etsin. Buna əsasən, başqalarının da o malı işlətməsi vəli, ya qəyyumun izni ilə olmalıdır.

**Məsələ-1605.** Səğirin malını atasının yas mərasimində işlətmək, hətta bu mal irs olsa belə, haramdır. Amma o malı işlətmək uşağın xeyrinə olarsa (məsələn, uşağın abrının qorunması ona bağlı olarsa), bu zaman işlətmək olar.

**Məsələ-1606.** Səğir uşağın atasının qatilindən qanpulu almayıb güzəşt etmək və ya sığorta idarəsindən onun qanpulunu almamaq haramdır. Daha üstün məsləhət bunu tələb edərsə, bu yer müstəsnadır.

**Məsələ-1607.** Bəzən uşağın faydası onun malı ilə ticarət etmək, bəzən də ticarət etməməkdədir.

**Məsələ-1608.** Səğirin malının vəlisi olmaq, hizanət[1] və uşağı saxlamaq haqqından fərqlidir. Məsələn, mümkündür uşağın hizanət haqqı ana ilə olsun, amma onun vəlisi babası, yaxud başqası olsun.

## Alverin növləri

**Məsələ-1609.** Alver səmən[2] və müsmənin[3] təhvil verilməsi zamanı baxımından aşağıdakı qisimlərə bölünür:

---

[1] Uşağı saxlamaq və tərbiyə etmək hüququ. (Mütərcim)
[2] Alverdə malın müqabilində verilən əvəz "səmən" adlanır. (Mütərcim)
[3] Alverdə satılan mal "müsmən" adlanır. (Mütərcim)

1. Nağd: nağd o müamilədir ki, alverdən sonra hər iki tərəfin malı və əvəzi almaq haqqı var.

2. Nisyə: nisyə o müamilədir ki, alıcı malı tələb edə bilər, amma onun əvəzi (məsələn, pul) üçün müddət təyin edilib.

3. Sələf (qabaqcadan almaq): bu müamilədə müştəri gərək malın müqabilindəki əvəzi təhvil verib müəyyən müddətdən sonra malı təhvil alsın. Məsələn, müştəri deyir: "Mən bu pulu verirəm ki, altı aydan sonra filan malı səndən təhvil alım". Bu müamilə nisyə alverin tam əksidir.

4. Sərf: qızılı qızıl, yaxud gümüş müqabilində və ya gümüşü gümüş, yaxud qızıl müqabilində mübadilə etmək "sərf" mübadiləsi adlanır. Bu müamilədə gərək cins və onun əvəzi alver məclisində alış-veriş (təhvil-təslim) edilsin.

5. Nisyə nisyəyə: Bu müamilədə həm səmən, həm müsmən nisyə olur və mövcud olmur.

## Nağd və nisyə alver

**Məsələ-1610.** Əgər alverdə səmənin müamilə zamanından müəyyən müddət keçdikdən sonra təhvil verilməsi şərt olmazsa, gərək səmən nağd olaraq ödənilsin. Buna əsasən, satıcı malı təhvil verdikdən sonra səməni tələb edə bilər. Amma səməni ödəmək üçün müəyyən müddət təyin edilibsə, müştərinin hətta satıcı bunu tələb etsə belə, təyin edilmiş müddətdən qabaq səməni ödəməsi lazım deyil.

**Məsələ-1611.** Əgər müştəri səməni müəyyən edilmiş müddətdə təhvil versə, satıcının təhvil almamaq haqqı yoxdur. Amma müəyyən edilmiş müddətdən qabaq təhvil verərsə, satıcının onu təhvil almamaq haqqı var.

**Məsələ-1612.** Əgər müştəri səməni müəyyən edilmiş müddətdə təhvil verməsə, müamilə əsasında əqdi pozmaq şərti olunmayıbsa, satıcının alveri pozmaq haqqı yoxdur.

**Məsələ-1613.** Nisyə müamilədə təyin edilmiş müddət gərək kamil surətdə məlum edilsin, çoxalmaq və azalmaq ehtimalına yer qalmasın. Məsələn, əgər "Həsən səfərdən gələn zaman pulu verəcəm", - desə, müamilə batildir. Çünki Həsənin səfərdən gəlmək vaxtı məlum deyil.

**Məsələ-1614.** Müamilələrdə belə etmək olmaz ki, müştəriyə deyək: "Sən malın pulunu gec təhvil verə bilərsən, bu şərtlə ki, qiymətindən artıq ödəyəsən", çünki bu iş riba və haramdır. Amma əksinə işkalı yoxdur. Belə ki, satıcı və müştəri arasında belə bir razılaşma olsa ki, müştəri səməni təyin olunmuş zamandan tez təhvil versə, satıcı ondan malın qiymətinin bir miqdarını almasın, başqa sözlə müştəriyə səmənin təyin olunmuş miqdarından az ödəməsi lazım olsun (Həqiqətdə səmənin bağışlanan miqdarı sülh, ya güzəşt sayılır). Təsəvvür edin, Əli Həsəndən bir avtomobil alıb və onun müqabilində məbləği səkkiz milyon olan bir illik çek verib.[1] Əgər sonradan Həsən Əli ilə ondan yeddi milyon alıb səkkiz milyonluq çeki vaxtından qabaq ona qaytarması barədə razılığa gəlsə, bunun işkalı yoxdur.

**Diqqət:** Yuxarıdakı misalda çekin müqabilində onun məbləğindən az ödəmək üçün müştərinin çekini yalnız onun özünə qaytarmaq lazımdır. Amma üçüncü şəxs barədə bu işi görmək olmaz. Yaxud təsəvvür edin, Əli Həsəndən bir avtomobil alıb və onun müqabilində məbləği səkkiz milyon olan bir illik çek verib. Əgər müəyyən edilmiş tarixdə çeki nağd pula çevirmək mümkün deyilsə[2] və Əlinin hesabındakı pul ondan azdırsa, Əli Həsəndən bu yubatmanın cəriməsini ala bilməz.

**Məsələ-1615.** Əgər bir şəxs malı nisyə alıb onu satıcının özünə nağd satsa, bunun işkalı yoxdur. Amma müamilə arasında malı o şərtlə nisyə alıb qarşı tərəfin nəyisə ondan nağd almasını şərt etsə, bu caiz deyil. Qeyd edək ki, əgər bu müamilə həqiqi olmayıb borc

---

[1] Belə ki, bir il ötdükdən sonra Həsən Əlinin bank hesabına müraciət edərək o çeki nağd edəcək. (Mütərcim)

[2] Məsələn, həmin tarixdə Əlinin bank hesabında pul yoxdursa. (Mütərcim)

ribasından uzaqlaşmaq məqsədi ilə olarsa, müamilə haram və batildir.

## Sərf müamiləsi

**Məsələ-1616.** Qızılı qızıl, yaxud gümüş müqabilində və ya əksinə gümüşü gümüş, yaxud qızıl müqabilində mübadilə etmək sərf alveri adlanır.

## Sərf alverinin səhih olmasının şərtləri

**Məsələ-1617.** Sərf alverinin səhih olmasının iki şərti var:

1. Riba olmasın: yəni əgər qızıl müqabilində qızıl və ya gümüş müqabilində gümüş satılırsa, gərək səmən və müsmənin çəkisi bərabər olsun. Amma qızıl gümüş müqabilində müamilə edilirsə, çəkilərin fərqli olmasının işkalı yoxdur.

2. Əqdin bağlandığı məclisdə gərək səmən və müsmən təhvil verilib-alınsın. Sərf alverinin səhih olmasında (nəinki sülh kimi digər müamilələrdə) gərək hər iki tərəf ayrılmazdan qabaq qızıl və ya gümüşü müqabil tərəfə təhvil versin. Məsələn, Əli Həsənə bir miqdar qızıl borcludur. Həsən öz alacağını gümüş müqabilində Əliyə satırsa və gümüşləri (alver məclisindən ayrılmadan öncə) təhvil alırsa, bunun işkalı yoxdur. Çünki alver məclisində şərt olan təhvil-təslim hasil olur (Beləliklə, Həsən öz tələbini gümüş müqabilində öz borclusuna satır).

**Məsələ-1618.** Əgər qızıl, ya gümüş başqa əşya ilə birlikdə mübadilə edilərsə, qızıl, ya gümüşün hamısı məclisdən ayrılandan qabaq təhvil-təslim edilməzsə, alver təhvil-təslim edilməyən miqdarda batildir. Məsələn, əgər 100 qram qızılla iyirmi qram almaz, iki yüz qram gümüşlə yüz qram əqiq müqabilində müamilə edilərsə, amma yüz qram qızılla iki yüz qram gümüşün hamısı təhvil-təslim edilməzsə, qızıl və gümüşün müamiləsi batildir.

**Məsələ-1619.** Əgər sərf alverində satılmış qızıl və gümüşün sonradan qızıl və gümüş olmadığı məlum olsa, müamilə batildir. Məsələn, yüz qram qızıl iki yüz qram gümüş müqabilində satılsa və məclisdən ayrıldıqdan sonra iki yüz qram gümüş adına verilmiş filizin gümüş deyil, bürünc olması məlum olsa, alver batildir.

**Məsələ-1620.** Əgər sərf alverindən sonra satılmış qızıl, yaxud gümüşün bir qisminin qızıl, yaxud gümüş olmadığı məlum olsa, qızıl, yaxud gümüş olmayan hissəyə nisbət müamilə batildir, amma qalan hissələrə nisbət müqabil tərəfin fəsx etmək (müamiləni pozmaq) haqqı var. Məsələn, əgər yüz qram qızıl iki yüz qram gümüş müqabilində mübadilə edilsə, iki tərəf malları təhvil verib ayrıldıqdan sonra qızılın on qramının mis olması məlum olsa, müamilə 90 qram qızıla nisbət səhihdir (yəni 90 qram qızıl 180 qram gümüş müqabilində), amma müştəri bu alveri poza bilər.

## Sələf müamiləsinin hökmləri

**Məsələ-1621.** Sələf müamiləsi külli bir şeyin müddətli şəkildə nağd səmən müqabilində mübadilə edilməsindən ibarətdir (nisyənin əksi).

**Məsələ-1622.** Sələf müamiləsinin altı şərti var:

**Birinci şərt:** Sələf alverində gərək satılan cins və onun vəsfi müəyyən edilsin. Belə ki, xüsusiyyətləri bəyan edilməklə qaranlıq bir şey qalmasın (Məsələn, əla növ şimal düyüsünün qeydləri və vəsfləri kimi).

**İkinci şərt:** Mütləq əqd məclisində səmən təhvil verilməlidir. Əgər səmənin bir hissəsi təhvil verilməsə, təhvil verilməyən hissənin müqabilində olan müamilə batildir. Məsələn, əgər bir ton əla növ Sədri düyüsü iki milyon tümən müqabilin də sələf şəklində satılıb əqd məclisində bir milyon tümən ödənilsə, bu halda yarım ton düyünün müamiləsi batildir. Yəni müştəri satıcıdan yalnız yarım ton düyünü tələb edə bilər. (Bu halda, yəni səmənin bir hissəsi ödənilən təqdirdə) satıcı müamilənin səhih qismini də poza bilər. Yuxarıdakı

misalda satıcı "əqdi pozdum" deyərək yarım ton düyünü də müştəriyə verməyə bilər, amma gərək aldığı bir milyon tüməni geri qaytarsın. Həmçinin səmən müştərinin satıcıdan əvvəldən olan və indi vaxtı yetişən tələbi də ola bilər. Məsələn, müştəri satıcıya iki milyon tümən vermək əvəzinə, əvvəldən ən azı iki milyon tümən məbləğində satıcının boynunda olan verəcəyini səmən kimi nəzərə almaqla da bu müamiləni edə bilər.

**Üçüncü şərt:** Əgər satılan mal çəki, ölçü və ya say ilə hesablanan şeylərdəndirsə, onun miqdarı da həmin qayda ilə - çəki, ölçü və ya say ilə müəyyən edilməlidir. Məsələn, əgər sələf alverində alınan mal düyüdürsə, gərək məlum edilsin ki, neçə kiloqram olmalıdır. Çünki düyünün ölçü vahidi çəkidir.

**Dördüncü şərt:** Malın təhvilverilmə zamanı gərək tam müəyyən edilsin.

**Beşinci şərt:** Ehtiyata əsasən, malın təhvil veriləcəyi şəhər məlum edilməlidir. Amma o şəhər qeyd edilmədən məlum olarsa, bu zaman qeyd etmək lazım deyil.

**Altıncı şərt:** Təhvil vermək üçün müəyyən edilmiş zamanda malı təhvil vermək adətən mümkün olmalıdır.

**Məsələ-1623.** Sələf müamiləsilə alınmış malın təhvilverilmə vaxtı çatmadan o malı satmaq olmaz və müamiləsi batildir. Amma təhvilvermə zamanı yetişdikdən sonra alıcı o malı başqasına satarsa, hətta birinci müştəri o malı satıcıdan hələ təhvil almasa belə, bu müamilə səhihdir.

**Məsələ-1624.** Müştərinin tək vəzifəsi odur ki, malı tərəflər arasında vəsf edilmiş şəkildə təhvil alsın. Əlbəttə, əgər satıcının ona təhvil vermək istədiyi cins o alverdə satılan malın nümunəsi olarsa və qərara alınmış xüsusiyyətlərdən daha artıq xüsusiyyətə malik olarsa, müştərinin o cinsi qəbul etməsi lazımdır.

Məsələn, müştəri sələf müamiləsində bir ton əla növ düyü müqaviləsini bağlayıb. Satıcı ona aşağı növlü düyü, yaxud qeyd edilən çəkidən az və ya çox təhvil verərsə, müştərinin onu qəbul etməmək

haqqı var. Amma müştəriyə müqavilədə qeyd olunmuş düyüdən daha da əla növünü təhvil verərsə, gərək onu qəbul etsin.

**Məsələ-1625.** Əgər cinsi təhvil vermək zamanı yetişsə, lakin satıcı (yoxsulluq, yaxud malın olmaması üzündən) onu təhvil verməyə aciz olsa, müştəri alveri poza bilər.

## Şüfə haqqı

**Məsələ-1626.** Əgər iki şərikdən biri öz səhmini üçüncü şəxsə satsa, o biri şərik xüsusi şərtlər çərçivəsində o səhmi müştəridən ala bilər. Belə ki, müştərinin satıcıya səmən adı ilə verdiyi məbləği ona ödəyib səhmi özünə götürə bilər və müştərinin imtina etmək haqqı yoxdur. Şərikin bu haqqı "şüfə haqqı", haqq sahibi "şəfi" adlanır.

## Şüfə haqqının şərtləri

**Məsələ-1627.** Şəfi (şərik) üçün şüfə haqqının olmasının bir neçə şərti var:

**Birinci şərt:** Şərikli mal daşınan mal olmasın, ağac və yer kimi olsun, lakin bölünmək imkanı olsun. Buna əsasən, əgər paltar və heyvan kimi daşınan mal olarsa, yaxud daşınmaz mal olsa da, ağac, arx və dar yollar kimi bölünmək imkanına malik olmazsa, ehtiyata əsasən, gərək bu iş müştərinin və şərikin razılaşması yolu ilə həll edilsin. Yəni həm müştəri razılıq versin ki, ona satılmış mal şərikə qaytarılıb verilən səmən geri alınsın, həm də şərik müştərinin razılığını qazansın.

**İkinci şərt:** Şüfə haqqı müşa[1] səhmli şərikliyə aiddir. Buna əsasən, şəriklərin hər birinin səhmi ayrıldıqda və şərikin biri öz səhmini satdıqda, o biri şərikin şüfə haqqı yoxdur. Qeyd edək ki, bu məsələ mənzil barədə müstəsnadır. Belə ki, əgər iki şərik bir evə müşarikət

[1] Müşa şəriklərin səhmi müəyyən olan, lakin səhmi hələ bölünməmiş şərikliyə deyilir. (Mütərcim)

şəklində şərik olub sonradan səhmlərini ayırsalar, sonradan şəriklərdən biri öz səhmini üçüncü şəxsə satarsa, o biri şərikin şüfə haqqı var.

Həmçinin əgər əvvəldən hər birinin bu evdəki səhmi müəyyən olsa, lakin evin yolu müştərək olsa, bu halda onlardan biri öz səhmini müştərək yoldakı səhmi ilə birlikdə üçüncü şəxsə satsa, o biri şərikin şüfə haqqı var. Amma yolu satmadıqda şərikin şüfə haqqı yoxdur.

**Üçüncü şərt:** Şəriklərin hər biri şəri baxımdan malın sahibi, yaxud onun ixtiyar sahibi olmalıdır (hətta şüfə haqqını icra etməkdə olsa belə). Buna əsasən, mal sahibinin vəkili, yaxud ata və atanın atası kimi şəri vəli də səğir üçün mülkün alğı-satqısında şüfə haqqını icra edə bilər.[1] Hətta bəzi yerlərdə bu iş vacibdir. Məsələn, əgər səğirin vəlisi uşağın xeyrini şüfə haqqını istifadə və icra etməkdə görərsə, vacibdir bu haqqı tətbiq etsin. Təsəvvür edin ki, bir yer iki nəfər (səkkiz yaşlı oğlan və onun 25 yaşlı qardaşı) arasında müştərəkdir. Böyük qardaş öz səhmini Xosrov adlı bir şəxsə satır. Xosrov ziyankar bir şəxsdir və səkkiz yaşlı uşağın da səhmini zay edəcək. Bu zaman gərək uşağın atası uşağın şüfə haqqından istifadə edərək o yeri Xosrovdan alıb onun pulunu qaytarsın.

**Dördüncü şərt:** Səhmin (üçüncü şəxsin mülkiyyətinə) keçməsi alverlə (satışla) olmalıdır, hədiyyə kimi digər müamilələrlə yox. Məsələn, əgər bir mülkü, yaxud vəqf edilmiş yeri icarə etsə, sonra onlardan biri öz səhmini sülh yolu, ya icarə ilə üçüncü şəxsə verərsə, o biri müstəcirin şüfə haqqı yoxdur.

**Beşinci şərt:** Şəriklər iki nəfərdən artıq olmamalıdır.

**Altıncı şərt:** Şəfi (yəni müştəridən müşa səhmi almaq istəyən şəxs və satıcının şəriki) səməni ödəməyə qadir olmalıdır. Amma müştəri səbr etməyə razı olduqda isə bu şərt lazım deyil.

**Yeddinci şərt:** Şəfi müşa səhmi alan zaman müştəriyə verəcək səmən də onun yanında olmalıdır. Buna əsasən, həmin zaman

---

[1] Bu şərtlə ki, mülkün sahibi hüquqlarını, o cümlədən şüfə haqqını da vəkilə tapşırmış olsun.

yanında pul (səmən) olmadığını üzr gətirsə, əgər həmin şəhərdə pulu varsa, üç gün fürsəti var ki, pulu çatdırsın. Əgər pulu başqa şəhərdədirsə, üç gündən əlavə onu gətirib çıxarmaq üçün lazım olan müddət də nəzərə alınır. Əgər səməni lazımi müddətdə çatdıra bilməsə, artıq şüfə haqqı yoxdur.

**Səkkizinci şərt:** Müştəri müsəlman olduqda şəfi də müsəlman olmalıdır.

**Doqquzuncu şərt:** Şəfi malın müştəriyə satıldığına xəbərdar olduğu vaxtdan hətta əgər alverin üstündən uzun müddət keçsə belə, şüfə haqqı qazanır. Buna əsasən, şəfi xəbərdar olandan sonra heç bir dəlil olmadan şüfə haqqını tətbiq etməkdə yubanmamalıdır. Məsələn, əgər bu gün xəbərdar oldusa, həmin gündən haqqı var və gərək o vaxt həmin haqqı tətbiq edib üzrsüz sabaha saxlamasın. Səfərdə olmaq, yaxud müştəriyə əli çatmamaq kimi üzrlü olduqda isə haqqı yerindədir.

**Onuncu şərt:** Şəfi səfeh də ola bilər, baxmayaraq ki, malında istifadə haqqı olmadığı yerlərdə vəlisinin izninə ehtiyac var. Həmçinin səğir və dəli də ola bilər. Amma malı almaqda hüquqlu şəxs, başqa sözlə onların vəlisi ata və babadan başqası olduqda, onların xeyrinə riayət etməlidir. Amma ata və baba olduqda, fəsad və zərərin olmamasına riayət etmələri kifayətdir.

**On birinci şərt:** Səhmini satan şərik şəfinin şəri vəlisi olmamalıdır. Məsələn, əgər səğir uşağın atası uşağı ilə şərik olduğu yerin özünəməxsus səhmini satarsa, şəfinin[1] vəlisi kimi şüfə haqqı tətbiq edə bilməz. Həmçinin əgər şərik o biri şərikin mütləq şəkildə vəkili olsa, öz müvəkkili üçün şüfə haqqını tətbiq edə bilməz.

**Məsələ-1628.** Şüfə haqqında təbiz (yəni yalnız bəzi hissədə bu haqqı tətbiq etmək) yoxdur. Yəni ya şərikin səhmini bütövlükdə alır, ya hamısına göz yumur.

[1] Şəfi burada səğir uşaqdır.

## Şüfə haqqı aradan gedən yerlər

**Məsələ-1629.** Şüfə haqqının aradan gedən yerləri aşağıdakılardan ibarətdir:

1. Şəriklə müştərinin müamiləsi hər hansı səbəbə görə aradan gedərsə;

2. Şəfi öz haqqından keçərsə, məsələn, "haqqımdan keçdim" deyərsə;

3. Müxtəlif əlamət və zahiri hallardan şəfinin müamilədən öncə bu müamiləyə razı olması məlum olması;

4. Satıcının müşa səhmi şüfə haqqı tətbiqindən qabaq bütövlükdə aradan gedərsə;

5. Şəfi şüfə haqqını tətbiq etmədən öncə öz səhmini satsa;

6. Müşa səhminin satılması şərikə təklif edildikdə və o qəbul etmədikdə.

**Məsələ-1630.** Əgər şərik öz şüfə haqqından istifadə edəndən qabaq müştəri o səhmi istifadə edib başqasına satsa, şəfi öz şüfə haqqını tətbiq etməklə malı birinci müştəridən geri ala bilər. Bu zaman ikinci müamilə batil olur. Əgər ikinci müştəridən alsa, ikinci müamilə də səhihdir. Məsələn, əgər Əli Hüseynin şəriki Həsəndən ona məxsus olan müşa səhmli yeri alsa, Hüseyn bundan xəbərdar olandan qabaq, yaxud onu qaytarmaq fürsəti əldə etməzdən öncə Əli o səhmi başqasına satsa, Hüseynin haqqı var ki, o səhmi (ikinci) müştəridən geri alsın. Bu zaman Əli həmin yerə görə ondan pul alıbsa, qaytarmalıdır.

**Məsələ-1631.** Şəfi müamilənin səmən və qiymətini bilməlidir. Əgər müştəriyə: Hər hansı qiymətə almısansa, mənə qaytar" - desə, belə bir şüfə haqqı tətbiq etmək batildir və yenidən səhih şəkildə bu haqqı tətbiq etməyə ehtiyac var.

**Məsələ-1632.** Şüfə haqqı irs aparıla bilir. Buna əsasən, əgər varislərin hamısı şüfə haqqını tətbiq etsələr, satılmış malda irs səhmləri nisbətində haqları olacaq.

Əgər hamısı deyil, bəziləri bu haqqı tətbiq edərsə, vacib ehtiyata əsasən, gərək müştəri və şüfə haqqı tətbiq edən varislər arasında sülh və razılaşma olsun. Belə ki, həm müştərinin razılığı əldə edilsin, həm də müştəri varisləri razı salsın.

## İxtiyarlar (əqdpozma ixtiyarları)

**Məsələ-1633.** Müamiləni pozmaq haqqı (fiqhi terminalogiyada) "ixtiyar", ya "fəsx ixtiyarı" adlanır. Qeyd edək ki, bəzi yerdə yalnız qiymət fərqi almaq haqqı mövcuddur. Bəzən də hər iki haqq yerindədir ki, "eyb" ixtiyarında bəyan ediləcək.

**Məsələ-1634.** İxtiyarlar aşağıdakılardan ibarətdir:

1. Məclis ixtiyarı
2. Ğəbn ixtiyarı
3. Şərt ixtiyarı
4. Tədlis ixtiyarı
5. Təxəllüfi-şərt ixtiyarı
6. Eyib ixtiyarı
7. Şirkət ixtiyarı
8. Röyət ixtiyarı
9. Təxir ixtiyarı
10. Heyvan ixtiyarı
11. Təəzzüri-təslim ixtiyarı

### 1. Məclis ixtiyarı

**Məsələ-1635.** İki tərəf müamilə məclisindən ayrıldıqları zamanadək müamiləni poza bilər. Məsələn, bir şəxs bir binanı alıb satıcıya beh də verib. Satıcı üç saatdan sonra müamiləni fəsx etmək (pozmaq) qərarına gəlir və binanı təhvil vermək istəmir. Əgər məclisdən ayrıldıqdan sonra fəsx edərsə, başqa ixtiyarlar da arada olmazsa, bu fəsxin heç bir təsiri yoxdur. Əgər müamilə məclisindən ayrıldıqdan qabaq fəsx edərsə, fəsx səhihdir.

**Məsələ-1636.** Alver səhihlik şərtlərinə malik olduqdan sonra (satıcıya) beh verilib-verilməməsinin məclis ixtiyarında heç bir təsiri

yoxdur. Müamilə bağlandıqdan sonra tərəflər məclisdən ayrılana-dək, hətta aralarında alıb vermək də olsa, məclis ixtiyarı yerindədir.

## 2. Ğəbn ixtiyarı

**Məsələ-1637.** Satıcı, ya alıcı müamilədə aldanarsa, yəni müştəri cinsin həqiqi qiymətindən artıq ödəyibsə, yaxud satıcı həqiqi qiymətdən aşağı satarsa, bu halda "ğəbn" ixtiyarı mövcuddur. Yəni aldanmış şəxsin müamiləni pozmaq haqqı var.

**Məsələ-1638.** Qiymətin fərqli olması bəzən xalq arasında güzəşt olunur. Buna əsasən, ğəbn ixtiyarı da yoxdur. Amma qiymət fərqi camaat baxımından güzəşt ediləsi miqdarda olmazsa, belə ki, xalq arasında etina ediləsi bir fərq olarsa, bu halda müqabil tərəfin xəbərsiz olmağına və aldanmağına görə ğəbn ixtiyarı mövcuddur.

**Məsələ-1639.** Ğəbn ixtiyarında meyar müamilə zamanının qiy-mətidir. Belə ki, əgər müştəri cinsin qiymətini təxirlə ödəsə və cinsin qiyməti müamilə zamanının qiymətinə nisbətən bahalaşsa, bu, satıcının ğəbn ixtiyarı haqqına səbəb olmur. Ğəbn ixtiyarında meyar müamilə günü aldanmaq və zərər etməkdir. Qeyd edək ki, müştəri pulu inflyasiya yaranan zaman ödəsə, gərək inflyasiya üzündən olan artımı sülh etsin və satıcının razılığı ilə ödəsin.

**Məsələ-1640.** Ğəbn ixtiyarında gərək şəxsin aldanmağı sübuta yetsin. Təkcə aldanmaq və zərər çəkmək iddiası etmək kifayət etmir. Məsələn, bir yer müəyyən məbləğə satılıb və satıcı bu müamilədə aldanmasını iddia edir. Nə qədər ki, (xalq arasında etina ediləsi qədər) satış zamanı qiymətindən aşağı satılması sübut edilməyib, ğəbn ixtiyarı yoxdur.

**Məsələ-1641.** Ğəbn ixtiyarında aldanan şəxs hətta qeyri-müsəl-man olsa belə, yenə də ixtiyar haqqı mövcuddur.

**Məsələ-1642.** Satıcı, ya alıcı aldadılmış olduğuna xatircəm olduğu təqdirdə müqabil tərəf onun sözünü qəbul edərsə, iddia edən şəxs müamiləni poza bilər. Amma müamiləni pozmadan qiymət fərqini

ala bilməz. Deməli, ya müamiləyə razılaşmalı, ya pozmalıdır. Qeyd edək ki, hər iki tərəf qiymət fərqini ödəməyə razılaşarsa, bu zaman caizdir. Müqabil tərəf onun sözünü qəbul etməzsə, o biri tərəf şəriət hakiminə müraciət etməlidir.

**Məsələ-1643.** Ğəbn ixtiyarında təbiz caiz deyil, yəni ya müamiləni bütövlükdə qəbul etməli, ya bütövlükdə pozmalıdır. Məsələn, Vahid Xosrova ev satıb. Səmən və müsmən təhvil-təslim edildikdən sonra alıcı ğəbn (aldanmaq) iddiası edərək müamiləni fəsx edir. Amma müxtəlif səbəblərə görə evi boşaltmır və pulunu da almır. İki ildən sonra müamilədə evin yarı hissəsində fəsx etdiyini (yəni müamilənin yarısını pozduğunu) iddia edərək pulun yarısını tələb edir. Onun bu iddiası qəbul edilmir, çünki əgər müamiləni pozubsa, evin sahibi deyil və bu iki ildə evdən istifadə etmək haqqı olmayıb (əgər aldanmağı sübuta yetərsə). Əgər müamilənin yarısını fəsx edibsə, bu fəsxin heç bir təsiri və pulun yarısını almaq haqqı yoxdur.

**Məsələ-1644.** Aldanmış şəxsin müqabil tərəfə yalnız müraciət etməsiylə müamilə pozulmur. Gərək müraciət edərək desin: "Mən müamiləni fəsx etdim", ya bu mənanı çatdıran hər hansı bir cümləni deməlidir. Qeyd edək ki, bu cümləni müqabil tərəfin yanında deməsi şərt deyil. Hətta tək olduğu və heç bir şəxsin olmadığı halda da deməsi kifayətdir.

**Məsələ-1645.** Aldanmış şəxs müamiləni pozduqdan sonra daha o mala sahib olmayacaq və malı müqabil tərəfə qaytarması vacibdir. Məsələn, bir evi alan şəxs bir həftədən sonra aldanmağını bilib müamiləni pozmaq üçün satıcıya müraciət edir, amma satıcı razılaşmır. Evin qiyməti qalxır, satıcı istəyir ki, alıcı müamiləni fəsx etsin. Alıcı ondan artıq məbləğ almaq şərtiylə müamiləni fəsx etməyə razılığını bildirir. Alıcı müamiləni həqiqətən fəsx etdiyi üçün[1] o malın sahibi deyil. Buna görə də artıq pul almaq haqqı yoxdur. Fəsx

[1] Çünki alıcı qabaqcadan satıcıya müraciət edərək müamiləni fəsx edib, baxmayaraq ki, satıcı onunla razılaşmayıb. (Mütərcim)

etdiyi gündən iki tərəf hansı müddətdə bir-birinin malını istifadə ediblərsə, buna zamindirlər.

**Məsələ-1646.** Əgər aldanan tərəf aldanmağını bildikdən sonra əqdi pozmaq haqqından istifadə etməsə, belə bir haqqın olmasını bilmədiyi təqdirdə, yaxud xalq arasında etina ediləsi səbəb üzündən fəsx etməyi təxirə saldıqda fəsx ixtiyarı (müamiləni pozmaq haqqı) yerindədir.

**Məsələ-1647.** Əgər müamilə əqdi əsnasında şərt olsa ki, iki tərəfdən hər biri müamilə etməsinə peşman olarsa, müəyyən bir məbləği müqabil tərəfə versin, yaxud əqd bu qərara əsasən bağlanarsa, iki tərəfdən biri təsadüfən bu müamilədə aldanarsa, aldanan şəxs ixtiyar haqqından istifadə edə bilər və müqabil tərəfə heç bir şey verməк lazım deyil. Məsələn, Vahid sahəsi 1000 kvadratmetr olan yeri satır və məlum olur ki, 1100 kv.m olub. Bu halda müamilədə yer bütövlükdə, hər kvadratmetr 500 manata satılıbsa, məlum olur ki, satıcı etina ediləsi miqdarda ucuz satıb. Buna görə də satıcının əqdi pozmaq haqqı var. Amma yer bütövlükdə deyil, kvadrat metrlə hesablanıb satılıbsa, bu halda (1000 kvadrat metrlik yerin müamiləsi səhihdir və) satıcı 100 kvadratmetr yerin pulunu ala, yaxud müamiləni fəsx edə bilər.

## 3. Şərt ixtiyarı

**Məsələ-1648.** "Şərt ixtiyarı" o fəsx (əqd pozma) haqqıdır ki, müamilədə iki tərəfin biri [1] özü üçün qərar verir. Yəni müamilə əqdi əsnasında şərt edilir ki, satıcı, alıcı, hər ikisi və ya üçüncü bir şəxsin müəyyən müddətədək əqdi pozmaq haqqı olsun.

**Məsələ-1649.** Səmən, ya başqa bir şeyi müəyyən müddətədək müştəriyə qaytararsa, müamiləni poza bilmək ixtiyarının qərar verilməsi satıcı üçün caizdir. Fiqhi terminologiyada buna "beyül-ixtiyar" deyilir.

[1] Ya hər biri (Mütərcim)

**Məsələ-1650.** Məbi (yəni alverdə satılan mal) "beyül-ixtiyar" qərar verilsə də nə qədər ki, müamilə fəsx edilməyib müştərinin mülküdür və satıcı bu müamiləni pozmadan onu başqasına sata biməz. Müştəri ixtiyar müddəti sona yetdikdən sonra hətta hələ malı əlinə almasa belə, onu başqasına sata bilər. Bu şərtlə ki, ixtiyar müddətində satıcı müamiləni fəsx etməsin. Məsələn, mənzil yüz min manata bu şərtlə satılır ki, satıcı altı ay müddətində onun pulunu müştəriyə qaytararsa, müamiləni fəsx edə bilsin. Burada altı ay müddətində satıcı pulu qaytarmayıb müamiləni pozmasa, müştəri evi başqasına sata bilər.

**Məsələ-1651.** Əgər satıcı yalnız özü üçün fəsx haqqı qərar versə, məqsədi satdığı malın ixtiyar müddətinin sonunadək onun üçün qorunub saxlanması olmasa, alıcının malı satmaq haqqı var.

## 4. Tədlis ixtiyarı

**Məsələ-1652.** Alıcı, ya satıcı öz malını hazırda olduğu keyfiyyətdən yüksək göstərərsə, belə ki, bu işlə malın qiyməti xalqın nəzərində yuxarı qalxsa, müqabil tərəfin əqdi pozmaq haqqı var (ki, buna "tədlis ixtiyarı" deyilir).

## 5. Təxəllüfi-şərt ixtiyarı

**Məsələ-1653.** Əgər satıcı, ya alıcı bir işi yerinə yetirməyi, yaxud təhvil verəcəyi malın filan xüsusiyyətə malik olmasını şərt edib ona əməl etməsə, müqabil tərəfin fəsx və əqdi pozmaq haqqı var.

**Məsələ-1654.** Müştəri iki ay müddətində pulun hamısını ödəməyi və bu müddətdə fəsx haqqının[1] da olmasını sərf edib, yeddi aydan sonra (müştəri) malı qaytarır. Satıcı da bu şərtlə qəbul edir ki, satıcıya zərər dəyməməsi üçün pulun bir neçə faizini təxirə görə çıxsın. İxtiyar müddəti ötüb keçdiyi üçün müştərinin əqdi pozmaq və malı qaytarmaq haqqı yoxdur, həmçinin satıcını fəsxi qəbul

---

[1] Bu, şərt ixtiyarıdır. (Mütərcim)

etməyə məcbur edə bilməz. Amma "iqalə"[1] ilə (razılaşma yolu ilə) müamiləni poza bilərlər, lakin satıcının iqaləni, pulun bir miqdarını çıxmaq şərtiylə qəbul etməyə haqqı yoxdur. Əgər puldan çıxmaqla iqalə edərsə, iqalə batildir.

**Məsələ-1655.** Əgər əqd əsnasında alıcının maliyyələri ödəməsi şərt edilsə, ya əqd buna əsasən[2] bağlansa, alıcı şərtə əməl etmədikdə satıcının fəsx haqqı var.

**Məsələ-1656.** Yer qanuni olaraq rəsmiləşdirmək mümkün olmadığı, yaxud oranın bələdiyyənin layihəsinə düşdüyü təqdirdə müştərinin fəsx haqqı olması şərtiylə alınsa, bu halda müştərinin fəsx haqqı var.

**Məsələ-1657.** Bir bina, müştəri onun sənədini rəsmiləşdirən gün gəlib idarədə pulu təhvil vermədiyi təqdirdə satıcının fəsx haqqı olması şərtiylə satılsa, bu halda müştəri şərtə əməl etməsə, satıcının müamiləni pozmaq və binanı başqasına satmaq haqqı var.

## 6. Eyib ixtiyarı

**Məsələ-1658.** Əgər mal, ya onun müqabili əvəzində istər əqd zamanı, istərsə də əqddən sonra və təhvil verəndən qabaq bir eyib olsa, müamiləni poza, yaxud qiymət fərqini ala bilər.

---

[1] İki tərəfin müamiləni pozmağa razılaşmasına «iqalə» deyilir.

[2] Bu iki cümlənin fərqi budur ki, birincisində əqd əsnasında həqiqətən bu şərt bəyan edilir, amma ikincisində, yəni «əqd buna əsasən bağlana» cümləsində əqd əsnasında şərt dilə gətirilmir, yaxud da bir yerə qeyd edilmir. Lakin bu şərt hər iki tərəfin fikrində olduğu üçün dilə gətirməyə ehtiyac olmur. Məsələn, deyilən misalda əgər xalq arasında maliyyəni ödəmək adətən satıcı tərəfindən olduğu üçün bu şərti deməyə ehtiyac olmur, amma eyni zamanda məlumdur. Bu şərt həqiqətdə qeyd olunmayan bir şərtdir, lakin qeyd olunan şərt hökmündədir. (Mütərcim)

**Məsələ-1659.** Üç halda alıcı, ya satıcı malın eyibli olduğunu bildikdə yalnız qiymət fərqini ala bilər:

1. Müamilədən sonra malda elə dəyişiklik etsin ki, camaatın gözündə təhvil alan zamankı mal sayılmasın.
2. Müamilədən sonra malın eyibli olduğunu bilərək fəsx haqqına güzəşt etsin.
3. Malı təhvil aldıqdan sonra malda başqa bir eyib yaransa (Yalnız bu heyvanda müstəsnadır və üç gün ərzində onu qaytarmaq haqqı var).

**Məsələ-1660.** Dörd halda alıcı malın eyibli olduğunu bildikdə nə fəsx haqqı, nə də qiymət fərqini almaq haqqı var.
1. Malı alan zaman onun eyibli olduğunu bilsə;
2. Müamilədən sonra malın eyibli olduğunu bilib ona razı olsa;
3. Müamilə zamanı "Malın eybi olsa da nə qaytaracağam, nə də qiymət fərqini alacağam" - desə.

4. Satıcı müamilə zamanı "Bu malı bütün eyibləriylə satıram", - desə.

**Məsələ-1661.** Əgər satıcı malı satan zaman onun eybini müəyyən edib "bu eyiblə satıram", - desə, amma sonradan əqd zamanı başqa bir eybinin də olması məlum olsa, alıcı ikinci (və gizli) eyibə görə müamiləni poza, yaxud qiymət fərqini ala bilər. Məsələn, müamilədən sonra məlum olsa ki, satılan mülk qanuna görə başqasının adına keçirilə bilməz və bu da xalq arasında o mal üçün eyib sayılsa, bu halda alıcının müamiləni pozmaq haqqı var. Amma bunu bilirdisə, artıq fəsx haqqı yoxdur.

**Məsələ-1662.** Əgər müamilə ümumi şəkildə aparılsa, nə satılan mal, nə də malın qarşılığında ödənilən şey barəsində "eyb ixtiyarı" haqqı yoxdur, sadəcə qarşı tərəfi salamat mal verməyə məcbur etmək olar. Məsələn, əgər müştəri satılan düyüdən 100 kq tələb etsə, satıcı anbardan 100 kq düyü gətirsə, sonra düyülərin eyibli olmağı məlum olsa, (müamilə bu yüz kiloqramlıq düyünün üzərində olmadığı, əksinə külli yüz kiloqram düyü üzərində olduğu üçün),

alıcının fəsx etmək ixtiyarı yoxdur, yalnız satıcıdan 100 kq saf və eyibsiz düyü tələb edə bilər.

## 7. Şirkət ixtiyarı

**Məsələ-1663.** Əgər satılan malın bir qismi başqasının, yəni şərikinin olması məlum olsa, o qismin sahibi (yəni satıcının şəriki) bu müamiləyə razı olmadıqda alıcı müamiləni poza bilər, həmçinin (müamiləni pozmayıb) o qismin pulunu satıcıdan ala bilər. Bu məsələ müştərinin satıcıya verdiyi əvəzə də aiddir.

## 8. Röyət ixtiyarı

**Məsələ-1664.** Əgər alıcı, ya satıcı mübadilə etmək istədiyi malı görsə, yaxud müqabil tərəf həmin malın xüsusiyyətlərini onu görməyən digər müqabil tərəfə bəyan etsə, sonradan gördüyü, yaxud dediyi kimi olmaması məlum olsa, bu halda müamiləni poza bilər.

**Məsələ-1665.** Külli müamilələrdə şirkət və röyət ixtiyarı yoxdur. Məsələn, 100 kq xüsusi adla tanınmış, xüsusi qoxu və rəngə malik olan düyü alınıb, amma burada konkret hansısa düyü göstərilib müəyyənləşdirilməyib. Əksinə, satıcı yuxarıdakı xüsusiyyətləri deyib, amma gətirdiyi mal o xüsusiyyətlərə malik deyil. Bu halda alıcının müamiləni pozmaq haqqı yoxdur, lakin satıcıdan qeyd edilən razılaşdıqları xüsusiyyətlərə malik olan malını tələb edə bilər.

## 9. Təxir ixtiyarı

**Məsələ-1666.** Əgər müştəri nağd edilən müamilədə müamilənin səmənini (məsələn, pulu) yubatsa, yaxud verməsə, aşağıdakı şərtlərlə satıcının təxir ixtiyarı var və müamiləni poza bilər:

1. Üç günədək ödəməzsə;
2. Satıcı da malı təhvil verməyibsə;

3. İki əvəzdən birinin təxiri müqavilədə qeyd edilməyib, yaxud əqd buna əsasən bağlanmayıbsa.

**Məsələ-1667.** Bəzi meyvələr və göyərtilər kimi bir gün qaldıqda xarab olan mallarda ixtiyar haqqı üç gün əvəzinə xarab olmamış zamanadəkdir. Məsələn, əgər bir kəsə axşam saat üçdə meyvə, yaxud göyərti satılıb, lakin alıcı gecəyədək pulu gətirməyib meyvəni də təhvil almayıb. Satıcı müamiləni pozub malı başqasına sata bilər (Üç gün səbr etmək lazım deyil). Həmçinin bir şəxs bir evi alıb, amma onun pulunu verməyib, təxir şərti də edilməyib ki, müştərinin təxir etmək haqqı olsun. Buna əsasən, burada müamilə zamanından üç gün keçdikdən sonra satıcının müamiləni fəsx etmək haqqı var. Amma müamilə öz-özünə batil olmur.

## 10. Heyvan ixtiyarı

**Məsələ-1668.** Heyvan alan müamilə etdikdən sonra üç gün müddətində müamiləni poza bilər.

**Məsələ-1669.** Müştərinin heyvanı istifadə etməsi onun razılığına dəlalət edərsə, artıq heyvan ixtiyarı aradan gedir. Məsələn, heyvana nal vurarsa, yaxud onu rəngləyərsə artıq müamiləni pozmaq haqqı yoxdur. Bu müddətdə heyvan ölərsə, alver batil olur.

## 11. Təəzzüri-təslim ixtiyarı

**Məsələ-1670.** Əgər satıcı satdığı malı müştəriyə təhvil verə bilməzsə, məsələn, satdığı at qaçarsa, müştəri müamiləni poza bilər.

**Məsələ-1671.** Qeyd olunmuş ixtiyarlardan başqa yerlərdə hər iki tərəf müamiləyə əməl etməlidir və əqdi pozmaq haqları yoxdur. Tərəflərdən hər hansı birinin peşman olmağı fəsx haqqına səbəb olmur. Həmçinin əqd əsnasında bütün ixtiyarları özlərindən götürsələr,[1] artıq müqabil tərəfin heç bir ixtiyar haqqı olmayacaq.

[1] Yəni əqdi pozmaq haqları olarsa belə, əvvəlcədən bu haqdan keçsələr. (Mütərcim)

## Cins və onun əvəzini almaq və təhvil vermək

**Məsələ-1672.** Müamilə bağlandıqdan sonra (əqd əsnasında) təxir şərti olmadıqda tərəflərin hər ikisi əvəzi müqabil tərəfə təhvil verməlidir. Buna əsasən, hər iki tərəf, yaxud onlardan biri əvəzi verməkdə təxir edərsə, onu təhvil verməyə məcbur edirlər.

**Məsələ-1673.** Satıcı, ya alıcı əqd əsnasında şərt edə bilər ki, əlindəkini (satdığı malı) müəyyən müddətədək müqabil tərəfə təhvil verməsin və ondan istifadə etsin. Məsələn, mənzili satan şəxs şərt edir ki, bir ay özü istifadə etdikdən sonra mənzili müştəriyə təhvil versin.

**Məsələ-1674.** Satılan əşyalar iki növdür:

**1. Daşınmayan:**[1] Malı təhvil vermək və almaq o zaman hasil olur ki, müqabil tərəf mülkü kamil şəkildə onun ixtiyarında qoysun. Belə ki, maldan əl çəkib yeni sahibin istifadəsinə izn versin və malın (mülkün) istifadəsinin, yer ağac kimi bütün maneələrini aradan qaldırsın.

**2. Daşınan:** Malın təhvil alınması alıcının onun ixtiyarını öz əlinə alması ilə gerçəkləşir. Buna misal olaraq avtomobil və heyvanı göstərmək olar.

**Məsələ-1675.** Daşınan əmlakda mülkü kamil şəkildə boşaldan şəxs öz şəri vəzifəsinə əməl edib. Lakin nə qədər ki, müqabil tərəf onu təhvil almayıb, təhvildən qabaq olan hökmlər onun barəsində caridir. Bu hökmlər gələcəkdə bəyan ediləcək.

**Məsələ-1676.** Təhvil verməkdən əlavə təfriğ[2] də həyata keçməlidir. Məsələn, satıcı pul seyfini, yaxud bir evi satır və müştərinin istifadəsinə mane ola biləcək bütün maneələri də aradan qaldırır. Başqa sözlə malı kamil şəkildə onun ixtiyarında qoyur, lakin bundan əlavə gərək seyfdə, yaxud evin içində olan bütün əşyaları da boşaltsın. Çünki seyf, yaxud ev artıq müştərinin mülküdür və satıcının ixtiyarı yoxdur ki, özünə məxsus əşyaları orada saxlasın.

---

[1] Yaşayış mənzili kimi. (Mütərcim)
[2] İçini boşaltmaq (Mütərcim)

**Məsələ-1677.** Öncəki məsələdə bəyan edildi ki, "təfriğ" vacibdir. Məsələn, yuxarıda qeyd edilən seyfdə, yaxud evdə elə şeylər olsa ki, onları boşaltmaq evə, ya seyfə zərər gətirəcək, bu halda zərəri təmin edib müqabil tərəfə ödəməlidir. Əgər biçin vaxtı yetişməyən məhsuldursa, gərək bir-biriylə sülh etsinlər (razılaşsınlar). Belə ki, məsələn, satıcı müəyyən məbləğdə müştəriyə icarə pulu versin çünki müştəriyə satdığı yeri mənimsəyib. Digər tərəfdən də müştəri onunla hər hansı yolla biçin vaxtı yetişənədək razılaşsın.

## Təhvildən qabaq və sonra malın aradan getməsinin hökmləri

**Məsələ-1678.** Əgər təhvil verib-almaqdan qabaq (satılan) mal aradan getsə, satıcının malından gedir, başqa tərəfdən isə artımlar müştərinin mülkü sayılır. Məsələn, Vahid müəyyən qoyunu Xosrova satır. Xosrov o qoyunu təhvil almamış qoyun ölür. Bu zaman müamilə batildir və müamilənin səməni (yəni qoyunun pulu) Vahidə verilibsə, onu Xosrova qaytarmalıdır. Bir tərəfdən də müamilə zamanından qoyun ölən zamanadək qoyunun südü, yunu və s. artımları Xosrovundur.

**Məsələ-1679.** Əgər malın bir hissəsi təhvil veriləndən öncə aradan getsə, müamilə aradan getmiş hissəyə görə öz-özünə batil olur və o nisbətdə müamilənin səməni müştəriyə qaytarılmalıdır. Məsələn, Vahid 10 kq müəyyən düyünü (yəni cüzi müamilədə yox) Xosrova iyirmi manata satır, amma təhvildən qabaq onun iki kiloqramı aradan gedir, yaxud oğurlanır. Bu müamilədə düyünün hər kilosu iki manat olduğu üçün Vahid dörd manatı Xosrova qaytarmalıdır. Bundan əlavə Xosrovun müamiləni bütövlükdə pozmaq haqqı da var. Müamiləni pozduqda 16 manat qalan pulu da Vahiddən alır. Həmçinin haqqı var ki, müamiləni olduğu kimi saxlayıb 8 kq müqabilində 16 manat Vahidə versin.

**Məsələ-1680.** Mal eyibli olduqda müqabil tərəfin eyib ixtiyarı var. Təsəvvür edin ki, yuxarıdakı misalda 2 kq düyü aradan getməyib, amma düyülərin hamısı eyiblənib. Amma yenə az da olsa, qiyməti

var. Bu halda Xosrov müamiləni poza bilər. Amma müamiləyə razı olarsa, Vahiddən çəkdiyi zərəri almağa haqqı yoxdur. Qeyd edək ki, satıcı (Vahid) malı qoruyub saxlamaqda səhlənkarlıq etmədiyi halda zərəri almağa o zaman haqqı yoxdur. Əks halda zərəri almaq haqqı olacaq.

**Məsələ-1681.** Təhvil aldıqdan sonra aradan gedən mal təhvil alanın malı hesab olunur. Buna əsasən, yuxarıdakı misallarda müştəri zərəri qəbul etməlidir. Yalnız heyvan ixtiyarında satıcının malından hesablanır.

## Sülhün hökmləri

**Məsələ-1682.** Malın, yaxud mənfəətin başqasının mülkiyyətinə keçməsi haqda və ya müqabil tərəfin öhdəsində olan öz haqqını, ya borcunu onun öhdəsindən götürmək barədə iki, yaxud bir neçə nəfər arasında olan razılıq və saziş sülh adlanır.

**Məsələ-1683.** Sülh əqdinin nəticəsi alver, icarə, hibə (məsələn, hədiyyə) və başqa əqdlərlə müvafiq olmağına baxmayaraq, bu əqd özü müstəqil bir əqddir. Buna görə də başqa əqdlərin şərtləri və hökmlərinə malik deyil. Məsələn, alğı-satqı məzmunlu sülh, məclis, heyvan və təxir əqdpozma ixtiyarına malik deyil. Şüfə haqqı[1] da sülhdə yoxdur. Çünki bunlar hamısı alverin xüsusiyyətlərindəndir. Həmçinin sülh qızıl və gümüş barədə olarsa, sərf alverində olduğu kimi iki tərəf ayrıldıqdan qabaq əvəzlər təhvil alınması lazım deyil. Hibə məzmunlu sülhdə malı təhvil almaq lazım deyil, təhvil almadan da hibə olunmuş mal müqabilin tərəfin mülkünə daxil olur. Halbuki hibə (hədiyyə) əqdində müqabil tərəf təhvil almamış şəri baxımdan ona sahib olmur.

---

[1] Səhmi bölünməyən şərikin şəriklik yoldaşı şərik maldan özünə aid olan səhmi başqasına satarsa, onun şərikinin haqqı var ki, o hissənin satıcıya verilən pulunu müştəriyə verib o səhmi özünə götürsün. Bu haqq şüfə haqqı adlanır. Daha artıq izah üçün bu risalənin şüfə haqqı məsələlərinə müraciət edin. Məsələ 1627 və sonrakı bir neçə məsələ. (Mütərcim)

**Məsələ-1684.** Sülhün xüsusi bir siğəsi yoxdur. İki tərəfin buna razılıq və sazişini bildirən, xalq arasında düşünülən hər bir şey əqdin hasil olması üçün kifayətdir.

**Məsələ-1685**. Sülh lazım əqdlərdəndir, yəni heç bir tərəfin onu pozmaq haqqı yoxdur. Amma şərtə əməl etməmək əqd pozmaq ixtiyarı kimi ixtiyarı olarsa, bu zaman əqdi poza bilər (Qeyd edək ki, məclis və təxir əqdpozma ixtiyarı kimi ixtiyarlar alver əqdinə xasdır). Hətta caiz hibə də sülh şəklində bağlanarsa, lazım əqd olacaq, halbuki hibə əqdi özü istisna olunan yerləri çıxmaq şərtiylə caiz əqdlərdəndir.

**Məsələ-1686.** Əgər əsl malikin izni olmadan sülh edilərsə, bu, füzuli[1] sülh sayılır və onun səhih olması malikinin icazəsinə bağlıdır. Necə ki, bu haqda alver əqdində məsələlər bəyan edildi.

**Məsələ-1687.** Sülhdə müəyyən bir əvəz olunması lazım deyil. Əksinə, sülh edən şəxs sülh əqdində əvəz tələb etmədən müəyyən bir şeyi sülh etdiyi şəxsin (müqabil tərəfin) mülkünə daxil edə bilər.

**Məsələ-1688.** Sülh əqdinin tərəfləri gərək həddi-büluğa yetişmiş, aqil, məqsədli və ixtiyarlı olsun. Bundan əlavə məhcur da olmamalıdır.

**Məsələ-1689.** Əgər bir şəxs sülh əqdindən sonra əqd zamanı onun məqsədinin ciddi olmadığını iddia etsə (məsələn, zarafata deyib və ya səhvən olub), onun sözü qəbul edilmir.

**Məsələ-1690.** Alver əqdində müamilənin batil olmasına səbəb olan "ğərər"[2] sülhə aid deyil. Məsələn, avtomobilin model və rəng kimi xüsusiyyətlərini bilmədən, hətta onu görmədən alğı-satqısı batildir. Amma bu, sülh şəklində olarsa, eybi yoxdur.

**Məsələ-1691.** Sülh əqdində borclu verəcəyi miqdarı bilsə, amma tələb sahibi miqdarını bilmədiyinə görə borclu olan şəxs onun haqqından az miqdarla sülh edərsə, yerdə qalan miqdar borclu şəxs

---

[1] Füzuli əqd o əqddir ki, başqasının xəbəri olmadan onun tərəfindən əqd bağlanır. Əgər o şəxs sonradan icazə verərsə, əqd səhihdir, inkar edərsə, batildir (Mütərcim)

[2] Alverdə alınan və satılan malın məchul olmasına deyilir (Mütərcim)

üçün halal deyil. Amma bunu tələb sahibinə xəbər verərsə və o razı olarsa, işkalı yoxdur. Həmçinin borclu borcunun sülh etdiyi maldan çox olduğunu bilərsə, yuxarıdakı hökmdədir. Məsələn, Xosrovun Vahidə borcu var və onunla belə razılaşır ki, ona yüz min verməklə məsələ tamamlansın. Amma sonradan Vahid bilir ki, onun Xosrovdan yüz əlli min tələbi olub. Burada gərək Xosrov əlli mini Vahidə qaytarsın. Amma Vahid buna razı olarsa, qaytarmaq lazım deyil.

**Məsələ-1692.** Sülh əqdində də riba haramdır.

**Məsələ-1693.** Bir şəxs tələb sahiblərinə verəcəklərindən boyun qaçırmaq üçün öz mallarını başqası ilə sülh edərsə, xüsusilə, əgər sonradan qazanc etmək və borclarını ödəmək ümidi olmazsa, vacib ehtiyata əsasən, sülh batildir.

**Məsələ-1694.** Sülh edən şəxslərin əqd əsnasında qəbul etdikləri şərtlərdən boyun qaçırması caiz deyil. Əks təqdirdə müqabil tərəf sülh əqdini poza bilər. Məsələn, bir şəxs başqası ilə öz malını bu şərtlə sülh edir ki, təkcə sülh etdiyi şəxs həmin malı istifadə etsin. Bu halda sülh edilən şəxsə sülh edən şəxsin icazəsi olmadan onu üçüncü bir şəxsə vermək caiz deyil. Əks halda sülh edən şəxs müamiləni poza bilər. Başqa bir misal: Ata həyatda olan zaman bütün mallarını oğlu ilə sülh edib (oğlunun mülkünə daxil edib), bu şərtlə ki, atasının ölümündən sonra oğlan bacılarının hər birinə müəyyən məbləği ödəsin və bacıları da buna razı olub. Bu sülhün işkalı yoxdur. Buna əsasən, atasının ölümündən sonra onun oğlu bacılarına verəcəyindən əlavə yerdə qalanlara sahib olur.

## İcarənin hökmləri

**Məsələ-1695.** İcarə iki qisimdir:

1. Hətta az olsa belə, maliyyəti və dəyəri olan şeylərin icarəsi;

2. Bir şəxsin icarəsi. Məsələn, işçi və ya fəhləni əcir etmək. Belə ki, müəyyən bir iş müqabilində muzd almasına razılaşırlar.

**Məsələ-1696.** Məqsədi çatdıran hər bir söz və ya əməl, icarə əqdinin bağlanması üçün kifayətdir.

**Məsələ-1697.** Mucir (icarəyə verən şəxs) və müstəcir (icarə edən şəxs) həddi-büluğa yetişən, ağıllı, məqsədli və ixtiyarlı olmalıdır. Məhcur olmamalıdır (yəni iflasa uğramış, ya səfeh olmamalıdır).

**Məsələ-1698.** İcarə edilən malın şərtləri aşağıdakılardır:

1. Müəyyən edilməlidir: əgər bir şəxs "evlərimdən birini icarəyə verdim" desə, batildir.

2. Məlum olmalıdır: müşahidə, ya insanın rəğbətində təsirli olan vəsflərini bəyan etməklə məlum edilməlidir. Məsələn, əgər müstəcir evi görmədən və vəsflərini bilmədən onu icarə edərsə, bu icarə batildir.

3. İcarə malını təhvil verməyə qadir olmaq. Məsələn, təhvil verilməsi mümkün olmayan itmiş avtomobili icarəyə vermək batildir.
4. İcarə verilən maldan faydalanmaq mümkün olsun. Məsələn, əkinçilik üçün su çatmayan yeri (sahəni) icarəyə vermək olmaz. Amma yağış suyu kifayət edərsə, bu zaman icarə düzdür.
5. Mal istifadə edilməklə aradan getməsin. Məsələn, yeməli, içməli, ya ağacı icarəyə vermək olmaz, çünki bunlar istifadə edilməklə aradan gedir.

6. İcarə verən şəxs malın sahibi, yaxud şəri ixtiyar sahibi olmalıdır.
7. Ondan faydalanmaq caiz olmalıdır. Buna əsasən, heyzli qadını məscidi təmizləmək üçün əcir etmək olmaz.

**Məsələ-1699.** İcarə verilən malın mənfəətinin bir neçə şərti var:
1. Mübah olsun: mağazanı şərab satmaq və ya saxlamaq üçün, yaxud yük maşınını şərab daşımaq üçün icarəyə vermək haram və batildir.
2. Az olsa belə dəyəri olsun: yəni belə olsun ki, insanlar onun müqabilində mal versin.

3. Müxtəlif fayda və istifadələrə malik olan malın icarəsi zamanı gərək icarə əqdində hansı faydanın aparılması müəyyən edilsin.

Məsələn, əgər bir avtomobil icarəyə verilirsə, gərək onun nə üçün işlədilməsi məlum edilsin.

4. İcarənin müddəti müəyyən edilsin. Məsələn, mənzilin bir illik icarəsi kimi.

**Məsələ-1700.** İcarə haqqı (yəni müqabilində verilən mal) və onun miqdarı müəyyən edilsin. Əgər hesablanması ölçü qabı, çəki və ya sayilədirsə, neçə ölçü qabı, neçə kiloqram və ya neçə ədəd olması məlum olmalıdır. Əgər o, gözlə görülməli və müşahidə edilməli, yaxud təsvir edilməsi ilə kifayət edirsə, müşahidə və ya təsvir edilməlidir.

**Məsələ-1701.** İcarə haqqı (muzdu) aşağıdakılar ola bilər:

1. Müəyyən bir şey: Məsələn, müəyyən bir üzük.

2. Müstəcirin bir şeyi külli şəkildə öhdəsinə alması: Məsələn, beş yüz manat.
3. Hər hansı bir əməl: Məsələn, bir gün mucir üçün yük daşımaq.
4. Mənfəət: Məsələn, maşından bir aylıq müddətində faydalanmaq.
5. Şəri baxımdan başqasına keçə bilən haqq: Məsələn, kreditdən istifadə etmək haqqı.

**Məsələ-1702.** İcarə lazım əqddir. Yəni heç bir tərəfin onu pozmağa haqqı yoxdur, əlbəttə ki, şəri səbəblər olduqda bu müstəsnadır.

**Məsələ-1703.** Bütün əqdi pozmaq ixtiyarları (məclisdə əqdi pozmaq ixtiyarını çıxmaq şərtiylə) icarə əqdində də ola bilər.

**Məsələ-1704.** Əgər icarəyə verilmiş bir şey onun sahibi vasitəsiylə satılarsa, icarə öz qüvvəsində qalır. Qeyd edək ki, müştəri bunu bilmədikdə və ya icarənin müddətinin uzun olmadığını bilmədikdə alveri poza bilər.

**Məsələ-1705.** Şəriklikdə müşa hissəsinin (yəni səhmi müəyyən edilməyən hissənin) icarəsi caizdir, amma şəriklərin icazəsi olmadan onu müstəcirə təhvil vermək olmaz.

**Məsələ-1706.** Eyni və kifayi vaciblər üçün əcir olmaq batildir. Amma ictimaiyyəti qorumaq və cəmiyyətin ehtiyacı olduğu həkimlik və mühəndislik kimi vaciblər üçün əcir olmağın işkalı yoxdur.

**Məsələ-1707.** Təkcə şəri olan işlərdə naiblik üçün əcir olmaq caizdir. Məsələn, diri insanın vacib namazlarını qılmaq üçün əcir olmaq caiz deyil.

**Məsələ-1708.** Əgər bir şəxsə iş tapşırılsa və onun həmin işi pulsuz görməsinə heç bir nişanə və əlamət olmasa, işi görən şəxs həmin işin müqabilində verilən malın mislini tələb edə bilər, bu şərtlə ki, ürəyində pulsuz etmək məqsədi olmasın. Belə yerdə əgər işi görən şəxsin məqsədi pulsuz görməkdirsə, hətta işi gördürən şəxsin məqsədi ona pul vermək də olsa, onun pul tələb etməyə haqqı yoxdur.

**Məsələ-1709.** İcarəyə verilmiş şeyi birinci müstəcir vasitəsilə başqasına yenidən icarəyə vermək o halda caizdir ki, mücir (yəni icarəyə verən şəxs) onun əksini şərt etməsin və belə bir şərti anladan əlamətlər də olmasın. Həmçinin müəyyən bir iş üçün əcir olan şəxs o zaman başqasını əcir edə bilər ki, (yəni bu işi başqasına həvalə edə bilər ki, müstəcir) onu əcir edən şəxs başqasına həvalə etməyi və özünün birbaşa yerinə yetirməyini şərt etməsin. Həmçinin buna dəlalət edən bir əlamət olmasın.

**Məsələ-1710.** İkinci icarədə (birinci icarənin məbləğindən) çox, ya az almağın hökmü müxtəlif icarələr baxımından fərqlidir. Məsələn, əgər evi, ya mağazanı icarəyə veribsə, onu ikinci dəfə icarəyə verən zaman birinci icarənin məbləğindən artıq almaq olmaz. Burada iki yer müstəsnadır:

1. Onun üzərində bir iş görmüş olsun. Məsələn, evi rəngləsin.

2. İkinci icarə haqqı birinci icarə haqqından başqa bir şey olsun. Məsələn, əgər hansısa ev bir illiyə bir milyon müqabilində icarəyə verilərsə, müstəcir onu başqasına bir illiyə bir ton düyünün müqabilində icarəyə verə bilər (baxmayaraq ki, bir ton düyünün qiyməti, məsələn, üç milyon dəyərindədir). Əgər icarə edilən şəxsdirsə, yəni

bir şəxsi iş görmək üçün əcir edibsə, əcir olan şəxs o işi başqasına həvalə etdikdə muzdunu birinci icarənin məbləğindən az təyin edə bilməz. Məsələn, əgər bir şəxs paltar tikmək üçün əcir olsa, bu şəxs həmin işi başqasına həvalə edərsə, əcir etdiyi şəxsə birinci icarədən aldığı məbləğdən az muzd verməməlidir. Təsəvvür edin bir şəxs yüz min müqabilində müəyyən bir iş üçün əcir olur, bu işi yüz mindən az muzd müqabilində başqasına həvalə edə bilməz. Əgər o işin bəzi hissəsini özü edibsə, bu zaman aldığından az məbləğdə başqasına həvalə edə bilər. Əgər icarə edilmiş şey yuxarıda deyilənlərdən başqasıdırsa, bu zaman ikinci icarənin məbləğinin birinci icarənin məbləğindən çox və ya az olmasının işkalı yoxdur.

**Məsələ-1711.** Əgər müstəcir icarəyə götürdüyü evin yarısını icarə məbləğinin müqabilində icarəyə versə, bu zaman qiymət və məbləğ birinci icarənin məbləğindən çox olmadığı üçün caizdir. Həmçinin əgər birinci icarənin müddətinin yarısını başqasına icarəyə versə (yəni bir illik icarə üçün verildiyi məbləğ müqabilində), bu da caizdir.

## İcarəni pozmağın caizolma yerləri

**Məsələ-1712**. İcarə lazım əqdlərdəndir, aşağıdakı yerlərdən başqa onu pozmaq olmaz:

**Birinci:** Alverdə olan "məclis" əqdpozma ixtiyarını çıxmaqla əqdpozma ixtiyarlarından biri onda olarsa. Məsələn, əgər icarədə şərtlə müxalifət etmək əqdipozma ixtiyarı olarsa, yəni mucir, ya müstəcir icarə əqdi əsnasında şərt etsə, müqabil tərəf o şərtə əməl etməsə, bu zaman şərt qoyan şəxs icarə əqdini poza bilər. Təsəvvür edin, mucir onun mülkündən yalnız ticarət üçün deyil, yaşayış üçün istifadə edilməsini şərt edib. Yaxud icarə edilən şey yerinə yetiriləsi bir iş olub və əcir edən şəxs də xüsusi bir zamanda işi təhvil verməsini şərt edib. Amma əcir səhlənkarlıq edib, ya işi o zamanda görmək qeyri-mümkün olub, bu halda müqabil tərəfin icarə əqdini pozmaq haqqı var.

Başqa bir misal: "Eyib" əqdpozma ixtiyarı olsa, belə ki, həmin eyib onun mənfəəti üçün nöqsan sayılsa, icarədən qabaq icarə edilmiş şeydə olsa, müstəcir də bunu bilməsə, burada icarəyə verilmiş şey iki haldan xaric deyil.

1. **Müəyyən bir şeydir:** Məsələn, müəyyən bir maşını icarəyə verib, amma maşın eyiblidir və istifadəsi mümkün deyil. Bu halda icarəni pozmaq olar.

2. **Külli maldır**: Mucir gərək onun əvəzini versin, mümkün olmadıqda müqabil tərəfin əqdi pozmaq haqqı var. Məsələn, əgər ümumi bir əlamətlərlə olan maşını icarəyə versə, icarə verən şəxs gərək bu ümumi əlamətlərlə maşını müstəcirə təhvil versin. Əgər maşının eyibli olması məlum olsa, mucir gərək onun əvəzinə həmin əlamətlərlə uyğun olan başqa bir maşını təhvil versin. Bu mümkün olmadıqda müstəcir əqdi poza bilər.

Amma ödənilən muzd eyibli olarsa, bu da iki cürdür.

1. Müəyyəndir, bu zaman əqdi pozmaq haqqı var.

2. Küllidir, bu zaman gərək (eyibli malın) əvəzini versin. Mümkün olmadıqda əqdi poza bilər.

**İkinci:** Təqayül: Hər iki tərəf bir-birinin razılığı ilə əqdi poza bilər. **Üçüncü:** İcarəyə verilən şey qəsbi olsun:

A) Əgər qəsb o şeyi mucirdən təhvil aldıqdan qabaq olubsa, icarə edən şəxs əqdi pozub və razılaşdıqları məbləği mucirdən geri ala bilər, yaxud əqdi təsdiq edib məbləğin mislini qəsb edən şəxsdən ala bilər.

B) Əgər qəsb təhvil aldıqdan sonra olarsa, icarə səhihdir. Yalnız məbləğin mislini qəsb edən şəxsdən ala bilər, istər onun misli təyin edilmiş məbləğ qədərində olsun, istər ondan az, ya çox olsun. Təsəvvür edin bir mənzil bir il müddətinə icarəyə verilib, amma təhvil verdikdən qabaq qəsb edilib. Müstəcir icarəni pozub və

ödədiyi məbləği geri ala bilər. Həmçinin icarə əqdini pozmadan qəsb edən şəxsdən bu mənzilin həqiqi icarə məbləğini qəsb müddətində ala bilər. Məsələn, bir mənzil ayda yüz minə icarəyə verilib, halbuki onun həqiqi icarə dəyəri yüz əlli mindir. Bu zaman müstəcir icarə əqdini pozmasa, qəsb edən şəxsdən qəsb etdiyi müddətdə hər aya yüz əlli min ala bilər. Amma mənzili, təhvil aldıqdan sonra qəsb edilərsə, bu halda əqdi pozmaq haqqı yoxdur, yalnız icarənin həqiqi qiymətini (yəni mislini) qəsb edən şəxsdən ala bilər.

**Dördüncü:** Əgər uşağın vəlisi onun mülkünü, yaxud özünü fəhləlik üçün onun faydasını nəzərdə tutmaqla icarəyə versə, icarə müddəti başa çatdıqdan qabaq uşaq həddi-büluğa yetişib rəşid olsa, bu həddi-büluğa yetişmiş rəşid uşaq icarəni poza bilər. Amma lazımlı bir fayda o icarənin müddətinin belə uzanmağına səbəb olubsa, belə ki, o müddətdən az uşağın xeyrinin əksinə olsa, bu zaman poza bilməz.

## İcarənin batilolma yerləri

**Məsələ-1713**. Əgər mucir və mustəcir, icarəyə verilən mal, nəzərdə tutulan xeyir və icarə haqqı barəsində deyilən şərtlərdən bəzisi mövcud olmazsa, icarə batildir.

**Məsələ-1714.** Əcir olmaqda icarənin batilolma səbəbləri aşağıdakılardır.

1. İcarəyə aid olan işin icrası mümkün olmasın.

2. Əcir dünyadan getsin. Qeyd edək ki, əgər əcir işi öhdəsinə götürübsə, bu halda o borc sayılır. Buna görə də öləndən sonra onun malından borcu ödənilməlidir.

**Məsələ-1715.** Mucir, ya mustəcirin ölümü ilə icarə batil olmur. Qeyd edək ki, əgər icarə verən şəxsin (mucirin) həmin malın faydasına sahib olması onun həyatı zamanına məhduddursa, bu zaman icarə batil olur. Məsələn, vəsiyyət olunub ki, Həsən nə qədər sağdır, evin mənfəəti onun olsun (yəni evdən o istifadə etsin). Belə

olan halda əgər Həsən evi icarəyə verərsə, onun ölümü ilə icarə batil olur. Əgər onun ölümündən sonra o evin istifadə sahibləri icarəyə icazə versələr, bu zaman icarə batil olmur. Məsələn, vəqf edilmiş mülkün birinci mərhələdə olan istifadəçiləri o mülkü icarəyə verib icarə müddəti qurtarmadan dünyadan getsələr, bu zaman onun növbəti istifadəçiləri icarəyə icazə verdikləri halda icarə əqdi öz qüvvəsində qalır. Amma vəqfin vəlisi vəqfin və növbəti istifa-dəçilərin xeyri əsasında icarəyə veribsə, bu zaman icarə hətta əvvəlki istifadəçilərin ölümü ilə də öz qüvvəsində qalır və növbəti istifadəçilərin icazəsinə ehtiyac yoxdur.

**Məsələ-1716.** Əgər icarəyə verilmiş malın ümumi üzvlərə görə istifadəsi mümkün olmazsa, icarə batildir. Təsəvvür edin, müəyyən bir şəhərə getmək üçün maşını icarə edib, sonra qar yağsa və səfərə getmək mümkün olmasa və ya yol bağlansa, icarə batildir. Amma müstəcirin xəstəliyi üzündən, yaxud müstəcirə aid olan hər hansı bir səbəbə görə o, maşını istifadə edə bilməsə, icarə öz qüvvəsində qalır.

**Məsələ-1717.** İcarəyə verilmiş mal aradan getsə, belə ki, onu istifadə etmək mümkün olmasa, əgər bu, təhvil alandan qabaq olarsa, icarə batildir. Həmçinin əgər təhvil alandan sonra və istifadə edəndən qabaq olarsa, yenə icarə batildir. Əgər istifadə etməsi əsnasında olarsa, icarə qalan müddətdə batil, keçən müddətdə isə səhihdir.

## İcarə haqqının verilmə vaxtı

**Məsələ-1718.** Müstəcir malın icarəsində onu təhvil verən kimi gərək ücrəti tamamilə ödəsin, amma icarə əqdi əsnasında başqa bir şərt olarsa, gərək şərtə əməl edilsin.

**Məsələ-1719.** Əməl (iş) icarəsində (bir şəxsin işgörən kimi əcir olması kimi) iş qurtardıqdan sonra əcir edən şəxs gərək onun muzdunu ödəsin. Amma əqd əsnasında şərt bunun əksinə olarsa, şərtə əməl edilməlidir. Məsələn, əgər mənzili (bir illik) icarəyə

veribsə, gərək o mənzili təhvil verən zaman bir illik icarə məbləğini də ödəsin. Amma aylıq ödəniş şərt olarsa, şərtə əməl edilməlidir. Həmçinin əgər bir şəxsi evini rəngləməsi üçün əcir etsə, rəngsaz işi qurtarmadan muzd tələb edə bilməz. Amma əqd əsnasında işin əvvəlində əcirin pulunun yarısı verilməsi şərt edilsə, gərək şərtə əməl edilsin.

## Şirkətin hökmləri

**Məsələ-1720.** Şirkət bir şeyin (mal, deyn, mənfəət və haqqın) iki nəfər arasında müştərək formada olmasından ibarətdir.

## Şərikliyin səbəbləri

**Məsələ-1721.** Bir neçə şey iki və ya bir neçə nəfər arasında şərikliyə səbəb olur.

1. **İrs:** Şirkətin bütün yerləri: istər mal, alacaq, ya mənfəət olsun, istərsə haqq, irs ilə hasil olur. Məsələn, mal (malın özü) - varisə çatır və bütün varislər onda şərikdirlər. Alacaq - Meyitin birindən alacağı var və onu borclular varisə verməlidirlər. Buna əsasən, varislər bu alacaqda şərikdirlər. Mənfəət – Meyit həyatda ikən icarəyə verib və öldükdən sonra varisə çatır və varislər bu evin mənfəətində şərikdirlər. Haqq - məsələn, meyit həyatda ikən əqdi pozmaq haqqı varislərə yetişir.[1]
2. **Naqil əqd:** İki, yaxud bir neçə nəfər birlikdə alver və icarə kimi hansısa müqavilə ilə bir malın, haqqın, bir şeyin mənfəətinin sahibi olur. Məsələn, mal (malın özü) - İki nəfər bir yeri birlikdə alır. Yaxud "deyn" - İki, ya bir neçə nəfər (həvalə və alver kimi) əqd vasitəsilə müştərək olaraq bir şəxsin, yaxud bir neçə şəxsin deyninə sahib olur. Təsəvvür edin, Həsən Hüseyndən aldığı mal müqabilində ona çek verib. Hüseynin tələb sahiblərindən iki nəfər gəlib. Hüseyn onların razılığı ilə və vacib ehtiyata əsasən, Həsənin razılığı ilə onları Həsənə həvalə edir. Yəni gərək onların alacağını Həsən versin. Burada iki nəfər müştərək

[1] Nümunə üçün "Şüfə" bəhsinin axırıncı məsələsinə müraciət edə bilərsiniz.

şəkildə Həsənin Hüseynə olan deyninin sahibidir və pul hesaba köçürülən kimi o iki nəfərin olacaq. Mənfəət - İki, yaxud bir neçə nəfər (icarə kimi) əqd vasitəsilə müştərək şəkildə bir şeyin mənfəətinə və ya bir mala sahib olur (bir mənzilin iki nəfər tərəfindən icarə edilməsi kimi). Haqq - İki, ya bir neçə nəfər müştərək olaraq birlikdə bir haqqı alır, yaxud sülh edir. Məsələn, bir neçə nəfər kredit götürmək haqqını bir nəfərdən alır.

**3. Hiyazət:** "Hiyazət" yığmaq və əldə etmək mənasındadır. Əgər iki, ya bir neçə nəfər birlikdə və eyni zamanda bir şeyi əldə edərsə, o şeyə şərik olur.
Məsələn, iki nəfərin birlikdə eyni zamanda qiymətli daş-qaşı tapmaları, yaxud onun üzərinə əl qoymaları kimi. Yuxarıdakı izahlardan aydın olur ki, "hiyazət" yalnız malın özünə aiddir (mənfəət, deyn, ya haqqa aid olmur), belə ki, şəriklik yalnız malın özünün hiyazəti ilə hasil olur.

**4. İmtizac:** İmtizac, yəni əşya və malların bir-biri ilə qarışması aşağıdakı şəkildə olur:
**a)** Qarışdıqdan sonra xalq arasında müəyyən oluna bilməyən iki mayenin bir-biri ilə qarışması. Məsələn, su suya qarışanda, badam yağı qoz yağı ilə qarışanda. Burada həqiqi şəriklik yaranır.
**b)** Qarışdıqdan sonra xalq arasında müəyyən edilməyən iki yumşaq və bərk şeyin bir-biri ilə qarışması. Məsələn, buğda və arpa ununun qarışması. Burada həqiqi zahiri şirkət hasil olur.
**c)** Eyni cinsli iki bərk, sərt və xırda şeyin qarışması. Məsələn, qarışdıqdan sonra xalq arasında müəyyən edilməyən buğda ilə buğdanın qarışması. Burada zahiri şəriklik hökmü hasil olur.
**d)** Eyni cinsdən olmayan iki bərk, sərt və xırda şeyin bir-biri ilə qarışması. Məsələn, buğdanın xaşxaşla qarışması. Burada şəriklik yaranmır (burada sülh edilməlidir).
**e)** Eyni cinsdən olan iki bərk, sərt və böyük şeyin bir-biri ilə qarışması. Məsələn, fındığın fındıq ilə qarışması, Burada şəriklik yaranmır (sülh edilməlidir, yəni razılığa gəlinməlidir).

f) Qiymi[1] əşyaların qarışması. Məsələn, geyimlərin (geyimlərlə), qoyunların (qoyunlarla) qarışması.

**Məsələ-1722.** "Qiymi" və "qiymiyyat" o deməkdir ki, onun misli dəqiq olaraq mövcud deyil. Məsələn, qoyunun misli, yəni dəqiq olaraq onun eyni xaricdə mövcud deyil. Çünki qoyunlar bir-birinə nə qədər oxşar olsa, yenə də fərqlidirlər. Amma buğda, düyü, iki min tirajlıq kitabın bir nüsxəsi və bu kimi şeylər misli sayılır (Çünki bunların misli və oxşarı dəqiq olaraq xaricdə mövcuddur).

**Məsələ-1723.** C, D, E bəndlərində şəriklik yaranmır və şərikliyin hökmləri də ona aid edilmir, buna görə də tərəflər razılaşmalıdır.

**Məsələ 1724.** Qarışmaqla yaranan şəriklik yalnız malın özünə aiddir. Deyn mənfəət və haqqa aid olmur.

**5. "Təşrik":** "Təşrik" bir kəsin başqasını öz malına şərik etməsidir. Bu şəriklik istər malın özündə, istər başqasından alacağı olan deyndə, istər icarədə, istərsə də malın mənfəətində, yaxud da əqdpozma ixtiyar haqqı kimi öz haqlarından birinə aiddir. Gərək şərik edən şəxs şərik etdiyi şəxsə desin: səni şərik etdim (məsələn, üçdə birinə). Qeyd edək ki, haqlarda şəriklik müşa kəsri ölçüsü ilə olmalıdır, alınan, yaxud satılan malın, məsələn, üçdə birində haqqı olacaq.

## Əqd şirkəti (ənan şirkəti)

**Məsələ-1725.** Əqd şirkəti iki, yaxud bir neçə nəfər arasında olan əqddir. Belə ki, müamiləni öz malları ilə yerinə yetirib onun mənfəət və ziyanında razılaşdıqları ölçü əsasında səhmləri olsun. Belə bir şirkətə "əqd", ya "ənan" şirkəti deyilir. Yuxarıdakı əqd iki şəkildə olur: ya ikisi arasında olan malda şərik olurlar (belə ki, bu şəriklik irs, hiyazət, naqil əqd, imtizac, təşrikə görə olur) və ya əvvəldən öz mallarını qazanc etmək məqsədi ilə bir-birinə qarışdırırlar.

---

[1] Bazarda misli olmayan mallar və əşyalar qiymi əşyalar adlanır və belə bir mal başqasının əlində aradan gedərsə, onun qiyməti sahibinə qaytarılmalıdır. (Mütərcim)

**Məsələ-1726.** Digər mali əqdlər kimi əqd şirkətində də həddi-büluğa yetişmək, aqil olmaq, məqsədli və ixtiyarlı olmaq, həmçinin məhcur olmamaq şərtdir.

## Batil əqdin şərikliyi

**Məsələ-1727.** Aşağıdakı üç qisimdə şirkət batildir və tərəflər bir-biri ilə şərik olmayacaq:

**1. Əməl şirkəti (əbdan şirkəti):** O əqddir ki, ən azı iki nəfər arasında olur. Bunun əsasında ki, hər birinin zəhmətinin muzdu aralarında müştərək olaraq bölünsün: istər hər ikisinin zəhməti eyni olsun, istərsə də müxtəlif. Məsələn, iki nəfər birlikdə qərara gəlirlər ki, dərzilik edib qazanclarını bölsünlər. Yaxud qərara gəlirlər ki, biri dərzilik, digəri ticarətlə məşğul olub qazanclarını bölsünlər. Bu şəriklik batildir və ondan az və çox olmamaqla onların hər biri öz zəhmət haqqının sahibidir.

**Məsələ-1728.** İki nəfər bir müqavilə ilə və vahid əqdlə müəyyən iş üçün təyin edilmiş məvacib müqabilində iş görsə, yaxud hər ikisi birlikdə bir şeyi əldə etsə, burada şəriklik yaranır və əbdan şirkəti kimi deyil. Bu misallarda birincisi əqd şirkətidir, yəni muzdda şərikdirlər. İkincisi hiyazətdir, yəni əldə etdiklərində işlərinə nisbət şərikdirlər. Burada əgər hər hansının işinin miqdarı məlum deyilsə, ehtiyata əsasən sülh etsinlər.

**2. Vücuh şirkəti:** O əqdə deyilir ki, heç birinin malı olmayan, amma camaat arasında etibarlı olan iki nəfərin arasında bağlanır. Onların hər biri ticarət edir ki, ticarətdən əldə olunan qazanc onların arasında bölünsün.

**3. Müfavizə şirkəti:** Elə bir əqddir ki, iki, ya bir neçə nəfər arasında bağlanır. Buna əsasən ki, nə qədər qazanc edirlərsə, yaxud (irs, vəsiyyət və s. səbəblərə görə) nə onlara çatırsa, ya hər birinə hər cür xəsarət dəyirsə, şərik olsunlar.

## Səhih əqd şirkəti (ənan şirkəti)

**Məsələ-1729.** Əqd şirkəti yalnız mallarda səhihdir (istər nağd, istərsə də nisyə), buna "ənan" şirkəti deyilir.

**Məsələ-1730.** Əqd şirkətində hər iki şərikin sərmayəsi bir-birinə qarışmalıdır. Belə ki, bir-birindən seçilməsin, istər bu qarışma qarışıq şərikliyə səbəb olsun, istərsə də yox.

**Məsələ-1731.** Seçilməyi mümkün olmayan qədər bir-birinə qarışan mallarda ehtiyata əsasən şərikliyin hasil olması üçün gərək digər şəriklikdən istifadə edilsin və ənan şirkətinin səhiholma şərtlərindən kömək alınsın. Məsələn, mümkündür irs, hiyazət, ya təşrik olsun. İki nümunəyə diqqət edin:

1. Təsəvvür edin ki, iki nəfər birlikdə şərikdir. Müştərək sərmayə ilə ticarət edirlər, mənfəət və ziyana şərikdirlər. Burada təsəvvür edin ki, birinin sərmayəsi dəri, digərinin sərmayəsi parçadır. Deməli, hər birinin sərmayəsinin cinsi fərqlidir. Burada iki sərmayə arasında qarışmaq mümkün olmayıb bir-birindən ayrılması mümkün olduğu üçün, gərək başqa bir yolla qarışdırmaq əldə edilsin. Məsələn, "təşrik" şirkətindən kömək almaq olar. Belə ki, biri digərinə desin: "Mən səni öz malımın on faizinə (yəni dərinin) şərik etdim". Qarşı tərəf də desin: "Mən səni, məsələn, öz malımın iyirmi faizinə şərik etdim (yəni parçanın)". Belə olduqda parça və dəri onların ikisinin arasında müştərəkdir. Çünki müəyyən etmək mümkün deyil ki, parçanın və ya dərinin hansı hissəsi birinci şəxsindir, hansı ikincinin. Belə olan halda ənan şirkəti yaranır və bu sərmayə ilə şərikli formada ticarət etmək olar. Hər kəs müqavilə əsasında öz səhminə sahib olacaq.

2. İki nəfər müştərək sərmayə ilə "sərqufli"si də müştərək olan bir məkanda ticarət edir. Bir müddətdən sonra onlardan biri mənfəət və ziyanı hesabladıqdan sonra öz sərmayə və mənfəətini götürüb ayrılır. Amma digər şərik həmin məkanda öz ticarətinə davam edir. Bu halda birinci şəxsin ikincidən tələb haqqı yoxdur. Çünki bir mülkdə, yaxud sərqufli olmuş bir məkanda ticarət etmək ticarətdə və onun

mənfəətində şərik olmaq üçün kifayət etmir. Şərik olmağın meyarı ticarətin
sərmayəsindədir. Sərmayəsini hesablayıb şəriklikdən çıxan şəxs ikinci şəxsdən yalnız ticarət yerində öz səhminin müqabilində icarə almaq haqqı var.

## Şərikliyin hökmləri

**Məsələ-1732.** Şəriklərin heç birinin başqa şərikin icazəsi olmadan şərikli malı istifadə etmək haqqı yoxdur. Yalnız bütün şəriklər arasında istifadəyə icazə verilən qədər istifadə etmək haqqı var. Məsələn, nisyə satmaq üçün şəriklər arasında razılıq olmadan, yaxud razılığa dəlalət edən bir şey olmadan nisyə sata bilməz. Təsəvvür edin şəriklərin bəzisi digər şəriklərin icazəsi olmadan şərikli (müşa) mülkü satır. Bu müamilə yalnız işi görənlərin səhmi müqabilində səhihdir. Digər şəriklərin səhmlərinin səhih olması onların icazəsinə bağlıdır. Həmçinin əgər bir şərikə müşa şərikliyi olan evdə sakin olmasına icazə verilib. O evdə sakin olmaq bu şərik üçün caizdir, hətta ailə üzvlərini də burada sakin edə bilər. Çünki o şərikin orada yaşamasına icazə verməyin mənası budur ki, ailə üzvləri də o evdən istifadə edə bilsinlər. Həmçinin belə bir evə qonaq gəlməsinin də işkalı yoxdur.

**Məsələ-1733.** Şəriklik səbəbindən asılı olmayaraq bütün şirkətlərdə şəriklərdən birinin öz səhmini ayırmaq məqsədi olarsa və digərləri buna razı olmazlarsa, o şəxs şəriət hakiminə müraciət edə bilər.

**Məsələ-1734.** Şəriklərdən heç birinin haqqı yoxdur ki, onlardan birinin şəriklikdən ayrılmağına mane olsun. Həmçinin haqqı yoxdur ki, öz səhmini götürüb günahda istifadə etmək qorxusuna görə ayrılan şərikə öz haqqını almağa mane olsun. Yalnız nəhy-əz-münkər etməlidirlər.

**Məsələ-1735.** Əqd şərikliyində şəriklərin hər biri öz sərmayə səhminin nisbətinə əsasən mənfəət və ziyana şərikdir. Amma əqddə

onlardan birinin öz sərmayəsinin səhmindən artıq olaraq mənfəət götürməsi şərt edilsə, bu şərt səhihdir.

**Məsələ-1736.** Şərik əmindir (əmanətdar sayılır). Buna əsasən, malın aradan getməsində səhlənkarlıq etməzsə və ya həddini aşmazsa, zamin deyil. Deməli, əgər şərik məhkəmə qarşısında and içməklə səhlənkarlıq etməsini, ya həddini aşmasını inkar edərsə, sözü qəbul edilir.

**Məsələ-1737.** Şirkət əqdi caiz əqdlərdəndir (yəni o əqdlərdəndir ki, hər bir şərik bu əqdi poza bilər). Hətta əgər şirkət əqdinin əsnasında müəyyən zamana qədər şirkət əqdini heç bir şərikin pozmamasını şərt etsə, yenə də şəriklər üçün əqdpozma haqqı yerindədir. Bəli, əgər bu haqda sülh olarsa, yaxud bu şərt başqa bir lazım əqd əsnasında olarsa, o zaman şərt öz təsirini qoyacaq. Hətta əgər lazım əqd əsnasında deyil, başqa caiz əqd əsnasında belə bir şərt qoyulsa, nə qədər ki, şərt qoyulan caiz əqd yerindədir, şərtə əməl etmək vacibdir.

## Rəhnin (girovun) hökmləri

**Məsələ-1738.** Rəhn odur ki, borclu bir malı ona verəcəyini ödəyə bilmədiyi təqdirdə alacağını o maldan götürməsi üçün tələb sahibinin yanında qoyulur.

**Məsələ-1739.** Hazırda mənzil, yaxud mağaza rəhni adı ilə sahibinə ödənilən məbləğ rəhn deyil. Bu əslində elə borcdur ki, mənzil sahibinə verilir. Əgər belə borc vermək müqabilində ona mənzili icarəyə vermək, yaxud icarə məbləğini azaltmaq şərtiylə olsa, bu, riba və haramdır. Amma evin, ya mağazanın sahibi öz mülkünü az məbləğə müstəcirin müəyyən məbləğdə ona borc verməsi şərtiylə icazəyə versə, bunun işkalı yoxdur.

**Məsələ-1740.** Rəhn qoyan və alan şəxsin şərtləri aşağıdakılardır: Həddi-büluğa çatmalı, aqil, məqsədli və ixtiyarlı olmalıdır. Bundan əlavə rəhn qoyan şəxsdə səfehlik və iflasa uğramaq kimi öz malında istifadə etməyə mane olan səbəblərin olmaması da şərtdir.

**Məsələ-1741.** Uşağın və dəlinin vəlisi mənfəətlərinə riayət etməklə onların tərəfindən rəhn qoyub ala bilər.

**Məsələ-1742.** Rəhn qoyan və alan şəxslər tərəfindən rəhn məqsədini çatdıra biləcək dilə gətirilən hər bir söz rəhnin siğəsi adlanır. Bu söz kimi həmin məqsədi çatdıran hər bir əməl də kifayətdir. Məsələn, Əhmədin Həsəndən yüz min alacağı var. Buna görə də ondan girov tələb edir. Həsən də öz üzüyünü Əhmədin yanında qoyur. Bu rəhn əqdinin hasil olması üçün kifayətdir.

**Məsələ-1743.** Şəri rəhnin yaranması üçün girovun (girov qoyulan mal) girov verilən şəxsə təhvil verilməsi lazımdır. Əgər qabaqcadan onun əlində olubsa, gərək girov qoyan şəxs həmin malı onun yanında rəhn kimi qalmasına icazə versin.

**Məsələ-1744.** Əgər rəhn müşa[1] maldırsa, gərək şərikin icazəsi ilə verilsin. Şərikin icazəsi olmadan verilməsi günahdır. Amma bu, rəhni təhvil vermək hesab olunur. Məsələn, iki nəfər bir avtomobilə şərikdir. Onlardan birinin Əliyə borcu var və avtomobildə olan öz müşa səhmini rəhn kimi Əliyə təhvil verir. Burada əgər həmin iş şərikin icazəsi olmadan olarsa, günah edib. Amma öz müşa səhmi şəri baxımdan rəhn hökmündədir. Belə ki, məsələn, borclu şəxsin öz səhmini satmağa haqqı yoxdur, çünki girovdadır (satmaq üçün Əlidən icazə almalıdır).

**Məsələ-1745.** Rəhnin təhvil verilib təhvil alınmasında onun ibtidai verilib alınması kifayətdir. Yəni rəhn verilən şəxsin yanında qalması lazım deyil. Hətta əgər həmin şəxsin icazəsi olmadan onun əlindən çıxsa, rəhn əqdi batil olmur və hökmü öz qüvvəsində qalır. Baxmayaraq ki, onun icazəsi olmadan olarsa, bu iş günahdır.

**Məsələ-1746.** Girov qoyulan malın bir neçə şərti var.

1. Malın özü olmalıdır: məsələn, evin mənfəəti girov sayıla bilməz. Amma təhvil alınmamış tələb və alınacaq girov ola bilər. Onu təhvil almaq da xaricdə onun özünün təhvil alınması ilədir.

[1] Şəriklərin səhmi ayrılmayan mallar müşa mallar adlanır. (Mütərcim)

2. Satılması səhih olan mülk olmalıdır: məsələn, şərabı, ya başqasının icazəsi olmadan onun malını girov qoymaq olmaz (şərab şəri baxımdan mülk ola bilməz, başqasının malı isə onun icazəsi olmadan satıla bilməz).

3. Təhvil verib-almaq mümkün olsun: məsələn, göydə uçan və çox vaxt qayıtmayan quşu girov qoymaq olmaz.

4. Müəyyən olsun (ən azı qiymət və ya növ baxımından).

**Məsələ-1747.** Sahib olmadığımız malın girov qoyulması onun sahibinin icazəsinə bağlıdır. Buna əsasən, əgər başqasının razılığı olmadan onun malını girov qoyarsa, sahibi razı olmadıqda rəhn batildir. Amma razı olub-olmamağı məlum olmazsa, onun nəzərinin məlum olunması gözlənilməlidir ki, sonradan razı olduqda rəhn səhih, olmadıqda isə batil olacaq. Misal üçün, sahibinin icazəsi ilə onun evini girov qoymaq olar.

**Məsələ-1748.** Borclu şəxsin rəhn sahibi olması lazım deyil. Hətta əgər başqası borclu şəxsin icazəsi olmadan, yaxud hətta onun inkar etməsi ilə belə öz malını tələb sahibinin yanında girov qoyarsa, rəhn əqdi səhihdir.

**Məsələ-1749.** Əgər bir şəxs borclu tərəfindən tələb sahibinin yanın-da öz malını girov qoysa, artıq bu işdən imtina edə bilməz. Amma rəhn qoyduğu şəxs, yəni tələb sahibinin razılığı ilə bu işdən imtina etməsi caizdir.

**Məsələ-1750.** Əgər tələb sahibi rəhn adı ilə yanında qoyulmuş malı sahibinin razılığı ilə satsa, mal sahibi yalnız o zaman borclu şəxsdən öz malını tələb edə bilər ki, malını borcluya girov qoymaq üçün ariyə vermiş olsun.

Tələbin məbləği aşağıdakı şərhlədir:

1. Ən azı bazar qiymətinə satılmış olsun. Bu zaman satılmış qiyməti tələb edə bilər.
2. Bazar qiymətindən aşağı satılmış olsun. Bu zaman bazar qiymətini tələb edə bilər. Məsələn, əgər Əli evini dostu Rza üçün

(Rzanın borcuna görə) borclu olduğu şəxsin (Hüseynin) yanında girov qoysa, müddət başa çatdıqdan sonra Rza borcunu ödəyə bilməsə, Hüseyn Əlinin evini satıb öz pulunu götürə bilər. Amma Rzanın istəyi ilə Əli öz evini onu girov qoyması üçün onun ixtiyarında qoyubsa və Hüseyn də onu satsa, əgər evin həqiqi qiyməti bazarda yüz milyonadırsa, bununla belə aşağı satarsa, Əli yüz milyonu tələb edə bilər. Əgər qiymətindən yuxarı satarsa, Əli yuxarı qiyməti də tələb edə bilər.

**Məsələ-1751.** Girov qoyulan mal məchul (qaranlıq) olmamalıdır. Bu-na əsasən, əgər "bu iki maldan birini rəhn qoydum" - desə, səhih de-yil. Deməli, tələb sahibinin yanında girov qoyulan mal aşağıdakılardan biri ilə müəyyən edilməlidir:

1. Həm mal müəyyən olsun, həm onun qiyməti.
2. Mal məchul olduqda qiyməti məlum olsun: məsələn, qutuda olan naməlum malın məlum edilmiş qiyməti kimi.
3. Qiyməti məchuldur, amma malın növü məlumdur. Məsələn, bütün xüsusiyyətləri məlum olan, amma bazarda qiyməti bilinməyən mal.

**Məsələ-1752.** Tələb (tələb sahibinin alacağı girov qoyulan borc, ya mal) müddətli şəkildə olsa belə, gərək borclunun öhdəsində olsun. Buna görə də hələ borclunun öhdəsinə gəlməmiş tələbin müqabilində girov qoymaqla şəri əqd yaranmır. Məsələn, Həsən gələn ay Əlidən alacağı yüz min borcun müqabilində bu gün öz üzüyünü rəhn qoyarsa, həmin rəhn batildir. Çünki Həsən Əliyə borclu deyil.

**Məsələ-1753.** Əgər rəhn elə borcun ödəmək zamanı yetişəndən qabaq aradan gedən bir mal olsa, bunun iki halı var:

1. Əgər rəhn əqdində bildirilsə (ya buna dəlalət edən bir şey ola) ki, mal xarab olandan, ya aradan gedəndən qabaq satıla bilsin, bu halda rəhn səhihdir və aşağıdakı mərhələlərə tərtiblə riayət olunmalıdır:

a) Rəhn qoyan şəxs vasitəsilə satılsın.

b) Rəhn qoyulan şəxs vasitəsilə rəhn qoyan şəxs tərəfindən satılsın.

c) Şəriət hakimi məcbur etsin.

d) Şəriət hakimi özü satsın.

e) Yanında rəhn qoyulan şəxs satsın və hər halda onun qiyməti rəhn sayılır.

2. Əgər müəyyən edilmiş müddətə qədər rəhnin satılmaması barədə şərt edilsə, yaxud onun satılıb-satılmaması haqda heç bir şərt olmayıb heç bir əlamət də buna dəlalət etməsə, belə halda rəhn borc müddətindən tez aradan getdiyi üçün rəhn batildir.

**Məsələ-1754.** Əgər rəhn borc müddəti başa çatdıqdan qabaq aradan getməyən mal olsa, amma təsadüfi olaraq xarab olmaq astanasında olarsa, bu rəhn səhihdir. Amma xarab olandan qabaq satılma haqqı var və onun pulu rəhn kimi qoyulur.

**Məsələ-1755.** Borcun ödənilmə müddəti yetişdikdən sonra rəhn qoyan şəxs öz borcunu ödəməsə, aşağıdakı mərhələlərə riayət olunmalıdır:

1. Əgər yanında rəhn qoyulan şəxs rəhn qoyan şəxs tərəfindən girovu satmaqda vəkildirsə, onu satır və bu zaman girov qoymuş şəxsə müraciət etməyə ehtiyac yoxdur.

2. Əgər girovu saxlayan şəxs vəkil edilməyibsə, bu halda hətta giro-vun satılması, yaxud onun girovunun satılmasına vəkil edilməsi bahasına olsa belə, alacağını tələb edir (Girov saxlayan girov qoyana deyir ki, girovu özün sat və mənə olan borcunu ödə).

3. Birinci və ikinci bənd olmazsa, şəriət hakimi məcbur edir. Amma yanında rəhn qoyulmuş şəxs borclunun, ya onun varisinin deyni inkar etməsindən qorxarsa, bu zaman şəriət hakiminin icazəsi ilə özü satır.

**Məsələ-1756.** Əgər şəriət hakimi yoxdursa, yaxud ondan icazə almaq mümkün deyilsə, tələb sahibi özü satır.

**Məsələ-1757.** Yuxarıda deyilən bütün yerlərdə girov qoyulan mal satıldıqda onun artığı əlində şəri əmanətdir, gərək yerdə qalanını girov qoyan şəxsə qaytarsın. Məsələn, bir şəxs kredit götürmək

üçün öz evini bankda girov qoyur. Sonra borcun vaxtı yetişdikdən qabaq ölür. Onun kiçikyaşlı varisləri borcu bütövlükdə ödəyə bilmir. Nəticədə bank evi saxlamalı və sülh etməli olur. Evin qiyməti götürülən kreditdən dəfələrlə çox olduğu üçün yerdə qalan miqdar varislərin malıdır.

**Məsələ-1758.** Əgər girovun bir hissəsini satmaqla tələb sahibinin borcu ödənilirsə, bu zaman girovu bütövlükdə satmaq olmaz. Amma girovun bir hissəsini satmaqla onun sahibinə zərər dəyirsə və ya qalan hissəni satmaq mümkün deyilsə, bu zaman bütöv satıla bilər.

**Məsələ-1759.** Girov qoyan şəxsin tələb sahibinin icazəsi olmadan girov qoyduğu malı istifadə etməyə haqqı yoxdur. Amma onun istifadəsinin girov qoyduğu mala xeyri varsa, bu zaman istifadə edə bilər. Məsələn, girov qoyulmuş ağacları sulamaq, ya qoyunlara ot vermək. Bu şərtlə ki, qoyunlar, ya ağacları rəhn qoyduğu şəxsin əlindən çıxarmasın.

**Məsələ-1760.** Əgər girov qoyan şəxs yanında girov qoyduğu şəxsin icazəsi olmadan girov qoyduğu malı başqasının mülkünə keçiril-mədən[1] istifadə edərsə, günah edib. Mal aradan getməyibsə, boynunda bir şey yoxdur. Amma aradan gedərsə, gərək onun həqiqi qiymətini rəhn kimi rəhn qoyduğu şəxsə təhvil versin.

**Məsələ-1761.** Rəhn qoyduğu şəxsin icazəsi olmadan rəhndə başqa-sının mülkünə keçirilən[2] istifadələr edərsə, gərək müamilənin səhih olması üçün rəhn qoyduğu şəxsdən icazə alsın. İcazə verərsə səhih, icazə verməzsə rəhnin batil olub-olmaması aşağıdakı kimidir:

A) Satarsa: Əgər rəhn qoyduğu şəxs icazə verərsə, rəhn batildir (çünki tələb sahibi qəbul edib ki, bu mal daha girovda olmasın və başqasına satılsın). Məsələn, Əli öz üzüyünü Həsənin (tələb sahibinin) yanında girov qoyur, amma Əli bu üzüyü Həsənin icazəsi olmadan Hüseynə (üçüncü bir şəxsə) satır. Əgər Həsən bu alveri qəbul edərsə, artıq rəhn pozulur.

---

[1] Məsələn, özü üçün işlədərsə. (Mütərcim)

[2] Alver və hədiyyə etmək kimi istifadələr mülkə keçirtmək istifadələri sayılır. (Mütərcim)

B) İcarəyə verərsə: Əgər rəhn qoyduğu şəxs icazə verərsə, rəhn öz qüvvəsində qalır (çünki tələb sahibi qəbul edib ki, rəhn icarəyə verilsin, amma malın girovdan xaric olmasını qəbul etməyib). Məsələn, Əli yuxarıdakı misalda Həsənin icazəsi olmadan üzüyü Hüseynə (üçüncü bir şəxsə) müəyyən məbləğ müqabilində bir ay istifadə etmək üçün icarəyə verir. Əgər Həsən bu icarəni qəbul edərsə, rəhn öz qüvvəsində qalır.

**Məsələ-1762.** Əgər alver müamiləsindən qabaq icazə versə, bu da rəhnin batil olmasına səbəb olur.

**Məsələ-1763.** Yanında girov qoyulmuş şəxs hətta deynin müstəsnalarından[1] olan girovu da öz alacağını almaq üçün "Rəhnin satılmasının caiz olması şərtləri" bölməsində deyilən şərtlərlə sata bilər.

**Məsələ-1764.** Əgər girov qoyan şəxsin bir neçə verəcəyi olan şəxs olsa və o, iflasa uğrasa, bu zaman rəhn qoyduğu şəxsin haqqı başqa tələb sahiblərinə nisbət müqəddəmdir. Buna əsasən, girov qoyulmuş mal yanında girov qoyulan şəxsin haqqından çoxdursa, rəhnin yerdə qalanı digər tələb sahiblərinin arasında bölünür. Əgər girov qoyulmuş mal yanında girov qoyulan şəxsin haqqından azdırsa, bu zaman yanında girov qoyulan şəxs o biri tələb sahibləri ilə birlikdə rəhn qoyan şəxsin malında şərikdir.

**Məsələ-1765.** Girovun girov müddətində olan bütün mənfəətləri girov qoyan şəxsindir. Məsələn, girov qoyulan ev icarə verilərsə, yaxud qabaqcadan icarədə olubsa, icarə pulu onun sahibinindir.

**Məsələ-1766.** Girov qoyulmuş malın birləşmiş və ayrı mənfəətləri[2] girov qoyan şəxsə aiddir. Baxmayaraq ki, birləşmiş mənfəətlər girov qoyulmuş mala tabedir. Məsələn, Vahid bir qoyunu ondan olan tələbi müqabilində Xosrovun yanında girov qoyub ki, bir ildən sonra

---

[1] Deynin müstəsnalarında məqsəd o mallardır ki, həyatın zərurilərindəndir: ev, avtomobil, ev əşyaları kimi tələb sahibi öz tələbinə yetişmək üçün bunları borclu şəxsdən ala və ya sata bilməz.

[2] Ayrılmış mənfəətlər qoyunun bala verməsi, ağacın meyvə verməsi, heyvanın yununun artması və s. kimi. Birləşmiş mənfəətlər qoyunun kökəlməsi kimidir.

borcunu ödəyib girov qoyduğu qoyunu geri alsın. Bu bir il müddətində qoyun bala verir, yunu da çoxalıb qırxılır. Qoyunun balası və yunu Vahidindir, Xosrovun onda heç bir haqqı yoxdur.

Həmçinin xalq arasında rəhnə daxil olan şeylərin istifadəsi yanında girov qoyulmuş şəxsin icazəsinə bağlıdır.

**Məsələ-1767.** Rəhn əmanət hökmündədir. Buna görə də yanında girov qoyulmuş şəxs onu qorumaqda səhlənkarlıq etsə, nəticədə mal aradan getsə, zamindir. Məsələn, Vahid bir qoyunu ondan olan tələbi müqabilində Xosrovun yanında girov qoyub ki, bir ildən sonra borcunu ödəyib girov qoyduğu qoyunu geri alsın. Əgər Xosrov qoyunu saxlamaqda səhlənkarlıq etsə, nəticədə qoyun eyibli olsa, məsələn, ayağı sınsa, yaxud ölsə, Xosrov Vahidə vurduğu zərəri ödəməlidir.

**Məsələ-1768.** Yanında girov qoyulmuş şəxsin girov qoyulmuş maldan girov qoyan şəxsin icazəsi olmadan qeyri-naqil[1] istifadə edərsə, bu zaman istifadə etdiyi mənfəətin muzdunu verməlidir. Girov qoyulmuş mal aradan getdikdə onun həqiqi qiymətini də ödəməlidir. Əgər naqil istifadə edərsə, müamilə füzulidir və gərək girov qoyan şəxs sonradan icazə versin. Əgər girov qoyan şəxs icazə verərsə, müamilənin pulu rəhn olacaq, amma girov qoyan şəxsindir. Əgər icarəyə icazə verərsə, rəhn qoyduğu mal öz qüvvəsində qalır. İcarə pulu da mal sahibinindir. Məsələn, Əli üzüyünü borclu olduğu Həsənin yanında girov qoyur, amma Həsən Əlinin icazəsi olmadan üzüyü istifadə edir və üzük itir. Gərək Həsən üzüyün qiymətini Əliyə ödəsin və rəhn batildir. Yaxud təsəvvür edin, bir ev girov qoyulub. Həsən Əlinin icazəsi olmadan onu satıb, yaxud icarəyə verib. Satdıqda alverdən gələn pul rəhn olaraq qoyulmalıdır. İcarəyə verdikdə icarə pulu Əliyə aiddir və ev rəhn kimi qalır.

**Məsələ-1769.** Yanında girov qoyulan şəxsin ölüm nişanələri aşkar olduqda aşağıdakı məsələlər ona vacib olacaq:

---

[1] Malın başqasının mülkünə keçirilməsi "naqil" istifadə adlanır, alver və hədiyyə etmək kimi, amma başqasının mülkünə keçirmədən işlədərsə, "qeyri-naqil" istifadə adlanır. (Mütərcim)

1. Girov qoyulmuş malı öz malları arasında müəyyən edib varisə nə-sihət etməlidir.
2. Rəhn qoyan şəxsi müəyyən etməlidir. Yəni gərək girov qoyulmuş malın sahibinin kim olduğunu desin.
3. Birinci və ikinci bəndin mətləblərinə şahid tutmalıdır, əks halda əgər öldükdən sonra girov qoyan şəxs öz borcunu ödəyib girov qoyduğu mala çatmasa, yanında girov qoyulan şəxs zamindir.

**Məsələ-1770.** Girov onun yanında olan zaman dünyasını dəyişsə, bu halda əgər rəhnin onun malları arasında olub-olmaması, həmçinin rəhnin onun səhlənkarlığı əsasında aradan gedib-getmədiyini bilməsələr və ya o şəxs ölənə qədər rəhnin onun yanında qalmağını bilib, amma hələ də malların içində olmasını, yaxud sahibinə qaytarmağını, yaxud satıb pulunu götürməyini və ya səhlənkarlıq üzündən malın tələf olmasını bilməsələr, bu halların heç birində varisin öhdəsində heç bir şey yoxdur.

**Məsələ-1771.** Rəhn qoyan şəxs, ya yanında rəhn qoyulan şəxsin ölümü ilə rəhn əqdi varislərə keçir. Amma rəhn qoyan şəxs yanında rəhn qoyulan şəxsin varislərini əmin və etibarlı bilməzsə, əgər müəyyən bir şəxsə keçməsinə razı olsalar və rəhn qoyan şəxs, ya onun varisi, ya rəhn qoyulan şəxsin varisləri onu qəbul etsələr, həmin şəxs rəhni, yanında rəhn qoyulan şəxsin varislərinin əvəzinə ixtiyarına götürür. Əgər müəyyən bir şəxsin ixtiyarına keçməsinə razılaşmasalar, şəriət hakimi istədiyi şəxsə onu tapşırır. Şəriət hakimi olmadıqda ədalətli möminlər istədiyi şəxsə təhvil verir.

**Məsələ-1772.** Bir malı iki nəfər yanında girov qoymaq olar. Bu şərtlə ki, yanlarında girov qoyulan şəxslər buna razı olsunlar. Əgər yanla-rında girov qoyulan iki şəxsin məqsədi birinci girovu poz-maqdırsa, şübhəsiz, yalnız ikinci girov öz qüvvəsində qalacaq.

**Məsələ-1773.** Tələb sahiblərindən biri rəhn əqdini pozarsa, öz haq-larını rəhndən götürə bilməz. Məsələn, təsəvvür edin Xosrov Vahid və Nasirə borcludur. Vahid və Nasirin razılaşması ilə öz evini o iki nəfərin yanında girov qoyur. Bu iş şəriət baxımından düzgündür.

Yəni Vahid və Nasirin hər hansı biri öncədən razılaşma əsasında öz tələbini Xosrov borcunu vermədikdə evi satmaqla təmin edə bilər. Amma Vahid rəhn əqdi pozulmasını və evin təkcə Nasirin tələbinə görə qalmasını qəbul etsə, daha Vahidin tələbini götürmək üçün evi satmaq haqqı yoxdur.

**Məsələ-1774.** Əgər borclular bir nəfərdən çox olub hamısı şərikli olaraq bir malı girov qoysalar, hər hansı öz borcunu ödəsə, onun rəhni girovdan azad olur. Təsəvvür edin, iki nəfər müştərək şəkildə bir evə sahibdir və Vahidə də borcları var. Hər ikisi bu evi Vahidin yanında girov qoyur, amma bunlardan biri öz borcunu ödəyir, buna görə də yalnız borcunu ödəyən şəxsin evdən olan müşa səhmi rəhndən azad olur və borclu qalan şəxsin səhmi isə Vahidin yanında girov olaraq qalır.

**Məsələ-1775.** Tələb sahibləri bir nəfərdən artıq olub hamısı müştərək şəkildə hansısa malı həmin borclu şəxsdən girov olaraq alarsa (vahid rəhn əqdi ilə), əgər hər birinin tələbi başqaları ilə bərabərdirsə, tələb sahiblərindən hər birinin bərabər şəkildə rəhnə nisbət haqqı var. Əgər onlardan hər birinin tələbi başqaları ilə fərqlidirsə, hər birinin öz tələbinə uyğun girov qoyulmuş malda haqqı var. Məsələn, Xosrov Vahidə yüz min, Nasirə isə üç yüz min borcludur. Öz motosikletini girov olaraq Vahid və Nasirin yanında qoyur. Əgər Xosrov öz borcunu bu iki nəfərdən birinə, yaxud hər ikisinə ödəməzsə, borc sahiblərinin hər birinin səhmi motosikletdən öz tələbinin nisbəti qədərindədir.

**Məsələ-1776.** Borclu olan şəxsin iki borcu olub onların biri üçün tələb sahibinin yanında girov qoyaraq ikinci borcu üçün girov qoymasa, əgər hər iki borc eynidirsə və onlardan birinin qədərində tələb sahibinə ödəyərsə, amma müqabilində rəhn qoyduğu borcu ödəmək niyyəti etməyibsə, rəhn girovdan azad olmur. Məsələn, təsəvvür edin Xosrov yanvar və fevral aylarının hər birində Vahiddən yüz min manat borc alıb və birinci borca görə öz avtomobilini onun yanında girov qoyub. May ayında Vahidə yüz min manat verir, amma birinci aldığı borcu ödəmək niyyəti etmir. Bu halda avtomobil hələ də girovda qalmalıdır.

**Məsələ-1777.** Tələb sahibləri, ya borcluların bir neçə nəfər olmasının hökmü o yerə aiddir ki, əvvəldən bir neçə nəfər olsunlar, nəinki sonradan rəhn qoyan, yaxud yanında rəhn qoyulan şəxsin ölümü nəticəsində varisləri çox olmasına görə sayları çoxalsın.

## Vəkalətin hökmləri

**Məsələ-1778.** Vəkalət bir işi həyatda olan zamanadək[1] başqasına həvalə etməkdir. Vəkalət əqdi yazmaqla, sözlə, yaxud onun məzmununu çatdıran hər hansı bir işlə hasil olur. Məsələn, "sən mənim vəkilimsən", ya "bu işi sənə tapşırdım" deyərsə, yaxud bir malı satmaq üçün başqasına təhvil verərsə, vəkalət əqdi yaranır. Hətta əgər vəkalət yazısı uzun bir müddətdən sonra müqabil tərəfin əlinə çatsa və o buna razı olarsa, kifayətdir.

**Məsələ-1779.** Vəkalətin əsli ehtiyata əsasən, bir şeyə bağlı olmamalıdır. Amna vəkalət verilən iş bir şeyə bağlı ola bilər. Məsələn, "Əgər Həsən gələrsə, səni vəkil edirəm", - desə bu əqd batildir. Amma "Həsən gələn vaxt evimi satmaq üçün sən mənim vəkilimsən",- desə (başqa sözlə), yəni səni indidən vəkil edirəm ki, Həsən gələn zamanda mənim evimi satasan. Burada vəkillik Həsənin gəlməyinə bağlı deyil, lakin evi satmaq onun gəlməyinə bağlıdır.

## Müvəkkil və vəkilin şərtləri

**Məsələ-1780.** Müvəkkil və vəkil aşağıdakı şərtlərə malik olmalıdır:
1. Həddi-büluğa çatmalıdır: Vəkilin müməyyiz uşaq olması kifayət deyil. Təkcə (alver, nikah, icarə və s. kimi) əqdin siğəsini oxumaqda vəkil ola bilər. Müvəkkildə (müməyyiz uşaq olarsa) onun bəzi işləri icra etməsində caiz bildiyimiz yerlərdə başqasını vəkil edə bilər. Məsələn, on yaşlı uşaq şəri baxımdan mallarımın üçdə bir hissəsi xeyir işlərdə xərclənməsini vəsiyyət edə bilər. Buna görə də o uşaq

[1] Məqsəd budur ki, vəkalət əqdi müvəkkil həyatda olan zamanadək qüvvədə ola bilər və vəfat etdikdən sonra, əqd pozulur. (Mütərcim)

başqasını vəsiyyət etməkdə vəkil edə bilər. Yəni vəsiyyət etməyi başqasına tapşıra bilər.

2. Əql: Dəli olan şəxs nə vəkil, nə müvəkkil ola bilər.

3. Qəsd (məqsədli olmaq): Yəni səhvən və ya yuxuda olmasın.
4. İxtiyar: Kimsə onu məcbur etməsin. Məsələn, ölümlə və ya malını aradan aparmaqla təhdid edilməsin, belə ki, ikrah hesablansın.
5. Məhcur olmasın: Müvəkkil (vəkil edən şəxs) vəkil etdiyi işdə müdaxilə etmək haqqı olsun. Belə ki, onu istifadə etmək haqqına malik olsun. Buna görə də iflasa uğrayan şəxs mallarını satmaq üçün başqasını vəkil edə bilməz, amma vəkildə belə bir şərt yoxdur.

**Məsələ-1781.** Vəkil, ya müvəkkilin müsəlman olması şərt deyil. Buna əsasən, fitri mürtəd də vəkil ola bilər, yalnız kafir vasitəsilə yerinə yetirilməsi səhih olmayan işlərdə vəkil ola bilməz. Məsələn, kafiri hətta əgər müsəlman tərəfindən vəkil olsa belə, müsəlmandan bir haqqı almaq, müsəlmanla düşmənçilik etmək üçün vəkil etmək olmaz.

**Məsələ-1782.** Vəkil, yaxud müvəkkilin şərtləri barəsində deyilənlər həm əvvəldə, həm də işin davamında şərt hesab edilir. Buna əsasən, əgər şərtlərdən biri aradan gedərsə, vacib ehtiyata əsasən, əqd batil olur. Dəli olmaq, huşunu itirmək və s. kimi.

## Vəkilliyi batil edənlər bunlardır

1. Vəkilin ölümü;
2. Müvəkkilin ölümü, hətta vəkil bilməsə belə;
3. Vəkil, yaxud müvəkkildə itbaqi[1] dəliliyin yaranması;
4. Vacib ehtiyata əsasən, vəkilin, yaxud müvəkkilin huşunu itirməsi;
5. Vəkillik verilən şeyin aradan getməsi. Məsələn, evin satılmasında vəkildirsə, ev aradan gedərsə;

---

[1] İtbaqi, ya daimi dəlilik odur ki, şəxsin dəli olması daimi olsun və adi hala qayıtmasın. Bunun əksi ədvari dəlilikdir ki, bəzən dəli olur bəzən ağıllı.

6. Müvəkkilin özü vəkilə tapşırdığı işi yerinə yetirərsə. Məsələn, göstərilən misalda evi özü satarsa;
7. Müvəkkil vəkilliklə zidd olan hər hansı bir işi görərsə. Məsələn, evi satmaqda vəkil edib, lakin evi vəqf edərsə. Çünki vəqf etmək bu vəkilliyi ləğv etmək deməkdir;
8. Müvəkkilin vəkalət verdiyi şey barədə iflasa uğraması.

## Vəkillik verilən işlərin şərtləri

**Məsələ-1783.** Vəkillik verilən işlər aşağıdakı şərtlərə malik olmalıdır:
1. O iş vəkil və müvəkkil üçün şəri baxımdan caiz olsun. Məsələn, ehram halında olan şəxs nə başqasını nikah əqdinin icrasında, yaxud ov almaqda vəkil edə bilər, nə də özü vəkil ola bilər. Həmçinin qumar, qəsb və s. kimi haram işlərə vəkillik caiz deyil.

2. O iş şəri baxımdan müvəkkilin ixtiyarında olan işlərdən olmalıdır.

3. O elə işlərdən olmalıdır ki, vəkilin gələcəkdə də olsa, onu yerinə yetirməyə imkanı olsun. Belə ki, vəkillik icrasının şəraitini hazırlamaqda da vəkil olsun. Məsələn, bir şəxs bir xanımı talaq verməkdə vəkildir, amma bu qadın hələ müvəkkilin xanımı deyil. Lakin bu vəkil həmin qadının nikahında vəkil olduğuna görə talaq üçün də vəkil olması səhihdir.

4. O işlərdən olsun ki, başqasına həvalə etmək mümkün olsun. Yəni o işi bir-başa yerinə yetirmək şərt olmasın. Buna əsasən, oruc, həcc, zəkat və s. kimi cismi ibadətlərin başqasına şəri baxımdan həvalə edilməsi mümkün olmadığı üçün bu işlərdə vəkil etmək də caiz deyil (baxmayaraq ki, bu işlərdə naib olmaq səhihdir. Həcc əməlini yerinə yetirməkdə aciz olan şəxsin tərəfindən naib olmaq və ya meyitin namaz və oruclarını yerinə yetirməkdə naib olmaq kimi).

Həmçinin and içmək, lian[1], ila[2], şəhadət vermək və iqrar (etiraf) etmək kimi işlərdə vəkalət olmaz.

**Məsələ-1784.** Zəkat, xüms və kəffarə kimi mali ibadətlərdə istər maldan ayırmaq, istərsə də aid olduğu şəxsə çatdırmaqda olsun, vəkillik caizdir.

Müəyyən bir iş olsun: (bu müəyyənlik) ümumi şəkildə də olsa olar. Məsələn, "Bütün işlərimdə mənim vəkilimsən", - desə, bu əqd səhihdir. Amma müəyyən etmədən "İşlərimin birində vəkilimsən", - desə, bu əqd və vəkillik batildir.

**Məsələ-1785.** Vəkalət əqdi caiz əqddir, yəni həm vəkil, həm müvəkkilin (vəkil edən şəxs) hər biri istədiyi zaman hətta müqabil tərəf onun yanında olmadan əqdi poza bilər. Başqa sözlə, vəkil hətta müvəkkil olmayan yerdə də özünü vəkillikdən azad edə bilər. Necə ki, müvəkkil də hətta vəkil olmayan zaman onu vəkillikdən azad edə bilər. Amma müvəkkil vəkil olmayan yerdə onu azad etdikdə bu xəbər (etibarlı olaraq) vəkilə yetişəndən qabaq vəkilin müvəkkilin tərəfindən (etibarnamə əsasında) gördüyü bütün işlər istər işi bütövlükdə bitirsin, istər bir hissəsini yerinə yetirsin səhihdir. Çünki müvəkkilin vəkili azad etməsi o zaman nəticə verir ki, onun vəkillikdən azad olmaq xəbəri ona çatsın.

**Məsələ-1786.** Vəkil əmin və əmanətdar sayılır. Buna görə də ona həvalə edilən işlərdə səhlənkarlıq etmədikdə və həddini aşmadıqda müvəkkilə məxsus olan hər hansı bir şeyin aradan getməsinə zamin deyil.

**Məsələ-1787.** Vəkil gərək vəkalətnamədə (etibaramədə) açıq şəkildə bəyan edilən, yaxud qeyd edilmədən məlum olan qeydlər və şərtlər əsasında rəftar etsin. Buna əsasən, etibarnamədən kənar olan hər bir əqd və müqavilə füzuli sayılır və onun səhih olması

---

[1] "Lian" ər-arvad arasında olan xüsusi nifrin və lənətləməkdir ki, bu barədə mütaliə üçün lazımı kitablara müraciət edilsin. (Mütərcim)

[2] "İla" daimi əqddə olan və düxul (yaxınlıq) edilmiş xanımla əbədi olaraq, yaxud dörd aydan çox müddətdə cinsi münasibəti tərk etmək üçün and içməkdir. (Mütərcim)

müvəkkilin icazəsinə bağlıdır (Əgər sonradan müvəkkil razılığını bildirsə, əqd səhih olacaq).

## Vəqfin hökmləri

**Məsələ-1788.** Vəqf, malı (malın özünü) saxlamaq, alver, sülh, hədiyyə kimi əqdlərdən birinin vasitəsilə başqasının mülkünə keçməsinin qarşısını almaq və onun mənfəətini (istifadəsini) vəqf edən şəxsin müəyyən etdiyi cəhətdə istifadə etməkdən ibarətdir.

**Məsələ-1789.** Vəqfin çoxlu fəzilət və savabı var. İmam Sadiq (ə) buyurur:

İnsanın özündən sonra qoyduğu şeylərin ən yaxşısı üç şeydir:

1. Onun üçün istiğfar edən yaxşı övlad.

2. Camaatın əməl etməsinə səbəb olan yaxşı ənənə.
3. Ölümündən sonra cari olan sədəqə.[1]

**Məsələ-1790.** Vəqf (istifadə edənlərin istifadəsi baxımından) iki qisimdir:

1. Xüsusi vəqf: Vəqf olunmuş əşya və yerlərdən istifadə edənlər xüsusi şəxslər və qruplardır. Məsələn, müəyyən bir şeyin məscidin imam camaatına və ya bir universitetin tələbələrinə vəqf edilməsi.
2. Ümumi vəqf: O malı istifadə edənlər xüsusi şəxs, yaxud xüsusi bir qrup deyil, əksinə o, ya ümumi istifadələr üçün (məsələn, məscidlər, körpülər və karvansaralar), ya ümumi ünvanla vəqf edilir (məsələn, fəqirlər və yetimlərə olan vəqflər).

**Məsələ-1791.** Həddi-büluğa yetişmək, ağıl, qəsd (niyyət), ixtiyar və məhcur[2] olmamaq vəqfin şərtlərindəndir. Məsələn, əgər vəqf

---

[1] Məqsəd vəqfdir

[2] Məhcur o şəxsə deyilir ki, şəri baxımdan öz malında istifadə etmək haqqı yoxdur: səğir (həddi-büluğa yetişməyən uşaq), səfeh (öz malını düzgün istifadə etməyə şüuru çatmayan şəxs) və dəli olmaq üzündən şəri baxımdan malını istifadə etmək haqqı yoxdur. Həmçinin iflasa uğramaq baxımından şəriət hakimi ona öz malının istifadəsini qadağan edir və malını borcu olan şəxslərin arasında bölür. (Mütərcim)

edən şəxs vəqf etməyə məcbur edilərsə, nə qədər ki, sonradan ona icazə verməyib vəqf səhih deyil.

**Məsələ-1792.** Müsəlman olmaq vəqf edənin şərtlərindən deyil.

**Məsələ-1793.** Vəqf edilmiş malın bir neçə şərti var:

1. Malın eyni (özü) olsun (mənfəət, ya deyn[1] olmasın).
2. Vəqf edənin mülkü olsun.
3. Halal mənfəətə malik olsun.
4. Onun mənfəəti başqasının haqqı olmasın.[2] Belə ki, bu haqq onun istifadəsinə mane olmasın.
5. Malın əsli onu istifadə etməklə aradan getməsin və etina olunası miqdarda qalsın. Buna əsasən, yeməli və içməli olan şeyləri (ərzaq), yaxud gülü vəqf etmək səhih deyil.
6. Mülkiyyətə çıxarı olsun. Buna əsasən, şərabı, ya donuzu vəqf etmək səhih deyil.
7. Təhvil vermək mümkün olsun. Buna əsasən, qaçan (bir yerdə qalmayan) heyvanı vəqf etmək səhih deyil.
8. Haram istifadə üçün vəqf edilməsin. Buna əsasən, bir məkanı şərab satmaq üçün, yaxud azdırıcı qrupların istifadəsi üçün vəqf etmək batildir.

**Məsələ-1794.** Vəqf edilən malda şərt deyil ki, hal-hazırda onu istifadə mümkün olsun. Hətta əgər istifadə etmək astanasında olsa belə, kifayətdir. Məsələn, iki ildən sonra meyvə verəcək ağacın vəqfi.

**Məsələ-1795.** Onlara vəqf olunan şəxslər gərək aşağıdakı şərtlərə malik olsunlar.

---

[1] Deyn, hər hansı bir öhdəliyə deyilir, borc, zaminlik, alver və s. kimi müqavilələr, yaxud səbəblər vasitəsilə insanın boynuna gələn öhdəlikdir. (Mütərcim)

[2] İcarəyə verilmiş ev kimi: icarəyə verilmiş evin mənfəəti, yəni onun istifadə etmək haqqı başqasının olduğu üçün o evi vəqf etmək olmaz. (Mütərcim)

1. Müəyyən olsunlar. Buna əsasən, bir şeyi iki məsciddən birinə, ya iki nəfərdən birinə vəqf etmək səhih deyil.

2. Xüsusi vəqf olduqda vəqf zamanı gərək onlara vəqf olunan şəxslərdən ən azı bir nəfər olsun.[1]

3. Ümumi vəqf olduqda vəqf zamanı vəqf olunan şəxslərin mövcud-olma imkanı olsun.

4. Vacib ehtiyata əsasən, fitri mürtəd, yaxud hərbi kafir olmasın.

## Vəqfin ümumi şərtləri

**Məsələ-1796.** Vəqfin ümumi şərtləri aşağıdakılardır:

1. Vəqfin gerçəkləşdirilməsi (vəqf əqdinin icrası): Vəqf etməkdə təkcə niyyət etmək kifayət deyil, vəqfi gerçəkləşdirilmək və icra etmək də lazımdır. Vəqfi gerçəkləşdirib icra etdikdə xüsusi siğənin olması, ya bu mənaya dəlalət edən hər hansı bir işin olması arasında heç bir fərq yoxdur. İkinciyə müatat vəqfi deyilir. Məsələn, əgər vəqf edən şəxs bir yerdə məscid adı ilə bina tikib camaatın ixtiyarında qoysa, bu, vəqf üçün kifayətdir.

2. Vəqf üçün siğəni ərəbcə oxumaq lazım deyil, vəqfin icrası və inşasına dəlalət edən hər bir sözlə onu həyata keçirtmək olar. "Vəqf etdim", "bu vəqfdir" kimi cümlələr də vəqfin yaranması üçün kifayətdir.

3. Vəqf müvəqqəti olmamalıdır, gərək daimi olsun.

4. Vacib ehtiyata əsasən, qəti surətdə vəqf edilməlidir, yəni xüsusi bir şərtə bağlı olmamalıdır.

---

[1] Məsələn, əgər hər hansı bir şey bir məscidin xadimlərinə vəqf edilirsə, gərək vəqf edilən zaman o məscidin ən azı bir xadimi olsun. (Mütərcim)

5. Vəqf başqaları üçün edilməlidir. Vəqf edən şəxs özünə vəqf edə bilməz.
6. Vəqf etməkdə qəsdi-qürbət lazım deyil.

7. Vəqfdə vəqf edilən mal təhvil alınmalıdır (sonradan təhvilalınma haqqında söz gedəcək).

8. Vəqfedənin icazəsi təhvil almaqda şərtdir.

9. Ümumi vəqfdə, xüsusilə, xüsusi vəqfdə müstəhəb ehtiyata əsasən, vəqf olunan şəxslər tərəfindən vəqfi qəbul etmək şərtdir. Ümumi vəqfdə qəbul etmək hakimin, ya onun nümayəndəsinin öhdəsindədir.
10. Məscidi vəqf etməkdə qeyd olunan şərtlərdən əlavə məscid qəsdi (niyyət) etmək də şərtdir. Buna əsasən, əgər bir məkan təkcə müsəlmanların ibadət və namazı üçün vəqf edilərsə, baxmayaraq ki, bu vəqf səhihdir, məscid sayılmır.

**Məsələ-1797.** Vəqf zamanı vəqf edən şəxs şərt edə bilər ki, ehtiyacı olduqda vəqf ona qayıtsın. Bu halda vəqf edən şəxs ölərsə və ölümündən qabaq ona ehtiyacı olarsa, bu vəqf irs sayılacaq. Amma ehtiyacı olmayıbsa, vəqf halında qalır.

**Məsələ-1798.** Xüsusi vəqfdə vəqf edilən təbəqələrdən mövcud təbəqənin hər hansı biri vəqf edilmiş malı təhvil alarsa, o şəxsə nisbət vəqf yaranıb, təhvil almayanlar üçün vəqf yaranmayıb.

**Məsələ-1799.** Ümumi vəqfdə (yoxsullar və yetimlər kimi) ümumi işlərə vəqf edilibsə, əgər bunlardan hər biri vəqf edilmiş malı təhvil alıb həmin mal onun ixtiyarında qərar taparsa, kifayətdir. Əgər vəqf ümumi cəhətlərə vəqf edilərsə (məscid, körpü və s. kimi), bu halda (vəqf edilən zaman) vəqf edən şəxsin vəqf üçün təyin etdiyi vəli və qəyyumu vəqf edilən malı təhvil almalıdır. Bunlar olmadıqda şəriət hakimi onu təhvil almalıdır. Hərçənd məscid və məqbərədə bir namaz qılmaqla, ya bir meyiti vəqf edən şəxsin icazəsi ilə dəfn etməklə vəqf yaranır.

**Məsələ-1800.** Əgər vəqf edən şəxsin özü vəqf olunan şəxslərin şəri vəlisi olarsa, bu zaman vəqfin səhih olması onun təhvil almasına

bağlı deyil. Qeyd edək ki, vəli (burada yəni vəqf edən şəxsin özü) vəqf olunan şəxslərin tərəfindən təhvil almaq niyyəti etməlidir.

**Məsələ-1801.** Vəqf edilən malı dərhal təhvil almağa ehtiyac yoxdur.

**Məsələ-1802.** Əgər vəqf edən şəxs vəqfi təhvil verdikdən qabaq dünyadan gedərsə, vəqf yaranmır və vəqf edilmiş mal irs kimi varislərə çatır.

**Məsələ-1803.** Əgər müsəlman hər hansı bir şeyi şəhərin yoxsullarına vəqf edərsə, o vəqf müsəlmanlara çatır. Hətta əgər vəqf edən şəxs şiə olarsa, bu zaman şiə yoxsullarına, əhli-sünnə olarsa, əhli-sünnəyə, kafir olarsa, öz əqidəsində olanlara çatır.

**Məsələ-1804.** Əgər hər hansı bir şeyi yoxsul qohumlarına vəqf edərsə, onlar ayrı-ayrı yerlərdə yaşasalar belə, hamısına çatır və təkcə vəqf edən şəxsin məntəqəsində olanlara xas deyil.

**Məsələ-1805.** Əgər hər hansı bir şey Allah yolunda, yaxud xeyir bir işə vəqf edilərsə, savabı olan hər hansı bir yerdə istifadə edilməlidir.

**Məsələ-1806.** Əgər qohumlarına və yaxınlarına ümumi şəkildə vəqf edərsə, xalq arasında qohum-əqrəba sayılanların hamısına çatır.

**Məsələ-1807.** Əgər qohumlarına və yaxınlarına, yaxın qohumları şərti ilə vəqf edərsə (ən yaxın qohumu olarsa onlara, bunlar olmadıqda növbəti təbəqəyə və s.), bu zaman qohumlarına irs bölümü ilə müvafiq olaraq çatır.

**Məsələ-1808.** Əgər qeyd və şərt olmadan övladlara vəqf edilərsə, oğlan və qıza bərabər olaraq çatır.

**Məsələ-1809.** Əgər qeyd-şərtsiz alimlərə vəqf edilərsə, dini alimlərə çatır.

**Məsələ-1810.** Əgər qeyd-şərtsiz məscidə vəqf edilərsə, məscidin işıq, xalça, xidmətçi, təmir və s. kimi xərclərinə istifadə edilməlidir. Artıq qaldıqda imam camaata verilir.

**Məsələ-1811.** Əgər Seyyidüş-şühədaya (İmam Hüseynə (ə)) vəqf edilərsə, o həzrətin əzadarlıq mərasimlərində istifadə olunmalıdır.

## Vəqfin vəlisi və nəzarətçisi

**Məsələ-1812.** Vəqf edən şəxs özünü və ya başqasını vəqfin vəlisi və nəzarətçisi kimi təyin edə bilər. Bu vəzifə daimi və ya müvəqqəti, həmçinin tək və ya şərikli ola bilər.

**Məsələ-1813.** Vəqfin vəlisini təyin etmək vəqf zamanı vəqfedən şəxs vasitəsilə olmalıdır. Əks təqdirdə, sonradan vəqf edən şəxsin vəli təyin etməyə haqqı yoxdur. Vəqf edən şəxs vəqf zamanı vəqfin vəlisini bu vəzifədən götürməyi şərt edibsə, onu bu işdən azad edə bilər. Məsələn, əgər vəqf edən şəxs vəqf edən zaman “Bu yeri Hüseyniyyə üçün filankəsin vəliliyi ilə vəqf etdim, bu şərtlə ki, istədiyim vaxt onu bu işdən azad edim və başqasını onun yerinə təyin edim”, - deyir.

**Məsələ-1814.** Vəqf edən şəxs məscid üçün vəli təyin edə bilməz.

**Məsələ-1815.** Vəqf edən şəxs bir neçə nəfəri vəli seçə bilər.

**Məsələ-1816.** Əgər vəqf edən şəxs vəqf etdiyi malın mənfəətindən müəyyən bir hissəni vəli üçün təyin edərsə, hətta o işin mislinin muzdundan az olsa belə, o, vəlinin məvacibi olacaq. Amma vəli üçün muzd olaraq bir şey təyin etməsə, işin həqiqi muzdunu vəqfin mənfəətindən götürməyə vəlinin ixtiyarı var.

**Məsələ-1817.** Əgər vəqf edən şəxs vasitəsilə vəli təyin olunmasa, ümumi vəqfdə şəriət hakimi, ya onun nümayəndəsi onun vəlisidir. Xüsusi vəqfdə vəqfə aid işlər vəqfin xeyrinə və gələcək nəsilləri nəzərə almağa bağlıdırsa, bu zaman şəriət hakimi onun vəlisidir. Amma işləri cüzi islahatlara bağlıdırsa, onun vəlisi vəqf olunan şəxslərin özləridir.

**Məsələ-1818.** Vəqfin nəzarətini qəbul etmək vacib deyil. Amma qə-bul edərsə, vacib ehtiyata əsasən, özünü o işdən azad edə bilməz. Əgər özünü o işdən azad edərsə, vacib ehtiyata əsasən,

yenidən həmin işi öhdəsinə götürmək üçün şəriət hakiminə müraciət etməlidir ki, onu yenidən işə təyin etsin. Eyni zamanda bu müddətdə gərək öz vəzifələrini yerinə yetirsin.

**Məsələ-1819.** Əgər vəqf edən şəxs vəqfin vəlisinin vəzifələrini müəyyən edibsə, müəyyən edilmiş şəkildə əməl olunmalıdır. Amma müəyyən etməyibsə, o zaman adətən xalq arasında ona aid olan vəzifələri yerinə yetirməlidir. Vəqfin təmiri, icarəsi, muzd alıb və vəqf olunan şəxslər arasında bölmək onun vəzifələrindən sayılır ki, bu vəzifələrin hamısı vəqf edilmiş malın xeyirinin nəzərə alınması ilə həyata keçirilməlidir.

**Məsələ-1820.** Vəqfin vəlisi bu işi, hətta onun icrasına aciz olsa belə, başqasına həvalə edə bilməz. Amma vəqf edən şəxs vəqf etdiyi zaman ona belə bir ixtiyar veribsə və ya başqasına həvalə etmək vəkilliklə olarsa (yəni başqasını bu işə vəkil edərsə), bu şərtlə ki, vəqf edən şəxs vəqfi başqasına vəkilliklə də verilməməsini şərt etməzsə, o zaman bunun işkalı yoxdur.

**Məsələ-1821.** Vəqfin vəlisinin vəqflə zidd olan hər hansı bir işi görməyə və ya hər hansı bir qanunu qoymağa haqqı yoxdur. Gərək vəqf zamanı vəqf edən şəxsin qoyduğu şərtlər əsasında əməl etsin.

**Məsələ-1822.** Əgər bir neçə nəfər vəqfin vəlisi olsa, onların heç birinin digərini bu işdən azad etməyə haqqı yoxdur (hətta bu əksəriyyətin rəyi olsa belə). Amma vəqf edən şəxs vəqf zamanı onlara belə bir ixtiyar veribsə, bu işi görə bilərlər.

**Məsələ-1823.** Vəqfin vəlisi gərək vəqfin mənafeyini nəzərə alsın. Məsələn, əgər vəqfnamə əsasında vəqf edilmiş malı icarəyə vermək ixtiyarı varsa, icarə məbləğini təyin etməkdə vəqfin fayda və mənfəətinə riayət etməsi vacibdir. Nəticədə əgər icarənin məbləğində güzəşt etmək icarə edən şəxsin xüsusi vəziyyətini nəzərə almaq üzündən, yaxud işin əhəmiyyətinə xatir vəqfin xeyri ilə uyğun olarsa, işkalı yoxdur. Əks halda caiz deyil.

**Məsələ-1824.** Bir neçə nəfərin vəli olması üç cürdür:

1. Onların hər biri müstəqil şəkildə vəli seçilib: bu halda onlar istifadədə müstəqildirlər və heç birinə vəqfə aid işlərdə digərinə müraciət etmək lazım deyil. Bu halda işi hamıdan tez görən şəxsin əməli təsirli olacaq. Əgər onlardan biri dünyasını dəyişərsə, ya vəli olmaq səlahiyyətindən xaric olarsa, o vəqfin ixtiyarı tamamilə qalanlarının öhdəsinə düşəcək.

2. Nəzarət etmək cəm şəkildə onların ixtiyarına qoyulub: bu zaman onların heç biri müstəqil şəkildə əməl edə bilməz. Əgər onlardan biri dünyasını dəyişərsə, vacib ehtiyata əsasən, şəriət hakimi başqa bir şəxsi onun yerinə təyin etməlidir.

3. İşlərin bəzisi bir şəxsə, bəzisi isə başqasına tapşırılıb. Məsələn, vəqfin özünə aid olan işləri görmək birinə, vəqfin mənfəətini vəqf olunan şəxslərin arasında bölmək isə başqasına tapşırılıb. Bu halda onların hər biri təyin edildiyi işlərdə müstəqildir.

**Məsələ-1825.** Əgər vəqf edən şəxs vəqf edilmiş malın bəzi işlərini bir şəxsə tapşırıb, qalanları üçün vəli təyin etməzsə, bu halda vəqf qalan işlərə nisbət vəli olmadan vəqf edilib. Bunun hökmü yuxarıdakı vəli təyin edilməyən məsələdə deyildi.

**Məsələ-1826.** Əgər bir neçə nəfər vəqfin vəlisi kimi təyin olunsa, vəqf edən şəxs onları mütləq şəkildə vəli təyin edərsə və heç bir dəlil onların bəzi işlərdə müstəqil olmasına dəlalət etməzsə, bu halda onların heç birinin, hətta əksəriyyətinin də digərlərinin razılığı olmadan vəqfə aid hər hansı bir işi görməyə haqqı yoxdur. Gərək birlikdə məşvərət etməklə vahid qənaətə gəlsinlər. Əgər onlar arasında ixtilaf olarsa, şəriət hakiminə müraciət etməlidirlər ki, hakim onları vahid bir fikrə gəlməyə məcbur etsin.

**Məsələ-1827.** Əgər vəlilərin bəziləri onların bəzilərinin xəyanətkar olmasını iddia etsələr, məsələni şəriət hakiminə həvalə edib xəyanətkar olanları vəzifədən azad etmələri vacibdir.

**Məsələ-1828.** Yuxarıdakı məsələlərdə deyildiyi kimi vəqfin vəlisini seçmək vəqf edən şəxsin öhdəsindədir. Amma vəqfin xeyri ilə uyğun etmədikdə və ya vəqfnaməyə zidd əməl etdikdə (və ya

xəyanətkar olduqda, yaxud da bu işə qadir olmadıqda), onu bu vəzifədən azad etmək şəriət hakiminin öhdəsindədir. Belə ki, hakim onu vəqf edilmiş malın xeyrinə riayət etməyə məcbur edib lazım gəldikdə işdən azad etsin. Həmçinin əgər vəqf edən şəxs vəqfnamə əsasında vəlini azad etmək üçün xüsusi şərtlər bəyan edibsə, vəqfnamə əsasında azad edilməsi mümkündür.

**Məsələ-1829.** Bəzən vəqf edən şəxs vəqf üçün nəzarətçi təyin edib bir sıra işləri onun ixtiyarında qoyur, hətta vəqfin vəlisinin işlərinə müdaxilə etməyə ona icazə verir. Vəqfnamədə təyin edilən ixtiyarlar nəzarətçinin haqqı sayılır.

**Məsələ-1830.** Vacib ehtiyata əsasən, nəzarətçi də vəli kimi özünü bu işdən azad edə bilməz.

## Vəqf olunmuş malın müamiləsi və satışı

### 1. Ümumi vəqf

**Məsələ-1831.** Vəqf edilmiş malı müamilə etmək və satmaq, cəhətlərə və ümumi işlərə (məscidlər, məşhədlər[1] və məktəblər kimi) hətta əgər xarab və istifadəsiz də olsa belə, mütləq şəkildə caiz deyil. Bu hökm məscidlərdən və məşhədlərdən başqasında vacib ehtiyata əsasəndir. Məsələn, əgər bir şəxs vəqf edilmiş yeri şəri icazəsi olmadan satarsa, alver batildir və satıcı gərək onun pulunu müştəriyə qaytarsın.

**Məsələ-1832.** Vəqf edilən yerlərə aid olan xalça, palaz və s. əşyaları onlardan istifadə imkanı olduqda hətta özünə aid istifadə olmasa belə, onu satmaq caiz deyil. Məsələn, məscidə vəqf edilmiş xalçanı orada xalça kimi istifadə etməyə ehtiyac yoxdur, amma soyuğun qarşısını almaq üçün istifadə etmək mümkündürsə (məsələn, pəncərənin qarşısına asmaq kimi), bu halda onu satmaq olmaz. Əgər həmin məkanda istifadə olunması mümkün olmadıqdan əlavə həmin əşyanı saxlamaq xarab olmasına və ya ona zərər dəyməsinə səbəb olursa, bu zaman onun mislində (məsələn, başqa məsciddə) istifadə

[1] Məqsəd məsumların (ə) ziyarətgahlarıdır. (Mütərcim)

imkanı varsa, orada istifadə olunmalıdir. Əgər orada da istifadə imkanı yoxdursa, ümumi mənfəətlərdə istifadə olunmalıdir. Amma heç cür, hətta ümumi mənfəətlərdə də istifadə imkanı yoxdursa, təkcə onun istifadəsi satmağa bağlıdırsa və satılmadıqda xarab olub aradan gedəcəksə, bu zaman onu satıb pulunu həmin məsciddə, o məscid üçün yararsız olduqda başqa məsciddə, o da mümkün olmadıqda ümumi mənfəətlərdə istifadə etmək lazımdır.

**Məsələ-1833.** Ümumi işlərə (yoxsullara və yetimlərə olan vəqf kimi) vəqf edilmiş malları satmaq caiz deyil. Burada bəzi istisnalar var ki, "xüsusi vəqf" barədə olan məsələlərdə açıqlanacaq.

## 2. Xüsusi vəqf

**Məsələ-1834.** Xüsusi vəqfdə vəqf olunmuş malı satmaq caiz deyil, amma bununla belə bəzi yerlər istisna olunur:

1. Adətən əvvəlki halına qayıtmayacaq və istifadəyə yararsız olacaq şəkildə xarab olsa, əgər onu satıb pulunu vəqf olunmuş şəxslər üçün istifadə etmək mümkündürsə, satıb puluna vəqf edilən şəxslərin istifadəsi üçün başqa bir şey almaq lazımdır.
2. Üç şərtlə satmaq caizdir və vəqfə yaxın olanlar mərhələ ilə riayət olunmalıdır: 1-etina ediləsi istifadədən xaric olsa, 2-əvvəlki vəziyyətinə ümidi olmasa, 3-onu satmaqla yerinə etina ediləsi istifadəyə malik olan mal almaq olsa.

3. Vəqf edən şəxs bir hadisə qarşıya çıxdığı təqdirdə vəqf edilən malın satılmasının caiz olmasını şərt etsin. Məsələn, vəqf edən şəxs şərt edir ki, vəqf edilmiş malın mənfəəti azaldıqda satıla bilər və ya onun xərci çox olduqda, yaxud da vəqf olunmuş şəxslər arasında ixtilaf yarandıqda, ya da zərurət halında satılması caizdir.

Vəqf sahibləri (vəqf olunmuş şəxslər) arasında şiddətli ixtilaf qarşıya çıxarsa, belə ki, malın, canın tələf olması qorxusu olduqda və müşkülün həlli təkcə onun satılmasına bağlı olduqda satılır, pulu isə vəqf sahibləri arasında bölünür.

Amma malı satıb pulu ilə başqa bir şey almaqla onlar arasında olan problem həll olursa, belə də edilsin.

**Məsələ-1835.** Vəqf edən şəxs tərəfindən təyin olunmuş vəli yuxarıdakı məsələdə qeyd olunan hallarda vəqf olunmuş malı satmaqda da vəlidir (yəni onun ixtiyarındadır). O, olmadıqda şəriət hakimi, yaxud nümayəndəsinin ixtiyarındadır. Məsələn, 1- Bir şəxs müəyyən qədər su və əkin sahəsini oğlanları üçün vəqf edib, amma övladların çox olması, əkinçiliyin çətin, məhsulun az olması üzündən onlardan heç biri bu yerdə əkinçilik etmək istəmir. Buna görə də vəqf yaxın gələcəkdə ya xarab, ya istifadə üçün yararsız olacaq. Nə qədər ki, istifadəyə yararlıdır və vəqf edilən istiqamətdə istifadə etmək mümkündür, satmağa haqları yoxdur, hətta bu istifadə onu icarəyə verib və icarə pulunu vəqfə sərf etmək mümkün olarsa və ya onun istifadəsinin formasını dəyişib o yeri əkinçilikdən başqa işlərdə istifadə etmək mümkün olarsa, yenə də onu satmağa haqları yoxdur. Amma yuxarıda qeyd edilən istifadələr mümkün olmadıqda satılır və mümkün olduqda hökmən başqa bir mülk alınmalı və onun mənfəəti vəqfin edildiyi istiqamətdə sərf edilməlidir. 2- Bir şəxs öz kitabxanasını öz oğlanlarına vəqf edib, amma övladları və nəvələrindən heç biri təhsil almağa və o kitablardan istifadə etməyə müvəffəq olmayıb. Kitabların yarısı tədricən aradan gedib, qalanı da aradan getmək astanasındadır. Bu kitabxana gərək istifadə edə bilən şəxslərin ixtiyarında qoyulsun və heç bir halda onu satmağa haqları yoxdur.

**Məsələ-1836.** Vəqf edilmiş malın icarəsi: Əgər "mənfəət"[1] vəqfidirsə (yəni mənfəət vəqf edilərsə) istər xüsusi olsun, istərsə də ümumi onun icarəsi caizdir. Həmçinin istər ümumi ünvanlara vəqf edilsin, istərsə də ümumi cəhətlərə icarəsi caizdir. Çünki məqsəd vəqf edilmiş maldan mənfəət əldə etmək və onu vəqf olunmuş şəxslərə verməkdir. Məsələn, seyid övladlarına, yaxud yoxsulları-

---

[1] Bu vəqfdə məqsəd mənfəət əldə edib, onu vəqfdə bəyan olan yerlərdə sərf etməkdir. Məsələn, mağazanı məscidə vəqf etmək.

na əkin sahəsinin vəqfi. Əgər "intifa"[1] vəqfidirsə, icarə verilməsi caiz deyil.

**Məsələ-1837.** Əgər vəqf edilmiş malın istifadə edilmək və xarab olmamaq üçün təmirə ehtiyacı varsa, vəqf edən şəxs onun üçün xərc müəyyən edibsə, müəyyən etdiyi kimi xərclənməlidir. Amma müəyyən etməyibsə, vacib ehtiyata əsasən, vəqf edilmiş malın mənfəətindən onun təmiri üçün istifadə edilməlidir. Əgər təmir etmək üçün bir şey (məsələn, pul) olmasa, caizdir vəli borc etsin və niyyəti bu olsun ki, borcu vəqfin mənfəətindən ödəyəcək və ya öz malından xərcləsin, niyyəti bu olsun ki, sonradan vəqfin mənfəətindən götürsün. Amma vəqfin mənfəətindən ödəmək, ya götürmək qəsdi və niyyəti olmasa, sonradan vəqfin mənfəətindən götürüb ödəyə bilməz.

**Məsələ-1838.** Əgər vəqf edilmiş malın qalması vəqfin bəzi hissəsinin satılmasına bağlı olarsa, o hissəni satmaq caizdir.

**Məsələ-1839.** Vəqfin bir hissəsi xarab olduqda, belə ki, həmin səbəbdən şəriət onun satılmasını icazə verirsə, bu halda yararlı hissədən mənfəət əldə etmək üçün onu təmir etməyə ehtiyac varsa, gərək aşağıdakı tərtiblə əməl edilsin.

A) Xarab olan hissəni satmaqla ona oxşarını almaq lazımdır. Bunun özü iki cür olur:

1- Təmirə ehtiyac olan hissənin mənfəəti ilə təmir etmək mümkündür, vacib ehtiyata əsasən, satdığı hissənin pulunu gərək satdığına oxşar malı almağa sərf etsin və mənfəətlərdən təmirə sərf olunsun.
2- Qeyd olunan hissənin mənfəəti ilə təmir etmək mümkün deyil, satılan hissənin pulunu təkcə lazımi təmirlər üçün sərf etmək lazımdır

---

[1] Məqsəd başqa bir şey üçün mənfəət əldə etmək deyil, əslində onun özünü istifadə etmək nəzərdə tutulur. Məsələn, imam-camaatın sakin olması üçün vəqf edilmiş mənzil və ya şagirdlərin təhsili üçün vəqf edilmiş məktəb.

(yəni mənfəət əldə etmək üçün lazım olan təmirlərdə sərf etmək lazımdır, nəinki daha yaxşı olmaq və mənfəətin artması üçün).

B) Onu satmaqla oxşarını almaq mümkün deyil: buna əsasən, istər təmir lazımi mənfəət əldə etmək, istərsə də mənfəəti artırmaq üçün olsun, onun pulu vəqfin qalan hissəsinin təmirinə xərclənməlidir.

**Məsələ-1840.** Hətta vəqf edən şəxs tərəfindən də vəqfi qəsb etmək caiz deyil. Misal üçün, hüseyniyyə niyyətiylə vəqf edilən yeri məscid etmək olmaz. Əlbəttə, əgər vəqf mənfəət vəqfi olarsa, hal-hazırkı adı ilə mənfəət gətirmirsə, yaxud olduqca az olarsa, onun fəaliyyət dairəsini xeyiri daha çox olan başqası ilə əvəz etmək olar.

## Vəqfi qəsb etmək və ona vurulan xəsarətə zamin olmaq

**Məsələ-1841.** Vəqfi qəsb edən və ya ona xəsarət vuran haqqında aşağıdakı hökmlər mövcuddur:

1. Əgər xüsusi və ya "mənfəət" vəqfi (ümumi vəqfdə) olarsa, onun özünə xəsarət dəydikdə, yaxud aradan getdikdə vəqf edilmiş mala zamindir. Buna əsasən, vəqfin özü (vəqf edilmiş mal) qaldıqda özünü, aradan getdikdə isə əvəzini qaytarmaq vacibdir. Əgər onun mənfəəti qəsb edilibsə, mənfəətinə zamindir, istifadə edilmiş və edilməmiş mənfəətlərin əvəzini də qaytarmaq vacibdir.
   **İzah:** Əgər vəqf tələf olubsa, onun əvəzi vəqfin yerində xərclənməlidir. Yəni onun mənfəətləri vəqfnamə əsasında xərclənməlidir. Məsələn, əgər bir şəxs vəqfnamə əsasında icarəsi imam Hüseynin (ə) əzadarlığına xərclənməsi lazım olan binanı xarab edərsə, gərək əvəzində başqa bir binanı bu iş üçün vəqf etsin.
2. Əgər vəqf intifa vəqfi (ümumi xeyriyyəçilik məqsədi ilə edilən vəqf) olarsa, məscidlər, məqbərələr, ziyarətgahlar, körpülər və bunun kimi şeylərin mənfəətinə xəsarət dəyərsə, yaxud aradan gedərsə, onun qarşılığına görə zaminlik məsuliyyəti daşımır. Təkcə məscidin və ziyarətgahın özünə xəsarət dəyərsə,

xəsarətə zamindir və xəsarət alınıb onun əvəzində xərclənməlidir. Əgər məktəblərin, hamamların, karvansaraların və s. mənfəətlərinə xəsarət yetirilərsə, onun ücrətinə (muz-duna) zamindir. Amma vəqfnamədə təyin olunan yerlərdə istifadə edilibsə, zamin deyil (hətta qəsb etməklə bu istifadəni etsə belə).

## Vəqfin istiqamətinin məlum olmaması

**Məsələ-1842.** Əgər bir şeyin vəqf olması məlum olsa, amma vəqfin cəhəti məlum olmasa, yəni hansı yolda istifadə olmaq üçün vəqf edilməsi bilinməsə xüsusi vəlisi olduqda necə istifadə etmək üçün ona müraciət etmək lazımdır. Xüsusi vəlisi olmadıqda şəriət hakiminə müraciət etmək lazımdır.

**Məsələ-1843.** Bir şeyin gəlirinin necə istifadə edilməsi bir neçə ehtimal arasında tərəddüddə olarsa, yəqin edilən qədər və müştərək istifadə yeri varsa, o yerdə xərclənsin. Məsələn, ehtimal edilən yerlər, fəqirlər, alimlər, seyidlər və filan şəhərin əhalisidir, bu halda həmin şəhərin seyid, alim, fəqirlərinə xərclənməlidir (yəni həmin şəhərin alim və seyid olan fəqirlərinə xərclənməlidir). Amma yəqin edilən, müştərək yeri yoxdursa və müxtəlif ehtimallar xüsusi şəxslərdə cəm olmursa, bu zaman püşk atmaqla istifadə yeri məlum edilməlidir. Məsələn, ehtimallar məscid, fəqirlər və hüseyniyyələr arasında olarsa və püşk məscidin adına düşərsə, o zaman məsciddə istifadə olunmalıdır. Bu o zamandir ki, ehtimallar (bir neçə müəyyən) fərdlər arasında məhdud olsun. Əgər qeyri-məhdud fərdlər arasında olarsa, məsələn, Məşhəd sakinlərindən birinin övladlarına vəqf edilib və bu şəxsin kimliyi məlum deyil, yaxud Məşhəd şəhərinin fəqirlərindən birinə vəqf edilib və o şəxsin kimliyi məlum deyil. Bu zaman o vəqf məchulul-malik[1] hökmündə olacaq. Bu halda o, rəddi-məzalim[2] kimi fəqirlərə sədəqə verilməlidir.

---

[1] Sahibi məlum olmayan mal (Mütərcim)

[2] "Rəddi" məzalimə nahaq yerə başqasının malı birinin əlində olduqda sahibi tərəfindən fəqirə sədəqə verməyə deyilir. (Mütərcim)

Əgər qeyri-məhdud məqsədlər arasında tərəddüdlü olarsa, məsələn, məscid, ziyarətgah, körpü və s. arasında tərəddüdlü olarıqsa, xeyriyyə işlərində həmin yerlərdə sərf edilməlidir.

**Məsələ-1844.** Təkcə vəqfnamənin olması bir şeyin vəqf olunmasını sübuta yetirmir. Gərək vəqf aşağıdakı yollardan biri ilə sübuta yetsin:
1- Vəqf edilmiş mal əllərində olan şəxslər o şeyin vəqf olunmasını, həmçinin ölümündən sonra varisləri onun vəqf olmasına etiraf etsinlər.
2- Əvvəllər həmin mal əlində olan şəxslərin onunla vəqf kimi davranması.
3- İki adil şəxs onun vəqf olunmasına şəhadət versin.

4- Məşhur olmaq kimi əlamət və göstəricilər vasitəsilə onun vəqf olmasına yəqin, yaxud xatircəmlik hasil olsun.

## Sədəqənin hökmləri

Sədəqənin müstəhəb olmasında və ona təşviq edilməsində - xüsusilə, cümə günü, ərəfə günü, Ramazan ayı kimi məxsus vaxtlarda, qohumlar və qonşular kimi xüsusi şəxslərə vermək haqqında çoxlu hədislər gəlib.

Bir hədisdə oxuyuruq: Nə qədər ki, ehtiyaclı qohumlar var, başqalarına sədəqə vermək rəva deyil.

**Məsələ-1845.** Sədəqənin səhih olmasında bir neçə şey şərtdir:
1. Qürbət qəsdi.

2. Malın qarşı tərəfin mülkünə əvəzsiz keçməsinə dəlalət edən söz və ya əməl.

3. Malı müqabil tərəfə təhvil vermək.

**Məsələ-1846.** Sədəqəni fəqirə, ya fəqirin vəkilinə təhvil verdikdən sonra onu qaytarmaq və fikrindən dönmək şəri baxımdan mümkün deyil.

**Məsələ-1847.** Başqasına sədəqəni çatdırmaq üçün vasitə olmaq müstəhəbdir. Peyğəmbəri-əkrəmdən (s) nəql olunub:

Bir şəxsin sədəqəsini ehtiyaclıya çatdıranın sədəqə verən şəxs kimi əcri və savabı var. Əgər sədəqə qırx min nəfərin əlində əlbəəl gəzib sonra yoxsula yetişərsə, qırx min nəfərin hər biri üçün kamil əcr və savab var.

**Məsələ-1848.** Fəqirə verilən sədəqəni (alver, sülh və s. kimi) əqdlərlə yenidən öz mülkünə daxil etməyin kəskin kərahəti var, yəni fəqirə verdiyimizi yenidən alarıqsa, şiddətli surətdə məkruhdur.

**Məsələ-1849.** Dilənçini boş qaytarmaq, hətta onun ehtiyacsız olmasına güman etsək belə, məkruhdur. Buna görə az da olsa, ona bir şey vermək münasibdir.

**Məsələ-1850.** Ehtiyacsız olan halda sədəqə və kömək istəməyin çoxlu kərahəti var. Hətta ehtiyaclı olan halda da məkruhdur.

## Sədəqənin aşkar və gizli verilməsi

**Məsələ-1851.** Bir hədisdə Peyğəmbəri-əkrəmdən (s) gəlib:[1]

Məxfi şəkildə sədəqə vermək, su odu söndürdüyü kimi Rəbbin qəzəbini söndürür və günahları aradan aparır, həmçinin yetmiş bəla qapısını bağlayır.

**Məsələ-1852.** Bir neçə yerdə gizli sədəqə verməyə təkid olunmayıb.

1. Töhməti dəf etmək üçün: yəni töhmət vurulmamaq üçün aşkar şəkildə sədəqə verilsin.[2]

2. Başqalarına öyrətmək və ömək olmaq üçün.

3. Xüms, zəkat və fitrə kimi vacib sədəqələri aşkarda vermək daha

---

[1] Mustədrəkul-Vəsail və Mustənbitul-Məsail
[2] Məsələn, xəsislik töhməti kimi.

fəzilətlidir. Bunlardan başqa yerlərdə sədəqəni məxfi və gizli olaraq vermək daha fəzilətlidir.

**Məsələ-1853.** Sədəqə verən şəxsin həddi-büluğ, ağıllı olması və məhcur[1] olmaması şərtdir.

## Sədəqə alan şəxsin şərtləri

**Məsələ-1854.** Bütün sədəqələri, istər vacib, istər müstəhəb sədəqə olsun, Haşimiyə[2] vermək olar. Amma zəkatı (istər malın zəkatını, istərsə də fitrə zəkatını) təkcə Haşimi Haşimiyə verə bilər.

**Məsələ-1855.** Müstəhəb sədəqələrdə sədəqə alanın yoxsul, mömin (şiə olması) və müsəlman olması şərt deyil. Buna əsasən, imkanlıya, zimmi kafirə və əhli-sünnəyə də müstəhəb sədəqə vermək olar. Amma hərbi kafirə və nasibiyə[3] sədəqə vermək olmaz.

## Vəsiyyətin hökmləri

**Məsələ-1856.** Vəsiyyət insanın ölümündən sonra onun üçün bir işi yerinə yetirməyi tapşırması, yaxud ölümündən sonra onun malından bir hissəsi başqasının olmasını deməsi və ya öz övladları üçün qəyyum (sərpərəst) müəyyən etməyidir.

**Məsələ-1857.** Vəsiyyət edən şəxs öz məqsədini deməklə, yazmaqla və ya işarə etməklə çatdıra bilər.

**Məsələ-1858.** Yuxarıda dediyimizi vəsiyyət formalarının icrası o zaman lazımdır ki, xalq arasında camaat həmin sözdən, yazıdan, və ya işarədən onun məqsədini başa düşüb yaxınları və varislərindən

---

[1] Məhcur o şəxsə deyilir ki, şəri baxımdan öz malında istifadə etmək haqqı yoxdur: səğir (həddi-büluğa yetişməyən uşaq), səfeh (öz malını düzgün istifadə etməyə şüuru çatmayan şəxs) və dəli olmaq üzündən şəri baxımdan malını istifadə etmək haqqı yoxdur və ya iflasa uğramaq baxımından şəriət hakimi ona öz malının istifadəsini qadağan edib malını borcu olan şəxslərin arasında bölür. (Mütərcim)
Deyn hər hansı bir öhdəliyə deyilir, borc, zaminlik, alver və s. kimi müqavilələr, ya səbəblər vasitəsilə insanın boynuna gələn öhdəlikdir. (Mütərcim)
[2] Haşimi, Peyğəmbərin (s) babası Haşimə yetişən şəxsdir.
[3] Əhli-Beytin (ə) düşməni.

bəzisi onu düşünsünlər. Vəsiyyətin izahında ixtilaf olduqda məhkəməyə və şəriət hakiminə (cameüş-şərait müctəhidə) müraciət etmək lazımdır.

**Məsələ-1859.** Vəsiyyət üç qisimdir:

**Birinci:** Təmliki: Təmliki vəsiyyət odur ki, mallarından, yaxud şəri hüququndan bir hissəsinin başqasının olmasını vəsiyyət etsin. Təmliki vəsiyyətdə vəsiyyət edən şəxs (musi), vəsiyyət olunan şey (musa bih) və onun üçün vəsiyyət olunan şəxs (musa ləh) olur. Bəzən bunlardan əlavə vəsiyyət ona həvalə olan şəxs (vəsi) də təyin olunur. Məsələn, əgər bir şəxs ölümündən sonra mallarından bir milyonunu əmisi oğluna, yaxud məhəllənin seyidlərinə verməyi vəsiyyət etsə, təmliki vəsiyyətdir.

## Təmliki vəsiyyətlə əlaqədar bir neçə mətləb

1. Vəsiyyətin hasil olması və hökmlərinin icrasının lazım olması onun qəbul edilməsinə bağlı deyil. Baxmayaraq ki, təmliki vəsiyyət xüsusi şəxsə edilərsə, vəsiyyət olunan şəxsin sahib olması onun qəbul etməsinə bağlıdır və təkcə vəsiyyətin edilməsi ilə sahib olmur.
2. Qəbul üçün buna dəlalət edən hər bir şey kifayət edir, sözün olması lazım deyil. Məsələn, vəsiyyət olunmuş malı və onu istifadə etmək qəbul sayılır.

3. Vəsiyyəti qəbul etmək vəsiyyət edən şəxs həyatda olan zaman, ya onun ölümündən sonra mümkündür.

4. Əgər “musa ləh” (ona vəsiyyət olunmuş şəxs) vəsiyyəti qəbul, ya inkar etdikdən qabaq dünyasını dəyişsə, onun varisi bu vəsiyyəti qəbul və ya inkar etmək haqqını ondan irs aparır, istər o (musa ləh) vəsiyyət edən şəxs həyatda olduğu zaman dünyasını dəyişsin, istərsə də ondan sonra ölsün. Qeyd edək ki, əgər müəyyən əlamət və göstəricilər vəsiyyət edənin vəsiyyət etdiyini təkcə vəsiyyət etdiyi şəxsə aid olmasına dəlalət edərsə, onda varislər bu haqqı ondan irs aparmır. Həmçinin əgər vəsiyyət edilən şəxs vəsiyyət edən şəxs həyatda ikən ölərsə və vəsiyyət edən şəxs öz vəsiyyətindən dönərsə, onda varislər bu haqqı ondan irs aparmır.

**İkinci:** Əhdi: Əhdi vəsiyyətdə vəsiyyət edən şəxs müəyyən bir işin onun üçün görülməsini sifariş edir. Məsələn, kəfən və dəfnə aid olan işlər, yaxud həcc, namaz və orucun onun tərəfindən yerinə yetirilməsi və s.

Əhdi vəsiyyətdə "musi", "musa bih" və "vəsi" olmalıdır. Yəni bu növ vəsiyyətdə "musa ləh" olmur.

Əhdi vəsiyyətdə vəsiyyətin təsirli və icrasının lazım olub şəri vəsiyyətin hasil olması üçün vəsinin vəsiyyəti qəbul etməsi şərt deyil. **Üçüncü:** Fəkki: Fəkki vəsiyyət mülkiyyətdən çıxarılmasını vəsiyyət etməklə olur. Məsələn, vəsiyyət edir ki, qulu azad etsinlər.

**Məsələ-1860.** Ölüm əlamətləri və nişanələri aşkar olan zaman aşağıdakı işləri yerinə yetirməyə səy göstərmək, imkan olmadıqda vəsiyyət etmək vacibdir.

1. Qəza olmuş namazlar və oruclar: oğlu olduqda böyük oğluna vacibdir ki, onun qəza olmuş namaz və oruclarını onun ölümündən sonra yerinə yetirsin.

Əgər oğlunun səhv yerinə yetirəcəyini, yaxud yerinə yetirməyəcəyini bilərsə, həmçinin oğlu yoxdursa, vəsiyyət etməsi vacibdir.

2. Xüms, zəkat, kəffarələr və digər ödəyəcəyi borclar: əgər camaatın malından onun öhdəsində varsa və ödəmək imkanı yoxdursa, yaxud ödəməsinin vaxtı yetişməyibsə, öz malı varsa, yaxud malı yoxdur, amma vəsiyyətinə əməl olunacağına ehtimal verirsə, vacibdir vəsiyyət edib vəsiyyətinə şahid tutsun.

Əgər başqasının malı onun yanında olsa, yaxud başqasının haqqı onun öhdəsində olsa, varislərinin o malları sahiblərinə qaytarıb haqları əda edəcəklərini bilsə, ya da xatircəm olsa, bu halda malları sahibinə qaytarmaq və həmçinin vəsiyyət etmək vacib deyil, baxmayaraq ki, vəsiyyət etməsi daha yaxşı və ehtiyata münasibdir.

3. Əgər vacib həcc öhdəsindədirsə, gərək vəsiyyət etsin.

4. Əgər övladlarının qəyyuma ehtiyacı varsa və onsuz özləri, ya malları aradan gedəcəksə, gərək onlar üçün etimadlı və etibarlı qəyyum

(sərpərəst) tutsun. Yəni vəsiyyət etsin ki, etimad ediləsi şəxs onun ölümündən sonra övladlarının qəyyumluğunu öhdəsinə alsın.

**Məsələ-1861.** Vəsiyyət edən şəxs gərək aqil (ağıllı), həddi-büluğa yetişmiş olsun, ixtiyarlı olaraq vəsiyyət etsin (məst, məcbur) və ya məhcur olmasın (səfeh və iflasa uğramış olmasın). Bu şərt (məhcur olmamaq) o zamandır ki, vəsiyyət mala aid olsun. Həmçinin özünü bilərəkdən qətlə yetirməsin. Amma vəsiyyət edib sonradan intihar edərsə, vəsiyyəti düzdür və gərək vəsiyyəti icra olunsun.

**Məsələ-1862.** Yaxşını və pisi ayıra bilən on yaşlı uşaq xeyir işlər üçün vəsiyyət edərsə, vəsiyyəti səhihdir. Məsələn, məscid tikilməsinə edilən vəsiyyət kimi.

**Məsələ-1863.** Əgər bir kəs vəsiyyət etdikdən sonra bihuş, ya dəli olsa, vəsiyyəti düzdür.

**Məsələ-1864.** Vəsiyyət olunan şəxs (musa ləh) vəsiyyət zamanı diri olmalıdır. Əgər dünyaya gəlməyibsə, vəsiyyət zamanı anasının bətnində olmalıdır (hətta hələ ruh daxil olmasa da belə), bu şərtlə ki, diri dünyaya gəlsin. Həmçinin ehtiyata əsasən, fitri mürtəd və ya hərbi kafir olmamalıdır.

**Məsələ-1865.** Təmliki vəsiyyətdə vəsiyyət olunmuş mal, haqq, iş (musa bih) gərək iki şərtə malik olsun.

1. Mal, yaxud haqqın başqasının mülkünə keçmə qabiliyyəti olsun. Malın özü, deyn, yaxud mənfəət arasında fərq yoxdur.

2. Məntiqli halal mənfəətlərə malik olsun. Məsələn, əgər bir şəxsin bankdan mənzil krediti götürmək haqqı varsa, əgər qanun əsasında onu başqasına verə bilməsə, ölümündən sonra haqqın qardaşına, övladına, ya başqasına yetişməsini vəsiyyət də edə bilməz. Vəsiyyət zamanı malın mövcud olması lazım deyil, hətta gələcəkdə sahib olacağı malı da vəsiyyət edə bilər. Məsələn, ağacın meyvəsi. Əhdi vəsiyyətdə vəsiyyət edilmiş mal, haqq, yaxud iş (musa bih) gərək üç şərtə malik olsun.

1. Şəriət icazə verdiyi iş olsun. Buna əsasən, quldurluq, zalıma kömək etmək, kilsəni təmir etmək, azdırıcı kitabların çapını vəsiyyət etmək batildir və bu vəsiyyətə əməl etmək olmaz.

**İzah:** Vəsiyyət edilən işin şəri olmasında meyar vəsinin yanında onun şəri olmasıdır, nəinki vəsiyyət edənin. Çünki işi icra edən vəsidir və iş gərək onun yanında şəri olsun. Məsələn, əgər bədən üzvlərinin hədiyyə edilməsini, yaxud cəsədi bədəni yarılmaq üçün istifadə edilməsini vəsiyyət edərsə, müsəlmana hörmətsizlik sayılmadıqda gərək vəsiyyətinə əməl olunsun.

2. Ağılsız şəkildə və mənasız olmasın. Məsələn, əgər ölümün-dən sonra yeddi məscid və imamzadə qapısını döymələrini vəsiyyət etsə, vəsiyyəti batildir.

3. Əgər vəli olduqda vəli olmayan bir şəxsin meyitə aid olmayan işlərini öhdəsinə götürməsini vəsiyyət etsə, ehtiyat budur ki, vəsi vəlidən icazə alsın, vəli də ona icazə versin.

**Məsələ-1866.** Vəsi gərək müsəlman, həddi-büluğa yetişmiş, aqil və etimad ediləsi şəxs olsun.

**Məsələ-1867.** Vəsi əmanətdar və inanılmış şəxs sayılır. Əgər ifrat və səhlənkarlığa yol verməsə, zaminlik məsuliyyəti daşımır.

**Məsələ-1868.** Vəsinin vəsiyyətin icrasından boyun qaçırmağa, yaxud onun icrasını başqasına həvalə etməyə (vəkil tutmağa) haqqı yoxdur. Amma vəsiyyət edən şəxsin məqsədinin hər bir şəxsin vasitəsi ilə də olsa, vəsiyyətin icra olunması olduğunu bilsə, onda başqasını vəkil edə bilər.

**Məsələ-1869.** Vəsiyyət edən şəxs iki və daha artıq vəsi seçə bilər: istər müstəqil şəkildə, istərsə də şərikli formada. Vəsiyyət edən şəxs hər birini müstəqil olaraq vəsi edibsə, onların hər biri vəsiyyəti icra etməkdə müstəqildir, biri digərindən tez icra edərsə, onun əməli təsirli olacaqdır. Əgər vəsiyyət edən onları şərikli formada vəsi qərar veribsə və ya müstəqil yaxud şərikli olmalarını müəyyən etməyərək

mütləq şəkildə vəsiyyət edibsə, gərək razılaşma yolu ilə vəsiyyətə əməl etsinlər. Onların arasında ixtilaf düşdükdə şəriət hakiminə müraciət etsinlər. Əgər onlardan biri dünyasını dəyişərsə və vəsilik də şərikli formada olarsa, şəriət hakimi bir nəfəri onlara əlavə edir.

**Məsələ-1870.** Bir nəfəri bəzi işlər üçün, başqa birisini isə digər işlər üçün vəsi qərar vermək olar.

**Məsələ-1871.** Aşağıdakı yerlərdə vəsi vəzifəsindən azad olur, yaxud başqa bir nəfər ona əlavə edilir:

1. Vəsi xəyanət edərsə, bu halda şəriət hakimi onu azad edir, yaxud başqa əmin bir şəxsi ona qoşur.
2. Vəsi təklikdə vəsiyyəti icra etməkdə aciz olarsa, bu zaman şəriət hakimi bir nəfəri ona qoşur.
3. Vəsi vəsiyyəti icra etməkdə kamil şəkildə aciz olarsa, bu zaman vəsi öz-özünə azad olur[1] və şəriət hakimi başqa bir şəxsi təyin edir.
4. Vəsi dünyasını dəyişdikdə, bu zaman şəriət hakimi başqa bir nəfəri təyin edir.
5. Vəsi dəli olduqda, belə ki, sağalmağa ümid olmazsa, bu zaman vəsilik batil olur və şəriət hakimi başqa birini onun yerinə təyin edir.

**Məsələ-1872.** Vəsiyyət edən şəxs başqalarını vəsiyyətə nəzarətçi kimi təyin edə bilər. Vəsiyyət edən şəxs gərək nəzarətçinin vəzifələrini müəyyən etsin, amma müəyyən etmədikdə nəzarətçinin normal vəzifəsi vəsinin işlərindən xəbərdar olmaqdır. Belə ki, vəsi vəsiyyətin əksinə əməl etdikdə nəzarətçi ona etiraz etsin.

**Məsələ-1873.** Vəsiyyətin nəzarətçisi vəsiyyət edən şəxs tərəfindən vəsi deyilsə, vəsiyyəti icra etmək haqqı yoxdur. Amma şəriət hakimi onu vəsi təyin edərsə, bu zaman icra edə bilər.

**Məsələ-1874.** Vəsiyyəti və onun necə icra edilməsini nəzərə almaqla aşağıdakı formada əməl edilməlidir.

---

[1] Yəni hakimin onu azad etməsinə ehtiyac yoxdur və artıq bu şəxs vəsi sayılmır.

1. Əgər bir şəxs borc, xüms, zəkat, məzalim[1] və kəffarələr kimi mali vaciblərini onun malının üçdə birindən ödəməsini vəsiyyət etsə, bu vəsiyyət deyilən kimi icra olunmalıdır. Onun malının üçdə biri etdiyi vəsiyyəti ödəməzsə, onun qalanı əsl maldan təmin olunmalıdır. Əgər bunların malın üçdən birindən, yaxud xüsusi bir maldan ödənməsini bəyan etməzsə, gərək əsl maldan götürülsün.

2. Əgər vacib həccin yerinə yetirilməsini vəsiyyət edərsə, hətta nəzir vasitəsilə vacib də olsa və ya hər bir "mali nəzir", məsələn, pul, onun malının üçdə birindən ödənilməsinə vəsiyyət edərsə, vəsiyyət etdiyi kimi əməl olunmalıdır. Əgər onun malının üçdən biri buna kifayət etməzsə, qalanı əsl maldan ödənilməlidir. Amma bunların malın üçdə birindən, yaxud xüsusi bir maldan ödənməsini bəyan etməzsə, gərək əsl maldan götürülsün.

**Məsələ-1875.** Təmliki, yaxud əhdi vəsiyyət yuxarıda qeyd edilən yerlərdən başqa yerlərdə təkcə malın üçdə birində təsirli və səhihdir. Məsələn, əgər malından müəyyən qədər yoxsula verilməsini, tərəfindən ziyarət edilməsini, əzadarlıq keçirilməsini, namaz və oruc qəzalarının qıldırılmasını vəsiyyət etsə, bu halda təkcə malının üçdə biri qədərində vəsiyyət təsirli olur. Amma bütün varislər buna icazə versələr, eybi yoxdur.

## Malın üçdə birinin hesablama meyarı

**Məsələ-1876.** Birinci növbədə meyitin malından dəfn xərcləri, borcları, məsələn, həyat yoldaşının mehriyyəsi çıxılır və borc sahiblərinə ödənilir, sonra yerdə qalan malın üçdə biri hesablanır.

**İzah:**

1. Meyitin işlərinin xərclərində məqsəd onun hədd və şənində olan qüsl, kəfən və dəfninin xərcidir. Ehsan vermək, məclis tutmaq və s. xərclər buna aid deyil. Həmçinin meyitin borcları, istər camaatın tələbi və borcu olsun, istər həyat yoldaşının mehriyyəsi olsun, istərsə də yerinə yetirmədiyi vacib həcc olsun, nəzərdə tutulur. Həmçinin

[1] Nahaq yerə başqasının malı birinin əlində olmasına məzalim deyilir. (Mütərcim)

xüms, zəkat, kəffarələr və məzalim[1] onun deynlərindən sayılır. 2. Meyar öldüyü zaman olan mallarıdır.

3. Meyitin diyəsi (qanbahası) meyitin irsi hesablanır.

4. İnsanın malının üçdə bir hissəsini kənara qoyması caizdir, bu şərtlə ki, vəfat etdikdən sonra ümumi malının üçdə iki hissəsi varisə çatsın. Misal üçün,[2] bir nəfər oğluna vəsiyyət edir ki, həyətyanı sahəsinin bir hissəsini satıb pulu ilə onun tərəfindən həcc yerinə yetirsin. Bir tərəfdən də yerin pulu onun həccinə kifayət etmir. Əgər yaşadığı zaman həcc ona vacib olub və yerinə yetirməyibsə, indi hətta miqati[3] həcc yerinə yetirmək də o yerin pulu ilə mümkün deyilsə, gərək onun çıxarı mal bölünmədən öncə meyitin əsl pulundan təmin edilsin.

Başqa bir misal göstərək: Meyitin bir həyətyanı sahəsi, bir avtomobili, bir yaşayış mənzili və bankda bir qədər pulu var. Vəsiyyət edib ki, onun mallarından iki yüz milyon məscid tikilməsində xərclənsin, yüz milyon da başqasına verəcəyi var. Bütün mallarının dəyəri də altı yüz milyondur. Əvvəlcə meyitin deynləri (verəcəyi) ayrılmalıdır, yəni (600-100=500) beş yüz milyonun üçdə biri təqribən yüz altmış yeddi milyondur. Varis gərək bu məbləği məscidin tikintisinə xərcləsin. Bundan artıq xərcləmək üçün bütün varislərin icazəsi lazımdır. Hər bir varis öz haqqında güzəşt edə bilər, amma başqalarını məcbur edə bilməz. Başqa bir misal. Təsəvvür edin ki, meyit öz malının üçdə birinin iki yüz əlli milyonunu borclarına verilməsini vəsiyyət edib, amma onun üçdən biri iki yüz milyondur. Bu zaman əlli milyon onun əsl malından götürülüb təmin olunacaq.

---

[1] Nahaq yerə başqasının malının birinin əlində olmasına məzalim deyilir. (Mütərcim)

[2] Misallar əsl məsələyə aiddir (Mütərcim)

[3] Miqati həcdə məqsəd budur ki, Məkkəyə yaxın olan miqatdan əcr etsin. Nəinki meyitin öz şəhərindən, ya başqa şəhərlərdən. Bu zaman əcr etməyin xərci daha da az olur (miqatda məqsəd ehram bağlayıb həcc üçün niyyət edilən məkandır).

**Məsələ-1877.** Vəsiyyət edən şəxsin ölümündən sonra onun vəsiyyətini dəyişmək mütləq şəkildə haramdır. Amma vəsiyyət edən şəxs bu haqqı vəsiyyət edən zaman bir şəxsə veribsə, bunun eybi yoxdur.

**Məsələ-1878.** Hətta əgər varisin meyitin malına şiddətli şəkildə ehtiyacı olsa da, onun vəsiyyətini bir zərrə belə dəyişməyə ixtiyarı yoxdur.

**Məsələ-1879.** Hətta əgər vəsiyyət olunmuş mala az miqdarda belə vəsiyyət əsasında əməl edilməzsə və başqa bir yerdə xərclənərsə, xərcləyən şəxs həmin miqdarda zamindir.

**Məsələ-1880.** Əgər vəsiyyətnamə qaranlıq olarsa və yəqin ediləsi miqdar da olmazsa, heç bir təklif yoxdur. Məsələn, təsəvvür edin ki, vəsiyyətnamədə bir ədəd yazılıb və onun iki milyondur, yoxsa üç milyon olması məlum deyil. Bu zaman şübhəsiz, iki milyona əməl edilməlidir. Yaxud bir milyonun bir kəsə verilməsini vəsiyyət edib, amma fəqir, yoxsa seyid yazılması məlum deyil. Bu zaman onun yəqin olunan yeri fəqir olan seyiddir. Buna əsasən, əgər seyid olan bir fəqirə bir milyon ödəsələr, vəsiyyətə əməl olunub. Birinci misalda vəsiyyətin bir hissəsinə əməl edilib, ikinci misalda isə vəsiyyətə bütövlükdə.

## Bir vəsiyyətnamədə olan bir neçə vəsiyyətə əməl etməyin yolu

**Məsələ-1881.** Eyni səviyyədə olan vəsiyyətlərin hər hansı biri vəsiyyətnamədə əvvəl yazılıbsa, gərək birinci ona əməl olunsun. Amma vəsiyyətdən onun əvvəl yazılmasında məqsədin birinci əməl edilmək olmadığı başa düşülsə, əməl olunmasında üstünlük yoxdur.

### 1. Bir-biri ilə zidd olmayan vəsiyyətlər

Məqsəd o vəsiyyətlərdir ki, bir-biri ilə heç bir ziddiyyəti yoxdur. Məsələn, əgər meyit "bir dəfə bu yer filankəsə, ikinci dəfə başqasına verilsin" desə, burada iki vəsiyyət bir-biri ilə ziddir.

A) Bir növdən olan vəsiyyətlər:

**Bir:** "Mali" vaciblər, əsl maldan xərclənməlidir.

**İki:** "Bədəni" vaciblər, malın üçdə birindən xərclənməlidir. Üçdə birindən çox xərclənməyə ehtiyac olduqda, bütün varislərin icazəsi lazımdır ki, əsl maldan götürülsün.

**Üç:** "Təbərrüi",[1] "Bədəni vaciblər" kimidir.

**İzah:** "Bədəni", ya "təbərrüi" vəsiyyətdə vəsiyyətin xərci malın üçdə birindən çox olarsa və varis üçdə birdən artıq xərcləməyə icazə verməzsə, əgər vəsiyyətlərin arasında öncəlik və təxir düşünülməzsə, onların hamısından çıxarılır və mal onların hər biri arasında paylanır. Amma əgər vəsiyyətdən vəsiyyətə əməl etməkdə öncəlik və təxir düşünülərsə, vəsiyyətnamə əsasında əməl edilməlidir.

B) Bir neçə növdən olan vəsiyyətlər:

**Bir:** Xərclənmək yeri bəyan edilməyib (məsələn, harada, hətta üçdə birindən xərclənməsi deyilməyib).

**Birinci:** "Mali vaciblər": əsl maldan ödənilməlidir.

**İkinci:** "Bədəni vaciblər": mali vacibləri çıxdıqdan sonra malın üçdə birindən ödənilməlidir.

**Üçüncü:** "Təbərrüi", mali vacibləri çıxdıqdan sonra malın üçdə birindən ödənilməlidir.

**Diqqət:** Yuxarıdakı tərtibə riayət olunmalıdır, çünki mümkündür növbə ikinci mərhələyə yetişməsin.

**İki:** Xərclənmək yeri, həmçinin üçdə birindən xərclənməsi bəyan edilib.

**Birinci:** "Mali"[2] və "bədəni" vaciblər, bu vaciblər üçün müəyyən edilmiş maldan xərclənilir. Üçdə bir kifayət etmədikdə qalanını əsl maldan götürməyə varis icazə vermədikdə onların hər biri digərinə

---

[1] "Təbərrüi"də məqsəd burada odur ki, vəsiyyət olunan şey meyitin boynunda vacib deyil və ixtiyarlı olaraq vəsiyyət edibdir.

[2] Həccə də aid olur.

müqəddəm olarsa, onu icra etmək lazımdır. Amma xüsusi tərtib olmadıqda malın üçdən biri "mali" və "bədəni" vaciblərə paylanır:

1) "Mali" vacibləri icra etmədikdə malın üçdə biri kifayət etməsə, çatışmayan hissə əsl maldan təmin edilir.
2) "Bədəni" vacibləri icra etmədikdə, varisin icazəsi ilə çatışmayan hissə əsl maldan təmin edilir.

**İkinci:** "Təbərrüi" (qeyri-vaciblər), onun üçün təyin edilmiş maldan xərclənilir.

**Diqqət:** Birinci və ikincinin tərtibinə riayət olunmalıdır, yəni əvvəl mali vaciblər, sonra bədəni vaciblər, daha sonra təbərrüi olanlar icra edilir.

## 2. Bir-biri ilə zidd olan vəsiyyətlər

Bir vəsiyyətdən sonra edilən vəsiyyət əvvəlki vəsiyyəti batil edir. Məsələn, bir şəxs 1360-cı ildə, sonradan 1372-ci ildə yeni bir vəsiyyət edib. Onları ortaq məxrəcə gətirmək mümkün deyil. Aşağıda bir neçə nümunə göstəririk:

1. Bir şəxs vəsiyyət edib: "Mənim malımla mənim üçün vacib həcc yerinə yetirin və həyat yoldaşımın mehriyyəsini ödəyin". Təsəvvür edin ki, həccin qiyməti altı milyon, qadının mehriyyəsi otuz milyondur. Meyitin ümumi malının dəyəri isə iyirmi milyondur, başqa bir borcu da yoxdur. Bu zaman meyitin əsl malından götürülüb vəsiyyətə əməl edilməlidir. Meyitin malı həccin və mehriyyənin xərcinə paylanmaqla həcc üçün nəzərdə tutulan məbləğ ona kifayət etmir. Buna görə də mehriyyə üçün iyirmi milyon ödənilir.

2. Bir şəxs vəsiyyət edib ki, malından onun üçün on ilin namazını qıldırsınlar. Məsələn, bunun xərci də üç milyondur. Həmçinin vəsiyyət edib ki, xanımının otuz milyon mehriyyəsini ödəsinlər. Meyitin ümumi malının dəyəri iyirmi milyondur. (Meyitin qüsl, kəfən və dəfninin xərci istisna olmaqla) mal bütövlükdə mehriyyəyə sərf edilir.

3. İkinci misalda əgər meyitin malları (onun qüsl, kəfən və dəfninin xərci çıxıldıqdan sonra) otuz beş milyon olarsa, əvvəl qadının

mehriyyəsi ödənilir, sonra yerdə qalan malın üçdə bir hissəsi meyit namazına xərclənir, qalanı varisə yetişir.

4. Üçüncü misalda qeyd olunan iki vəsiyyətdən əlavə vəsiyyət də olub, məsələn, vəsiyyət edib ki, iki milyon da yoxsullara sədəqə verilsin. Pulun qalanı meyitin namazına xərcləndiyi üçün artıq onun malından yerdə bir şey qalmır (və bədəni vaciblər təbərrüi vəsiyyətə önə keçdiyi üçün), bu vəsiyyətə əməl edilmir və (bu şəraitdə) şəri baxımdan fəqirə kömək edilməməlidir. Amma varis öz haqqından keçərsə, fəqirə də etdiyi vəsiyyətə əməl olunur.

5. Bir şəxs malından on ilinin namaz qəzası qılınmasını (təsəvvürümüz də budur ki, bunun xərci dörd milyondur), dörd ilinin oruc qəzasını tutulmasını (təsəvvürümüz də budur ki, bunun xərci bir milyondur) və bir müstəhəb ümrə yerinə yetirilməsini (təsəvvürümüz də budur ki, bunun xərci iki milyondur) vəsiyyət edib. Meyitin ümumi malının dəyəri də (dəfn xərcini çıxdıqdan sonra) on beş milyondur. Bədəni vaciblər (namaz və oruc) müqəddəm olduğu üçün ümrəyə növbə çatmır (çünki onun malının üçdə biri beş milyondur, namaz və orucun qəzası ilə yanaşı ümrəni yerinə yetirmək üçün pul kifayət etmir).

Əgər vəsiyyətdə tərtib qeyd olunubsa, məsələn, əvvəl namaz qəzası, sonra oruc qəzası və daha sonra müstəhəb ümrə yerinə yetirilməsi deyilibsə, gərək əvvəl namaz üçün xərclənsin, yerdə qalan pul oruc üçün xərclənsin. Nəticədə müstəhəb ümrəyə növbə çatmır.

**Məsələ-1882.** Varis üçdə birdən artığa icazə verdiyi qədər vəsiyyət təsirlidir. Əgər öləndən sonra varis icazə verərsə, mütləq şəkildə təsirlidir (hətta meyit həyatda olduğu zaman inkar etsələr belə). Əgər ölümündən qabaq icazə versələr, mütləq şəkildə təsirlidir (hətta əgər öldükdən sonra inkar etsələr belə). Əgər varislərin bəzisi icazə verərsə, icazə verənlər gərək üçdə birdən artıqda öz səhmlərinə nisbət vəsiyyətə əməl etsinlər.

## Vəsiyyətin sübutolunma yolu

**Məsələ-1883.** Əgər vəsiyyət bir şeyin, yaxud kiçik övladlarının qəyyumluğu barəsində olarsa, iki adil kişinin şəhadət verməsi ilə sübuta yetir.

**Məsələ-1884.** Əgər vəsiyyət mal barədədirsə, aşağıdakı yollardan biri ilə vəsiyyət sübuta yetir:

1. İki adil kişinin şəhadət verməsi ilə;

2. Bir adil kişinin şəhadət verməsi və and içməklə;

3. Bir adil kişi və iki adil qadının şəhadət verməsi ilə;
4. Bütün varislərin etirafı ilə, varislərin bəziləri etiraf edərsə, vəsiyyət etiraf edənlər üçün keçərlidir və icrası lazımdır.

## Vəsiyyətdən dönmək

**Məsələ-1885.** Vəsiyyət edən şəxs nə qədər ki, diridir, vəsiyyətindən qayıda bilər. Vəsiyyətdən qayıtmaq və dönmək ya sözlə, məsələn "vəsiyyətimdən döndüm", yaxud "vəsiyyət batildir" desin, ya da əməl ilə (məsələn, vəsiyyət etdiyi malı satmaq kimi) olur.

**Məsələ-1886.** Əgər vəsiyyət edən şəxsin öz vəsiyyətindən dönüb dönməməsində şəkk etsələr, vəsiyyət mütləq şəkildə olduqda, vəsiyyətə əməl olunmalıdır. Amma vəsiyyəti hər hansı bir şərtlə bağlı olarsa (məsələn, vəsiyyət edə ki, səfərdə, yaxud xüsusi bir xəstəliklə ölərsə, filan iş görülsün, səfərdə ya dediyi xüsusi xəstəliklə ölməzsə), vəsiyyəti batildir.

# NƏZİR, AND VƏ ƏHDİN HÖKMLƏRİ

## Nəzirin hökmləri

**Məsələ-1887.** Nəzir, kiminsə özünə hər hansı bir əməli xüsusi formada Allaha xatir etmək üçün vacib etməsindən ibarətdir.

**Məsələ-1888.** Nəzirin bağlanmasında təkcə niyyət etmək kifayət deyil. Bunun üçün xüsusi siğə (cümlə və əqd) də lazımdır, baxmayaraq ki, siğənin ərəbcə olması lazım deyil. Məsələn: "Allah üçün mənim öhdəmdədir ki, gecə namazı qılım". "Allah üçün mənim öhdəmdədir qeybət etməyim" deyir.

**Məsələ-1889.** Aşağıdakı cümlələrlə nəzirin bağlanması işkallıdır. Allah üçün bir gün oruc tutmağı nəzir etdim.

Allah üçün bir günlük oruc nəziri mənim öhdəmdədir.

Buna əsasən, vacib ehtiyat budur ki, nəzirə əməl edilsin. Tərk edilərsə, vacib ehtiyata əsasən, kəffarə verilsin.

**Məsələ-1890.** Yerinə yetirilməsi, yaxud tərk edilməsi nəzir edilən şeyin yerinə yetirilməsi yetirilməməsindən, yaxud tərk edilməsi yerinə yetirilməsindən daha yaxşı (yəni üstün) olmalıdır: (yerinə yetirilməsi baxımından) istər vacib olsun, istər müstəhəb (tərk edilməsi baxımından), istər haram olsun, istərsə də məkruh. Məsələn, nəzir edir oruc tutsun, ziyarətə getsin, qeybət etməsin, yaxud siqaret çəkməsin. Əks təqdirdə nəzir səhih deyil. Məsələn, nəzir edir ki, siqaret çəksin, yaxud qeybət etsin. Əgər əməl, yaxud tərk edilməsini nəzir etdiyi şey mübah olarsa, onu yerinə yetirməyin, ya tərk etməyin üstünlüyü (olarsa və bu üstünlük) nəzərə alınaraq nəzir edilərsə, nəzir səhihdir. Məsələn, nəzir edir ki, Allaha itaət etmək üçün yemək yesin, amma heç bir üstünlük olmasa, nəzir bağlanmır.

**Məsələ-1891.** Gərək nəzir olunası şey nəzir edənin qüdrəti daxilində olsun, çoxlu məşəqqətli və etina ediləsi qədər zərərli olmasın. Məsələn, oruc tutmaq ona zərər edən şəxs, oruc tutmağı nəzir edə bilməz. Həmçinin yol getməyə imkanı olmayan şəxs piyada Kərbəlaya getməyi nəzir edə bilməz.

**İzah:** Nəzir edilən şeydə üstünlüyün olması və onun yerinə yetirilməsinin mümkünlüyü ona əməl etmək vaxtı çatanda da öz qüvvəsində qalır. Buna görə də əməl etmək vaxtı çatanda nəzir

edilən şeydə üstünlük olmasa, yaxud nəzir edən şəxs onu yerinə yetirməkdə aciz qalsa, yaxud onu yerinə yetirmək çox məşəqqətli olsa, nəzirə əməl etmək vacib deyil.

**Məsələ-1892.** Nəzir edən şəxs gərək həddi-büluğa çatmış, aqil, ixtiyarlı, məqsədli olsun. Həmçinin öz malına aid nəzir edibsə, məhcur (yəni səfeh və iflasa uğramış) olmasın.

**Məsələ-1893.** Səfeh şəxs nəzir vasitəsilə hər hansı "mali" bir şeyi öhdəsinə götürüb, hətta yanındakı mallardan nəzir etməsə belə, nəziri batildir. Amma iflasa uğramış şəxs mali bir şeyi nəzir etdikdə və öhdəsinə aldıqda hal-hazırda yanında olan mallardan nəzir etməyibsə, nəziri düzdür.

**Məsələ-1894.** Əgər qadın əri ilə yaşayırsa, ərinin icazəsi olmadan hətta öz mallarına aid etdiyi nəziri batildir.

**Məsələ-1895.** Əgər əri əvvəl icazə versə, amma nəzirdən sonra razı olmasa, nəzirə əməl etmək vacibdir.

## Nəzirin qisimləri

**Məsələ-1896.** Nəzir iki qisimdir:

**Birinci:** Şərtli nəzir o nəzirdir ki, müəyyən bir şeyin hasil olması ilə şərtlənir.
Bu, üç növdür:

1. Dünya və axirət nemətlərin şükrünü yerinə yetirməyə nəzir edir. Məsələn, deyir: "Əgər Allah mənə sağlam övlad verərsə, Allah üçün qırx yoxsula yemək vermək mənim öhdəmdədir". Bu misaldan gördüyünüz kimi yoxsulları yedirtmək sağlam övlad olmasına bağlıdır ki, onun şükrünü yerinə yetirmək üçün nəzir edir.

2. Bəla və müşküllərin dəf olması üçün nəzir edir. Məsələn, deyir: "Əgər Allah atama şəfa verərsə, qırx gecə Aşura ziyarəti oxumaq Allah üçün mənim öhdəmdədir".

3. Özünü haram, ya məkruh əməllərdən uzaqlaşdırmaq üçün nəzir edir. Məsələn, deyir: "Əgər yalan danışaramsa, Allah üçün bir yoxsula təam vermək mənim öhdəmdədir".

**İkinci:** Mütləq nəzir o nəzirdir ki, heç bir şərtə bağlı deyil. Məsələn, nəzir edir: "Allah üçün rəcəb ayını oruc tutmaq mənim öhdəmdədir".

**Məsələ-1897.** Nəziri müəyyən bir zamana, ya məkana xasdırsa, onu başqa zaman, ya məkanda yerinə yetirmək kifayət etmir.

**Məsələ-1898.** Əgər, məsələn, on gün oruc tutmağı nəzir edibsə, ardıcıl, yaxud pərakəndə tutmağını müəyyən etməyibsə, hər iki halda yerinə yetirməyin işkalı yoxdur.

**Məsələ-1899.** Əgər ziyarətgahlardan birinə bir malı nəzir etsə, gərək o məkan üçün xərclənsin. Amma imamlardan (ə), yaxud onların övladlarından birinə nəzir edərsə, hər bir xeyir işdə, fəqirlərə sədəqə vermək, məscid təmir etmək, körpü tikmək və s. kimi yerlərdə savabının nəzir olunan şəxslər üçün olması məqsədiylə xərcləyə bilər. Baxmayaraq ki, onların ziyarətgahlarının zəvvar və xadimlərinin xərclərinə sərf edilməsi müstəhəbdir. Əlbəttə ki, əgər nəzir xüsusi bir xərc etməklə qeyd olunarsa, qeyd etdiyi kimi əməl olunmalıdır.

**Məsələ-1900.** Xüsusi bir zamanla qeyd olunan nəzirin aşağıdakı hökmləri var (yəni nəzir etdiyi şeyin xüsusi bir zamanda yerinə yetirilməsi şərt edilərsə):

1. Əgər oruc tutmağı nəzir edərsə, (nəzirinə əməl etmədikdə) orucun qəzası vacibdir və bilərəkdən tərk edərsə, nəziri sındırmağın kəffarəsi də vacib olur.

2. Əgər namaz qılmağı nəzir edərsə (nəzirinə əməl etmədikdə), vacib ehtiyata əsasən, namazın qəzası vacibdir. Bilərəkdən tərk edibsə, nəziri sındırmaq kəffarəsi də vacibdir.

3. Əgər namaz və orucdan başqa bir şeyi, məsələn, Aşura günü İmam Hüseynin (ə) ziyarətinə getməyi nəzir edibsə, (nəzirinə əməl

etmədikdə) qəzası vacib deyil, amma bilərəkdən tərk edərsə, kəffarə vacib olur. Əgər nəzir etdiyi şey xüsusi zaman üçün şərt edilməzsə, ölümünün yetişməsinə güman etdiyi zamana qədər təxirə sala bilər. Əks halda təxir caiz deyil. Buna görə də nəzirin bu növündə nəzirin pozulması insanın onu sağlığında yerinə yetirməməsi ilədir.

**Məsələ-1901.** Nəziri sındırmaq o zaman kəffarəyə səbəb olur ki, bilərəkdən və ixtiyar üzündən olsun (nəinki, unutmaq, naçarlıq və ya məcburiyyət üzündən).

**Məsələ-1902.** Əgər hər dördüncü gün oruc tutmağı nəzir edərsə, dördüncü günlərdən bəziləri fitr, ya qurban günlərinə təsadüf etdikdə, yaxud nəzir edən xəstə, ya heyzli olduqda o günü oruc tuta bilməz, vacibdir o günün qəzasını yerinə yetirsin. Vacib ehtiyata əsasən, bu hökm səfərdə olduğuna görə oruc tutmayanlara da aiddir.

**Məsələ-1903.** Əgər xüsusi bir günü oruc tutmağı nəzir edərsə, hətta səfər qeyri-zəruri olsa da, səfərə gedə bilər. Amma sonradan o günü qəza etməlidir, kəffarəsi də yoxdur.

**Məsələ-1904.** Bir şəxs hər dördüncü günü oruc tutmağı nəzir edib (qəsdən və bilərəkdən) bir dördüncü gün oruc tutmasa, əgər nəzir etdiyi zaman məqsədi bütün dördüncü günləri vahid şəkildə nəzir edibsə, belə ki, hətta bir gün də oruc tutmasa, məqsədi hasil deyil. Bu halda bir dəfə nəzirini sındırmaqla nəzir bütövlükdə pozulur və kəffarə vacib olur. Sonrakı həftələrdə oruc tutmaq vacib deyil. Amma nəzir etdiyi zaman hər dördüncü günü oruc tutmaq ayrı-ayrı və müstəqil olaraq məqsədində olubsa, bu halda hər bir dördüncü günün nəzirini pozması müqabilində bir kəffarə vacib olur.

**Məsələ-1905.** Əgər bir şəxs bilərəkdən nəzirini sındırarsa, gərək on fəqirə təam versin, yaxud onları geyindirsin, imkanı olmadıqda üç gün ardıcıl oruc tutsun.

**Məsələ-1906.** Əgər nəzir edən şəxs nəziri yerinə yetirməyə aciz olsa, nəzir pozulur (istər mütləq, istər şərtli nəzir olsun) və boynunda

heç bir şey yoxdur. Əlbəttə, oruc nəzir etdikdə və tutmağa aciz olduqda gərək hər günün müqabilində yoxsula bir müdd təam versin.

## Andın hökmləri

**Məsələ-1907.** Əgər insan müəyyən bir işi görmək, ya tərk etmək üçün (müqəllibəl-qulub vəl-əbsar kimi) Allahın adına, ya Ona xas olan sifətlərdən birinə, yaxud Xaliq, Raziq və Rəhim kimi əksər hallarda onun üçün istifadə edilən sifətlərdən birinə and içərsə, hansı dildə olursa-olsun, (xüsusi şərtlərlə olduqda) anda əməl etmək vacibdir.

**Məsələ-1908.** Əgər adətən Allah üçün işlədilməyən sözlə and içərsə, amma and içən şəxsin məqsədi Allah olarsa, vacib ehtiyata əsasən, and hökmündədir.

**Məsələ-1909.** Allahdan başqasına, məsələn, Peyğəmbəri-əkrəmə (s), məsum imamlara (ə), Qurani-Kərimə və ya bunun kimi müqəddəs şeylərə and içərsə, and hökmündə deyil.

**Məsələ-1910.** Əgər bir şəxs aşağıdakı şərtlərlə and içərsə, öz andına əməl etməsi vacibdir, əks təqdirdə kəffarəsi var:

1. Andın siğəsi (xüsusi cümləsi). Bu yuxarıda qeyd edildi.

2. Yerinə yetirilməsi and içilən şey gərək vacib, müstəhəb, ya mübah əməl olsun. Mübah işdə üstün cəhətin olub-olmamasının fərqi yoxdur. Tərk edilməsi üçün and içilən şey ya gərək haram olsun, ya məkruh, ya da mübah. Buna əsasən, andda yerinə yetirilməsi and içilən şeyin tərki onu yerinə yetirməkdən üstün olmamalıdır, həmçinin tərk edilməsi üçün and içilən şeyin əməli onun tərkindən üstün olmamalıdır (Əgər qəsd edəcəyimiz şeyin üstünlüyünü nəzərə alaraq əməl edəcəyimizə and içdikdən sonra onun üstünlük cəhəti aradan gedərsə, hətta and batil olduqdan sonra, öncədən əməl edəcəyimizə and içdiyimiz şeyin üstünlüyü yenidən geri qayıtsa belə, artıq and batil olur.

3. Əməl edilməsi üçün and içilən iş insanın qüdrəti daxilində olmalıdır. Çox məşəqqətli, ya etina ediləsi qədər zərərli olmamalıdır.
4. And içən şəxs gərək həddi-büluğa yetişmiş, aqil, ixtiyarlı və məqsədli olsun. And içdiyi şeyə nisbət məhcur olmasın.
5. Övladın and içməyində atanın, qadının and içməyində ərin icazəsi lazımdır.

**Məsələ-1911.** Nəziri sındırmaq və nəziri yerinə yetirməyə aciz olmaq bölməsində dediklərimiz and bölməsinə də aiddir.

## Əhdin hökmləri

**Məsələ-1912.** İnsanın müəyyən bir işi yerinə yetirməsi, ya tərk etməsi üçün Allahla peyman bağlamasına əhd deyilir. Məsələn, "Allah ilə əhd bağlayıram ki, namazı əvvəlinci vaxtında qılım", ya "Allahın əhdi mənim öhdəmdədir ki, namazı əvvəlinci vaxtında qılım" deyir.

**Məsələ-1913.** Əhddə də andın beşinci şərtindən başqa bütün şərtlərinə riayət etmək lazımdır.

**Məsələ-1914.** Əhd də nəzir kimi həm mütləq - məsələn, Allah ilə əhd bağlayıram ki, namazlarımı əvvəlinci vaxtında qılım, həm də şərtli ola bilər. Məsələn, əgər imtahanda yaxşı bal toplaya bilsəm, Allah ilə əhd bağlayıram ki, namazlarımı əvvəl vaxtında qılam.

**Məsələ-1915.** Nəziri sındırmağa aid olan hökmlər, əhdi sındırmağa da aid edilir.

**Məsələ-1916.** Əhdi sındırmağın kəffarəsi (nəziri sındırmaqdan fərqli olaraq) ramazan ayının bir gün orucunu bilərəkdən iftar edən şəxsin kəffarəsi kimidir. Yəni altmış gün oruc tutmalı, ya altmış fəqirə yemək verməlidir.

## Müzaribənin hökmləri

**Məsələ-1917.** "Müzaribə" biri sərmayə sahibi, digəri həmin sərmayə ilə ticarət edən iki nəfər arasında bağlanan əqddir. Belə ki,

ticarətdən əldə olunan mənfəət onların arasında əqd zamanı razılaşma yolu əsasında bölünür.

**Məsələ-1918.** Müzaribə əqdində sərmayə sahibi tərəfindən "icab",[1] tacir tərəfindən isə "qəbul" edilməlidir. "İcab" və "qəbul" buna dəlalət edən hər bir sözlə (istər ərəbcə olsun, istərsə də başqa dildə), ya hər bir əməllə icra edilə bilər.

**Məsələ-1919.** Müzaribə əqdinin hər iki tərəfində bir neçə şərt lazımdır:
1. Həddi-büluğa yetişsin (uşağın atası, babası, ya şəri qəyyumu uşağın mənafeyini nəzərə alaraq onun tərəfindən müzaribə əqdi bağlaya bilər).

2. Aqil olsun (dəli olmasın).
3. İxtiyarlı olsun (məcbur edilməsin).
4. Sərmayə sahibi məhcur olmasın (öz malında istifadə etməyə şəri maneə olmasın).
5. Ticarət edən şəxsin (o sərmayə ilə işləyən şəxsin) ticarət etməyə qüdrəti olsun. Buna əsasən, əgər sərmayənin bir hissəsini ticarətdə işlətməyə qadir deyilsə, o qismin müqabilində olan müzaribə batildir. Məsələn, Əli yüz milyonu Həsənə verir ki, onunla ticarət etsin və müzaribə əsasında əməl etsin. Amma Həsən təkcə onun altmış milyonunu işlətməyə qadirdir. Bu halda hətta istifadə etməsə belə, ixtiyarı yoxdur ki, sərmayənin qırx milyonunu onun sahibinin icazəsi olmadan öz yanında saxlasın. Əgər Həsən müzaribə əqdi bağlanan zaman yüz milyonun hamısını işlətməyə qadir olub, sonradan iş arasında qırx milyonunu işlətməyə aciz olubsa, aciz olan andan yuxarıdakı hökmə əməl edilməlidir.

**Məsələ-1920.** Müzaribədə olan sərmayənin iki şərti var:

[1] "İcab"- hər hansı bir əqddə, əqdi bağlamaq məqsədiylə müqavilənin siğəsini icra edən birinci şəxsin tərəfindən deyilən cümləyə deyilir. (Mütərcim)

1. Dəyərli pul olsun, deynlə müzaribə səhih deyil. Amma deyni aldıqdan sonra müzaribə düzgündür. Fərqi yoxdur ki, burada borclu müzaribənin ticarətini edən şəxs olsun, yaxud başqası.

2. Miqdarı müəyyən olsun, əlbəttə ki, "müşa"[1]: formada olmağının eybi yoxdur. Məsələn, iki şərikin birinin səhmi üçdə bir, o birinin səhmi isə üçdə ikidir. Onlar bu müştərək malı müzaribə əqdi ilə tacirin ixtiyarında qoya bilərlər, baxmayaraq ki, hər birinin səhmi sərmayədə ayrı-ayrılıqda müəyyən edilməyib.

## Mənfəətin şərtləri

**Məsələ-1921.** Müzaribədən əldə olunan mənfəətin bir neçə şərti var:

**Birinci şərt:** Mənfəət ticarət və alver yolu ilə olsun. Buna əsasən, əgər sərmayə sahibi pulunu əkinçiyə verib əkinçilikdən ələ gələn məhsul iki hissəyə bölünsə, o, müzaribə deyil. Həmçinin pul verib neçə baş qoyun alıb onun mənfəəti iki hissəyə bölünsə, müzaribə batildir və ondan ələ gələn mənfəət sərmayə sahibinindir. İşçinin təkcə öz işi müqabilində olan muzdunun mislini almaq haqqı var.

**İkinci şərt:** Hər iki tərəfin mənfəəti müəyyən edilməlidir.

**Üçüncü şərt:** Müzaribədə təyin edilən mənfəət ədədlə olmamalıdır, gərək kəsrlə (yəni faizlə) olsun. Məsələn, Məhəmməd on milyonluq sərmayəni Əlinin ixtiyarında qoyur ki, onunla ticarət edib ələ gələn mənfəətin otuz faizini Məhəmmədə versin. Buna əsasən, yuxarıdakı misalda əgər müəyyən məbləğ, məsələn, ayda üç yüz min təyin edilərsə, müzaribə batildir.

[1] Məsələn, iki şərikin birinin səhmi üçdə bir, o birinin səhmi isə üçdə ikidir, amma hər birinin səhmi sərmayədə ayrı-ayrılıqda müəyyən edilməyib. Belə bir şəriklik müşa şərikliyi adlanır. (Mütərcim)

**İzah:** Mənfəət kəsr şəklində, məsələn, 5 faiz müəyyən edilərsə, hər ay təqribi olaraq üç yüz, ya dörd yüz min ödəyə bilər. Lakin müqavilənin sonunda bir-biri ilə sülh etməli, yəni bir-birinə deməlidirlər ki, verilən pula hər ikisi razıdır və heç biri digərinə borclu deyil.

**Dördüncü şərt:** Müzaribədə mənfəətdə məqsəd müzaribənin sonunda olan mənfəətdir. Yəni müxtəlif alverlərdən sonra sərmayədən əlavə ələ gələn mənfəət nəzərdə tutulur və müqavilənin məzmunu əsasında aralarında bölünür. Nə qədər ki, müzaribə sona çatmayıb qəti şəkildə mənfəəti hesablamağın mənası yoxdur. Məsələn, Hüseyn Məhəmmədə onunla müzaribə etmək üçün yüz milyon verir. Məhəmməd əvvəl bir maşın alır, amma onu satarkən səksən milyona satıb iyirmi milyon zərər edir. Sonra səksən milyona torpaq alıb yüz əlli milyona satır. Sonra o pulla başqa bir mal alıb yüz on milyona satır. Bu misalda qəti mənfəət on milyondur ki, müqavilə əsasında iki nəfər arasında bölünməlidir və sərmayə sahibinin "yer alverində əlli milyon mənfəət olub və onu da bölməliyik" deməyə haqqı yoxdur. Çünki o, əvvəlcədən yüz əlli milyonla yenidən ticarət edilməsinə razı olub.

**Məsələ-1922.** Ticarət edən şəxs mənfəət əldə edən kimi öz səhminə sahib olur, onu sərmayə sahibindən tələb edə və ya öz səhmini xərcləyə bilər. Həmçinin xüms, zəkat, irs və həcdə olan istitaətin hasil olması kimi məsələlər onun mülkiyyətinə aid edilir, baxmayaraq ki, bu mülkiyyətin kamil şəkildə bərpa olması müzaribənin sona yetməsinə bağlıdır.

**Məsələ-1923.** Əgər sərmayə sahibi müzaribə əqdi üçün yüz milyon qoymağı qərara alıb onu ticarət etmək üçün tacirə verərsə və bir müddətdən sonra əlli milyon ona əlavə edərsə, burada iki müzaribə bağlanıb. Hər bir müzaribənin zərəri öz mənfəətindən çıxılır. **Beşinci şərt:** Hasil olan mənfəət nağd olması lazım deyil, mal da olsa, hər iki tərəf öz səhmini tələb edə və ya öz səhmini sata bilər. Məsələn, Hüseyn Məhəmmədə yüz milyon sərmayə verir ki, onunla alver etsin. Məhəmməd də bir neçə müxtəlif alver etdikdən sonra bir mənzil alır. Baxmayaraq ki, hələ mənzilin mənfəəti nağd olaraq

ələ gəlməyib, amma Hüseyn Məhəmmədə "Mənim mənzildə olan səhmimi satma, hələ mən onun barəsində qərara gəlməmişəm" deyə bilər.

**Altıncı şərt:** Ticarətdən ələ gələn mənfəət gərək sərmayə sahibi və ticarət edən şəxs arasında bölünsün. Başqa şəxs bu iki nəfərlə şərik ola bilməz. Buna əsasən, əgər mənfəətin bir hissəsi başqası üçün təyin edilərsə, müzaribə batildir. Amma üçüncü şəxs ticarətə aid olan işlərdən öhdəsinə götürüb əməl edərsə, bu zaman eybi yoxdur.

## Müzaribəni pozmaq, yaxud onun batil olması

**Məsələ-1924.** Müzaribə əqdi caiz əqdlərdəndir, yəni hətta əgər müzaribə üçün müəyyən müddət təyin edilsə belə iki tərəfin hər biri istədiyi zaman onu poza bilər. Əlbəttə ki, əgər heç birinin əqdi pozmaq haqqının olmamasını şərt etsələr, gərək heç biri əqdi pozmasın. Əgər pozarsa, əqd pozulur və bu zaman əqdi pozan günah edib. Əgər başqa lazım əqd daxilində müəyyən müddətə qədər əqdin pozulmamasını şərt etsələr, bu zaman heç birinin əqdi pozmaq haqqı yoxdur.

**Məsələ-1925.** Bəzən şərtlərdən bəziləri olmadığı üçün müzaribə (müzaribə əqdinin, iki tərəfin, sərmayə və mənfəətin şərtləri kimi) əvvəldən batil olur. Bəzən də aşağıdakı səbəblərə görə batil olur.
1. İki tərəfdən birinin ölməsi ilə müzaribə batil olur. Varis istədikdə yeni müzaribə əqdi bağlaya bilər.

2. Əgər işi başlamazdan qabaq sərmayə bütövlükdə aradan gedərsə, müzaribə batil olur (vədiə bölməsində deyildiyi kimi əgər sərmayənin aradan getməsində iş görən şəxs -müzaribədə tacir-zamin olarsa, gərək zərəri təmin etsin).

3. Tacirin özü başqası ilə müzaribə və ya başqasını müzaribədə şərik edə bilməz. Amma sərmayə sahibi buna icazə verdikdə birinci müzaribə batil, ikinci müzaribə səhih olur. Belə ki, müzaribə sahibin

icazəsinin formasına bağlı olur, ya iş görən şəxs (tacir) ikinci şəxslə şərik olur, ya da ikinci şəxs tacir olur.

**Məsələ-1926.** Əgər ikinci müzaribədə məqsəd iş görənlə başqa bir şəxs arasında olan müzaribədirsə, belə ki, ikinci şəxs birinci iş görən şəxs üçün ticarət edirsə, bu müzaribə batildir.

**Məsələ-1927.** Müzaribə əqdi əvvəldən səhih olub lazımi şəraitlərə riayət olunduqda, əgər hər hansı səbəbə əsasən pozularsa, yaxud batil olarsa, aşağıdakı halları nəzərə almaq lazımdır:

1. Əgər müzaribənin pozulması, yaxud batil olması ticarətə başlamadan, ya ticarətin müqəddəmələrindən qabaq olarsa, ticarət edən şəxsin heç bir mənfəət və zərəri olmayacaq.

2. Əgər iş əsnasında və mənfəət hasil olandan qabaq olarsa, yenə də tacir üçün nə zərər, nə də mənfəət olmayacaq. Hətta əgər sərmayənin bir hissəsini ticarətin müqəddəməsi üçün xərcləyərsə, ona da zamin deyil (məsələn, əgər ticarət üçün mal sahibinin icazəsi ilə səfərə gedərək bu yolda pul xərcləyib).

3. İş əsnasında və mənfəət əldə ediləndən sonra olarsa (yəni mənfəət əldə edilib, lakin hələ mal şəklindədir və nağd olmayıb), mənfəət bölünür və malları nağd etmək tacirin öhdəsində deyil.

4. Ticarət sona çatdıqdan sonra olarsa, heç bir şey tacirin öhdəsində deyil. Əlbəttə ki, sərmayənin yerdə qalan hissəsini sahibinə qaytarmalıdır. Əgər mənfəət əldə olunubsa, əvvəlcədən razılaşmaları əsasında sərmayə sahibi ilə tacir arasında bölünməlidir.

**Məsələ-1928.** Tacir gərək müzaribə pozulandan, ya batil olandan sonra sərmayə sahibinə sərmayəni təhvil almaq üçün şərait yaratsın. Amma onu sahibinin əlinə çatdırmaq tacirin öhdəsində deyil. Sərmayə sahibinin icazəsi olmadan sərmayəni başqa bir şəhərə apardıqda gərək sərmayəni sahibinin əlinə çatdırsın.

**Məsələ-1929.** Əgər müzaribə əvvəldən batil olubsa, mənfəət bütövlükdə sərmayə sahibinindir. Lakin tacir özü üçün külli[1] qiymətlə müamilə edibsə, bu zaman hasil olan mənfəət tacirin özünündür, sərmayə sahibinin deyil.

**Məsələ-1930.** Müzaribə pozulduqdan sonra tacirin müzaribə nəticəsində ticarət etdiyi şəxslərə olan borcları onun (tacirin) öhdəsində deyil.

## Müzaribədə tacirə aid olan hökmlər

**Məsələ-1931.** Ticarət edən şəxsin hökmü əmin hökmüdür. Sərmayə sahibinin malı onun əlində əmanətdir və əmanətin bütün hökmləri onun haqqında icra olunur.

**Məsələ-1932.** Əgər tacir mənfəət etmədiyini desə, sərmayə sahibi onu inkar etsə, tacirin sözü məhkəmədə and içdiyi halda müqəddəmdir. Amma sərmayə sahibi iki adil şahid gətirsə və şahidlər tacirin mənfəət etməsinə şəhadət versələr, bu zaman hətta tacir and içsə belə, sərmayə sahibinin sözü qəbul edilir.

**Məsələ-1933.** Müzaribə bağlandıqdan sonra tacir gərək ticarətə aid olan normal işləri yerinə yetirsin. Misal üçün, əgər sərmayə ilə maşın alıbsa, onu satışa çıxarsın və əgər ondan daha çox mənfəət aparmaq üçün təmirə ehtiyac varsa, onu təmir etdirsin. Təmirin xərci malın əslindən ödənilir.

**Məsələ-1934.** Əgər sərmayə sahibi müzaribədə xüsusi bir şərt qoymayıbsa və müzaribənin icrası üçün xüsusi bir yol təyin etməyibsə, tacir məsləhət gördüyü kimi əməl etməlidir. Amma hər hansı bir müamilədə alverçilər arasında xüsusi bir yol varsa, onun əsasında əməl olunmalıdır. Əgər sərmayə sahibi xüsusi bir şərt qoyubsa, o şərt əsasında əməl edilməlidir. Məsələn, əgər şərt etsə ki, sərmayə bina alğı-satqısında işlədilsin və ya filankəslə ticarət edilməsin, bu zaman gərək müqavilə əsasında əməl edilsin. Şərtə əməl etmədikdə mala xəsarət dəyərsə və ya mal aradan gedərsə,

[1] "Külli qiymət"in mənasını ələ gətirmək üçün məsələ 1333-ə müraciət edilsin.

tacir zamindir. Amma əgər mənfəət əldə edərsə, müqavilə əsasında bölünməlidir.

**Məsələ-1935.** Tacir sərmayə sahibinin icazəsi olmadan sərmayəni başqa mal ilə qarışdıra bilməz. Əks halda sərmayə aradan gedərsə, tacir zamindir, yəni zərər onun öhdəsindədir. Amma mənfəət gətirərsə, iki mal arasında nisbi şəkildə bölünməlidir.

**Məsələ-1936.** Müqavilə mütləq olduğu şəkildə yəni nisyə və nağd olması şərt olmadıqda nisyə satış caiz deyil. Əlbəttə ki, əgər tacirlər arasında bu iş adi və normal olarsa, bunun eybi yoxdur. Həmçinin əgər nisyə satmağın adi olması xüsusi şəhərə, ya xüsusi bir mala aid olarsa, buna riayət etmək lazımdır.

**Məsələ-1937.** Sərmayə sahibinin icazəsi olmadan tacir sərmayəni özü ilə başqa bir şəhərə apara bilməz. Amma bu iş tacirlər arasında olarsa, o zaman eybi yoxdur.

**Məsələ-1938.** Tacir istər ticarət səfərində, istərsə də öz şəhərində şəxsi xərclərini sərmayədən götürə bilməz. Amma sərmayə sahibinin icazəsi ilə səfərə gedibsə, sərmayədən səfər tələbatını götürərsə, zamin deyil. Lakin əgər sərmayə sahibi səfər tələbatının xərcini tacirin öhdəsinə qoyarsa, belə də əməl olunmalıdır.

**Məsələ-1939.** Tacir sərmayə sahibinin icazəsi olmadan, ticarət işində başqasını vəkil edə bilməz. Amma adətən vəkilə aid olan və onun vasitəsilə görülən işlərdə başqasını vəkil edərsə, bunun eybi yoxdur.

**Məsələ-1940.** Tacirin müzaribə malının özü ilə alver etməsi caizdir. Belə ki, məsələn, müəyyən olunmuş müzaribə malından bir milyon məbləğin müqabilində müəyyən bir malı alsın. Həmçinin malı külli[1] şəkildə öhdəsinə götürməklə də ala bilər. Yəni malı ümumi şəkildə bir milyon məbləğində sərmayə sahibinin öhdəsinə götürməklə alsın və ödəyən zaman müzaribə malı ilə ödəsin. Qeyd edək ki, bu iki növ müamilə o zaman caizdir ki, müzaribə əqdi mütləq şəkildə olsun və əgər bu haqda xüsusi şərt varsa, o şərtə riayət olunmalıdır.

---

[1] "Külli" terminilə tanış olmaq üçün məsələ 1333 və onun haşiyəsinə baxın. (Mütərcim)

**Məsələ-1941.** Tacir sərmayəni istifadəsiz qoya bilməz. Gərək onu ticarətdə işlətsin. Əks halda sərmayəyə xəsarət dəyərsə, tacir zamindir. Bu zaman sərmayə sahibi mənfəət tələb edə bilməz, çünki sərmayə işlədilməyib və mənfəət gətirməyib.

**Məsələ-1942.** Tacir fəhlə muzdu kimi adətən bazarda çəkilən xərcləri və görülən işlərin xərclərini sərmayədən götürə bilər.

**Məsələ-1943.** Əgər sərmayə sahibi sərmayəyə zərər dəyən kimi tacirin bir başa sərmayənin zərərinə şərik olmasını şərt etsə, bu şərt batildir. Amma tacirin dəymiş xəsarətin bir hissəsini, yaxud təmin etməsini şərt etsə, bu halda tacir şəri baxımdan gərək xəsarəti ödəsin. Əks halda günah edib, amma borclu deyil. Buna əsasən, tacir öldükdən sonra onun borcundan hesablanmır.

**Məsələ-1944.** Taciri sərmayənin xəsarətində şərik etmək iki cürdür:
1. Əgər şərt hər hansı bir lazım əqd əsnasında olarsa, şərtə əməl etmək vacibdir.

2. Əgər şərt caiz əqd əsnasında olarsa, nə qədər ki, caiz əqd pozulmayıb, şərtə əməl etmək vacibdir. Pozulduqdan sonra qabaqkı xəsarət ödənilməlidir. Məsələn, Hüseyn ticarət üçün öz sərmayəsini Məhəmmədin ixtiyarında qoyur. Hüseynin yüz milyonluq sərmayəsi zərər edərək səksən milyona ensə, bu xəsarət Hüseynin özünə aiddir. Məhəmməd sərmayəni işlətməkdə səhlənkarlıq etməsə, yaxud həddini aşmasa, zamin deyil. İndi təsəvvür edin, müqavilənin əvvəlində aşağıdakı əqdlər əsnasında şərt olub ki, sərmayəyə xəsarət dəydikdə Məhəmməd də, məsələn, 30% xəsarətə şərik olsun. Bunun hökmü aşağıdakı tərtiblədir:

1. Qeyd edilən şərt başqa bir əqd əsnasındadır.

A) Bu şərt alver kimi lazımlı bir əqd əsnasında edilir. Məsələn, Hüseyn və Məhəmməd alver edir. Alver əsnasında şərt edirlər ki, müzaribədə xəsarət qarşıya çıxarsa, Məhəmməd onun 30%-nə şərik

olsun. Məhəmmədə[1] şəri baxımdan vacibdir ki, bu şərtə əməl etsin. B) Bu şərt hədiyyə kimi caiz əqd əsnasında edilir. Məsələn, Hüseyn Məhəmmədə bir kitab hədiyyə edir və hədiyyə əqdi əsnasında şərt edir ki, müzaribə əqdində xəsarət olarsa, Məhəmməd onun 30%-ni təmin etsin. Nə qədər ki, hədiyyə əqdi pozulmayıb Məhəmmədə bu şərtə əməl etmək vacibdir. Buna əsasən, əgər Məhəmməd kitabı Hüseynə qaytararsa, artıq qeyd olunan şərtə əməl etmək vacib deyil. Əlbəttə ki, əgər hədiyyə əqdini pozmazdan öncə (yəni kitabı Hüseynə qaytarmamışdan) müzaribədə xəsarət qarşıya çıxarsa, şərt əsasında onu təmin etməlidir.

2. Müzaribə əqdinin özündə bu şərt edilir, nəinki başqa bir əqd əsnasında. Bu halda nə qədər ki, müzaribə əqdi pozulmayıb Məhəmmədə qeyd olunan şərtə əməl etmək vacibdir. Deməli, əgər müzaribə pozularsa, artıq şərtə əməl etmək lazım deyil. Əlbəttə ki, əgər zərər müzaribəni pozmaqdan qabaq olarsa, bu zaman şərt əsasında əməl etmək lazımdır. Məsələn, əgər yuxarıdakı misalda zərərin 30%-i tacirin (Məhəmmədin) öhdəsinə olması şərt olsa, bu şərt batildir. Əgər zərərin malikin öhdəsində olması, amma onun 30%-i, yaxud hamısının tacirin öhdəsinə keçməsi şərt olsa, bu şərt səhihdir.

**İzah:** Müzaribə əqdi əsasında sərmayə Hüseynin olduğu üçün ona dəyən xəsarət də Hüseynin öhdəsində olur (ziyanın dəyməsində Məhəmmədin zaminlik məsuliyyəti daşımaması fərzi ilə). Buna görə də əvvəldən xəsarətin Məhəmmədin öhdəsində olması şərt edilsə, bu şərt şəriətə zidd və batildir. Amma "Xəsarət Hüseynin öz öhdəsindədir, lakin sonradan Məhəmmədin öhdəsinə keçir" - desək, həqiqətdə Məhəmməd əqd əsnasında olan bu şərtlə Hüseynin xəsarət və zərərini öhdəsinə alır (nəinki müzaribənin). Buna görə də həmin şərt səhih olacaq.

---

[1] Burada Məhəmməd alverdə alıcı, ya satıcı olmaqdan əlavə müzaribə əqdində tacirdir (Mütərcim).

## Sərmayə sahibi, yaxud tacirin bir neçə nəfər olması

**Məsələ-1945.** Əgər sərmayə sahibi bir, tacir isə bir neçə nəfər olarsa, sərmayə sahibi hər tacirlə fərqli faiz dərəcələri ilə müqavilə bağlaya bilər.

**Məsələ-1946**. Əgər sərmayə sahibi bir neçə, tacir isə bir nəfər olarsa, hər bir sərmayə sahibi öz sərmayəsinə nisbət təyin etdiyi mənfəətin faizini tələb edə bilər və bu, başqa sərmayə sahibinin mənfəətdə təyin etdiyi faiz ilə fərqli ola bilər.

## Özbaşına müzaribə
## (sərmayə sahibinin icazəsi olmadan olan müzaribə)

**Məsələ-1947.** Bir kəs sərmayə sahibinin icazəsi olmadan onun sərmayəsi ilə müzaribə edərsə, yəni bir şəxs başqasının sərmayəsini onun icazəsi olmadan tacirə sərmayə sahibinə müzaribə etməsi üçün versə, bu halda əgər sərmayə sahibi yerinə yetirilmiş müzaribəyə razılıq verərsə, müzaribə füzuli şəxsin tacirlə bağladığı müqavilə əsasında təsirlidir. Mənfəət təyin etdiyi faizlə sərmayə sahibi və tacir arasında bölünməlidir. Əgər yerinə yetirilmiş müzaribəni qəbul etməzsə, onun bu inkarı heç bir alver olmadan olarsa, sərmayə bütövlükdə sahibinə qaytarılmalıdır. Amma alver olduqdan sonra inkar edərsə, bu alver də füzulidir. Belə ki, əgər alverə icazə verərsə, alverin mənfəəti bütövlükdə sərmayə sahibinə çatır. Əgər bu alverdə zərər qarşıya çıxıbsa, sərmayə sahibinin öz öhdəsindədir. Əgər alveri də qəbul etməzsə, sərmayə öz sahibinə qaytarılır və bütün alverlər batildir.

**Məsələ-1948.** Yuxarıdakı məsələnin müxtəlif hallarında tacir bu malın həmin şəxsin deyil, sərmayə sahibinin başqası olmasını bilmirdisə, öz muzdunun mislini füzuli şəxsdən tələb edə bilər. Məsələn, Məhəmməd Hüseynin icazəsi olmadan onun avtomobilini Əhmədə verir ki, satıb Hüseyn üçün ticarət etsin, əldə olunan mənfəətin iyirmi faizini götürsün. Əhməd o pul ilə Əlidən torpaq alır və həmin yeri satıb Əmirdən bağ alır. Sonra bağı satıb Rəhimdən bir bina alır. Əgər

Hüseyn xəbərdar olduqdan sonra müzaribəni inkar edərsə, lakin bütün müamilələrə icazə verərsə, bina bütövlükdə Hüseynindir (istər mənfəəti olsun, istər zərəri). Amma müzaribə ilə yanaşı bütün müamilələri inkar edərsə, Hüseynin avtomobili ona qaytarılmalıdır. Əgər avtomobili alan şəxs həqiqəti bilmirdisə, avtomobili Hüseynə qaytardıqdan sonra Məhəmmədə müraciət edib ona verdiyini tələb etməlidir. Həmçinin Əli, Əmir və Rəhim də gərək öz mallarına çatsınlar.

**Məsələ-1949.** Sərmayə sahibi füzuli müzaribəni inkar edib mal aradan getdiyi, yaxud eyibləndiyi halda malik bütün xəsarəti füzuli müzaribə edən şəxsdən (Məhəmməddən), ya tacirdən (Əhməddən) tələb edə bilər. Füzuli müzaribə edən şəxsdən aldıqda o, (füzuli müzaribə edən şəxs) xəsarəti almaq üçün tacirə (Əhmədə) müraciət edə bilməz. Amma sərmayə sahibi xəsarəti tacirdən alarsa, tacir müzaribənin füzuli olmasını bilmədiyi halda sərmayə sahibinə ödədiyi xəsarəti füzuli müzaribə edən şəxsdən (Məhəmməddən) tələb edə bilər.

**Məsələ-1950.** Bu bölmənin əvvəllərində aydın olduğu kimi dediyimiz sözlər füzuli müzaribə edən şəxs müzaribəni sərmayə sahibi üçün etdiyi zamana aiddir. Amma füzuli müzaribə edən şəxs (Məhəmməd) özü üçün müzaribə edərsə, (nəinki Hüseyn üçün) baxmayaraq ki, sərmayənin hamısı Hüseynindir, müzaribə səhihdir, bütün zərər və mənfəət öz öhdəsinədir (əlbəttə, bu o zamandır ki, müzaribədə edilən bütün müamilələr külli[1] olsun, cüzi[2] olmasın, əks halda Hüseynin qəbul edib-etməməsi təsir qoyacaq).

## Ticarətdə cüalə

**Məsələ-1951.** Mal sahibi sərmayəni tacirə verərək deyir: "Bu sərmayə ilə işlədin, onun mənfəətinin yarısı, ya üçdə biri, yaxud üç yüz

[1] "Külli" terminiylə tanış olmaq üçün məsələ 1333 və onun haşiyəsinə baxın. (Mütərcim)
[2] Küllinin müqabili olaraq müəyyən edilmiş mala deyilir. (Mütərcim)

mini sənin olsun”. Buna “ticarətdə cüalə” deyilir. Qeyd edək ki, sonuncu misalda ticarətin ən az mənfəəti üç yüz minə çatmalıdır. Əks təqdirdə əgər bir ay ərzində bu miqdardan az olarsa, sərmayə sahibi mənfəət tələb edə bilməz.

**Məsələ-1952.** Müzaribədə olan şərtlər bu növdən olan cüalədə şərt deyil.

## Borcun hökmləri

**Məsələ-1953.** Borc, hər hansı müəyyən bir malı başqasının mülkiyyətinə keçirmək və mülkiyyətinə keçən şəxsin onun mislini, ya qiymətini qaytarmağa iltizam verməsidir.

**Məsələ-1954.** Borc etmək hətta ehtiyaclı olduğu halda da məkruhdur. Amma ehtiyaclı halda onun məkruh olması ehtiyacsız haldan azdır. Qeyd edək ki, bəzən ehtiyac o həddə yetişir ki, borc etmək vacib olur. Bu, can və abır kimi əhəmiyyətli şeylərin qorunmasının borc almağa bağlı olduğu zamandır.

**Məsələ-1955.** Borcu qaytara bilməyən və qaytarmağa da ümidi olmayan şəxs borc ala bilməz. Əlbəttə ki, əgər borc almaq zəruri olarsa, ya borc verən şəxs onun halından xəbərdar olarsa, işkalı yoxdur.

**Məsələ-1956.** Borc vermək təkidli müstəhəblərdəndir. Xüsusilə, ehtiyaclı şəxsə borc vermək təkid olunub. Peyğəmbəri Əkrəmdən (s) nəql edilibdir:

Hər kəs müsəlman qardaşına borc verərsə, borc verdiyi hər bir dirhəmin müqabilində Turi-Sina və Rəzəvi dağlarından olan Ühüd dağı ağırlığında ona savab veriləcək. Əgər öz borcunu tələb etməkdə borc verdiyi şəxsə güzəşt edərsə (yəni onu tələsdirməzsə və ona fürsət verərsə), hesabsız və əzabsız olaraq sürtələ siratdan keçər. Amma müsəlman qardaşı ondan borc istədikdə verməsə (borc verməyə imkanı olduğu təqdirdə), Allah-təala ehsan sahiblərinə mükafat verdiyi gündə Cənnəti ona haram edər.

**Məsələ-1957.** Borc verən və borc alan şəxslərin hər ikisi gərək müamilə edən tərəflərin şərtlərinə malik olsun, yəni həddi-büluğa çatmış, aqil, məqsədli və ixtiyarlı olsunlar. Bundan əlavə məhcur da olmamalıdırlar (yəni öz mallarını şəri nöqteyi-nəzərdən istifadəetmə haqları olmalıdır).

**Məsələ-1958.** Gərək borc verilən məhsul malın özü,[1] ya elə bir şey olsun ki, malikiyyətə qabiliyyəti olsun. Buna əsasən, deyni və mənfəəti borc vermək batildir. Şərab və donuzu da borc vermək olmaz, çünki mülkiyyətdən xaric və mülkiyyətə daxil olmaq qabiliyyətinə malik deyil. Həmçinin borc verilən mal gərək müəyyən olsun. Buna əsasən, məchul və aydın olmayan şeyi borc vermək səhih deyil. Habelə borcun miqdarı ölçü, çəki və ədəd baxımından müəyyən olmalıdır.

**Məsələ-1959.** Borc verilən malı təhvil verib təhvil almaq lazımdır. Təkcə sövdələşmək kifayət etmir. Amma borc aldığı malı işlətmək şərt deyil.

**Məsələ-1960.** Ümumi bir formada və onu xaricdə müəyyən etmədən borc vermək işkallıdır.

**Məsələ-1961.** Artıq almaq şərti ilə borc vermək, dəyəri az olan bir mal şərt olsa belə, riba və haramdır (məqsəd borc əqdinin əsnasında qeyd olunan, yaxud borc əqdi onun üzərində bağlanan şərtdir).

## Borcda artıq tələb edilə bilənlər aşağıdakılardır:

1. Artıq mal: yüz min borc verir, bu şərtlə ki, o puldan əlavə bir paltar da qaytarsın.

2. Artıq əməl: yüz min borc verir, bu şərtlə ki, bir paltar da borc verən üçün tiksin.

3. Artıq mənfəət: yüz min borc verir, bu şərtlə ki, icarə məbləğində ona güzəşt etsin.

[1] Məqsəd malın xaricdəki nümunəsidir. (Mütərcim)

4. Artıq intifa: yüz min borc verir, bu şərtlə ki, borc alan evini borc verənə icarəyə versin.

5. Artıq vəsf və xüsusiyyət: yüz min borc verir, bu şərtlə ki, verdiyi yüz min köhnə pulun müqabilində təzə pul ödəsin.

**Məsələ-1962.** Müəyyən bir şeyi şərt etməklə borc vermək riba və haramdır. Amma bir şeyi borc şərti ilə almaq haram deyil. Məsələn, əgər "Bu evi sənə satıram, bir şərtlə ki, iyirmi milyon mənə borc verəsən" - desə, caizdir və riba deyil.

Həmçinin: "Evi sənə icarəyə verirəm bir şərtlə ki, bu evi mənə icarəyə verəsən"- desə, bu iş də caizdir və riba deyil.

**Məsələ-1963.** Riba ilə olan borc haramdır, lakin batil deyil. Hətta insan ciddi qəsdi olmadan borc verənin şərtini qəbul edərək borcu alıb, sonra artıq ödəməyə bilər.

**Məsələ-1964.** Borcu qaytarmaqda iki tərəfin razılığı ilə inflyasiyanı hesablamaq caizdir və bu, riba deyil.

**Məsələ-1965.** Zaminlik kimi borc verənin xeyrinə olmayan şərti (məsləhət olduqda) şərt etmək olar. Məsələn, borc verən şəxs deyir: "borc verirəm bir şərtlə ki, onun yerinə zamin qoyasan".

**Məsələ-1966.** Əgər borc verən şəxs malı borc verib hər hansı bir malı ona ucuz satmasını, yaxud mənzili ona aşağı qiymətə icarəyə verməsini şərt etsə, bu borc riba və haramdır. Amma borc verən şəxs hər hansı bir şeyi bu şərtlə ucuz qiymətə satır, ya icarəyə verir, malı alan, ya icarə edən şəxs müəyyən məbləğdə ona borc versin, bunun işkalı yoxdur.

Borc verənin xeyrinə olan əlavə şərt (artıqlıq şərti) haramdır. Amma borc alanın xeyrinə olan şərtin işkalı yoxdur. Məsələn, borc alan şəxsin səkkiz yüz min qaytarması şərtiylə bir milyon borc versə, bunun işkalı yoxdur.

**Məsələ-1967.** Əgər borc verilən mal "misli[1] əşyalardan olarsa, bu halda hətta qiyməti fərqli olsa belə, onun mislini qaytarmaq vacibdir.

[1] Yəni elə bir şey olsun ki, onun misli bazarda mövcud olsun: Qoyun, inək və misli olmayan digər şeylər kimi olmasın. Qeyd olunan misallarda onların misli yox, oxşarları var.

İki tərəfin heç birinin digərini onun qiymətini ödəməyə məcbur etməyə haqqı yoxdur. Amma hər ikisi qiymətin ödənilməsinə razı olsalar, işkalı yoxdur. Məsələn, əgər bir şəxs bazarda misli olan bir sikkəni başqasına borc verərsə, gərək həmin sikkənin mislini qaytarsın, nəinki borc aldığı zaman sikkənin qiymətini. Amma borc verən şəxs sikkəni satıb onun pulunu borc veribsə, borc alandan təkcə onun pulunu ödəməyi tələb edə bilər.

**Məsələ-1968.** Əgər borc verilən mal inək və qoyun kimi "qiymi" olarsa, gərək onun qiyməti verilsin. Qiymətin meyarı borc alınan zamandır, baxmayaraq ki, borc aldığı zamanla ödədiyi zaman arasında qiymət fərqi olduqda bir-biri ilə sülh etmələri müstəhəbdir.

**Məsələ-1969.** "Misli" əşyaların borcunda borc verən şəxs şərt edə bilər ki, verdiyi malın cinsindən başqa cinslə borcunu ödəsin. Bu şərtlə ki, borc aldığı cinsin qiymətindən çox olmasın.

**Məsələ-1970.** İki tərəf razılaşdığı halda "misli" mallarda mislin, "qiymi" mallarda qiymətin yerinə başqa bir şeyin ödənilməsi caizdir.

**Məsələ-1971.** Büllur və çini qablar, soyuducu və parça topları "misli" mallardan hesab olunur.

**Məsələ-1972.** Borcu ödəməyin zamanı "deyn" hökmlərində bəyan ediləcək.

**Məsələ-1973.** Əgər borc əqdi əsnasında onun hər hansı bir məkanda qaytarılması şərt edilsə, hətta bu iş borc alan şəxs üçün xərc etməklə başa çatsa belə, gərək təyin olunmuş yerdə borc qaytarılsın. Əgər borc verən şəxs borcunun başqa bir yerdə qaytarılmasını tələb edərsə, borc alan şəxsə (həmin yerdə) ödəmək lazım deyil. Həmçinin borc alan şəxs borcu başqa bir məkanda ödəmək istəyərsə, borc edən şəxsə onu qəbul etmək lazım deyil.[1]

**Məsələ-1974.** Əgər borcu ödəmək üçün müəyyən bir yer təyin edilməyibsə, borc verən şəxs borc alan şəxsdən borcunu aldığı yerdə ödəməsini tələb edərsə, borc alan şəxsə həmin yerdə

[1] Məqsəd budur ki, hər iki tərəfdən hər hansı biri təyin edilmiş məkandan başqa yerdə borcu verməyi tələb edərsə, müqabil tərəfin bunu qəbul etməyib şərt etdiyi yerdə borcun ödənməsini tələb etməyə haqqı var. Hər iki tərəf bununla razılaşsalar, təbii ki, bu halda işkalsızdır (Mütərcim).

ödəməsi vacibdir. Həmçinin (borc verən şəxs borcunu borc verdiyi yerdə ödəməyi tələb edərsə), borc qaytaran şəxsə qəbul etmək vacibdir. Əgər borcu əda etmək başqa bir yerdə tələb olunarsa, həmin yerdə borcu ödəməyin zərəri və artıq xərci olmasa, vacib ehtiyata əsasən, belə də əməl edilsin. Amma zərəri, ya xərci olarsa, bu zaman hər iki tərəfin razılaşması lazımdır. Buna əsasən, vacib deyil.

## Deynin (alacaq) hökmləri

**Məsələ-1975.** Deyn insanın hansısa bir cəhətdən başqasının boynunda olan külli[1] (ümumi) maldır.

**Məsələ-1976.** Deyn iki növdür: müddətsiz və müddətli. Müddətsiz deyndə məqsəd odur ki, onu ödəmək üçün müəyyən zaman təyin olunmayıb. Yəni tələbi olan şəxs istədiyi vaxt haqqını tələb edə bilər. Qeyd etmək lazımdır ki, müddətli deynin ödəmə zamanı yetişibsə, artıq həmin deyn müddətsiz deynə çevrilib onun hökmündə olur.

**Məsələ-1977.** Müddətsiz deyn aşağıdakı hökmlərə malikdir:

1. Tələb sahibi hər an haqqını tələb edə bilər.

2. Deyni olan şəxsin nə zaman deynini ödəməyə imkanı olsa, onu ödəmək vacibdir.

3. Deyni olan şəxs onu ödəyən zaman, tələb sahibinin təhvil alması vacibdir.

Əks təqdirdə, aşağıdakı mərhələlər icra olunur:

A) Hakim tələb sahibini deyni almağa məcbur edir (əgər deyni olan şəxs bunu istəyərsə).

B) Tələb sahibini gətirmək və malı onun ixtiyarında qoymaq.

---

[1] "Külli" terminilə tanış olmaq üçün məsələ 1333 və onun haşiyəsinə baxın. (Mütərcim)

C) Deyni şəriət hakiminə vermək. Qeyd edək ki, şəriət hakimi tərəfindən deyni qəbul etməyin vacib olması işkallıdır.

D) Yuxarıdakı mərhələlərin birini icra edənə qədər deyni olan şəxsin öhdəsində qalır.

**İzah:** Deyni olan (verəcəyi olan şəxs) şəxs yuxarıdakı mərhələlərə tərtiblə riayət edərək deynini ödəyərsə, artıq tələb sahibinə heç bir borcu qalmır.

**Məsələ-1978.** Müddətli deyndə məqsəd budur ki, onu ödəmək üçün müəyyən zaman təyin olunub. Buna görə də tələb sahibi istədiyi vaxt haqqını tələb edə bilməz.

**İzah:** Müddət təyin etmək iki cürdür:

1. İki tərəfin təyini ilə olan müddət: Eyni zamanda iki tərəfin razılaşması ilə yerinə yetirilən nisyə, ya sələf müamiləsi kimi. Burada malın, ya pulun verilmə zamanı müəyyən edilir.
2. Şəriət tərəfi ilə təyin edilən müddət: Fiqh kitablarında bəhs edilən diyə (qanbahası) məsələsi kimi (Xəta diyəsi üç il müddətində və hər il diyənin üçdə biri ödənilir).

**Məsələ-1979.** Müddətli deynin hökmləri aşağıdakılardan ibarətdir:
1. Təyin olunmuş zamandan qabaq tələb sahibi haqqını tələb edə bilməz.
2. Əgər deyni olan şəxs müəyyən edilmiş zamandan qabaq öz deynini ödəyərsə, tələb sahibinə onu qəbul etmək vacib deyil (qeyd edək ki, bu təyin olunmuş müddətin bir növ deyn sahibi üçün güzəşt edilməsinə əlamət və nişanələr olarsa, bu zaman gərək tələb sahibi onu qəbul etsin).

**Məsələ-1980.** Deyni olan şəxs öldükdə, onun müddətli deyni müddətsizə çevrilir. Yəni əgər deyni olan şəxs diri olsaydı, indi onu ödəmək vacib deyildi. Amma ölən kimi varis onun bütün borclarını, istər müddətli, istər müddətsiz deynlərini gərək ödəsin və ödəməkdə heç bir deyn digərinə müqəddəm deyil, Çünki artıq

hamısı müddətsiz deyn sayılır. Amma tələb sahibi öldükdə onun varisləri deynin ödəmə vaxtı çatana qədər səbr etməlidirlər. Buna əsasən, əgər qadının mehriyyəsi müddətli olarsa, ər ölən kimi qadın hətta mehriyyənin ödəmə zamanı yetişəndən öncə də öz mehriyyəsini tələb edə bilər. Amma qadın ölərsə, varisi mehriyyəni ödəmək üçün təyin olunan müddət yetişməsə, onu tələb edə bilməz. Qadına talaq vermək (qeyd olunan hökmlərdə) ölüm hökmü kimi deyil.

**Məsələ-1981.** Deyni (verəcəyi) olan şəxs iflasa uğradıqda[1] onun müddətli deynləri müddətsizə çevrilmir. Əvvəl onun müddətsiz deynləri ödənilməli, sonra (deyndə müstəsna olanlar[2] çıxmaq şərtilə) yerdə qalan müddətli deynlərin zamanları çatdıqda ödəmək lazımdır.

**Məsələ-1982.** İki müddətli deyni, hətta hər ikisinin müddəti yetişsə belə, bir-birinin müqabilində alıb-satmaq batildir. Həmçinin vacib ehtiyata əsasən, hər ikisi müddətsiz, ya biri müddətli digəri müddətsiz olduqda da onların alveri batildir.

## Aşağıdakı misallara diqqət yetirin:

1. Mənim bir şəxsdən buğda tələbim var (yəni bir şəxs mənə buğda borcludur), onun da məndən düyü tələbi var.

2. Mənim bir şəxsdən buğda tələbim var, başqa bir şəxsin də mənə buğda borcu olan şəxsdən düyü tələbi var.

3. Mənim bir şəxsdən düyü tələbim var, onun da başqa bir şəxsdən düyü tələbi var.

Yuxarıdakı misallardan düyü tələbi olan şəxs tələb olunan düyü müqabilində müamilə etsin.

[1] İflasa uğrayan şəxsin tərifini əldə etmək üçün məsələ 1574-ə müraciət edin.
[2] Deyndə müstəsna olanlar 1927-ci məsələdə bəyan edildi. (Mütərcim)

**Məsələ-1983.** Əgər müddətsiz deyni müddətli edib müqabilində onun məbləğini yuxarı qaldırsaq, riba və haramdır. Həmçinin əgər deyn müddətlidirsə, müddətini artırmaq müqabilində deynin məbləğini yuxarı qaldırsaq, bu da riba və haramdır.

**Məsələ-1984.** Müddəti artırmaq müqabilində qiyməti qaldırmaq riba və haramdır (hətta hər iki tərəf buna razı olsa belə). Amma deynin müddətini azaldıb onun müqabilində məbləğini aşağı salsaq, bu işə hər iki tərəf razı olduqda halaldır.

**Məsələ-1985.** Deyni (verəcəyi) olan şəxsə zamanı yetişdikdə onu ödəmək üçün səy göstərməsi vacibdir. Hətta əgər bu iş hər hansı bir malını satmağa, öz tələbini başqalarından almağa və ya mülkünü icarəyə verməyə bağlı olsa belə, vacibdir. Hətta onun üçün çətin deyilsə, borcunu ödəmək üçün öz şəninə layiq iş və qazanc dalınca getməlidir.

**Məsələ-1986.** Əgər deyn sahibinin deynin müstəsnalarından başqa yerdə qalan malları onun həqiqi qiymətindən aşağı satıla bilirsə, deyn müddətsiz olub tələb sahibi haqqını tələb etdiyi halda onu satmaq vacibdir (baxmayaraq ki, qiymətindən aşağı satılsa belə). Buna əsasən, münasib müştəri tapılana qədər gözləməyə haqqı yoxdur. Qeyd edək ki, həmin malları onun həqiqi qiymətindən malı tələf etmək sayılacaq qədər aşağı alsalar, bu zaman münasib müştəri tapılınca səbr edə bilər.

**Məsələ-1987**. Əgər verəcəyi olan şəxs könüllü olaraq deynin müstəsnalarından satıb deynini ödəsə, tələb sahibi onu ala bilər. Amma tələb sahibinin bu işə razı olmaması daha yaxşıdır.

**Məsələ-1988.** Deyni (verəcəyi) ödəməkdə səhlənkarlıq etmək haram, ödəməyə qüdrəti olmadıqda ödəmək niyyəti etmək vacibdir.[1]

---

[1] Yəni vacibdir ki, ödəməyə qadir olan kimi verəcəyini ödəyəcəyini niyyət etsin.

**Məsələ-1989.** Verəcəyi olan şəxs verəcəyini tələb sahibinə təhvil vermədən, hətta əgər münasib fürsətdə ödəmək niyyəti ilə onu öz malından ayırıb kənara qoysa belə, deyn onun öhdəsindən düşmür.

**Məsələ-1990.** Deyni olan şəxs yoxsul olub ödəməyə qüdrəti olmadıqda onu ödəmək vacib olmadığı kimi, tələb sahibinə də haqqını tələb etmək haramdır.

**Məsələ-1991.** Əgər bir şəxs verəcəyi olan şəxsin icazəsi olmadan onun (istər diri olsun, istər dünyasını dəyişmiş) deynini ödəyərsə, deyn o şəxsin (deyni olan şəxsin) öhdəsindən düşür və tələb sahibi də onu qəbul etməlidir.

## Deynin müstəsnaları

**Məsələ-1992.** Deynin müstəsnalarında məqsəd o şeylərdir ki, şəri nöqteyi nəzərdən tələbkara onları deyn əvəzinə vermək, yaxud satıb deynini ödəmək vacib deyil.

Həyatda ehtiyacı və şəni həddində olan şeylər (geyim, maşın və mənzil kimi) deynin müstəsnalarındandır. Belə ki, onun mülkü onlardan az olduqda çoxlu məşəqqətə, ya camaat arasında başıaşağı olmağa səbəb olsun.

## Vədiənin (əmanətin) hökmləri

**Məsələ-1993.** Vədiə o müqavilə və əqddir ki, bir şəxs öz malını qorumaq üçün başqasını naib edir. Başqa sözlə, öz malını başqasına saxlamaq üçün təhvil verir.

**Məsələ-1994.** Vədiə caiz əqdlərdəndir. Buna görə də əmanət qoyan şəxs nə zaman istəsə, onu geri ala bilər. Əmanəti alan şəxs də istədiyi zaman onu qaytara bilər.

**Məsələ-1995.** Malını əmanət verən və əmanəti götürən şəxsin hər ikisi həddi-büluğa çatmış və aqil olmalıdır. Ehtiyata görə malı

qorumağa aciz olan şəxs gərək əmanəti qəbul etməsin.[1] Qeyd edək ki, mal sahibi əmanət saxlayan şəxsdən malı qorumaqda daha da aciz olarsa və malı saxlamağa əmanətdar başqa bir şəxs olmazsa, bu zaman o şəxs əmanəti qəbul edə bilər.

**Məsələ-1996.** Əgər bir şəxs həddi-büluğa yetişməmiş şəxsdən, ya dəlidən əmanət alarsa zamindir. O malı həddi-büluğa yetişməmiş uşağın, ya o dəlinin özünə qaytardıqda öhdəsindən düşmür. Malı onların vəlisinə təhvil vermək lazımdır.

**Məsələ-1997.** Təkcə bir halda həddi-büluğa yetişməmiş, ya dəli şəxsin malını əmanət götürmək olar. Bu, onun malını qorumaq istədiyimiz zamandır (belə ki, əgər onların əlində qalarsa, aradan gedəcəkdir). Bu halda həmin əmanət "şəri əmanət" olacaq, nəinki "maliki əmanət".[2] Buna əsasən, gərək onu qoruyub dərhal onların vəlisinin əlinə çatdırsın, ya malın əlində olmasını onlara xəbər versin. Belə etdikdə artıq zamin deyil.

**Məsələ-1998.** Əgər mal sahibi həddi-büluğa yetişməmiş uşaq, yaxud dəli vasitəsilə əmanəti əmanətdar şəxsə çatdırsa, bunun eybi yoxdur, çünki bu iki şəxs mal sahibi deyil.

**Məsələ-1999.** Əgər əmanətdar qeyri-müməyyiz uşaq olarsa və malı aradan apararsa, zamin deyil. Əgər müməyyiz uşaqdırsa və əmanətdarlığa səlahiyyəti varsa, əmanəti qorumaqda səhlənkarlıq edərsə, zamindir.

**Məsələ-2000.** Əmanətdar vədiəni (əmanəti) qəbul etdiyi halda gərək adətən aldığı əmanətin qorunması lazım olan şəkildə onu qorusun, aradan getməyin və ona xəsarət dəyməyin qarşısı alınsın. Belə ki, onu özünə münasib yerdə qərar versin. Məsələn, əgər zinət əşyasıdırsa, onu qıfıllı seyfə qoysun və ya əgər güldanda güldürsə,

---

[1] Bu o demək deyil ki, aciz olduqda vədiə əqdi batildir. Burada əmanət götürən şəxsin təklifini müəyyən edir.

[2] Maliki əmanət" odur ki, əmanət qoyan və əmanəti alan şəxsin hər ikisi əmanət şərtlərinə malikdir. "Şəri əmanət" budur ki, bu əmanətdə əmanət verən şəxs olmur. Amma şəri dəlilə əsasən, başqasının malı əlində olan şəxs, şəri baxımdan əmin sayılır. Qeyd edək ki, bu iki əmanətin bir-birindən fərqli hökmləri vardır.

onu isti və soyuqdan qoruyub lazımi qədər su versin. Hətta əgər əmanəti qəbul etməmişdən onu saxlamaq üçün münasib yer və s. şeylərə ehtiyac olarsa, gərək qabaqcadan onu hazırlasın.

**Məsələ-2001.** Əmanətdar əmindir. Buna görə də nə qədər ki, əmanətə qarşı həddini aşmayıb, yaxud onu saxlamaqda səhlənkarlıq etməyib, zamin deyil.

**Məsələ-2002.** Əgər hər hansı bir səbəbə görə mala xəsarət dəyərsə və bu xəsarət əmanətdara aid edilərsə, zamindir. Amma xəsarət mal sahibinin izni ilə əmanətdarın icazəsiylə istifadə etmək üzündən olarsa, zamin deyil. Məsələn, büllur bir qabı sizin yanınızda əmanət qoyublar və siz də onu münasib bir yerdə qoymusunuz. Amma yanından keçərkən bilmədən ona dəyirsiniz və qab sınır. Burada qabın sınmağı sizə aid olub. Qabın sınmağı onun icazəli istifadəsi nəticəsində olmadığı üçün zaminsiniz.

**Məsələ-2003.** Əgər əmanətdar əmanəti saxlamaqda səhlənkarlıq etsə, məsələn, əmanəti ona layiq münasib yerdə saxlamasa, bu zaman əmanətə hər bir xəsarət dəydikdə əmanətdar zamindir. Məsələn, birinin malı sizin yanınızda əmanətdir. Onu elə yerə qoyasız ki, üzərinə yağış yağıb onu xarab eləmək imkanı olsa, əmanətdar onu tavan, ya örtük altına qoymasa, yağış onu xarab etsə zamindir.

**Məsələ-2004.** Əgər mal sahibi əmanəti qorumaq üçün xüsusi yer təyin edərsə, onu başqa yerə apardıqda zamindir. Amma o yerdə mal xəsarət astanasında olarsa və daha münasib yer olduqda bu zaman hətta mal sahibi qarşısını alsa belə, yerini dəyişməyin işkalı yoxdur.

**Məsələ-2005.** Əgər zalım, əmanətdardan əmanəti almaq istəsə, bu halda əmanəti qorumaq yalandan and içməyə bağlı olsa da, and içmək lazımdır, əks halda zamindir. Qeyd edək ki, zalımın zülmünü dəf etmək əmanətdarın yaralanmasına, abırının getməsinə və ya malına xəsarət dəyməsinə səbəb olarsa, daha bu qədər dözmək vacib deyil. Hətta abırına və bədəninə zərər dəyməsinə bağlı olduqda, bu həddə qədər dözmək də haramdır. Amma zərərlər çox

az olduqda - belə ki, camaatın çoxu adətən ona dözür, bu zaman əmanəti qorumaq üçün belə bir zərəri qəbul etmək vacibdir. Məsələn, onunla acıqlı və tünd danışır, baxmayaraq ki, bu onun əziyyət çəkməsinə səbəb olur, amma abırına zərər sayılmır. Hətta əgər vədiənin (əmanətin) bir hissəsini verməklə zalımın zülmü dəf edilirsə, bu işi görmək vacibdir. Əmanətdar bu işi görmədikdə zalım əmanəti bütövlükdə ondan alsa, əmanətdar zalımın aldığı əmanətə zamindir.

**Məsələ-2006.** Mal sahibinin və ya malın ixtiyarı əlində olan şəxsin icazəsi olmadan əmanətdən hər cür istifadə etmək zaminliyə səbəb olur. Məsələn, əmanət verilmiş paltarı geyinmək, avtomobilə minmək və s. Əlbəttə ki, əmanəti qorumaq bu istifadələrə bağlı olarsa və onu qorumaq üçün başqa yol da olmazsa, bu zaman zamin deyil.

**Məsələ-2007.** Əgər əmanətdar əmanəti aldıqdan sonra onu qəsb eləmək niyyətinə düşsə (hətta hal-hazırda qəsb etməsə də belə), yaxud belə bir əmanətin onun yanında olmasını inkar edərsə, hətta sonradan bu inkarından qayıtsa, yaxud mal sahibi əmanəti geri istədikdə əmanəti qaytarmaqdan imtina edərsə, bu halların hər birində mala xəsarət dəydikdə əmanətdar zamindir.

**Məsələ-2008.** "Maliki əmanət" "şəri əmanət"ə çevrildikdə və əmanətdar, yaxud onun varisi malı onun malikinə çatdırmaqda və ya onlara xəbər verməkdə səhlənkarlıq edərsə, aşağıda deyiləcək (vədiəni batil edənlər) məsələlərə əsasən bu şəxs zamin olacaq.

**Məsələ-2009.** Mal sahibi və ya əmanətdarın ölümü, ya dəli olması vədiəni batil etməyə səbəb olur. Buna əsasən, məsələ mal sahibi, ya əmanətdar üçün yarandığına görə aşağıdakı mərhələlər icra edilməlidir.

1. Əgər mal sahibi ölərsə, yaxud dəli olarsa, vədiə şəri əmanət şəklində əmanətdarın əlində qalır. Vədiəni mal sahibinin bütün

varislərinə,[1] ya mal sahibinin vəlisinə[2] qaytarmaq vacibdir, ya ən azı onlara xəbər vermək lazımdır. Əgər belə etməsə və ya heç bir dəlil olmadan təxirə salarsa, mala xəsarət dəydiyi təqdirdə əmanətdar zamindir.

2. Əgər əmanətdar ölsə, ya dəli olsa və vədiə onun varisi, ya vəsisinin əlində şəri əmanət olarsa, vacibdir mal sahibinə, ya onun vəkil və ya nümayəndəsinə qaytarsın, yaxud dərhal onlara xəbər versin. Əgər belə etməsə, yaxud heç bir dəlil olmadan təxirə salarsa, əmanətdarın varisi, ya vəsisi zamindir.[3]

**Məsələ-2010.** Mal sahibi əmanəti tələb etdiyi halda hətta vacib ehtiyata əsasən, mal sahibi hərbi kafir[4] də olsa belə, ən yaxın mümkün fürsətdə onu qaytarmaq vacibdir.[5]

**Məsələ-2011.** Əmanəti mal sahibinə qaytarmağa şahid tutmaq çoxlu təxirə səbəb olmazsa, caizdir.

**Məsələ-2012.** Əgər vədiənin oğurlanma, ya aradangetmə qorxusu olarsa, aşağıdakı mərhələlər icra edilməlidir və onların hər birində səhlənkarlıq etmək zaminliyə səbəb olur:

1. Mal sahibinə və ya onun vəkilinə çatdırmaq.

2. (Şəriət hakimi o malı qorumağa qadir olduqda,) onu şəriət hakiminə təhvil vermək.

3. Malı qorumağa qadir olan əmin və etimadlı bir şəxsin əlinə çatdırmaq (bu o zamandır ki, şəriət hakimi olmasın, ya malı saxlaya bilməsin).

**Məsələ-2013.** Xəstəlik, ya digər səbəblərə görə əmanətdarda ölüm

---

[1] Mal sahibi ölərsə (Mütərcim).

[2] Mal sahibi dəli olarsa (Mütərcim).

[3] Yuxarıdakı cümlədə "heç bir dəlil olmadan" sözündə məqsəd budur ki, əgər şəxs varislik iddiası edənin varisi olduğunu bilməyə və ya varisin təkcə o olduğunu, yoxsa başqalarının da varis olduğunu bilmədiyi hala aiddir. Buna görə həqiqəti araşdırıb tapmaq üçün təxirə salarsa, zamin deyil.

[4] Əgər malı hərbi kafirə qaytarmaq din düşmənlərinə kömək etmək olarsa və əmanəti qaytarmaqla onu müsəlmanların əleyhinə silahlandırmaq sayılarsa, bu iş haramdır.

[5] Vədiəni qaytarmaqda məqsəd budur ki, mal sahibi əmanəti götürmək üçün yolu açıq qoysun.

nişanələri aşkar olduqda aşağıdakı mərhələlər icra edilməlidir (əgər bunların hər birində səhlənkarlıq edərsə, zamindir):
1. Mal sahibinə və ya onun vəkilinə çatdırmaq.
2. Şəriət hakimi o malı qorumağa qadir olduqda onu şəriət hakiminə təhvil vermək.

3. Əmanətdar vəsiyyət etsin və buna şahid tutsun.

**Məsələ-2014.** Vəsiyyət etmək və şahid tutmaq belə olmalıdır ki, o mal sahibi üçün qoruna bilsin. Buna görə gərək mal, vəsfi, məkanı, sahibinin adı və onu tanıtdıran digər nişanələr bəyan edilsin. Təkcə "Vədiə mənim yanımdadır", - demək kifayət etmir. Həmçinin vəsiyyət etmək və şahid tutmaq o halda lazımdır əmanətdarın varisi əmin və bacarıqlı olmasın. Amma onlar bacarıqlı və əmin olduqda vəsiyyətə şahid lazım deyil.

**Məsələ-2015.** Əmanətdarın səfərə getməsi vədiəni qorumağa zidd olduğu təqdirdə əmanətdarın onu özüylə səfərə aparması üçün mal sahibinin icazəsi məlum olmazsa, gərək aşağıdakı mərhələlər icra olunsun. Əgər hansısa mərhələnin icrasında səhlənkarlıq edərsə, zamindir.
1. Qeyri-zəruri səfərlərdə gərək vədiəni sahibinə, ya onun vəkilinə təhvil versin. Əgər bu mümkün olmazsa, şəriət hakiminə təhvil versin. Bu da mümkün olmazsa, səfəri tərk etsin.
2. Zəruri səfərlərdə gərək vədiəni sahibinə, ya onun vəkilinə təhvil versin. Əgər bu mümkün olmazsa şəriət hakiminə təhvil versin. Bu da mümkün olmazsa, əmanətdar bir şəxsə təhvil versin. Bu da mümkün olmadıqda əmanəti özü ilə səfərə aparsın və həmin halda artıq zamin deyil.[1]

**Məsələ-2016.** Əgər varislər onlara miras qoyanın (məsələn, onların təzə dünyadan getmiş atasının) malları arasında başqalarının əmanəti

[1] Qeyd edək ki, səfər uzun və təhlükəli olduqda əmanətdarın ölüm əlamətləri aşkar olarsa, ona aid olan hökm icra edilir.

olmasını bilsələr, məsələn, miras qoyan özü ölümündən qabaq bunu deyib, bu halda aşağıdakı mərhələlər icra edilməlidir.

1. Əmanət qoyulmuş malın özü meyitin malları arasında müəyyəndir, sahibi məlum olduqda o mal sahibinə verilməlidir. Əgər sahibi məlum deyilsə, məchulul-malik hökmündədir.[1]

2. Əgər malın özünü müəyyən etməsə, belə ki, ancaq eyni cinsdən olan malların arasında olmasını bildirsə, (məsələn, qoyunlardan birinin əmanət olduğunu bildirsə), bu zaman əmanət qoyulmuş mal püşk ilə müəyyən edilib sahibinə qaytarılır. Sahibi məlum olmadıqda məchulul-malik hökmündədir.

3. Malın özünü, hətta eyni cinsdən olan malların arasında olmasını da müəyyən etməsə və təkcə “mallarımın içində başqasının əmanəti var” - desə, sahibi məlumdursa, ehtiyat budur ki, sahibi ilə sülh edilsin. Amma sahibi məlum deyilsə, məchulul-malik hökmündədir və şəriət hakimi ilə sülh etmək lazımdır.

4. Üçüncü hal kimi olsa, amma “mallarımın arasında əmanət var” - deməsə, varisin öhdəsində heç bir şey yoxdur. Amma varislər buna yəqin etdikdə meyit zamindir və mal da aradan gedib.

## Ariyənin hökmləri

**Məsələ-2017.** Ariyə bir şəxsin öz malını başqasına havayı və əvəzsiz istifadə etmək üçün müvəqqəti olaraq verməsidir.[2]

**Məsələ-2018.** Ariyə “icab” və “qəbula” ehtiyacı olan əqddir. Ariyəyə dəlalət edən hər bir söz “icab” sayılır. Məsələn, “bu şeyi sənə ariyə verdim” və ya “sənə icazə verirəm ki, ondan istifadə edəsən” kimi cümlələr icab sayılır. Ariyə alan şəxsin razılığına dəlalət edən hər bir söz qəbuldur. Hətta bu razılığa dəlalət edən hər bir əməl də kifayətdir və qəbulun yalnız sözlə olması lazım deyil.”

---

[1] Yəni maliki məchul olan və bilinməyən mal hökmündədir. Onun hökmü budur ki, sahibi tərəfindən yoxsula sədəqə verilir və müstəhəb ehtiyata əsasən şəriət hakiminin icazəsi ilə olmalıdır.

[2] Belə ki, ondan istifadə etmək aradan getməsinə bağlı olmasın. Məsələn, istehlak malları.

**Məsələ-2019.** Ariyə verən şəxs gərək aşağıdakı şərtlərə malik olsun:

1. Malın mənfəətinə sahib olsun (malın özünə sahib olmaq şərt deyil) və şəri baxımdan onu istifadə edə bilsin. Buna əsasən, malın özünü, ya mənfəətini qəsb edən şəxsin onu ariyə vermək haqqı yoxdur. Məsələn, ev sahibi icarəyə verdiyi evin icarə müddətində olan mənfəətinə sahib olmadığı üçün o evi ariyə vermək haqqı yoxdur. Amma müstəcirin, yəni evi icarə edən şəxsin buna haqqı var. Bu şərtlə ki, ev sahibi icarə əqdi zamanı icarə əqdində təkcə müstəcirin o mənfəətdən istifadə etmək haqqı olduğunu şərt etməsin.

2. Həddi-büluğa yetişmiş və aqil olsun. Uşaq və dəlinin vəlilərinin icazəsi olmadan öz mallarını ariyə vermək haqları yoxdur.

3. Məhcur olmasın. Səfehin yalnız öz vəlisinin, iflasa uğrayan şəxs yalnız tələb sahiblərinin icazəsi ilə malını ariyə vermək haqqı var.

**Məsələ-2020.** Əgər bir şəxs başqasının malını qabaqcadan onun icazəsi olmadan başqa bir şəxsə verərsə, gərək o malın ixtiyar sahibindən icazə alsın. İcazə almasa, ariyə batildir.

**Məsələ-2021.** Ariyə alan şəxsin bir neçə şərti var:

1. Şəri baxımdan o malın mənfəətindən istifadə etməyə səlahiyyəti olmalıdır.
Buna əsasən, kafir Quranı, ehram halında olan şəxs ovu ariyə edə bilməz.
2. Ariyə alan şəxs gərək müəyyən olsun. Məsələn, ariyə verən şəxs “bu şeyi bu iki nəfərdən birinə ariyə verdim”, - deyə bilməz.
3. Çoxsaylı şəxslər (bir zamanda) ariyə ala bilməz. Amma azsaylı olduqda bunun işkalı yoxdur. Məsələn, on nəfər bir malı istifadə etmək üçün ariyə ala bilər, belə ki, növbə ilə və ya püşk atmaqla ondan istifadə etsinlər.

**Məsələ-2022.** Ariyə verilən malın şərtləri:

1. İstifadə edilməyə çıxarı olsun, belə ki, həm istifadəsi halal olsun, həm də istifadə ilə aradan getməsin. Buna əsasən, çörək, yağ və bu kimi istehlak mallarını, yaxud qızılqabını onda yemək və içmək üçün istifadə etməyə ariyə vermək olmaz.

2. Qabaqcadan malın müəyyən olması lazım deyil. Buna əsasən, əgər bir şəxs "paltarlarımdan hər hansını istəyirsən ariyə verdim", - desə səhihdir.

3. Müxtəlif istifadələri olan malı bəzi istifadələrinə görə ariyə verərsə, gərək həmin istifadə və mənfəət müəyyən edilsin. Bu halda o malın mənfəətindən istifadə etməyin halal olması yalnız müəyyən edilmiş mənfəətə məxsus olacaq. Əgər bütün mənfəətlərindən istifadə etmək istəyirsə, gərək onu aydınlaşdırsınlar. Həmçinin ariyə verdiyi zaman mütləq şəkildə verdiyindən belə məlum olsun ki, onun bütün mənfəətlərindən istifadə etməyə icazə verib.

**Məsələ-2023.** Ariyə əqdi caiz[1] əqddir. Qeyd edək ki, dəfn üçün ariyə verilən yer, ya qəbri meyitin bədəni kamil şəkildə dəfn edilib örtüldükdən sonra vacib ehtiyata əsasən, açmaq olmaz. Buna əsasən, əgər kamil şəkildə örtülməyibsə, ariyə verilmiş yeri geri götürmək olar. Amma bu halda qəbir qazmaq və onu doldurmağın xərci ariyə verənin öhdəsində deyil. Həmçinin yeri və ya qəbri doldurmaq da ariyə alanın öhdəsində deyil.

**Məsələ-2024.** Ariyə verən şəxsin ölümü və ya ariyə verən şəxsin ariyə verdiyi mala olan ixtiyarının aradan getməsi (məsələn, əgər dəli olarsa və s. ariyəni pozmağa ehtiyac olmadan) ariyənin batil olmasına səbəb olur.

**Məsələ-2025.** Əgər yeri bina tikmək, ağac əkmək və ya əkinçilik üçün ariyəyə versələr, ariyə verən şəxsin ariyəni pozmaq haqqı, ariyə alan şəxsin isə dəymiş ziyanı almaq haqqı var. Amma gərək ehtiyata əsasən belə olsun ki, hər ikisinin razılığı əldə edilsin. Yəni

---

[1] Yəni hər iki tərəfin onu pozmaq haqqı var.

ariyə verən ariyə alanın, ariyə alan ariyə verən şəxsin razılığını almaqla ariyə pozulsun və xəsarət ödənsin.

**Məsələ-2026.** Ariyə alan şəxsin istifadə etmək haqqı o maldan adət-ən istifadə olunan qədərdir. Əks təqdirdə qəsb edən şəxs hökmün-də və zamin sayılır. Belə ki, həm həddindən artıq etdiyi istifadələrin dəyəri miqdarında ariyə verən şəxsə borcludur, həm həddindən artıq istifadə etdiyi üçün mala xəsarət dəyərsə, onu təmin etməlidir. Məsələn, əgər bir şəxs bir avtomobili ariyə alıb sahibinin icazəsi olmadan onunla çoxlu və ağır yüklər daşısa, gərək yükdaşıma kirayəsini maşının sahibinə ödəsin və maşına dəyən xəsarəti təmin etsin.

**Məsələ-2027.** Ariyə verilən mal onu alan şəxsin əlində əmanət hökmündədir.
Buna əsasən, aşağıdakı yerlər istisna olunmaqla qalan yerlərdə zamin deyil:
1. Onu saxlamaqda səhlənkarlıq edərsə;

2. Onu istifadə etdikdə həddini aşarsa;

3. Ariyə verən şəxs ariyə alan şəxsin zamin olmasını şərt edərsə və o da bu xəsarəti qəbul edərsə (hətta səhlənkarlıq və həddini aşmaqla olmasa belə);

4. Yuxarıdakı şərtlər qızıl və gümüşdən başqa mallara aid edilir. Çünki qızıl və gümüşdə ariyə alan zamin olmamağını şərt etmədikdə mütləq şəkildə zamindir;

5. Əgər yuxarıdakı yerlərin heç biri olmasa, amma mala dəyən xəsarət ariyə alan şəxsə aid edilərsə, yenə də ariyə alan şəxs zamindir. Məsələn, təsəvvür edin ki, Həsənin büllur qabı ariyə kimi Əlidədir. Heç bir səhlənkarlıq etmədən ayağı ona dəyib sınarsa, bu halda Əli zamindir. Çünki büllurun sınması Əliyə aid edilir.

**Məsələ-2028.** Ariyə verən şəxs ariyə verdiyi malı qəsb etmiş olduqda mal aradan gedərsə, ya ariyə alan şəxsin istifadə edib faydalandığı halda, ariyə alan şəxs onun qəsb olduğunu bilməsə, bu

halda ariyə verən şəxs zamindir. Buna əsasən, əgər malın sahibi qəsb edən şəxsdən onu alarsa, qəsb edən şəxs əvəzini ariyə alan şəxsdən tələb edə bilməz. Amma ariyə alan şəxs onun qəsb olmasını bilirdisə, özü zamindir. Buna əsasən, əgər malın sahibi onu qəsb edən şəxsdən alarsa, mal aradan getdiyi halda qəsb edən şəxs ariyə alan şəxsdən onun əvəzini tələb edə bilər. Əgər malın sahibi ariyə edən şəxsdən alarsa, ariyə alan şəxs ariyə verən şəxsdən onu tələb edə bilməz.

**Məsələ-2029.** Ariyə alan şəxs malın qəsb olunduğunu bildiyi zaman onu qəsb edən şəxsə qaytara bilməz və gərək sahibinə qaytarsın.

**Məsələ-2030.** Ariyə verilən mal ariyə alan şəxsin öhdəsindən o zaman düşür ki, malı onun sahibinə, vəkilinə və ya vəlisinə versin. Məsələn, əgər avtomobili istifadə etdikdən sonra maşın dayanacağında qoyarsa, bu kifayət etmir. Gərək onu dediyimiz şəxslərə qaytarsın.

## NİKAHIN HÖKMLƏRİ

**Məsələ-2031.** Nikah əqdi vasitəsilə qadın kişiyə halal olur.

**Məsələ-2032.** Nikah əqdi oxunduqdan sonra qadınla kişi arasında hər bir ləzzət və münasibətlər caizdi. Amma xas bir münasibətin zifaf gecəsi olmasına razılaşdıqda bu şərtə əməl etməlidirlər.

**Məsələ-2033.** Evlənməkdə yaş fərqi meyar deyil və əslində eybi yoxdur. Evlənməyin meyarı iman və İslam əxlaqıdır.

**Məsələ-2036.** Kişi və qadın əqdin batil olmasına xatircəm olduqda əqdi səhih şəkildə icra etməlidirlər.

**Məsələ-2037.** Vacib ehtiyata əsasən, nikah əqdi gərək şəri vəlinin (ata və atanın atası) icazəsi ilə olsun. Əgər vəli olmasa, ya səfərdə olarsa, belə ki, əlçatmaz bir şəraitdə olarsa, bu zaman onun icazəsinə ehtiyac yoxdur.

**Məsələ-2038.** Füzuli nikah əqdi sonradan olan icazə ilə səhih olur.

**Məsələ-2040.** Əgər bir şəxsin həyat yoldaşı (uşaqlıqda) süd məhrəmliyinin kamil qaydalarına riayət etməklə həyat yoldaşının anasının südünü içərsə, gərək bir-birindən ayrılsınlar, talaqa da ehtiyac yoxdur.

**Məsələ-2041.** Kişinin uşağı olmağa qüdrətinin olmaması nikahın pozulma yerlərindən deyil. Belə yerdə qadının ayrılması üçün talaq verilməsi lazımdır.

**Məsələ-2042.** Əgər nikah əqdi icra olduqdan sonra qadının bakirə olmadığı məlum olsa, əqd səhihdir və ayrılmaq istədikdə talaq oxunmalıdır.

**Məsələ-2043.** Əgər qızda kamillik sifətinin olması və ya onun eyb və nöqsanlardan sağlam olması əqdin əsnasında şərt edilsə, qız bu vəsflərlə (əqdin əsnasında) təriflənsə və ya bunlar əqddən qabaq deyilsə və əqd ona əsasən oxunsa, sonra onun əksi məlum olduqda kişinin əqdi pozmaq haqqı var. Bu halda cinsi yaxınlıq olubsa, aldadan qadının özü olduğu təqdirdə mehriyyə almaq haqqı yoxdur. Amma aldadan qadın deyilsə, başqası olubsa, qızın haqqı var ki, təyin edilmiş mehriyyəni tələb etsin. Kişi mehriyyəni qadına ödədikdə onu aldadan şəxsdən tələb edə bilər.

**Məsələ-2044.** Əgər kişi qadın üçün elçi gedib ailəli-uşaqlı olmadığını bildirsə, qız bu şərtlə onunla evlənməyə razılaşsa, əqddən sonra kişinin onu aldatması məlum olsa, əgər əqd bu şərt əsnasında oxunubsa, qadının əqdi pozmaq haqqı var.

**Məsələ-2045.** Nikahda eybləri və ağır xəstəlikləri bildirmək lazım deyil, lakin gizlədilmədikdə məlum edilə bilən eyibləri gizlətmək tədlis (əqddə aldatmaq) sayılır. Buna əsasən, əgər qarşı tərəfdən gizlətmək üçün məlum olan hər hansı bir eybi örtərsə, yaxud nikah əqdi əsnasında eybin olmaması şərt edilərsə (yəni bu eyb onda olmamaq şərtilə evlənərsə), əksi məlum olduqda qarşı tərəfin əqdi pozmaq haqqı olacaq.

**Məsələ-2046.** Əgər kişinin razılığı ilə böyük məbləğdə mehriyyə təyin edilərsə, təyin edilmiş mehriyyə onun boynundadır.

**Məsələ-2047.** Tələb zamanı verilməsi şərt edilən mehriyyəni imkan zamanı ödəniləcək mehriyyəyə dəyişmək iki tərəfin razılığı ilə ola bilər.

**Məsələ-2048.** Ərin arvada borclu olduğu və arvadın ondan tələb etdiyi mehriyyə əqd əsnasında müəyyən edilən mehriyyədir. Kişinin ölümü ilə qadının bu haqqı aradan getmir və o məbləği kişinin mirasından götürməyə haqqı var. Amma qadınla kişinin sonrakı qərarları qadına yeni bir haqq vermir və kişidən tələb edə bilməz (yaxud öldükdə onun mirasından götürə bilməz).

**Məsələ-2049.** Qadının öz ərindən nəfəqə olaraq öz ictimai şəniylə uyğun olan mənzil, geyim və yeməkdən, həmçinin normal həddə dərmanlardan başqa bir şey tələb etmək haqqı yoxdur.

**Məsələ-2050.** Baxmayaraq ki, vacib nəfəqə kişinin öhdəsinədir, kişinin izni olmadan qadın onun cibindən nəfəqə adı ilə pul götürə bilməz.

**Məsələ-2051.** Kitab əhli ilə vacib ehtiyata əsasən, daimi nikah caiz deyil.

**Məsələ-2052.** Əgər qeyri-müsəlman kişi qeyri-müsəlman qadınla evlənsə, sonra qadın İslamı qəbul edərsə, bu halda gərək qadın iddə saxlasın. Bu müddətdə kişi də müsəlman olarsa, izdivacları yerindədir. Əks halda, evlilikləri pozulur.

**Məsələ-2053.** İsmailiyyə məzhəbi ilə evlənmək xüsusi bir fəsada səbəb olmadığı təqdirdə işkalsızdır.

**Məsələ-2054.** Toy mərasimləri keçirmək, qohum və dostları dəvət etməyin işkalı yoxdur, lakin haram əməllərlə yanaşı olmamalı və şəriətlə müxalif olan əməllər müşahidə edildikdə nəhy-əz-münkər şərtləri olan halda nəhy etmək lazımdır.

## Talağın hökmləri

**Məsələ-2055.** Xanımına talaq verən şəxs ağıllı, vacib ehtiyata əsasən, həddi-büluğa çatmış olmalıdır. Gərək öz ixtiyarı ilə talaq versin. Buna əsasən, başqasının məcburiyyəti ilə talaq verərsə, talaq batildir. Həmçinin gərək talaq məqsədi olsun, buna əsasən, zarafat edərsə, talaq hesab olunmur.

**Məsələ-2056.** "Xül" talağı o talaqdır ki, qadın əri ilə yaşamağa davam etmək istəmir və yaşayışın davam etməsində günaha düşməkdən qorxur. O, öz mehriyyəsini, yaxud başqa malı ərinə bağışlayır ki, onu boşasın. Bu talaqda təkcə qadının narazı olması şərtdir, amma kişi də yaşayışın davam etməsinə narazı olarsa, bu talaq "xül" deyil, "mübarat" adlanır. Əgər narazılıq təkcə kişi tərəfindən olarsa, bu talaq nə "xül"dür, nə də "mübarat".

**Məsələ-2057.** Xül talağında qadın ərinə bir şey bağışlamalıdır, əks təqdirdə xüli talaq hesab olunmur.

**Məsələ-2058.** Talaqda ikrah kişi tərəfdən olduqda, bu talaq nə "xül"dür, nə də "mübarat", qadının ona bir şey verməsi xüli talağın hökmlərinin ona aid olması üçün kifayət etmir.

**Məsələ-2059.** Xül talağında nə qədər ki, qadın verdiyi malı ondan almayıb, kişinin qadına rücu etmək[1] haqqı yoxdur.

**Məsələ-2060.** Xül talağında qadının ərinə bağışlaması lazım olan malın müəyyən miqdarı yoxdur, az da ola bilər.

**Məsələ-2062.** Təkcə qadının öz mehriyyəsini ərinə bağışlaması və ona öz nifrətini bildirməsi, hərəc (dözülməz çətinlik) və məşəqqət səbəbinə olan talaq üçün kifayət etmir. Bu, qadının talaq tələb etmək haqqına səbəb olmur.

**Məsələ-2063.** Talağın səhiholma şərtlərindən biri onun iki adil şahid yanında icra edilməsidir. Amma şahidlərin qarşı tərəfləri (ər və arvadı) tanımaları lazım deyil, baxmayaraq ki, talağı icra edən şəxs

[1] Yəni iddə daxilində onunla ər-arvad rəftarı etməklə talağı pozmaq. (Mütərcim)

talaq verilən qadın məclisdə olmadığı təqdirdə onun adını talaq məclisində şahidlərin yanında qeyd etməlidir.

**Məsələ-2064.** Talaq icbar və ikrahsız, (yəni kişinin) iradə və ixtiyarı ilə olmalıdır, əks təqdirdə talaq batildir.

**Məsələ-2065.** (Talağın səhiholma şərtlərindən bir budur ki,) qadın talaq zamanı heyz və nifas qanından pak olmalıdır və əri bu paklıq müddətində (həmçinin heyz və nifas qanı gördüyü müddətdə) onunla cinsi yaxınlıq etməməlidir. Buna əsasən, talaq heyz və nifas zamanı, yaxud bunlardan pak olsa da, talaqdan qabaq əriylə yaxınlıq münasibətində olduqda talaq batildir.

**Məsələ-2066.** Qadının əri itdikdə, ondan əsər-əlamət və heç bir məlumat əldə edə bilmədikdə, qadın hərəc və çətinliyə düşərsə, şəriət hakiminə və ya onun vəkilinə müraciət edib öz talağını oxutdura bilər və şəriət hakimi, yaxud onun vəkili talağı icra edə bilər.

**Məsələ-2067.** Hamilə qadının talağı səhihdir.

**Məsələ-2069.** Uşaqlıq borusunu hətta həmişəlik hamilə ola bilməmələrinə səbəb olan şəkildə bağlatdıran qadınlar cinsi münasibətdən sonra evlənmək üçün (istər daimi, istər müvəqqəti) iddə saxlamalıdırlar.

## Qəsb etməyin hökmləri

**Məsələ-2071.** Əgər bir şəxs uşaqlıqda başqasına mal xəsarəti vurarsa, məsələn, binanın şüşəsini sındırarsa, zamindir. Hətta bilərəkdən də olmasa, gərək həddi-büluğa çatdıqdan sonra o xəsarəti ödəsin.

**Məsələ-2072.** Haram pul əldə edən şəxslər onları sahiblərinə qaytarmalıdır. Sahiblərini tanımadıqları təqdirdə o mallar məchulul-malik hökmündədir və vacib ehtiyata əsasən, şəriət hakiminin icazəsi ilə onların sahibləri tərəfindən fəqirə verməlidirlər.

**Məsələ-2073.** "Məzalim" termini o mallara aid edilir ki, insan onları zülmlə və ədalətsizliklə Allah bəndələrindən alıb sahiblərinə qaytarmayıb. Onun şəri hökmü budur ki, sahiblərini tanıdıqda onları sahiblərinə qaytarmalıdır, sahiblərini tanımadıqda isə onlar tərəfindən fəqirə sədəqə verməlidir. Ehtiyata əsasən, bunu şəriət hakiminin izniylə etməlidir.

**Məsələ-2074.** Yeraltı sulardan istifadə etmək məqsədiylə su idarəsinin icazəsiylə quyu qazmaq mübahdır (olar), onun qazancı da halaldır. Amma quyunu qazmaq başqaların ətrafdakı quyularının sularının qurumasına, yaxud azalmasına səbəb olarsa, bu halda o quyunun suyundan istifadə etmək qəsb hökmündədir. Buna əsasən, xəsarət ödəmək yolu ilə olsa belə, istifadə etmək üçün qonşuların razılığı əldə edilməlidir.

## Tapılan malın hökmləri (lüqətə)

**Məsələ-2075.** Əgər bir şəxs itmiş bir malı tapsa, onun sahibini axtarmalıdır. Sahibini tapmağa məyus olduqda, malın özünü, ya pulunu fəqirə verə bilər.

**Məsələ-2076.** Bir şəxsin malı başqasının ona oxşar malı ilə dəyişik düşərsə, həmin malı istifadə etmək olmaz və sahibini tapmağa məyus olduqda onun tərəfindən vacib ehtiyata əsasən, şəriət hakiminin izni ilə sədəqə verməlidir. Əlbəttə, əgər mal sahibinin onu istifadə etməsinə razı olduğunu bilərsə, yaxud həmin şəxsin bilərəkdən bunun malını öz malı əvəzinə götürdüyünü bilərsə, onu istifadə edə bilər. Lakin sonuncu dediyimizdə əgər başqasının malının qiyməti onun malından artıq olarsa, gərək qiymət fərqini sahibi tərəfindən fəqirə sədəqə versin.

**Məsələ-2077.** Yol kənarında qoyulan tikinti materiallarının üzərindən keçməyin, başqalarının əlimizə çatan dəyərsiz mallarını, həmçinin ümumi istifadə edilən ət maşınları, göyərti doğrayan və s. kimi aparatlarda əvvəlki istifadə edən şəxsin cüzi malının ondan istifadə etdiyimiz zaman malımızla qarışmasının işkalı yoxdur.

## Heyvanları şikar (ovlamaq) və zibh etməyin (başlarını kəsməyin) hökmləri

**Məsələ-2078.** Halal balıqları diri-diri yeməyin işkalı yoxdur.

**Məsələ-2079.** (Halal) balıqlarda haram olan şeylər yalnız onların qanı və ifrazatlarıdır.

**Məsələ-2080.** Krevet (xırda dəniz xərçəngi) yemək halaldır və onun təzkiyəsi (ovla halal olması) balığın təzkiyəsi kimidir.

**Məsələ-2081.** Balıq pullu olduqda, hərçənd ov edildikdən sonra pulunu töksə belə halaldır. Onun pulunun olub-olmamasını müəyyənləşdirmək mükəlləfin öz öhdəsinədir və ekspertlərin dediklərindən hasil olan xatircəmliklə də kifayətlənmək olar.

**Məsələ-2082.** Əti halal olan balığın təzkiyəsi (yemək üçün halal olması) budur ki, hərçənd balıqçının torunda ölsə belə, sudan diri tutulsun.

**Məsələ-2083.** Əti halal olan balıqların (yəni pullu balıqların) kürüsü o balıqları şəri qayda ilə təzkiyə etdikdə (sudan diri çıxartdıqda) halaldır. Amma pulsuz balıqların və suda ölən pullu balıqların kürüsü haramdır.

**Məsələ-2084.** Ovlanmış (tutulmuş) balıqların qarnından ölü halda çıxan balıqların sudan çıxartdıqdan sonra öldükləri bilinməsə, onları yeməkdən qorunmaq lazımdır.

**Məsələ-2085.** Balıq ovlamaq məqsədiylə hovuzun suyunu boşaltmaq nəticəsində balıqlar ölərsə, bu, təzkiyə deyil və o balıqlar haram olur.

**Məsələ-2086.** Balığı sudan çıxartdıqdan sonra onu zərbə ilə (ya hər hansı bir şeylə) öldürüb içalatını çıxartmağın işkalı yoxdur və onu yemək olar.

**Məsələ-2087.** Hovuza (yaxud hər hansı bir suya) elektrik cərəyanı buraxaraq balıqlar öldürülsə, onlar halal olmur. Amma öldükdən

öncə sudan çıxarılsa və bayırda ölsələr, halal olur. Ölmüş və haram olmuş balıqlar halal balıqlarla qarışdıqda, hamısı birlikdə məhdud və az olduqda, onların hamısından qorunmaq lazımdır.

**Məsələ-2088.** Suyun daxilində balıqçının torunda ölən balıqlar halaldır.

**Məsələ-2089.** Su heyvanlarından pullu balıqlar, krevet (xırda dəniz xərçəngi) və bəzi quşlar halaldır. Xərçəng, qurbağa və köpəkbalığı halal deyil.

**Məsələ-2090.** Balığın pulu yalnız mikroskop ilə də məlum edilərsə, o balıq halaldır.

**Məsələ-2091.** Pullu balıq qeyri-müsəlman vasitəsilə sudan diri çıxarılsa və sonra sudan kənarda ölərsə, halaldır.

**Məsələ-2092.** Əti haram olan balıqları yemək məqsədiylə hətta onu halal bilən şəxslərə belə satılması caiz deyil.

**Məsələ-2093.** Sədəfin daxilində olanları yemək haramdır.

**Məsələ-2094.** Quruda yaşayan heyvanlar iki sinifdir:

1. Əhli (ev heyvanları)

2. Vəhşi (çöl heyvanları)

Ev heyvanlarından dəvə, inək və qoyunun bütün növləri[1] halal, at, ulaq və qatır məkruhdur, atın məkruhluğu bir qədər azdır. Bunlardan başqaları haramdır. Məsələn, it, pişik və s. Çöl heyvanlarından ceyran, çöl inəyi, dağ keçisi, çöl ulağı halaldır. Çöl heyvanlarından yırtıcılar haramdır (Yırtıcı heyvanlarda məqsəd o heyvanlardır ki, yırtıcıdırlar, dırnaq və dişləri var, istər şir, pələng və bəbir və canavar kimi güclü olsun, istərsə də tülkü və çaqqal kimi zəif). Həmçinin dovşan hərçənd yırtıcı deyil, amma əti haram olanlardandir. Həşaratların bütün növləri haramdır. Məsələn, ilan, kərtənkələ,

---

[1] Camış inək, keçi qoyun sinfindəndir. (Mütərcim)

siçan, kirpi, oxatan kirpi, cırcırama və s. Həmçinin məsx olmuş heyvanlar, fil, meymun, ayı və s. haramdır.

**Məsələ-2095.** Qoyunu kəsdikdən sonra onun qarnından ölü quzu çıxarsa, kamil bir heyvan olarsa, belə ki, bədənində tük, ya yun bitərsə, pak və halaldır.

**Məsələ-2096.** Əti halal olan quşlar əti haram olanlardan iki yolla seçilir. Bu yollar şəriətdə o zaman halal və haramolma əlaməti sayılır ki, onların halal, ya haram olması şəriətə xüsusi olaraq bildirilməyib. Amma bəzi quşların halal, ya haram olması şəriətdə bəyan edilib. Halal və haramolma əlamətləri aşağıdakılardan ibarətdir:

1. Havada uçarkən qanad çalmağı süzməyindən çox olarsa, halal, süzməyi qanad çalmağından çox olarsa, haramdır.

2. "Çinədan"[1], "pətənək"[2] və "mahmız"ın[3] hər biri hər hansı quşda olduqda halal, heç biri olmadıqda haramdır.

Qeyd edilən hər iki əlamətlərdə su quşları digər quşlardan fərqli deyil. Deməli, uçarkən qanad çalmağı süzməsindən çox olarsa, yaxud ikinci əlamətlərdən biri onda olarsa, halaldır. Hərçənd balıq yeyən quş olsa belə, süzməyi qanad çalmağından çox olarsa, yaxud ikinci deyilən üç əlamətdən heç biri onda olmazsa, haramdır. Bunu müəyyən etmək mükəlləfin öz öhdəsinədir.

**Məsələ-2097.** Əgər heyvanı bilərəkdən qəsdən üzü qibləyə tutmadan zibh edilməsinə yəqin edilsə, o heyvan haramdır.

**Məsələ-2098.** Müsəlmanın kəsdiyi heyvanın halal olmasına hökm edilir, üzü qibləyə tutmaq hökmündə hökmünü bilmədən səhv edərsə, bu heyvanın haram olmasına səbəb olmur.

---

[1] Quşlarda, həşəratlarda və molyuskalarda qidanı toplaması üçün qida borusunun yoğun hissəsi. (Mütərcim)

[2] Quşlarda mədə. (Mütərcim)

[3] Xoruz və bəzi başqa quşların ayaqlarının arxasında sivri buynuz çıxıntısı. (Mütərcim)

**Məsələ-2099.** Heyvanı kəsdikdə üzü qibləyə tutmaqdan əlavə “bismillah” demək, bıçağın dəmir olması və kəsənin müsəlman olması da şərtdir.

**Məsələ-2100.** Heyvan kəsməkdə şəri qaydaları riayət etməklə yeni metodlardan istifadə etmək işkalsızdır.

**Məsələ-2101.** Şəri qaydada zibh edilməsi məlum olmayan toyuqlar müsəlman bazarından alındıqda halaldır.

**Məsələ-2102.** Qeyri-müsəlmanın zibhi, hətta zibhin digər şəri qaydalarına riayət etsə belə halal deyil.

**Məsələ-2103.** Heyvanı kəsən zaman Allahın adını unudarsa, işkalı yoxdur.

**Məsələ-2104.** Heyvanı kəsərkən ruh bədənindən ayrılmadan öncə onun başını tamamilə bədənindən ayırmaq haramdır, lakin əti haram olmur.

**Məsələ-2105.** Pələng və canavar kimi əti haram olan heyvanları şəri qaydada zibh etdikdə, yaxud şəri göstərişlərlə ovladıqda, onların bədənləri və bütün hissələri pak olur (lakin bu onların ətinin halal olmasına səbəb olmur).

## YEMƏK-İÇMƏYİN HÖKMLƏRİ

**Məsələ-2106.** Gecə vaxtı suyu ayaq üstə içmək məkruhdur.

**Məsələ-2107.** Siqaret çəkməyin hökmü onun zərərinin miqdarına bağlıdır. Əgər etina edilәsi zərərə səbəb olarsa və ya başqalarının əziyyətinə bais olarsa, caiz deyil.

**Məsələ-2108.** Haram yemək və içkilərdən istifadə etmək şəri baxımdan haramdır, yalnız müalicə zəruri olduqda [1] və zəruri miqdarda.

---

[1] Yəni müalicənin yolu yalnız bu olduqda. (Mütərcim)

**Məsələ-2109.** Tibbi maüş-şəir (arpa suyu) pakdır və onu içməyin işkalı yoxdur. Amma pivə adlanan arpa suyu (nəcis) və haramdır.

**Məsələ-2110.** Mayası əti haram, yaxud nəcisül-eyn heyvandan olan pendiri yemək caiz deyil. Həmçinin əgər nəcislənmiş olarsa, yemək caiz deyil.

**Məsələ-2111.** Xarici şirkətlərdə bəzən nəcisül-eyn və ya şəri zibh olmayan heyvanların hissələrindən yemək məhsulları hazırlanan aparatlarda digər yemək məhsulları da istehsal olunur[1], bu şirkətlərin həmin məhsullarını yemək caiz deyil. Amma halal məhsullar ayrı aparatlarla istehsal olunarsa, onları yeməyin işkalı yoxdur.

**Məsələ-2112.** Əti halal olan, lakin şəri zibh edilməyən heyvanların sümüklərindən hazırlanan jelatinləri o sümüklərin zahiri jelatin istehsal edilməzdən öncə paklanarsa, pak və halaldır. Amma şəri zibh olmayan əti haram olan heyvanların dərisindən hazırlanan jelatinlər nəcis və haramdır.

**Məsələ-2113.** Əti haram olan heyvanların hissələrindən hazırlanan jelatinləri yemək haramdır.

**Məsələ-2114.** Qanı yemək, hətta əti halal olan heyvanın qanı olsa belə haramdır.

**Məsələ-2115.** Əti halal olan heyvanların bəzi hissələri haram olduğu üçün onları ayırmaq lazımdır. Əgər bu hissələrdən halal hissələrlə birlikdə onların ayrılması və müəyyən edilməsi mümkün olmayacaq şəkildə bişsə,[2] o xörəyi yeməyin işkalı yoxdur.

**Məsələ-2116.** Əti haram olan heyvanın südü onun əti kimi haramdır.

**Məsələ-2117.** Qeyri-müsəlman ölkəsində müsəlman restoranında sahibi orada olan ətlərin halal olmasını bildirərsə halaldır və axtarışa

[1] Haram və halal ətlərin eyni aparatlarda hazırlanan kolbasaları kimi. (Mütərcim)

[2] Yəni həll olub aradan gedərsə. (Mütərcim)

ehtiyac yoxdur. Amma onun yalan deməsi ehtimalı olduqda gərək halal olması aydınlaşdırılsın.

**Məsələ-2118.** Yeməklərə və dərmanlara onları saxlamaq üçün vurulan spirtlərin əslində məstedici olduğu bilinmədikdə, istifadəsinin işkalı yoxdur. Əks halda, müalicə üçün zəruri olduqda onu istifadə etmək (yemək-içmək) olar, lakin vacib ehtiyata əsasən, gərək bədənlə təmasda olan yerlər paklansın.

**Məsələ-2119.** Dodaqdan ayrılan dərini yemək olmaz.

**Məsələ-2120.** "Karmin" adlanan, qanı atıcı olmayan heyvandan hazırlanan, təbii rəng kimi qida məhsullarına vurulan bir növ qırmızı rəngli maddə pakdır və onun hissəcikləri məhsulda həll olub aradan gedərsə, həmin məhsulu yeməyin işkalı yoxdur.

## Yemək-içməyin müxtəlif məsələləri

**Məsələ-2121.** Qanı atıcı olmayan heyvanların ölüsü pakdır (lakin onların bəzisi haram (ilan), bəzisi isə halaldır (pullu balıq).

**Məsələ-2122.** Yağda qızardılmış kişmiş və xurma halaldır.

**Məsələ-2123.** Arpa suyundan hazırlanan tabletlər məstedici olmadıqda halaldır.

**Məsələ-2124.** Xurmadan hazırlanan məhsullar məstedici olmadıqda halaldır.

**Məsələ-2125.** Haram yeməkləri başqasına yedirtmək, hətta qeyri-müsəlman olsa belə caiz deyil.

## İrsin hökmləri

**Məsələ-2126.** Ana qohumları - eyni anadan olan qardaş və bacı, dayı, xala və s. bərabər olaraq (kişi qadınla bərabər) irs aparırlar.

**Məsələ-2127.** Nəqliyyat vasitəsi "həbvə"[1] hesab olunmur və miras olaraq bölünür.

**Məsələ-2128.** Varisin mirasdan olan payı kamil surətdə verilməlidir. Əgər verilməzdən öncə pay əlində olan şəxs (məsələn, iki qardaşdan biri) ölərsə, gərək varisi (məsələn, ölən qardaşın oğlu) onun səhmini (misalda əmisinin öz atasından qalan payını) özünə versin. Həmin şəxs də (misalda əmisi) dünyadan getmiş olduqda, onun varisinə verməlidir. Daha yaxşıdır onlarla sülh etsin və razılıqlarını da alsın.

**Məsələ-2129.** Kişinin xanımı yerin özündən deyil, yalnız qiymətindən irs aparır, istər evin yeri olsun, istər mağazanın, yaxud bağın.

**Məsələ-2130.** Əgər şəxsin övladları yetkinlik və rəşidlik həddinə çatmadan irsin onlar arasında bölünməsini vəsiyyət edərsə, bu vəsiyyət səhih deyil.

**Məsələ-2131.** Əgər qadın ölsə və övladı da olsa, əri dörddə bir miqdarında onun malından irs aparır.

**Məsələ-2132.** Əgər kafir ölsə və bir neçə övladı da olsa, lakin onun övladlarından biri müsəlman olsa, ondan irs aparan şəxs yalnız müsəlman olan övladıdır.

**Məsələ-2133.** Əgər kişi ölsə və müxtəlif borcları da olsa, məsələn, həm başqalarına borcu, həm malının xümsü olsa, həm onun xanımı mehriyyəsini tələb edərsə, bu halda əgər onun malı bütün borclarına çatırsa, hamısını ödəmək vacibdir. Əks halda, mal borclar arasında nisbi olaraq bölünməlidir.

**Məsələ-2134.** Qadına verilməsi vacib olan mehriyyə əqddə müəyyən olan mal və məbləğdir. Təyin olunmuş məbləğin dəyəri etina ediləsi həddə fərq etdikdə və o zamanadək mehriyyə ödənilmədikdə, ehtiyata əsasən gərək fərqli miqdarda sülh etsinlər

---

[1] "Həbvə" o mala deyilir ki, heç bir minnət olmadan bağışlanır. Fiqhi termində irs bölünmədən öncə meyitin böyük oğluna çatan bir sıra mallara deyilir. Fəqihlərin çoxları meyitdən qalan Quran, üzük, qılınc və onun şəxsi libaslarını həbvə hesab edirlər.

(razılaşsınlar). Həmçinin ərlə arvad öldükdə və ərin mirası hələ də bölünmədikdə, ehtiyata əsasən razılaşmaq lazımdır.

**Məsələ-2135.** Əgər bir şəxs atasından qabaq ölsə və övladları qalsa, ölən şəxsin atası (övladların babası) dünyasını dəyişdikdə, onun övladları (nəvələr) irs aparmır.

**Məsələ-2136.** Ana tərəfindən övladlara yetişən irsin miqdarı ata tərəfindən yetişən irsin miqdarı kimidir. Yəni oğlan iki pay, qız isə bir pay irs aparır.

**Məsələ-2137.** Əgər ata və onun övladı eyni anda yol qəzası nəticəsində dünyalarını dəyişsələr, təsəvvür etməliyik ki, əvvəl onlardan biri ölüb (məsələn, ata). Onun mirası o biri ölənlə (məsələn, oğlu ilə) digər varis arasında bölünür. Sonra təsəvvür etməliyik ki, o biri şəxs əvvəl ölüb (məsələn, oğlan), mirası da digər ölənlə (məsələn, atası ilə) başqa varislər arasında bölünür. Lakin bu təsəvvürdə ikinci ölən şəxsin birinci ölən şəxsdən apardığı irs, növbəti təsəvvürdə ikinci ölən şəxsə miras olaraq qalmır. Bir-birindən apardıqları irslər yalnız digər varislər arasında bölünür.

**Məsələ-2138.** Əgər bir şəxs öldürülsə, qan vəlisi yalnız ata və anasıdır. Əgər ana qatildən qisas alınmazdan qabaq ölsə, qan vəlisi yalnız ata olur və ananın haqqı varisə keçmir, onların qisas almaqda və ya sülh edib qisas əvəzinə diyə almaqda haqları yoxdur.

**Məsələ-2139.** Əgər ata və övlad eyni zamanda dünyasını dəyişsə və onların hansının əvvəl öldüyü bilinməsə, uşağın anası olduqda atanın irsi xanımına (uşağın anasına) və övlada qalır. Övladın irsi də anaya qalır. Nəticədə bu xanım onların hər ikisinin irsini bütövlükdə aparır.

## Geyim və örtüyün hökmləri

**Məsələ-2140.** Rəng, tikiş, forma və digər cəhətlərinə görə camaatın diqqətini cəlb edən və onu geyinəni camaat arasında barmaqla tanıtdıran geyimlər "şöhrət" libası sayılır və onu geyinmək haramdır.

**Məsələ-2141.** Qadının naməhrəm qarşısında geyimi elə olmalıdır ki, həm üz (dəstəmazda yuyulan qədər) və əllər biləkdən aşağı (bəzənməmək şərti ilə) istisna olmaqla aşkar olmasın, həm də qadının bədəninin forması və gözəlliyi məlum edilməsin. Bundan əlavə onun rəngi diqqəti cəlb edən və başqalarının təhrikinə səbəb olmamalıdır.

**Məsələ-2142.** Kişinin qadın qarşısında geyimi elə olmalıdır ki, fəsada səbəb olmasın. Buna əsasən, qısaqol köynək geymək, həmçinin sürmə çəkmək fəsada səbəb olmadıqda caizdir.

**Məsələ-2143.** Əgər yol gedərkən qadınların ayaqqabısının səsi naməhrəmin diqqətini cəlb və təhrik etməzsə, həmçinin başqa fəsada səbəb olmazsa, işkalsızdır.

**Məsələ-2144.** Qadınlara dar, yaxud bədəni nümayiş etdirən paltar geymək naməhrəm baxışından, yaxud fəsada səbəb olmaqdan və ya ətrafdakıların təhrikini cəlb etməkdən qoruduğu halda işkalsızdır.

**Məsələ-2145.** Əgər qara parlaq ayaqqabı geymək naməhrəmin diqqətini cəlb edərək sahibini barmaqla göstərməyə səbəb olursa, haramdır. Paltarın da rənginin hökmü ayaqqabı ilə eynidir.

**Məsələ-2146.** Yuxarıdakı hökmdə evli və subay qadınlar arasında heç bir fərq yoxdur.

**Məsələ-2147.** Ətir və günəş kremindən istifadə etmək, naməhrəm diqqətini cəlb etmədikdə caizdir. Buna görə də onlardan istifadə edilən zaman kişilərin yanından keçmək olmaz.

**Məsələ-2148.** Nazik corabların (və qadınlara naməhrəm qarşısında geyilməsi haram olan hər bir paltarın) istehsal və alğı-satqısı qadınların onları naməhrəm qarşısında geymələri məqsədiylə olsa, haramdır.

**Məsələ-2149.** Qadın geyimləri mağazalarında işləmək qanunla zidd olmadıqda (və fəhlə ya satıcı kişilər üçün fəsada, yaxud günaha səbəb olmadıqda) caizdir.

**Məsələ-2150.** Qaşa tatu döydürmək cəmiyyətdə zinət sayılarsa, örtülməsi vacibdir. Hətta qaşların normal bəzənməsini, həmçinin nişan üzüyünü də örtmək vacibdır. Amma gözəllik üçün əməliyyat edilmiş burunu örtmək vacib deyil.

**Məsələ-2151.** Qaşları öz-özünə tökülən şəxslər, xüsusi gözəlliyi olmadan adi qaş şəklində tatu döydürsələr, yaxud qaşlarının aradan gedən hissəsini tatu ilə örtsələr, belə ki, cəmiyyət arasında zinət və bəzək sayılmasa, onu örtmək lazım deyil.

**Məsələ-2152.** Tatu döydürən zaman ona bir müddət su vurmaq olmazsa, gərək onun üçün xüsusi zaman müəyyən edilsin. Əks halda haramdır. O zaman aşağıdakılardan ibarətdir:

1. Qadınlara namaz vacib olmayan zaman. Məsələn, aylıq şəri üzrləri olduqda, ya namaz vaxtı olmadıqda, yəni namaza çox vaxt qaldıqda.
2. Namaz vacib olsa da təharət müşkülü qarşıya çıxmadıqda. Məsələn, dəstəmaz aldıqdan sonra tatu döydürərsə, belə ki, sonrakı namazlar üçün dəstəmaza və ya qüsla ehtiyac olduqda, artıq onun zərəri getdiyi üçün dəstəmaz almaq, ya qüsl vermək mümkün olsun.

**Məsələ-2153.** İslam ziddinə olan mədəniyyətləri yayan hər növ geyimləri geyinmək haramdır.

**Məsələ-2154.** Üzərində xarici hərflər yazılmış və şəkillər çəkilmiş paltarları geyməyin öz-özünə eybi yoxdur. Amma bu, İslam ziddinə olan mədəniyyətləri yaymaq sayılırsa, haramdır. Bunu təyin etmək camaatın öhdəsindədir.

**Məsələ-2155.** Paltarın qeyri-islami ölkədən gəlməsi onun geyiminin haram olması üçün dəlil deyil.

**Məsələ-2156.** Qalstuk və s. kimi qeyri-islami geyimlərdən istifadə etmək qərb və İslam ziddinə olan mədəniyyətləri yaymağa səbəb olarsa, haramdır.

**Məsələ-2157.** Üzərində şərab reklamı həkk edilmiş paltarları geymək haramdır.

**Məsələ-2158.** İslam ziddinə olan və qərb mədəniyyətlərini yayan geyimlərin alğı-satqısı haramdır.

**Məsələ-2159.** Belə paltarları ölkəyə gətirmək, alıb-satmaq küfrü və İslam ziddinə olan mədəniyyətləri yaymaq da olmasa, gərək İslam dövlətinə iqtisadi zərər olmasın.

## Baxmağın hökmləri

**Məsələ-2160.** Naməhrəm kişinin müsəlman qadına baxması, təkcə üzünə (dəstəmazda yuyulan miqdarda) və əllərinə biləkdən aşağı cinsi ləzzət məqsədi olmadan və bu yerlər bəzəksiz olduqda caizdir. Həmçinin qeyri-müsəlman qadınlara təkcə adi halda örtülməyən bədən üzvlərinə cinsi ləzzət məqsədi olmadan baxmaq olar.

**Məsələ-2161.** Kişinin həyat yoldaşından başqa qadına baxması istər onun görüntüsünə (şəkil, canlı yayım və ya lentə alınmış olsun), istərsə də özünə, əgər cinsi ləzzət və şəhvət məqsədiylə olarsa, haramdır. Hətta bunların haqqında cinsi ləzzətlə yanaşı fikirlər etməsi də haramdır.

**Məsələ-2162.** Övrətlərə baxmaq mütləq şəkildə haramdır. İstər ləzzət qəsdi ilə olsun, istər bu məqsədlə olmasın.

**Məsələ-2163.** Canlı yayımda qadını tanımadıqda vacib ehtiyata əsasən, tanıdıqda isə fətvaya əsasən, baxmağın caiz və haram olmasına riayət etmək lazımdır.

**Məsələ-2164.** Cinsi ləzzət olmayıb günaha düşmək ehtimalı çox olduqda, bu da cinsi ləzzətlə baxmaq hökmündədir. Məsələn, onun ilk baxışının sonradan haram baxışa çevrilməyindən və ya başqa günahlara səbəb olmasından qorxur.

**Məsələ-2165.** Kişilərin qadınlara baxması haqqında olan bütün hökmləri, qadınların kişilərə baxmağına da aiddir.

**Məsələ-2166.** Kişilərin adi halda örtmədiyi yerlərə baxmağın işkalı yoxdur. Məsələn, boyun, boğaz, bilək və topuq kimi. Qeyd edək ki,

bu yerlərə ləzzət məqsədi ilə, ya günaha düşmək qorxusu olduqda baxmaq olmaz.

**Məsələ-2167.** Şəhvəti təhrik edən əxlaqsız kitab və şerləri oxumaq haramdır.

**Məsələ-2168.** Şəhvəti təhrik edən və yoldan çıxmağa səbəb olan filmlərin alğı-satqısı və ya haram musiqiləri olan filmlərin alveri, həmçinin bunları istehsal etmək, yaxud icarəyə vermək, habelə bunları yayımlamaq üçün olan aparatların bu məqsədlə olan müamiləsi haramdır.

**Məsələ-2169.** Baxmağın hökmündə evli və subay arasında heç bir fərq yoxdur.

**Məsələ-2170.** Kişinin naməhrəm qadınla əl görüşməsi və bədən təmasında olması, hətta o qadın müsəlman olmasa belə haramdır.

**Məsələ-2171.** Qoca qadınlar da gərək hicaba riayət etsinlər. Kişilər də onlara baxmağın hökmünü riayət etməlidirlər.

**Məsələ-2172.** Çılpaq heykəllərə baxmaq təhrikedici olmayıb, bundan əlavə günaha düşmək qorxusu olmadıqda caizdir (bu şərtlə ki, xüsusi bir şəxsə aid olmasın).

**Məsələ-2173.** Ailəvi şəkilləri, yaxud qadın toylarında qadınların hicabsız çəkdirdikləri şəkilləri naməhrəm fotoqraflar vasitəsilə çap etmək və çıxarmaq onları tanımadıqda, cinsi ləzzət və günaha düşmək qorxusu olmadan işkalsızdır.

**Məsələ-2174.** Cinsi əməlləri nümayiş etdirən filmləri görmək şəhvət təhriki ilə yanaşı olduğu üçün haramdır.

**Məsələ-2175.** Bəzi əxlaqsız filmlərin bəzi yerlərinin kəsilərək islah edilməsi və montaj, onlara nəzarət etmək o zaman caizdir ki, həmin şəxsin öz şəhvətinin təhrik olmasına və ya günaha düşməsinə səbəb olmasın.

**Məsələ-2176.** Qadınların kişilərin güləşinə baxması idman meydançası, ya canlı yayımda olarsa, haramdır. Hətta canlı yayım olmadıqda

ləzzət məqsədiylə, yaxud fəsada və günaha düşmək qorxusu olduqda haramdır.

**Məsələ-2177.** Əgər qadın güləşçini tanıyarsa, hətta canlı yayım olmasa, ləzzət məqsədi olmasa belə ona baxa bilməz.

## Həkim (və müalicə) məsələləri

**Məsələ-2178.** Hamiləliyin qarşısını almaq o zaman caizdir ki, aşağıdakı şərtlərlə olsun:

1. Kişiyə və ya qadına ciddi zərər qorxusu olmasın.
2. Naməhrəmin təması və baxmağına bağlı olmasın.
3. Qadının bətnində nütfə bağlandıqdan sonra onun aradan getməsinə səbəb olmasın.

4. “Məntiqli” bir məqsəd olsun.

5. Yuxarıda dediyimiz şərtlərdən əlavə qadın bu işi görərsə, ərinin icazəsi olsun.

**Məsələ-2179.** Qadının həyat yoldaşından başqası şəri nöqteyi nəzərdən qeyri-zəruri hallarda xanımın övrətinə baxa bilmədiyi üçün, hamiləliyin qarşısını almağa görə övrətə baxmaq yolu ilə bu işi görmək caiz deyil.

**Məsələ-2180.** Hamiləliyin qarşısını almaqda deyilən zərərin meyarı ciddi zərərin olmamasıdır. Buna görə də əgər zərər etina ediləsi həddə olmazsa, işkalı yoxdur.

**Məsələ-2181.** Uşaqlıq borusunu götürmək, ya hamiləliyin qarşısını almaq müalicə sayılmadığı üçün haram baxış və təmasa səbəb olarsa, hətta qadın və kişi hər ikisi buna razı olsalar belə və bunun onlara ciddi zərəri olmasa belə, həmin yolla hamiləliyin qarşısını almaq haram olacaq. Amma xəstəliyi müalicə etmək, yaxud ciddi xəstəliyin qarşısını almaq üçün bu iş (baxmaq və təmasda olmaq) zəruri olarsa, işkalı olmayacaq.

**Məsələ-2182.** Daimi şəkildə hamiləliyin qarşısını almaq üçün məntiqli bir məqsəd olmalıdır. Məsələn, xəstə uşağın dünyaya gəlməsinin qarşısını almaq üçün.

**Məsələ-2183.** Ərin haqqı yoxdur ki, xanımını hamiləliyin qarşısını almağa məcbur etsin.

**Məsələ-2184.** Kişinin borusunu bağlamaq qadının icazəsinə bağlı deyil.

**Məsələ-2185.** Əgər hamiləlik ananın həyatına ciddi zərər törədərsə, ixtiyarlı şəkildə hamilə olmaq caiz deyil.

## Uşaq saldırmaq (abort etmək)

**Məsələ-2186.** Nütfə bətndə qərar tutduqdan sonra onu aradan aparmaq, həmçinin uşaq saldırmaq hər hansı mərhələdə olursa-olsun caiz deyil.

**Məsələ-2187.** Uşağı ana bətnində ruh daxil olduqdan qabaq saldırmaq, (uşağın naqis olduğu bilindikdə) naqis uşağı saxlamaq valideyn üçün qeyri-adi şiddətli məşəqqətə və dözümsüz çətinliyə səbəb olarsa və ya ananın ölüm qorxusu olarsa, caizdir. Amma ruh daxil olduqdan sonra mütləq şəkildə onu saldırmaq haramdır. Lakin hamiləliyin davam etməsi ana və uşağın hər ikisinin həyatını təhlükəyə salarsa, uşağın həyatını xilas etmək heç cür mümkün olmazsa və ananın xilas olması uşağı saldırmağa bağlı olarsa, bu zaman işkalı yoxdur.

**Məsələ-2188.** Uşaq saldırmaq hətta zinadan dünyaya gəlmiş olsa belə haramdır.

**Məsələ-2189.** Maddi və iqtisadi problemlərlə əlaqədar uşaq saldırmaq caiz deyil.

**Məsələ-2190.** Əgər nütfənin, ya uşağın naqis dünyaya gəlməsinə xatircəm olarsa, hətta ruh daxil olmadan öncə də onu saldırmaq haramdır. Bu məsələdə valideyn üçün qeyri-adi şiddətli məşəqqətə və dözümsüz çətinliyə səbəb olarsa və ananın canı təhlükədə olarsa, caizdir.

**Məsələ-2191.** Uşaq saldırmağın qanbahasının məbləği aşağıdakılardır:

1. Nütfə bətndə qərar tutduqdan sonra 20 qızıl dinar.
2. Ələqə (laxtalanmış qan) olduqda, 40 qızıl dinar.
3. Muğzə (çeynənmiş ət) 60 qızıl dinar.
4. Ətsiz sümük 80 qızıl dinar.
5. Sümüyü ət örtdükdə 100 qızıl dinar.

**Məsələ-2192.** Əgər uşaq saldırmaq şəri icazə ilə olarsa (yəni şəriət icazə verən yerlərdən olarsa), vacib ehtiyata əsasən, diyə ödənilməlidir.

**Məsələ-2193.** Diyə ödəməklə bu haram əməlin günahı yuyulmur. Bu onun dünyəvi cəriməsidir və axirət əzabı da vardır.

**Məsələ-2194.** Uşağı salan şəxsə diyə vacib olur. Məsələn, əgər həkim iynə vurmaqla uşağı salırsa, qadının boynunda diyə yoxdur. Amma qadın özü-özünə iynə vurarsa və ya dərman içərsə, yaxud əri qadının xəbəri olmadan ona bir şey yedirərsə və ya ona zərbə vurmaqla uşaq düşərsə, bu zaman diyə vasitəsiz və bir başa bu işə səbəb olanın boynuna gələcəkdir ki, uşağın varislərinə ödənilməlidir. Buna əsasən, uşağı həkim salarsa, uşağın ata-anasına, ana salarsa uşağın atasına, ata salarsa, uşağın anasına ödəyəcəkdir.

## Süni mayalanma

**Məsələ-2195.** Süni mayalanmanın öz-özlüyündə işkalı yoxdur. Amma bu işin müqəddiməsi təmas və ya haram baxışa səbəb olarsa, yaxud ərin icazəsi olmazsa haramdır.

**Məsələ-2196.** Həkimin müxalif cinsdən olması övrətə baxmağın caiz olmasına səbəb olmur.

**Məsələ-2197.** Süni mayalanma hər növlə (istər bətndən çöldə və ya bətnin daxilində, istər ərin nütfəsi ilə, istərsə də başqasının nütfəsi ilə) olursa-olsun, istər öz xanımının toxumundan, istərsə də başqasının toxumundan olsun, uşağın başqaları ilə nisbəti aşağıda deyilənlər əsasında qalacaqdır:

Toxum sahibi ana, sperma sahibi ata hesab olunur. Bətn sahibi (qadın) özü əgər toxum sahibi deyilsə, gərək ehtiyat etsin, yəni özünü uşağa nə məhrəm hesab etsin, nə də onunla evlənsin. Buna əsasən, uşağın yanında (uşaq oğlan olarsa, həddi-büluğdan sonra) kamil hicaba riayət etməlidir. Əgər bətn sahibi sperma sahibinin həyat yoldaşı olarsa və ya əvvəllər onun həyat yoldaşı olubsa, uşaq oğlan olduqda ona məhrəmdir.

**Məsələ-2198.** Bətn sahibi toxum sahibidirsə, həmin zaman bu qadının əri (sperma sahibi deyilsə) əgər qabaqcadan bu qadınla şəri yolla yaxınlıq edibsə və ya sonradan onunla həyat qurarsa, uşağa (qıza) məhrəm olacaq. Həmin qız uşağı o kişinin qızlığı hökmündə olacaq. Həmçinin əgər körpə onun bətnində olduğuna görə bətn sahibinin sinəsində süd yaranarsa və riza (süd vermək) hökmləri əsasında körpəyə süd verərsə, onun süd anası sayılır.

## Cinsiyyət dəyişdirilməsi

**Məsələ-2199.** İnsanın cinsi həqiqətini aşkar və məlum etmək üçün cinsiyyətini dəyişdirməyinin iradı yoxdur. Amma (haram toxunmaq və baxmaq kimi) haram müqəddimələrlə olsa, ya fəsada səbəb olsa, olmaz. Məsələn, cinsiyyəti bilinməyən (oğlan və qızlığı məlum edilməyən) şəxsi cərrahiyyə əməliyyatı ilə qadın və ya kişiyə çevirmək caizdir. Bu şərtlə ki, onun müqəddiməsi haram olmasın.

**İzah:** Əgər cinsiyyət problemini həll etməmək çoxlu çətinliyə səbəb olsa, ya xəstəlik qorxusu olarsa və ya bədənə zərər edərsə, bu zaman cinsiyyəti dəyişdirmək haram toxunmağa və baxışa da səbəb olarsa (həkim vasitəsilə), bunun eybi yoxdur. Əks halda haramdır.

## Meyiti yarmaq

**Məsələ-2200.** Qeyri-müsəlman meyitini yarmaq caizdir. Qeyri-müsəlman meyiti olmadıqda bir neçə müsəlman meyitini yarmaq caizdir:
1. Başqasının canını xilas etmək yalnız bu yol ilə mümkün olarsa.
2. Cəmiyyətin ehtiyacı olduğu yeni tibbi mətləblərin kəşf edilməsi buna bağlı olduqda.

3. Təhlükəli xəstəliklərin qarşısını almaq üçün bir sıra məlumatları əldə etmək buna bağlı olduqda.

4. Şübhəli ölümün səbəbini tapmaq buna bağlı olduqda.

**Məsələ-2201.** Dəfndən qabaq platini (və digər qiymətli əşyanı) müsəlman meyitinin bədənindən yarmaqla çıxarmaq caizdir.

**Məsələ-2202.** Ana bətnindən naqis halda düşmüş (və ya salınmış) müsəlman uşağının meyitini yarmaq müsəlman meyiti yarmaq hökmündədir.

**Məsələ-2203.** Əgər müsəlman qəbirlərini açmağa ehtiyac olarsa (məsələn, tibbi araşdırmalarda onların sümüyünə ehtiyac olarsa və bundan əlavə qeyri müsəlman cəsədi ələ gətirmək də mümkün olmazsa), bu iş caizdir.

**Məsələ-2204.** Beyin ölümü ölüm hökmündə deyil.

## Üzv peyvəndi

**Məsələ-2205.** Üzv peyvəndinin caiz olması üçün aşağıdakı ümumi şərtlərə riayət olunmalıdır:

1. Hədiyyə verən, ya alan şəxsin bədəninə ciddi zərər dəyməməlidir.
2. Haram toxunmaq və ya baxışlara, yaxud fəsada səbəb olmamalıdır. Amma əgər bir şəxsin canını xilas etmək ona bağlı olarsa və ya müalicəsi zəruri olarsa, bu zaman işkalı yoxdur.

**Məsələ-2206.** Beyin ölümünə düçar olan şəxsin orqanlarını başqasına köçürmək üçün yuxarıdakı ümumi şərtlərdən əlavə aşağıdakı şərtlərə də riayət olunmalıdır:

1. Orqan sahibinin ölümünün tezləşməsinə səbəb olmamalıdır.
2. Orqan sahibinin hadisədən qabaqkı izni ilə olmalıdır. Amma bir müsəlmanın canını xilas etmək buna bağlı olarsa, bu halda iznə də ehtiyac yoxdur.

**Məsələ-2207.** Əgər orqan köçürülmək beyin ölümünə mübtəla olan şəxsin həqiqi ölümünü tezləşdirərsə, hətta başqasının canını xilas etmək buna bağlı olsa belə haramdır.

**Məsələ-2208.** Orqan köçürülmək gərək ya meyitin diri vaxtında olan icazəsi ilə, ya öldükdən sonra onun vəlilərinin icazəsi ilə olsun. Əlbəttə, əgər müsəlmanın canının xilas olması buna bağlı olarsa, (izn imkanı olmadıqda da, yuxarıdakı şərtlərlə) işkalı yoxdur.

**Məsələ-2209.** Gərək üzv peyvəndi xalq arasında meyiti doğramaq və ya ona hörmətsizlik sayılmasın. Amma başqa bir müsəlmanın canının qorunması ancaq bu yolla mümkün olarsa, işkalı yoxdur.

**Məsələ-2210.** Əgər müsəlman meyitin bədənindən orqan götürmək onun sağ vaxtı verdiyi icazəsi ilə olarsa, diyəsi yoxdur. Əks halda diyə ödənilməlidir.

**Məsələ-2211.** Cinsiyyət üzvü köçürülməsinin hökmü adi üzvlər hökmündədir.

**Məsələ-2212.** Başqasının cinsiyyət üzvünü digərinə köçürmək, köçürmədən və sağaldıqdan sonra ikinci şəxsin bədən üzvündən sayılarsa, təharət və nəcasət baxımından işkalsızdır. Həmçinin uşağın ikinci şəxsə aid olması baxımından da müşkül yoxdur.

## Xətnə (sünnət etdirmək)

**Məsələ-2213.** Oğlan uşağını sünnət etdirmək vacibdir. Həcc və ümrədə təvafin səhiholma şərtlərindəndir. Əgər uşaq həddi-büluğ yaşına çatanadək sünnət edilməzsə, artıq onun özünə vacib olur.

**Məsələ-2214.** Oğlan uşaqlarını sünnət etdirmək o zaman vacibdir ki, kəsilməsi vacib olan miqdar dəri, dəllək kəsən yerin üzərini örtmüş olsun.

## Tibbi təlimlər

**Məsələ-2215.** Haram baxışlarla, ya təmaslarla yanaşı olan tibbi müayinələr və ya tibb təlimləri aşağıdakı şərtlərlə caizdir:

1. Başqa çıxış yolu olmadıqda.

2. Tələbə təlim aldığı zaman xatircəm olmalıdır ki, belə xəstəliyə və ya buna oxşar xəstəliklərə düçar olan xəstələr ona müraciət edəcəkdir. Həmçinin xatircəm olmalıdır ki, xəstələri müalicə etmək qüvvəsi bu məlumatların təliminə bağlıdır.

3. İmkan daxilində naməhrəmə baxmaq hökmlərinə riayət olunmalıdır.

**Məsələ-2216.** Qadın doğum zamanı gərək həkimlər baxış və toxunmaqda zərurət miqdarı ilə kifayətlənsinlər. Qadın oyaqdırsa və özünü örtməyə qadirdirsə, imkan daxilində özünü örtməlidir, ya başqasından onun üstünü örtməsini tələb etməlidir.

**Məsələ-2217.** Kosmetik cərrahiyyə əməliyyatı müalicə hesab olunmur. Bu iş üçün naməhrəm həkimin baxması və toxunması haramdır.

**Məsələ-2218.** Qadının başqa bir qadının övrətinə baxması haramdır. Kişinin də kişi övrətinə baxması haramdır. Amma zəruri hallarda işkalı yoxdur.

**Məsələ-2219.** Müalicə üçün istimna etmək (masturbasiya) yalnız o zaman caizdir ki, müalicə yalnız buna bağlı olsun, bundan əlavə həyat yoldaşı vasitəsilə bu iş mümkün olmasın.

## Təlim və təhsilin hökmləri

**Məsələ-2220.** Ehtiyacı olan şəriət məsələlərini öyrənməmək vacibləri tərk etməyə və haramlara mürtəkib olmağa səbəb olarsa, (öyrənməyən) şəxs günahkardır.

**Məsələ-2221.** Şagirdlər, tələbələr və müxtəlif elm təhsil alanları nə qədər ki, məktəb və universitetin xidmətlərindən bəhrələnirlər, gərək onların dərs proqramlarına tabe olsunlar. Əks halda o məktəblərin təqaüd, kömək və s. xidmətlərindən istifadə etmək haramdır.

**Məsələ-2222.** Kişilərin və İslam hicabına riayət etməyən qadınların bir yerdə oxuduqları universitetlərə daxil olmaq günaha düşmək qorxusu və ya haram baxışlara səbəb olarsa, gərək o universitetə getməkdən çəkinsinlər. Buna əsasən, əslində bu universitetlərə getmək öz-özlüyündə işkalsızdır. Qadınlara və qızlara vacibdir ki, hicaba riayət etsinlər. Kişilərə də haram baxışlardan çəkinmələri vacibdir. Fitnə-fəsada səbəb olan məclislərdən uzaq olsunlar. Sinif yoldaşları ilə (qız və oğlan) zarafat etmək də yuxarıdakı hökmdədir.

**Məsələ-2223.** Qadınların kişilərdən elm öyrənməsi örtük və baxışlara riayət olunduğu, həmçinin günah qorxusu olmadığı halda caizdir.

**Məsələ-2224.** Bəzi batil əqidələr tədris edilən məktəblərə uşaqları göndərmək, onların dini inanc və əqidələrinin haqqında qorxu olmadığı, batilin yayılması sayılmadığı və onların batil mətləbləri öyrənməkdən çəkinə bildikləri halda işkalı yoxdur, əks halda caiz deyil.

**Məsələ-2225.** Dini inanc və əqidələrində büdrəmədiklərinə, haqq yoldan azmadıqlarına xatircəm olan şəxslərin fəlsəfə elmini öyrənməsi işkalsızdır. Hətta bəzi yerlərdə vacibdir.

**Məsələ-2226.** Azdırıcı kitabların alğı-satqısı, mütaliəsi və onları saxlamaq haramdır. Amma onların şübhələrinə və əqidələrinə cavab vermək üçün olarsa işkalsızdır. Belə ki, bu işə elmi qüdrəti olsun və haqq yoldan azmayacağına xatircəm olsun.

## Çap, müəlliflik və incəsənət (işlərinin) haqları

**Məsələ-2227.** Kitab və məqalənin yenidən çap olmaq hökmü ölkə daxilində olub müqavilə əsasında olarsa, birinci nüsxəni təhvil verərkən müqaviləyə əməl edilməsi vacibdir. Vacib ehtiyata əsasən, müqavilə olmadıqda nəşriyyatın, ya müəllifin haqqı riayət olunub onlardan icazə alınsın. Əgər ölkə xaricində çap edilirsə, həmin ölkəylə xarici ölkə arasındakı müqaviləyə bağlıdır.

**Məsələ-2228.** Disk və kasetlərin hökmü kitab və məqalə hökmündədir.

**Məsələ-2229.** Əgər müəllif öz müəlliflik haqqını mətbəəyə satarsa, başqaları vasitəsilə yenidən çapa buraxılması (ölkə daxilində və müqavilə olmadıqda) vacib ehtiyata əsasən, müəllifə deyil, həmin mətbəəyə aiddir (yəni gərək mətbəədən icazə alınsın).

**Məsələ-2230.** Əgər müəllif tərcüməçi, ya peşəkar müqavilə əsasında birinci çapı təhvil vermək üçün sonrakı çaplarda müəyyən məbləği almağı şərt edərsə, şərtə əməl etməsi vacibdir. Əgər şərt etməzsə və eyni zamanda sonrakı çaplar üçün mətbəənin icazəsinə aid olan bir şərt edilməyibsə, vacib ehtiyata əsasən, müəllifdən icazə alınmalıdır.

**Məsələ-2231.** İcazə almaq üçün müəllifə (və ya müəlliflik hüququnu tam almış mətbəəyə) əl çatmadıqda bu haqda onun vəkilinə, ya şəri vəlisinə, müəllif öldüyü təqdirdə varislərinə müraciət olunmalıdır.

**Məsələ-2232.** Başqalarının yazdıqlarının bəzi səhifələrindən kserokopiya və ofset etmək də yenidən çap etmək hökmündədir.

**Məsələ-2233.** Bir şəxsə kitab, ya kaset sahibinin icazəsi olmadan onun kaset, ya kitabından dublikat etmək caiz deyil. İcazəsiz olaraq bu işi görərsə, gərək onun məzmununu pozsun və ya ondan istifadə etməsin. Pozduğu halda onun sahibinə xəbər vermək lazım deyil.

# MƏZHƏBİ VƏ MİLLİ MÜNASİBƏTLƏRİ DİRÇƏLTMƏK

## Şəri əzadarlıq

**Məsələ-2234.** Əzadarlıq və bayram mərasimlərində aşağıdakılara riayət olunmalıdır, əks halda haram olacaq.

1. Baş yarmaq kimi dinin zəiflənməsinə və din düşmənlərinin sui-istifadəsinə səbəb olan işlərdən hətta gizli olsa belə çəkinmək lazımdır.
2. Bədənə ciddi zərər törədilməməlidir.
3. Yalan danışmaqdan, imamlara (ə) və din dahilərinə nalayiq nisbətlər verməkdən, yalan rövzələr oxumaqdan çəkinmək lazımdır. (Rövzə oxuyarkən) zəbani-hal etmək, rövzə deyənin öz təhlili ilə olarsa və onun səhv olması bilinməzsə, eybi yoxdur.
4. Başqalarının əziyyətinə və onların zəhmətə düşməsinə səbəb olmasın.
5. Haram musiqilərlə, ya ləhv məclisləri ilə uyğun oxumaqla yanaşı və ya şəhvəti təhrik edən olmasın.
6. Əzadarlıq, ya şadlıq haram işlərlə yanaşı olmasın. Məsələn, namaz qılanlara mane törətməsin.
7. Qanunla müxalif əməl edilməsin.

**Məsələ-2235.** Şəbih mərasimləri yalanla yanaşı, fəsada, günaha, dinin zəiflənməsinə səbəb olmazsa, işkalı yoxdur. Amma onun yerinə moizə, nəsihət və İmam Hüseynin (ə) müsibətindən deyilməsi daha yaxşıdır.

**Məsələ-2236.** Baxmayaraq ki, münasib zamanlarda dini mərasimləri bərpa etmək təkidli müstəhəblərdəndir, amma bu mərasimi keçirənlərin qonşuları zəhmətə salmamaları vacibdir.

**Məsələ-2237.** Əzadarlığa verilən mal və hədiyyələrin xərclənib istifadə edilməsi üçün heyət və hüseyniyyənin məsul şəxslərinə kamil ixtiyar verilibsə, bu ixtiyar əsasında xərclənəcək. Amma xərclənmək yeri müəyyən olarsa (məsələn, çay və rövzəxan xərcləri kimi), gərək

öz yerində xərclənsin. Əgər bu yerlərə aid olan hədiyyələrdən artıq qalarsa və məsul şəxslərin onu xərcləməkdə kamil ixtiyarı olmazsa, hədiyyə verən şəxslərə əl çatdıqda onlardan icazə və razılıq almaq lazımdır. Onlara əl çatmazsa, gərək onu sədəqə versinlər. Əlbəttə ki, əgər hədiyyə sahiblərinin xüsusi bir yerə xərclənməsinə razı olduqlarına yəqin etsələr, gərək həmin yerdə istifadə edilsin.

## Dini və milli bayramlar

**Məsələ-2238.** Qardaşlıq əqdinin oxunması, baxmayaraq ki, Qədir-Xum bayramında daha yaxşı və daha ehtiyata yaxındır, başqa günlərdə də oxuna bilər.

**Məsələ-2239.** Qardaşlıq əqdinin icra edilməsində xüsusi siğə (cümlə) lazım deyil.

**Məsələ-2240.** Novruz bayramı haqqında etibarlı bir hədis yoxdur. Amma insanların bir-biri ilə əlaqə yaratması, şadlıq etmələrinin eybi yoxdur və bu bayramda sileyi-rəhm (qan qohumları ilə əlaqə) olduğu üçün yaxşıdır.

**Məsələ-2241.** Novruz bayramında nəql edilmiş əməllər və zikrlər gərək onun savablarına yetişmək ümidi niyyəti ilə yerinə yetirilsin. Çünki bu haqda etibarlı rəvayət yoxdur.

**Məsələ-2242.** Şərab məclisində olmaq haramdır.

**Məsələ-2243.** Haram musiqi və ya qadın, həmçinin qeybət məclislərində iki şərtlə olmaq caizdir:

1. Haram musiqiyə qulaq asmamaqla və başqa harama səbəb olmasın.
2. O məclisdə olmaq onu təsdiq etmək sayılmasın.

**Məsələ-2244.** Bu məclislərin hər birində əmr-be-məruf və nəhy-əz-münkər şəraitinə malik olsalar, hətta məclisi tərk etməklə olsa belə, nəhy-əz-münkər vacibdir.

# Mündəricat


MÜQƏDDİMƏ ... 3
TƏQLİDİN HÖKMLƏRİ ... 5
TƏQLİDİN QİSİMLƏRİ ... 7
VİLAYƏTİ-FƏQİH VƏ RƏHBƏRLİK ... 15
TƏHARƏTİN HÖKMLƏRİ ... 19
NƏCASƏT ... 25
VASVASILIQ VƏ ONUN MÜALİCƏSİ ... 31
PAKEDİCİLƏR (MÜTƏHHİRAT) ... 33
QÜSLÜN HÖKMLƏRİ ... 52
MEYİTİN HÖKMLƏRİ Məssi-meyit qüslü ... 61
TƏYƏMMÜMÜN HÖKMLƏRİ ... 69
VACİB NAMAZLAR ... 75
YÖVMİYYƏ (GÜNDƏLİK) NAMAZLARI ... 93
NAMAZIN VACİBLƏRİ ... 99
NAMAZIN TƏQİBATI (NAMAZIN ARDINCA EDİLƏN MÜSTƏHƏB ƏMƏLLƏR) ... 124
NAMAZDA ŞƏKLƏR (ŞƏKKİYAT) ... 131
CÜMƏ NAMAZI ... 134
Cümə namazının şərtləri ... 136
Cümə namazının vaxtı ... 137
CAMAAT NAMAZI ... 156
ORUCUN HÖKMLƏRİ ... 163
XÜMSÜN HÖKMLƏRİ ... 200
CİHADIN HÖKMLƏRİ ... 227

ƏMR-BE-MƏRUF VƏ NƏHY-ƏZ-MÜNKƏR ............................... 229
ALVERİN HÖKMLƏRİ ............................... 238
Qumar ............................... 304
Şans biletləri ............................... 307
Ğəşş ............................... 308
Ğina ............................... 314
Rəqs ............................... 328
Riba ............................... 331
Alverin növləri ............................... 342
Şüfə haqqı ............................... 348
Şüfə haqqının şərtləri ............................... 348
İxtiyarlar (əqdpozma ixtiyarları) ............................... 352
Sülhün hökmləri ............................... 363
İcarənin hökmləri ............................... 365
İcarəni pozmağın caizolma yerləri ............................... 369
İcarənin batilolma yerləri ............................... 371
Şirkətin hökmləri ............................... 373
Şərikliyin hökmləri ............................... 378
Rəhnin (girovun) hökmləri ............................... 379
Vəkalətin hökmləri ............................... 389
Vəqfin hökmləri ............................... 393
Sədəqənin hökmləri ............................... 407
Vəsiyyətin hökmləri ............................... 409
NƏZİR, AND VƏ ƏHDİN HÖKMLƏRİ ............................... 421
Nəzirin hökmləri ............................... 421
Nəzirin qisimləri ............................... 423

**Andın hökmləri ... 426**
**Əhdin hökmləri ... 427**
**Müzaribənin hökmləri ... 427**
**Mənfəətin şərtləri ... 429**
**Ticarətdə cüalə ... 438**
**Borcun hökmləri ... 439**
**Vədiənin (əmanətin) hökmləri ... 447**
**Ariyənin hökmləri ... 453**
**NİKAHIN HÖKMLƏRİ ... 457**
**Talağın hökmləri ... 460**
**YEMƏK-İÇMƏYİN HÖKMLƏRİ ... 466**
**İrsin hökmləri ... 468**
**Geyim və örtüyün hökmləri ... 470**
**Baxmağın hökmləri ... 473**
**Həkim (və müalicə) məsələləri ... 475**
**Uşaq saldırmaq (abort etmək) ... 476**
**Süni mayalanma ... 477**
**Cinsiyyət dəyişdirilməsi ... 478**
**Meyiti yarmaq ... 479**
**Üzv peyvəndi ... 479**
**Xətnə (sünnət etdirmək) ... 481**
**Tibbi təlimlər ... 481**
**Təlim və təhsilin hökmləri ... 482**
**Çap, müəlliflik və incəsənət (işlərinin) haqları ... 483**
**MƏZHƏBİ MÜNASİBƏTLƏRİ DİRÇƏLTMƏK ... 484**